THOMAS HERRMANN

MÜLKİ PROSESDƏ TƏTBİQ EDİLƏCƏK HÜQUQUN TAPILMASI

Azərbaycan qanunvericiliyi: kazusların köməyi ilə mülki işlər üzrə hakimlərin yeni iş texnikasına giriş

«Hüquq ədəbiyyatı» nəşriyyatı
Bakı – 2012

HAQQIMIZDA

Bizim qurum

Davamlı inkişafa yardım məqsədi ilə qlobal səviyyədə beynəlxalq əməkdaşlığı həyata keçirən bir federal qurum kimi Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) Almaniya Federal Hökumətinin inkişaf etməkdə olan ölkələrlə bağlı siyasətinin həyata keçirilməsində ona dəstək verir. O, qloballaşmış dünyada siyasi, iqtisadi, ekoloji və sosial inkişafa nail olmaq üçün həll variantları təklif edir və mürəkkəb islahatları, transformasiya proseslərini (çətin şərtlər daxilində də) dəstəkləyir. Qurumun məqsədi insanların həyat şəraitini davamlı şəkildə yaxşılaşdırmaqdır.

Bizim sifarişçilər

GIZ mənzil-qərargahı Eşbornda (Frankfurt am Mayn şəhərinin yaxınlığında) yerləşən federal qurumdur. O, 1975-ci ildə özəl hüquqi şəxs qismində təsis edilmişdir. GIZ-in əsas sifarişçisi Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyidir (BMZ). Eyni zamanda GIZ başqa federal orqanların, xarici ölkələrin hökumətlərinin, Avropa Komissiyası, BMT, yaxud Dünya Bankı kimi beynəlxalq qurumların, eləcə də özəl biznes müəssisələrinin sifarişi əsasında fəaliyyət göstərir. GIZ öz vəzifələrini gəlir əldə etmək məqsədi olmadan həyata keçirir. Artıq qalan vəsaitlər müstəsna olaraq yenidən davamlı inkişafa yönələn beynəlxalq əməkdaşlıq çərçivəsindəkı layihələrin icrasına sərf edilir.

Qlobal səviyyədə fəaliyyət

GIZ Afrikanın, Asiyanın, Latın Amerikasının 120-dən artıq ölkəsində, Aralıq dənizi və Yaxın Şərq bölgələrində, Avropada, Qafqazda və Orta Asiyada fəaliyyət göstərir. 92 ölkədə onun ayrıca nümayəndəlikləri vardır. Qurumun bu ölkələrdə çalışan əməkdaşlarının sayı təxminən 12.000 nəfər təşkil edir ki, bunların da 9.000-dən çoxu yerli işçilərdir. GIZ-nin Eşborndakı mərkəzi idarəsində və Almaniyanın başqa yerlərində olan bölmələrində isə 1.500 şəxs çalışır.

Cənubi Qafqaz ölkələrində GIZ Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) tapşırığı əsasında məhkəmə və hüquq islahatlarının dəstəklənməsi məqsədi ilə bir sıra layihələr həyata keçirir. Bu layihələr çərçivəsində qanunvericiliklə bağlı məsləhətçi qismində fəaliyyət göstərən, təkmilləşdirmə tədbirləri həyata keçirən və peşə konfranslarında məruzələrlə çıxış edən uzun və qısa müddətli ekspertlər cəlb edilir. Material külliyyatlarının hazırlanması çərçivəsində layihələrin məruzələri və materialları çap olunur. Bununla yanaşı, müntəzəm olaraq müxtəlif sahəvi mövzulara dair məqalələr də dərc edilir.

T (80) 2012

© Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) GmbH, 2012
© Thomas Herrmann, 2012

Kitabın elektron versiyası bizim veb-saytımızdan pulsuz əldə oluna bilər: www.giz.de/law-caucasus

Naşir:
GIZ-in «Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarına dəstək» regional proqramı
Gənclər meydanı 1
AZ 1005 Azərbaycan
Konstitusiya Məhkəməsi
T +994 12 497 15 88
F +994 12 497 49 63
İ www.giz.de/law-caucasus

T (80) 2012 **«Mülki prosesdə tətbiq ediləcək hüququn tapılması»** *(Azərbaycan qanunvericiliyi: kazusların köməyi ilə mülki işlər üzrə hakimlərin yeni iş texnikasına giriş).* «Hüquq ədəbiyyatı» nəşriyyatı, Bakı, 2012-ci il, 496 səh.

T $\frac{020010000—001}{h\ (062) – 2012}$ sifarişlə

«Hüquq ədəbiyyatı» nəşriyyatı, 2012

MÜNDƏRİCAT

Ön söz 7

I hissə

A. Mülki hüquq kazuslarının həlli (hüquqtətbiqetmənin metodikası)

I. Giriş 14
II. İddia tələbi 15
III. İddia tələbinin qanuni əsası 16
IV. Köməkçi və əks normalar 18
V. İddia tələbinin qanuni əsaslarının çoxluğu və onların yoxlanması ardıcıllığı 20
VI. Konkret iddia tələbinin qanuni əsasının yoxlanması .. 23
VII. Müqavilədən irəli gələn tələblərin yoxlanması gedişinin sxemi 25

B. Azərbaycan Mülki Məcəlləsində olan bəzi vacib iddia tələblərinin qanuni əsaslarının və hüquq münasibətlərinin dəyişdirilməsinə yönələn hüquqların toplusu 31

C. Azərbaycan Mülki Məcəlləsinin ayrı-ayrı iddia tələblərinin qanuni əsaslarının məzmunu və sistemi

İlkin qeyd 54
I. Müqavilədən irəli gələn iddia tələbinin qanuni əsasları
1. Ümumi müddəalar 55
2. Əsas tələblər 58
3. Əlavə (subsidiar) tələblər
a. Ümumi müddəalar 64
b. Öhdəliyin pozulmasına görə zərərin ödənilməsi 67

c. Öhdəliyin icrası əvəzinə vurulmuş zərərin əvəzinin ödənilməsi **64**
d. İcra ilə yanaşı zərərin ödənilməsi tələbi/Borclunun icranı gecikdirməsi **72**
e. Xüsusi hissədə tənzimlənmiş zərərin ödənilməsi tələbləri **77**
4. Zərərin ödənilməsi tələbinin hüquqi nəticəsi **74**
a. Səbəbli əlaqə və zərərlə bağlı təqsirlilik **74**
b. Zərərin əvəzinin ödənilməsinin növləri və həcmi .. **80**
II. Qanundan irəli gələn iddia tələblərinin qanuni əsasları
1. Ümumi müddəalar **85**
2. Qanundan irəli gələn ayrı-ayrı iddia tələblərinin qanuni əsasları **90**
a. Mülki hüquq pozuntusu (delikt) **90**
b. Özgə işlərini tapşırıqsız aparmaqdan irəli gələn tələblər **99**
c. Əsassız varlanmaqdan irəli gələn tələblər **105**
d. Əşya hüququndan irəli gələn tələblər
aa. Mülkiyyətçinin sahibə qarşı vindikasiya tələbi ... **119**
bb. Sahiblikdən irəli gələn tələblər (sahiblik tələbləri) **128**

D. Vicdanlı əldəetmənin əsasları ilə bağlı kazuslar..... 133

E. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə edilmiş və 2005-ci il noyabrın 1-də qüvvəyə minmiş əlavə və dəyişikliklər 147

II hissə

A. Mülki işlərə baxan hakimin iş texnikasına giriş 175
B. Sübut hüququnun əsas prinsipləri 194
C. Birinci instansiya məhkəməsinin qətnaməsi 223
D. Hakimin işə baxmasına yol verilməməsi və hakimə etiraz 238

III hissə

A. Çalışmalar üçün 8 kazus

1-ci kazus: Nasaz kompüter proqramı **255**
2-ci kazus: Pul olan yerdə dostluq qurtarır **279**
3-cü kazus: İstifadəyə verilmiş kamera **301**
4-cü kazus: Borcla toy **323**
5-ci kazus: Mübahisəli ipoteka **347**
6-cı kazus: Problemli ev alqı-satqısı **372**
7-ci kazus: Mübahisə edən iki sahibkar **384**
8-ci kazus: Pis təminat **411**

B. Vərəsəlik hüququ ilə bağlı kazuslar

1. Vərəsəlik hüququnun əsasları ilə bağlı 4 kazus **428**
2. Kazus: Qayğıkeş mirasqoyan **453**
3. Kazus: Narazı ata **462**
4. Kazus: Lənətlənmiş 2-ci vəsiyyətnamə **473**
5. Kazus: Xalça kolleksiyaçısı **481**
6. 3 sxem **491**

ÖN SÖZ

(İkinci nəşr)

Oxuculara təqdim olunan bu kitabın birinci nəşrinin heç də az olmayan tirajla buraxılmasından iki il ötməmiş, həmin tiraj tamamilə tükənib qurtarmışdır. İndi əminliklə iddia etmək olar ki, mülki işlərə baxan bütün azərbaycanlı hakimlərdə "Tomas Hermanın kitabı" var və onlar bu kitabın köməkliyi ilə mübahisələrin hüquqi həlli üzrə bilik və bacarıqlarını təkmilləşdirmişlər. Bundan faydalananlar təkcə məhkəmə müdafiəsi məqsədilə müraciət edən vətəndaşlar və müəssisələr deyil. Məhkəmələrə daxil olan iddia ərizələrinin sayı çox artdığına və bununla əlaqədar olaraq, hakimlər qisa müddət ərzində daha çox mübahisələri həll etmək məcburiyyətində qaldıqlarına görə kitab onlar üçün həm də bir "xilaskar bələdçi"yə çevrilmişdir. Kitabda izah olunan və mübahisələrin iddia tələblərinin qanuni əsaslarına istinad etməklə həll edilməsinə əsaslanan metodların birbaşa səmərəliliyi olmadan hakimlər bu gün yəqin ki, həddindən artıq iş yükünün olmasından əziyyət çəkərdilər.

2011-ci ildən bəri mən GIZ-in Azərbaycandakı məhkəmə və hüquq islahatları layihəsinin yeni rəhbəri kimi əsası 2003-cü ildə Tomas Herman tərəfindən qoyulan mülki işlər üzrə hakimlər üçün seminarları davam etdirirəm. Mənim müşahidələrim və qeydlərim əsasında Tomas Herman birinci nəşrin mətnini redaksiya baxımından, eləcə də cüzi olaraq məzmun baxımından yenidən işləmişdir. Bu, xüsusilə, nəqliyyat vasitələrinə dair alqı-satqı müqavilələrinin notariat qaydasında təsdiqlənməli və reyestrdə qeydiyyata alınmalı olub-olmaması məsələsinə aiddir (bax: 8-ci kazus). Bununla belə, görünür, gələcəkdə də bu mövzuya dair qızğın müzakirələr olacaqdır ki, bu da yalnız təqdirəlayiqdir.

Bu ikinci nəşr hakimliyə namizədlərin yeni nəslinin tədris kurslarını başa çatdırmaq ərəfəsində olduğu bir vaxtda çapdan çıxır. GIZ bu işdə də öz dəstəyini göstərmişdir. Lakin mülki işlərin həlli metodikası ilə bağlı tədris tədricən bizim tərəfimizdən trener qismində intensiv olaraq dəstəklənən azərbaycanlı hakimlərə həvalə ediləcəkdir.

Bakı, dekabr 2012-ci il
Dr. Tomas Melser

ÖN SÖZ

(Birinci nəşr)

Dövlət müstəqilliyinin əldə olunmasından və sovet iqtisadi və hüquq sisteminin başa çatmasından, demək olar ki, 20 il sonra Azərbaycan artıq demokratik-hüquqi dövlət quruculuğu yolunda əhəmiyyətli inkişafa nail olmuşdur. Özünün Konstitusiyası, 2000-ci ildə qüvvəyə minmiş Mülki və Mülki Prosessual məcəllələri, inzibati icraat və inzibati məhkəmə prosesi hüququnun məcəllələşdirilməsi, məhkəmə sistemində və hakimlərin peşə fəaliyyətini tənzimləyən qanunvericilikdə islahatlar aparılması ilə ölkə bazar iqtisadiyyatı və hüquqi dövlətin inkişafı üçün lazım olan başlıca şərtləri yaratmışdır.

Qarşıda duran növbəti vacib addım formalaşdırılmış bu yeni hüquq çərçivəsini, bir növ, doldurmaq və ictimai gerçəklikdə həyata keçirmək, başqa sözlərlə desək, qüvvədə olan qanunları dəqiq və fərq qoymadan tətbiq etməkdir. Çünki tətbiq edilməyən, yaxud hərfi mənasına uyğun olaraq tətbiq edilməyən və əhalinin məcburi qüvvəli qayda kimi qəbul etmədiyi bir qanunun onun çap olunduğu kağıza belə dəyməməsi anlaşılan məsələdir. İslahat nəticəsində qəbul edilmiş qanunların təcrübədə həyata keçirilməsi üçün öncə fəaliyyət göstərmək iqtidarında olan məhkəmə hakimiyyətinin, xüsusilə hüquqi cəhətdən ixtisaslaşmış hakimlərin və vəkillərin olması zəruridir. Hazırda bu sahədə hələ çatışmazlıqlar varsa da, onların səbəbləri adıçəkilən hər iki peşə qrupunu təmsil edən şəxslərin indiki keçid dövründə üzləşdiyi son dərəcə böyük tələblərdə axtarılmalıdır. Ənənəvi olaraq əsasən nəzəri yönümlü və sadəcə mücərrəd hüquq materiyasının tədris edilməsi ilə məhdudlaşan bir hüquq təhsili sisteminin məzunları kimi azər-

baycanlı hakimlər və vəkillər hər gün onlar üçün tamamilə yeni olan, eyni zamanda barələrində rəsmi əsaslandırmalar, şərhlər və ya dərsliklər olmayan, mütəmadi dəyişikliklərə məruz qalan qanunlarla işləməlidirlər. Bundan başqa, azərbaycanlı hakimlər aparılmış islahatlardan sonra onlar üçün mülki prosesdə tam olaraq yeni rol nəzərdə tutan və beləliklə, bu vaxta qədərkindən fərqlənən bir peşə profili ilə qarşılaşmışlar. Nəhayət, sadalanan bu tələblər kontekstində hakimlərin yerinə yetirməli olduqları ağır iş yükü də qeyd edilməlidir ki, bu da gündəlik işlə yanaşı onların zəruri əhəmiyyət kəsb edən ixtisas artırmaları üçün vaxt ayırmalarına imkan vermir.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin «Azərbaycanda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi» layihəsi ötən illər ərzində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası ilə sıx əməkdaşlıq şəraitində Bakıda və bir sıra başqa bölgələrdə əsasən birinci instansiya məhkəməsi hakimləri, eləcə də hakimliyə namizədlər üçün çoxsaylı təkmilləşdirmə seminarları keçirmişdir. Qismən azərbaycanlı hakimlərin də birgə trener qismində iştirak etdiyi bu tədbirlərin məqsədi hüquqtətbiqetmə texnikasını və mülki işlər üzrə hakimin spesifik iş metodunu seminar iştirakçılarına izah etmək və bunu Azərbaycan mülki hüququ əsasında hazırlanmış praktik kazuslar vasitəsilə əyani surətdə onlara təsvir etmək olmuşdur.

Bu kitabda əksini tapmış mətnlərin, kazusların və xülasələrin böyük hissəsini mənim GIZ-in «Azərbaycanda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi» layihəsinin rəhbəri qismində 2003-2008-ci illər arasındakı dövrdə apardığım təkmilləşdirmə seminarlarında istifadə olunmuş materiallar təşkil edir. Bu nəşrin təqdim olunması ilə GIZ seminar iştirakçılarının sözügedən materialların kitab halında dərc edilməsi ilə bağlı dəfələrlə təkrarlanan istəyini yerinə yetirir.

Kitabın III hissəsində verilmiş ayrı-ayrı konkret kazuslardan əvvəl onun I hissəsinin A bölməsində mülki hüquqda maddi hüquq normalarının tətbiqi metodikasına dair prinsipial əhəmiyyət kəsb edən giriş yer almışdır. Bu hissədə mən, hər şeydən öncə, mülki hüquqa dair kazusun həllinə aparan yolun daim mücərrəd xarakterli xəyali bir sxemdən keçməsini izah etməyə çalışmışam. Bu sxemin çox rasional iş qaydasına imkan vermək kimi bir üstünlüyü olmaqla yanaşı, eyni, proqnozlaşdırılması mümkün olan və qanun əsasında başa düşülə biləcək nəticələrin əldə olunmasına aparır. Sözügedən metod struktur baxımından ilk növbədə iddia tələbinin münasib qanuni əsasının axtarılmasından və bunun ardınca tapılmış qanun norması əsasında hüquqi cəhətdən dəyərləndirilməli olan işin faktiki hallarına qiymət verilməsindən ibarətdir. Kitabın I hissəsinin növbəti B və C bölmələrində Azərbaycan Respublikasının Mülki Məcəlləsindəki ən mühüm iddia tələblərinin qanuni əsaslarının toplusu təsvir olunur. Eyni zamanda, ayrı-ayrı konkret iddia tələblərinin qanuni əsaslarının məzmunu misal xarakterli çoxsaylı kazusların köməyi ilə daha yaxından nəzərdən keçirilir. Azərbaycan hüquq praktikasında vicdanlı əmlak əldəetmənin şərtləri ilə bağlı geniş xarakter daşıyan yanlış anlaşılma D bölməsində vicdanlı əldəetməyə (bununla bağlı Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş müddəalar Almaniya Mülki Məcəlləsinin uyğun müddəaları ilə əhəmiyyətli dərəcədə üst-üstə düşür) dair bazis xarakterli kazusları birgə şəkildə təsvir etməyimə səbəb olmuşdur. Nəhayət, E bölməsində Mülki Məcəlləyə 01.11.2005-ci ildə edilmiş və hazırlanmasında GIZ-in «Azərbaycanda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi» layihəsinin də məsləhətçi qismində iştirak etdiyi ən mühüm dəyişikliklər barəsində mənim 2006-cı ildə dərc etdirdiyim məqalə verilmişdir. Bütövlükdə, təqdim olunan bu kitabın I hissəsi konkret hüquqi kazusların həllində yardımçı vəsait qismində təkcə hakimlər və vəkillər üçün

deyil, eləcə də universitetdəki təhsil ərzində kazuslar həll etmək üzrə, bir qayda olaraq, cüzi fürsəti olan tələbələr üçün də faydalı ola bilər.

Kitabın II hissəsi əsasən mülki işlərin həlli ilə məşğul olan hakimlər üçün nəzərdə tutulmuşdur. Sözügedən hissənin A bölməsində əvvəlcə mülki işlər üzrə hakimin spesifik düşünmə və işləmə metodu təsvir olunur. Bu metod Azərbaycandakına çox oxşar bir mülki proses hüququnun qüvvədə olduğu Almaniyada artıq çoxdan özünü doğrultmuşdur. O, hakimə işin həlli üçün əhəmiyyət kəsb edən faktları tez müəyyənləşdirməyə, hüquqi mübahisəni bu faktların üzərində cəmləşdirməyə və prosesi ən qısa yolla düzgün həll etməyə imkan verir. Bundan başqa, bu metod hakimin vaxtına və işinə əsaslı şəkildə qənaət olunması ilə yanaşı, prosesin nəticəsinin proqnozlaşdırıla və yoxlanıla bilməsinin mümkünlüyünü də təmin edir. Sübutlara dair bazis xarakterli məsələlər, qətnamənin zəruri hissələrindən bəhs edən növbəti B və C bölmələri A bölməsində qeyd olunanlarla sıx bağlıdır. Mənim müşahidələrimə əsasən, Azərbaycan hüquq təcrübəsində sübutetmə və qətnamənin quruluşu ilə bağlı məsələlərə heç də həmişə kifayət qədər diqqət ayrılmır. Nəhayət, D bölməsində qərəzliliyə görə hakimə etiraz edilməsinin şərtləri və proseduru barədə məlumat verilir və buna dair misal xarakterli iki kazus təsvir olunur. Fikrimcə, bu sahədə hələ vahid məhkəmə təcrübəsi təşəkkül tapmamışdır.

Kitabın III hissəsinin A bölməsində mülki işlər üzrə hakimin barəsində əvvəlki bölmələrdə danışılmış düşünmə və işləmə metodunu konkret misallar əsasında bir daha izah etmək məqsədi daşıyan səkkiz kazus əks olunmuşdur. Bu kazusların əksəriyyətinin əsasında mühabisəli xarakterli hallar durur və bu hallar çox dar şəkildə tərtib edilmiş nümunə xarakterli iş materialları (iclas protokolu və işin materiallarından qısa çıxarış da daxil olmaqla) şəklində verilmişdir. Daha sonra, hər

bir kazusla bağlı hakimin onun həlli məqsədi ilə tətbiq etməli olduğu iş qaydası, eləcə də hakimin hüquqi mülahizələrini hissə-hissə əks etdirən ətraflı hüquqi rəy təqdim olunur. Yekun olaraq, hər bir kazusun sonunda təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarət nümunə qətnamə forması təsvir edilmişdir. Kitabın III hissəsinin B bölməsində verilmiş kazuslar isə əsasən vərəsəlik hüququna həsr olunmuşdur. Onlar bir çox hüquqşünasların bələd olmadığı bu hüquq sahəsi üzrə məlumatverici xarakter daşıyır. Bu kazusların kitaba daxil edilməsi hakimlər üçün keçirilmiş seminarların əksər iştirakçılarının istəyi ilə bağlı olmuşdur.

Əlbəttə, kitabda əksini tapmış bu və ya başqa kazusun həlli barədə müzakirə aparmaq və bəlkə də müəyyən məsələlərə münasibətdə yaxşı əsaslandırmaqla təqdim olunandan fərqli bir nəticəyə gəlməyin mümkünlüyünü iddia etmək olar. Lakin bu aspekt, mənim fikrimcə, o qədər də həlledici əhəmiyyət kəsb etmir. Ayrı-ayrı hüquqi məsələlərin düzgün həllindən daha da mühüm olan məsələ hakimin işin həlli üçün istifadə etməsi tövsiyə olunan düşünmə və işləmə qaydasıdır. Ona görə də bu kitabda verilmiş kazusların məqsədi onların necə nəticələnməsini deyil, hakimin ədalət mühakiməsini həyata keçirən zaman hansı qaydada hərəkət etməli olduğunu göstərməkdir. Hakim burada təqdim olunan iş metodunu bilərsə, o, gündəlik fəaliyyətində bundan çox tez bir zamanda bəhrələnəcəkdir.

Hakimlərin təkmilləşdirilməsi üzrə keçirilmiş seminarların gedişində müzakirə edilmiş bütün kazusların heç də hamısının bu kitaba salınmaması və ya bəzilərinin yalnız ixtisar olunmuş şəkildə verilməsi, çox güman ki, seminar iştirakçılarının diqqətindən yayınmayacaqdır. Bunun səbəblərindən biri seminar iştirakçıları ilə müzakirələrdən sonra bəzi kazusların məzmun və ya didaktik baxımdan bir qədər az münasib olmalarının müəyyən edilməsi ilə əlaqədardır. Eyni zamanda, qa-

nunvericilikdə son dövrdə edilmiş dəyişikliklər mənim bəzi kazusların strukturunu və ya həll modelini həmin dəyişikliklərə uyğunlaşdırmağımla nəticələnmişdir. Bu kitaba daxil edilmiş bütün seminar materialları 2010-cu ilin yazında qüvvədə olan qanunvericiliyi nəzərə alaraq hazırlanmışdır.

Bu kitabın tərtib olunması ilə əlaqədar mən cənab vəkil *Elçin Usuba* xüsusi təşəkkür edirəm, çünki onun səriştəli və fəal iştirakı olmadan bu nəşrin ərsəyə gəlməsi mümkün olmazdı. O, Azərbaycan hüququ sahəsindəki əla bilikləri, eləcə də alman hüquq sistemini yaxşı başa düşməsi sayəsində çoxsaylı təkmilləşdirmə seminarlarının hazırlanması və həyata keçirilməsində mənə peşəkar məsləhətlər verməklə yanaşı, parlaq tərcüməçi kimi daim əvəzolunmaz kömək göstərmişdir. Bu kitabda əksini tapmış mətnlərin heç də asan olmayan tərcüməsinin müəllifi də məhz odur. Beləliklə, bu nəşrin işıq üzü görməsi əhəmiyyətli dərəcədə həm də onun xidmətidir.

Bundan başqa, mən çap olunmamışdan əvvəl bu kitabın Azərbaycan dilinə tərcümə olunmuş variantını bir dəfə də diqqətlə oxumuş və redaksiya baxımından yoxlamış hüquqşünas cənab *Ənnağı Hacıbəyliyə* də təşəkkür edirəm. Mülki hüquq sahəsində zəngin peşəkar təcrübəyə malik olmaqla və mövzuya dair materiallar dərc etdirməklə o bizə çox dəyərli kömək göstərmişdir.

Hannover/Bakı, iyul, 2010-cu il

Thomas Herrmann

I hissə

A. Mülki hüquq kazuslarının həlli (hüquqtətbiqetmənin metodikası)

I. Giriş

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (AR MM) olan hüquq normalarının məzmununu və sistematikasını hüquqçunun mücərrəd şəkildə bilməsi ixtisas biliklərini həyata keçirmək üçün ona az kömək edir. Çünki hüquqçunun əsas vəzifəsi konkret həyati hadisəni hüquqi cəhətdən qiymətləndirməkdir. Bu zaman qiymətləndirilməli olan hal ya artıq baş verib (məsələn, vurulmuş zərərin əvəzinin ödənilməsi – bu, hakimin qarşılaşdığı tipik vəziyyətdir), ya da gələcəkdə baş verə bilər (məsələn, tənzimlənməli məsələyə uyğun gələn müqavilə formasının axtarılması – bu, adətən vəkilin və ya iqtisadi məsələlər üzrə hüquqçunun peşə fəaliyyəti ilə bağlı durumdur).

Bəllidir ki, mülki hüquq məsələlərinin həll edilməsi cinayət hüquq məsələlərinin həll edilməsindən qat-qat çətindir. Bu, yalnız MM-lə tənzimlənən ictimai münasibətlərin daha çox rəngarəngliyi ilə deyil, həm də qanun normalarının zəruriyyətdən irəli gələn daha yüksək mücərrədliyi ilə bağlıdır. Ona görə də mülki hüquq üzrə ixtisaslaşmış hüquqçu təkcə qanunu yaxşı bilməli deyil, bundan başqa, onun rasional iş metodikası da olmalıdır ki, onun köməyi ilə o, hüquqi vəziyyəti qiymətləndirərkən dərhal düzgün nəticəyə gələ bilsin.

Almaniyada Mülki Qanunnamənin (BGB) qüvvəyə minməsindən keçən 100 ildən çox müddətdə işin hallarının mülki hüquq baxımından qiymətləndirilməsi və hüquqi düşüncə tərzinin strukturu ilə əlaqədar xüsusi iş texnikası inkişaf etdiri-

lib ki, bu da praktikada özünü doğruldub. Mülki məsələ həll edilərkən müəyyən sabit düşünmə sxemi rəhbər tutulur. Bunun müsbət tərəfi təkcə rasional iş üsulu kimi özünü göstərməsi deyil, həm də əsaslandırıla bilən, başa düşülən və eyni nəticələrə gətirib çıxarmasıdır.

Bu iş metodikasının ilkin şərti isə MM-i yaxşı bilməkdir. Hüquqçunun əsas aləti qanundur və o, həmişə onun əlində olmalıdır. Təbii ki, hər hansı hüquqçudan qanunun bütün müddəalarını bilməsini heç kəs gözləmir. Amma tələb olunur ki, o, ən əsas normaları və bundan əlavə, qanunun tənzimləmə sistematikasını bilsin. O, xüsusilə bilməlidir ki, ayrı-ayrı bölmələrin və fəsillərin bir-biri ilə qarşılıqlı əlaqəsi necədir. Yalnız bu zaman o, tanış olmayan kazus barəsində düzgün normaları tapacaq. Çox nadir hallarda hüquqçunu qınamaq olar ki, o, qanunun hansısa konkret müddəasını əzbər bilmir. Amma o, uyğun normaları tapmaq üçün konkret olaraq qanunun harasını axtarmalı olduğunu öyrənməlidir.

Bundan sonra təqdim ediləcək iş metodikası ciddi surətdə MM-in sistematikasından irəli gəlir və məyyən məntiqi yoxlama ardıcıllığını nəzərdə tutur ki, bunun da köməyi ilə konkret mülki hüquq kazusu rasional qaydada, bilavasitə qanundan istifadə etməklə həll edilir.

II. İddia tələbi

Mülki hüquq məsələləri üzrə ilkin vəziyyət bundan ibarətdir ki, adətən bir-birinə zidd maraqları güdən iki və ya daha çox fiziki, yaxud hüquqi şəxs qarşı-qarşıya durur. Bu zaman bir tərəf (kreditor) o biri tərəfdən (borcludan) konkret faktlara və hallara (bu halların və faktların özü bir çox hallarda tərəflər arasında mübahisəli olur) istinad etməklə müəyyən icranın, yəni hərəkət və ya hərəkətsizliyin (müqavilənin icra olunması, əşyanın qaytarılması, vurulmuş zərərin ödənilməsi, icra edilmiş öhdəliklə bağlı ilkin vəziyyətin bərpa edilməsi və s.) həyata

keçirilməsini tələb edir. Məhz bu arzuolunan şey **tələb** adlandırılır. Həmin tələb, zərurət olarsa, məhkəmələrin köməyi ilə gerçəkləşdirilə bilər. Tələbin anlayışını elə qanunun özündə tapmaq olar (müqayisə et: MM-in 385.1, 372.1 və 550-ci maddələri).

III. İddia tələbinin qanuni əsası

Azərbaycan Konstitusiyaya əsasən hüquq dövləti elan edildiyindən hakim irəli sürülmüş tələb barədə istəyinə əsasən qərar çıxara bilməz. O, tərəfi ancaq o zaman nəyəsə (məsələn, icra etməyə, əşyanı qaytarmağa, ziyanı ödəməyə və s.) məcbur edə bilər ki, bunun üçün qanuni əsas olsun, yəni hakimin qərarı qanundan irəli gəlməlidir. Mülki işlər üzrə məhkəməyə bir tərəfin maraqları naminə başqa fiziki və hüquqi şəxslər barədə məcburetmə tədbirləri həyata keçirməyə səlahiyyət verən bu cür hüquq normaları **tələbin qanuni əsasları** adlanır. Hüququ tətbiq edən şəxs üçün onlar mülki işin mərkəzi nöqtəsidir.

Yadda saxla: *Tələbin qanuni əsası dedikdə, qanunun elə müddəası başa düşülür ki, o, bir tərəfə qarşı tərəfdən nəyisə etməyi və ya nəyisə etməməyi tələb etməyə imkan verir.*

Tələbin qanuni əsası **yoxlamanın başlanğıc nöqtəsidir.** Tələbin qanuni əsası hüququ tətbiq edən şəxsə yalnız bir tərəfin qarşı tərəfi nəyi isə etməyə məcbur edə bilməsi barədə suala cavab vermir, o, daha bir suala – qarşı tərəfdən nəyisə etmək və ya etməmək öhdəliyinin **hansı ilkin şərtlər əsasında** yaranması sualına cavab verir. Tələbin sonrakı yoxlanması üçün həmişə qanunun müddəaları (tələbin qanuni əsası) əsasında onların hansı ilkin şərtləri (dispozisiya şərtləri) müəyyən etməsi və həmin şərtlərin konkret kazus üzrə mövcud olub-olmadığı (hüquqi tövsif) araşdırılmalıdır.

Beləliklə, hüquqçunun vəzifəsi ilk növbədə qanunun mətni ilə işdən, yəni ayrı-ayrı tələbin qanuni əsaslarının tapılmasından, onların dispozisiya şərtlərinin müəyyənləşdirilməsindən və lazım olduğu halda onların hüquqi mənasının təfsirin köməyi ilə aydınlaşdırılmasından ibarətdir. Sonrakı mərhələdə hüquqçu qanunda yetərincə mücərrəd və ümumi formulə edilmiş dispozisiya şərtlərini (məsələn, 587-ci maddəyə əsasən alıcının təminatları ilə bağlı tələblər üzrə əşyanın «qüsurlu olması» ifadəsi) konkret hala *(kazusa)* tətbiq etməlidir, yəni tövsif etməlidir (məsələn, satılmış maşının qızdırıcı sisteminin işləməməsi = qüsurdurmu?).

Düzgün iddia tələbinin qanuni əsasının axtarılması zamanı aşağıdakı **dörd sualı** əldə rəhbər tutmaq işə yarayır: **Kim kimdən, nə və nəyə əsasən tələb edir?**

1-ci / 2-ci sual: **KİM KİMDƏN?**

Öncə soruşulmalıdır ki, KİM (kreditor) bu kazus üzrə KİMDƏN (borcludan) nə isə tələb edir? Bu zaman dəqiq müəyyənləşdirilməlidir ki, söhbət hansı şəxslərdən və ya şəxslər qrupundan gedir. Hər iki tərəfdə, xüsusilə də borclu tərəfində bir neçə şəxs, məsələn, birgə borclular kimi dayana bilər.

Eyni zamanda müəyyən edilməlidir ki, söhbət fiziki, yoxsa hüquqi şəxslərdən gedir, kimsə özü üçün, yoxsa başqasının təmsilçisi kimi nəyi isə tələb edir.

3-cü sual: **NƏ?**

Bundan sonra kreditorun borcludan **NƏ** tələb etməsi aydınlaşdırılmalıdır. Çox zaman bu, müəyyən pul məbləğinin, məsələn, əşyanın alqı-satqı qiymətinin ödənilməsidir. Söhbət əşyanın və ya hüququn verilməsindən, davranışdan çəkinməkdən, yəni hərəkətsizlikdən, yaxud da öz davranışına dözməkdən gedə bilər.

4-cü sual: **NƏYƏ ƏSASƏN?**

Yuxarıdakı suallara tapılan cavablardan asılı olaraq, iddia tələbinin qanuni əsası axtarılmalıdır. Bu elə bir normadır ki, onun hüquqi nəticəsi ilə kreditorun borcludan istədiyi üst-üstə düşməlidir. Çox zaman tələbə uyğun gələn bir neçə tələbin qanuni əsası müəyyən edilir.

MM çeşidli hissələrə səpələnmiş çoxlu sayda tələbin əsaslarını nəzərdə tutur. Onları quruluşuna və mətninə görə dərhal aşkar etmək olar. Onlar dispozisiya şərtləri ilə hüquqi nəticə arasında «əgər»–«onda» əlaqəsi ilə səciyyələnir və məzmunlarında «öhdəsinə götürür ki», «tələb edə bilər ki», «hüququ var ki» və ya oxşar ifadələr olur.

Tələbin düzgün qanuni əsasının tapılması MM sistemi və oradakı mühüm tələbin qanuni əsasları haqqında yaxşı biliyin olmasını tələb edir. Yardımçı vasitə kimi müəllifin tərtib etdiyi «Azərbaycan Mülki Məcəlləsindəki bəzi vacib iddia tələblərinin qanuni əsaslarının və hüquq münasibətlərinin dəyişdirilməsinə yönələn hüquqların toplusu»ndan istifadə edilə bilər[1].

IV. Köməkçi və əks normalar

MM təkcə iddia tələblərinin qanuni əsaslarından deyil, tamamilə başqa məsələləri tənzimləyən, məsələn, sazişlərin mümkünlüyü, hüquq institutlarının şərtlərinin təsviri, yaxud əqdlərin etibarlı olmasına aid çoxlu sayda başqa normalardan ibarətdir. Misal kimi müqavilənin standart şərtləri barədə qaydaları, təmsilçiliyi, yanılmaya görə əqdlərin mübahisələndirilməsini, forma ilə bağlı müddəaları və s. göstərmək olar.

Dispozisiya şərtləri və hüquqi nəticədən ibarət normalarla yanaşı, MM-də elə qaydalara rast gəlinir ki, onların özündə hüquqi nəticə yoxdur. Belə müddəalara anlayışlar, təfsir qay-

[1] *Bax:* aşağıda bölmə «B».

daları, göndərişlər, prezumpsiyalar və fiksiyalar aiddir. Bunlar başqa hüquq normalarını tamamlamaq və şərh etməklə hüquqtətbiqetməni asanlaşdırır.

Bütün bu normalar, belə demək mümkünsə, **köməkçi normalar** adlanır. Ayrı-ayrı iddia tələblərinin qanuni əsaslarının yoxlanması zamanı belə köməkçi normalardan istifadə olunur.

Bununla bağlı bir misal: praktikada, ola bilsin ki, ən çox istifadə olunan tələbin qanuni əsası MM-in 567-ci maddəsidir. Orada göstərilir ki, alqı-satqı müqaviləsinə əsasən satıcı əşyanı alıcının mülkiyyətinə verməyi öhdəsinə götürür. Bu ifadə həm dispozisiya şərtlərini, həm də hüquqi nəticəni ehtiva edir. Dispozisiya şərti qanunda çox yığcam şəkildə – «alqı-satqı müqaviləsinə görə» sözləri ilə ifadə olunub. Hüquqi nəticə müqavilə tərəflərinin vəzifələrinin göstərilməsi ilə, yəni bir tərəfdən satıcının əşyanı alıcının mülkiyyətinə vermək, başqa tərəfdən isə alıcının qiyməti ödəmək vəzifəsi ilə təsvir edilir. «Alqı-satqı müqaviləsinə görə...» ifadəsi yoxlanılmalı halların həddən artıq qısa şəkildə göstərilmiş formasıdır. Bu şərtlərin bir halda, məsələn, tərəflər arasında müqavilənin etibarlığı barədə heç bir mübahisə olmadığı, mübahisənin isə başqa suallar ətrafında cərəyan etməsi, məsələn, əşyanın qüsurlu olması ilə bağlı olduğu halda mövcud olması nə qədər aydın olsa da, başqa halda alqı-satqı müqaviləsinin etibarlığı ilə bağlı məsələlər, söhbətin müqavilənin ümumiyyətlə bağlanmasından, yəni oferta və akseptdən, tərəflərin fəaliyyət qabiliyyətindən, müqavilənin forma ilə bağlı tələblərinə əməl edilməsindən, yaxud təmsilçiliklə bağlı məsələlərdən getdiyi hallarda rəngarəng və mürəkkəb ola bilər. Hüquqçu bu sualları «alqı-satqı müqaviləsinə görə» dispozisiya şərtini yoxlayan zaman araşdırmalıdır ki, 567-ci maddənin hüquq nəticəsinin olmasını təsdiqləyə bilsin.

Tələbin qanuni əsasları hüquqi nəticə vasitəsilə kazusun uyğun sualına pozitiv cavab verirsə, yəni müəyyən şərtlərlə

bir tərəfin istədiyini ona verirsə, elə müddəalar da var ki, onlar öncə müəyyənləşdirilmiş tələbin xətm olunması üçün yararlıdır. Məsələn, mübahisələndirmə (MM-in 339-341-ci maddələri), əvəzləşdirmə (MM-in 540-545-ci maddələri), yaxud iddia müddəti (MM-in 372-384-cü maddələri) ilə bağlı qaydalar bura aiddir. Həmin qaydaları **əks normalar** da adlandırırlar. Bunların üzərində bir qədər sonra ətraflı dayanacağıq[2].

V. İddia tələbinin qanuni əsaslarının çoxluğu və onların yoxlanması ardıcıllığı

Bir çox hallarda eyni tələb üçün **bir neçə** (məsələn, zərərin əvəzinin ödənilməsi və ya əmlakın geri tələb edilməsi) tələbin qanuni əsası nəzərdən keçirilə bilər. Bu halda yalnız bir tələbin əsasını yoxlamaqla (hətta bu, nəticədə qaldırılmış iddianın təmin edilməsinə gətirib çıxarsa belə) kifayətlənmək olmaz. Hüquqçu vərdiş etməlidir ki, bütün **mümkün olan** tələbin qanuni əsaslarını yoxlasın. Ola bilər ki, kreditor prosesdə əvvəl yoxlanan tələbin qanuni əsasının dispozisiya şərtlərinin olmasını sübut edə bilməsin, lakin başqa tələbin qanuni əsasının şərtləri mövcud olsun.

Tələbləri ümumi olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

* **müqavilə tələbləri:** bağlanmış müqavilə ilə əlaqədar yaranan tələblər (məsələn, icra ilə bağlı müqavilə tələbləri, müqavilənin yerinə yetirilməməsi nəticəsində dəymiş zərərin ödənilməsi və s.);

* **qanundan irəli gələn tələblər:** tərəflərin müqavilə vasitəsilə iradə ifadəsi olmadan, birbaşa qanundan irəli gələn tələblər (məsələn, 1096-cı maddə – delikt, 1091-ci maddə – əsassız varlanma, 1090-cı maddə – özgə işlərini tapşırıqsız aparma nəticəsində yaranmış xərclərin əvəzinin ödənilməsi).

---

[2] Müqayisə et: aşağıda VI.

Tərəflər arasında müqavilə münasibətləri varsa, yaxşı olar ki, tələbin qanuni əsasları yoxlanarkən həmişə müqavilədən irəli gələn tələbin qanuni əsaslarının yoxlanması ilə başlanılsın. Bunun səbəbi aşağıdakı misal vasitəsilə açıqlanacaq.

Kazus:

A-ya evinin tikintisi üçün ikitərəfli mişar lazım olur. O, qonşusu B-dən xahiş edir ki, həmin aləti bir həftəliyə ona versin. B razılaşır və qonşuluq xətrinə əvəz kimi ondan pul istəmir. A həmin həftə bu mişarla çox işləyir. A mişarı geri qaytaranda B aşkar edir ki, mişarın dişləri həddən artıq korşalıb. B buna görə A-dan vurulmuş zərərin ödənilməsini istəyir. O haqlıdırmı?

Burada iddia tələbinin qanuni əsası kimi MM-in 1097-ci maddəsindən başlansaydı, bu nəticəyə gəlmək olardı ki, A B-nin əmlakını istifadə etməklə korlayıb. Burada ən azı ehtiyatsızlıq nəticəsində belə hərəkət edildiyindən, qanunun tələblərinə görə o, zərəri ödəmək öhdəliyi daşıyardı.

Amma nəticə şübhəlidir, ola bilər ki, B ilə A arasında olan razılaşma mişarın bu şəkildə istifadəsini də ehtiva edirdi.

Burada MM-in 1091-ci maddəsinə uyğun olaraq əsassız varlanma barəsində də düşünmək olar, çünki A mişarın əvəzsiz istifadəsi nəticəsində xərclərinə qənaət edib. Amma burada ilkin şərt kimi istifadənin hüquqi əsası olmadan həyata keçirilməsi zəruridir. Hüquqi əsas isə burada A ilə B arasında olan razılaşma ola bilər.

Ancaq indi bu sıralamada müqavilə tələblərinin yoxlanması mərhələsinə çatırıq və bu zaman aşkar edirik ki, MM-in 732-ci maddəsinə əsasən, əvəzsiz istifadə müqaviləsi bağlanıb və MM-in 732.2-ci maddəsinə görə, kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyanın müqavilə üzrə istifadəsi çərçivəsində pisləşməsi üçün məsuliyyət daşımır.

Bu cür müəyyənləşdirmə ilə eyni zamanda aydın olur ki, burada heç bir delikt yoxdur, çünki A hüquqazidd hərəkət etməyib və əsassız varlanma yoxdur, çünki əvəzsiz istifadə müqaviləsi mişarın istifadəsi üçün hüquqi əsas olub və bu müqavilə məcburi şəkildə meydana çıxan əşyanın pisləşməsinə də icazə verirdi.

Beləliklə, məsləhət görülür ki, müqavilə münasibəti həmişə qanunla müəyyən olunmuş davranış qaydalarına təsir etdiyindən, bir qayda olaraq, yoxlamaya müqavilə tələblərinin yoxlanması ilə başlansın.

Adətən aşağıdakı yoxlama ardıcıllığı qəbul edilir:

1. Müqavilədən irəli gələn tələblər:

* Müqavilənin icrası ilə bağlı tələblər (əsas tələblər);
* İcra edilməmə və ya lazımi qaydada icra edilməmə ilə bağlı tələblər (əlavə və ya subsidiar tələblər).

2. Müqavilənin hazırlanmasından irəli gələn tələblər, MM-in 386.2-ci maddəsi.
3. Özgə işlərini tapşırıqsız aparma, MM-in 1087-1090-cı maddələri.
4. Deliktlə bağlı tələblər, MM-in 1096 və sonrakı maddələri.
5. Əsassız varlanmadan irəli gələn tələblər, MM-in 1091-1095-ci maddələri.
6. Əşya hüququ ilə bağlı tələblər, məsələn, MM-in 157.2-ci maddəsi.

Bu ardıcıllıq öncə yadda saxlanmalı olan sxem kimi başa düşülməlidir. Hər bir halda bütün iddia tələblərinin qanuni əsaslarının tam ardıcıllıqla yoxlanması zəruri deyil. Məsələn, əvvəllər bir-biri ilə rastlaşmamış tərəflər arasında baş verən yol-nəqliyyat qəzasından irəli gələn zərərin ödənilməsi ilə

bağlı tələblərin yoxlanması gündəmdədirsə, müqavilədən irəli gələn tələbin qanuni əsaslarının yoxlanması ilə işə başlamaq bir qədər qəribə olardı.

VI. Konkret iddia tələbinin qanuni əsasının yoxlanması

Konkret iddia tələbinin qanuni əsasının yoxlanması zamanı da məqsədəuyğunluq və maddi hüququn sistematikası nəzərə alınmalıdır.

İndiyə qədər yalnız bundan söhbət açılırdı ki, normada müəyyənləşdirilən hüquqi nəticənin baş verməsi üçün tələbin qanuni əsasının bütün dispozisiya şərtləri mövcud olmalıdır **(tələbi əsaslandıran şərtlər).** Lakin bu, tələbin yarana bilməsi üçün minimal şərtdir. Borclu ona qarşı irəli sürülmüş tələbdən müdafiə oluna bilər. Artıq yuxarıda qeyd edildiyi kimi, MM-də təkcə tələblərin qanuni əsasları deyil, şərti olaraq **əks normalar** adlandırılan müddəalar, yəni tələbin təsirini yenidən aradan qaldıran normalar da var. Beləliklə, borclunun da sərəncamında kerditorun ona qarşı tələb irəli sürməsindən müdafiə olunmaq üçün maddi hüquqi imkanlar var.

Bu əks normaları hüquqi təsir baxımından müxtəlif kateqoriyalara ayırmaq olar:

* **Hüquqa mane olan etirazlar:** onlar buna gətirib çıxarır ki, tələb bütün dispozisiya şərtlərinin olmasına baxmayaraq, əvvəlcədən yaranmır. Bura, məsələn, forma ilə bağlı qüsurlara görə (MM-in 329-cu maddəsi) və ya qanunla müəyyənləşdirilmiş şərtləri pozmağa görə (MM-in 337.1-ci maddəsi) əqdin etibarsızlığını aid etmək olar.

* **Hüquqa xitam verən etirazlar:** onlar artıq yaranmış tələblərin sonradan ləğvinə gətirib çıxarır. Burada öncə tələbin qanuni əsasının bütün dispozisiya şərtlərinə əməl edilib və beləliklə, tələb yaranıb. Sonradan elə hallar baş verib ki, bunlar tələbin ləğvinə (xitamına) gətirib çıxarıb. Bunlara klassik

misal tələbin xitamına gətirib çıxaran icradır (MM-in 528-ci maddəsi).

* **Hüququn qarşısını alan etirazlar:** onlar tələbin mövcudluğuna təsir etmir, sadəcə etibarlı şəkildə yaranmış və ləğv olunmayan tələbin həyata keçirilə bilməsi imkanını aradan qaldırır. Hüququn qarşısını alan etirazlar borcluya müvəqqəti və ya uzunmüddətli icradan imtina imkanları yaradır. Misal olaraq borclunu icradan müvəqqəti imtinaya səlahiyyətləndirən qarşılıqlı icradan imtinanı (MM-in 441-ci maddəsi) və tələbin həyata keçirilməsini uzun müddət mümkünsüz edən iddia müddətini (MM-in 372-384-cü maddələri) göstərmək olar.

Etirazların təsiri ilə bağlı fərqlər tələbin qanuni əsasının yoxlanılması üçün də önəmlidir. Hüquq tətbiq edən məntiqi-sistematik baxımdan həmişə özünə aşağıdakı sualları verməlidir:

1. Tələb yaranıbmı?

* Tələbi əsaslandıran şərtlər.

* Hüquqa xitam verən etirazlar.

2. Tələbə sonradan xitam verilibmi?

* Hüququ məhv edən etirazlar.

3. Tələb həyata keçirilə biləndirmi?

* Hüququn qarşısını alan etirazlar.

Bu yoxlama ardıcıllığı yalnız yaddaşa yardım kimi başa düşülməlidir. Konkret tələbin yoxlanması zamanı həqiqətən də bütün bəndlərin yoxlanmalı olması son nəticədə konkret işin hallarından asılıdır.

Aşağıdakı VII bölmədə bu yoxlama ardıcıllığı müqavilədən irəli gələn tələblərin yoxlanması **sxemi** vasitəsilə bir daha əyani şəkildə göstəriləcək.

VII. Müqavilədən irəli gələn tələblərin yoxlanması gedişinin sxemi[3]

1. Tələb yaranıbmı?

(Sübutetmə vəzifəsi, bir qayda olaraq, tələbin kreditorunun üzərinə düşür)

a. Tərəflər, ümumiyyətlə, müqavilə bağlayıblarmı?

MM-in 405.2-ci maddəsinə uyğun olaraq müqavilənin bağlanmasının anlayışı: oferta və aksept.

Mümkün problemlər:

aa. Oferta edilibmi?

* Ofertanın MM-in 408.1-ci maddəsinə uyğun olaraq anlayışı: müqavilənin mühüm şərtlərini (MM-in 405.1-ci maddəsində anlayış verilib) əhatə edən və müqavilənin bağlanmasına yönələn iradə ifadəsi.
* Şəraitdən asılı olaraq MM-in 404-cü maddəsinə uyğun təfsir edilməlidir.
* Ofertanın geri götürülməsi (MM-in 408.3, 408.6-cı maddələri).
* MM-in 408.7-ci maddəsinə uyğun olaraq ümumi ofertanın xüsusiyyətləri.
* MM-in 408.2-ci maddəsinə uyğun olaraq ofertaya dəvətin xüsusiyyətləri.

bb. Oferta qəbul edilibmi?

* MM-in 409.1-ci maddəsində akseptə verilmiş anlayış. akseptin tamlığı və qeyd-şərtsizliyi.

---

[3] Sözsüz ki, müqavilənin bağlanması ilə bağlı hüquqi mübahisə burada göstərilən bütün normaların və hüquqi mövqelərin nəzərdən keçirilməsi üçün əsas verməyəcək. Sxemin məqsədi hüquq tətbiq edənə konkret halda aparılmalı olan yoxlamaya ehtiyacla bağlı göstərişlər vermək və eyni zamanda onu qanunun sistematikası ilə daha yaxından tanış etməkdir.

* Şəraitdən asılı olaraq MM-in 404-cü maddəsinə uyğun olaraq təfsir zəruri ola bilər, MM-in 409.4-cü maddəsinə görə, konkludent akseptin mümkünlüyü.
* Akseptin geri götürülməsi yalnız aksept çatmamış və ya onunla bir vaxtda çatdıqda mümkündür (MM-in 409.6-cı maddəsi).
* Prinsip: susmaq aksept sayılmır (MM-in 409.3-cü maddəsi).

cc. Oferta vaxtında qəbul edilibmi (MM-in 408-410-cu maddələri)?

* Oferta vasitəsilə aksept üçün müddətin müəyyən edilməsi (MM-in 409.2, 409.7-ci maddələri).
* Qanunla müəyyənləşdirilmiş müddət (MM-in 409.8-ci maddəsi).
* Ünvanında olmayan şəxsə edilən ofertanın qəbulu üçün müddət (MM-in 409.8 və 409.11-ci maddələri).
* Ünvanında olan şəxsin ofertanı dərhal qəbul etməsi (MM-in 409.9 və 409.10-cu maddələri).
* Qəbul edənin gec çatmış, amma açıq-aşkar vaxtında göndərilmiş aksept barədə məlumat vermək vəzifəsi (MM-in 409.5-ci maddəsi).
* Gecikmiş və ya fərqli məzmunda müqaviləni bağlamağa razılıq ifadə edən akseptin yeni oferta kimi dəyərləndirilməsi (MM-in 410-cu maddəsi).

dd. Tərəf müqavilənin bağlanması zamanı təmsil olunubmu (MM-in 359-366-cı maddələri)?

* Təmsilçilik səlahiyyətinin əsasları: əqd, qanun və ya başqa hüquqi akt (MM-in 359.1-ci maddəsi).

* Təmsilçinin təmsil edilənin adından özü barəsində əqdlər bağlamasına qadağa (MM-in 359.3-cü maddəsi).
* Səlahiyyət verilməyən təmsilçi [şəxs] (MM-in 360-cı maddəsi).
* Etibarnamə [əqd] əsasında təmsilçilik (MM-in 362-366-cı maddələri).

ee. Müqavilənin standart şərtləri: onlar müqavilənin tərkib hissəsinə çevrilibmi (MM-in 418, 419-cu maddələri)?

* MM-in 418-ci maddəsinə əsasən müqavilənin standart şərtlərinin tətbiqi.
* Qeyri-adi müddəalar, MM-in 419-cu maddəsi.

Müqavilə bağlanıbsa, növbəti məsələlər yoxlana bilər:

b. Müqavilə hüquqi cəhətdən etibarlıdırmı?

Mümkün problemlər:

aa. Fəaliyyət qabiliyyəti (MM-in 28-30, 342-345-ci maddələri).

bb. Müqavilənin forması ilə bağlı qaydalara əməl olunması (əvvəl öhdəlik hüququnun xüsusi hissəsindəki müddəalar, sonra MM-in 329-336-cı maddələri).

* Yazılı (MM-in 331-ci maddəsi) və ya notarial forma (MM-in 334-cü maddəsi).

* Formaya əməl edilməməsinin nəticəsi – əqdin etibarsızlığı (MM-in 329.1-ci maddəsi).

cc. Razılaşdırılmış şərtin baş verməsi (MM-in 328-ci maddəsi).

* Təxirəsalıcı (MM-in 328.6-cı maddəsi) və ləğvedici şərtlərin (MM-in 328.7-ci maddəsi) fərqləndirilməsi.
* Qanunazidd və ya icrası mümkün olmayan şərtlərin etibarsızlığı (MM-in 328.2-ci maddəsi), tərəflərin iradəsin-

dən asılı olan şərtlərin etibarsızlığı (MM-in 328.3-cü maddəsi).

dd. Məzmunla bağlı qüsurlar:

* Qanunazidlik (MM-in 337.1-ci maddəsi).
* Müqavilənin standart şərtlərinin etibarsızlığı (MM-in 420-ci maddəsi).
* Qeyri-müəyyənliklər şərtlərin daxil edilməsini təklif etmiş tərəfin ziyanına təfsir edilir (MM-in 419.2-ci maddəsi), lakin müqavilənin etibarlığına təsir etmir.

ee. İradə ilə bağlı qüsurlara dair mübahisələndirmə (MM-in 339-341-ci maddələri).

Mübahisələndirmə ilə bağlı iradə ifadəsi zəruridir, hakim qulluq mövqeyinə görə bunu nəzərə almır (sübutetmə vəzifəsini əqdi mübahisələndirən daşıyır).

* Hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin qarşı tərəflə pis niyyətlə razılığı [əlbir olması], ağır şərtli əqdin mübahisələndirilməsi (MM-in 339.1-ci maddəsi).
* Aldatma yolu ilə bağlanmış əqdin mübahisələndirilməsi (MM-in 339.2 və 339.3-cü maddələri).
* Məcburetmə nəticəsində bağlanmış əqdin mübahisələndirilməsi (MM-in 339.4-cü maddəsi).
* Yanılma nəticəsində bağlanmış əqdin mübahisələndirilməsi (MM-in 346, 347-ci maddələri).
* Uydurma, yalan və qeyri-ciddi əqdlərin etibarsızlığı (MM-in 340, 341-ci maddələri).

Müqavilənin etibarsızlığı zamanı aşağıdakı suallar yarana bilər:

ff. Müqavilə bütünlüklə və ya qismən etibarsızdır (MM-in 352-ci maddəsi)?

gg. Etibarsız əqd MM-in 353-cü maddəsinə əsasən etibarlı əqdə konversiya edilə bilərmi?

2. Tələbə xitam verilibmi?

(Sübutetmə vəzifəsini, bir qayda olaraq, tələbin borclusu daşıyır).

a. Müqavilə sonradan ləğv edilibmi?

aa. Razılaşma yolu ilə (MM-in 421.1-ci maddəsi).

bb. Ləğv edilmə və ya imtina yolu ilə (MM-in 421.2 və 421.3-cü maddələri)

* Müqaviləyə əsasən ləğv və ya imtina hüququ (MM-in 421.3-cü maddəsi).
* Öhdəlik hüququnun xüsusi hissəsində qanunla müəyyən olunmuş ləğv və ya imtina əsasları (MM-in 421.3-cü maddəsi).
* Müqavilənin əhəmiyyətli dərəcədə pozulması zamanı qanunla müəyyənləşdirilmiş ləğv və ya imtina hüququ (MM-in 421.2-ci maddəsi).

cc. Şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar (MM-in 422-ci maddəsi).

b. Etibarlı şəkildə yaranmış tələbə xitam verilibmi?

aa. İcra (MM-in 528-530-cu maddələri).

bb. Əvəzləşdirmə (MM-in 540-545-ci maddələri).

cc. İcranın mümkün olmaması (MM-in 556, 557-ci maddələri).

dd. Borcun bağışlanması (MM-in 546-549-cu maddələri).

ee. Müddətin keçməsi (MM-in 550-554-cü maddələri).

ff. Depozitə qoyulma (MM-in 532-539-cu maddələri).

gg. Borclu və kreditorun eyni şəxs olması (MM-in 555-ci maddəsi).

hh. Borclunun şəxsiyyəti ilə sıx bağlı olan öhdəliklərdə borclunun ölümü (MM-in 558-ci maddəsi).

ii. Hüquqi şəxsin ləğv edilməsi (MM-in 559-cu maddəsi).

jj. Novasiya (MM-in 531-ci maddəsi).

3. Tələb həyata keçirilə biləndirmi?

aa. İcra vaxtının çatmamasına görə tələb edə bilməmək (MM-in 427, 428-ci maddələri).

(Sübutetmə vəzifəsi: tələbin kreditoru).

* Öhdəliyin icrası müddəti təyin edilməyibsə, kreditor dərhal icranı tələb edə bilər (MM-in 427.2-ci maddəsi).
* Öhdəliyin icrası müddəti təyin edilibsə, kreditor icra vaxtına qədər tələbin icrasını tələb edə bilməz, lakin borclu öhdəliyi vaxtından əvvəl icra edə bilər (MM-in 427.1, 428.3-cü maddələri).

bb. İddia müddətinin keçməsi ilə öhdəliyin icrasının tələb edilməsinin qeyri-mümkünlüyü (MM-in 372-384-cü maddələri).

* MM-in 373-cü maddəsinə əsasən iddia müddəti, MM-in 377-ci maddəsinə görə iddia müddətinin başlanması.
* Tərəflərin iddia müddətinin keçməsinə istinad etməsi vəzifəsi; məhkəmə iddia müddətini yalnız tərəflərin ərizəsi ilə tətbiq edir (MM-in 375-ci maddəsi).
* MM-in 379-cu maddəsinə əsasən iddia müddətinin axımının dayandırılması.
* İddia müddəti axımının kəsilməsi (MM-in 380-382-ci maddələri).
* İddia müddəti bitdikdən sonra öhdəlik icra edilibsə, icra edilən geri tələb edilə bilməz (MM-in 383-cü maddəsi).
* İddia müddətinin şamil edilmədiyi tələblər (MM-in 384-cü maddəsi).

cc. Öhdəliyin icrasından imtina hüququnun həyata keçirilməsi nəticəsində tələbin icrasının tələb edilməsinin qeyri-mümkünlüyü (MM-in 441-ci maddəsi).

(Sübutetmə vəzifəsi: tələbin borclusu).

B. Azərbaycan Mülki Məcəlləsində olan bəzi vacib iddia tələblərinin qanuni əsaslarının və hüquq münasibətlərinin dəyişdirilməsinə yönələn hüquqların toplusu

I. İddia tələblərinin qanuni əsasları

1. İcra ilə bağlı tələblər

a. Alqı-satqı müqaviləsindən irəli gələn tələblər:

Maddə 567: Alıcının əşyanın onun mülkiyyətinə verilməsi barədə satıcıya qarşı tələbi; satıcının alıcıya qarşı əşyanın qəbul edilməsi və müəyyənləşdirilmiş pul məbləğinin ödənilməsi ilə bağlı tələbi.

Maddə 567, 597.1: Satıcının alıcıya qarşı alqı-satqı müqaviləsində müəyyənləşdirilmiş pul məbləğinin ödənilməsi barədə tələbi.

b. Əvəzsiz istifadə müqaviləsindən irəli gələn tələblər:

Maddə 732: Kirayəçinin əvəzsiz istifadə məqsədi ilə əşyanın ona verilməsi ilə bağlı kirayəyə verənə qarşı tələbi.

Maddə 736.1: Kirayəyə verənin müqavilə ilə müəyyənləşdirilmiş vaxt bitdikdən sonra əşyanın ona qaytarılması ilə bağlı kirayəçiyə qarşı tələbi.

c. Borc müqaviləsindən irəli gələn tələblər:

Maddə 739.1: Borc alanın borc verənə qarşı razılaşdırılmış məbləğdə pulun (və ya başqa əvəz edilən əşyanın) ona verilməsi barədə tələbi.

Maddə 741: Borc verənin borc alana qarşı borcun faizlərinin verilməsi ilə bağlı tələbi.

Maddə 742.1: Borc verənin borc alana qarşı qoyulmuş müddətdə (yaxud borc müqaviləsi ləğv edilərkən) borcun geri qaytarılması barədə tələbi.

Maddə 743: Borc alanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşdiyi, bu isə borcun qaytarılması tələbi üçün təhlükə yaratdığı hallarda borc verənin borc alana qarşı borcun dərhal geri qaytarılması tələbi.

ç. Podrat müqaviləsindən irəli gələn tələblər:

Maddə 753.1: Podratçının sifarişçiyə qarşı muzdun (razılaşdırılmış və ya adi) ödənilməsi barədə tələbi.

Maddə 759.2: Sifarişçinin müqaviləyə bilavasitə podratçının hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verildiyi hallarda podratçının yerinə yetirilmiş işin haqqının ödənilməsi ilə bağlı tələbi.

Maddə 760.1: Podratçının müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri nəticəsində baş verməyən və ya həmin hərəkətlərlə bağlı olmayan səbəbə görə xitam verdiyi hallarda podratçının yerinə yetirilmiş işin haqqının ödənilməsi ilə bağlı tələbi.

Maddə 760.2: Podratçının müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verdiyi hallarda podratçının yerinə yetirilmiş işin haqqının və müqavilənin ləğvi ilə vurulan zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbi.

d. Tapşırıq müqaviləsindən irəli gələn tələblər:

Maddə 777: Vəkalət verənin vəkalət alana qarşı tapşırığın (əqdlərin, işlərin və ya başqa xidmətlərin) icra edilməsi barədə tələbi.

Maddə 783.2: Bu barədə razılaşma olduqda, xüsusilə vəkalətin icrası vəkalət alanın müstəqil peşə fəaliyyətinə aid olduqda vəkalət alanın vəkalət verənə qarşı muzd ödənilməsi barədə tələbi.

Maddə 786.5: Əvəzli müqavilə zamanı vəkalət alanın müqaviləyə bilavasitə vəkalət verənin hərəkəti nəticəsində baş verən və ya həmin hərəkətlə bağlı olan səbəbə görə xitam verdiyi hallarda vəkalət alanın vəkalət verənə qarşı görülmüş işlərin haqqının ödənilməsi ilə bağlı tələbi.

Maddə 786.6: Əvəzli müqavilə zamanı vəkalət alanın müqaviləni bilavasitə vəkalət verənin hərəkəti nəticəsində baş verməyən və ya həmin hərəkətlə bağlı olmayan səbəbə görə ləğv etdiyi hallarda vəkalət alanın vəkalət verənə qarşı görülmüş işlərin haqqının ödənilməsi ilə bağlı tələbi.

e. Saxlama müqaviləsindən irəli gələn tələblər:

Maddə 824.3: Tapşıranın saxlayıcıya qarşı saxlamağa verilmiş əşyanı qaytarmaq tələbi.

ə. Əmlak kirayə müqaviləsindən irəli gələn tələblər:

Maddə 675: Kirayəçinin kirayəyə verənə qarşı əşyanın kirayəçinin istifadəsinə verilməsi tələbi.

Maddə 675: Kirayəyə verənin kirayəçiyə qarşı kirayə haqqının ödənilməsi tələbi.

f. İcarə müqaviləsindən irəli gələn tələblər:

Maddə 700.1: İcarəçinin icarəyə verənə qarşı icarəyə götürülən obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək tələbi (2-ci cümlə).

Maddə 700.1: İcarəyə verənin icarəçiyə qarşı müəyyənləşdirilmiş icarə haqqının ödənilməsi tələbi (3-cü cümlə).

g. Broker müqaviləsindən irəli gələn tələblər:

Maddə 787.1: Sifarişçinin brokerə qarşı vasitəçilik xidmətlərinin göstərilməsi ilə bağlı tələbi.

Maddə 787.1, 788.1: Brokerin sifarişçiyə qarşı muzd almaq tələbi.

ğ. Qanunla əsaslandırılmış hüquq münasibətlərindən irəli gələn tələblər:

Maddə 1161: Mirasqoyanın himayəsində olmuş və özünü müstəqil saxlaya bilməyən əmək qabiliyyəti olmayan şəxsin adı vəsiyyətnamədə çəkilmədiyi hallarda onun mirasdan dolanacaq təminatı (alimentlər) tələbi.

Maddə 1193: Məcburi pay almaq hüququ.

Maddə 1200: Mirasqoyan əşyanı üçüncü şəxsə bağışladıqda məcburi pay almaq hüququ olan şəxsin, bağışlanmış əşya mirasa daxil olsaydı, onun məcburi payının arta biləcəyi məbləğdə məcburi payın tamamlanması tələbi.

Maddə 1201: Məcburi pay almaq hüququ olan şəxsə qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az əmlak vəsiyyət edilibsə, onun vəsiyyət üzrə aldığı payın qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az olduğu hissəsinin verilməsi tələbi.

Maddə 1205: Vəsiyyət tapşırığı alanın vərəsələrə qarşı leqatın predmetinin icrası ilə bağlı tələbi.

Maddə 1210 və 1205: Vəsiyyət tapşırığı alanın vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsənin yerinə keçən (vəsiyyət tapşırığının icrasının həvalə olunduğu vərəsə miras açılanadək öldüyü və ya mirasdan imtina etdiyi hallarda) şəxsə qarşı vəsiyyət tapşırığının icrası tələbi.

2. Geri qaytarılma barədə tələblər

Maddə 157.2: Mülkiyyətçinin əmlakının özgəsinin qanunsuz sahibliyindən geri qaytarılması barədə tələbi.

Maddə 164.2: Sahiblikdən məhrum olanın qanunsuz sahibdən sahibliyin qaytarılması tələbi.

Maddə 288.1: Girov saxlayanın qanunsuz sahibə qarşı girov qoyulmuş əşyanın qaytarılması tələbi.

Maddə 294.2: Girova xitam verildikdən sonra girov qoyanın girov saxlayana qarşı girov qoyulmuş əşyanı qaytarmaq tələbi.

Maddə 697.1: Kirayə müqaviləsinə xitam verildikdən sonra kirayəyə verənin kirayəçiyə qarşı kirayəyə götürülmüş əşyanın qaytarılması tələbi.

Maddə 782.1: Vəkalət verənin vəkalət alana qarşı tapşırığın icrası nəticəsində əldə olunanların hamısının ona (vəkalət verənə) verilməsi barədə tələbi.

Maddə 1142: Vərəsənin ləyaqətsiz vərəsə sayılmış şəxsə qarşı vərəsəlik üzrə aldıqlarının hamısının qaytarılması barədə tələbi.

Maddə 1158 və 157.2: Mirasa daxil olmayan əmlakın mülkiyyətçisinin vərəsəyə qarşı həmin əşyanın qaytarılması tələbi.

Maddə 1251: Həqiqi vərəsənin mirasın sahibinə qarşı mirasa daxil olan əşyaların satışından götürülən məbləğin qaytarılması tələbi.

3. Zərərin ödənilməsi barədə tələblər

a. Müqavilədə nəzərdə tutulan zərərin ödənilməsi ilə bağlı tələblər

aa. Ümumi tələblər

Maddə 347.7 cümlə 1: Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş tərəf yanılmanın qarşı tərəfin təqsiri üzündən əmələ gəldiyini sübuta yetirərsə, onun dəymiş real zərərin ödənilməsi tələbi.

Maddə 347.7 cümlə 2: Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş tərəf yanılmanın qarşı tərəfin təqsiri üzündən əmələ gəldiyini sübuta yetirə bilməsə, qarşı tərəfin dəymiş real zərərin ödənilməsi tələbi.

Maddə 360.1: Təmsilçilik səlahiyyəti olmadan və ya həmin səlahiyyətləri aşmaqla müqavilə bağlamış təmsilçiyə qarşı müqavilə tərəfinin zərərin ödənilməsi (və ya icra) tələbi.

Maddə 424.5: Tərəflərdən birinin müqaviləni əhəmiyyətli dərəcədə pozması nəticəsində müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsinə görə qarşı tərəfin dəymiş zərərin ödənilməsi barədə tələbi.

Maddə 443.1: Borclunun vəzifələrini yerinə yetirmədiyi hallarda (icra etməmə, lazımınca icra etməmə, icranın gecikdirilməsi, əlavə icra vəzifələrindən birinin, yəni qayğı və müdafiə vəzifələrinin icra edilməməsi) kreditorun ona dəymiş zərərin ödənilməsi barədə tələbi.

Maddə 445.1: Kreditorun borcluya qarşı icranı gecikdirməsi nəticəsində dəymiş zərərin ödənilməsi barədə tələbi.

Maddə 447.7: Qarşılıqlı müqavilədən irəli gələn vəzifələri borclu icra etmədikdə kreditorun ona dəymiş zərərin ödənilməsi tələbi.

bb. Alqı-satqı müqaviləsindən irəli gələn tələblər

Maddə 575.2 və 452.2: Satıcının icradan imtina etməsi nəticəsində alıcının satıcıya qarşı dəymiş zərərin ödənilməsi barədə tələbi.

Maddə 587.5 cümlə 2 və 157.5: Satıcının vicdansız alıcıya qarşı alıcı əşyanın qüsurları ilə bağlı alqı-satqı müqaviləsini ləğv edən zaman əşyaya ziyan yetirilməsindən doğan zərərin ödənilməsi tələbi.

cc. Bağışlama müqaviləsindən yaranan tələb

Maddə 672: Hədiyyə alanın hədiyyə ilə əlaqədar ona qəsdən və ya kobud ehtiyatsızlıqla vurulmuş zərərin ödənilməsi barədə hədiyyə verənə qarşı tələbi.

çç. Əmlak kirayəsi müqaviləsindən yaranan tələb

Maddə 677.3: Kirayə müddəti ərzində yaranan və kirayəçinin kirayəyə verənə bu barədə bildiriş vermədiyi qüsurlar nəticəsində kirayəyə verənin kirayəçiyə qarşı dəymiş zərərin ödənilməsi barədə tələbi.

dd. Podrat müqaviləsindən yaranan tələblər

Maddə 756.1 cümlə 1: Sifarişçi yerinə yetirilmiş qüsursuz işi qəbul etmədiyi halda podratçının sifarişçiyə qarşı zərərin ödənilməsi tələbi.

Maddə 756.1 cümlə 2: Sifarişci işin yerinə yetirilməsi üçün zəruri hərəkətləri icra etmədiyi halda podratçının sifarişçiyə qarşı zərərin ödənilməsi tələbi.

Maddə 765: Məmulatın qüsuru nəticəsində sifarişçi müqavilədən imtina etdiyi hallarda sifarişçinin podratçıya qarşı dəymiş zərərin ödənilməsi barədə tələbi.

ee. Tapşırıq müqaviləsindən yaranan tələblər

Maddə 778.3: Vəkalət alanın tapşırılmış əqdin icrası üçün vəkalət verənin göstərişlərindən əsassız olaraq kənara çıxdığı hallarda vəkalət verənin vəkalət alana qarşı vurulmuş zərərin ödənilməsi tələbi.

Maddə 779.1 cümlə 1: Əvəzli tapşırığı vəkalət alanın qəsdən və ehtiyatsızlıq üzündən kifayət qədər vicdanla icra etməməsi nəticəsində vəkalət verənə dəymiş zərərin ödənilməsi barədə vəkalət verənin vəkalət alana qarşı tələbi.

Maddə 779.1 cümlə 2: Əvəzsiz tapşırığı vəkalət alanın qəsdən və ehtiyatsızlıq üzündən kifayət qədər vicdanla icra etməməsi nəticəsində vəkalət verənə dəymiş zərərin ödənilməsi barədə vəkalət verənin vəkalət alana qarşı tələbi.

Maddə 784: Tapşırığın icrası gedişində vəkalət alana dəyən zərərin (vəkalət verən zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməzsə) ödənilməsi barədə vəkalət alanın vəkalət verənə qarşı tələbi.

Maddə 786.1 cümlə 2: Əvəzli tapşırıq müqaviləsinə xitam verildiyi zaman zərərin ödənilməsi tələbi.

əə. Saxlama müqaviləsindən yaranan tələb

Maddə 823.3: Saxlayıcının saxlamaya götürülmüş əşyanın xarakteri ilə əlaqədar düşdüyü zərərin ödənilməsi ilə bağlı tapşırana qarşı tələbi.

b. Müqaviləyə oxşar əsaslardan irəli gələn zərərin ödənilməsi ilə bağlı tələblər

Maddə 386.3: Danışıqların bir iştirakçısının başqa iştirakçının təqsirli hərəkəti nəticəsində bağlanmayan müqavilənin bağlanması üçün çəkdiyi xərclərin ödənilməsi tələbi.

c. Qanunla əsaslandırılmış hüquq münasibətlərindən irəli gələn zərərin ödənilməsi ilə bağlı tələblər

aa. Şərəf və ləyaqətin ləkələnməsi ilə bağlı tələblər

Maddə 23.4: Fiziki şəxsin şərəf və ləyaqətinin ləkələnməsi zamanı vurulan həm maddi, həm də qeyri-maddi (Konstitusiya Məhkəməsinin qərarına əsasən) zərərin ödənilməsi tələbi.

Maddə 23.6 və 23.4: İşgüzar nüfuzun ləkələnməsi zamanı hüquqi şəxsin dəymiş maddi zərərin ödənilməsi tələbi.

bb. Mülkiyyətçi və sahib arasındakı münasibətdən irəli gələn tələb

Maddə 157.5: Mülkiyyətçinin səlahiyyətsiz vicdansız sahibə qarşı əşyanın zərər çəkməsi ilə bağlı zərərin ödənilməsi tələbi.

Maddə 225.6: Daşınmaz əmlakı əldə edənin daşınmaz əmlaka birgə hüququ olan ərin (arvadın) razılığı olmadan əmlakı özgəninkiləşdirən birgə mülkiyyətçiyə qarşı, özgəninkiləşdirən birgə mülkiyyətçi müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, zərərin ödənilməsi hüququ.

cc. Özgə işlərinin tapşırıqsız aparılması zamanı yaranan tələblər

Maddə 1089.1: Sahibkarın icraçının işləri aparması gedişində qəsdən və ya ehtiyatsızlıq üzündən vurduğu zərərin ödənilməsi ilə bağlı icraçıya qarşı tələbi (özgə işlərinin tapşırıqsız aparılması sahibkarın iradəsinə uyğun surətdə həyata keçirilən zaman).

Maddə 1089.3: Özgə işlərinin tapşırıqsız aparılması sahibkarın iradəsinə zidd surətdə həyata keçirilən zaman sahibkarın ona dəymiş zərərin ödənilməsi ilə bağlı icraçıya qarşı tələbi.

çç. Mülki hüquq pozuntularından irəli gələn tələblər

Maddə 1097.1: Mülki hüquq pozuntusu nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin ödənilməsi tələbi.

Maddə 1097.1: Mülki hüquq pozuntusu nəticəsində hüquqi şəxsin əmlakına və işguzar nüfuzuna vurulmuş zərərin ödənilməsi tələbi.

Maddə 1099.1: Hüquqi və ya fiziki şəxsin işçisinin törətdiyi mülki hüquq pozuntusu nəticəsində hüququ pozulmuş şəxsin hüquqi və ya fiziki şəxsdən zərərin ödənilməsi tələbi.

Maddə 1100: Dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və ya həmin orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulan zərərin ödənilməsi ilə bağlı Azərbaycan Respublikasına və ya bələdiyyəyə qarşı tələb.

Maddə 1101.1: Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq, qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qətimkan tədbiri kimi həbsəalmanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində fiziki

şəxsə vurulmuş zərərin ödənilməsi ilə bağlı Azərbaycan Respublikasına qarşı tələb.

Maddə 1103: On dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın (azyaşlının) törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərərin ödənilməsi ilə bağlı azyaşlının valideynləri (övladlığa götürənlər) və ya qəyyumuna qarşı tələb.

Maddə 1104: On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın gəliri və ya başqa əmlakı törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəymiş zərərin ödənilməsi üçün yetərli olmadıqda, yetkinlik yaşına çatmayanın valideynləri (övladlığa götürülənlər) və ya himayəçisinə qarşı zərərin ödənilməsi ilə bağlı tələb.

Maddə 1105: Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərərin ödənilməsi ilə bağlı qəyyumu və ya ona nəzarət etməli olan təşkilata qarşı tələb.

Maddə 1108.1: Ətrafdakılar üçün xüsusi təhlükə yaradılması nəticəsində vurulan zərərin ödənilməsi ilə bağlı hadisəni törədən şəxsə qarşı tələb (həmin şəxsin hadisənin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirdiyi hallar istisnadır).

Maddə 1110: Heyvan sahibinə qarşı onun heyvanının başqalarına vurduğu zərərin ödənilməsi ilə bağlı tələb.

Maddə 1111: Binanın tamamilə və ya ayrı-ayrı hissələrinin uçması nəticəsində əmələ gələn zərərin ödənilməsi ilə bağlı binanın sahibinə qarşı olan tələb (zərərin binanın lazımınca saxlanmamasından və ya qüsurundan irəli gəlmədiyi hallar istisna olunur).

Maddə 1114.1: Başqa şəxsin vurduğu zərəri ödəmiş şəxsin həmin şəxsə qarşı ödənilmiş əvəz miqdarında geriyə tələb (reqress) hüququ – reqress tələbi.

Maddə 1114.2: Birlikdə vurulmuş zərəri ödəmiş zərərvuran şəxsin başqa zərərvuranlara qarşı zərərçəkənə ödənilmiş əvəzin bir hissəsini tələb etmək hüququ.

Maddə 1117: Müqavilə öhdəliklərinin icrası zamanı, hərbi qulluq, polisdə qulluq vəzifələrinin və başqa vəzifələrin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin qanunda nəzərdə tutulmuş qaydalar üzrə ödənilməsi tələbi.

Maddə 1120.1: On dörd yaşı tamam olmamış və qazancı (gəliri) olmayan yetkinlik yaşına çatmayana (azyaşlıya) xəsarət yetirildikdə və ya onun sağlamlığı başqa şəkildə pozulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsə qarşı sağlamlığın pozulması ilə əlaqədar çəkilən xərclərin ödənilməsi ilə bağlı tələb.

Maddə 1120.2: Zərərçəkən azyaşlı on dörd yaşına çatdıqda, habelə qazancı (gəliri) olmayan on dörd yaşından on səkkiz yaşınadək yetkinlik yaşına çatmayana zərər vurulduqda zərərin vurulması üçün məsuliyyət daşıyan şəxsə qarşı zərərçəkənə sağlamlığın pozulması ilə bağlı xərclərdən əlavə, əmək qabiliyyətinin itirilməsi və ya azalması ilə əlaqədar zərərin ödənilməsi ilə bağlı tələb.

Maddə 1121 və 1097: Mülki hüquq pozuntusu nəticəsində ailə başçısının ölümü zamanı üçüncü şəxslərin zərərin ödənilməsi ilə bağlı tələbləri.

Maddə 1129.1 və 1128.1 cümlə 1: Malın qüsurları nəticəsində fiziki şəxsin həyatına, sağlamlığına və ya əmlakına vurulmuş zərəri zərərçəkənin seçimi üzrə məhsulun satıcısı və ya istehsalçısının ödəməsi tələbi (təqsirin olub-olmamasından asılı olmayaraq).

Maddə 1129.1 və 1128.1 cümlə 2: Malın qüsurları nəticəsində fiziki şəxsin həyatına, sağlamlığına vurulmuş zərəri zə-

rərçəkənin seçimi ilə məhsulun satıcısı və ya istehsalçısının ödəməsi tələbi (təqsirin olub-olmamasından asılı olmayaraq).

Maddə 1129.1 və 1128.1 cümlə 2: Malın qüsurları nəticəsində başqa əmlaka vurulmuş zərəri zərərçəkənin seçimi ilə məhsulun satıcısı və ya istehsalçısının ödəməsi tələbi (təqsirin olub-olmamasından asılı olmayaraq).

Maddə 1129.2 və 1128.1 cümlə 1: İşin və ya xidmətin qüsurları nəticəsində vurulmuş zərəri işi görmüş və ya xidməti göstərmiş şəxsin ödəməsi tələbi (təqsirin olub-olmamasından asılı olmayaraq).

Maddə 1129.2 və 1128.1 cümlə 2: İşin və ya xidmətin qüsurları nəticəsində başqa əmlaka vurulmuş zərəri işi görmüş və ya xidməti göstərmiş şəxsin ödəməsi tələbi (təqsirin olub-olmamasından asılı olmayaraq).

dd. Vəsiyyətnamənin icrasından irəli gələn tələblər

Maddə 1242: Vəsiyyətnamənin icraçısının vəsiyyətnamə ilə onun öhdəsinə qoyulmuş vəzifələrin icrasından qəsdən və ya kobud ehtiyatsızlıq üzündən kənara çıxdığı və bununla da vərəsələrə zərər vurduğu hallarda vərəsələrin vəsiyyətnamənin icraçısına qarşı zərərin ödənilməsi ilə bağlı tələbi.

4. Müqavilədə nəzərdə tutulan qarantiya tələbləri

a. Alqı-satqı müqaviləsi

Maddə 575.2 və 452.1: Satıcı fərdi-müəyyən əşyanı verməkdən imtina etdikdə alıcının satıcıya qarşı müqavilə şərtlərinə uyğun olaraq əşyanın alınması və alıcıya verilməsi tələbi.

Maddə 578.1: Satıcı alqı-satqı müqaviləsini pozaraq alıcıya müqavilədə müəyyənləşdirildiyindən az miqdarda əşya verdikdə alıcının, müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, çatışmayan miqdarda əşya verilməsi tələbi və ya verilmiş

əşyadan və onu ödəməkdən imtina etməsi, əşya ödənildikdə isə ödənilmiş pul məbləğinin qaytarılması tələbi.

Maddə 587.1.1: Lazımi keyfiyyətdə olmayan əşya verildikdə alıcının satıcıya qarşı alış qiymətinin mütənasib surətdə azaldılması barədə tələbi.

Maddə 587.1.2: Lazımi keyfiyyətdə olmayan əşya verildikdə alıcının satıcıya qarşı əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırılması barədə tələbi.

Maddə 587.1.3: Lazımi keyfiyyətdə olmayan əşya verildikdə alıcının satıcıya qarşı əşyanın qüsurlarının aradan qaldırılması üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsi barədə tələbi.

Maddə 587.2.1: Satıcının əşyanın qüsurları barədə qabaqcadan məlumat vermədiyi halda alıcının əşya üçün ödədiyi pul məbləğinin geri qaytarılması tələbi ilə müqavilədən çıxmaq hüququ (müqavilənin icrasından imtina).

Maddə 587.2.2: Əşyanın keyfiyyətinə aid tələblər əhəmiyyətli dərəcədə pozulduqda alıcının satıcıya qarşı lazımi keyfiyyətdə olmayan əşyanın müqaviləyə uyğun əşya ilə əvəz edilməsi tələbi.

Maddə 592.1.1: Komplektsiz əşya verildikdə alıcının satıcıya qarşı alış qiymətinin mütənasib surətdə azaldılması tələbi.

Maddə 592.1.2: Komplektsiz əşya verildikdə alıcının satıcıya qarşı əşyanın komplektinin ağlabatan müddətdə tamamlanması tələbi.

Maddə 592.2.1: Satıcı əşyanın komplektinin tamamlanması barədə alıcının tələbini ağlabatan müddətdə yerinə yetirməzsə, alıcının satıcıya qarşı komplektsiz əşyanın komplektli əşya ilə əvəz olunması tələbi.

Maddə 594.1: Taralaşdırılmalı və (və ya) qablaşdırılmalı əşya alıcıya tarasız və (və ya) qabsız verildikdə və ya qeyrimünasib tarada və (və ya) qabda verildikdə, alıcının satıcıya

qarşı əşyanın taralaşdırılması və (və ya) qablaşdırılması və ya qeyri-münasib taranın və (və ya) qabın dəyişdirilməsi tələbi.

Maddə 598.3: Alıcı alqı-satqı müqaviləsinə uyğun olaraq verilmiş əşyanı vaxtında ödəmirsə, satıcının alıcıya qarşı əşyanın ödənilməsi və MM-in 449-cu maddəsinə uyğun faizlərin ödənilməsi barədə tələbi.

b. Pərakəndə alqı-satqı müqaviləsi

Maddə 624.1.1: Alıcının satıcıya qarşı keyfiyyətsiz malın lazımi keyfiyyətli malla əvəz edilməsi tələbi.

Maddə 624.1.2: Alıcının satıcıdan alış qiymətinin mütənasib surətdə azaldılması tələbi.

Maddə 624.1.3: Alıcının satıcıdan malın qüsurlarının təxirə salınmadan əvəzsiz qaydada aradan qaldırılması tələbi.

Maddə 624.1.4: Alıcının satıcıdan malın qüsurlarının aradan qaldırılmasına çəkilmiş xərclərin ödənilməsi tələbi.

Maddə 624.4: Alıcının müqavilənin icrasından imtina etmək və mal üçün ödədiyi pulun qaytarılmasını tələb etmək hüququ.

c. Əmlak kirayəsi müqaviləsi

Maddə 677.1.1: Kirayə müqaviləsinin predmeti olan əşyanın müqavilənin şərtlərinə uyğun olmamasına görə kirayəçinin kirayəyə verənə qarşı kirayə haqqının azaldılması tələbi.

Maddə 677.1.2: Əşyanın müqavilənin şərtlərinə uyğun gəlmədiyi (qüsurlu olduğu) hallarda kirayəçinin kirayəyə verənə qarşı zərərin ödənilməsi tələbi.

Maddə 677.1.3: Kirayəyə verən gecikdirdikdə kirayəçinin qüsuru özünün aradan qaldırması və kirayəyə verənə qarşı çəkdiyi zəruri xərclərin ödənilməsi tələbi.

Maddə 677.1.4: Kirayəçinin kirayəyə götürdüyü əşyanı tamamilə və ya qismən müqavilə üzrə istifadəyə müəyyənləşdirilmiş müddətdə almadığı və ya əşyanın ondan götürüldüyü və ya əhəmiyyətli dərəcədə pisləşdiyi, kirayəyə verənin isə gecikdirməyə yol verdiyi halda kirayəçinin xəbərdarlıq müddətini gözləmədən müqaviləni ləğv etmək hüququ.

ç. Podrat müqaviləsi

Maddə 763.1: Məmulatın qüsuru olan zaman sifarişçinin podratçıya qarşı əlavə icra tələbi. Bu zaman podratçı öz seçimi ilə ya qüsuru aradan qaldıra, ya da yeni məmulat hazırlaya bilər.

Maddə 765: Məmulatın qüsuru nəticəsində sifarişçi müqavilədən imtina edərsə, sifarişçinin podratçıya qarşı müqavilə ilə bağlı xərclərin ödənilməsi barədə tələbi.

Maddə 766: İcra (görülən iş) qüsurlu olduqda sifarişçinin podratçıya qarşı muzdun azaldılması tələbi.

Maddə 771: Podratçının diqqətsizliyi üzündən əmlakın məhv olması və ya zədələnməsi nəticəsində sifarişçinin podratçıya qarşı zərərin ödənilməsi tələbi.

5. Çəkilən xərclərin ödənilməsi ilə bağlı tələblər

a. Mülkiyyətçi-sahib münasibəti

Maddə 157.6: İstər vicdanlı, istərsə də vicdansız səlahiyyətsiz sahibin mülkiyyətçiyə qarşı əşyaya sərf etdiyi zəruri məsrəflərin ödənilməsi tələbi.

Maddə 157.7: Vicdanlı səlahiyyətsiz sahibin mülkiyyətçiyə qarşı əşyanı yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin ödənilməsi tələbi.

b. Alqı-satqı müqaviləsi

Maddə 587.5 cümlə 2 və 157.6: Alıcı əşyanın qüsurları ilə əlaqədar alqı-satqı müqaviləsini ləğv edən zaman vicdanlı və

ya vicdansız alıcının satıcıya qarşı əşyaya sərf etdiyi zəruri məsrəflərin ödənilməsi ilə bağlı tələbi.

Maddə 587.5 cümlə 2 və 157.7: Alıcı əşyanın qüsurları ilə əlaqədar alqı-satqı müqaviləsini ləğv edən zaman vicdanlı alıcının satıcıya qarşı əşyanı yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin ödənilməsi ilə bağlı tələbi.

c. Əmlak kirayəsi müqaviləsi

Maddə 680: Kirayəçinin kirayəyə verənə qarşı kirayəyə verilmiş əşyanın saxlanması və ya bərpası üçün çəkdiyi xərclərin ödənilməsi barədə tələbi.

ç. Tapşırıq

Maddə 783.1: Vəkalət alanın vəkalət verənə qarşı tapşırığı vicdanla icra edərkən çəkdiyi xərclərin ödənilməsi və üzərinə götürdüyü öhdəliklərdən azad edilməsi bərədə tələbi.

d. Saxlama müqaviləsi

Maddə 823.1: Saxlayıcının tapşırana qarşı saxlama müqaviləsinin icrası ilə bağlı saxlayıcının çəkdiyi zəruri xərclərin ödənilməsi ilə bağlı tələbi.

e. Özgə işlərini tapşırıqsız aparma

Maddə 1090.1: Özgə işlərinin tapşırıqsız aparılması sahibkarın iradəsinə uyğun həyata keçirilən zaman icraçının sahibkara qarşı çəkdiyi xərclərin ödənilməsi və öhdəliklərdən azad olunması barədə tələbi.

Maddə 1090.2: İşlərin idarə etməyə qəbul olunması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlmirsə, lakin işlərin idarə olunması prosesində sahibkar varlanıbsa, icraçının sahibkara qarşı xərclərin ödənilməsi və öhdəliklərdən azad olunması barədə tələbi.

ə. Əsassız varlanma

Maddə 1094.1 və 157.6: Vicdanlı və vicdansız varlanmış şəxsin məhrum olana qarşı hüquqi əsas olmadan aldığı əşyaya sərf etdiyi zəruri məsrəflərin ödənilməsi ilə bağlı tələbi.

Maddə 1094.1 və 157.7: Vicdanlı varlanmış şəxsin məhrum olana qarşı hüquqi əsas olmadan aldığı əşyanı yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin ödənilməsi ilə bağlı tələbi.

6. Əsassız varlanma və geri qaytarma ilə bağlı tələblər

Maddə 157.5: Mülkiyyətçinin səlahiyyətsiz vicdansız sahibə qarşı əmlakın onda olduğu vaxt ərzində götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılması barədə tələbi.

Maddə 191-1: MM-in 188, 190, 191-ci maddələrinə uyğun olaraq emal, qatılma və birləşmə halında mülkiyyətini itirən əvvəlki mülkiyyətçinin yeni mülkiyyətçiyə qarşı zərərin ödənilməsi tələbi.

Maddə 337.5: Etibarsız əqd əsasında tərəflərdən hər birinin əqd üzrə aldıqlarının qarşı tərəfə qaytarılması ilə bağlı tələbi.

Maddə 339.5 və 337.5: Hakimiyyətdən sui-istifadə, aldatma, zorakılıq, hədə təsiri altında, şəxsin ağır vəziyyətə düşməsi nəticəsində etibarsız elan olunmuş əqd bağlanan zaman zərərçəkənin qarşı tərəfdən əqd üzrə aldıqlarının geri qaytarılması barədə tələbi.

Maddə 342.1: Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı etibarsız əqd zamanı müqavilə tərəflərinin əqd üzrə aldıqlarının qarşı tərəfə qaytarılması, bu mümkün olmadıqda isə onun dəyərinin pulla ödənilməsi ilə bağlı tələbi.

Maddə 439.4: Öhdəlikdən kənar ödənilmiş pulun geri ödənilməsi tələbi.

Maddə 475.1: Kreditorun tələbləri ödənildikdə zaminin borcluya qarşı kreditora ödənilmiş məbləğdən faizlər ödənil-

məsi və borclunun əvəzinə məsuliyyətlə bağlı çəkdiyi başqa zərərin ödənilməsi barədə tələb.

Maddə 509.1: Birgə öhdəliyi icra etmiş borclunun qalan borclulara qarşı onların paylarına mütənasib surətdə, lakin öz payı çıxılmaqla reqress qaydasında tələb hüququ.

Maddə 509.3: Birgə öhdəliyi icra etmiş borclunun qalan borclulara qarşı kreditordan ona keçmiş başqa borclulara qarşı tələbdən irəli gələn tələb hüququ.

Maddə 587.2.1: Əşyanın keyfiyyətinə dair tələblər əhəmiyyətli dərəcədə pozulduqda alıcı alqı-satqı müqaviləsinin icrasından imtina etdikdə alıcının satıcıya qarşı əşya üçün ödədiyi pul məbləğinin qaytarılması ilə bağlı tələbi.

Maddə 587.5 cümlə 1: Alıcı əşyanın qüsurları ilə əlaqədar alqı-satqı müqaviləsinin ləğvini tələb etdikdə, satıcının alıcıya qarşı qüsurlu əşyanın geri qaytarılması ilə bağlı tələbi.

Maddə 587.5 cümlə 2 və 157.5: Alıcı əşyanın qüsurları ilə əlaqədar alqı-satqı müqaviləsinin ləğvini tələb etdikdə, satıcının vicdansız alıcıya qarşı qüsurlu əşya onda olduğu vaxt ərzində götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılması ilə bağlı tələbi.

Maddə 606.1: Mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərtlə əşyanı alıcıya vermiş satıcının alıcıya qarşı, verilmiş əşyanın qiyməti müqavilədə nəzərdə tutulan müddətdə ödənilmədikdə, əşyanı ona qaytarmağı tələb etməsi.

Maddə 1092.1/1091.1: Məhrum olanın varlanmış şəxsə qarşı hüquqi əsas olmadan məhrum olanın hüquqlarına müdaxilə etməklə əldə etdiklərinin ona qaytarılması barədə tələbi.

Maddə 1092.1.1 və 157.5: Məhrum olanın vicdansız varlanmış şəxsə qarşı hüquqi əsas olmadan əldə edilənlər varlanmış şəxsdə olduğu vaxt ərzində götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılması ilə bağlı tələbi.

Maddə 1092.1.2 və 157.5: Məhrum olanın vicdansız varlanmış şəxsə qarşı hüquqi əsas olmadan əldə etdiklərinə əsasən və ya onlar üçün kompensasiya kimi əldə etdiyinin və ya qəsdən əldə etmədiyinin qaytarılması ilə bağlı tələbi.

Maddə 1093.1: Öhdəliyin icrası üçün deyil, varlanmış şəxsin hər hansı hərəkəti yerinə yetirməsi və ya yerinə yetirməməsi üçün varlanmış şəxsə nə isə verən məhrum olanın varlanmış şəxsə qarşı onun əməli gözlənilən məqsədə uyğun olmadıqda verdiyini geri tələb etmək hüququ.

Maddə 1142: Vərəsənin ləyaqətsiz vərəsəyə qarşı vərəsəlik üzrə aldıqlarının hamısını bəhərlər və gəlirlər ilə birlikdə qaytarmaq barədə tələbi.

Maddə 1250: Mirasa vicdanlı sahiblik edənin mirasa qoyduğu bütün kapitalı tələb etmək hüququ.

7. Aradan qaldırma, təkzib və hərəkətə son qoymaqla bağlı tələblər

Maddə 23.3: Hər hansı fiziki və hüquqi şəxsin (maddə 23.6 ilə birlikdə) şərəf, ləyaqət və yaxud işgüzar nüfuzunu ləkələyən məlumatlar dərc olunan zaman həmin kütləvi informasiya vasitəsində öz cavablarını dərc etdirmək hüququ.

Maddə 157.4: Mülkiyyətə qəsd edilən zaman mülkiyyətçinin bu hərəkətlərə son qoyulması barədə tələbi.

Maddə 165.1: Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahibin pozucuya qarşı pozuntulara son qoyulması barədə tələbi.

Maddə 288.2: Girov saxlayana ona verilmiş girov predmetindən istifadə hüququ verildikdə bu hüququn hər çür pozuntularını aradan qaldırmaq barədə tələbi.

Maddə 1098.1: Gələcəkdə zərər vurulması təhlükəsi varsa, bu cür təhlükəni yaradan fəaliyyətin qadağan edilməsi barədə tələb.

Maddə 1098.2: Vurulmuş zərər onu vurmaqda davam edən və ya yeni zərər vurulması təhlükəsi törədən binanın, qurğunun istismarının və ya istehsal fəaliyyətinin nəticəsidirsə, cavabdehə qarşı fəaliyyəti dayandırmaq və ona xitam vermək tələbi.

8. Məhdud əşya hüquqlarından irəli gələn məcburi icranın həyata keçirilməsi (tələbin əşyaya yönəldilməsi) barədə tələblər

Maddə 295/297: Girov qoyanın girov saxlayana qarşı girov qoyulmuş əşyanın açıq hərracdan satış yolu ilə realizə edilməsi barədə tələbi.

Maddə 317/319: İpoteka saxlayanın ipoteka verənə qarşı daşınmaz əşyanın açıq hərracdan satış yolu ilə realizə edilməsi barədə tələbi.

9. Başqa tələblər

Maddə 23.1: Fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi həyat sirrini və şəxsi toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunması barədə tələbi (bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübut edə bilməsin).

Maddə 23.2: Məlumat kütləvi informasiya vasitələrində yayılıbsa, 23.1-ci maddədəki tələb.

Maddə 141.1: Daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyilsə, hüququ qeydə alınmayan və ya hüququ düzgün qeydə alınmayan şəxsin, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxsin daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb etmək hüququ.

Maddə 141.3: Daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyilsə, hüququ qeydə alınmayan və ya hüququ düzgün qeydə alınmayan şəxsin həqiqi hüququ əsas olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış şəxsə qarşı daşınmaz əmlakın dövlət reyestrinə etirazla bağlı qeydin daxil edilməsinə razılıq verməsini tələb etmək hüququ.

Maddə 599.4: Satıcı qabaqcadan ödənilmiş əşyanı vermək vəzifəsini icra etmədikdə, əşyanın müqaviləyə görə verilməli olduğu gündən alıcıya verildiyi və ya qabaqcadan ödədiyi məbləğin ona qaytarıldığı günədək qabaqcadan ödəniş məbləğindən faizlər ödənilməsi barədə alıcının satıcıya qarşı tələbi.

Maddə 669: Nəyi isə bağışlamaq niyyəti ilə başqa şəxsə verən şəxsin hədiyyə alan hədiyyəni qəbul edənədək istədiyi vaxt hədiyyəni geri götürmək hüququ.

Maddə 1276: Vərəsənin miras əmlakdan payının naturada ayrılmasını tələb etmək hüququ.

Maddə 1297: Ailə təsərrüfatında əməyi ilə, mirasqoyanın peşə və kommersiya fəaliyyətində iştirakla, özünün çəkdiyi xeyli xərclərlə, yaxud başqa şəkildə mirasqoyanın əmlakının qorunmasına və artırılmasına xüsusi töhfə vermiş övladın mirasqoyanın əmlakı bölüşdürülərkən onunla birlikdə qanun üzrə vərəsə sayılan və miras tələb edən qohumlarla bərabərləşdirilməsi tələbi.

Maddə 1306.1: Mirasqoyanın kreditorunun vərəsələrə qarşı birgə borclular kimi mirasın passivinin icra edilməsi ilə bağlı tələbi.

II. Hüquq münasibətlərinin dəyişdirilməsinə yönələn hüquqlar

1. Alqı-satqı müqaviləsi

Maddə 592.2: Satıcı əşyanın komplektinin tamamlanması barədə alıcının tələbini ağlabatan müddətdə yerinə yetirmədiyi halda alıcının alqı-satqı müqaviləsinin icrasından imtina etməsi və ödədiyi pul məbləğinin qaytarılmasını tələb etmək hüququ.

Maddə 596.3: Alıcı alqı-satqı müqaviləsini pozaraq əşyanı qəbul etmədikdə və ya onun qəbulundan imtina etdikdə satıcının alıcıdan əşyanı qəbul etmək barədə tələbi və ya müqavilənin icrasından imtina etmək hüququ.

Maddə 606.1: Alıcı müqavilədə nəzərdə tutulmuş alış qiymətinin ödənilməsini gecikdirdikdə satıcının müqaviləni ləğv etmək və əşyanı geri götürmək hüququ.

2. Bağışlama müqaviləsi

Maddə 673.1: Maddədə göstərilən hallarda bağışlamaqdan imtina hüququ.

Maddə 673.2: Orada göstərilən hallarda hədiyyə verənin bağışlamaq barəsində verilən vədi ləğv etməsi və onun icrasından imtina etməsi.

3. Əmlak kirayəsi müqaviləsi

Maddə 677.1.4: Kirayə müqaviləsinin predmeti olan əşyanı tam və ya qismən müqavilə ilə müəyyənləşdirilmiş vaxtda almayan kirayəçinin müqaviləni ləğv etmək hüququ.

4. Borc müqaviləsi

Maddə 744: Borc alanın borc müqaviləsini tamamilə və ya qismən ləğv etməsi hüququ.

5. Vərəsəlik hüququ

Maddə 1203 və 1137: Mirasqoyanın iddiasına əsasən vərəsənin layaqətsiz vərəsə olduğuna görə məcburi pay almaq hüququndan məhrum edilməsi.

Maddə 1139/1137: Vərəsənin vərəsəlik hüququndan məhrum edilməsindən müəyyən əmlak nəticələri əldə edən şəxsin iddiası üzrə şəxsin vərəsəlik hüququndan məhrum edilməsi.

III. İcradan imtina hüquqları

Maddə 441.3: İkitərəfli müqavilə zamanı üzərinə öhdəlik qoyulmuş tərəfin qarşı tərəf cavab hərəkətini həyata keçirənədək öhdəliyin icrasından imtina hüququ.

Maddə 575.1: Satıcı satılmış əşyanı alıcıya verməkdən imtina etdikdə alıcının alqı-satqı müqaviləsinin icrasından imtina etmək hüququ.

C. Azərbaycan Mülki Məcəlləsinin ayrı-ayrı iddia tələblərinin qanuni əsaslarının məzmunu və sistemi

Mündəricat

İlkin qeyd

I. Müqavilədən irəli gələn iddia tələbinin qanuni əsasları

1. Ümumi müddəalar
2. Əsas tələblər
3. Əlavə *(subsidiar)* tələblər
   a. Ümumi müddəalar
   b. Öhdəliyin pozulmasına görə zərərin ödənilməsi
   c. Öhdəliyin icrası əvəzinə vurulmuş zərərin əvəzinin ödənilməsi
   d. İcra ilə yanaşı zərərin ödənilməsi tələbi / Borcunun icranı gecikdirməsi
   e. Xüsusi hissədə tənzimlənmiş zərərin ödənilməsi tələbləri
4. Zərərin ödənilməsi tələbinin hüquqi nəticəsi
   a. Səbəbli əlaqə və zərərlə bağlı təqsirlilik
   b. Zərərin əvəzinin ödənilməsinin növləri və həcmi

II. Qanundan irəli gələn iddia tələblərinin qanuni əsasları

1. Ümumi müddəalar
2. Qanundan irəli gələn ayrı-ayrı iddia tələblərinin qanuni əsasları
   a. Mülki hüquq pozuntusu (delikt)
   b. Özgə işlərini tapşırıqsız aparmaqdan irəli dələn tələblər
   c. Əsassız varlanmadan irəli gələn tələblər
   d. Əşya hüququndan irəli gələn tələblər
   aa. Mülkiyyətçinin sahibə qarşı vindikasiya tələbi
   bb. Sahiblikdən irəli gələn tələblər (sahiblik hüququ).

İlkin qeyd

Aşağıda qeyd olunanların məqsədi Azərbaycan Mülki Məcəlləsində tənzimlənmiş bütün iddia tələblərini əhatəli təqdim etmək deyil[4]. Əsas məqsəd praktikada daha çox meydana çıxan bir sıra iddia tələblərinin qanuni əsaslarının dispozisiya şərtlərini və hüquqi nəticələrini təsvir etmək və onların MM-də sistematik yerini dəqiqləşdirməkdir[5].

Artıq yuxarıda A bölməsində göstərildiyi kimi, aşağıdakı təqdimatda da müqavilədən və qanundan irəli gələn iddia tələblərinin qanuni əsasları bir-birindən fərqləndirilir.

I. Müqavilədən irəli gələn iddia tələbinin qanuni əsasları

1. Ümumi müddəalar

Mülki Məcəllədə sistematik yerləşdirilməsi baxımından (20-ci fəsil, 6-cı bölmə) müqavilə (ən azı iki nəfərin iradə ifadələrini əks etdirən əqd olmaqla, tərəflərin mülki hüquq və vəzifələrini müəyyənləşdirən, dəyişdirən və ya xətm edən öhdəlik münasibətidir (müqayisə et: MM-in 389.1-ci maddəsi). Öhdəlik münasibətlərinin məzmununa əsasən kreditorun borcludan vəzifəsinin icrasını tələb etmək hüququ var (MM-in 385.1-ci maddəsi)[6].

---

[4] Bu hissənin konsepsiyası Gürcüstan Mülki Məcəlləsi ilə bağlı cənab dr. Hein Böllinqin və Peter Lütrinqhausun hazırladığı sənədə əsaslanır. Müəllif onu yenidən işləyib və Azərbaycan qanunvericiliyinə uyğunlaşdırıb.

[5] Mülki Məcəllədə olan başqa iddia tələblərinin qanuni əsasları ilə bağlı müqayisə et: yuxarıda B.

[6] MM-in 385.1-ci maddəsinin dispozisiya və hüquqi nəticədən ibarət olmasına baxmayaraq, orada söhbət iddia tələbinin qanuni əsasından deyil, sadəcə qanunda verilmiş anlayışdan (burada: öhdəlik anlayışı) gedir. Bunun iddia tələbinin qanuni əsasından fərqi ondadır ki, MM-in 385.1-ci maddəsi kreditor üçün konkret vəzifənin icrası ilə əlaqədar fərdi tələblə çıxış etmək imkanı yaratmır. Bu müddəa yalnız tələbin ümumi mücərrəd təsvirini verir.

MM-in öhdəlik hüququ barədə bölməsi 385-566-cı maddələrdə öhdəlik münasibəti və müqavilə barədə ümumi qaydaları nəzərdə tutur (Ümumi hissə). Bunun əksinə olaraq, Mülki Məcəllənin Xüsusi hissəsinin 567-970-ci maddələrində ümumi təcrübəyə əsasən fiziki və hüquqi şəxslər arasında hüquq münasibətlərinin təşkili zamanı daha tez-tez rast gəlinən müəyyən müqavilə növlərinə (məsələn, alqı-satqı, kirayə və podrat müqavilələri) dair xüsusi qaydalar əksini tapıb. Bu müqavilə növləri onlardan tez-tez istifadə edildiyinə görə xüsusilə bir çox hallarda mübahisə predmetinə çevrilir ki, bu da onların daha geniş tənzimlənməsi zərurətini doğurur.

Öhdəlik hüququnun Ümumi və Xüsusi hissələrinin bir-birinə münasibətində **«xüsusi qanun ümumi qanundan üstündür»** prinsipi tətbiq olunur: yəni Ümumi hissədə nəzərdə tutulmuş qaydalar Xüsusi hissədə tənzimlənən müqavilə növlərinə bu şərtlə tətbiq olunur ki, Xüsusi hissədə buna dair ayrıca qayda olmasın.

1-ci misal:

Kirayəyə verən kirayəçiyə pis vəziyyətdə (məsələn, damı uçma təhlükəsi qarşısında) olan mənzili kirayəyə verərsə, bu, birmənalı olaraq kirayəyə verənin (qarşılıqlı) müqavilədən irəli gələn öhdəliyini (MM-in 676.0.1-ci maddəsinə əsasən, kirayəyə verilən əşya kirayəçinin istifadəsi üçün yararlı vəziyyətdə olmalıdır) pozması demək olardı. Kirayəyə verənin bu öhdəliyini pozması kirayəçiyə MM-in Ümumi hissəsinin müddəalarına (MM-in 447.1-ci maddəsi) uyğun olaraq münasib müddətin tətbiq edilməsindən sonra müqavilədən imtina etmək hüququ verərdi. Lakin öhdəlik hüququnun Xüsusi hissəsində bununla bağlı xüsusi qayda nəzərdə tutulub. Bu hissənin kirayə hüquq münasibətlərini tənzimləyən 677.1.4-cü maddəsinə əsasən, kirayəçi xəbərdarlıq müddətini gözləmədən də müqaviləni ləğv edə bilər.

Beləliklə, Ümumi hissədə nəzərdə tutulmuş iddia tələbinin qanuni əsaslarını tətbiq edərkən Xüsusi hissədə bununla bağlı ayrıca qaydanın olub-olmamasını araşdırmaq lazımdır. Bununla belə, Xüsusi hissədə nəzərdə tutulmuş əksər qaydalar yenidən Ümumi hissədəki qaydalara göndəriş edir ki, bu da həmin normaların tətbiq olunması ilə nəticələnir.

2-ci misal:

Satıcı alıcıya (balıq alverçisinə) razılaşdırılmış vaxtda sərinləşdirici qurğunun verilməsindən imtina edir. Bu səbəbdən alıcının anbarında ixracat üçün nəzərdə tutulmuş böyük miqdarda kürü xarab olur. Bunun müqabilində alıcı qiymətin ödənilməsindən imtina edir (müqayisə et: MM-in 575.1-ci maddəsi). MM-in 575.2-ci maddəsinə uyğun olaraq alıcı bundan əlavə satıcıya qarşı başqa tələblər də irəli sürə bilər. Bunların hansı tələblər olması məsələsi Xüsusi hissədə (alqı-satqı müqaviləsi) tənzimlənmir. Əvəzində MM-in 575.2-ci maddəsində Məcəllənin 452-ci maddəsinə göndəriş var. Ümumi hissənin həmin müddəasına uyğun olaraq, aşağıdakı hüquqi nəticələr yarana bilər: əşyanın məcburi icra qaydasında (əşyanın borclunun əlindən alınması) verilməsi, yaxud (alternativ olaraq) dəymiş zərərin ödənilməsi. Bu kazusda alıcı xarab olmuş kürüyə görə ona dəymiş zərərin ödənilməsini tələb edəcək.

Öhdəlik hüququnun Ümumi və Xüsusi hissələri arasındakı sıx qarşılıqlı əlaqə öhdəliklərin icra edilməməsinə dair müddəalarda (MM-in 442-459-cu maddələri) xüsusilə nəzərə çarpır. Bura müqavilədən imtina edilməsi barədə qaydalar da daxildir ki, onların da arasında əsas yeri MM-in 447-ci maddəsi tutur.

İddia tələbinin qanuni əsaslarını araşdırdıqda, prinsipcə, aşağıdakı qaydaları fərqləndirmək olar:

* kreditor müqavilənin icrasını tələb edir (ilkin tələb; aşağıda 2-ci başlıq altında göstərilənlərlə müqayisə et).

* kreditor borclunun öhdəliyini pozması ilə ona vurulmuş zərərin ödənilməsini tələb edir (əlavə tələb; burada zərərin əvəzinin ödənilməsi formasında, aşağıda 3-cü və 4-cü başlıqlar altında göstərilənlərlə müqayisə et).

* müqaviləyə uyğun icraya imkan yaratmaq üçün (icraya dair yardımçı və yanaşı hüquqlar) kreditor əsas icradan asılı olmayaraq zəruri olan müəyyən tələblər irəli sürür. Belə hüquqlar qanundan irəli gələ[7], yaxud birbaşa müqavilənin özündə nəzərdə tutula bilər.

* kreditor artıq müqavilədə iştirak etmək istəmir və icra artıq baş tutubsa, müqavilə üzrə əldə edilmişlərin geri qaytarılmasını tələb edə bilər (müqavilədən imtina).

2. Əsas tələblər

Bilavasitə müqavilədən irəli gələn və müqavilənin mahiyyətini səciyyələndirən tələblər ilkin tələblər adlanır[8]. Müqavilədə nəzərdə tutulmuş ilkin tələblər üçün bütün iddia tələbi əsaslarının sadalanması praktik cəhətdən mümkün deyil. Əlbəttə, qanunda əksini tapmış tələbləri cəmləşdirmək olar. Lakin müqavilə azadlığı prinsipi (MM-in 6.1.5, 390-cı maddələri) ona gətirib çıxarır ki, özəl hüququn subyektləri aralarındakı hüquq münasibətlərini MM-də nəzərdə tutulan müqavilə növlərindən kənara çıxmaqla da tənzimləyə, bununla da MM-də məcəllələşdirilməmiş hüquq və vəzifələr əldə edə bilərlər. İcra

---

[7] Məsələn, alıcının informasiya almaq hüququ (MM-in 617-ci maddəsi), yaxud vəkalət verənin məlumat və hesabat almaq hüququ (MM-in 781-ci maddəsi).

[8] Məsələn, satıcının malın qiymətinin ödənilməsini tələb etməsi (MM-in 567-ci maddəsi); sifarişçinin müqavilədə nəzərdə tutulmuş işin icra olunmasını tələb etməsi (MM-in 752.1-ci maddəsi).

ilə bağlı iddia tələbinin qanuni əsası müqavilənin hüquq, yaxud öhdəlik yaradan müddəasıdır. Lakin tez-tez müqavilədən irəli gələn bu cür tələblərin qanunla tənzimlənən müqavilə növlərinə çox oxşaması müəyyən olunacaq və bu baxımdan həmin müqavilə növləri üçün nəzərdə tutulmuş müddəaların «yeni» görünən müqavilə konstruksiyalarına tətbiqi məqsədəuyğun hesab ediləcək. Bu, xüsusilə MM-in 390.4-cü maddəsi ilə tənzimlənən qarışıq müqaviləyə aiddir.

3-cü misal:

A 10 gün müddətinə B-dən otaq kirayə edir. Səhər yeməyi ilə birlikdə 10 günlük kirayənin qiyməti 200 manatdır. 4 gündən sonra B A-dan 50 manat məbləğində hissəvi ödəmə tələb edir. A kirayə haqqını evi tərk etdikdə ödəməli olduğu üçün (MM-in 684.1-ci maddəsi) hissəvi ödəmədən imtina edir. Bu, səhər yeməyinə də aiddirmi? Müqavilə azadlığı prinsipinin əsasında tərəflər müqavilənin bir tərəfinin təkcə əşyanı istifadəyə vermək deyil, həm də başqa vəzifələri yerinə yetirmək (burada: səhər yeməyi vermək) öhdəliyi barədə də razılığa gələ bilərlər. MM-də belə müqavilə nizama salınmayıb. O, sırf kirayə müqaviləsi yox, qarışıq müqavilədir. MM-in 390.4-cü maddəsinə əsasən, qarışıq müqavilə üzrə tərəflərin münasibətlərinə, bir qayda olaraq, qarışıq müqavilədə ünsürləri olan müqavilələrə dair qaydalar tətbiq edilir. Bu qayda hər halda o zaman tətbiq olunur ki, tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən ayrı hal irəli gəlməsin. Bu kazusda icra ilə bağlı müxtəlif öhdəliklər (otağın verilməsi, xidmət göstərmə, səhər yeməyi verilməsi) var ki, bunların da hamısına görə A vahid haqq ödəməlidir. Lakin B-nin icra öhdəlikləri içərisində otağın verilməsi (dəyər baxımından da) ən mühüm əhəmiyyət kəsb etməklə, iqtisadi baxımdan da öndədir. Odur ki, müqavilə mahiyyətcə kirayə müqaviləsidir. Bu səbəbdən ödəmənin həyata keçirilməsi üçün bütövlükdə kirayə hüququnu tətbiq etmək və

müqaviləni onun ayrı-ayrı ünsürlərinə (kirayə, xidmət göstərmə və alqı-satqı hüququ) bölməmək daha məqsədəuyğun hesab olunur. MM-in 684.1-ci maddəsinə uyğun olaraq, əmlak kirayəsi haqqı kirayə müddətinin sonunda ödənilməlidir. Bununla da bu qayda səhər yeməyi və xidmət göstərməyə görə alınan haqq hissəsinə də şamil olunur.

Söhbətin qanunla tənzimlənən, yaxud tənzimlənməyən müqavilə münasibətlərindən getməsindən asılı olmayaraq, hakim iddia tələbinin əsaslarını axtarmaqla yanaşı, təbii ki, tərəflərin razılaşması əsasında yaranan hüquq və vəzifələrin tərəflərin iradə azadlığı hədlərinə (xüsusilə MM-in 337-354-cü maddələri) əməl etməsini yoxlamalıdır.

4-cü misal:

Bank borc alana 50.000 manat məbləğində borc verir və təminat qismində borc alanın ali məktəbdə təhsil alan yenicə yetkinlik yaşına çatmış qızı onun bu borcu tamamilə qaytaracağına zamin durur. Borc alan borcu geri qaytara bilməzsə, qızına qarşı zaminliklə bağlı tələbə belə etiraz edilə bilər ki, zaminlik şəxsin hakimiyyətindən sui-istifadəsinə görə mübahisələndirilə (MM-in 339.1-ci maddəsi) və bununla da müqavilə etibarsız sayıla bilər. Belə vəziyyət xüsusilə o zaman yarana bilər ki, emosional bağlılıq səbəbindən hərəkət edən zamin öhdəliyi üzərinə götürməklə maliyyə cəhətdən tamamilə çətin vəziyyətə düşsün və zaminlik, hər halda, rasional düşünən kreditor baxımından iqtisadi cəhətdən mənasız olsun. Məsələn, belə həddindən artıq çətin vəziyyətə düşmə o halda ola bilər ki, zamin hətta borcun faizlərini belə ödəmək iqtidarında olmasın, yaxud yalnız cüzi maliyyə vəsaiti olsun və sadəcə emosional bağlılığa görə (bu kazusda olduğu kimi – tələbə qız atasına kömək etmək istəyib) zamin dursun.

İcra ilə bağlı müqavilədən irəli gələn tələblər hər şeydən əvvəl müqavilənin etibarlı şəkildə bağlanmasını nəzərdə

tutur. Beləliklə, söhbət müqavilələrdən irəli gələn tələblərdən getdikdə, iddia tələbinin qanuni əsasının yoxlanması məcburi surətdə öhdəlik hüququnun ümumi hissəsində müqavilənin bağlanmasına dair ümumi müddəalara, daha sonra isə uyğun müqavilə barədə müəyyən xüsusi müddəalara aparıb çıxarır ki, bunlar da əsas etibarilə öhdəlik hüququnun xüsusi hissəsində (MM-in 567-1086-cı maddələri) və cüzi şəkildə ümumi öhdəlik hüququnda əksini tapıb.

Məsələn, zaminlik müqaviləsi üzrə cavabdehə qarşı tələb irəli sürülərsə (MM-in 472-ci maddəsi), hakim bu maddə üzrə iddia tələbi əsasının yoxlanması zamanı əvvəlcə müqavilənin oferta və aksept vasitəsilə (MM-in 408, 409-cu maddələri) etibarlı surətdə bağlanması sualını verəcək, eyni zamanda zaminlik müqaviləsinin yazılı formada bağlanmalı olmasını (MM-in 471-ci maddəsi) və kreditorun borcluya qarşı əsas tələbinin mövcudluğunun müqavilə üçün şərt olmasını (MM-in 477-ci maddəsi) nəzərə alacaq.

5-ci misal:

B K-dan 30.000 manat məbləğində borc almaq istəyir. K B-nin borcu geri qaytarmaq iqtidarında olacağına şübhə ilə yanaşır. Ona görə də K B-nin atası A-ya məktub yazaraq ondan oğlunun borcuna görə zamin dura biləcəyi barədə məlumat verməsini xahiş edir. Buna cavab olaraq A məktubunda göstərir ki, zərurət yaranarsa, o, borcu ödəyəcək. Bundan sonra K B-yə borc pul verir. Lakin B razılaşdırılmış müddətin başa çatmasından sonra borcu geri qaytara bilmir. K A-dan borcun ödənilməsini tələb edə bilərmi?

Həlli:

K-nın A-ya qarşı belə tələbi üçün iddia tələbinin qanuni əsası qismində MM-in 472.1-ci maddəsi çıxış edə bilər. Həmin maddəyə uyğun olaraq, zaminlik müqaviləsinə əsasən zamin

borcluya qarşı tələbin yerinə yetirilməsi üçün kreditor qarşısında məsuliyyət daşıyır. Buradan iki dispozisiya şərti irəli gəlir: (1) etibarlı zaminlik müqaviləsinin bağlanması (MM-in 471-ci maddəsinə uyğun olaraq yazılı formada); (2) zaminin məsuliyyət daşımalı olduğu öhdəliyin olması.

Zaminlik müqaviləsinin etibarlı surətdə bağlanması ilə bağlı birinci sualla əlaqədar qeyd etmək lazımdır ki, müqavilənin bağlanması təşəbbüsü ilə K-nın çıxış etməsinin məsələyə dəxli yoxdur. MM-in 408.1-ci maddəsi mənasında təklif həmin təkliflə çıxış edən şəxsin ona bağlı olmaq iradəsini nəzərdə tutur. İcra üzrə öhdəliyin götürülməsi anlamında isə yalnız zamin bağlı ola bilər[9]*. Ona görə də bu barədə A-nın təklifinin olub-olmaması yoxlanmalıdır. Bunu onun K-ya yazdığı cavab məktubundan görmək olar. Əlbəttə, K bu təklifi birbaşa A-ya ünvanlanmış iradə ifadəsi ilə qəbul etməyib. Lakin pulun B-yə ödənilməsini təklifin konkludent formada qəbul edilməsi kimi dəyərləndirmək olar. «Aksept»lə bağlı Mülki Məcəllədə xüsusi müddəalar yoxdur; lakin MM-in 409-cu maddəsindəki qaydalardan belə çıxır ki, aksept təkliflə ziddiyyət təşkil edə bilməz. Yəni bu, sadəcə olaraq «hə» sözündən, yaxud ona uyğun olan bir davranışdan da ibarət ola bilər. Bununla belə, MM-in 409.3-cü maddəsinə uyğun olaraq, sadəcə susmaq yetərli deyil. Lakin MM-in 409.3-cü maddəsi bura uyğun gəlmir, çünki K özünü hüquqi cəhətdən iradə ifadə edən tərzdə aparıb. A bilirdi ki, K təminat olmadığı halda borc verməyəcək. Buna görə də A borcun verilməsini onun zaminlik müqaviləsi üzrə təklifini K-nın susaraq qəbul etməsi kimi başa düşməli idi.*

Bunlara baxmayaraq, MM-in 471-ci maddəsində yazılı forma ilə bağlı nəzərdə tutulmuş tələbə əməl olunmayıb. Bu

---

[9] Buna baxmayaraq, zaminlik hüquqi mənada müqavilə hesab olunur. Lakin həmin müqavilə yalnız bir tərəfin üzərinə öhdəlik qoyur. Kreditorun üzərinə icra ilə bağlı deyil, MM-in 385.2, 425.2-ci maddələrinə uyğun olaraq bütün müqavilə tərəfləri üçün nəzərdə tutulan xüsusi qayğı göstərmək və öhdəliklərin icrasını pozacaq hərəkətlərə yol verməmək öhdəliyi qoyulur.

müddəanın mətninə uyğun olaraq, təkcə zaminin iradə ifadəsinin yazılı formada əksini tapması kifayət etmir; MM-in 472-ci maddəsində isə söhbət müqavilədən gedir. Əlbəttə, belə fikir söyləmək olar ki, təkcə zaminin iradə ifadəsinin yazılı formada əksini tapması ilə yazılı forma tələbi kifayət qədər nəzərə alınıb. Çünki zaminlik müqaviləsinin yazılı formada bağlanmasına dair tələbdə məqsəd zamini (burada A) üzərinə düşünülməmiş öhdəliklər götürmək barədə xəbərdar etmək və kreditora (burada K) razılaşmanın olmasını sübut etmək imkanı verməkdir. Bu məqsədlərin hər ikisinə çatmaq üçün isə yalnız zaminin yazılı iradə ifadəsi lazımdır. Bununla belə, müddəanın birmənalı mətnə zidd olaraq bu cür məhdudlaşdırıcı (teleoloji) təfsiri yalnız müstəsna hallara (məsələn, müddəanın mənasını itirəcəyi başqa hallara) aid olmalıdır. Belə müstəsna hala isə bu kazusda rast gəlinmir.

Müqavilənin bütövlükdə yazılı formada tərtib edilməməsindən asılı olmayaraq[10]*, zaminlik müqaviləsinin forma baxımından etibarlı olmasına qarşı başqa səbəbdən də şübhələr yaranır. A-nın yazdığı məktubda əsas tələbin dəqiq məbləği göstərilməyib. Əlbəttə, burada belə dəlillə çıxış etmək olar ki, A-nın zamin durduğu məbləğ K-nın ona ünvanladığı məktubdan irəli gəlir və zaminlik müqaviləsi də buna uyğun olaraq təfsir edilməlidir. Lakin belə nəticə yazılı forma ilə bağlı qanunda nəzərdə tutulmuş müddəaların məqsədini pozardı. Çünki yazılı forma ilə bağlı qanunda nəzərdə tutulmuş tələb təkcə iradə ifadəsini sübut edə bilmək üçün deyil, həm də zamini üzərinə düşünülməmiş və tələsik öhdəlik götürməkdən qorumaq üçündür. Buna görə də yazılı müqavilədə zaminin üzərinə götürdüyü öhdəliyin məbləği də göstərilməlidir.*

Nəticə etibarilə formal baxımdan etibarlı olan müqavilənin olmaması səbəbindən 2-ci dispozisiya şərti, yəni təmin edil-

---

[10] MM-in 406.3-cü maddəsinə uyğun olaraq müqavilə tərəflərinin iradələri ayrı-ayrı sənədlərdə də ifadə oluna bilər.

məli olan öhdəliyin mövcudluğu artıq həlledici deyil. K A-dan ödəməni tələb edə bilməz.

3. Əlavə (subsidiar) tələblər

a. Ümumi müddəalar

Əlavə tələblər o vaxt yaranır ki, müqavilə icra olunmasın, yaxud natamam icra olunsun. Bu, müxtəlif qaydada – istər icranın gecikdirilməsi, istər pis icra etmə, istərsə də icra etməmə yolu ilə baş verə bilər. Ümumi şəkildə bu halları «öhdəliyin icrasına maneələr» adlandırırlar. Öhdəliyin icrasına mane olan bu hallar, bir qayda olaraq, ya dəymiş zərərin ödənilməsini tələb etməklə nəticələnir, ya da müqavilə tərəflərindən birinin müqavilədən imtina etməklə ona xətm verilməsinə səbəb olur. Müqavilədən imtina və dəymiş zərərin ödənilməsini tələb etmək variantı da mümkündür.

Təcrübədə öhdəliyin icrasına maneələrin doğurduğu ən mühüm hüquqi nəticə zərəri ödəmək öhdəliyidir (MM-in 443.1-ci maddəsi). Bu müddəanın mətnində adı çəkilmiş və 442-ci maddədə tərifi verilmiş «öhdəliyin icra edilməməsi» anlayışı icranın baş tutmadığı ən mühüm halları əhatə edir. Bu isə öz növbəsində öhdəlik münasibətləri çərçivəsində hansı öhdəliklərin olması sualına gətirib çıxarır. Məsələ ilə bağlı dərin hüquqi müzakirələrə imkan olmadığı üçün aşağıdakı qısa izahat yetərlidir:

aa) Bir tərəfdən icra ilə bağlı əsas öhdəliklər var ki, bunlara da, məsələn, aşağıdakılar aiddir: əşyanı alıcının mülkiyyətinə vermək, yaxud müəyyənləşdirilmiş pul məbləğini ödəmək (MM-in 567-ci maddəsi); əşyanı kirayəçinin istifadəsinə vermək və ya kirayə haqqı ödəmək (MM-in 675-ci maddəsi); müqavilədə nəzərdə tutulan işi icra etmək və ya bunun üçün razılaşdırılmış muzdu ödəmək (MM-in 752.1-ci maddəsi).

bb) Bəzən əsas öhdəlik müqaviləyə uyğun icra üçün yetərli olmur. Məsələn, alıcı əşyanın göndərilməsini, həmin əşyanın istismarı üzrə təlimat almasını gözləyir, yaxud əşya müəyyən vaxta qədər satıcıda saxlanır. Tez-tez qanunla tənzimlənməyən, lakin müqavilə vasitəsilə xüsusilə razılaşdırılmış icra ilə bağlı bu əlavə öhdəliklər müqavilənin icrası üçün önəmli olur. Lakin onlar yuxarıda adı çəkilən əsas öhdəliklərlə qarşılıqlı olmaması ilə fərqlənirlər: malgöndərmə öhdəliyi həmin əşyaya görə pul məbləğinin ödənilməsi öhdəliyi ilə qarşılıqlı və asılı münasibətdədir. İcra ilə bağlı əlavə öhdəliklərdə bilavasitə qarşılıqlı icra olmur. Yəni qarşılıqlı icra əlavə öhdəliyin icrası kimi deyil, əsas öhdəliyin icrası məqsədi ilə vəd olunur. Bununla belə, əlavə öhdəliklərlə əsas öhdəliklərə xas olan ümumi cəhət ondan ibarətdir ki, əlavə öhdəliklərlə bağlı da ayrıca iddia qaldırıla bilər. Misal üçün, kirayəyə verən qış vaxtı qüsurlu qızdırıcının təmirindən imtina edərsə, kirayəçi bununla bağlı MM-in 676.0.1-ci maddəsi əsasında kirayəyə verənə qarşı iddia qaldıra bilər.

cc) Bundan əlavə, tərəflərin öhdəlik münasibətinin normal inkişafını dəstəkləmək üçün hər şeyi etmək öhdəliyindən başqa öhdəliklər də yarana bilər. Bu öhdəlikləri qoruma və ya qayğıgöstərmə öhdəlikləri[11] adlandırırlar. Bu öhdəliklərlə bağlı müstəqil iddia qaldırılması mümkün deyil. Qanunda onlara istinad etmək elə də asan iş deyil, çünki başqa hüquq sistemlərindən fərqli olaraq, Azərbaycan Respublikasının Mülki Məcəlləsində vicdanlılıq prinsipi aydın şəkildə əksini tapmayıb. Bu prinsip, ilk növbədə, MM-in 5.3-cü maddəsinə söykənir.

---

[11] Məsələn, əşyanı düzgün istifadə etmədikdə yarana biləcək təhlükələrin qarşısını almaq üçün orada məlumatın verilməsi öhdəliyi (məsələn, dərman preparatlarında); müalicənin riskli olması ilə bağlı həkimin xəstəyə xəbərdarlıq etmək öhdəliyi; təmir olunmalı əşya üçün nəzarətetmə və saxlama öhdəliyinin pozulması.

Həmin maddəyə uyğun olaraq, mülki hüquq münasibətlərinin subyektləri hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar. MM-in 385.2 və 425.2-ci maddələrinə uyğun olaraq, müqavilə tərəfləri öhdəliklərin icrasını təhlükəyə məruz qoya biləcək hər cür hərəkətlərdən çəkinməlidir. Deyilənləri ümumi olaraq prinsip şəklində konkretləşdirsək, belə nəticəyə gəlmək olar ki, müqavilənin tərəfləri öhdəliklərin icrası zamanı elə davranmalıdır ki, qarşı tərəfin həyatına, sağlamlığına və başqa nemətlərinə zərər dəyməsin.

6-cı misal:

A rəngsaz R-ə mənzilinin divarlarını rəngləmək tapşırığı verir. R-in işçisi olan B rəngləmə işlərini lazımi qaydada yerinə yetirir. Bununla belə, B iş görən zaman diqqətsizlik üzündən bir çox qiymətli mebel əşyasına zərər vurur. A buna görə R-dən ona dəymiş zərərin ödənilməsini tələb edir.

Həlli:

Öhdəlik hüququnun Xüsusi hissəsində, yəni MM-in 752-ci və ondan sonra gələn maddələrində tənzimlənən podrat müqaviləsi bunun üçün münasib olan iddia tələbinin qanuni əsasını nəzərdə tutmur. Buna baxmayaraq, R-in qayğıgöstərmə (diqqətli olmaq) öhdəliyinin pozulmasına görə MM-in 443.1-ci maddəsinə əsasən zərərin ödənilməsini tələb etmək hüququ yarana bilər.

Qayğıgöstərmə ilə bağlı konkret öhdəliklər nadir hallarda qanundan irəli gəlir. Bu öhdəliklər uyğun öhdəlik münasibətlərinin xarakteri nəzərə alınmaqla, əsasən vicdanlılıq prinsipindən qaynaqlanır. MM-in 425-ci maddəsinə əsasən, müqavilənin tərəfləri öhdəliklərini vicdanla yerinə yetirməli və onun həyata keçirilməsini təhlükəyə məruz qoya biləcək hər cür hərəkətdən çəkinməlidirlər. Onlar bir-birlərinin hüquqi mövqelərini və maraqlarını nəzərə almalıdırlar. MM-in 425-ci maddəsi ilə yanaşı, dəlil qismində MM-in 5.3, 385.2-ci maddələrinə

də istinad oluna bilər. Bu kazusda sifarişçinin mülkiyyətinə ziyan vurmayan şəkildə işin görülməsi rəngsazın (eləcə də istənilən ustanın) yazılmamış öhdəliklərinə aiddir. B bu qayğı-göstərmə öhdəliyini ehtiyatsızlıqdan (MM-in 443.7-ci maddəsi) pozub. R isə vurulmuş ziyanla bağlı yalnız B-nin öhdəliyini pozmasına görə qanunla cavabdeh olmalı olduğu halda məsuliyyət daşıyır. MM-in 443.9-cu maddəsinə uyğun olaraq, borclu qanuni təmsilçisinin və öhdəliklərinin icrası üçün xidmətlərindən istifadə etdiyi başqa şəxslərin hərəkətləri üçün özünün təqsirli hərəkətləri üçün olan həcmdə məsuliyyət daşıyır. Kazusdan göründüyü kimi, R öz öhdəliklərinin icrası üçün B-nin xidmətlərindən istifadə edib, buna görə də R B-nin vurduğu ziyana görə məsuliyyət daşıyır. Beləliklə, MM-in 443.1-ci maddəsinə uyğun olaraq, R A-ya dəymiş zərəri ödəmək öhdəliyi daşıyır.

Bununla yanaşı, A MM-in 1097.1 və 1099.1-ci maddələrinə uyğun olaraq R-ə qarşı mülki hüquq pozuntusu ilə bağlı tələblə də çıxış edə bilər.

b. Öhdəliyin pozulmasına görə zərərin ödənilməsi

Öhdəliklərin pozulması ilə əlaqədar tələblər üçün əsas MM-in 443.1-ci maddəsidir. Lakin bununla yanaşı, daha xüsusi xarakterli iddia tələbi əsasları da var. Yuxarıda göstərildiyi kimi, öhdəlik hüququ sahəsində icra ilə bağlı əsas, əlavə və qoruyucu öhdəliklər var. Bu öhdəliklərin pozulması aşağıdakıları bildirir:

aa) *əsas* və ya *əlavə* öhdəliyin pozulması zamanı 3 halın olması mümkündür:

(1) öhdəlik ümumiyyətlə icra olunmur və borclu artıq onu icra edə bilməz, yaxud hər halda vaxtında icra edə bilməz;

(2) öhdəlik çox gec icra olunur;

(3) öhdəlik pis icra olunur.

Bütün bu hallarda kreditor, ümumiyyətlə, borcludan öhdəliyin icra olunmasını tələb etmək istəyib-istəmədiyi barədə düşünməlidir.

* Kreditorun icrada daha marağı yoxdursa, o, yuxarıda göstərilən 3 halda icra əvəzinə zərərin ödənilməsi tələbi ilə çıxış edəcək və özünün icra etməli olduğunu daha icra etmək istəməyəcək. Bu halları MM-in 443.5-ci maddəsi[12] nizama salır ki, həmin norma borclunun öhdəliklərini icra etməməsinin nəticələrini bir daha ona çatdırmaq üçün icranın gecikdirilməsini və öhdəliyin icrası üçün zəruri müddət təyin edilməsini şərt kimi nəzərdə tutur. Aşağıda «c» bəndində bunun üzərində ətraflı dayanılacaq.

* Kreditor borclunun öhdəliyi icra etməsində hələ maraqlıdırsa, onda o da öhdəliyini icra etməli olacaq. Bundan sonra isə o, vəd edilmiş öhdəliyin icrası ilə yanaşı, əlavə olaraq ona vurulmuş zərərin ödənilməsi ilə bağlı da tələblə çıxış edə bilər *(icra ilə yanaşı zərərin əvəzinin ödənilməsi).* Yuxarıda göstərilən (1)-ci və (3)-cü hallarda bu tələb, bir qayda olaraq, MM-in 443.1-ci maddəsindən irəli gəlir[13]. Öhdəliyin icrası gecikdirildikdə (2) MM-in 445-ci maddəsinə[14] uyğun olaraq borclunun icranı gecikdirməsi barədə xüsusi müddəalar tətbiq olunur.

---

[12] Düzdür, MM-in 447.7-ci maddəsi qarşılıqlı müqavilələrlə bağlı zərərin əvəzinin ödənilməsi ilə bağlı ötəri şəkildə norma müəyyən etsə də, bu norma yalnız əsas norma olan 443.5-ci maddənin təkrarıdır. MM-in 447.7-ci maddəsi dəqiqləşdirir ki, kreditorun borcludan müqavilədən irəli gələn öhdəliklərinin əhəmiyyətli dərəcədə pozulması zamanı və icra üçün təyin edilmiş əlavə müddət nəticəsiz qurtardıqdan sonra təkcə MM-in 447.1-ci maddəsinə əsasən müqavilədən imtina etmək deyil, əlavə olaraq zərərin əvəzinin ödənilməsini də tələb etmək hüququ var.

[13] Öhdəlik hüququnun Xüsusi hissəsində nəzərdə tutulmuş ayrıca müddəaların üstün qüvvəsi olmadıqda. Məsələn, müəyyən növ müqavilələrdə öhdəliyin pis icra olunması zamanı təminatla bağlı müddəalar (bununla əlaqədar aşağıda «e» bəndi ilə də müqayisə et).

[14] Bununla bağlı aşağıda «d»-yə bax.

bb) *Qoruma öhdəliklərinin* pozulması zamanı, bir qayda olaraq, yalnız MM-in 443.1-ci maddəsində nəzərdə tutulmuş zərərin ödənilməsi tələbindən söhbət gedə bilər ki, bunu da kreditor hələ də mövcud olan öhdəliyin icrası üzrə tələblə *eyni zamanda* irəli sürə bilər. Qoruma öhdəliyinin pozulmasına misal kimi yuxarıdakı 6-cı misalı göstərmək olar.

Aşağıdakı *sxemdə* bir daha müxtəlif öhdəlik pozuntularının yaratdığı hüquqi nəticələrin təsviri verilir:

İcra ilə bağlı əsas, yaxud əlavə öhdəliklərin pozulmasına görə zərərin ödənilməsi

Kreditor öhdəliyin icrası əvəzinə zərərin ödənilməsini tələb edir: MM-in 443.5-ci maddəsi

Kreditor öhdəliyin icrası ilə yanaşı zərərin ödənilməsini tələb edir: MM-in 443.1-ci maddəsi

Qoruma öhdəliklərinin pozulmasına görə zərərin ödənilməsi

Kreditor öhdəliyin icrası ilə yanaşı zərərin ödənilməsini də tələb edir:

MM-in 443.1-ci maddəsi (maddə 425-lə birgə)

c. Öhdəliyin icrası əvəzinə vurulmuş zərərin əvəzinin ödənilməsi

Qeyd edildiyi kimi, öhdəliyin icrası əvəzinə zərərin ödənilməsi (MM-in 443.5-ci maddəsi) halı o zaman yaranır ki, borclunun öhdəliyi icra edilməsin və ya lazimi qaydada icra edilməsin. Ona görə də bunu icra etməmə ilə vurulan zərər adlandırırlar.

Düzdür, qanun MM-in 443.5-ci maddəsində öhdəliyin pozulmasını göstərmir, yalnız icranın gecikdirilməsindən və beləliklə də borclunun gecikməsindən söhbət açır. Lakin bu müddəa həm icra etməməni və ya lazımi qaydada icra etməməni də əhatə edir. Çünki borclu icra etmirsə və ya lazımi qaydada icra etmirsə, bu, həmişə gecikməyə aparır.

MM-in 443.5-ci maddəsindən irəli gələn öhdəliyin icra edilməməsinə görə zərərin ödənilməsi tələbi təcrübədə tez-tez yaranır və bu tələb önəmlidir.

7-ci misal:

İncəsənət əsərləri kolleksiyaçısı S və qalereyaçı G yağlı boya ilə çəkilmiş və S-nin evində asılmış qiymətli rəsm əsəri barədə alqı-satqı müqaviləsi bağlayırlar. Müqaviləyə görə, S şəkli mümkün qədər tez G-nin qalereyasına aparmalı və orada divardan asmalıdır. Şəkli G-nin qalereyasına aparan zaman taksi sürücüsü T-nin avtomobili sürətlə idarə etməsi nəticəsində yol-nəqliyyat qəzası baş verir və şəkil tamamilə məhv olur. G planlaşdırdığı sərgini yalnız eyni rəssamın başqa bir əsərinin axtarılıb tapılmasından sonra açа bilər. Odur ki, o, S-dən ikinci şəklin alınmasına görə yaranan əlavə xərclərin ödənilməsini tələb edir.

Həlli:

İkinci şəklin alınmasına görə yaranan əlavə xərclərin ödənilməsi kimi iddia tələbinin əsası qismində MM-in 443.5-ci maddəsi çıxış edə bilərdi.

Rəsm əsərinin orijinal variantı məhv olduğu və G-ni məhz bu şəkil maraqlandırdığı üçün öhdəliyin icrasını tələbetmənin onun üçün artıq mənası olmayacaq. Ona görə də belə halda öhdəliyin icrası əvəzinə zərərin ödənilməsini tələb etmək daha məqsədəuyğundur. MM-in 443.5-ci maddəsinə uyğun olaraq, zərərin ödənilməsi tələbi üçün şərt kimi öhdəliyin icrasının gecikdirilməsi, yəni borclunun gecikməsi nəzərdə tutulur ki, bu da kazusda problemlidir. Çünki MM-in 445.2.1-ci maddəsində nəzərdə tutulan qaydada burada öhdəliyin icrası üçün müddət barədə razılaşma yoxdur (konkret tarix və ya müəyyən müddət barədə razılaşma olsaydı, məsələ ayrı cür həll olunardı). Bununla da S yalnız o halda məsuliyyət daşımalıdır ki, G onu xəbərdar etdikdən sonra da o, öhdəliyi icra etməsin (MM-in 445.2.2-ci maddəsi). Əlavə olaraq, G xəbərdarlıqla da icranın gecikdirilməsindən sonra MM-in 443.5-ci maddəsində nəzərdə tutulmuş ikinci şərti yerinə yetirmək üçün əlavə müddət təyin etməli idi. Lakin bu kazusda göstərilənlərin edilməsinin heç bir mənası olmazdı. Çünki şəkil məhv olduğuna görə əlavə müddətin təyini onsuz da heç nəyi dəyişə bilməzdi. Beləliklə, bu normanın məqsədi müqaviləyə xitam verilmə təhlükəsini borcluya göstərməkdir. Bu da birmənalı şəkildə MM-in 443.6-cı maddəsində təsbit edilmiş qaydadan irəli gəlir. Müddət təyin edilməsinə ehtiyac yoxdursa, kreditordan borclunu gecikdirmə vəziyyətinə gətirməyi tələb etməyin mənası olmayacaq. Ona görə də MM-in 443.6-cı maddəsini[15] tətbiq edərkən əlavə müddətin təyin edilməsinin hər hansı nəticə verməyəcəyi aydındırsa, borclunun öhdəliyi icra etməsi üçün əlavə müddət təyin olunmasına zərurət yoxdur. Borclunun öhdəliyi icra etməsi qeyri-mümkün olduğu, yaxud onun öhdəliyi icra etməyəcəyini bildirdiyi bütün halları bu cür qəbul etmək lazım gələcək.

---

[15] Müqayisə et, MM-in 11.1-ci maddəsi.

S şəklin məhv olması üzündən onu çatdıra bilmədiyi üçün xəbərdarlıqsız da icranı gecikdirmiş sayılır və buna görə də MM-in 443.6-cı maddəsinə əsasən əlavə müddət təyin edilməsinə zərurət yoxdur.

Şəklin məhv olmasında S-nin təqsirli olub-olmamasının kazusa hansı təsir göstərəcəyi məsələsi də sual doğurur. MM-in 443.1-ci maddəsinin 2-ci cümləsindən fərqli olaraq, 443.5-ci maddədə borclunun məsuliyyətinin aradan qaldırılması üçün birbaşa qayda nəzərdə tutulmur. Qanunverici açıq-aşkar MM-in 443.5-ci maddəsində belə qaydanın tənzimlənməsini lazım bilməyib. Çünki o, borclunun icranı gecikdirməsini zərərin ödənilməsi tələbi üçün şərt kimi nəzərdə tutub. Öhdəlik borclunun təqsiri olmadan baş vermiş hallar nəticəsində icra edilməzsə, bu, gecikdirmə sayılmır (MM-in 445.5-ci maddəsi). Bu kazusda da vəziyyət belədir, çünki qəza S-nin təqsiri olmadan baş verib və onun bu hadisədən qorunmaq üçün tədbirlər görə bilmək imkanının olması da aydın görünmür. Odur ki, son nəticədə G S-dən ona dəymiş zərərin ödənilməsini tələb edə bilməz.

G yalnız mülki hüquq pozuntusu (MM-in 1097.1-ci maddəsi) nəticəsində vurulmuş ziyana görə T-yə qarşı tələblə çıxış edə bilər.

d. İcra ilə yanaşı zərərin ödənilməsi tələbi/Borclunun icranı gecikdirməsi

İcra ilə yanaşı zərərin ödənilməsindən o zaman söhbət gedə bilər ki, kreditor icra ilə bağlı əsas tələblə yanaşı, müqavilənin həyata keçirilməsi zamanı borclunun öhdəliyi pozmasından doğan zərərin ödənilməsi tələbi ilə çıxış etmək istəyir. *İcra ilə bağlı əsas və ya əlavə öhdəlik* icra edilməsə və ya lazımi qaydada icra edilməsə, icra ilə yanaşı zərərin ödənilməsi tələbi, bir qayda olaraq, MM-in 443.1-ci maddəsindən irəli gəlir. MM-in 443.1-ci maddəsi (MM-in 425-ci maddəsi ilə birgə) zərərin borclunun *qoruma öhdəliyini poz-*

ması nəticəsində baş verdiyi hallarda da mərkəzi iddia tələbinin qanuni əsasıdır.

MM-in 443.1-ci maddəsinə əsasən zərərin ödənilməsi tələbi daim borclunun öz öhdəliyini həm də *təqsirli* pozmasını nəzərdə tutur. Bu isə o deməkdir ki, borclu öhdəliyini qəsdən və ya ən azı ehtiyatsızlıqdan pozmalıdır (MM-in 443.7-ci maddəsi). Bununla belə, MM-in 443.1-ci maddəsinin 2-ci cümləsindən təqsirin ehtimal olunması nəticəsi çıxır[16]. Bununla bağlı işin hallarını təsvir və sübut etmək vəzifəsini borclu daşıyır. Bu, o deməkdir ki, borclu prosesdə işin hallarını təsvir etməli və mübahisə yarananda onu məsuliyyətdən azad edən halları sübut etməlidir. Təqsir məsələsi aydınlaşdırıla bilinməyəcəksə, bu, borclunun zərərinə həll ediləcək.

Qanun zərərin icra ilə bağlı əsas və ya yanaşı öhdəliyin gecikməsi nəticəsində vurulması (öhdəlik gecikmə istisna olmaqla, lazımi qaydada icra edilib) halı üçün xüsusi dispozisiya şərtləri müəyyənləşdirir. Bu, MM-in 445-ci maddəsi ilə tənzimlənən borclunun icranı gecikdirməsi halıdır. Bu maddədə 2 iddia tələbinin qanuni əsası nəzərdə tutulub ki, onlar da borclunun təcrübədə tez-tez rast gəlinən öhdəliyini belə pozmasına görə kreditora müəyyən tələb hüquqları verir: MM-in 445.1-ci maddəsi gecikdirmə nəticəsində vurulmuş zərərin ödənilməsini, 445.7-ci maddə isə gecikdirilmiş vaxt üçün faiz ödənilməsini tələb etmək hüququ verir.

Hər iki iddia tələbinin qanuni əsası üçün ümumi cəhət odur ki, hər ikisi şərt kimi borclunun icranı gecikdirməsini nəzərdə tutur. Lakin kreditorun bu tələblə çıxış etmə vaxtı çatmayıbsa, borclunun icranı gecikdirməsi məsələsi istisna edilir. Öhdəliyin icrası müddəti MM-in 427-ci maddəsində ətraflı şəkildə tənzimlənib. Kreditorun yuxarıda sadalanan maddə-

[16] Eyni nəticə MM-in 448.4-cü maddəsindən də irəli gəlir.

lərə əsaslanan tələblə çıxış etmək hüququnu tanımaq istəyən hakim hər bir halda əvvəlcə öhdəliyin icrası üzrə tələblə çıxış etmənin vaxtının çatdığını və borclunun icranı gecikdirib-gecikdirməməsini yoxlamalıdır.

«Gecikdirmə»nin nə olması MM-in 445.2-445.4-cü maddələrində təsvir edilir: yəni razılaşdırılmış vaxtda, yaxud xəbərdarlıq olunmasına baxmayaraq, öhdəliyin icra edilməməsi. Əlavə olaraq MM-in 445.5-ci maddəsinə uyğun olaraq borclunun *təqsiri* də olmalıdır. Borclunun təqsiri dedikdə, qəsd və ya ehtiyatsızlıq başa düşülür (müqayisə et: MM-in 443.7-ci maddəsi)[17]. MM-in 445.5-ci maddəsinin mətnindən aydın olur ki, məhkəmə icraatı zamanı gecikdirmənin təqsir olmadan baş verməsini *sübutetmə vəzifəsi* borclunun üzərinə qoyulur (MM-in 443.1-ci maddəsinin 2-ci cümləsi). Bu zaman belə prinsip tətbiq olunur ki, borclu icranı gecikdirməyə görə məsuliyyət daşıyır və xüsusilə öhdəliyi icra etmək üçün maliyyə vəsaitinin çatışmaması onu məsuliyyətdən azad etmir. Məsələn, borclu ilkin tədarükçünün malı ona gec çatdırmasına görə tədarükü vaxtında həyata keçirə bilmirsə, o, məsuliyyətdən yalnız o zaman azaddır ki, bunu diqqətlə düşünülmüş halda belə qabaqcadan görmək mümkün olmasın. Amma ilkin tədarükçülərin malı gec çatdırmaları sonrakı tədarükçünün nəzərə almalı olduğu tipik riskdir. Belə hallarda təqsirin olmaması yalnız qabaqcadan görülə bilməyən və qarşısı alınması mümkün olmayan təbii hadisələr, yaxud dövlət orqanlarının qoyduğu məhdudiyyətlər (məsələn, qəflətən idxala qadağa qoyulması) baş verən zaman qəbul edilir.

Nəzəri cəhətdən öhdəliyin icrasını gecikdirməklə vurulmuş zərərin ödənilməsi tələbini MM-in 443.1-ci maddəsi ilə

---

[17] Bunun əksinə olaraq MM-in 445.6-cı maddəsi gecikdirmənin artıq baş verdiyi hal üçün məsuliyyətin gücləndirilməsi məsələsini tənzimləyir.

də əsaslandırmaq olardı. Çünki öhdəliyin icrasını gecikdirmək bu maddənin mətninə uyğun olaraq həm də öhdəliyin pozulmasıdır və bu, MM-in 442-ci maddəsində göstərilən hallarla əhatə edilir. Öhdəliyin icrasını gecikdirmək və ya ləngitməklə (borclunun öhdəliyin icrası üzrə əsas öhdəliyinin qüvvədə olduğu halda) zərər vurulan zaman xüsusi müddəa qismində MM-in 445-ci maddəsinin üstün qüvvəsi var. 445-ci maddədə olan gecikmə şərti onunla bağlıdır ki, borclu gecikdirilən icranın nəticələrindən xəbərdar edilməlidir, yalnız xəbərdarlıqdan və ya ona oxşar olan haldan sonra borclu gecikdirməyə görə məsuliyyət daşıya bilər.

Aşağıdakı sxem bir daha gecikmə zamanı kreditorun müxtəlif hüquqi mövqelərini dəqiqləşdirir:

İcranın gecikdirilməsi



Kreditor öhdəliyin icrası əvəzinə zərərin əvəzinin ödənilməsini tələb edir: (yuxarıda: c.)
MM-in 443.5-ci maddəsi

Kreditor öhdəliyin icrasnı və zərərin əvəzinin ödənilməsini tələb edir (yuxarıda d.)
MM-in 445.1-ci maddəsi

Öhdəliyin icrasını gecikdirmək və ya ləngitməklə vurulan zərərin ödənilməsi öhdəliyin icrasını *ləngitmək vasitəsilə* yaranan zərərin hamısını əhatə edir. Bura faiz vermək nəticəsində yaranan zərər də aiddir. Bu zərər o halda yaranır ki, kreditor borclunun ödəməni çox gec həyata keçirməsi nəticəsində bankdan kredit götürməli və sonra həmin kreditə görə banka faiz verməli olsun.

Konkret halda icranın gecikdirilməsi nəticəsində vurulan zərərin ödənilməsini «öhdəliyin icrası əvəzinə zərərin ödənilməsindən» (öhdəliyin icra edilməməsi nəticəsində vurulan zərər) ayırmaq çətin ola bilər.

8-ci misal:

K çəllək alverçisidir. Martın 1-də o, B ilə aprelin 1-nə kimi 50 taxta çəllək alınması və tədarük edilməsi barədə razılığa gəlir. Martın 15-də isə K öz növbəsində bu çəlləkləri almaqda marağı olan şəxs (C) də tapır ki, bu da aprelin 4-də çəlləklər tədarük edilən zaman B ilə razılaşdırılmış qiymətdən 1,5 dəfə artıq qiymət ödəməyə hazır olduğunu bildirir. B martın 29-da çəlləkləri K-ya göndərmək istəyərkən yolda çəlləklərə B-nin təqsiri ilə baş vermiş qəza nəticəsində ciddi zərər dəyir. B razılaşdırılmış vaxtda təzə çəlləklər tədarük etmək iqtidarında olmadığını bildirir. C ilə bağlanmış alqı-satqı müqaviləsini yerinə yetirmək üçün K F-dən yeni taxta çəlləklər alır. Lakin bu çəlləklərin qiyməti B ilə razılaşdırılandan ... dəfə baha olur. K B-dən ona dəymiş zərərin (alış qiymətinin ... -i miqdarında) ödənilməsini tələb edir.

Həlli:

Bu kazusda iddia tələbinin əsası qismində MM-in 445.1-ci maddəsi çıxış edə bilər. B çəlləkləri 1 aprel tarixində göndərməli idi, lakin MM-in 445.2.1-ci maddəsinə uyğun olaraq o, 2 aprelədək gecikib, yəni öhdəliyi onun icrası üçün müəyyənləşdirilmiş müddətdə icra etməyib. Qəza B-nin təqsiri üzündən baş verdiyindən o, MM-in 445.5-ci maddəsinə uyğun olaraq vurulmuş zərərin ödənilməsi üçün məsuliyyət daşımalıdır.

Lakin baha çəlləklərin alınması ilə vurulan zərərin MM-in 445.1-ci maddəsinə uyğun olaraq icranın gecikdirilməsi nəticəsində vurulan zərər qismində ödənilməsinin mümkün olması

sual doğurur. Əlbəttə, başqa çəlləklərin alınması öhdəliyin icrasının gecikdirilməsi nəticəsində baş verib. Çünki B tədarükü vaxtında yerinə yetirsəydi, B F-dən başqa çəlləklər almazdı. Bununla belə, başqa çəlləklərin alınması göndərmənin gecikdirilməsinin birbaşa nəticəsi deyil, B-nin öhdəliyi icra etməməsinin nəticəsidir. Yəni B-nin K-ya göndərə biləcəyi başqa çəlləkləri olsaydı, K C ilə bağladığı alqı-satqı müqaviləsini hələ yerinə yetirə bilərdi və F-dən başqa çəlləklər almaq məcburiyyəti qarşısında qalmazdı (öhdəliyin gec icra olunacağına baxmayaraq). Buna uyğun olaraq K ona dəymiş zərərin əvəzini B-dən MM-in 445.1-ci maddəsi əsasında deyil, yalnız «öhdəliyin icrası əvəzinə zərərin ödənilməsi» (öhdəliyin icra edilməməsi ilə vurulan zərər) qismində MM-in 443.5 və 443.6-cı maddələrinə uyğun olaraq tələb edə bilər. Bu şərtlər isə kazusda problemsizdir. Çünki razılaşdırılmış vaxtda tədarük etmək iqtidarında olmadığını bildirən B-nin öhdəliyin icrasından imtina etməsi nəticəsində yeni münasib müddətin müəyyənləşdirilməsinə artıq ehtiyac yox idi.

e. Xüsusi hissədə tənzimlənmiş zərərin ödənilməsi tələbləri

Öhdəlik hüququnun ümumi hissəsində müqavilədən irəli gələn öhdəliklərin pozulmasına görə zərərin ödənilməsi ilə bağlı nəzərdə tutulmuş tələblərlə yanaşı, xüsusi hissədə də, bir qayda olaraq, tərəfin öhdəliyi *müqaviləyə uyğun şəkildə* icra etməməsinə dair zərərin ödənilməsi ilə bağlı xüsusi normalar var. Beləliklə, söhbət əsasən təminatla bağlı qaydalardan gedir. Burada «xüsusi qanun ümumi qanundan üstündür» prinsipi tətbiq olunur. Yəni MM-in Xüsusi hissəsində təminatla bağlı nəzərdə tutulmuş xüsusi qaydaların Ümumi hissənin 443.1 və 443.5-ci maddələrində nəzərdə tutulmuş qaydalardan üstün qüvvəsi var. Bununla bağlı 2 misal göstərək:

9-cu misal:

B A-dan 1970-ci ildə istehsal olunmuş «Mersedes» markalı maşın alır. Köhnə tipli maşınların pərəstişkarı olan K isə bir qədər sonra B-yə maşının ikiqat qiymətini təklif edir. Nəticədə maşını çox az sürmüş B onu K-ya satır. Bundan 1 ay sonra «Mersedes»in mühərrikinin zədəli olduğu aşkar olur. Maşını baxışdan keçirən mütəxəssis müəyyən edir ki, maşın uzun müddət çox az yağla sürülüb və ona görə də mühərrikin nə zaman sıradan çıxacağı yalnız vaxt məsələsi olub. K maşını saxlamaq istədiyi üçün maşına başqa mühərrik qoydurur. O, B-dən bunun üçün çəkdiyi xərclərin ödənilməsini tələb edir. B isə etiraz edərək bildirir ki, o, vurulmuş zərərə görə məsuliyyət daşımır və zərərin səbəbi barədə də məlumatı yoxdur.

Həlli:

Əşyanın qüsurlarının aradan qaldırılması üçün çəkilən xərclərin ödənilməsi tələbi MM-in 587.1.3-cü maddəsindən irəli gələ bilərdi. Bunun üçün şərt odur ki, tərəflər arasında alqı-satqı müqaviləsi bağlansın və maşın K-ya verilərkən onda qüsurlar olsun. Burada hər iki şərt var. Mütəxəssis rəyinə əsasən, maşın verilərkən mühərrik artıq qüsurlu olub. Əlbəttə, həmin vaxt mühərrikdə olan zədə üzə çıxmamışdı. Lakin bu zədənin yaranması üçün səbəb, yəni yağın az səviyyədə olması artıq mövcud idi. Beləliklə, maşın verilmə vaxtı artıq qüsurlu olub. MM-in 443.7-ci maddəsində tələb olunduğu kimi, B-nin qüsura görə təqsirli olub-olmaması və MM-in 443.5-ci maddəsinə uyğun olaraq, K-nın qüsurun aradan qaldırılması üçün B-yə zəruri vaxt təyin edib-etməməsinin burada heç bir əhəmiyyəti yoxdur. Çünki MM-in 587.1.3-cü maddəsindən irəli gələn tələb bunların heç birini nəzərdə tutmur. MM-in təminatla bağlı müddəaları icraya maneə olan hallara dair ümumi müddəalara münasibətdə xüsusi qaydalardır. Bununla da K mühərrikdə olan qüsurun aradan qaldırılması üçün çəkdiyi xərclərin əvəzini B-dən tələb edə bilər.

10-cu misal:

L yük daşıyıcısı olan U-ya şüşə butulkaları Şəkiyə aparmaq tapşırığı verir. U-nun işçisi olan sürücü F-nin diqqətsizliyi üzündən yük maşını yoldan çıxır və nəticədə yük məhv olur. L ona dəymiş zərərin ödənilməsini tələb edir.

Həlli:

Dəymiş zərərin ödənilməsi üçün iddia tələbinin qanuni əsası MM-in 859.2-ci maddəsidir.

Bunun üçün ilk şərt MM-in 850.1-ci maddəsinə uyğun olaraq bağlanmış yük daşınması müqaviləsinin olmasıdır. U şüşə malın Şəkiyə daşınması üçün üzərinə öhdəlik götürdüyünə görə bu şərt mövcuddur.

Növbəti şərt isə əşyanın qəbul edilməsi və onun daşınması arasındakı vaxtda yükün zədələnməsidir. Bu şərt də var. MM-in 859.3-cü maddəsində nəzərdə tutulmuş müstəsna hallar burada olmadığı üçün U hər bir halda F-nin yoldan niyə çıxması yoxlanmadan məsuliyyət daşıyır. Əlbəttə, U şəxsən özü qəzanın yaranmasına səbəb olmayıb. Bununla belə, o, MM-in 448.3-cü maddəsinə əsasən F-nin davranışına görə məsuliyyət daşıyır.

Misalın dəyişdirilmiş variantı:

L tapşırığı U-ya deyil, ekspeditor S-yə verib. S isə öz növbəsində yükü daşımaq tapşırığını U-ya verib.

Həlli:

L U-ya qarşı müqavilədən irəli gələn birbaşa tələblərlə çıxış edə bilməz, çünki L müqaviləni U ilə deyil, S ilə bağlayıb.

L-in S-yə qarşı müqavilədən irəli gələn zərərin ödənilməsi tələbi ilə çıxış edə bilməsi sual doğurur. Yük daşınması hüququnda olan xüsusi iddia tələbinin qanuni əsası ekspedisiya hüququnda yoxdur. Ona görə də ümumi öhdəlik hüququndakı zə-

rərin ödənilməsi ilə bağlı ümumi xarakterli müddəalara, yəni MM-in 443.1 və 443.5-ci maddələrinə müraciət edilməlidir. Beləliklə, S-nin hansı vəzifəni pozması yoxlanmalıdır. Ekspeditorun vəzifələri MM-in 852-ci maddəsindən irəli gəlir. Həmin müddəaya uyğun olaraq ekspeditor tapşırıq verənə (yükgöndərənə) münasibətdə yalnız münasib yük daşıyıcısını axtarıb tapmaq və daşımanı təşkil etmək öhdəliyi daşıyır. Yəni ekspeditor daşımanı həm də (lazımi qaydada) icra etmək öhdəliyi daşımır. Xüsusilə o, yük daşıyıcısının vəzifələrinin icra edilməsi üçün məsuliyyət daşımır. MM-in 852.5-ci maddəsinə əsasən, ekspeditor yalnız etibar edilə biləcək yük daşıyıcısı seçmək öhdəliyi daşıyır. Əşyanın daşınması tapşırıldığı U əvvəllər özünü etibarlı yük daşıyıcısı kimi doğruldubsa, S-nin məsuliyyəti yaranmır. Nəticədə S U-ya qarşı zərərin ödənilməsi ilə bağlı müqavilədən irəli gələn tələblərini L-ə güzəşt edə bilər. Hətta S-nin MM-in 852.3-cü maddəsinin 5-ci cümləsinə əsasən belə bir öhdəliyi də ola bilər.

4. Zərərin ödənilməsi tələbinin hüquqi nəticəsi

Qanuna əsasən zərərin ödənilməsi tələbi mövcuddursa, bu tələbin hüquqi nəticələri MM-in 21-ci maddəsinə görə müəyyən edilir. Beləliklə, bu müddəanın özü ayrılıqda iddia tələbinin əsası qismində çıxış etmir.

a. Səbəbli əlaqə və zərərlə bağlı təqsirlilik

Zərərin ödənilməsi ilə bağlı istənilən tələb öncə həmin zərərin onu vuran şəxsə aid edilməsini nəzərdə tutur. MM-in 21-ci maddəsində zərərin aid edilməsi ilə bağlı birbaşa qayda yoxdur. Aid edilmə o deməkdir ki, prinsip etibarilə yalnız borclunun səbəb olduğu zərərin əvəzi ödənilir. Səbəbolma təbiət elmlərində nəzərdə tutulan mənada səbəbli əlaqənin olması deməkdir: konkret nəticə yaranmadan düşünülə bilinməyən istənilən davranış həmin nəticə üçün səbəbdir

(conditio sine qua non). Lakin zərərin vurulması ilə nəticələnən davranış hərəkətsizlik də ola bilər. Əgər edilməmiş hərəkət nəzərə alına bilmirsə, nəticə əminliyə yaxın olan yəqinliklə aradan qalxırsa, müvafiq hərəkətsizliklə nəticə arasında səbəbli əlaqə mövcuddur.

Lakin bu aidetmə modeli hələ çox genişdir, çünki o, zərərin bütün birbaşa və dolayı nəticələrini əhatə edir. Ona görə də növbəti addım kimi dolayı vurulan zərərin əvəzinin hansı həddə ödənilib-ödənilməməsi məsələsi müəyyən olunmalıdır. Son nəticədə burada daim qiymətləndirici mühakimədən istifadə olunur. Bu zaman ən vacib meyar borclu üçün vurulmuş *zərərin əvvəlcədən görünə bilməsidir.* İstənilən ehtimaldan kənar olan səbəbli hadisələr heç də məsuliyyətin yaranması ilə nəticələnməməlidir. Ona görə də zərər onun yaranmasına səbəb olmuş şəxsə yalnız o halda aid edilməlidir ki, onun davranışı təkcə tam inanılmaz və əşyaların müntəzəm hərəkətinə əsasən nəzərə alınmalı olmayan hallarda deyil, istənilən nəticənin yaranması üçün münasib olsun. Bununla da dolayı yolla vurulmuş ən uzaq zərərin ödənilməsi istisna edilir.

11-ci misal:

V sürücüsü S olan taksi ilə gedərkən S-nin səbəb olduğu nəqliyyat qəzası nəticəsində ayağı sınır və xəstəxanaya aparılır. Xəstəxanada V-nin ayağında əməliyyat aparılır. Bu zaman yaraya infeksiya düşür və bu, çox gec məlum olur. Qanqrena nəticəsində V-nin ayağı kəsilməli olur. Bundan əlavə, V doldurduğu lotereya biletini qəbul məntəqəsinə təhvil verə bilmədiyindən əslində qazana biləcəyi əsas mükafatı ala bilmir. Nəhayət, bədbəxtlikdən xəstəxanada onun pulqabı da oğurlanılır. S bütün bu nəticələrə görə məsuliyyət daşımalıdırmı?

Həlli:

Əməliyyatın xərclərini S çəkməlidir, çünki V-nin ayağının sınması S-nin səbəb olduğu nəqliyyat qəzasının birbaşa, sə-

bəbli nəticəsidir. Əməliyyat isə V-nin sağlamlığının bərpa olunmasına xidmət edib.

Ayağın itirilməsi nəqliyyat qəzasının dolayı nəticəsidir, ayağın itirilməsinə birbaşa səbəb yaranın infeksiyası olub. Buna görə S məsuliyyətdən azad edilə bilərmi? Bu yerdə qiymətləndirici mühakimə işə salınır. Öncə V-nin ayağının amputasiyası ilə S-nin səbəb olduğu nəqliyyat qəzası nəticəsində onun yaralanması arasında sıx bağlılıq olması müəyyən edilməlidir. Qəzanın baş verməsi ayağın itirilməsinə qədər vahid həyat hadisəsi kimi götürülə bilər. S V-nin sağlamlığına ziyan vurmaqla, ümumiyyətlə, onu əməliyyat riski olan infeksiyaya məruz qoyub. Tamamilə istisna etmək olmaz ki, əməliyyat nəticəsində əmələ gələn yaranın iltihabı riski heç də ehtimal edilməyə bilməzdi. Ona görə də V-nin ayağını itirməsinə görə (və bununla əlaqədar yaranan başqa nəticələrə görə də, məsələn, peşə dəyişməsi, gəlir itkisi və s.) S-nin məsuliyyət daşıması düzgündür.

Lakin bu, əldən çıxmış lotereya uduşuna aid deyil. Qəza vasitəsilə V-nin lotereyada iştirak edə bilməməsi riski elə də böyük şəkildə artmayıb. Ona görə də S-nin bu hadisə üçün də məsuliyyət daşıması mütənasib olmazdı. Obyektiv qiymət verən hər hansı üçüncü şəxsin proqnozuna görə də qəzanın bu nəticəsi qabaqcadan görülə bilməzdi. Deyilənlər eynilə xəstəxanada qalma halı üçün tipik olmayan pulqabının oğurlanmasına da aiddir.

b. Zərərin əvəzinin ödənilməsinin növləri və həcmi

Borclu zərərin əvəzini ilkin vəziyyətin bərpa edilməsi ilə ödəməlidir (MM-in 459.1-ci maddəsi). MM-in 459.5-ci maddəsinin mətninə və sisteminə əsasən, əşyaya ziyan vurulan zaman kreditora pul əvəzi o vaxt verilə bilər ki, ilkin vəziyyətin bərpası yolu ilə zərərin ödənilməsi mümkün olmasın və ya bunun üçün qeyri-adekvat xərc çəkilməsi zəruri

olsun. Buradan belə nəticə çıxarmaq olardı ki, qalan bütün başqa hallarda zərərin pulla ödənilməsi tələb edilə bilməz. Məsələn, borclunun zərər vurduğu avtomobili hələ təmir etmək mümkündürsə, kreditor ona əvvəlcə avtomobili təmir etməyi təklif etməlidir. Borclu vəzifəsini icra etməzsə, kreditor borclunun hesabına avtomobili özü təmir etmək üçün icra çərçivəsində məhkəmədən səlahiyyət almalı olardı. Borclu avtomobili özü təmir edərsə, onda bu, zərərin həcmi barədə mübahisənin yaranması ilə də nəticələnə bilər.

MM-in 459.1-ci maddəsi bu baxımdan yalnız belə təfsir edilə bilər ki, borclu *kreditorun* tələbinə əsasən ilkin vəziyyətin bərpası üçün zəruri olan pul məbləğini də ödəməlidir. Yeri gəlmişkən, bu, hökmran olan hüquq praktikasına da uyğundur. Bunun əksinə olaraq, MM-in 459.5-ci maddəsi belə başa düşülməlidir ki, burada *borcluya* ilkin bərpa edilməsi üçün iqtisadi cəhətdən tənasübsüz surətdə böyük xərc çəkilməsi zəruri olduqda ona kreditorun ilkin vəziyyəti bərpa etmək tələbinə rəğmən ilkin vəziyyəti pul əvəzi ödəməklə bərpa edə bilməsi hüququ verilir.

12-ci misal:

A emalatxanasında tapşırığa uyğun olaraq B-nin avtomobilinin təkərlərini dəyişdirib. O, qaykaları yaxşı bərkitmədiyi üçün təkərlərdən biri yol gedərkən çıxır və B-nin maşını yüksək sürətlə beton sütuna dəyir. Qəzadan sonra avtomobilin yalnız metallom dəyəri qalır. B A-dan avtomobili təmir etməyi tələb edir. Çünki onun avtomobili nadir markalardandır və B emosional cəhətdən bu maşına çox bağlıdır.

Həlli:

B MM-in 771-ci maddəsinə əsasən A-dan zərərin ödənilməsini tələb edə bilər. Zərərin ödənilməsinin növü və həcmi ümumi öhdəlik hüququnun müddəalarına əsasən müəyyən olunur. B MM-in 459.1-ci maddəsinə uyğun olaraq ilkin vəziy-

yətin bərpasını, yəni avtomobilin təmir olunmasını tələb edə bilər. Lakin bunun üçün tənasübsüz surətdə böyük xərclərin çəkilməsi zəruri olarsa, onda borclu MM-in 459.5-ci maddəsinə uyğun olaraq zərəri pulla ödəyə bilər. Bu hal verilmiş kazusa uyğundur, çünki qəzaya uğramış avtomobilin yalnız metallom dəyəri var. Pul məbləğinin miqdarı elə hesablanmalıdır ki, B həmin məbləğlə eyni avtomobil ala bilsin.

Kreditorun vəziyyəti borclu müqaviləni pozmasaydı, nəsə olacaqdısa, həmin vəziyyətə gətirilməlidir. Əmlaka vurulmuş zərər kreditorun əmlakının indiki vəziyyəti ilə ona zərər vurulmadığı halda mövcud olacaq vəziyyətlə müqayisə etmək vasitəsilə hesablanır (buna fərqləndirmə metodu da deyilir). O, əmlaka vurulmuş zərərdən və əldən çıxmış faydadan ibarətdir. MM-in 21.2-ci maddəsinə uyğun olaraq, borclu zərər dəymiş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclərin, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlərin (əldən çıxmış faydanın) əvəzini ödəməlidir.

Müstəsna hallarda zərər vurulması ilə nəticələnən hadisə zərər dəymiş şəxsə mənfəət də gətirə bilər. Bu zaman hər bir konkret halda tərəflərin maraqları nəzərə alınmaqla mənfəətin zərərin ödənilməsi ilə hesablanmasının *(əvəzləşdirilməsinin)* münasib olub-olmaması yoxlanmalıdır (məsələn, üçüncü şəxslərin həmrəylik və dərdə şərikolma hissləri əsasında zərər dəymiş şəxsə könüllü yardımları, bir qayda olaraq, zərər vurmuş şəxsi dəymiş zərəri tam ödəmək öhdəliyindən azad etməməlidir; əksinə, zərər dəymiş şəxsin zərər vurulması ilə bağlı hadisə nəticəsində gözlənilmədən mənfəət əldə etməsi həmin mənfəətin zərərin ödənilməsi kimi hesablanmasına *(əvəzləşdirilməsinə)* səbəb ola bilər. Mənfəətin əvəzləşdirilməsi ilə bağlı klassik misal yeninin köhnədən çıxılmasıdır: işlənmiş əşya yenisi ilə əvəz edildikdə və ya yeni tərkib hissələri quraşdırılmaqla təmir edilərsə, bu, əşyanın qiymə-

tinin artırılmasına gətirib çıxara bilər ki, bu da zərərin ödənilməsi tələbindən çıxılmalıdır.

Nəhayət, zərərin həcmi hesablanarkən zərər dəymiş şəxsin və ya qanunla onun təmsil etməli olduğu şəxslərin zərərin yaranmasına, yaxud onun həcminə təsir göstərib-göstərməməsi və bunun hansı həcmdə olmasının yoxlanması unudulmamalıdır (MM-in 21.3-cü maddəsi). Bu, zərərin ödənilməsi tələbini azalda və ya tamamilə aradan qaldıra bilər.

II. Qanundan irəli gələn iddia tələblərinin qanuni əsasları

1. Ümumi müddəalar

Tərəflər arasında müqavilə münasibətlərinin mövcudluğundan asılı olmayaraq, müəyyən şərtlər olduqda qanunda tələblər nəzərdə tutulur. Bu normalar qanundan irəli gələn iddia tələblərinin qanuni əsasları adlanır, çünki onlar hüquqi əqdə xas olan adi iradə ifadəsi ilə bağlı qərar olmadan bilavasitə qanundan irəli gəlir. Qanunda nəzərdə tutulmuş belə iddia tələbi əsasları xüsusi xarakterli müqavilə münasibətləri mövcud olduqda və beləliklə, müqavilədən iddia tələblərinin qanuni əsaslarının şamil olunduğu hallarda da tətbiq olunur. Belə hallarda müqavilədən və qanundan irəli gələn iddia tələblərinin qanuni əsasları arasında *tələblərin rəqabətindən* danışılır.

13-cü misal:

B yeni əldə etdiyi fərdi evinin qonaq otağında, özü düzəltmək şərtilə, 4 m uzunluğunda divar şkafı quraşdırmaq istəyir, lakin bunun üçün onun xüsusi dəyirmi mişara ehtiyacı var ki, şkafın ayrı-ayrı hissələrini hazırlasın. 2005-ci ilin may ayında o, dostu A-dan dəyirmi mişarın istifadəyə verilməsini xahiş edir.

A bir qədər duruxa-duruxa buna razılığını verir, çünki mişar həddən artıq bahalı idi və A ona lazım olan modeli tapmaq üçün xeyli vaxt sərf etmişdi. Hər iki tərəf razılaşır ki, B mişarı divar şkafı ilə bağı işlər yekunlaşan kimi geri qaytaracaq.

2005-ci il iyunun ortalarında B divar şkafını hazırlayır, lakin mişarı A-ya qaytarmağı yaddan çıxarır. A-nın da başı başqa işlərə qarışıq olduğundan B-dən mişarı qaytarmağı tələb etməyi unudur. 2008-ci ilin dekabrında A bağçasında taxta işləri görən zaman mişarın hələ də B-də olduğunu xatırlayır. O, B-dən mişarın ona verilməsini tələb edir. Bir çox səbəblərdən A ilə narazılıqları olan B mişarı qaytarmaqdan imtina edir və bildirir ki, aradan bu qədər vaxt keçəndən sonra mişar tələb edilə bilməz. Hüquqi vəziyyət necədir?

Həlli:

(1.) MM-in 736.2-ci və 732-ci maddələrinə əsasən A mişarın geri qaytarılmasını tələb edə bilər. Həmin müddəalara əsasən, istifadə müddəti müəyyənləşdirilməyibsə, kirayəçi əşyanı əvəzsiz istifadə məqsədlərinə uyğun istifadə etdikdən sonra kirayəyə verənə qaytarmalıdır.

Burada tərəflər arasında müqavilənin, yoxsa hüquqi qüvvəsi olmayan lütfkarlıq münasibətlərinin olması konkret hallarda, xüsusilə əvəzsiz müqavilələr zamanı sual doğura bilər. Çox zaman tərəflər belə hallarda birmənalı razılaşma, xüsusilə də yazılı formada, əldə etmirlər. Hüquqi qüvvəyə malik olmayan dostluq, yaxud lütfkarlıq münasibətlərinin, yoxsa müqavilə razılaşmalarının olması konkret haldan və şərhdən asılı olan məsələdir. Bu zaman mühüm əhəmiyyət kəsb edən məqam iradə ifadəsini qəbul edən şəxsin iradəsini ifadə edən şəxsi necə başa düşməli olmasıdır.

Bu zaman mühüm əhəmiyyət kəsb edən meyar iradə ifadəsini qəbul edən şəxsin məsələnin iqtisadi əhəmiyyətini dərketmə dərəcəsidir. Bu dərketmə nə qədər böyükdürsə, tərəflərin

həqiqətən də hüquqi öhdəlik götürmək istəmələri ehtimalı o qədər yüksəlir. Beləliklə də zahiri baxımdan oxşar hadisələr müxtəlif cür qiymətləndirilə bilər: məsələn, birmənalı çox mühüm olmayan ad günü münasibətilə göndərilməli olan açıqcanın poçt vasitəsilə göndərilməsi barədə xahiş göndərən üçün çox önəmli işgüzar məktubun poçt vasitəsilə göndərilməsi barədə xahişdən fərqli qiymətləndiriləcək. Sonuncu halda bir çox məqamlar burada söhbətin hüquqi baxımdan məcburi olan tapşırığın qəbul edilməsindən getdiyini güman etməyə əsas verir. Bu kazus üzrə də A-nın yalnız uzun sürən axtarışlardan sonra tapıb əldə etdiyi və kifayət qədər qiymətli olan, B-nin də yaxşı bildiyi kimi, çox böyük həvəslə A-nın üçüncü şəxslərə vermədiyi dəyirmi mişarla bağlı qəbul edilməlidir ki, dostlar arasında olsa da, hüquqi anlamda əvəzsiz istifadə müqaviləsi mövcuddur.

MM-in 736.2-ci maddəsinin başqa dispozisiya şərtlərinə də bu iş üzrə əməl edilib. Tərəflər arasında müəyyən əvəzsiz istifadə müddəti barədə razılıq əldə edilməyib. B mişarı müqavilədə nəzərdə tutulmuş məqsəd üçün (divar şkafının hazırlanması) istifadə edib. Tərəflər arasında belə razılaşma da var idi ki, B divar şkafı ilə bağlı işlərini qurtardıqdan sonra mişarı ləngimədən geri qaytarmalı idi. Beləliklə, MM-in 736.2-ci maddəsinə əsasən müqavilədən irəli gələn əşyanın qaytarılması tələbi mövcuddur.

Lakin B iddia müddətinin keçməsinə (MM-in 372-384-cü maddələri) istinad edir. Düzdür, B bunu birbaşa demir, lakin onun uzun müddət keçməsinə istinadı məhz bu mənada başa düşülməlidir (şərh). MM-in 373.2-ci maddəsinə əsasən, müqavilə tələbləri üzrə iddia müddəti üç ildir. MM-in 738-ci maddəsində nəzərdə tutulan hal burada yoxdur. 2005-ci ilin iyun ayının ortalarından axımı başlayan üç il çoxdan keçib. MM-in 377.2-ci maddəsinə əsasən, icra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı icra müddəti

bitdikdə başlanır. Mişarın qaytarılması ilə bağlı icra müddəti kimi divar şkafı ilə bağlı işlərin qurtarması (bax: yuxarıda) razılaşdırılmışdı. Bu işlər 2005-ci il iyun ayının ortalarında bitmişdi və beləliklə də iddia müddəti 2008-ci il iyunun ortalarında keçib.

B MM-in 375.2-ci maddəsinə əsasən iddia müddətinin keçməsinə istinad edib (konkludent olaraq). Nəticə etibarilə A əvəzsiz istifadədən doğan tələbini həyata keçirmək iqtidarında deyil. Hakim bu tələbi yoxlasa idi, o, B iddia müddətinin tətbiqi barədə ərizə verməsi şərtilə iddianı rədd edərdi.

(2.) Lakin A B-yə qarşı MM-in 1096, 1097.1-ci maddələrinə görə zərərin ödənilməsi formasında əşyanın geri qaytarılmasını tələb edə bilərdi. Buna əsasən başqasının hüququnu qanunazidd və təqsirli şəkildə pozan şəxs bundan irəli gələn zərərin əvəzinin ödənilməsi üçün məsuliyyət daşıyır.

MM-in 1096-cı maddəsinə əsasən, qanunazidd hüquq pozuntusu, o cümlədən əməl müqavilədən irəli gələn vəzifələr pozulduğu hallarda mövcud olur. Bu iş üzrə də belə vəziyyət yaranıb, çünki B MM-in 736.2-ci maddəsindən irəli gələn əşyanın geri qaytarılması ilə bağlı müqavilə vəzifəsini pozub.

Mişarın qaytarılmaması da B-nin təqsirindən baş verib.

Beləliklə də A-ya zərər vurulub. Çünki məsələ başqa cür olsaydı, mişar B-nin sahibliyində olardı. MM-in 459.1-ci maddəsinə əsasən, A B-dən natural restitusiya qaydasında mişarın qaytarılmasını tələb edə bilər.

Bu tələblə bağlı iddia müddətinin keçməsi sual doğurur. MM-in 373.1-ci maddəsinə əsasən, ümumi iddia müddəti 10 il təşkil edir. Bu müddət başqa xüsusi müddəalar olmadığından deliktlərə də şamil edilir. MM-in 377.1-ci maddəsinə əsasən, iddia müddətinin axımı şəxsin hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlayır. Düzdür, A yalnız 2008-ci ilin dekabrında B-nin mişarı hələ də qaytarmadı-

ğını müəyyən etmişdi, lakin o, bunu birmənalı olaraq 2005-ci ilin iyun ayında görə bilərdi. Beləliklə, müddətin axımı həmin vaxtdan başlayır. Həmin vaxtdan yalnız 3,5 il keçdiyindən deliktdən irəli gələn zərərin ödənilməsi tələbi üzrə iddia müddəti hələ keçməyib.

Lakin burada 373.2-ci maddədəki daha qısa iddia müddətinin deliktdən irəli gələn zərərin ödənilməsi tələbinə analogiya qaydasında tətbiqi məsələsi meydana çıxır. MM-in 1097.1-ci maddəsinə əsasən, müqavilə vəzifəsinin pozulması həmişə, eyni zamanda, deliktə görə məsuliyyət yaradır. Bu halda deliktdən irəli gələn tələblərlə bağlı qanunda nəzərdə tutulan daha uzun iddia müddətləri tətbiq edilsəydi, bir qayda olaraq, daha qısa olan müqavilə üzrə iddia müddətləri boşa çıxardı. Qanunvericinin bunu məhz belə istəməsi ilə bağlı böyük şübhələr var. Çünki belə yanaşma onun müqavilə tələbləri üzrə daha qısa iddia müddətləri müəyyən etmək yolu ilə müqavilələrin icrasını sürətləndirmək və bunun nəticəsində hüquqi təhlükəsizlik və hüquqi sülh əldə etmək istəyinə zidd olardı. Buna görə 373.2-ci maddənin deliktdən irəli gələn tələblərə də analogiya üzrə şamil edilməsinin lehinə qərar qəbul etmək olar, bir şərtlə ki, delikt üzrə məsuliyyət, burada olduğu kimi, sırf müqavilə vəzifələrinin pozulmasından irəli gəlsin.

Bu mövqe qəbul olunarsa, MM-in 1096, 1097.1-ci maddələrindən irəli gələn tələb üzrə də iddia müddəti keçmiş olmalıdır.

(3.) A-nın bundan əlavə MM-in 157.2-ci maddəsinə əsasən tələbi də ola bilər. Həmin maddəyə əsasən, əşyanın mülkiyyətçisi onu başqasının qanunsuz sahibliyindən geri tələb edə bilər.

Bu şərtlərə burada əməl edilib. A mişarın mülkiyyətçisidir və B sahibidir. B-nin artıq sahibliyi də qanunsuzdur, əvəzsiz istifadə müqaviləsi üzrə münasibətlərin qurtarması ilə o, mişar üzərində sahiblik hüququnu itirib.

B-nin müddətin keçməsi barədə etirazı burada keçərli deyil. MM-in 373.1-ci maddəsinə görə, ümumi iddia müddəti 10 ildir və beləliklə də tələb üzrə iddia müddətinin keçməsindən ən tezi 2015-ci ildə danışmaq olar. MM-in 373.2-ci maddəsindəki daha qısa iddia müddətinin burada analogiya üzrə tətbiqi mümkün deyil, çünki deliktdən irəli gələn tələbdən fərqli olaraq, dispozisiya şərti müqavilə üzrə vəzifə pozuntusu ilə bağlı deyil, tələb daha çox mülkiyyət hüququndan irəli gəlir. Bu, daha güclü əşya hüququdur, sadəcə olaraq müqavilədən irəli gələn tələblə müqayisədə daha uzun müddət müdafiə edilməlidir.

Nəticə etibarilə A B-dən hər halda MM-in 157.2-ci maddəsinə əsasən (vindikasiya) mişarın geri qaytarılmasını tələb edə bilər.

Bir neçə iddia tələbinin qanuni əsası üst-üstə düşdüyü halda (iddia tələbinin qanuni əsaslarının rəqabəti) hakim bütün nəzərə çarpan iddia tələbi əsaslarını yoxlamalıdır, çünki onlardan biri iddiaçının can atdığı nəticəyə aparmaya, yaxud tam aparmaya bilər. Bu, həm də ona görə önəmlidir ki, prosesdə iddia tələbinin qanuni əsaslarından biri üçün tərkib əlamətləri ilə bağlı şərtlər mübahisəli xarakter daşıya bilər və bu baxımdan sübutların araşdırılmasını zəruri edər. Başqa iddia tələbinin qanuni əsası üçün isə həmin şərtlər mübahisəli olmadığına görə orada sübutların araşdırılması vacib olmayacaq.

2. Qanundan irəli gələn ayrı-ayrı iddia tələblərinin qanuni əsasları

a. Mülki hüquq pozuntusu (delikt) (MM-in 1096-1116-cı maddələri)

13-cü misalda mühüm iddia tələbinin qanuni əsaslarından biri olan mülki hüquq pozuntusunun (delikt) şərtləri nəzərdən keçirilib.

Burada söhbət xüsusilə aşağıdakı üç ünsürdən gedir:

– əməl (hərəkət və ya hərəkətsizlik);

– əməlin hüquqazidd olması;

– təqsir.

Bu üç elementin olması əslində təbii görünsə də, heç də həmişə belə olmur.

Aşağıda göstərilən misallar bunu bir daha aydınlaşdıracaq:

14-cü misal:

Piyada A piyadalar üçün səkidən istifadə etməyərək dar küçə ilə gedərkən sürücü B arxadan maşınla onu vurur. Bu zaman A-nın əlindəki içərisində sənədlər olan çanta C-nin mağazasının şüşəsinə dəyir və onu sındırır. B maşını saxlamadan yoluna davam etdiyi və onu tapmaq mümkün olmadığı üçün C A-dan ona dəymiş zərərin ödənilməsini tələb edir.

Həlli:

C ilə A arasında müqavilə münasibətləri olmadığından yalnız, MM-in 1096.1-ci maddəsi ilə birlikdə 1097.1-ci maddəsinə əsasən, mülki hüquq pozuntusu ilə əlaqədar yaranan tələblə çıxış etmək imkanı var. A-nın hüquqazidd hərəkət etdiyi və onun təqsirli olması yoxlanmazdan əvvəl, ümumiyyətlə, əməlin baş verib-vermədiyi araşdırılmalıdır. MM-in 1096.1-ci maddəsinə uyğun olaraq, əməl həm hərəkət, həm də hərəkətsizlik ola bilər. Lakin hər iki halda şüurlu, yaxud iradə ifadə edən davranış formasının olması zəruridir. Xüsusilə reflekslər və ya şüursuz davranış bura aid edilmir.

Bu kazusda yuxarıda təsvir edilmiş mənada əməl yoxdur. Maşının A-nı vurması nəticəsində o, yalnız heç bir təsir göstərmək imkanı olmayan hadisənin obyektinə çevrilib. Ona görə də o, «mülki hüquq pozuntusu» ilə bağlı məsuliyyət da-

şımır (!). Bu tələb həmin norma ilə nəzərdə tutulmuş birinci tərkib elementinə görə yarana bilməz. Bu baxımdan hüquqazidlik, yaxud təqsirin olub-olmaması önəmli deyil.

Misalın dəyişdirilmiş variantı:

A görür ki, sürücü B yüksək sürətlə idarə etdiyi maşınla ona yaxınlaşır. O, soyuqqanlı şəkildə özünü başqa tərəfə atır. Lakin bu zaman o, uğursuzluğa düçar olur və yıxılır.

a) Yıxılan zaman içərisində sənədlər olan çantası yenə də C-nin mağazasının pəncərəsinə dəyir və onu sındırır.

b) A yıxılarkən yoldan keçən D-yə də toxunur və D yaxınlıqdakı divara dəyərək bədən xəsarətləri alır.

C və D A-dan dəymiş zərərin ödənilməsini tələb edirlər, çünki B-ni tapmaq mümkün deyil.

Həlli:

(1) Mülki hüquq pozuntusundan irəli gələn tələblər (MM-in 1097.1-ci maddəsi)

Əvvəlki kazusdan fərqli olaraq, A-nın əməlinin olması inkar edilə bilməz. O, «soyuqqanlı şəkildə» özünü başqa tərəfə atdığı üçün onun bu manevrində şüurlu və idarə olunmuş davranış var.

Lakin onun əməli həm də hüquqazidd olmalıdır. Bu kazusda olduğu kimi, üçüncü şəxslərin mülkiyyət, həyat və sağlamlıq kimi mütləq qorunan hüquqları pozulduqda müntəzəm olaraq əməlin hüquqazidd olması düşünülür (müstəsna olaraq bunu aradan qaldıran hal olmazsa).

Lakin burada MM-in 564.1-ci maddəsi əməlin hüquqazidliyini aradan qaldıran hal kimi nəzərə çarpır. Bu zaman A-nın hərəkəti son zərurət vəziyyətində edilmiş olmalıdır. MM-in 564.2-ci maddəsinə uyğun olaraq son zərurət elə vəziyyətdir ki, bu vəziyyətdə başqa vasitələrlə qarşısı alına bilinməyən

real təhlükəni önləmək üçün qarşısı alınmış təhlükəyə nisbətən daha az ziyan vurulur[18].

Kazusa əsasən A-nın manevrinə onun sağlamlığına mövcud təhlükənin qarşısının alınması üçün zəruri əməl kimi baxılmalıdır.

Bununla belə, hüquqazidliyin aradan qalxması üçün ikinci şərtin olmasına görə C-yə və D-yə vurulan ziyanın fərqləndirilməsi lazım gələcək:

Göstərildiyi kimi, MM-in 564.2-ci maddəsinə uyğun olaraq son zərurət halında hüquqazidlik o zaman aradan qalxır ki, vurulmuş ziyan gözlənilən ziyandan az olsun. Hər hansı əşyanın zədələnməsi avtomobil qəzası ilə həyat və sağlamlığa vurula biləcək ziyandan az olur.

Ona görə də A-nın başqa tərəfə atılması və bunun nəticəsində mağazanın şüşələrinin sınması ilə o, C-yə münasibətdə hüquqazidd hərəkət etməyib. Hüquqazidd hərəkət olmadığına görə C MM-in 1097.1-ci maddəsinə uyğun olaraq A-ya qarşı mülki hüquq pozuntusu ilə bağlı tələblə çıxış edə bilməz[19].

Əksinə, deyilənlər zərərin ödənilməsi ilə bağlı D-nin tələbinə aid deyil: burada iki şəxsin sağlamlığı qorunmalı olan hüquqi dəyər kimi bərabərdir. Bununla da MM-in 564.2-ci maddəsinə əsasən A-nın hərəkətinin hüquqazidd olması aradan qalxmır. İstənilən halda bu dəyərlərin (sağlamlıq) prinsipcə eyni olmalarına baxmayaraq, A üçün gözlənilən zədələr D-də yaranan zədələrdən qat-qat ciddi ola bilərdisə, MM-in 564.2-ci maddəsinin tətbiqi barədə düşünmək olar. Lakin burada məsələ heç də belə deyil.

---

[18] Bununla son zərurətin MM-in 563-cü maddəsi ilə tənzimlənən zəruri müdafiədən nə ilə fərqlənməsi aydın olur: zəruri müdafiədə qoruyucu tədbir həmlə edənə, son zərurətdə isə üçüncü şəxsə qarşı yönəlir.

[19] MM-in 564-cü maddəsindən irəli gələn məsuliyyətlə bağlı aşağıda bax (2).

D-nin vurulmuş zərərin ödənilməsi ilə bağlı tələbi MM-in 1096.1-cı maddəsi ilə birlikdə 1097.1-ci maddəsinə uyğun olaraq A-nın təqsirli hərəkət etməli olmasını nəzərdə tutur. MM-in 443.7-ci maddəsində əksini tapdığı kimi, hüququn ümumi prinsiplərinə əsasən təqsir prinsip etibarilə qəsd və ehtiyatsızlığı əhatə edir[20]. Hər bir halda A D-nin sağlamlığını qəsdən zədələməyib. Onun ehtiyatsızlıqla hərəkət edib-etməməsi konkret haldan asılı olan məsələdir. Lakin bir qayda olaraq, bunu qəbul etmək lazım gələcək. Yalnız A-nın D-ni çox çətinliklə hiss edə bildiyi və ya D-yə çox az zədə dəyəcəyini güman etdiyi, A üçün başqa alternativ qalmadığı hallarda ehtiyatsızlığın olmaması nəticəsinə də gəlinə bilər. Lakin burada, həmişə olduğu kimi, təqsirin olması qəbul edilərsə, A MM-in 1097.1-ci maddəsinə uyğun olaraq D qarşısında zərəri ödəmək üçün məsuliyyət daşıyır[21].

(2) Məsuliyyəti aradan qaldıran son zərurətdən irəli gələn tələblər (MM-in 564.1-ci maddəsi)

Hüquqazidd əməl olmadığına görə A-ya qarşı mülki hüquq pozuntusundan irəli gələn tələb hüququ olmayan C üçün kazusda yalnız son zərurət vəziyyətindən irəli gələn tələb nəzərə çarpır. Əlbəttə, bu tələb qanunda birbaşa nəzərdə tu-

---

[20] Bundan fərqlənən təqsir formaları isə qanunla birbaşa tənzimlənib. Bu, xüsusilə yalnız qəsd və kobud ehtiyatsızlığa görə (müqayisə et: məsələn, MM-in 448.2, 733.1, 824.1-ci maddələri) məsuliyyət yaranan halları əhatə edir. O şəxs kobud ehtiyatsızlığa yol vermiş hesab olunur ki, o, mülki dövriyyədə zəruri olan diqqətliliyi xüsusilə ağır şəkildə pozsun, yəni özlüyündə hər bir şəxsə gün kimi aydın olan məsələni nəzərə almasın.

[21] A-nın təqsiri inkar edilərsə, MM-in 564.1-ci maddəsinə uyğun olaraq analogiya qaydasında D-nin tələb hüququ olardı. Əlbəttə, qeyd olunduğu kimi, tərkib əlamətləri üçün şərtlər yerinə yetirilməyib. Bununla belə, MM-in 564.1-ci maddəsində müəyyən edilib ki, hüquqauyğun hərəkət etmiş şəxs də vurulmuş zərəri ödəməlidir (müqayisə et: aşağıda (2). Bunu nəzərə alaraq uyğun qayda şəxsin hüquqazidd, lakin təqsirsiz hərəkət etdiyi hallara da şamil olunmalıdır.

tulmayıb[22]*. Lakin bu, dolayı olaraq və əks nəticə əsasında MM-in 564.1-ci maddəsindən də irəli gəlir. Çünki bu müddəaya əsasən, zərərin ödənilməsi tələbi yalnız o zaman açıq-aşkar aradan qalxır ki, zərər dəymiş şəxs son zərurət vəziyyətinin yaranmasına özü səbəb olsun (müdafiə xarakterli son zərurət). Beləliklə, əks nəticə əsasında buradan belə çıxır ki, aqressiv son zərurət halında zərər dəymiş üçüncü şəxs bu ziyanı vurmuş şəxsdən onun əvəzinin ödənilməsini tələb edə bilər. Burada da vəziyyət belədir. Çünki A üçün təhlükə mənbəyi C deyil, B olub.*

(3) Birlikdə mülki hüquq pozuntusu törədilən hallarda zərərin əvəzinin ödənilməsi

Burada yalnız qısaca olaraq onu qeyd etmək lazımdır ki, zərər vurmuş şəxs, yəni maşının sürücüsü B MM-in 1097.1-ci maddəsinə uyğun olaraq C-yə, D-yə vurulmuş zərəri ödəmək öhdəliyi daşıyır. Bununla da A və B MM-in 1113.1-ci maddəsində nəzərdə tutulan mənada birgə borcludurlar. Zərərvurmuş şəxslərin hər ikisinə, yaxud onlardan birinə qarşı tələb irəli sürülməsi C və D-dən asılıdır. Bu kazusda olduğu kimi, onlardan yalnız birinə (yəni A-ya) qarşı tələb irəli sürülürsə, onda A B-dən MM-in 1114.2-ci maddəsinə uyğun olaraq kompensasiya tələb edə bilər. Kompensasiya tələbinin həcmi B-nin təqsirinin dərəcəsinə əsasən müəyyən edilir. A və B-nin təqsirinin dərəcəsi müəyyən edilərkən bir tərəfdən B-nin avtomobili yüksək sürətlə idarə etməsi, başqa yandan isə A-nın səkidən istifadə etməməsi çox önəmlidir. A B-ni taparsa, tələbi ona qarşı da irəli sürə bilər.

Qeyd olunduğu kimi, zərərin ödənilməsi öhdəliyini yaradan hərəkət MM-in 1096.1-ci maddəsinə uyğun olaraq hə-

---

[22] MM-in 564.4-cü maddəsi yalnız burada olmayan xüsusi halı (son zərurət vəziyyətində vurulmuş ziyanın qarşısı alınmış ziyandan çox olduğu hal) tənzimləyir.

rəkətsizlik də ola bilər. Bununla bağlı aşağıdakı 2 misala baxaq:

15-ci misal:

A küçədəki əsas su xəttindən evinə yeni su kəməri çəkmək istəyir. Bu məqsədlə o, evinin qarşısındakı piyada yolunda 60 sm dərinlikdə çala qazır. Hava qaralanda o, işi dayandırır və yeni borunun qoyulması işini səhərə saxlayır. Gecə vaxtı yoldan keçən piyada çalaya düşür və ayağı sınır. O, A-dan zərərin ödənilməsini tələb edir.

16-cı misal:

A evə geri qayıdarkən görür ki, bir neçə uşaq mübahisə nəticəsində bir-birinə daş atır. Onların düz yaxınlığında böyük pəncərələri olan iki mağaza yerləşir. Atılan daşlara tuş gəlməmək üçün A özünü qorumağa çalışır. Elə həmin anda atılan daşlardan biri mağazanın şüşəsinə dəyir və şüşə sınır. Mağazanın sahibi A-dan zərərin ödənilməsini tələb edir və bunu belə əsaslandırır ki, A məsələyə müdaxilə etməli və daşatmanın qarşısını almalı idi.

Həlli:

Yuxarıda göstərilən hər iki kazusda A-nın nəyisə etməməsi üzündən hüquq pozuntusu (sağlamlığa və mülkiyyətə ziyan vurulması) baş verib. Birinci misalda piyada yolunun qazılmasının (pozitiv hərəkət) hüquq pozuntusunun baş verməsi ilə yalnız uzaq əlaqəsi olub. Yəni yolun qazılması hüquq pozuntusunun baş verməsi üçün yalnız dolayı səbəb rolunu oynayıb və ayrılıqda bu hərəkətin özü hüquqazidd deyildi. Piyadanın çalaya yıxılmasının əsl səbəbi o olub ki, A piyada yoluna çalanın olmasını qaranlıqda da bildirən işarə qoymayıb. Məhz bu hərəkətsizlik sonda piyadanın çalaya yıxılmasına səbəb olub. İkinci kazusda A uşaqların daşatmasına müdaxilə etməklə (məsələn, ciddi xəbərdarlıq etmək və ya hədələməklə) bunun qarşısını ala və zərər vurulmasına mane ola bilərdi.

Bununla belə, o da aydındır ki, kimsə hüquq pozuntusunun qarşısını ala biləcək hərəkəti sadəcə olaraq etmədiyinə görə zərərin əvəzini ödəmək öhdəliyi daşıya bilməz. Bunun üçün hər bir halda hərəkətsizlik etmiş şəxsi hərəkət etməyə sövq etməli olan xüsusi əsaslar olmalıdır. Yalnız belə halda hərəkətsizliyə hüquq pozuntusu üçün səbəb kimi baxıla və o, aktiv hərəkətə bərabər tutula bilər. Bu hərəkətetmə vəzifəsi müxtəlif səbəblərdən irəli gələ bilər (və hər bir konkret halda hakim bunu pozitiv şəkildə müəyyən etməlidir!). Təhlükəli vəziyyət yaratmış şəxs üçün hərəkət etmək öhdəliyi yaranır; o, üçüncü şəxsləri hüquq pozuntularının baş verməsindən qorumaq üçün daim ehtiyat tədbirləri görmək öhdəliyi daşıyır. Hərəkət etmək vəzifəsi hüquq müddəalarına əsasən mümkün hüquq pozuntularının qarşısını almaq öhdəliyi (məsələn, yanğın təhlükəsi zamanı gəlməli olan yanğınsöndürənlər; cinayətkarlığın qarşısını almalı olan polislər) daşıyan şəxslərə də aiddir.

15-ci misalda A yeri qazmaqla təhlükə mənbəyi yaradıb ki, bundan da əvvəl o, qoruyucu tədbirlər vasitəsilə üçüncü şəxsləri müdafiə etməli idi. Ona görə də bu tədbirlərin görülməməsi zərərin ödənilməsi öhdəliyi üçün əsasdır. 16-cı misalda isə vəziyyət bir qədər başqa cürdür: A üçüncü şəxs olaraq başqa üçüncü şəxsləri mümkün əmlak zərərindən qorumaq üçün uşaqların daşatmasına müdaxilə etmək vəzifəsi daşımırdı. Qanuna əsasən belə hüquqi vəzifə ilk növbədə uşaqlara qayğı göstərmək vəzifəsi daşıyan valideynlərə aiddir.

Delikt zamanı məsuliyyət, bir qayda olaraq, yalnız şəxsi təqsirə görə yaranır. Mühüm istisna MM-in 1099-cu maddəsində əksini tapıb.

17-ci misal:

Usta A-ya B-nin evini çöldən rəngləmək tapşırığı verilib. Onun işçisi C-nin diqqətsizliyi nəticəsində içərisində rəng olan qab aşır və təsadüfən bu zaman yoldan keçən piyada D-

nin paltarını ləkələyir. D zərərin ödənilməsi tələbi ilə daha böyük ödəmə qabiliyyəti olan usta A-ya müraciət edir.

Usta A bu tələbi belə əsasla rədd edir ki, zərərin vurulmasında onun təqsiri olmayıb. Digər tərəfdən, C-nin özü də başqa hallarda daim güvənilən bir işçi olub və əvvəllər onun fəaliyyəti heç vaxt iddia qaldırılmasına səbəb olmayıb.

Həlli:

(1) A və D arasında heç bir müqavilə münasibəti olmadığına görə burada müqavilədən irəli gələn hər hansı iddia tələbinin əsası yaranmır. Ona görə də MM-in yardımçı xarakter daşıyan 456-cı maddəsi tətbiq olunmur. Həmin müddəaya əsasən, borclunun öhdəliyini icra etmək üçün işçilərinin yerinə yetirdikləri hərəkətlər borclunun hərəkətləri sayılır. Əslində bu normanın özü iddia tələbinin əsası qismində çıxış etmir. Yəni o, sadəcə olaraq, yardımçı norma rolunu oynayır. Bu norma vasitəsilə müqavilədən irəli gələn zərərin ödənilməsi tələbi, yəni borclunun təqsiri istisna qayda kimi başqasının təqsirinin ona aid edilməsi ilə əvəz olunur.

(2) Bununla belə, A MM-in 1099-cu maddəsinə uyğun olaraq mülki hüquq pozuntusuna görə məsuliyyət daşıyır. Bu norma özü ayrıca iddia tələbinin qanuni əsasıdır. Həmin müddəaya uyğun olaraq, hüquqi və ya fiziki şəxs işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərəri ödəməlidir. Göstərilən kazusda C A-nın işçisidir və bununla da MM-in 1099-cu maddəsinin birinci şərti artıq var.

Daha sonra, mülki hüquq pozuntusu məhz əmək vəzifələrinin icrası zamanı törədilməlidir. Əmək vəzifələrinin icrası zamanı yalnız təsadüfdən baş verən hallar bunlardan fərqləndirilməlidir: məsələn, C-nin oğurluq məqsədi ilə B-nin evində başqa otaqlara keçmə imkanından istifadə etməsi. Belə halda A-nın məsuliyyəti yaranmayacaq.

Fərqləndirmə aparmaq elə də asan məsələ deyil və daim konkret haldan asılıdır.

Lakin yuxarıda göstərilən kazusda əmək vəzifələrinin icrası ilə birmənalı bağlılıq var.

C-nin hərəkətinin hüquqazidd olması da aydındır (başqalarının hüquqlarının pozulması, yuxarıya bax).

Son olaraq C təqsirli hərəkət etməlidir. Bu zaman A-nın məsuliyyət daşıması üçün C təqsirli olmalıdır. Yəni A-nın da, xüsusilə işçiləri seçərkən və onlara nəzarət edərkən təqsirli olmasının məsələyə aidiyyəti yoxdur (A-nın təqsirli olmasından o vaxt söhbət gedə bilər ki, məsələn, o, daim sərxoş vəziyyətdə olmaq nəticəsində diqqətsizliyə meyilli olan tanıdığı içki düşkününü işə götürsün. Belə hallarda MM-in 1097.1-ci maddəsinə uyğun surətdə əlavə olaraq A-nın öz məsuliyyəti də yaranır). MM-in 1099-cu maddəsinə əsasən isə A yalnız başqasının, yəni konkret halda C-nin təqsirinə görə məsuliyyət daşıyır.

b) Özgə işlərini tapşırıqsız aparmaqdan irəli gələn tələblər (MM-in 1087-1090-cı maddələri):

Qanunla nəzərdə tutulmuş öhdəlik münasibətinin yaranması üçün başqa əsas MM-in 57-ci fəsli ilə tənzimlənən özgə işlərini tapşırıqsız aparmadır. Qanunverici bu hüquq institutu vasitəsilə kiminsə özlüyündə başqasının hüquq sferasına aid olan və ondan tapşırıq almadan müəyyən hərəkətlər etdiyi hallar üçün maraqların kompensasiyasını yaradır. Tez-tez icraçının fəaliyyəti onun fəaliyyət göstərdiyi sahibkarın maraqlarına da cavab verir. Burada icraçı üçün üstünlüklərin müəyyən olunması və onun hərəkətləri üçün öhdəlik və risklərin sahibkarın üzərinə qoyulması məqsədəuyğundur. Buna uyğun olaraq MM-in 1090.1-ci maddəsində icraçının sahibkara qarşı xərclərin ödənilməsi və öhdəliklərdən azad olunması ilə bağlı tələblə çıxış edə bilməsi imkanı nəzərdə tutulub. Öz növbəsində sahibkar da seçilmədiyi icraçının ehtiyatla davranması və zə-

rər vurmamasında çox maraqlıdır. MM-in 1087.1-ci maddəsinə uyğun olaraq özgəsinin (sahibkarın) işlərini tapşırıq və ya başqa əsas olmadan aparan şəxs (icraçı) onu vicdanla aparmağa borcludur. MM-in 1089-cu maddəsində nəzərdə tutulmuş şərtlər əsasında sahibkar işlərin aparılması gedişində vurulmuş zərəri icraçıdan tələb edə bilər.

MM-in 1090.1-ci maddəsində nəzərdə tutulmuş həm icraçının tələbi, həm də 1089-cu maddəsində nəzərdə tutulmuş sahibkarın tələbinin yaranması üçün özgə işlərini tapşırıqsız aparma olmalıdır. MM-in 1087.1-ci maddəsinə uyğun olaraq aşağıdakı hallarda özgə işləri tapşırıqsız aparılır:

1) icraçı özgə işini əldə edir;

2) bu zaman özgəsinin işini aparmaq iradəsi ilə hərəkət edir;

3) bu işlərin aparılması üçün onun üzərinə tapşırıq, yaxud hər hansı başqa qaydada öhdəlik qoyulmur.

Özgəsinin işinin əldə edilməsi ən azı başqasının işlərinə aid olan bütün faktiki və ya hüquqi fəaliyyəti əhatə edir. Misal üçün, tufan başlamazdan əvvəl qonşunun bostanındakı pomidorların yığılması özgəsinin işidir. Kirayəçinin kirayə götürdüyü mənzildə yanğını söndürməsi də özgə işini tapşırıqsız aparmaya aiddir. Yəni yanğının söndürülməsi təkcə kirayəçinin deyil, eləcə də mülkiyyətçinin maraqlarına aiddir.

Özgə işlərinin tapşırıqsız aparılması üçün həlledici amil (məhz yuxarıda göstərilən sonuncu halla bağlı) özgə işlərini aparmaq iradəsinin (istəyinin) olmasıdır. Yalnız icraçı həqiqətən də başqası üçün fəaliyyət göstərmək istədikdə ona üstünlük verilməlidir. İcraçı müstəsna olaraq başqasına aid olan müəyyən bir işi üzərinə götürdükdə onun bu işi aparma istəyi, bir qayda olaraq, ehtimal oluna bilər. Əks halda bu istəyin mövcud olub-olmaması müəyyən olunmalıdır.

18-ci misal:

A dekoratordur. O, B ilə onun qızının toyu üçün zalın bəzədilməsi barədə müqavilə bağlayır. B ilə əldə olunan razılığa əsasən A bəzək materiallarının üzərinə bəylə gəlinin şəkillərini də vurdurur. Bu materiallar zalın bəzədilməsi üçün istifadə olunmalıdır. Toya bir ay qalmış tərəflər arasında mübahisə yaranır. Bəlli olur ki, tərəflər arasında bağlanmış müqavilə etibarsızdır. Ona görə də B razılaşdırılmış qiyməti ödəməkdən imtina edir. Özü də bu arada B daha yaxşı dekorator tapır. A üzərinə bəylə gəlinin şəkli vurulmuş materialı başqa məqsəd üçün istifadə edə bilmədiyindən belə bir mövqedən çıxış edir ki, özgə işlərini tapşırıqsız aparmaqla bağlı qaydalara uyğun olaraq B materialın qiymətini ödəməlidir. A-nın tələbi əsaslıdırmı?

Həlli:

MM-in 14-cü fəslində əqdlərin etibarsızlığı barədə nəzərdə tutulmuş müddəalara (MM-in 339.5-ci maddəsinin 2-ci cümləsi, 342.1-ci maddəsinin 2-ci cümləsi, 347.7-ci maddəsi) əsasən, A-nın zərərin ödənilməsini tələb etmək hüququnun olub-olmamasına müqavilənin etibarsızlığına dair əsaslar barədə başqa məlumatlar verilmədiyindən burada cavab verilə bilməz.

Ona görə də A-nın MM-in 1090.1-ci maddəsinə uyğun olaraq, B-yə qarşı zərərin ödənilməsi tələbinin olub-olmaması sualı meydana çıxır. Bunun üçün şərt A-nın işi B-nin işlərini aparmaq istəyi ilə görməsidir. A toy zalının bəzədilməsi üçün materialların üzərində bəylə gəlinin şəklini vurdurub. Toy zalının bəzədilməsi, bir qayda olaraq, valideynlərə aid işdir. Bu baxımdan kazusda söhbət özgə işindən gedir. Bununla belə, nəzərə almaq lazımdır ki, A özünün güman edilən öhdəliyini yerinə yetirmək üçün bu işi görüb. Ona görə də materialın üzərinə şəklin vurulması müstəsna olaraq özgəsinə aid iş deyil. Özgə işlərini tapşırıqsız aparmanın olub-olmaması A-nın həm də özgə işlərini aparmaq istəyinin olub-olmamasın-

dan asılıdır. Bu, yəqin ki, inkar edilməli olacaq. Çünki kommersiya məqsədi güdən dekorator A güman edilən müqavilənin yerinə yetirilməsi zamanı başlıca olaraq öz maraqlarından çıxış edib. Ona görə də kazusda özgə işlərini tapşırıqsız aparmağın şərtləri yoxdur.

Bu nəticə MM-in sisteminə də uyğundur. Etibarsız əqdlər MM-in 14-cü fəslinin, yaxud həm də əsassız varlanma ilə bağlı müddəalara əsasən icra olunmalıdır. Özgə işlərini tapşırıqsız aparma ilə bağlı müddəaların əlavə olaraq tətbiqi MM-in 14-cü fəslində etibarsızlıq əsasları arasında zərərin ödənilməsi tələbi üçün aparılan fərqləndirmənin mənasız olmasına gətirib çıxarardı.

Həm icraçının xərclərinin (MM-in 1090-cı maddəsi), həm də sahibkarın zərərin ödənilməsi (MM-in 1089-cu maddəsi) tələbinə münasibətdə işlərin aparılmasının sahibkarın iradəsinə uyğun olub-olmaması fərqləndirilir. İşlərin idarəetməyə qəbul olunması sahibkarın mənafeyinə və ehtimal olunan istəyinə uyğun gəlmirsə, icraçı sahibkardan xərclərin ödənilməsini və öhdəliklərdən azad olunmasını yalnız işlərin idarə olunması prosesində sahibkarın varlandığı halda tələb edə bilər (MM-in 1090.2-ci maddəsi). İşlərin idarə olunması sahibkarın elan edilmiş və ya başqa şəkildə aşkar olunmuş iradəsinə ziddirsə, icraçının məsuliyyəti bir qədər də artır (MM-in 1089.3-cü maddəsi).

19-cu misal:

A ailəsi ilə məzuniyyətə gedir. O, qonşusu B-dən onun güllərinə baxmağı xahiş edir. B güllərə su vermək üçün A-nın evinə daxil olarkən görür ki, pəncərə şüşələrindən biri sınıb. Onu başqası ilə əvəz etmək üçün o, əvvəlcə şüşə qırıntılarını çərçivədən çıxarır. Bu zaman o, diqqətsizlik üzündən pəncərənin altında yerləşən qiymətli çini qaba dəyir və qab sınır. Bundan sonra o, şüşəni dəyişmək üçün şüşə ustası çağırtdırır və pəncərəyə yeni şüşə saldırır. A məzuniyyətdən qayıtdıqdan

sonra B-nin şüşəni pəncərənin çərçivəsindən çıxarmazdan əvvəl çini qabı nə üçün başqa yerə qoymamasına görə əsəbiləşir. Ona görə də o, B-dən zərərin ödənilməsini tələb edir. Öz növbəsində B A-dan şüşə ustasının pulunun ödənilməsini tələb edir. Məsələ necə həll olunacaq?

Həlli:

MM-in 1089.1-ci maddəsinə uyğun olaraq, B icraçı qismində A-nın işlərini aparan zaman qəsdən və ya ehtiyatsızlıqla çini qaba zərər vurubsa, A qaba görə vurulmuş zərərin ödənilməsini B-dən tələb edə bilər.

Pəncərə şüşəsinin dəyişdirilməsi evin mülkiyyətçisi kimi A-nın işidir. Nəticədə B özgəsinin işini görüb. Onun özgə işlərini aparmaq istəyi güman edilə bilər. Çünki onun öz marağından çıxış edərək fəaliyyət göstərməsi üçün heç bir əsas görünmür. Bundan başqa, bunun üçün B-yə hər hansı tapşırıq, yaxud səlahiyyət də verilməyib. Çünki güllərə baxmağa dair razılığın verilməsində söhbət müstəsna olaraq B və A arasındakı qonşuluq münasibətlərinə əsaslanan qeyri-məcburi lütfkarlıq münasibətindən gedir ki, bu da hüquqi cəhətdən heç bir öhdəlik yaratmır. Aydınlaşdırılmalı olan başqa məsələ B-nin çini qabın sınması zamanı təqsirinin olub-olmamasıdır. Prinsipcə, ümumi diqqətlilik prinsipinə əsasən evdə hər hansı dülgər işlərinə başlamazdan əvvəl sınan əşyalar başqa yerə qoyulmalıdır. Lakin B buna əməl etməyib. Bununla da o, ehtiyatsızlığa yol verib və ona görə də MM-in 1089.1-ci maddəsinə əsasən çini qaba görə vurulmuş zərəri ödəməlidir. MM-in 1089.3-cü maddəsinə uyğun olaraq, məsuliyyətin ağırlaşmasının bura da şamil olunacağını müzakirə etməyə ehtiyac yoxdur.

B isə MM-in 1090.1-ci maddəsinə əsasən A-dan pəncərə şüşəsinin dəyişdirilməsi onun marağına və güman edilən iradəsinə uyğun olubsa, şüşə ustasının pulunu ödəməyi tələb edə bilər. Bunu təsdiq etmək lazım gələcək, çünki pəncərə şüşəsi-

nin dəyişdirilməsi yağışın, cinayətkarların və ya heyvanların içəriyə girməsinin qarşısını almalıdır. Beləliklə, A şüşənin pulunu ödəmək öhdəliyi daşıyır.

Son olaraq o da qeyd olunmalıdır ki, sahibkar bəzi hallarda icraçının işləri idarə etməsi nəticəsində əldə etdiyi şeylərin ona qaytarılmasında maraqlı ola bilər. Əlbəttə, özgə işlərini tapşırıqsız aparma ilə bağlı MM-də nəzərdə tutulmuş müddəalarda qaytarma tələbi ilə bağlı birbaşa qayda yoxdur. Lakin sahibkar icraçının fəaliyyətini sonradan da bəyənə bilər. Lakin bu halda, MM-in 1087.2-ci maddəsinə əsasən, tapşırıq haqqında müddəalar tətbiq olunardı və nəticədə sahibkar MM-in 782.1-ci maddəsinə uyğun olaraq icraçıdan əldə olunanların hamısının qaytarılmasını tələb edə bilər.

20-ci misal:

Fermer B nəqliyyat qəzası nəticəsində ağır yaralanır və uzun müddət xəstəxanada qalmalı olur. Qonşusu A bu barədə məlumat aldıqdan sonra onun torpaq sahələrindəki tərəvəz bostanı məhsullarının xarab olmasının qarşısını almaq üçün onları dərir. Sonra isə o, bu məhsulları satır. B xəstəxanadan evə qayıtdıqdan sonra A əldə olunanların qaytarılmasından imtina edir. Əsas isə onun maliyyə vəziyyətinin bu arada pisləşməsi olur. B əldə olunanların ona qaytarılmasını tələb edə bilərmi?

Həlli:

A və B arasında B-nin qaytarma ilə bağlı tələbini nəzərdə tutan müqavilə olmayıb. Özgə işlərini tapşırıqsız idarə etmə ilə bağlı müddəalarda da geri qaytarma tələbi barədə heç nə nəzərdə tutulmur. Lakin B qonşusunun işləri tapşırıqsız aparmasını sonradan bəyəndikdə (bu kazusda, əlbəttə ki, o bunu etməlidir) MM-in 782.1, 1087.2-ci maddələrinə uyğun satış nəticəsində əldə olunanların ona qaytarılmasını tələb edə bilər.

c) Əsassız varlanmaqdan irəli gələn tələblər (MM-in 1091-1094-cü maddələri)

Varlanma hüququ əsassız əmlak dəyişikliklərini kompensasiya etmək məqsədinə xidmət edir. «Məhrum olan» kreditorun əmlak itkisinin əvəzini ödəməklə bağlı zərərin ödənilməsi hüququndan fərqli olaraq, varlanma hüququnun məqsədi yalnız «varlanmış» borclunun hüquqi əsas olmadan artmış əmlakını yenidən əvvəlki vəziyyətə qaytarmaqdır. Beləliklə, varlanma hüququnun bu tükəndirici funksiyası əsasında, varlanan şəxsin əmlakında artım müəyyən edilmirsə, varlanma əleyhinə tələb irəli sürülməsi istisna olunur.

MM-in 1091.1-ci maddəsinə əsasən, əsassız varlanma ilə bağlı tələbin qaldırılması üçün şərtlər aşağıdakılardır:

(1) borclu əmlak əldə etsin;

(2) həmin əmlak kreditorun əmlakı hesabına əldə edilsin;

(3) bu əldəetmə üçün heç bir hüquqi əsas olmasın.

(1) ilə bağlı:

Əmlak əldəetmə müəyyən əşya, yaxud hüququn əldə edilməsindən ibarət ola bilər. İstifadə etmək imkanı[23] qazanmaq, xidmətlərdən istifadə etmək və ya hər hansı öhdəlikdən azadolma da əmlak əldəetmə ola bilər[24].

(2) ilə bağlı:

Kreditorun «hesabına» varlanmış borclunun əmlakının əsas olmadan artması müxtəlif qaydada baş verə bilər.

a) Birinci, məhrum olan öz hərəkəti ilə varlanmış şəxsin əmlakını bilərəkdən və məqsədyönlü surətdə artırmış ola bilər. Bunun üçün hüquqi əsas olmayıbsa, varlanmış şəxs əmlakının artan hissəsini qaytarmalıdır. Belə halları borclunun

---

[23] Məsələn, hər hansı bir avtomobildən müvəqqəti istifadə.

[24] Bu sadalananları geri qaytarmaq mümkün olmadığına görə, MM-in 1092.2-ci maddəsinə əsasən, borclu onların dəyərini ödəməlidir.

mövcud olmayan əsasa görə icra nəticəsində əsassız varlanması adlandırırlar. Bunun tətbiq olunduğu əsas hallar əqdin əvvəlcədən əhəmiyyətsiz olmasına görə və ya hüquqi səbəblərə görə sonradan aradan qalxdığı (məsələn, müqavilənin mübahisələndirilməsi vasitəsilə) icra üçün əsasın mövcud olmadığı hallardır. Lakin bu hallar MM-in 337.5-ci maddəsi ilə də əhatə olunur ki, burada da söhbət qanunvericinin xüsusi tənzimlədiyi borclunun mövcud olmayan əsasa görə icra nəticəsində əsassız varlanmadan gedir[25]. Lakin bununla yanaşı, kreditorun əmlakı bilərəkdən verməsi üçün əsas olmaması da mümkündür.

21-ci misal:

Fəlsəfə professoru P qonşuluqdakı kitab mağazasında Hegel barədə yeni çapdan çıxmış kitab görür. O, tanışı olan satıcıdan kitabı kreditlə satmasını xahiş edir. 3 gündən sonra P elmi məqaləsinin dərc olunmasına görə qonorar alır və yenidən ödəmə qabiliyyətli olur. Həmin gün o, küçədə təsadüfən kitab mağazasının satıcısı ilə rastlaşır və borclu olduğu 20 manat pulu ona qaytarır. Bundan 2 həftə sonra P Almaniyadan təhsil səfərindən qayıtdıqdan sonra həmin kitab mağazasında çapdan çıxmış yeni kitablarla rastlaşır. Başqa bir satıcı isə onun Hegel barədə kitabın pulunu hələ də ödəmədiyini bildirir. Professor küçədə kitabın pulunu artıq ödəməsini xatırlaya bilmir və kitabın qiymətini bir daha ödəyir.

P-nin pulu ödəməsi yadına düşdükdən sonra o, 20 manatı tələb edə bilərmi?

Həlli:

Öncə MM-in 337.5-ci maddəsindən tələb irəli gəlmir. Həmin müddəada nəzərdə tutulmuş şərtə əsasən, qaytarma tələbi üzrə kreditor əmlakı etibarsız əqd əsasında verməlidir. Lakin

---

[25] MM-in 337.5 və ona oxşar 342.1-ci maddəsinin 2-ci cümləsi ilə bağlı vəsaitin sonunda verilmiş kazusla müqayisə et.

Hegel barədə kitabın alqı-satqı müqaviləsi etibarlı olub. Kitab satıcısının kitabın qiyməti ilə bağlı etibarlı surətdə yaranmış tələbinə yalnız MM-in 528-ci maddəsinin yerinə yetirilməsi ilə xitam verilib. Bu kazusda mülki hüquq pozuntusu (delikt) ilə bağlı da tələb nəzərə çarpmır. Çünki P-nin kitabın qiymətini iki dəfə ödəməsi onun yaddaşsızlığı ilə bağlı olub və kitab satıcısı hüquqazidd hərəkətə yol verməyib.

Ona görə də qaytarma tələbi yalnız MM-in 1091, 1092.1-ci maddələrindən irəli gələ bilər. Bunun üçün şərt ondan ibarətdir ki, kitab satıcısı başqasının hesabına hüquqi əsas olmadan nə isə əldə etsin. Kazusda da vəziyyət belədir: kitab satıcısı 20 manat pulu hüquqi əsas olmadan P-nin qiyməti ikinci dəfə ödəməsi yolu ilə (bilərəkdən icra) əldə edib.

b) Başqa tərəfdən, borclunun əmlakının artması məhrum olanın hərəkəti, yəni varlanmış şəxsə münasibətdə bilərəkdən və məqsədyönlü icra olmadan da baş verə bilər. Tez-tez baş verən hal varlanmış şəxsin məhrum olanın əmlakına müdaxilə etməsi və hüquqi əsas olmadan əmlakını artırmasıdır. Ona görə də belə halları **müdaxilə yolu ilə varlanma** ilə bağlı tələb adlandırırlar. Varlanma üçüncü şəxs vasitəsilə və ya hətta insan hərəkəti olmadan da meydana çıxa bilər.

22-ci misal:

A və B Azərbaycanın şimalında yaşayan fermerlərdir. A-nın qoyunları, bir qayda olaraq, onun mülkiyyətində olan və çəpərlənmiş otlaqda otlayır. A müntəzəm olaraq çəpərlərə nəzarət edir. Lakin bir gün tufan baş verir və qoyunlar otlağı tərk edir, B-nin mülkiyyətində olan otlağa girərək orada otlayır. B A-dan otlağa görə dəymiş zərərin ödənilməsini tələb edir. Çünki o, bu otlaqdan öz qoyunları üçün istifadə etmək istəyirdi və indi orada ot qalmadığına görə ot almalıdır. Onun bu tələbi əsaslıdırmı?

Həlli:

Öncə qeyd etmək lazımdır ki, bu kazusda müqavilədən hər hansı tələb irəli gəlmir. Xüsusilə MM-in 337-ci maddəsinin şərtləri burada yoxdur.

MM-in 1110-cu maddəsinə əsasən, mülki hüquq pozuntusu ilə bağlı tələb yarana bilər. Həmin müddəaya görə, heyvanın sahibi öz heyvanının başqalarına vurduğu zərəri ödəməyə borcludur. Göstərilən kazusda B-nin otlağında A-nın qoyunları otlayıb və beləliklə, vurulan ziyan onun qoyunları üçün otun itirilməsindən ibarətdir. Lakin MM-in 1110-cu maddəsinin 3-cü cümləsinə uyğun olaraq, məsuliyyət istisna edilə bilər. Bu müddəaya əsasən, heyvanın sahibi üçüncü şəxslərin müdafiəsi üçün zəruri tədbirlər görübsə, zərərin ödənilməsi öhdəliyi tətbiq edilmir. Bu kazusda da A müntəzəm olaraq çəpərlərinə nəzarət edib ki, bu da onun üçüncü şəxslərin müdafiəsi üçün zəruri tədbirlər görməsinə sübutdur. Odur ki, mülki hüquq pozuntusu ilə bağlı zərərin ödənilməsini tələb etmək istisna edilir.

Bununla belə, MM-in 1091, 1092.1-ci maddələrinə əsasən varlanma əleyhinə tələb nəzərə çarpır. Bunun üçün şərt ondan ibarətdir ki, A B-nin hesabına heç bir hüquqi əsas olmadan nə isə əldə etsin. A-nın qoyunları B-nin otlağında otladıqları və beləliklə, onların A tərəfindən yemlənməsinə ehtiyac olmadığı üçün A-nın yemə qənaət etməsi onun nə isə əldə etməsi hesab olunur. A bunu B-nin hesabına əldə edib, çünki B-nin otlağından istifadə edilməsi səlahiyyəti, hüquq qaydalarına görə, mülkiyyətçi qismində yalnız ona məxsusdur. A-nın qoyunlarının B-nin otlağına girməsi ilə B-nin mülkiyyət hüququna müdaxilə olub. Bunun üçün heç bir hüquqi əsas olmayıb. Əldə edilənlərin qaytarılması mümkün olmadığına görə A, MM-in 1092.2-ci maddəsinə əsasən, onların dəyərini ödəməlidir.

Yuxarıdakı kazus bir daha göstərdi ki, qanun müdaxilə ilə bağlı tələblə heç də «müdaxilə»nın hüquqazidliyini sanksiya ilə cəzalandırmaq istəmir. Söhbət müdaxilənin qadağan edil-

məsindən getmir (bunun özü də mülki hüquq pozuntusu ilə bağlı zərərin ödənilməsi tələbinin yaranmasına səbəb ola bilər). Həlledici olan odur ki, əldə edilmiş mənfəət (məsələn, əşyanın istifadəsi və ya istehlakı) başqa birisinə, yəni məhrum olan şəxsə məxsus olsun. Misal üçün, hər hansı əşyanın mülkiyyətçisinin həmin əşya ilə istədiyi kimi davranmaq, yəni onu istifadə etmək və ya satmaq hüququ var. Bununla bağlı növbəti –

23-cü misal:

A Quba yaxınlığında dənizin qırağında yerləşən yay evini və böyük pul məbləğini atasından miras alıb. O, miras aldığı pulla təhsilinə sərmayə qoymaq qərarına gəlir və iki il müddətinə İngiltərəyə gedir. A Azərbaycanda olmadığı müddətdə onun uzaq qohumu B A-nın anasının evindən yay evinin açarlarını oğurlayır. B həmin yay evini gizli olaraq iri neft şirkətinin işçisi olan xarici vətəndaşa kirayəyə verir və bununla böyük gəlir əldə edir. A geri qayıtdıqdan sonra hiddətlənir və evin kirayə verilməsi nəticəsində əldə olunanları B-dən tələb edir. B bunu eləməkdən belə bir dəlillə imtina edir ki, A xaricdə təhsil aldığına görə evdən onsuz da istifadə edə bilməzdi. Ona görə də əslində ona heç bir ziyan vurulmayıb. A B-dən evin kirayəyə verilməsi nəticəsində əldə olunanları tələb edə bilərmi?

Həlli:

A və B arasında heç bir müqavilə olmadığı üçün bu kazusda müqavilədən tələb irəli gələ bilməz.

MM-in 782.2, 1087.2-ci maddələrinə əsasən, qaytarma tələbi də yoxdur. Çünki B-nin evi kirayə verməklə özgə işlərini aparmaq[26] iradəsi olmadığına görə bu kazusda özgə işlərini tapşırıqsız aparmağın sonradan bəyənilməsi yoxdur. Bundan başqa, yay evinə zərər vurulmadığına görə mülki hüquq pozuntusu ilə bağlı zərərin ödənilməsindən də söhbət gedə bilməz.

---

[26] Bununla bağlı yuxarıda bax: 20-ci misaldan əvvəl.

Beləliklə, MM-in 1091, 1092.1.1-ci maddələrinə uyğun olaraq, yalnız müdaxilə ilə bağlı varlanma tələbi barədə şərtləri yoxlamaq qalır. Bunun üçün B öncə əmlak əldə etməlidir. Burada B yay evinin açarlarını götürüb. Beləliklə, o, faktiki olaraq həmin evin sahibi olub. Bu isə B-nin əmlak əldə etdiyini göstərir.

Növbəti şərt A-nın əmlakına B-nin müdaxilə etməsidir. Yalnız A-nın mülkiyyətçi olaraq yay evi üzərində sahibliyi həyata keçirmək və ondan kommersiya məqsədi ilə istifadə etmək hüququ var. Açarın oğurlanması və evin kirayəyə verilməsi ilə B fəal surətdə bu əmlaka müdaxilə edib. B bunu A-nın hesabına əldə edib, çünki hüquq qaydalarına görə, bütün bu hüquqlar A-ya məxsus olub.

Yekun olaraq belə müdaxilə üçün nə qanunda, nə də müqavilədə nəzərdə tutulan hüquqi əsas vardır. Bu isə müdaxilə ilə bağlı varlanma tələbinin şərtlərinin olmasını göstərir. Ona görə B-nin əldə edilmiş əmlakı qaytarmaq öhdəliyi yaranır. MM-in 1092.1.1-ci maddəsinə uyğun olaraq, bu, əldə edilənlərdən götürülən faydaya da aiddir. Nəticədə A B-dən açarın geri qaytarılması ilə yanaşı, evin kirayəyə verilməsindən əldə edilənlərin də ona qaytarılmasını tələb edə bilər.

B-nin A-ya heç bir ziyan dəyməməsinə dair etirazı tətbiq olunmur. Çünki varlanma hüququnda məhrum olana hər hansı ziyan dəyməsi heç bir rol oynamır. Burada yalnız əsassız olaraq varlanmış şəxs əmlakının artmış hissəsini geri qaytarmalıdır.

(3) ilə bağlı:

MM-in 1091.2-ci maddəsinə görə, əsassız varlanma bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə olmayan halda baş verir. Bura hüquqi əsasın əvvəlcə mövcud olduğu, lakin sonradan aradan qalxdığı hallar da daxildir (məsələn, mübahisələndirmə, xitamverici şəraitin yaranması və s.).

24-cü misal:

Rafiq Leylaya aşiq olur və valideynlərini onun evinə elçiliyə göndərir. Həm Rafiq, həm də Leylanın valideynləri hesab edirlər ki, cavanlar bir-birinə yaraşırlar və onları nişanlamaq istəyirlər. 2006-cı ilin noyabrında nişan mərasimi keçirilir və Leyla Rafiqin valideynlərindən bahalı qızıl zinət əşyaları, bir sıra paltarlar hədiyyə alır. Lakin sonradan nişanlı cavanlar arasında söz-söhbət yaranır, onlar daha tez-tez görüşmürlər və ən əsası isə, görüşməyə artıq həvəsləri olmur. Bundan başqa, başqa bir gənc Leylaya vurulur. Bu şəxs Leylanın daha çox xoşuna gəldiyindən Leyla 2007-ci ilin iyununda onunla evlənmək qərarı verir. Rafiq və onun ailəsi bundan xəbər tutduqdan sonra bağışlanmış qızıl əşyaların və paltarların qaytarılmasını tələb edirlər. Tələb haqlıdırmı?

Həlli:

Öncə müqavilədən irəli gələn tələblər yoxlanmalıdır.

Qaytarma ilə bağlı tələb MM-in 673.4-cü maddəsindən irəli gələ bilər. Qızıl əşyaların və paltarların verilməsi MM-in 666-cı maddəsinə əsasən bağışlama kimi qiymətləndirilməlidir. Əlbəttə, burada bağışlama vədi MM-in 668.1.5-ci maddəsinin ziddinə olaraq formasız verilib. Lakin MM-in 668.1.3-cü maddəsinə uyğun olaraq, bağışlamanın icrası forma ilə bağlı nöqsanı aradan qaldırır. Rafiqin valideynlərinin qaytarma ilə bağlı tələbinə bağışlamadan imtina kimi baxıla bilər. Bunun üçün imtinanın səbəbi olmalıdır. Bununla bağlı yalnız MM-in 673.1.2-ci maddəsi nəzərə çarpır. Həmin müddəaya əsasən, hədiyyə alan ailə hüquq münasibətlərinə uyğun olaraq üzərinə qoyulmuş vəzifələri hədiyyə verənin və ya onun yaxın qohumlarının biri barəsində kobudcasına pozduqda, hədiyyə verən bağışlamadan imtina edə bilər.

Ailə hüquq münasibətlərinə uyğun olaraq, onun üzərinə qoyulmuş vəzifələr dedikdə nəyin başa düşülməsi sual doğurur.

Nişanlanma MM və Ailə Məcəlləsində birbaşa tənzimlənməyib. Ənənəvi olaraq nişanlanma ilə tərəflər bir-biri ilə nikaha daxil olmaq məramlarını zahiri münasibətdə, bir növ, «rəsmiləşdirirlər». Lakin burada söhbət məhkəmə qaydasında həyata keçirilə bilən hüquqi öhdəlikdən getmir. Əlbəttə, nişanlanma bir çox hallarda nikah bağlanması ilə nəticələnsə də, nikahın bağlanması daim şəxsi qərar olaraq qalır. Yəni nikaha girmə ilə bağlı iddia qaldırılması və ya onun məcburi icra olunması mümkün deyil. Nişanlanmanın icra edilməməsinə görə tərəflər bir-birinə qarşı tələblərlə çıxış edə bilməzlər. Qanunda başqa qayda nəzərdə tutulmadığından bu qayda üçüncü şəxslərə də tətbiq olunmalıdır. Beləliklə, MM-in 673.1.2-ci maddəsində yalnız ailə hüquq münasibətləri ilə bağlı vəzifələrin nəzərdə tutulmasına dair çoxlu əsaslar var ki, bunların da pozulmasına görə qanunverici hüquqi nəticələr nəzərdə tutulur. Bu mövqe ilə razılaşsaq, MM-in 673.4-cü maddəsinə əsaslanan tələb aradan qalxır.

Hədiyyələrin qaytarılması ilə bağlı Leylanın ən azı mənəvi öhdəliyinin olub-olmamasına münasibət bildirməyə ehtiyac yoxdur.

Bu kazusda MM-in 1091, 1092.1-ci maddələrinə uyğun olaraq varlanma ilə bağlı tələbin olub-olmamasını yoxlamaq qalır. Leyla Rafiqin valideynlərinin hədiyyələr verməsi ilə həmin əşyalar üzərində sahiblik və mülkiyyət əldə edib. Bunun hüquqi əsası həmin əşyaların ona bağışlanmasıdır. Yuxarıda müəyyən olunduğu kimi, bu hüquqi əsas bağışlamadan imtina ilə aradan qalxmayıb. Lakin bu hüquqi əsas sonradan bağışlamanın mübahisələndirilməsi ilə aradan qalxa bilərdi[27]*. Rafiqin valideynlərinin, MM-in 337.2-ci maddəsinin 2-ci cümləsinə əsasən, bilavasitə müqavilə tərəfinə yönəldilməli olan mübahisə-*

[27] MM-in 337.2-ci maddəsinin 1-ci cümləsinə əsasən, əqd barəsində mübahisə edildikdə o, bağlandığı andan etibarsızdır.

ləndirməsi sonda əşyaların qaytarılması tələbindən ibarət ola bilərdi. Çünki Rafiqin valideynləri bununla bağışlamanın onlara tətbiq olunmasını istəmədiklərini ifadə ediblər.

Mübahisələndirmə üçün əsas qismində MM-in 347.2-ci maddəsinə uyğun olaraq Leylanın nikah vədini sonradan yerinə yetirəcəyi barədə valideynlərin yanılması çıxış edə bilərdi. Lakin MM-in 347.2.1 və 347.2.2-ci maddələrinə əsasən, əqdi mübahisələndirmək imkanı verən yanılma daim qeyri-şüuri olaraq iradə və iradə ifadəsinin üst-üstə düşməməsini nəzərdə tutur. Kazusda vəziyyət bu cür deyil, yəni valideynlərin bağışlama vədi məzmunca onların istəyi ilə üst-üstə düşüb. Onlar yalnız bir məsələ barədə, yəni gələcəkdə Leyla ilə Rafiqin toyunun olacağı barədə yanılıblar. Lakin bu, bağışlama üçün yalnız bir motiv qismində çıxış edib. MM-in 347.3-cü maddəsinə əsasən, əqdin motivləri barəsində yanılma vacib əhəmiyyətli deyil. MM-in 347.2.3-cü maddəsindən də ayrı qayda irəli gəlmir. MM-in 347.3-cü maddəsindən fərqli olaraq, bu müddəa yalnız hər iki tərəfin vicdanlı olmaq prinsipini əldə rəhbər tutmaqla müqavilə bağlanan an mövcud olmayan və əqdin əsası kimi nəzərdən keçirdikləri halları əhatə edir. Bu kazusda nişanlanmanın uğurlu olmayacağı sonradan bəlli olub. Bundan başqa, Leyla hədiyyələri qəbul etməklə ən azı başqa şey barədə düşünə bilməzdi. Əqdi mübahisələndirməyin mümkünlüyü kimi bir mövqe burada üstünlük təşkil edərsə, onda MM-in 673.1-ci maddəsində imtina üçün fərqli əsaslar nəzərdə tutmağa ehtiyac olmazdı. Çünki belə olduqda həmin halları bir mübahisələndirmə əsası ilə əhatə etmək olardı.

Nəticədə sonradan aradan qalxmış hüquqi əsasa görə varlanma əleyhinə tələb qaldırılması da mümkün deyil[28].

---

[28] MM-in 1093.1-ci maddəsinə uyğun olaraq varlanma ilə bağlı tələblə çıxış etmək mümkün deyil. Çünki Rafiqin valideynləri hədiyyəni Leylaya onu müəyyən hərəkəti yerinə yetirməsi üçün verməmişdilər.

MM-in 1092.3-cü maddəsinə əsasən, varlanmış şəxs qaytarmanın tələb olunduğu anda özünün daha varlı olmadığını sübut edərsə, qaytarma tələbi istisna edilir. Belə hallara misal olaraq əldə edilmiş predmetin məhv olmasını, varlanan şəxsin onu itirməsini, istehlak etməsini, yaxud hər hansı başqa şəxsə bağışlamasını göstərmək olar. Lakin bununla əlaqədar olaraq varlanmanın aradan qalxması ilə əldə olunanın qaytarılmasının sadəcə mümkün olmamasını tez-tez fərqləndirmək lazım gələcək. Yəni məsələn, varlanmanın aradan qalxması halı o zaman mövcud olmur ki, əldə olunmuş əşyanın dəyəri varlanan şəxsin əmlakında tam və ya qismən mövcud olsun. Misal üçün, varlanan şəxs əşyanı satıbsa, onda o, ən azı həmin əşyanın satılmasından alınan pulla varlanıb. O, əldə olunan əşyanı istehlak edibsə və ya kiməsə bağışlayıbsa, onda onun başqa bir əşya, yaxud hədiyyə üçün çəkilməli olacaq xərclərə qənaət edib-etməməsini yoxlamaq lazım gələcək.

Lakin nəzərə almaq lazımdır ki, varlanan şəxs hüquqi əsasın olmadığını bilirdisə və ya sonradan bilmişsə, onda o, heç vaxt varlanmanın aradan qalxmasına istinad edə bilməz.

25-ci misal:

Hesab edək ki, yuxarıdakı yay evi ilə bağlı kazusda (23-cü kazus) B evi kirayəyə vermir və onu vaxtı olanda ailəsi ilə birlikdə həftə sonu dəniz qırağında istirahət məqsədi ilə istifadə edir. O, A-nın evinə sahiblik etməsəydi, onda o, həftə sonları eyni vəziyyətdə olan başqa bir evi kirayəyə götürməli olardı. A evin geri qaytarılması ilə yanaşı B-dən orada keçirdiyi günlərə görə xərclərin ödənilməsini də tələb edə bilərmi?

Həlli:

MM-in 1092.1-ci maddəsinə əsasən B evi qaytarmağa borcludur. MM-in 1092.1.1-ci maddəsinə uyğun olaraq, B-nin geri qaytarılmalı kirayə gəlirləri olmayıb. B yay evindən istifadə imkanı əldə etdiyinə görə o, bunu geri qaytara bilməz. Lakin

bu heç də o demək deyil ki, o, varlanmayıb. Çünki MM-in 1092.2-ci maddəsinə əsasən, belə olan halda əldə edilənlərin dəyəri ödənilməlidir. B A-nın evinə daxil ola bilməsəydi, o, başqa bir ev kirayə etməli olardı. Bu isə o deməkdir ki, o, başqa evə görə verməli olacağı kirayə haqqına qənaət edib. Evin qaytarılmasından sonra o, hələ də bu qənaət vasitəsilə varlanmış hesab olunduğuna görə B həmin məbləği də A-ya ödəməlidir.

Haşiyə:

B A-nın evinə sahiblik etməsəydi, o, maliyyə vəziyyətinin pis olmasına görə başqa ev də kirayə etməzdi. Bunun əvəzinə o, həftə sonunda Qubada yaşayan əmisi oğlugilə gedərdi. Orada o, ailəsi ilə birlikdə havayı qala bilərdi. Bu halda da A yay evində keçirilən istirahət günlərinə görə pul əvəzinin ona ödənilməsini tələb edə bilərmi?

Həlli:

Əlbəttə, bu halda da MM-in 1092.1 və 1092.2-ci maddələrinin şərtləri mövcuddur. Lakin bu halda B başqa evin kirayəsi üçün heç bir xərcə qənaət etməyib. Ona görə də MM-in 1092.3-cü maddəsinin 1-ci cümləsinə əsasən, o, varlanmayıb. Lakin bu zaman o, istisna olaraq, MM-in 1092.3-cü maddəsinin 2-ci cümləsinə istinad edə bilməz, çünki sahiblik üçün hüquqi əsasın olmadığı ona əvvəlcədən məlum olub. Bununla da o, A-ya yay evinin kirayə edilməsi üçün əraziyə görə münasib olan kirayə haqqı ödəməlidir.

Əşyanı geri qaytarmalı olan varlanmış şəxs sahiblik dövrü ərzində əşya üçün xərc çəkə bilər. Ona görə də belə sual meydana çıxır: o, məhrum olan şəxsdən bu xərclərin ödənilməsini tələb edə bilərmi? Bununla bağlı MM-in 1094-cü maddəsi MM-in 157.6 və 157.7-ci maddələri ilə tənzimlənən mülkiyyətçi və sahib arasındakı münasibət barədə xüsusi müddəalara istinad edir.

26-cı misal:

Fərz edək ki, yuxarıda yay evi ilə bağlı kazusda (23-cü kazus) B evdəki su borusunun sıradan çıxmasından sonra onu yenisi ilə əvəz edib. Bundan başqa, o, evdə kamin də düzəltdirir. Çünki evdə kaminin olması qışda xarici kirayəçilərdən daha yüksək kirayə haqqı alınmasına imkan verir. B A-dan təzə boru qoyulmasına və kamin düzəldilməsinə görə çəkdiyi xərclərin ödənilməsini tələb edə bilərmi?

Həlli:

Belə tələb MM-in 157.6-cı maddəsi ilə birlikdə 1094-cü maddədən irəli gələ bilərdi.

MM-in 1094-cü maddəsinə əsasən, A MM-in 157.6 və 157.7-ci maddələri nəzərə alınmaqla yay evi üçün çəkdiyi xərcləri ödəməyə borcludur. Son adı çəkilən iki müddəaya əsasən, söhbətin zəruri, yaxud yalnız yaxşılaşdırma məqsədi ilə çəkilən məsrəflərdən getməsi ödəniləcək xərclərin həcmi baxımından həlledici əhəmiyyət daşıyır. Söhbət əşyanın əldə edilməsi və ya lazımi qaydada istifadəsi üçün zəruri olan məsrəflərdən[29] gedərsə, onda mülkiyyətçi sahibin vicdanlı, yaxud vicdansız olmasından asılı olmayaraq, MM-in 157.6-cı maddəsinə əsasən bunların əvəzini ödəməyə borcludur. Beləliklə, B borunun təmiri üçün çəkilən xərclərin əvəzini tələb edər, çünki evin istifadəsi üçün bu borunun təmiri, şübhəsiz, zəruri olub.

Kaminin düzəltdirilməsində isə söhbət yaxşılaşdırma məqsədi ilə çəkilən xərcdən gedir. Əlbəttə, ola bilsin ki, bu, evin dəyərini artırıb, lakin evin saxlanması və istifadəsi üçün zəruri olmayıb. MM-in 1094, 157.7-ci maddələrinə uyğun olaraq A yaxşılaşdırma üçün çəkilən xərcləri yalnız o halda ödəməyə borcludur ki, B sahiblik hüququnu əldəetmə baxı-

[29] Bunlar mülkiyyətçinin özünün də çəkməli olduğu xərclərdir.

mından vicdanlı olsun. Lakin kazusda vəziyyət belə deyil, çünki o, sahiblik hüququnu özbaşına əldə edib. Bu səbəbdən də B-nin müəyyən şərtlər daxilində əldəetmə hüququnun olub-olmamasının əhəmiyyəti yoxdur.

Yuxarıda artıq qanunverici icra ilə bağlı varlanma nəticəsində yaranan əsassız varlanmanın xüsusi olaraq tənzimlədiyi hal kimi MM-in 337.5-ci maddəsinə istinad edib. Əqdlərin bağlanan andan əhəmiyyətsiz olması və ya etibarsız müqavilələrin mübahisələndirilməsi nəticəsində yaranan belə əsassız varlanma halları MM-in 339.5 və 342.1-ci maddələri ilə tənzimlənir.

27-ci misal:

A Bakıda yerləşən restoranın mülkiyyətçisidir, onun qardaşı B-nin isə Moskvada böyük tikinti müəssisəsi var. B qardaşı A-ya onunla birlikdə tikinti işinə qoşulmağı xahiş etdikdə A Bakıdakı restoranını keçmiş məktəb dostu C-yə icarəyə vermək qərarına gəlir. Onlar bu barədə yazılı icarə müqaviləsi bağlayırlar. Növbəti il C restoranın işini pis idarə edir və qazancı çox az olur. A bir dəfə Bakıya gələrkən dostu C-də psixi pozuntu olduğunu hiss edir. Məlum olur ki, C artıq uzun müddətdir xəstədir və icarə müqaviləsi bağlanan zaman öz hərəkətlərini psixi cəhətdən dərk etmək iqtidarında olmayıb. Bu arada C üçün təyin olunmuş qəyyum icarə müqaviləsinin etibarsızlığına əsaslanaraq C-nin adından onun artıq ödədiyi icarə haqqının geri qaytarılmasını tələb edir. A və C-nin hansı hüquqları var?

Həlli:

Bu kazusda A və C arasında bağlanmış icarə müqaviləsi MM-in 342.1-ci maddəsinin 1-ci cümləsi ilə birlikdə 28.8-ci maddəsinə uyğun olaraq C-nin fəaliyyət qabiliyyətli olmamasına görə etibarsızdır. Nəticədə MM-in 342.1-ci maddəsinin 2-ci

cümləsinə əsasən, hər iki tərəf əqd üzrə aldıqlarının hamısını qarşı tərəfə qaytarmağa borcludur. Alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə onların dəyəri pulla ödənilməlidir. Ona görə də belə bir sual yaranır: tərəflər etibarsız icarə müqaviləsini icra etməklə nə əldə ediblər? A C-dən razılaşdırılmış icarə haqqını alıb, C isə öz növbəsində restoran üzərində sahiblik əldə edib. Lakin bu, heç də hər şey demək deyil. Çünki restoran üzərində sahibliyi əldə etməklə, eyni zamanda, C-yə onu kommersiya məqsədi ilə istifadə etmək imkanı verilib. MM-in 342.1-ci maddəsi müqavilənin icra predmeti qismində əmlakın istifadə imkanını birbaşa nəzərdə tutmasa da, burada daha ümumi müddəa qismində MM-in 337.5-ci maddəsinə müraciət oluna bilər. Həmin müddəa müəyyən edir ki, qaytarma vəzifəsinə əmlakdan istifadə də aiddir. Qanunvericinin MM-in 342.1-ci maddəsində bu ümumi qaydadan kənara çəkilmək istəyi görünmür. Nəticədə C təkcə restorana sahiblik hüququnu deyil, həm də restorandan istifadə nəticəsində əldə etdiklərini də geri qaytarmağa borcludur. Lakin C bunu natura ilə qaytara bilməz. Bu səbəbdən o, MM-in 342.1-ci maddəsinə əsasən onun dəyərini ödəməyə borcludur. Beləliklə, A icarə haqqını qaytarmağa, C isə restoranı qaytarmağa, həmçinin restorandan kommersiya məqsədi ilə istifadənin dəyərinin əvəzini ödəməyə borcludur. Dəyərin əvəzi belə restoran üçün münasib olan yerli icarə haqqı ilə ölçülür. A və C-nin razılığa gəldiyi icarə haqqının yüksək, yaxud aşağı olmasından asılı olaraq MM-in 540.1-ci maddəsinə əsasən, qarşılıqlı tələblərin əvəzləşdirilməsi ya A, ya da C üçün qalığın yaranmasına səbəb olacaq.

d. Əşya hüququndan irəli gələn tələblər

aa. Mülkiyyətçinin sahibə qarşı vindikasiya tələbi (MM-in 157.2-ci maddəsi)

Bu iddia tələbinin qanuni əsasına uyğun olaraq mülkiyyətçi qanunsuz sahibdən əşyanın geri qaytarılmasını tələb edə bilər. Təcrübədə çox mühüm əhəmiyyət kəsb edən həmin tələbin qanuni əsası daşınar və daşınmaz əşyalara eyni dərəcədə şamil olunur.

Bu tələbin qanuni əsasının üç dispozisiya şərti var ki, bunlar da ayrı-ayrılıqda yoxlanmalıdır:

(1) İddiaçı əşyanın mülkiyyətçisi olmalıdır;

(2) Cavabdeh əşyanın sahibi olmalıdır və;

(3) Cavabdehin əşyaya sahiblik hüququ olmamalıdır.

(1) ilə bağlı sualı cavablandırarkən daim tarixə əsaslanmaqla hərəkət etmək tövsiyə olunur. Yəni burada ilk növbədə tərəflərin bildirdiklərinə əsasən, kimin birinci mülkiyyətçi olmasından başlamaq lazımdır. Bu, hüququn tapılmasını xüsusilə o hallarda asanlaşdırır ki, mülkiyyətin vəziyyəti çaşdırıcı olsun, yaxud iddiaçıdan əvvəl mübahisəli əşyaya bir neçə başqa şəxs sahiblik etmiş olsun. Birinci mülkiyyətçinin «tərəflərin bildirdiklərinə əsasən» müəyyənləşdirilməli olması ona görə xüsusi əhəmiyyət daşıyır ki, məhkəmə mülki prosesdəki dispozitivlik və formal həqiqət prinsipinə görə məcburi qaydada kimin həqiqətən də birinci mülkiyyətçi olmasını müəyyənləşdirməli deyil. Əksinə, o, tərəflərin bildirdiklərindən ayrı hal irəli gəlməzsə, tərəflərin birinci mülkiyyətçi kimi göstərdikləri şəxsin həqiqətən də uyğun hüququnun olması mövqeyindən çıxış etməlidir. Bu isə həmin müəyyənləşdirmələrin yalnız tərəflərin bir-birinə münasibətində qüvvəsi olması nəticəsinin çıxarılmasına uyğundur. Ona görə də məhkəmə başqa prosesdə mülkiyyət münasibətləri ilə bağlı fərqli nəticəyə gələ bilər.

28-ci misal:

A mülkiyyət hüququna əsaslanmaqla B-dən xalçanın ona qaytarılmasını tələb edir. B bildirir ki, A xalçanı ona bağışlayıb. Proses zamanı bağışlamanın olması müəyyən edilmir[30]. Ona görə də məhkəmə xalçanın A-ya qaytarılmasına dair qətnamə çıxarır. Bir müddət sonra C məsələdən xəbər tutur və xalçanı A-dan tələb edir. Bildirir ki, o, əsl mülkiyyətçidir. Xalça uzun müddətdir ondan oğurlanıb və xalçanın sonrakı taleyi ona məlum deyil. Belə olan halda A mülkiyyət hüququ əldə edə bilməzdi.

A bildirir ki, xalçanı yarmarkadan alıb. Hansısa oğurluqdan onun xəbəri olmayıb. O, bu barədə yalnız C-nin polisə müraciət etməsindən sonra məlumat alıb.

Həlli:

Birinci prosesdə A–B arasındakı münasibətdə tərəflərin üst-üstə düşən izahatlarına əsasən A ilkin mülkiyyətçi kimi qəbul edilməlidir. Ona görə də məhkəmənin bu məsələni problemləşdirməsinə heç bir səbəb olmayıb, çünki hər iki tərəf A-nın əvvəllər mülkiyyətçi olması barədə üst-üstə düşən izahatlar veriblər. Onların mübahisəsi yalnız bağışlamanın etibarlı olub-olmaması ilə bağlı olub. Bu baxımdan MM-in 157.2-ci maddəsinə əsasən B-nin xalçanı qaytarması barədə məhkəmə qətnaməsi çıxarılmalı idi, çünki bağışlama faktının olmaması artıq qəti olaraq müəyyən edilmişdi.

Lakin prosesin sonrakı mərhələsində vəziyyət bir qədər dəyişib. Burada A-nın mülkiyyəti mübahisələndirilir. Bununla belə, tarix baxımından C-nin ilkin mülkiyyətçi olması mübahisələndirilmir. Beləliklə, A-nın mülkiyyəti, sonradan əldə etməsi yoxlanmalıdır.

Prinsipcə, mülkiyyəti yalnız səlahiyyətli şəxsdən əldə etmək olar (MM-in 181.1-ci maddəsi). Bu kazusda isə bu, baş ver-

---

[30] Sübutetmə vəzifəsi ilə bağlı aşağıda «Kamera» kazusu ilə müqayisə et, IV hissə, A. 3.

məyib, A mülkiyyəti C-dən əldə etməyib, yəni bu barədə razılaşma yoxdur. Bununla belə, A hər halda xalçanı vicdanlı surətdə yarmarkada əvvəlki sahibdən də əldə edə bilərdi: MM-in 182.1-ci maddəsinə əsasən, əşyanı özgəninkiləşdirən onun mülkiyyətçisi olmasa da, əldə edən vicdanlı olduğu halda o, əşyaya mülkiyyət hüququ əldə edir.

Əşyanı özgəninkiləşdirən şəxsin onun mülkiyyətçi olmadığını bilməyən və ya bilməli olmayan şəxs vicdanlı əldə edən hesab olunur (MM-in 182.1-ci maddəsi). Özgəninkiləşdirənin mülkiyyətçi olmaması baxımından yüngül ehtiyatsızlığa yol verilməsi artıq vicdanlı əldəetməni istisna edir. Məsələnin burada da bu cür olması kazusdan birmənalı şəkildə görünmür. Bunlarla bağlı kazusda ətraflı məlumat yoxdur. Lakin məhkəmənin bu məsələləri ətraflı araşdırmasına da ehtiyac yoxdur. MM-in 182.2-ci maddəsinə əsasən, C-dən avtomobilin oğurlanması və bununla onun C-nin sahibliyindən çıxması mübahisəsizdir. Ona görə də A vicdanlı əldə edən olduğu halda da əşyaya mülkiyyət hüququ əldə edə bilməzdi.

MM-in 157.2-ci maddəsində nəzərdə tutulan başqa iki şərt (A sahibdir və C-yə münasibətdə xalçaya sahiblik hüququ yoxdur) də bu kazusda olduğuna görə məhkəmə A-nın avtomobili C-yə qaytarması barədə qətnamə çıxarmalıdır (B-yə qarşı prosesdə onun mülkiyyətçi kimi tanınmasına baxmayaraq!).

Göstərilən bu kazus vindikasiya tələbi zamanı nəzərə alınmalı olan bir sıra mühüm məsələləri göstərir. Öncə mühüm olan qayda iddiaçının mülkiyyətinin yoxlanması zamanı tarixi yanaşmanın tətbiq edilməsidir. Lakin heç də həmişə başlanğıc nöqtə və ilkin hüquqi vəziyyət mübahisəsiz olmur. A C-nin nə vaxtsa mülkiyyətçi olduğunu mübahisələndirə bilər. C tələblə çıxış edən tərəf qismində MM-in 157.2-ci maddəsinə əsasən bütün dispozisiya şərtlərini və mülkiyyət hüququnu sübut etməli olduğu üçün xalçanın toxunmasından bəri onunla bağlı yaranmış mülkiyyət-hüquq münasibətlərini təsvir

etmək və öz hüququnu sübut etmək kimi çətin vəziyyətə düşmüş olardı. Bu, tez-tez rast gəlinən və həlli mümkün olmayan məsələdir! Lakin bu zaman ona MM-in 166.1-ci maddəsinin 2-ci cümləsi ilə tənzimlənən mülkiyyət hüququnun ehtimal edilməsi kömək edir: həmin müddəaya görə, hər hansı əvvəlki sahib haqqında ehtimal edilir ki, öz sahibliyi zamanı o, mülkiyyətçi olub. Bu, C-nin haqlı olmasını təsdiq edir və A bunu təkzib etməli idi.

Əksinə, MM-in 166.1-ci maddəsinin 1-ci cümləsinə görə, daşınar əşyanın hazırkı sahibi haqqında ehtimal edilir ki, öz sahibliyi zamanı o, mülkiyyətçidir. Bu isə yenidən B-dən əşyanı geri alan kimi A-nın mülkiyyətçi olması fikrinin yaranması ilə nəticələnərdi. Qanunda bununla bağlı birbaşa qayda nəzərdə tutulmadığına görə, ziddiyyətli ehtimalların bu münaqişəsi əşyası oğurlanan əvvəlki sahibin xeyrinə həll olunmalıdır. Əks halda MM-in 182.2-ci maddəsinin heç bir əhəmiyyəti olmazdı. Çünki sonrakı sahib əvvəlki sahibə qarşı daim MM-in 166.1-ci maddəsinin 1-ci cümləsinə istinad edə bilər və bununla da əvvəlki sahib həqiqətən də mülkiyyətçi olduğunu sübut etmək kimi tez-tez aradan qaldırılması mümkün olmayan maneə ilə qarşılaşardı. Bu səbəbdən MM-in 166.1-ci maddəsinin 1-ci cümləsinin tətbiq sferası əşyası iradəsinə zidd olaraq sahibliyindən çıxmış əvvəlki sahiblə hazırkı sahib arasındakı münasibətlə məhdudlaşmalıdır. Ona görə də nəticədə əşyaya sahiblik edilməsi ilə mülkiyyətçi olmaq barədə yaranan ehtimal əşyası iradəsinə zidd olaraq sahibliyindən çıxmış əvvəlki sahibə şamil olunmur.

Beləliklə, C-nin əşyaya sahiblik etdiyi müddətdə onun mülkiyyətçi olduğu ehtimal edilir. Sonradan xalçanın oğurlandığı bəlli olduğu, yəni oğurlanma barədə mübahisə olmadığı üçün, MM-in 182.2-ci maddəsinə əsasən, heç kəs həmin xalçanı vicdanla əldə edə bilməzdi. Xalçaya hazırda sahiblik edən heç bir sahib C-yə qarşı MM-in 166.1-ci maddəsinin 1-

ci cümləsində nəzərdə tutulmuş ehtimala istinad edə bilməz. Lakin A-nın xeyrinə onun mülkiyyətçi olduğunu mübahisələndirən istənilən şəxsə qarşı bu ehtimal qüvvədə olur.

Nəzərə almaq lazımdır ki, MM-in 166.1-ci maddəsində nəzərdə tutulmuş ehtimal 166.3-cü maddə ilə tənzimlənən dövlət reyestrində qeydiyyata alınmamış torpaq sahəsi üzərində həyata keçirilən sahibliyə şamil olunmur. Yəni MM-in 166.3-cü maddəsinə uyğun olaraq, yalnız dövlət reyestrində qeydiyyata alınmış torpaq sahəsinin sahibi barədə onun mülkiyyətçi olduğu ehtimal edilir[31].

Mülkiyyətin itməsi və başqa şəxsə keçməsi ilə bağlı yaranan başqa bir mövzu MM-in 182.2-ci maddəsi ilə tənzimlənən və barəsində yuxarıda danışılan əşyanın sahibin iradəsinə zidd olaraq sahiblikdən çıxmasıdır. Bu hal yalnız *daşınar* əşyalarla bağlı yaranır[32].

29-cu misal:

A istifadə üçün qiymətli kamerasını B-yə verir. B isə onu C-yə satır. A bundan xəbər tutduqdan sonra C-dən kameranın qaytarılmasını tələb edir. C isə B-ni mülkiyyətçi hesab etdiyi üçün bunu rədd edir.

Həlli:

MM-in 157.2-ci maddəsinə əsasən A-nın tələblə çıxış etmək hüququ varmı? A-nın əvvəllər kameranın mülkiyyətçisi olması barədə mübahisə yoxdur. C-nin kameraya mülkiyyət hüququ əldə edib-etməməsi isə şübhə doğurur. MM-in 181.1-ci mad-

---

[31] Bundan başqa, MM-in 140-cı maddəsinə əsasən, daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış bütün əşya hüquqları, məsələn, ipoteka ilə də bağlı reyestrin düzgün və tam olması ehtimal edilir.

[32] Daşınmaz əmlakın vicdanlı əldə olunması MM-in 140-cı maddəsinə əsasən müəyyən edilir: qeydiyyatın düzgün olmamasının əldə edənə məlum olması və ya onun düzgün olmasına qarşı edilmiş etirazın dövlət reyestrinə daxil edilməsi halları istisna olmaqla, əldə edənin xeyrinə dövlət reyestrində qeydiyyat düzgün hesab edilir.

dəsinə əsasən, C kameranın mülkiyyətçisi olan A ilə heç bir müqavilə bağlamadığı üçün yalnız MM-in 182.1-ci maddəsinə əsasən B-dən kameranı vicdanla əldə etməsi imkanı diqqət çəkir.

MM-in 182.1-ci maddəsinin 2-ci cümləsinə əsasən, əldə edənin vicdanlı olması ehtimal olunur. Odur ki, A məsələnin əksini sübut etməyincə C-nin vicdanlı olması mövqeyindən çıxış edilməlidir. Lakin əşya A-nın sahibliyindən onun iradəsinə zidd olaraq çıxıbsa, C-nin vicdanlı olmasının əhəmiyyəti olmayacaq.

Bu zaman iradəsinə zidd olaraq sahiblikdən çıxma dedikdə, vasitəsiz sahibliyin könüllü olmadan itirilməsi başa düşülür[33]*. Misal kimi qanun itirmə və oğurlanmanı göstərir. Lakin bu kazusda A kameranı B-yə könüllü verib. Yəni o, kameranı nə itirib, nə də kamera oğurlanıb. Başqa tərəfdən, A vasitəsiz sahibliyi iradəsinin ziddinə olaraq itirməyib. Bu qayda hətta onun B tərəfindən aldadıldığı hallara da aiddir (B-nin əvvəlcədən kameranı pula satmaq niyyəti olsa belə). MM-in 182.2-ci maddəsi çərçivəsində sahibliyin başqa şəxsə hansı motivlə verilməsi heç bir rol oynamır. Beləliklə, kamera A-nın sahibliyindən onun iradəsi ziddinə olaraq çıxmadığı üçün C onu vicdanla əldə edə bilər*[34]*.*

Yuxarıda göstərilən 28-ci və 29-cu misallar[35] **qanunla nəzərdə tutulan ehtimalın** xüsusi əhəmiyyətini vurğulayır. Mülki proses üçün bunun əhəmiyyəti çox böyükdür. Ehtimal hakimə onun həqiqəti tapa bilmədiyi hallarda nəyə əsaslanmalı olduğunu söyləyir. Çünki o, həqiqəti müəyyən etmək mümkün olmadığına görə qərar qəbul edilməsini rədd edə

---

[33] Vasitəsiz sahibliklə bağlı MM-in 160-cı maddəsi ilə müqayisə et.

[34] B kameranı C-yə bağışlasaydı, vəziyyət başqa cür olardı: MM-in 182.2-ci maddəsinə əsasən, əşyanı əvəzsiz əldə edən də vicdanlı ola bilməz.

[35] Vicdanlı əldəetmə ilə bağlı digər məsələlərlə əlaqədar müqayisə et, I hissə D.

bilməz[36]. Belə vəziyyətdə o, sübutetmə vəzifəsinə əsaslanaraq istiqamətlənməlidir: prinsipcə, hər bir tərəf tələbin əsaslandırılması və ya ondan müdafiə üçün istinad etdiyi faktlar barədə özü məlumat verməli və onları sübut etməlidir[37]. Bununla tələbin qanuni əsasının qanunla nəzərdə tutulmuş hər bir dispozisiya şərtinin yerinə yetirilməsi üçün zəruri olan ayrı-ayrı faktlar nəzərdə tutulur. Bununla belə, bəzən qanun bu qaydanın özünü də dəyişir: müəyyən faktlar qanuna əsasən ehtimal olunur və əks tərəf bunu təkzib edərək əksini sübut etməlidir.

Məsələn, artıq yuxarıda qeyd olunduğu kimi, borclu öhdəlik münasibətindən irəli gələn vəzifələrin pozulmasına görə yalnız bu pozuntu ondan asılı olan səbəblərə əsasən baş verdiyi hallarda məsuliyyət daşıyır (MM-in 443.1-ci maddəsinin 2-ci cümləsi, 443.7, 445.5-ci maddələri, 447.7-ci maddəsinin 2-ci cümləsi). Bütün bu hallarda təqsirin olması ehtimal edilir. Kreditor tələblə çıxış edən tərəf kimi borclunun təqsirli olmasını deyil, əksinə, borclu təqsiri olmadığını sübut etməlidir.

Belə ehtimal MM-in 182.1-ci maddəsində də nəzərdə tutulub: yəni mülkiyyətçi olmayan şəxsdən əşyanı almış şəxs növbəti şərt qismində vicdanlı olmasını sübut etməlidir. Bununla belə, MM-in 182.1-ci maddəsinin 2-ci cümləsindən əks qayda irəli gəlir: «Əgər əldə edən ... *onda vicdanlı sayıla bilməz*». Beləliklə, burada qanun müəyyən edir ki, vicdanlılığı mübahisələndirən şəxs onu təkzib etməli, yəni vicdansızlığı sübut etməlidir.

---

[36] Azərbaycanın yeni Mülki Prosessual Məcəlləsi hakimin prosesdə həqiqəti vəzifə borcuna əsasən müəyyən etməli olması kimi (obyektiv həqiqət prinsipi) sovet ənənələrindən əl çəkib. İndi MPM kökləri Roma hüququna söykənən və artıq Almaniyada da özünü doğrultmuş dispozitivlik və formal həqiqət prinsipinə əsaslanır.

[37] MPM-in 77.1-ci maddəsi.

Qanunla nəzərdə tutulmuş ehtimalların iki funksiyası var: prosessual və maddi-hüquqi. Prosessual baxımdan ehtimallar konkret halda MPM-in 77.1-ci maddəsindəki sübutetmə haqqında qaydanı dəyişir və sübutetmə uğursuz olduqda prosesi uduzmaq riski ilə sübutetmə vəzifəsi qarşı tərəfə ötürülür. Maddi-hüquqi baxımdan isə onların hüquqi mübahisə üçün və tərəflər arasında dispozisiya şərtinin mövcud olan kimi qəbul edilməsi funksiyası var (həmin tərkib əlaməti obyektiv cəhətdən müəyyən edilə bilməsə belə).

Vindikasiya tələbinin ikinci dispozisiya şərti – tələbin yönəldiyi şəxsin əşyanın sahibi olması daha az problemlər törədir. Əşya üzərində sahiblik hüquqi məsələ olmaqdan çox faktiki məsələdir: MM-in 159-cu maddəsinə əsasən, əşyaya faktiki sahiblik edən şəxs onun sahibidir, bu zaman o, ya əşyasının sahibi, ya da özgə əşyasının sahibi ola bilər (müqayisə et: MM-in 161-ci maddəsi). Əşya üzərində bu faktiki sahiblik tərəflər arasında çox zaman mübahisəsiz olur və adətən prosesdə ən az problem yaradır.

Vindikasiya tələbinin (MM-in 157.2-ci maddəsi) növbəti dispozisiya şərti sahibliyi həyata keçirən şəxsin sahiblik hüququnun olmamasıdır (yuxarıda 3)). Burada söhbət neqativ tərkib əlamətindən gedir. Neqativ tərkib əlamətindən o vaxt danışırlar ki, qanunda müəyyən faktın olmaması ilə bağlı hüquqi nəticələrin yaranacağı nəzərdə tutulsun. Belə neqativ faktları sübut etmək, təbii ki, çətindir, çünki nəzəri cəhətdən onların mövcudluğu üçün sonsuz sayda imkan var: mülkiyyətçi vindikasiya tələbi üçün sahibliyi həyata keçirən şəxsin nə alqı-satqı, nə kirayə, nə saxlama, nə lizinq müqaviləsindən, nə də sair müqavilələrdən irəli gələn sahiblik hüququnun olmadığını sübut etməli olardı.

Bu səbəbdən burada da mülkiyyətçinin xeyrinə sübutetmə vəzifəsinin qarşı tərəfə keçməsi zəruridir (bunun qanunun

mətnindən irəli gəlməməsinə baxmayaraq). Tələblə çıxış edən şəxsdən məntiqə uyğun olaraq yalnız özünün mülkiyyətçi, cavabdehin isə sahibliyi həyata keçirən şəxs olduğunu sübut etmək tələb oluna bilər. Öz növbəsində isə cavabdeh sahiblik hüququnu təsvir və bu hüququn mövcudluğunu sübut etməlidir.

Yuxarıda vindikasiya tələbi ilə bağlı göstərilən birinci kazusda (28-ci kazus) seçilən misalda B A-ya və onun qaytarma ilə bağlı tələbinə qarşı A-nın xalçanı ona bağışlamasına istinad edir. Ona görə də belə qəbul etmək olar ki, B bağışlamanı və bununla da özünün buna əsaslanan sahiblik hüququnu sübutetmə vəzifəsi ilə bağlı sadalanan qaydalara və ehtimallara əsasən sübut etməlidir.

Lakin burada ona həqiqətən də başqa bir ehtimal, yəni MM-in 166.1-ci maddəsində təsvir olunmuş ehtimal yardım edir: bu müddəaya əsasən B-nin əşyanın sahibi olması barədə ehtimal edilir ki, o, dediyi kimi, əşyaya mülkiyyətçi hüququ ilə sahiblik etmişdir[38].

Bu ehtimal əvvəlki sahibə, yəni A-ya da şamil olunur (əşya ondan oğurlanmayıbsa). Heç bir tərəf əşyanın iradəyə zidd əldən çıxdığını söyləmir. B-nin güman etdiyi bağışlamaya qarşı isə A sübut etməlidir ki, B başqa bir yolla əşya üzərində sahibliyi əldə edib. Beləliklə, A MM-in 166.1-ci maddəsində nəzərdə tutulmuş ehtimalı təkzib və hələ də mülkiyyətçi olduğunu sübut etməlidir. Bununla bağlı sübutların yoxlanmasından sonra hər hansı şübhələr qalarsa, bu şübhələr onun ziyanınadır.

---

[38] MM-in 161-ci maddəsinə əsasən, əşyanın mülkiyyətçisi hüququ ilə əşyaya sahib olan əşyanın sahibidir (məsələn, alıcı, hədiyyə alan). Əşyanın hər hansı başqa sahibi özgə əşyasının sahibidir (məsələn, kirayəçi, əşyadan əvəzsiz istifadə edən). Beləliklə, ehtimal B-nin, məsələn, kirayə müqaviləsinə istinad edəcəyi hallara aid deyil: bu sahiblik hüququnu o, sübut etməli olardı!

bb. Sahiblikdən irəli gələn tələblər (sahiblik tələbləri) (MM-in 164.2 və 165.1-ci maddələri)

Yuxarıda qeyd olunduğu kimi, mülkiyyətçi vindikasiya tələbi ilə çıxış edən hallarda sahiblik məsələsi ilə bağlı tez-tez elə də böyük problem yaranmamasına və sahiblikdə söhbətin birinci növbədə faktla bağlı məsələdən getməsinə baxmayaraq, onun yaratdığı hüquqi problemlərin əhəmiyyəti azaldıla bilməz: sahiblik ilk növbədə yalnız əşya üzərində faktiki sahibliyin həyata keçirilməsini göstərsə də, qanun sahibə münasibətdə bir sıra tələblər müəyyən edir ki, bunlardan da istifadə edilməsi təcrübədə tez-tez çətinliklər yaradır.

30-cu misal:

A B-yə mağaza kirayəyə verir. B əvvəlcə kirayə haqqını gec-gec ödəyir və daha sonra, ümumiyyətlə, bu ödəmələri dayandırır. Bunu görən A-nın «səbir kasası dolur»: o, mağazanın qapısını sındırır, qapının qıfılını dəyişir və heyrətlənmiş B-ni 2 güclü dostu vasitəsilə bayıra çıxarır. Bu zaman A-nın ucadan dediyi sözlər arasında «müqaviləyə xitam verirəm» sözləri də eşidilir.

B bildirir ki, o, kirayə haqqının ödənilməsini kirayə obyektinin pis vəziyyətdə olması səbəbindən dayandırıb, çünki obyektin bütün yerlərindən su dammağa başlayıb. O, bu barədə A-ya daim məlumat verib. Lakin B heç nəyin dəyişmədiyini görərək kirayə haqqının ödənilməsini dayandırmaqdan başqa çıxış yolunun qalmadığını düşünüb. Nəmişlik nəticəsində onun mallarının bir hissəsi xarab olub; o, ona vurulmuş zərərin ödənilməsi tələbi ilə əvəzləşdirməni həyata keçirmək istəyir. Hər şeydən əvvəl isə o, daha böyük zərərin qarşısını almaq üçün obyektə buraxılmasını istəyir.

Öz növbəsində A obyektdə hər hansı qüsurların olmasını mübahisələndirir.

Həlli:

(1) Tərəflər arasında kirayə münasibətləri hələ də mövcuddursa, B MM-in 675-ci maddəsinə əsasən kirayə obyektinin yenidən ona verilməsini tələb edə bilərdi. Lakin məhz bu, bir qədər şübhəlidir. Kirayəyə verən A kirayə münasibətinə xitam verib. Ola bilsin ki, onun bu hüququ MM-in 685.2-ci maddəsindən irəli gəlir. Lakin tərəflər arasındakı bu məsələlər mübahisəlidir. B isə öz növbəsində MM-in 677.1.1-ci maddəsinə əsasən, kirayə haqqının azaldılmasını və MM-in 443.1-ci maddəsinə uyğun olaraq ona dəymiş zərərin ödənilməsini tələb etmək hüququ olduğunu bildirir, eyni zamanda, o, MM-in 540 və ondan sonra gələn maddələrinə istinadən əvəzləşdirmə aparır. Öhdəliklərin əvəzləşdirilməsi üçün şərtlər olduqda, bu, bilavasitə qarşılıqlı tələblərin aradan qalxması ilə nəticələnir. Ona görə də belə olan halda onun kirayə haqqı ilə bağlı artıq borcu qalmayacaq.

Lakin bütün bu məsələlər mübahisəlidir. Məhkəmə bu məsələləri yalnız sübutların ətraflı yoxlanmasından sonra həll edə biləcək.

(2) Qanunverici yaranacaq belə problemləri əvvəlcədən görüb və öncə sahiblikdən zorla məhrumetmə hallarında hüquqazidd vəziyyətin aradan qaldırılması üçün tez-tez dərhal icra edilməli olan bir qaydanın zəruri olması faktını nəzərə alıb.

MM-in 164.2-ci maddəsinə əsasən, sahiblikdən məhrum olan şəxs qanunsuz sahibdən onun sahibliyinin qaytarılmasını tələb edə bilər. Bu qaydadan istisna həmin maddənin 2-ci cümləsində nəzərdə tutulub. Həmin müddəaya əsasən, sahiblikdən məhrumetmə faktik sahib və ya onun hüquq sələfi barəsində səhv addım olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə iddia istisna edilir. Ona görə də bununla bağlı «sahiblikdən məhrumetmənin səhv» olması de-

dikdə nəyin başa düşülməli olması sualı ortaya çıxır. Öhdəlik münasibətlərinə əsaslanaraq sahiblik hüququnun olmasına müraciət olunarsa, hakim konkret halda kirayə müqaviləsinin etibarlı surətdə başa çatdırıldığını, yaxud hələ davam etdiyini yoxlamalıdır. Bu halda yuxarıda (1) təsvir olunduğu kimi, sübutları araşdırmaq zəruri olardı. Hüquqi asayişi təmin etmək və sahibi özbaşınalıqdan qorumaq üçün qanunverici sahibliyin qorunması üzrə tələblərlə bir vasitə yaratmaq istəyib ki, bu da sahibliyin həyata keçirilməsinə zor vasitəsilə mane olunan hallarda tez yardımetmə imkanı yaradır. Ona görə də MM-in 164.2-ci maddəsinə əsasən, sahibliyin qanunsuz olması üçün sahibin ona öhdəlik münasibətlərindən irəli gələn hüququnun olması həlledici deyil. Bu zaman əslində MM-in 164.1-ci maddəsinə müraciət edilməlidir. Həmin müddəaya görə, sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağandır. Bu isə o deməkdir ki, əvvəlki sahibin iradəsi ziddinə olaraq yaranmış sahiblik də qanunsuzdur (yalnız o hallar istisnadır ki, əvvəlki sahibin özü sahibliyi pozan şəxsə münasibətdə MM-in 164.2-ci maddəsinin 2-ci cümləsinə əsasən qanunsuz sahib olsun).

MM-in 164.2-ci maddəsindən irəli gələn bu tələbi ***petitor tələblərindən***[39] *fərqli olaraq* ***posessor tələb***[40] *adlandırırlar: possessor tələblərdə söhbət yalnız sahiblikdən və sahibin zorla sahiblikdən məhrum edilməsindən, sahibliyin pozulmasından gedir. Bu zaman onun hüquqi cəhətdən əşya ilə bağlı tələblərinin olub-olmaması, xüsusilə bununla bağlı müqavilələrin ona sahiblik hüququ verib-verməməsinin fərqi yoxdur. Bütün bunlar proses zamanı aydınlaşdırılmalı olan məsələlərdir. Hüquqi cəhətdən*

---

[39] *Petitio* sözünün latın dilindən tərcüməsi *tələb hüququ* deməkdir. Bununla müəyyən hüquqlara (tələblərə, əşya hüquqlarına) əsaslanan tələblər başa düşülür.

[40] *Possessio* sözünün latın dilindən tərcüməsi *sahiblik* deməkdir. Bununla təkcə faktiki sahibliyə əsaslanan tələblər başa düşülür.

daha yaxşı səlahiyyətləndirilmiş şəxs də tələblərini özünəyardım qaydasında zorla həyata keçirə bilməz. Yalnız MM-in 563-cü (zəruri müdafiə), 564-cü (son zərurət) və ya 565-ci (özünəyardım) maddələrinin dar şərtləri əsasında o, bunu edə bilər. Lakin göstərilən halda MM-in 563-cü maddəsinin şərtləri adətən mövcud olmur. Çünki qanunsuz sahibliyin sadəcə olaraq davam etdirilməsi hələ mülkiyyətçinin üzərinə «hücum edilməsi» demək deyil. Özünəyardım barədə maddənin şərtləri də bu kazusda yoxdur, çünki belə hallarda mülkiyyətçi zərurət olarsa, iddianın təmin edilməsi üzrə proses qaydasında məhkəmənin yardımından da istifadə edə bilər[41].

Nəhayət, hüquqi sülhü mümkün qədər tez bərpa etmək məqsədi ilə MM-in 164.2-ci maddəsinə uyğun olaraq sahiblikdən məhrumetməyə qarşı tələbin köməyi ilə qanunvericinin iradə ifadəsi MM-in 165.2-ci maddəsində tələbin həyata keçirilməsi üçün nəzərdə tutulmuş qısa müddətdir. Həmin müddəaya əsasən, əvvəlki sahib qəsd və ya təqsirkar ona məlum olduqdan dərhal sonra, lakin bir ildən çox olmayan müddət ərzində əşyanın ona qaytarılmasını tələb edə bilər.

Göstərilən kazusda A sahibliyi B-yə kirayə müqaviləsi əsasında könüllü olaraq verib. Bu baxımdan B sahiblik hüququ mənasında qanuni sahib olub. MM-in 164.2-ci maddəsinin 2-ci cümləsində nəzərdə tutulan şərtlər yoxdur. Nəticədə A-nın B-ni zorla sahiblikdən məhrum etməsi qanunsuz olub. Ona görə də məhkəmə B vaxtında tələblə çıxış edərsə, A-nın sahibliyi B-yə qaytarması barədə qətnamə qəbul etməlidir.

Son olaraq qeyd edilməlidir ki, praktikada posessor tələblərlə bağlı tez bir zamanda qərar qəbul edilmə kimi üstün cəhət bununla heçə endirilə bilər ki, tələbin yönəldiyi tərəf, burada A eyni prosesdə kirayə müqaviləsindən və mülkiyyətindən irəli gələn petitor qarşılıqlı iddia ilə tələbləri (əsas-

[41] MPM-in 157-164-cü maddələri.

landırılmış müqaviləyə xitam verilməsi nəticəsində qaytarılma və kirayə haqqının qalan hissəsinin ödənilməsi tələbləri) irəli sürür. Azərbaycan MPM hüquqi mübahisənin ayrıla bilən və qərar çıxarılması üçün hazır olan hissəsində (burada posessor iddia) hissəvi qətnamənin çıxarılması imkanını tanımadığından hakim bu halda yuxarıda – (1)-də göstərilən bütün məsələləri aydınlaşdırmalıdır.

MM-in 164-cü maddəsi ilə tənzimlənən sahiblikdən məhrumetmə ilə bağlı tələb kimi MM-in 165.1-ci maddəsində nəzərdə tutulmuş sahibliyin pozulması ilə bağlı yaranan tələb də posessor tələbdir. Bu tələb də hüquqi asayişin qorunması naminə vasitəsiz sahibi üçüncü şəxslərin faktiki mövcud olan sahiblik münasibətlərinə özbaşına müdaxilələrindən qorumalıdır (özü də həmin üçüncü şəxslərin sahiblik hüququnun olub-olmamasından asılı olmayaraq). MM-in 165.1-ci maddəsinə əsasən, sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər[42]. Burada da tələbin irəli sürülməsinə MM-in 165.2-ci maddəsində nəzərdə tutulmuş qısa müddət şamil olunur.

[42] Sahibliyin pozulması hallarına misal olaraq zərərli hərəkətləri (tüstü yaratma, səs-küy salma), torpaq sahəsinə girişdə maşın saxlamanı və s. göstərmək olar.

D. Vicdanlı əldəetmənin əsasları ilə bağlı kazuslar

Müəllif mülki hüquqi mübahisələr üzrə Azərbaycan məhkəmələrinin çıxardığı qətnamələrin təhlil edilməsi və hakimlərin tədris seminarları zamanı dəfələrlə şahidi olub ki, mülkiyyəti üçüncü şəxsin vicdanlı əldə etməsinə dair qanunda nəzərdə tutulmuş müddəalar məhkəmə praktikasında vahid qaydada tətbiq edilmir. Aşağıdakı kazuslar bu müddəaların tətbiq dairəsinin və tez-tez verilən sualların aydınlaşdırılmasına xidmət etməlidir:

a) Daşınar əşyaların vicdanlı əldə edilməsi

I kazus:

Akif kompüter mülkiyyətçisidir. O, kompüteri 2 günlüyə qonşusu Rəşada istifadəyə verir. Amma Rəşad onu qaytarmaq əvəzinə iş yoldaşı Şakirə 500 AZN-ə satır. Şakirin kompüterin Rəşad tərəfindən istifadəyə götürülməsindən xəbəri yoxdur. Akif nə edə bilər?

1. Akifin Şakirə qarşı qaytarma tələbi

Bu tələb MM-in 157.2-ci maddəsindən irəli gələ bilərdi. Bu maddəyə əsasən mülkiyyətçi qanunsuz sahibdən əşyasını geri tələb edə bilər. Beləliklə, müddəanın 3 ilkin şərti var; hər üç şərt tələb irəli sürülərkən mövcud olmalıdır və aşağıdakı sıralama ilə yoxlanmalıdır:

a. Tələbi irəli sürən şəxs mülkiyyətçi olmalıdır;

b. Əşya tələbin yönəldiyi şəxsin sahibliyində olmalıdır;

c. Tələbin yönəldiyi şəxsin sahiblik hüququ olmamalıdır.

«a» bəndi ilə bağlı: Akif ilkin olaraq kompüterin mülkiyyətçisi olub. Amma o, Rəşadın kompüteri Şakirə satması və ona verməsi nəticəsində mülkiyyət hüququnu itirə bilərdi.

Rəşad kompüterin mülkiyyətçisi olmasa da, Şakirlə Rəşad arasında etibarlı müqavilə bağlandığı və Şakir vicdanlı olaraq Rəşadı mülkiyyətçi kimi qəbul etdiyi halda Şakirin kompüter üzərində mülkiyyət hüququ yarana bilərdi.

aa. Bu halda etibarlı alqı-satqı müqaviləsinin olduğu qəbul edilə bilər. Alqı-satqı müqaviləsi üçün qanunla yazılı forma nəzərdə tutulmayıb.

bb. MM-in 182-ci maddəsinə əsasən alıcı mülkiyyətçi olmayan şəxsdən əşyanı o zaman əldə edə bilər ki:

(a) Özgəninkiləşdirənin mülkiyyət hüququnun olması barədə mülkiyyətin özgəninkiləşdirilməsi anında vicdanlı olsun (MM-in 182.1-ci maddəsi);

(b) Əşya mülkiyyətçinin əlindən çıxmasın (MM-in 182.2-ci maddəsinin 1-ci yarımcümləsi);

(c) Əldə edən əşyanı əvəz ödəməklə əldə etsin (MM-in 182.2-ci maddəsinin 2-ci yarımcümləsi).

(a) ilə bağlı: Əldə edən o zaman vicdanlıdır ki, o, özgəninkiləşdirənin əşyanın mülkiyyətçisi olmadığını bilməsin və bilməli olmasın. Vicdanlı olma faktı hətta yüngül ehtiyatsızlıq halında belə istisna edilir. Bu halda Şakir Rəşadın kompüterin mülkiyyətçisi olmadığını bilmirdi, Rəşadın mülkiyyətçi olmasında şübhələnməsini və mülkiyyət hüququnun olması ilə bağlı məlumat tələb etməsini vacib edən heç bir əsas yox idi. Ona görə də o, vicdanlı[43] olub.

(b) barəsində: Əşyanın mülkiyyətçinin əlindən çıxması dedikdə əşyanı itirməsi, əşyanın mülkiyyətçidən oğurlanması

[43] MM-in 182.1-ci maddəsinin 2-ci cümləsinin redaksiyasına görə, sübutetmə yükü həmişə mülkiyyətçinin üzərinə düşür. Mübahisə olduğu halda o, sübut etməlidir ki, əldə edən vicdanlı olmayıb və bununla bağlı sübutlar gətirməlidir. Beləliklə, qanuna görə, əldə edənin vicdanlı olması prezumpsiyası mövcuddur. Buna görə, də MM-in 182.1-ci maddəsi həm də sübutetmə yükünün bölüşdürülməsi ilə bağlı normadır.

və ya iradəsinin ziddinə olaraq başqa şəkildə sahibliyindən çıxması başa düşülür. Akif kompüteri iradəsinə uyğun olaraq Rəşada verib. Ona görə də kompüter onun əlindən çıxmayıb. Rəşadın, ola bilsin ki, əvvəlcədən ona kompüteri qaytarmaq niyyətində olmaması və onu aldatmaq fikrində olması, sahibliyin itirilməsinin onun iradəsinə uyğun baş verməsi heç nəyi dəyişmir.

(c) barəsində: Şakir 500 AZN alış qiymətini ödəyib. Bununla da o, əşyaya görə əvəz ödəyib.

Akifin mülkiyyətini Şakirə münasibətdə itirməsi artıq o deməkdir ki, MM-in 157.2-ci maddəsinin 1-ci şərti ödənilməyib. Ona görə də onun Şakirdən kompüterini tələb etmək hüququ istisna edilir.

(*Qeyd:* Mülkiyyətin vicdanlı əldə edilməsi ilə qanunverici mülki hüquqi dövriyyəni qorumaq istəyir. Daşınmaz əmlakla bağlı hüquqların reyestrə daxil edilməsi halında olduğu kimi (bax: aşağıda), daşınar əmlakla bağlı da belə prezumpsiya mövcuddur ki, əşyanın mülkiyyətçisi kimi çıxış edən əşyanın sahibi özünün sahibliyi müqabilində mülkiyyətçi kimi qəbul edilir. Hüquqi əqdlər dövriyyəsinin vicdanlı iştirakçısı hüquqi sabitliyin təmin edilməsi baxımından buna etibar etmək iqtidarında olmalıdır. Maraqları qorunan vicdanlı alıcının xeyrinə ziyan vurulan həqiqi mülkiyyətçinin mülkiyyətinin itirilməsi konstitusion hüquqları və insan hüquqlarını pozmur. Bu nəticə «ədalətsiz» hesab edilə bilər, amma qanunla aydın şəkildə tənzimləndiyi üçün qəbul edilməlidir. Mülkiyyətin qorunması ilə hüquqi sabitlik arasında olan labüd gərginlik sahəsinin tənzimlənməsi qanunvericinin işidir və bu tənzimləmə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ ilə də heç bir ziddiyyət təşkil etmir. Mülkiyyətçinin ziyan çəkməsini qanun ancaq o halda qəbul etmək istəyir ki, mülkiyyətçi öz sahibliyini üçüncü (mülkiyyət hüququ olmayan) şəxsə öz ira-

dəsinə uyğun olaraq versin. Çünki mülkiyyətçi öz sahibliyini üçüncü şəxsə etibar edirsə, deməli, o həm də bu etibardan sui-istifadə edilməni bilmək riskini də daşıyır. Lakin mülkiyyətçi əşya əlindən iradəsinə zidd olaraq çıxdığı halda belə risk daşımır. MM-in 182.2-ci maddəsi ona görə də əldən çıxmış əşya barədə vicdanlı əldəetməni istisna edir).

2. Akifin Rəşada qarşı əşyanı qaytarmaq tələbi

MM-in 736.1-ci maddəsinə görə, kirayəyə verən əvəzsiz istifadəyə götürülmüş əşyanı müqavilənin müddəti başa çatdıqdan sonra kirayəçidən tələb edə bilər.

Bu halda əvəzsiz istifadə müddəti müqavilə ilə 2 gün razılaşdırılmışdı. Bu müddətin başa çatması ilə Akifin tələb etmək hüququ yaranır. Lakin Rəşad əşyanı Şakirə satıb və ona verib. O da mülkiyyətçi olub və buna görə də Rəşad artıq əşyanı qaytara bilməz. Hüquqi baxımdan Rəşadın qaytarmaq öhdəliyi mümkünsüz olub. İcranın mümkünsüz olmasının hüquqi nəticələri ancaq MM-in 556-cı maddəsində tənzimlənir. Ancaq bu normanın ilkin şərtləri bu halda mövcud deyil, çünki Rəşad tərəfindən qaytarmamanın səbəbi kimi təqsirli olaraq əşyanı başqa şəxsə satmasıdır. Qanun bu halı tənzimləmir, başqa sözlə, bununla bağlı qanunda boşluq var.

İcranın mümkünsüzlüyü halında mümkünsüzlüyün təqsirli və ya təqsirsiz olmasından asılı olmayaraq, icranın tələb edilməsi nəticəsiz olardı, yəni Rəşadın əşyanı qaytarması barədə məhkəmə qətnaməsi icraya yönəldilə bilməzdi. Ona görə də ağlabatan olardı ki, MM-in 556.1-ci maddəsi öhdəliyin icraçısının təqsiri ucbatından yaranmış mümkünsüzlük halında da analogiya üzrə tətbiq olunsun. Çünki bu maddənin yürütdüyü hüquqi ideya – «heç kəs etmək iqtidarında olmadığı icraya məcbur edilə bilməz və buna görə də öhdəlik xətm olunmalıdır» – eyni ilə bu hala, yəni mümkünsüzlüyün borclunun təqsiri ucbatından baş verməsi halına da uyğun gəlir

(qanunun bu hal üçün borcludan zərərin ödənilməsini tələb etmək hüququnu nəzərdə tutması məsələsini dəqiq fərqləndirmək lazımdır!).

3. Akifin Rəşada qarşı zərərin ödənilməsi tələbi

Bu hal öhdəlik hüququnun Xüsusi hissəsində əvəzsiz istifadəyə dair müddəalarda dəqiq tənzimlənmədiyinə görə öhdəlik hüququnun Ümumi hissəsinə müraciət etmək lazım gəlir. Burada məsuliyyət barəsində MM-in 443.1-ci maddəsində nəzərdə tutulmuş ümumi öhdəlik hüququnun normasından zərərin ödənilməsi tələbi irəli gələ bilərdi. Bu müddəaya əsasən, öhdəliyini təqsirli olaraq icra etməyən borclu kreditora dəymiş zərəri ödəməyə borcludur.

a. Rəşad öncə öhdəliyini yerinə yetirməmiş olmalı idi. Əvəzsiz istifadə ilə bağlı kirayəyə verən, MM-in 732-ci maddəsinə görə, əşyanı əvəzsiz olaraq kirayəçinin istifadəsinə vermək, kirayəçi isə, MM-in 736.1-ci maddəsinə görə, əşyanı razılaşdırılmış müddət başa çatdıqdan sonra geri qaytarmaq öhdəliyi daşıyır. Bu öhdəliyə münasibətdə kirayəçi borcludur. Kirayəçi olan Rəşad bu halda kompüteri Şakirə satdığına görə qaytarmaq öhdəliyini yerinə yetirə bilmir.

b. Rəşadın icra etməməsi təqsirli olmalıdır. Rəşad burada kompüteri 2 gündən sonra Akifə qaytarmalı olduğunu və kompüteri üçüncü şəxsə satmaq hüququnun olmadığını bilirdi. Buna görə də qaytarmaqla bağlı öhdəliyin icra edilməməsi onun təqsiri üzündən baş verib (MM-in 448.4-cü maddəsinə görə, qanunun özündə borclunun təqsirli olması prezumpsiyası var, yəni Rəşad, mübahisə olarsa, məhkəmə qarşısında özünün təqsirli olmadığını sübuta yetirməyə borcludur).

Beləliklə, Akif kompüteri kirayəyə verən kimi Rəşaddan MM-in 443.1-ci maddəsinə əsasən zərərin ödənilməsini tələb edə bilər.

Zərərin həcmi Akifə dəyən zərərin həcminə əsasən müəyyən edilir. Bu isə mövcud faktiki əmlak vəziyyətinin və zərəri vuran hadisə olmasa idi, mövcud olacaq əmlak vəziyyəti ilə müqayisəsi (fərqləndirmə metodu) əsasında müəyyən edilir.

MM-in 459.1-ci maddəsinə görə, bir qayda olaraq, zərərin ödənilməsi natural restitusiya formasında baş verir. Yəni zərər yaradan hadisə olmasaydı, mövcud olacaq vəziyyət bərpa edilir. Yəni bu o deməkdir ki, Rəşad Akif üçün eyni dəyəri olan kompüter almalıdır. Bu, mümkün deyilsə, onda Akif MM-in 459.5-ci maddəsinə əsasən ilkin vəziyyətin bərpasını kompüterin qiymətinə bərabər miqdarda pul əvəzinin ödənilməsi yolu ilə tələb edə bilər.

4. Akifin Rəşada qarşı mülkiyyətin satışından əldə edilən gəliri qaytarmaq tələbi

Əvəzin ödənilməsi tələbinə alternativ olaraq Akif əsassız varlanmaya görə MM-in 1091, 1092-ci maddələrinə əsaslanmaqla əldə edilmiş 500 AZN-in ödənilməsini tələb edə bilər. Çünki Rəşad bu məbləği bilavasitə mülkiyyətini itirən Akifin hesabına əldə edib, yəni varlanıb. Bu tələb Akif üçün xüsusilə o zaman maraqlı olardı ki, əvəzin ödənilməsi tələbinin irəli sürüldüyü zaman həlledici faktor olan kompüterin həqiqi qiyməti əldə edilmiş 500 AZN-dən aşağı qiymətə olsun. Bundan başqa, əsassız varlanma ilə bağlı tələblə əlaqədar zərərin ödənilməsi tələbindən fərqli olaraq, təqsirin olması şərti irəli sürülmür.

II kazus:

I kazusda Rəşad kompüteri Şakirə ad günü münasibətilə hədiyyə etsəydi, vəziyyət necə olardı?

Şakir vicdanlı olmasına baxmayaraq, bu halda mülkiyyət hüququ əldə etmir, çünki o, əldəetmə üçün heç bir əvəz ödəməyib. Bu halda qanunverici MM-in 182.2-ci maddəsinə əsasən, əşyanın əldəedən şəxc tərəfindən mülkiyyətçiyə

qaytarılmalı olmasını daha məqsədəuyğun hesab edir. Belə ki, əks halda əşyanın bağışlandığı şəxsin əşyanın əldə edilməsi üçün heç bir əmlak itkisi olmadığı şəraitdə mülkiyyətçinin son nəticədə zərəri daşımalı olması ədalətsiz olardı. Əşyanın bağışlandığı şəxs bu halda qanunla qorunmur.

III kazus:

Rəşad Akifdən kompüteri oğurlasaydı və onu vicdanlı olan Şakirə satsaydı və sonuncu kompüteri sonradan vicdanlı olan Elçinə satsaydı, vəziyyət necə olardı? Akif kompüterini Elçindən tələb edə bilərdimi?

Vicdanlı əldə etmələrinə baxmayaraq, Şakir də, Elçin də mülkiyyət hüququ əldə etməyiblər, çünki MM-in 182.2-ci maddəsinə görə, adətən oğurlanmış əşyanın vicdanlı əldə edilməsi istisna edilir. Mülkiyyətçinin mülkiyyət hüququ bu halda əşyanı əldə edən bütün şəxslər qarşısında qanunla qorunur. Akif ona görə də MM-in 157.2-ci maddəsinə əsasən əşyanı Elçindən tələb edə bilər.

IV kazus:

Rəşad Akifdən kompüteri oğurlamışdır. Kompüter artıq 5 il işlənmiş kompüterdir və onun cəmi 100 AZN qiyməti var. Rəşad kompüteri Şakirə 400 AZN-ə satır. Bu halda Akif Rəşadın işgüzarlığından öz xeyrinə istifadə edib 400 AZN-i tələb edə bilərmi?

III kazusda göstərildiyi kimi, Akif MM-in 157.2-ci maddəsinə əsasən, öncə Şakirdən kompüterini tələb edə bilər. O, bununla yanaşı Rəşadın əldə etdiyi məbləğin də ona ödənilməsini, təbii ki, tələb edə bilməz. Rəşad bu məbləği MM-in 443.1-ci maddəsinə əsasən zərərin ödənilməsi qaydasında Şakirə qaytarmalıdır, çünki o, alqı-satqı müqaviləsindən irəli gələn öhdəliyini, yəni kompüter üzərində mülkiyyət hüququnun Şakirə verilməsini təqsirli olaraq yerinə yetirməyib.

Amma Akif, MM-in 358.2-ci maddəsinə əsasən, əşyanı özgəninkiləşdirmək hüququ olmayan Rəşadın onun mülkiyyəti üzərindəki sərəncamını sonradan bəyənə bilərdi. Bu halda Şakir əşyanın əvvəlcədən (müqavilə bağlandığı andan) mülkiyyətçisinə çevrilərdi (MM-in 357-ci maddəsinə əsasən, geriyə qüvvə). Bu zaman Akifin kompüterin qaytarılmasını tələb etmək hüququ olmasa da, MM-in 1091, 1092.1.2-ci maddələrinə əsasən Rəşada qarşı kompüterin satışından əldə edilmiş 400 AZN məbləğində pulun əsassız varlanmaya görə ona qaytarılmasını tələb edə bilərdi.

V kazus:

Akif kompüterini Rəşada istifadəyə verib. Rəşadın iş yoldaşı Şakir kompüterdən xoşu gəldiyini bildirir. Lakin o bilir ki, Rəşad bu kompüteri Akifdən istifadəyə götürüb. Bundan sonra Rəşad Akifin adından saxtalaşdırılmış etibarnamə hazırlayır və kompüteri həmin etibarnaməyə əsaslanaraq Şakirə satır. Sənəd o qədər peşəkar saxtalaşdırılır ki, Şakir sənədin həqiqi olmadığından şübhələnmir. Şakir bu halda mülkiyyət hüququ əldə edirmi?

Bu halda Rəşad Akifin adından hərəkət etdiyi üçün alqı-satqı müqaviləsi yalnız Akif və Şakir arasında baş tuta bilər və Şakir mülkiyyət hüququnu ancaq bilavasitə Akifdən əldə edə bilər. Bunun üçün isə ilkin şərt Rəşadın Akifin adından müqavilə bağlamaq hüququ verən etibarlı etibarnamə təqdim etməsidir (MM-in 359, 362.1-ci maddələri). Amma etibarnamə saxtalaşdırıldığı üçün və Akif Rəşadın iradə ifadəsini sonradan da bəyənmədiyi üçün Akiflə Şakir arasında müqavilə baş tutmayıb. Alqı-satqı zamanı mülkiyyət ancaq etibarlı müqavilənin bağlanması və əşyanın verilməsi ilə başqa şəxsə keçdiyindən bu halda Şakir mülkiyyət hüququnu əldə etməyib. Ona görə də Akif MM-in 157.2-ci maddəsinə əsasən kompüterini Şakirdən geri tələb edə bilər.

Şakirin bu halda etibarnamənin həqiqiliyinə münasibətdə vicdanlı olması faktı heç nəyi dəyişmir. Məhkəmə praktikasında rast gəlinən bəzi fikir ayrılıqlarına baxmayaraq, vicdanlı olmaqla bağlı müddəalar bu halda tətbiq olunmur. MM-in 182.1-ci maddəsinin məzmunu birmənalı nəzərdə tutur ki, bu maddə ancaq əldə edənin özgəninkiləşdirən şəxsin mülkiyyətçi olmasına etimadını qoruyur. Buna görə də vicdanlı əldəetmə ancaq özgəninkiləşdirən şəxsin mülkiyyətçi olmadığı halda mümkündür. Bu halda özgəninkiləşdirən Akifdir, çünki Rəşad əlində etibarlı etibarnamə olmadan hərəkət etməsinə baxmayaraq, Akifin adından hərəkət edib. Ona görə də alqı-satqı müqaviləsi Akiflə baş tutmalı idi. Amma nə qədər ki bu halda Akif özü mülkiyyətçidir, MM-in 182.1-ci maddəsinin tətbiqinə heç bir yer qalmır.

Ümumilikdə belə bir prinsip qüvvədədir ki, qanun etibarnamənin mövcud olmasına etimadı (vicdanlı olaraq inanmanı) qorumur[44]. Bunun üçün hüquqi-siyasi əsas da yoxdur. Çünki müqavilə tərəfi həmişə müqavilə bağlamaq istədiyi və nümayəndə vasitəsilə təmsil olunan qarşı tərəfin özündən soruşa bilər ki, doğrudan da o, etibarnamə vermişdirmi və həmin etibarnamə hələ də qüvvədədirmi. Beləliklə, o, etibarnamənin olmaması riskini özü aradan götürə bilər və ona görə də onun qanunla xüsusi qorunmasına ehtiyac yoxdur. Daşınar əşyalarla bağlı mülkiyyət hüququnun vicdanlı əldə edilməsi halında tamamilə başqa vəziyyət mövcuddur. Bu halda (vicdanlı) əldə edən ona görə qanunla qorunur ki, onun, bir qay-

[44] Bundan istisna kimi bu hala uyğun gəlməyən MM-in 366.2-ci maddəsində nəzərdə tutulmuş xüsusi hal var. Bu maddəyə görə, etibarnamə verilmiş şəxsin etibarnaməyə xitam verildiyini bildiyi və ya bilməli olduğu vaxtadək yerinə yetirdiyi hərəkətlər nəticəsində əmələ gələn hüquq və vəzifələr etibarnaməni vermiş şəxs və onun hüquq varisləri üçün üçüncü şəxslər barəsində, üçüncü şəxsin etibarnamənin qüvvəsinə xitam verildiyini bilmədiyi və ya bilməli olmadığı halda qüvvəsini saxlayır.

da olaraq, özgəninkiləşdirilən əşya üzərində mülkiyyət münasibətlərini dəqiq yoxlamaq imkanı, demək olar ki, olmur. Ona görə də, bir qayda olaraq, ona əşyanın sahibinin həqiqətən də onun mülkiyyətçisi olması faktına etimad göstərməsinə imkan verilməlidir.

Bununla bağlı bir iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin 08.11.2007-ci il tarixli qərarına münasibətdə də şübhələr var (6 K-2413/07 nömrəli iş)[45]. Həmin iş üzrə iddiaçının ölmüş atası ikinci cavabdehə mənzilin özgəninkiləşdirilməsinə dair etibarnamə verib və bu etibarnamə əsasında ikinci cavabdeh mənzili atanın ölümündən sonra birinci cavabdehə özgəninkiləşdirib. Birinci cavabdeh ikinci cavabdehdən fərqli olaraq, alqı-satqı zamanı ölüm faktı barəsində heç nə bilməyib. İddiaçı mənzili geri tələb edib və MM-in 365.1.7-ci maddəsinə əsasən etibarnamənin xətm olunmasına istinad edərək daşınmaz əmlakın dövlət reyestrində düzəliş edilməsini tələb edib. İlk iki instansiya məhkəməsi iddianı təmin edib. Ali Məhkəmə apelyasiya instansiya məhkəməsinin qərarını prosessual və maddi hüquq pozuntularına yol verməsi səbəbindən ləğv edib və işi yenidən araşdırmaq üçün aşağı instansiya məhkəməsinə göndərib. Başqa qanun pozuntularına istinad etməklə yanaşı, Ali Məhkəmə qərarında həm də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27.10.2004-cü il qərarına əsaslanıb. Bu qərarda Konstitusiya Məhkəməsi göstərib ki, «əmlakı başqa şəxslərdən əldə edən alıcıda əqdin legitimsizliyi barədə şübhələr yaranmadıqda, o, vicdanlı alıcı qismində qəbul olunur». Ali Məhkəmənin mövqeyinə görə, Apelyasiya Məhkəməsi birinci cavabdehin (mənzilin alıcısının) etibarnamənin mövcud olmasına dair etimadını və beləliklə vic-

[45] Bu məhkəmə qərarının daşınmaz əmlakın vicdanlı əldə edilməsi ilə bağlı çıxarılmasına baxmayaraq, bu məqam müzakirə edilən hüquqi məsələ üçün əhəmiyyətsizdir, çünki etibarsız təmsilçiliyin hüquqi nəticələri burada da daşınar əmlakla bağlı olduğu kimidir.

danlı olmasını nəzərə almalı idi. Məhkəmə bununla bağlı bildirib ki, «gələcəkdə əqdin bağlanması anında ona mane olan halların müəyyən olunması isə vicdanlı alıcının əmlak hüquqlarının pozulmasına səbəb olmamalıdır». Qeyd etmək lazımdır ki, bu hüquqi mövqe qanunda təsdiqini tapmır. MM-in 336.2-ci maddəsinin tətbiq edilməsi ona görə mümkün deyil ki, işin hallarına görə nümayəndə (ikinci cavabdeh) ölüm faktı barəsində məlumatlı olub. Bundan başqa, MM-in 337-ci və sonrakı maddələrində münasibətlərin əsasında dayanan müqavilənin etibarsızlığına baxmayaraq, müqaviləni etibarsız edən səbəbə (əsasa) münasibətdə vicdanlı olan müqavilə tərəfinin mülkiyyəti əldə etməsini təsdiqləyən heç bir müddəa yoxdur. Ali Məhkəmənin və Konstitusiya Məhkəməsinin belə ümumi formalaşdırılmış hüquqi mövqeyinin sual doğurmasını növbəti fikir də göstərir: müqavilənin etibarlı olmasına münasibətdə vicdanlı olmanın mövcud olması mülkiyyətin əldə edilməsi üçün yetərli amil kimi qəbul edilsəydi, məsələn, azyaşlılara dair normalarda da bu qayda qüvvədə olardı və sonda qanunvericinin arzuladığı azyaşlıların mütləq müdafiəsinə nail olmaq kimi məqsədi təhlükə altında qalardı. Çünki belə halda yuxarıda göstərilən mövqeyi əldə ardıcıl rəhbər tutsaq, 17 yaşında məktəblidən valideynlərinin icazəsi olmadan kompüter alan üçüncü şəxs satanın görünüşünə görə daha böyük olduğuna vicdanlı olaraq inandığını bildirərək, kompüterin mülkiyyətçisi olmalı idi. Lakin bu, qanunvericinin qarşıya qoyduğu məqsədə, azyaşlını hüquqi əqdlərin onun yaşına görə dərk etmədiyi nəticələrindən qorumaq məqsədinə zidd olardı.

b) Daşınmaz əşyaların vicdanlı əldə edilməsi

VI kazus:

Rəşad daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsinin mülkiyyətçisi kimi qeyd edilib. O, torpaq sahəsini 50.000

AZN-ə Şakirə satır. Rəşad həmin daşınmaz əmlakı bir qədər əvvəl Akifdən almışdı. Onlar müqavilənin yalan əqd olub-olmadığı barədə hələ də mübahisə edirmişlər. Şakir alqı-satqıdan əvvəl bu mübahisə barədə eşidir və Rəşadı bununla bağlı sorğu-sual edir. Rəşad isə onu sakitləşdirir və izah edir ki, Akif düzgün danışmır. Akif sadəcə olaraq torpağı satdığına peşman olub. Çünki torpağın qiymətini çox aşağı hesablayıb. Bu səbəbdən də müqaviləni ləğv etmək istəyir. Şakir Rəşadın bu izahına inanır. Amma Şakir torpağı aldıqdan və daşınmaz əmlakın dövlət reyestrinə mülkiyyətçi kimi qeyd olunduqdan sonra Akif Rəşada qarşı müqavilənin əhəmiyyətsizliyini təsdiq edən hüquqi qüvvəyə minmiş qətnamənin çıxarılmasına nail olur. Bu halda Akif Şakirdən torpaq sahəsini tələb edə bilərmi?

MM-in 157.2-ci maddəsinə görə, Akifin torpaq sahəsini geri tələb edə bilməsi üçün o, hələ də torpağın mülkiyyətçisi olmalıdır. O, özünün mülkiyyət hüququnu Rəşada verməyib. Məhkəmə qətnaməsinə əsasən, alqı-satqı müqaviləsi yalan əqd olub və buna görə də MM-in 340.2-ci maddəsinə görə, bağlandığı andan (müqayisə et: MM-in 337.4-cü maddəsi) etibarsızdır. Lakin o, mülkiyyət hüququnu bu arada reyestrdə mülkiyyətçi kimi dövlət qeydiyyatına alınmış Şakirə verə bilərdi. Rəşad isə alqı-satqı müqaviləsinin eitbarsız olması səbəbindən mülkiyyət hüququnu əldə etmədiyinə görə Şakir mülkiyyət hüququnu ancaq vicdanlı əldə edən olduğu halda əldə edə bilərdi. Torpaq sahələri ilə bağlı bu hal üçün MM-in 140-cı maddəsi tətbiq edilir. Bu maddəyə əsasən, qanunda daşınmaz əmlakın dövlət reyestrinin məzmununun düzgünlük və tamlıq prezumpsiyası var. Lakin bu prezumpsiya əldə edən qeydiyyatın düzgün olmadığını pozitiv olaraq bildiyi və ya MM-in 141-ci maddəsinə əsasən qeydiyyatın düzgünlüyünə dair etiraz qeyd edildiyi hallarda qüvvədə olmur. Sonuncu vasitə həqiqi mülkiyyətçinin əlində dövlət qey-

diyyatında hüquqi vəziyyətə uyğun olmayan məlumatlara inanmaqla üçüncü şəxslərin vicdanlı əldə etməsinin tam aydınlaşdırılması və dövlət qeydiyyatında formal düzəlişlərin edilməsinə qədər qarşısını alan vacib vasitələrdən biridir[46]. Bu prezumpsiya sübutetmə yükünün dəyişməsinə də səbəb olur. Burada sübutetmə yükünü dövlət qeydiyyatına düzgün olaraq qeydə alınmayan deyil, dövlət qeydiyyatının düzgünlüyünü mübahisələndirən daşıyır. Şübhələr onun ziyanına həll edilir.

Bu halda Rəşad daşınmaz əmlakın dövlət reyestrində mülkiyyətçi kimi qeydə alınmışdı. Şakir Rəşadın yalan əqd bağladığını və buna görə də mülkyyətçi olmadığını bilmirdi. MM-in 140-cı maddəsi daşınar əşyalarla bağlı, MM-in 182.1-ci maddəsindən fərqli olaraq, ancaq qeydiyyatın düzgün olmaması barədə pozitiv bilgi halında daşınmaz əmlakın vicdanlı əldə edilməsini istisna edir. Daşınmaz əşya ilə bağlı ehtiyatsızlıqdan bilməmə faktı vicdanlı olmanı istisna etmək üçün kifayət etmir. Ona görə də Şakir torpaq sahəsi üzərində mülkiyyət hüququnu vicdanlı əldə edib. Beləliklə, Akif artıq torpaq sahəsinin mülkiyyətçisi deyil və ona görə də qaytarmanı tələb edə bilməz[47].

Qanunverici MM-in 140-cı maddəsinin yeni redaksiyası ilə daşınmaz əmlaka dair hüquq münasibətləri haqqında etibarlı məlumat verməli və beləliklə də ictimai etimaddan bəhrələnməli daşınmaz əmlakın dövlət reyestrinin əhəmiyyətini xeyli dərəcədə artırıb. Qanunverici belə mövqedən çıxış edir

---

[46] MM-in 141-ci maddəsinə əsasən, daşınmaz əmlakın dövlət reyestrinə etirazla bağlı qeydin daxil edilməsi reyestrdə düzəliş aparılması hüququ toxunulan şəxsin razılığı ilə və ya praktikada daha tez-tez rast gəlinən hal kimi məhkəmə qərarı əsasında həyata keçirilir.

[47] Akif Rəşaddan ancaq alqı-satqı müqaviləsinin ləğv edilməsini tələb edə bilər. Bu isə MM-in 337.5-ci maddəsinə əsasən baş verir. Yəni hər iki tərəf əqd üzrə aldıqlarını geri qaytarmalıdır. Amma Rəşad artıq torpaq sahəsinin mülkiyyətçisi və sahibi olmadığı üçün o, onun pulla dəyərini ödəməlidir.

ki, reyestr daşınmaz əmlakın dövlət reyestri haqqında qanunvericiliyə uyğun olaraq, ciddi qeydiyyat icraatı vasitəsilə aparılır və daşınmaz əmlakla bağlı əşya-hüquqi vəziyyəti düzgün əks etdirir. Düzdür, ola bilər ki, təcrübədə daşınmaz əmlakın dövlət reyestrinin aparılması ilə bağlı hələ də bir sıra qüsurlara rast gəlinir ki, bu da ümumilikdə qeydiyyatın düzgün olmayan və ya tamamilə səhv aparılmasına gətirib çıxarır. Buna görə də qanunla nəzərdə tutulmuş reyestrin düzgünlüyünə etimad qaydasını çoxları «ədalətsiz» qayda kimi qəbul edir. Lakin bu, heç bir halda qanundan yayınmaları əsaslandırmır. Çünki hakim qanuna tabedir və onu məzmununa uyğun tətbiq etməyə borcludur. Eyni zamanda, ədliyyə sistemi ümumilikdə bütün gücü ilə səlahiyyətli orqanlara təsir etməlidir ki, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı qüsurlar tezliklə aradan qaldırılsın.

E. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə edilmiş və 2005-ci il noyabrın 1-də qüvvəyə minmiş əlavə və dəyişikliklər

I. Azərbaycan Respublikasının 2000-ci ildə qüvvəyə minmiş Mülki Məcəlləsi kontinental Avropa hüquq sisteminə aid olan mülki məcəllələrdəki ənənəni davam etdirir. Bu Məcəllə xüsusi hüquq münasibətlərinin sərbəst şəkildə qurulması və bazar iqtisadiyyatı qaydalarına uyğun davranış üçün əksər sahələr üzrə adekvat və etibarlı hüquqi baza yaradır. Bununla belə, qanunun qüvvəyə minməsindən bir qədər sonra təcrübədə bəzi nöqsan və qüsurlar özünü göstərməyə başladı ki, bu isə, öz növbəsində, qanunun təkmilləşdirilməsini şərtləndirirdi. Belə ki, məsələn, Mülki Məcəllənin müxtəlif yerlərində keçmiş sovet hüququna çox yaxın olan və beləliklə, nə iradə və müqavilə azadlığı prinsipləri, nə də müasir bazar iqtisadiyyatı prinsipləri ilə razılaşdırıla bilən, habelə bazar iştirakçılarının mənafelərinin ədalətli razılaşdırılmasını nəzərə almayan qaydalar mövcud idi. Bundan başqa, sistematik səhvlər, bir-birinə uyğun gəlməyən ikili nizamasalmalar və ya sadəcə olaraq, redaktə səhvləri qanunun tətbiqini çətinləşdirirdi.

2004-cü ilin əvvəlində Milli Məclisin Aparatının rəhbəri cənab Səfa Mirzəyevin rəhbərliyi altında işçi qrup Mülki Məcəllənin təkmilləşdirilməsi işinə başladı və qanuna dəyişikliklərlə bağlı böyük həcmli layihə hazırlandı. Bu işlə bağlı Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətindən də rəy və məsləhətlər alındı. 2005-ci il iyunun sonunda Milli Məclis dəyişikliklərlə bağlı qanun qəbul etdi. Bütün bu dəyişikliklər 2005-ci il noyabrın 1-dən qüvvəyə minib.

Əlavə və dəyişikliklər şəxslər hüququnu (2-ci bölmə) əhatə etməyib. GTZ bununla bağlı xüsusilə MM-in 4-cü fəslinin müddəalarının yenidən işlənməsində və onların bazar iqtisadiyyatının tələblərinə daha da yaxınlaşdırılmasında dəstəyini

göstərməyə hazır olduğunu bildirib. Bununla bağlı yeni qanun layihəsi artıq hazırdır və Bakıda müzakirəyə verilməlidir.

Yeni qəbul edilmiş dəyişikliklərlə bağlı qanun bütövlükdə Mülki Məcəlləyə edilmiş 317 dəyişiklikdən ibarətdir. Qanunverici dəyişikliklərin belə çox olmasını nəzərə alaraq önəmli dəyişikliklərdən əlavə sırf «kosmetik» xarakterli dəyişikliklərdən bilərəkdən imtina edib. Əslində qanunda mülki dövriyyədə iştirak edən şəxslərin hüquq və vəzifələrinin tənzimlənməsi ilə məhdudlaşmaq əvəzinə, Məcəllədə keçmiş sovet hüququ ənənəsinə uyğun olaraq bəzi hüquq institutları, dərsliklərdə olduğu kimi, geniş və qismən təkrarlanan şəkildə əksini tapıb. Bununla belə, qanunun arzuolunan şəkildə qısaldılması dəyişikliklər barədə qanunun çərçivəsindən kənara çıxar və Mülki Məcəllənin tamamilə yenidən tərtib edilməsi zərurətini ortaya qoyardı. İşçi qrupun fikrincə, hazırda Məcəllənin tamamilə yenidən işlənməsi vacib deyil. Çünki qanunun indiki şəkildə təkmilləşdirilməsi bir tərəfdən təcili xarakter daşıyır, başqa tərəfdən isə hüquqi sabitlik baxımından qanunun tamamilə yenidən işlənməsinə ehtiyac duyulmur.

II. Dəyişikliklər irihəcmli olduğundan mülki işlər üzrə hakimlər onlarla tez bir zamanda tanış olmalıdır. Onlar görəcəklər ki, Mülki Məcəllə təkmilləşmədən sonra daha aydın olmuş və nəticədə qanunun tətbiqi asanlaşmışdır. Yeni qanunla ilk dəfə işləyərkən tez bir zamanda istiqamətlənmək və eyni zamanda qanunu daha yaxşı başa düşmək üçün müəllif Mülki Məcəlləyə edilmiş və məhkəmə təcrübəsi üçün çox önəmli olan dəyişikliklər barədə aşağıda ümumi şəkildə məlumat vermək istəyir.

1. Mülki Məcəllənin islahatında qarşıda duran vacib məqsədlərdən biri **əqdlərin formaları** ilə bağlı nəzərdə tutulan geniş müddəaların yenidən işlənməsi olub. Çünki bu müddəalar müasir dinamik bazar iqtisadiyyatı şəraitində əmtəələrin və xid-

mətlərin dövriyyəsinə bürokratik əngəllər yaradır. Misal üçün, Məcəllənin 13-cü fəslində forma ilə bağlı anlaşılmaz və qismən bir-birinə zidd ümumi müddəalar yenidən işlənmiş və əsaslı şəkildə qısaldılmışdır. Bunun üçün əsas norma qismində qanunun yeni redaksiyasının 329.1-ci maddəsi çıxış edir. Həmin maddəyə uyğun olaraq, qanunla başqa hal müəyyən edilməyibsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə əməl etməməklə bağlanmış əqdlər etibarsızdır. 330, 334.3 və 335-ci maddələr çıxarılıb. 332 və 333-cü maddələrin də çıxarılması xüsusilə təqdirəlayiqdir. Hüquqi şəxslərin öz aralarında, yaxud fiziki şəxslərlə bağladıqları əqdlərin nə üçün yazılı formada bağlanmalı olması və bu müddəanın pozulmasının nə üçün sübutlarla bağlı problem yaratmasını başa düşmək olmur. Deyilənlər şərti maliyyə vahidi miqdarından azı 50 dəfə çox olan əqdlərə də aiddir. Belə hallarda tərəflərin tələsik şəkildə üzərlərinə götürdükləri öhdəliklərdən qorunmasına ehtiyac yoxdur. Sübutların təqdim edilməsi baxımından şifahi deyilənlərin yazılı şəkildə rəsmiləşdirilməsinin məqsədəuyğun olub-olmamasını isə tərəflər hər bir konkret halda özləri müəyyən edə bilərlər.

Yuxarıda göstərilənlərdən başqa, yazılı forma ilə bağlı tələbləri müəyyən edən aşağıdakı müddəalar da çıxarılmışdır: vəkalətin yazılı formada verilməsini müəyyən edən 362.1, 364.3-cü maddələr; ilkin müqavilə ilə bağlı 402.2-ci maddə; göndərmə müqaviləsi ilə bağlı 627.2-ci maddə; komissiya müqaviləsi ilə bağlı 808.2-ci maddə. Ona görə də gələcəkdə bu əqdlər artıq şifahi formada bağlana bilər.

2. Ümumi **əşya hüququnda** aşağıdakı dəyişikliklərə diqqət yetirilməlidir: gələcəkdə daşınar əşyalar üzərində mülkiyyət hüququnun vicdanlı əldə edilməsi üçün mərkəzi (əsas) norma 182-ci maddə olacaq. Daşınmaz əşyalara isə yeni – 140-cı[48]

[48] Bax: aşağıda 4-cü bənd.

maddə şamil olunacaq. 157.3-cü maddə 182-ci maddəyə uyğun gəlməyən təkrar tənzimləməyə görə çıxarılmışdır. Mülkiyyətin vicdanlı əldə edilməsi ilə bağlı 182 və 140-cı maddələrdə nəzərdə tutulmuş müddəaların girov hüququna, yaxud mülkiyyətçi olmayan şəxsdən ipotekanın alınmasına da aid olmasını əlavələr edilmiş 271.1-ci maddə indi daha aşkar göstərir.

Əmlaka mülkiyyət hüququnun başqa şəxsə keçməsinin həmin əmlaka olan başqa əmlak hüquqlarının (məsələn, ipoteka, yaxud girov hüququ) xətminə səbəb olmasını tənzimləyən köhnə 158.3-cü maddə mütləq hüquq kimi əmlak hüququnun mahiyyətini pozurdu; əmlak hüququ haqlı olan tərəfə bu hüquqdan irəli gələn səlahiyyətlər baxımından istənilən şəxs, eləcə də yeni mülkiyyətçidən qorunmaq imkanı verir. Bununla yanaşı, 158.3-cü maddə 274 və 289.1-ci maddələrə zidd idi. 158.3-cü maddənin yeni redaksiyasına görə, məhdud əmlak hüququna müstəsna olaraq o halda xitam verilir ki, yeni mülkiyyətçi belə bir hüququn olduğunu bilməsin və ya bilə bilməsin.

Mülkiyyətçi və əşyanın qanunsuz sahibi arasındakı hüquq münasibətləri üçün praktik önəmli müddəalar 157.5-157.7-ci maddələrdə ümumiləşdirilmiş formada əksini tapıb, 167 və 168-ci maddələr isə çıxarılıb. Yeni redaksiyada 157.5-ci maddədə əlavə olaraq nəzərdə tutulub ki, vicdansız sahib götürülmüş gəlirlərin geri qaytarılması və ya onların əvəzinin ödənilməsindən başqa, mülkiyyətçiyə qanunsuz sahiblik nəticəsində dəymiş zərərin də əvəzini ödəməyə borcludur. Bu, o deməkdir ki, (yalnız) vicdansız sahib dəymiş zərərin əvəzini ödəməlidir (o, əşyanı mülkiyyətçiyə qaytara bilmirsə, yaxud yalnız zərər dəymiş vəziyyətdə qaytara bilərsə). Bunun əksinə olaraq, vicdanlı qanunsuz sahib isə nə dəymiş zərərin əvəzini ödəməli, nə götürülmüş gəlirləri geri qaytar-

malı, nə də onların əvəzini ödəməlidir. Bu qaydanın mahiyyəti vicdanlı sahibin üstün tutulmasıdır, çünki o, özünün sahiblik hüququna arxalana bilərdi.

Hər hansı torpaq sahəsinə sahibliyi həyata keçirən şəxs müəyyən şərtlər daxilində sadəcə olaraq müddətin keçməsi amilinə görə torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə edə bildiyi üçün (müqayisə et: 178.5 və 178.6-cı maddələr) qanun düzgün olaraq müəyyən vaxt ərzində sahibliyi həyata keçirmə vasitəsilə daşınar əşyalar üzərində də mülkiyyət hüququnun əldə edilməsinə icazə verir. 181.4-cü maddəyə edilmiş əlavəyə görə, şəxs fasiləsiz olaraq 5 il daşınar əşyaya öz mülkiyyəti kimi sahiblik edibsə və sahibliyin əldə edilməsi zamanı mülkiyyət hüququnu əldə etməməsini bilmədiyi və ya bilməli olmadığı halda o, həmin əşyaya mülkiyyət hüququ əldə edir.

Daha sonra, 191-1-ci maddəyə əsasən, 188, 190, yaxud 191-ci maddələrə uyğun olaraq emal, birləşmə və ya çevrilmə nəticəsində qanuna görə mülkiyyət hüququnu itirmiş şəxs gələcəkdə hüququnun itirilməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini tələb edə bilər[49].

3. **Tələbin güzəşti** və **borcun keçməsi** ilə bağlı müddəalar bu vaxta qədər məcəllənin 193-202 və 513-526-cı maddələrində iki dəfə, lakin fərqli qaydada tənzimlənirdi. Mülki Məcəllənin yeni redaksiyasında tələbin güzəşti ilə bağlı müddəalar ancaq (qanunvericilik texnikası baxımından bu, daha yaxşıdır) əşya hüququnda (193-199, 202-ci maddələr), borcun keçməsi ilə bağlı müddəalar isə Öhdəlik Hüququnun Ümumi hissəsində (522-526-cı maddələr) əksini tapıb. Məz-

[49] Yeni mülkiyyətçi əşyanı müqavilə əsasında əvəzli qaydada üçüncü şəxsdən əldə etmişsə, onda bu qayda şamil olunmur (191-1-2-ci maddə). Əks halda, misal üçün, sifarişçi podratçının tikinti işləri üçün istifadə etdiyi və mülkiyyətçisi üçüncü şəxs olan tikinti materiallarının qiymətini iki dəfə ödəməli olardı.

munca burada böyük dəyişiklik yoxdur. Əvvəllər iki dəfə tənzimlənən qaydalar indi birləşdirilib. Bu isə, öz növbəsində, hüquq tətbiqini önəmli dərəcədə asanlaşdırır.

4. **Torpaq hüququ,** xüsusilə maddi reyestr hüququ təkmilləşdirilib. Öncə qanunvericinin bu məsələ ilə bağlı Roma hüququna məxsus prinsipdən çıxış etməsi təqdirəlayiqdir. Bu prinsipə uyğun olaraq, torpaq hüququna mülkiyyət hüququ onun tərkib hissəsi olan bitişik binaya da şamil olunur. Bunun nəticəsi kimi sözügedən prinsip 227.1-ci maddəyə edilmiş əlavə vasitəsilə düzgün olaraq yaşayış binasına da şamil edilir. Daha sonra isə mülkiyyət hüququnun bu qaydada müəyyənləşdirilməsinin tərəflərin istəyindən asılı olmaması aydın şəkildə bildirilir[50]. Bununla belə, özbaşına tikinti (bax: 180-ci maddə) 135.10-cu maddədə torpaq və binanın hüquqi vahidliyi prinsipindən kənarda qalır. Qanunvericilik texnikası baxımından özbaşına tikintinin nəticələrini mülkiyyət hüququ ilə bağlı xüsusi qayda ilə deyil, publik tikinti hüququnun vasitələri ilə (məsələn, sökmə barədə sərəncam) tənzimləmək daha yaxşı olardı.

Torpaq alqı-satqısı üçün onun daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasının əhəmiyyəti artırılıb. Daşınmaz əmlakın dövlət reyestri haqqında qanuna uyğun olaraq qeydəalma prosesinin ciddi şərtlərinə əsasən və daşınmaz əmlakla bağlı hüquqların yaranması şərti kimi qeydiyyata almaya maddi-hüquqi zərurət olduğuna görə, əminliklə demək olar ki, adətən reyestr daşınmaz əmlakın əmlak-hüquqi vəziyyətini düzgün əks etdirir. Hazırda yeni redaksiyada 140-cı maddə bu məsələyə toxunur və belə bir ehtimala əsaslanır ki, reyestrin məzmunu həqiqi və tamdır (onun düzgün olmaması sübut edilməyibsə). Bu ehtimal sübutetmə vəzifəsinin başqasına keçməsi ilə nəticələnir. Daşınmaz əmlakı hüquqauyğun surətdə reyestrdə qeydiyyata aldırmış şəxs həmin əmlak üzə-

[50] Bax: 240.2 və 245-ci maddələrdəki dəyişikliklər.

rindəki hüququnu sübut etməyə borclu deyil. Əksinə, qeydiyyata almanı düzgün hesab etməyən tərəf onun düzgün olmadığını sübut etməlidir. Məsələ ilə bağlı şübhə qalarsa, bu, onun ziyanınadır.

Qanunun 140-cı maddəsinin yeni redaksiyası reyestrin həqiqiliyinə etimad edən hüquq münasibətlərinin iştirakçılarını da qoruyur. Bu iştirakçılar reyestrdə qeydiyyata alınmış hüquqları vicdanlı şəkildə əldə edə bilərlər (hətta bu hüquqlar həqiqi, yaxud qeydiyyata alınmış şəkildə olmasa belə). Hüququ əldə edən şəxs qeydiyyata almanın düzgün olmadığını bildiyi halda vicdanlı əldəetmədən söhbət gedə blməz. Bir çox cəhətdən uğursuz olan və hazırda çıxarılmış 149.1-ci maddədən fərqli olaraq, sadəcə ehtiyatsızlıq üzündən bilməmək artıq yetərli deyil. Bundan başqa, daşınmaz əmlakın dövlət reyestrinin düzgünlüyünə etiraz edilməsi vicdanlı əldəetməni istisna edir. 141-ci maddənin yeni redaksiyasına uyğun olaraq ya daşınmaz əmlakı hüquqauyğun surətdə reyestrdə qeydiyyata aldırmış şəxsin razılığı əsasında, ya da (yəqin ki, təcrübədə buna daha tez-tez rast gəlinəcək) məhkəmənin qətnaməsinə əsasən qeydiyyata alınan etiraz institutu Mülki Məcəlləyə daxil edilmiş yeni hüquq institutudur. Bu, reyestrin düzgün olmadığı bəlli olduqda vəziyyətin tam aydınlaşdırılmasına və əmlak reyestrində uyğun formal düzəlişlərin aparılmasına qədər vicdanlı üçüncü şəxsin səhv qeydiyyata aldırdığı hüquqi əldəetmənin qarşısını almaq məqsədi ilə əsl mülkiyyətçi üçün önəmli vasitədir.

Hər hansı daşınmaz əmlakla bağlı əmlak-hüquq münasibətləri barədə dəqiq məlumat verməli olan əmlak reyestrinin önəminin artırılması ilə 178.1-ci maddəyə yeni 2-ci cümlə əlavə edilmişdir. Bu cümləyə görə, daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət reyestrində qeydiyyata alınmadan başqa şəxsə keçməsi mümkündürsə, onda şəxs bu barədə dövlət reyestrinə məlumat verməlidir. Belə vəziyyət xüsusilə və-

rəsəlik qaydasında (1133-cü maddə), yaxud ərlə arvadın ümumi mülkiyyəti əsasında (225.1-ci maddə) mülkiyyət hüququ əldəetmə hallarında yarana bilər. Adətən belə hallarda yeni mülkiyyətçi hər hansı üçüncü şəxsin vicdanlı əldəetməsinin qarşısını almaq üçün tez bir zamanda qeydiyyata almanın həyata keçirilməsində maraqlı olacaq.

Ər-arvaddan birinin daşınmaz əmlak əldə etməsi üçün təcrübədə mühüm rol oynayacaq müddəa 225.6-cı maddədir. Ər-arvadın nikah dövründə qazandıqları əmlakın 225.1-ci maddəyə uyğun olaraq onların birgə mülkiyyəti hesab olunmasına baxmayaraq, dövlət reyestrində onlardan birinin, adətən, ərin adı qeydiyyata alınacaq (o, alqı-satqını təkbaşına həyata keçiribsə). Sonradan o (ər), əmlakı vicdanlı əldə edənə satarsa, onda 140-cı maddənin yeni redaksiyasında nəzərdə tutulduğu kimi, daşınmaz əmlakın dövlət reyestrinə ictimai etimad olduğuna və vicdansız əldəetmə qeydiyyata almanı bilməmə halı ilə məhdudlaşdığına (141-ci maddənin yeni redaksiyası) görə arvad müdafiəsiz vəziyyətdə qalar və birgə mülkiyyətdəki payını itirərdi. Ona görə də qanunverici belə hallarda 225.6-cı maddə vasitəsilə vicdanlı əldəetməni istisna edir. Çünki son nəticədə ər-arvaddan birinin razılığı olmadan reyestrdə qeydiyyata alınmış hüquq barədə bağlanmış müqavilə etibarsızdır. Bununla da əldə edən vicdanlı olduğu halda belə, yuxarıda göstərilən hallarda mülkiyyət hüququ əldə edə bilməz. Yeni – 225.6-cı maddəyə uyğun olaraq belə hallarda o, vicdansız özgəninkiləşdirəndən yalnız vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Lakin bu məhdudiyyət yalnız dövlət reyestrində qeydə alınmalı olan hüququn əldə edilməsinə aiddir. Daşınar əşyalara münasibətdə isə bu vaxta qədər mövcud olmuş qayda qüvvədə qalır. Çünki daşınar əşyaların, adətən, az dəyəri və lazımi dövriyyə keyfiyyəti olduğuna görə ər və ya arvadın birgə mülkiyyət hüququ əsasında paylarının geniş şəkildə qorunmasına böyük ehtiyac duyulmur.

Daşınmaz əşyaların dövriyyəsi, öncə kredit təsərrüfatı üçün önəmli olan əmlak reyestrinin düzgün olmasına etimad prinsipi reyestrin aparılmasına ciddi diqqət göstərilməsini nəzərdə tutur. Ona görə də qeydiyyata alınma ilə bağlı təqdim edilmiş ərizələri öz qərarlarını müstəqil və qanuna ciddi əməl etməklə qəbul edən, hüquq təhsili almış mütəxəssislərin yoxlaması zəruridir. Sadalanan şərtlərin, reyestrdə qeydiyyata almanın hüququn yaranması üçün eyni zamanda konstitutiv təsiri olmasının əksər Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da tezliklə təmin ediləcəyinə isə yalnız ümid etmək qalır.

5. **İpoteka hüququ** ilə bağlı 319-cu maddədə öhdəliyi yerinə yetirmə ilə bağlı natamam qaydalar konkretləşdirilmiş və əsaslı surətdə genişləndirilmişdir. 317.2-ci maddənin yeni redaksiyası hərracla bağlı birbaşa 414-416-cı maddələrin tətbiq olunmasına istinad edir. Qanuna uyğun olaraq ipotekanın tələblə[51] bağlı olması əsasında yeni əlavə edilmiş 323-1-ci maddədə müəyyən edilir ki, ipoteka üzrə borclu (mülkiyyətçi) təmin edilmiş tələbə münasibətdə tələbə qarşı şəxsi borclunun etirazlarını irəli sürə bilər. Bu, xüsusilə ipoteka üzrə borclu və şəxsi borclu müxtəlif şəxslər olduqda önəmlidir, lakin təbii ki, onlar eyni şəxs olduqda da tətbiq olunur. Məsələn, kreditorun müqavilə üzrə şərtləşdirilmiş öhdəliyin icrasını həyata keçirməməsinə[52] görə tələb üzrə borclunun icranı dayandırmaq hüququ varsa, yaxud o, tələbi hər hansı başqa bir şeylə kompensasiya edə və ya tələbin əsaslandığı müqaviləni mübahisələndirə bilərsə, onda mülkiyyətçi şəxsi borcluya aid olan etirazı ipotekaya qarşı da irəli sürə bilər. Bununla da nəticədə ipotekanın həyata keçirilə bilməsi daim təmin edilmiş tələbin nə dərəcədə həyata keçirilə bilməsindən asılıdır.

---

[51] Bax: 313-cü maddə (ipotekanın və onun əsasında duran tələbin qanunla bir-birinə bağlılığı).

[52] Bax: 441.2-ci maddə.

6. Mülki Məcəllənin əqdlərin etibarsızlığı ilə bağlı 14-cü fəsli təkmilləşdirilmiş və onun strukturu asan anlaşılan formada qurulmuşdur. Yeniləşmiş 337-ci maddə artıq əsas norma qismində çıxış edir. Həmin normaya görə, etibarsız əqdlər mübahisələndirilən və əhəmiyyətsiz əqdlərə bölünməlidir (bax: 337.1-ci maddənin yeni redaksiyada əlavə edilmiş 2-ci cümləsi). Əqdin mübahisələndirilən, yaxud əhəmiyyətsiz əqd olması 339-cu maddədə nəzərdə tutulmuş müddəalardan irəli gəlir[53]. Əqdin mübahisələndirilməsi onu bağlandığı andan etibarsız edir. Yeni redaksiyada verilmiş 337.2-ci maddəyə çox önəmli dəyişiklik edilmişdir: gələcəkdə əqdin mübahisələndirilməsi birbaşa müqavilə tərəfdaşının özünə bildirilməlidir. Mübahisələndirmənin əsaslı olması və əqdin etibarsızlığı barədə qərar artıq maraqlı şəxsin iddiası əsasında ayrıca, yalnız belə tələbin əsaslı olmasını müəyyənləşdirməyə yönələn icraat çərçivəsində məhkəmədə qəbul edilməyəcək. Bu, o deməkdir ki, məhkəmə gələcəkdə hər hansı mübahisələndirmənin hüquqayğunluğu barədə yalnız mübahisə qaydasında işə baxılarkən ilkin məsələ kimi qərar qəbul etməlidir: məsələn, (mübahisələndirilən) müqavilənin icra edilməsi, əqd üzrə alınanların geri qaytarılması (337.5-ci maddə), yaxud yanılma nəticəsində vurulmuş zərərin ödənilməsi (347.7-ci maddə) ilə bağlı qaldırılan iddia çərçivəsində qərar verilə bilər. Buna uyğun olaraq 339, 347 və 350-ci maddələrin mətnləri dəyişdirilib. Müqavilənin əhəmiyyətsizliyi ilə bağlı etiraz edilməsi və ya mübahisələndirmə üçün dəyişdirilmiş müddətlər 354-cü maddədə əksini tapıb.

7. **Yetkinlik yaşına çatmayanlarla** bağlı müddəalarda da dəyişikliklər edilmişdir. Burada öncə 14 yaşından 18 yaşına-

---

[53] Lakin bu müddəalar tam deyil. Etibarsızlıq üçün əsaslar Mülki Məcəllənin başqa normalarından da irəli gələ bilər. Formanın pozulması ilə bağlı belə bir norma, misal üçün, yuxarıda adı çəkilmiş yeni 329.1-ci maddədir. Qanunda bu qayda olduğuna görə 348-ci maddə çıxarılıb.

dək olan yetkinlik yaşına çatmayanın bağladığı əqdin yaratdığı hüquqi nəticələr göstərilməlidir. Valideynlər və ya başqa qanuni nümayəndələrin əqd bağlanmasına qabaqcadan razılıq verməsi, yaxud onun sonradan bəyənilməsinin artıq yazılı formada (30.1-ci maddə) həyata keçirilməsinə ehtiyac yoxdur. 345.1-ci maddədə göstərilir ki, hüquqi sabitlik maraqları naminə valideynlərinin zəruri razılığı olmadan yetkinlik yaşına çatmayanın bağladığı əqd gələcəkdə qanun əsasında etibarsız olacaq. Bunun üçün məhkəmənin qərarına ehtiyac yoxdur.

7 yaşından 14 yaşınadək olan yetkinlik yaşına çatmayanın bağladığı əqdlərə isə aşağıdakı qaydalar şamil olunur: əgər söhbət 29.2-ci maddədə sadalanan hər hansı əqddən getmirsə, onda onların bağladığı əqd etibarsızdır. Bununla belə, valideynlər 29.1-ci maddədə göstərildiyi kimi, sonradan bəyənmə yolu ilə əqdi etibarlı edə bilərlər. İndi düzgün olaraq bir abzasdan ibarət olan 344-cü maddə bu qayda ilə məzmun baxımından uyğunlaşdırılmışdır.

8. **Təmsilçilik hüququ** ilə bağlı 360.1-ci maddədə başqa şəxsin adından fəaliyyət göstərmək səlahiyyəti olmayan nümayəndənin bağladığı müqavilənin hüquqi nəticələri dəyişdirilmişdir. Bu vaxta qədər qüvvədə olan qaydaya görə, əqd onu bağlamış şəxs tərəfindən və onun mənafeyi üçün bağlanmış sayılırdı. Bu halda sanki təmsil edilən şəxsə elə bir müqavilə tərəfdaşı sırınır ki, təmsil edilən şəxs onunla normal halda heç bir əlaqə qurmazdı, yaxud onunla müqaviləni yalnız daha əlverişli şərtlərlə bağlayardı. Buna görə də yeni redaksiyada verilmiş 360.1-ci maddədə müəyyən edilir ki, fəaliyyət göstərmək səlahiyyəti olmayan nümayəndə müqavilə tərəfdaşı qarşısında onun seçiminə əsasən ya müqaviləni icra etməyə, ya da vurulmuş zərərin əvəzini ödəməyə borcludur. Daha sonra, yuxarıda qeyd edildiyi kimi, etibarnamə və etibar edilmişi etibaretmənin yazılı formada tərtib

olunmasına (362.1-ci maddə) və ya notariat qaydasında təsdiqlənməsinə (364.3-cü maddə)[54] ehtiyac yoxdur. Etibarnamə gələcəkdə artıq müddətsiz qüvvədə olacaq (363.1-ci maddənin yeni redaksiyası).

9. **İddia müddətləri barədə müddəalarla** bağlı yalnız onu demək olar ki, müqavilə tərəfləri gələcəkdə qanunda nəzərdə tutulanlardan fərqlənən iddia müddətləri müəyyən edə biləcəklər (374.1-ci maddə).

10. **Ümumi müqavilə** ilə bağlı (20-ci fəsil) 400-cü maddədə nəzərdə tutulmuş kommersiya təşkilatları üçün müqavilənin qarşı tərəfə məcburi şəkildə qəbul etdirilməsi prinsipi çıxarılıb, çünki bu, müqavilə azadlığı prinsipinə ziddir. Bunun nəticəsi olaraq 614.2-ci maddə də çıxarılıb. Gələcəkdə bazarda hökmran mövqe tutan müəssisələr mühüm bir əsas olmadan müqavilənin bağlanmasından imtina edə bilməyəcəklər. Bu, xidmətlər barədə istehlakçılarla bağlanan müqavilələrə də aiddir ki, onlar da bundan çox asılıdırlar (yeni redaksiyada 400.2-ci maddə). Buna misal olaraq su və enerji təchizatını, dərman preparatları ilə təminetməni və ya sərnişin daşınmasını göstərmək olar.

Müqavilənin standart şərtləri ilə bağlı 419.2-ci maddəyə mühüm bir prinsip əlavə edilmişdir. Həmin prinsipə uyğun olaraq, şərtlərin təfsiri zamanı yaranan bütün qeyri-müəyyənliklər onları təklif etmiş tərəfin ziyanına təfsir edilir. Təklif edən müqavilənin şərtlərini birtərəfli qaydada hazırlayır və buna görə də onun şərtləri aydın və dəqiq ifadə etməsi öz əlindədir.

Ümumi öhdəlik hüququ ilə bağlı növbəti dəyişikliklərə misal olaraq 455-ci maddənin çıxarılması, eləcə də yeni 509.3-

---

[54] Bununla belə, 362.2-ci maddə qüvvədə qalır. Həmin maddəyə uyğun olaraq, notarial forma tələb edən əqdlərin bağlanması üçün verilmiş etibarnamə notariat qaydasında təsdiqlənməlidir. Bu, xüsusilə daşınmaz əmlakın alqı-satqısı zamanı önəmlidir (müqayisə üçün bax: 394-cü maddə).

cü maddənin daxil edilməsini göstərmək olar. 455-ci maddənin çıxarılması ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsinə görə bütün başqa hüquq subyektləri kimi yalnız təqsiri[55] olduqda məsuliyyət daşıyacaq. Onun üçün fərqli qaydaların müəyyən edilməsinə əsas yoxdur. Yeni əlavə edilmiş 509.3-cü maddə ilə isə kreditor qarşısında birgə öhdəliyi icra etmiş borclunun hüquqi vəziyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmışdır. Çünki artıq 509.1-ci maddədə başqa borclulara qarşı nəzərdə tutulmuş tələb hüququ ilə yanaşı, kreditorun ilkin tələbi də ona keçir. Tələbin bu qaydada keçməsini müəyyən etməkdə qanunun əsas məqsədi odur ki, kreditorun tələbi ilə bağlı olan təminedici hüquqlar (məsələn, ipoteka, girov hüquqları) 202-ci maddə ilə bir yerdə yeni redaksiyada verilmiş 196-cı maddə vasitəsilə birgə öhdəliyi icra etmiş borcluda qalsın.

11. Qanunverici **müqavilələrdən əmələ gələn öhdəliklərdən** bəhs edən 7-ci bölmədə çoxlu dəyişiklik etmişdir.

Bu dəyişikliklər öncə 29-cu fəslin 1-ci paraqrafında istənilən müqavilə növünə aid olan **alqı-satqı müqaviləsi** barəsindəki müddəalara aiddir. İndi orada aydın şəkildə göstərilir ki, əşyanın qüsurlarına görə satıcının təminatla bağlı məsuliyyəti onun təqsirinin olub-olmamasından asılı deyil (587.1-ci maddə). Satıcı əşyanın qüsursuz olması barədə qarantiya verməyibsə, təminat müddəti 2 ildir. Bu müddət əşyanın verilməsi anından başlayır və artıq qüsurun aşkar olunması anından asılı deyil (589.2-ci maddənin yeni redaksiyası).

Yeni 587.5-ci maddənin daxil edilməsi ilə ilk dəfə olaraq alqı-satqı müqaviləsinin bütün növləri üçün eyni qaydada alıcının müqavilədən imtina etdiyi, yaxud əşya qüsurlu olarkən onun başqası ilə əvəz edildiyi halda alıcının əşyanı geri qay-

[55] Bununla belə, təqsirin mövcudluğu ehtimala əsaslanır, yəni borclu, prinsipcə, öhdəliyin pozulmasında təqsiri olmadığını sübut etməlidir, bax: 443.1 və 448-ci maddələr.

tarmaq öhdəliyi qanunla tənzimlənir. Yeni 587.5-ci maddənin 2-ci cümləsində nəzərdə tutulmuş istinada əsasən müqavilə üzrə tərəflərin aldıqlarının geri qaytarılmasına mülkiyyətçi və qanunsuz sahib arasında hüquq münasibətlərinə dair 157.5-157.7-ci maddələrdə nəzərdə tutulmuş qaydalar tətbiq edilir. Bu isə praktik cəhətdən onu bildirir ki, alıcı əşyanın zədələnməsinə və götürülmüş gəlirlərin əvəzinin ödənilməsinə görə yalnız əşyanın qüsurlu olduğunu bildiyi və ya bilməli olduğu halda məsuliyyət daşıyır (157.5-ci maddə). Eyni zamanda alıcı da əşyaya sərf etdiyi zəruri xərclərin əvəzinin ödənilməsini tələb edə bilər (157.6-cı maddə). Əşyanı yaxşılaşdırmaq üçün çəkilən xərclərin əvəzi isə alıcı yalnız vicdanlı olduğu halda tələb edilə bilər (157.7-ci maddə).

Alqı-satqı müqaviləsində mülkiyyət hüququnun keçməsi ilə bağlı yeni qaydalar da praktik baxımdan çox önəmlidir. Bu vaxta qədər məsələ ilə bağlı qanunda ziddiyyətlər var idi. 603.1-ci maddəyə əsasən alıcı, prinsipcə, əşyanın pulunu ödədiyi andan onun mülkiyyətçisi olurdu. Qanunda nəzərdə tutulmuş bu qaydanın ümumi xarakter daşıdığını nəzərə alsaq, 603.2-ci maddədə mülkiyyət hüququ ilə bağlı qeyd-şərtin nəzərdə tutulmasına ehtiyac duyulmurdu. Lakin artıq 603-cü maddə çıxarılıb. Ona görə də mülkiyyət hüququnun keçməsi artıq əşyanın qiymətinin ödənilməsi ilə bağlı deyil. 567-ci maddədə nəzərdə tutulmuş satıcının əşyanı alıcının mülkiyyətinə vermək öhdəliyinə uyğun olaraq, mülkiyyət hüququ artıq əşyanın alıcıya verilməsi ilə ona keçir[56]. Bu qaydadan istisnalar müəyyən etmək və mülkiyyət hüququnun keçməsi ilə bağlı qeyd-şərt (yəni əşyanın qiyməti tam ödənilənədək satıcının əşya üzərində mülkiyyət hüququnu saxlaması) barədə razılığa gəlmək isə tərəflərin ixtiyarına buraxılır. Tərəflər bu imkandan tez-tez istifadə edəcəklər. Çünki təcrübədə elə hallar olur ki, alı-

[56] Eyni qayda Rusiya Federasiyası MM-in 223-cü maddəsində də nəzərdə tutulub.

cı əşyadan dərhal istifadə etmək istəyir, lakin qiyməti tam ödəmək imkanı olmur. Buna görə də satıcı belə hallarda qeyd-şərtlə əmlakın özündə qalmasını təmin edir. Mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərtin hüquqi nəticələri isə hazırda genişləndirilmiş 606-cı maddədə nəzərdə tutulmuşdur.

Artıq yazılı formada bağlanmasına ehtiyac olmayan göndərmə müqaviləsinə (627-ci maddə) əsasən alıcı göndərilmiş malı, 634-cü maddəyə uyğun olaraq, dərhal gözdən keçirməli və lazım olduqda, aşkar edilmiş uyğunsuzluq və nöqsanlar barədə bildiriş verməlidir. Bununla belə, bu vaxta qədər qanunda sanksiya nəzərdə tutulmamışdı. Bu boşluq yeni redaksiyada verilmiş 634.2-ci maddə vasitəsilə doldurulur. Bu maddəyə uyğun olaraq, malların qüsurlarını gözdən keçirməklə müəyyən etmək mümkün olmayan hallar istisna olmaqla, alıcı bildiriş vermədikdə mal qəbul olunmuş hesab edilir.

Bağışlama müqaviləsində həddindən artıq anlaşılmaz olan 668.2-ci maddə çıxarılıb. Buna baxmayaraq, gələcəkdə daşınar əşyanı bağışlama vədi notarial qaydada təsdiqlənmədikdə də belə bağışlama əşyanın hədiyyə alana verilməsi ilə (668.1.3-cü maddə) etibarlı olur.

Podrat müqaviləsi ilə bağlı da qanunda dəyişikliklər edilmişdir. 757 və 758-ci maddələrdə müəyyən edilir ki, podratçının tələblərinin təminatı üçün qanunla nəzərdə tutulmuş girov hüququ sifarişçinin mülkiyyətində olan əşyalarla bağlı yaranır. Bununla da mülkiyyətçi olmayan şəxsdən girov hüququnun vicdanlı əldə edilməsi prinsipcə istisna edilmişdir. Daha sonra, müqaviləyə xitam verilməsi barədə müddəalar da uyğunlaşdırılıb. 759-cu maddə ilə yarana biləcək ziddiyyəti aradan qaldırmaq üçün dəyişikliklər edilmiş 756.1-ci maddədə müəyyən olunur ki, başa çatdırılmış işin qəbulundan əsassız imtina edən sifarişçi işin tam haqqını ödəməlidir. Sifarişçi pod-

ratçıdan asılı olan səbəbə görə müqaviləyə vaxtından əvvəl xitam verərsə, onda sifarişçi yerinə yetirilmiş işlərin haqqını yalnız o halda ödəyir ki, bu işlərə onun hansısa marağı olsun. Müqaviləyə podratçının təşəbbüsü ilə xitam verilməsi isə indi 760-cı maddədə ətraflı surətdə tənzimlənib. Həlledici amil müqaviləyə kimin hərəkətlərindən asılı olaraq xitam verilməsidir. Podratçı müqaviləyə bilavasitə sifarişçinin hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən və ya həmin hərəkətlərlə bağlı olan səbəbə görə xitam verirsə, podratçı yerinə yetirilmiş işin haqqını və müqavilənin ləğvi ilə vurulan zərərin (məsələn, əldən çıxmış fayda) əvəzinin ödənilməsini tələb edə bilər (760.2-ci maddə). Başqa hallarda isə podratçı müqaviləyə yalnız o halda xitam verə bilər ki, sifarişçi işləri başqa şəkildə və bərabər və ya daha əlverişli şərtlərlə ala bilsin. Bu zaman podratçı yerinə yetirilmiş işin haqqının ödənilməsini tələb edə bilər, bir şərtlə ki, sifarişçinin əvvəl görülmüş işlərə hansısa marağı olsun (760.1-ci maddə). Daha sonra, əlavə edilmiş yenilik odur ki, sifarişçi, qüvvədə olan qanuna görə, muzdun azaldılması (766-cı maddə) halında olduğu kimi, məmulatın qüsuruna görə müqaviləyə xitam verməzdən və dəymiş zərərin əvəzinin ödənilməsini tələb etməzdən qabaq podratçıya əvvəlcə qüsurların aradan qaldırılması üçün müddət verməlidir (dəyişiklik edilmiş 765-ci maddə).

Qanunverici 779.1-ci maddədə nəzərdə tutulmuş əvəzsiz tapşırıq müqaviləsində vəkalət alanın məsuliyyətini düzgün olaraq qəsd və kobud ehtiyatsızlıqla məhdudlaşdırır. Bundan başqa, eyni qayda dəyişikliklər edilmiş 1089.2-ci maddəyə uyğun olaraq özgə işlərini tapşırıqsız aparmaya və 824.1-ci maddəyə əsasən əvəzsiz saxlamaya da aiddir. 786-cı maddədə tapşırıq müqaviləsinə xitam verilməsinin hüquqi nəticələri barədə müddəalar da dəyişdirilmişdir. Gələcəkdə ləğvetməyə dair bildiriş verən tərəf yalnız o halda dəymiş zərərin əvəzini ödəməlidir ki, tapşırıq əvəzli olsun və ləğvetməyə dair

bildiriş verən tərəf müqavilənin ləğvi səbəbinin qarşı tərəfin hərəkətləri nəticəsində baş verdiyini və həmin hərəkətlərlə bağlı olduğunu sübut edə bilməsin. Vəkalət alan əvəzli tapşırıq müqaviləsini pozarsa, onda o, ləğvetməyə qədər gördüyü işlərin haqqının ödənilməsini tələb edə bilər. Müqavilənin ləğvi səbəbi vəkalət verənin hərəkətləri nəticəsində yaranmayıbsa, onda yuxarıda göstərilən qayda o halda tətbiq olunur ki, vəkalət verənin görülmüş işlərə hansısa marağı olsun.

860.1-ci maddəyə uyğun olaraq daşıyıcının **yük daşınması müqaviləsinə** əsasən ona verilmiş yükə girov hüququ var. Girov hüququnun əldə edilməsi indi daha da genişləndirilib. Vicdanlı daşıyıcı gələcəkdə komissiya müqaviləsində (820.1-ci maddə) və anbarda saxlama müqaviləsində (830.3-cü maddə) olduğu kimi, başqa müqavilə tərəfinə aid olmayan əşyalara da girov hüququ əldə edə bilər. Burada vicdanlı əldəetmə üçün yetərli olan şərt odur ki, daşıyıcı göndərənin yük üzərində sərəncam vermək səlahiyyətinə münasibətdə vicdanlı olsun. Təcrübədə bu, xüsusilə o halda önəmlidir ki, daşıyıcı yükün göndərənə aid olmadığını bilsin. Belə hallarda daşıyıcı girov hüququnu həm də o zaman əldə edir ki, o, vicdanlı olaraq yük göndərənin onunla müqavilə bağlaya bilməsində hər hansı maneə görməsin. Məsələn, yük göndərən ekspeditor olduqda və ona görə də yükün mülkiyyətçisi olmadıqda, belə bir hal yarana bilər.

Borcun etirafı hazırda yalnız əlavələr edilmiş 882-ci maddədə tənzimlənir, 413-cü maddə isə eyni məsələni ikinci dəfə tənzimlədiyindən çıxarılıb.

Bank müqavilələri ilə bağlı 51-53-cü fəsillərdə də bir sıra dəyişikliklər edilmişdir. Məhkəmə təcrübəsində bu vaxta qədər oynadığı cüzi rola görə burada yalnız bank müştəriləri üçün önəmli olan müddəalar olmalıdır. Dəyişikliklər edilmiş 947.2-ci maddəyə görə, bank geri ödənməli olan əmanət məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə ən

geci 5 bank günü müddətində ödəməlidir. Bank kitabçası ilə bağlı 953-cü maddəyə 3-cü abzas əlavə edilib. Həmin müddəaya uyğun olaraq, bank bank kitabçasını qanunsuz yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma apararsa, məsuliyyətdən azad olunur, bir şərtlə ki, bu hallar barədə məlumatı olmasın. Lakin bankın kobud ehtiyatsızlıq üzündən belə məlumatı olmazsa, məsuliyyətdən azad edilmir. Hər hansı bank hesabından pulçıxarmalara görə riski, prinsipcə, bank daşıyır. Bank hesab sahibinin həqiqi iradəsini ifadə etməyən (məsələn, saxta pulköçürmə blankı əsasında) sərəncam əsasında pul vəsaitini həmin hesabdan silərsə, bunun üçün məsuliyyət daşıyır, bir şərtlə ki, belə sərəncamın hesab sahibinin təqsiri üzündən verildiyini sübut edə bilməsin. Bu hal (yəni hesab sahibinin təqsiri) o zaman yarana bilər ki, hesab sahibi boş pulköçürmə blanklarını imzalasın və bununla da onlardan üçüncü şəxslərin sui-istifadəsinə şərait yaratsın.

Bununla əlaqədar o da qeyd edilməlidir ki, **normaların analogiya üzrə tətbiqinin qadağan olunmasını** nəzərdə tutan 11.3-cü maddə də çıxarılmışdır. Beləliklə, gələcəkdə mülki hüquqları məhdudlaşdıran, yaxud məsuliyyət müəyyən edən hüquq normaları da analogiya üzrə tətbiq edilə bilər. Belə bir addımın atılması təqdirəlayiqdir, çünki bununla müasir hüquqi dövlətdə hakim hüququnun, yəni qanundakı boşluqların doldurulması vasitəsilə hüququn zəruri təkmilləşdirilməsi üçün artıq heç bir maneə yoxdur. Məhz öhdəlik hüququnun xüsusi hissəsində bu addım önəmli olacaq. Artıq müqavilə hüququna aid olan ümumi müddəalar qeyri-tipik müqavilə formalarına da tətbiq ediləcək (işin faktiki halları oxşar olarsa və qanun normasının əsas mahiyyətini bu hala da tətbiq etmək mümkündürsə). Son nəticədə isə məhkəmə təcrübəsi müqavilə praktikasındakı müasir dəyişikliklərə vaxtında və adekvat reaksiya verə biləcək.

12. Əsassız varlanma (58-ci fəsil) ilə bağlı müddəalar bu vaxta qədər əsasən məhdudlaşdırıcı idi. 1091.1-ci maddəyə uyğun olaraq, əsassız varlanma o halda mövcud olur ki, bir şəxs başqasının əmlakından nə isə «götürsün». İndi isə əsassız varlanma o halda yaranır ki, bir şəxs başqasının hesabına hüquqi əsas olmadan əmlak əldə etsin. Beləliklə, sözügedən müddəanın yeni redaksiyasına uyğun olaraq əsassız varlanma halları aşağıdakı formada genişləndirilmişdir: 1) varlanan şəxs fəal hərəkəti ilə başqa şəxsin əmlakından nə isə götürür (bu vaxta qədərki redaksiyada tənzimlənirdi); 2) varlanan şəxs başqa şəxsin düşünülmüş hərəkətləri hesabına hüquqi əsas olmadan əmlak əldə edir (yeni redaksiya). Bu, xüsusilə mövcud olmayan, əhəmiyyətsiz və ya mübahisələndirilən müqavilə əsasında görülən işlərə aiddir. Lakin kənar bir şəxsin öhdəliyinin icrası da (ödənilməsi) bu kateqoriyaya aid edilə bilər. Çünki borclu öhdəliyinin icrasından azad olmaqla, burada da ödəyən şəxsin hesabına əmlak əldə edir.

1092.1.1-ci maddəyə edilən əlavəyə uyğun olaraq, varlanan şəxsin əldə etdiklərini özündə saxlaması 157.5-ci maddənin tələblərindən asılıdır. Yəni 157.5-ci[57] maddədə olduğu kimi, sahiblik hüququna etibar edə bilən vicdanlı sahib 1092.2-ci maddəyə əsasən əldə etdiyi gəlirləri nə geri qaytarmalı, nə də onların dəyərinin əvəzini ödəməlidir. Əsassız varlanma ilə bağlı müddəalar varlanmış şəxsin hüquqi əsas olmadan əşya üçün çəkdiyi xərclər baxımından da mülkiyyətçi–sahib münasibətlərinə dair müddəalara uyğunlaşdırılmışdır. Onun çəkilmiş xərclərin əvəzinin ödənilməsi ilə bağlı tələbi yeni redaksiyada verilmiş 1094-cü maddəyə uyğun olaraq yalnız 157.6 və 157.7-ci maddələrlə müəyyən edilir. Yəni varlanmış şəxs vicdanlı olduğu halda o, həm əşya üçün

[57] Bax: yuxarıda 2.

çəkdiyi zəruri, həm də onun yaxşılaşdırılması üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsini tələb edə bilər. Vicdansız əsassız varlanmış şəxs isə bunun əksinə olaraq yalnız əşya üçün çəkdiyi zəruri xərclərin əvəzinin ödənilməsini tələb edə bilər. Daha sonra, 1092.3-cü maddədə varlanmış şəxsin daha varlı olmadığına istinad etməsi düzgün olaraq yalnız o halla məhdudlaşdırılıb ki, varlanmış şəxs varlanma zamanı bunun üçün hüquqi əsas olmadığını bilməsin.

13. **Zərərin ödənilməsi** ilə bağlı ümumi müddəalarda qanunverici 21.1-ci maddəyə əlavə etməklə aşkar şəkildə bildirir ki, bu müddəa zərərin əvəzinin ödənilməsi ilə bağlı əsas ümumi norma kimi zərərin əvəzinin ödənilməsi ilə əlaqədar tələbin şərtlərini deyil, yalnız hüquqi nəticələrini tənzimləyir. Zərərin əvəzinin ödənilməsi üçün iddia tələbinin əsası isə başqa hüquq sahələrində[58] axtarılmalıdır. Hüququ pozulmuş şəxsin əldən çıxmış faydadan əlavə hüququ pozmuş şəxsin əldə etdiyi gəlirin də əvəzinin ödənilməsini tələb edə bilməsini nəzərdə tutan əvvəlki 21.3-cü maddə zərərin əvəzinin ödənilməsi hüququ ilə ziddiyyət təşkil edirdi. Yəni bu hüquqa uyğun olaraq, zərər çəkmiş şəxs (yalnız) zərər vurulması ilə nəticələnən hadisə baş verməsəydi, mövcud olan ilkin vəziyyətə qaytarılmalıdır. Zərər vurmuş şəxsin bundan əlavə əldə etdiyi gəlirlərin də əvəzini ödəməli olması yalnız əsassız varlanmaya dair müddəalarla müəyyən edilə bilər. Buna görə də 21.3-cü maddə çıxarılmalı idi. Yeni redaksiyada verilmiş 21.3-cü maddəyə uyğun olaraq, zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbin həcminin müəyyənləşdirilməsi zamanı zərərçəkənin və ya onun işçisinin zərərin yaranmasına və artmasına hansı həcmdə şərait yaratması nəzərə alınmalıdır. Bu müddəa ümumi qayda qismində 1096-cı və ondan sonrakı maddələrə şa-

[58] Məsələn, müqavilə hüququ, delikt hüququ.

mil olunduğu üçün məzmunca uğursuz olan 1116-cı maddənin çıxarılması da mümkün olmuşdur.

22-ci maddə (dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının vurduqları zərərin əvəzinin ödənilməsi) yalnız 1100-cü maddədə eyni məsələnin ikinci dəfə tənzimlənməsi baxımından çıxarılmışdır. Yəni bu maddənin çıxarılması o demək deyil ki, gələcəkdə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, onların işçilərinin hüquqazidd hərəkətlərinə görə məsuliyyət daşımaları mümkün olmayacaq.

14. **Mülki hüquq pozuntuları** ilə bağlı bu vaxta qədər 1097.2-ci maddəyə uyğun olaraq mülki hüquq pozuntusu törətmiş şəxs zərərin onun təqsiri üzündən vurulmadığını sübuta yetirməli idi. Bununla da yaranan hər hansı şübhələr onun ziyanına idi. Sübutetmə vəzifəsinin bu cür tənzimlənməsi 1097.2-ci maddənin çıxarılması ilə aradan qaldırılmışdır. İndi mülki hüquq pozuntularına da Mülki Prosessual Məcəllənin 77.1-ci maddəsi şamil olunur; bu maddəyə uyğun olaraq, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Beləliklə, zərərçəkən 1097.1-ci maddəyə uyğun olaraq zərərin əvəzinin ödənilməsini tələb edirsə, o, zərərvuranın təqsirini də sübut etməlidir. Bu qaydadan istisnalar qanunda nəzərdə tutulub[59]. Ayrı-ayrı hallarda, yaxud müəyyən qrup işlər üçün ədalət və maraqların adekvat təmini məqsədi ilə məhkəmə sübutetmə vəzifəsini yüngülləşdirə bilər[60].

Daha sonra, 1128-ci maddədə əsas şərt dəyişdirilmişdir. 1128.1-ci maddəyə uyğun olaraq, istehsalçı (satıcı, işi görmüş

---

[59] Bax: məsələn, 1110-cu maddə (heyvan sahibinin məsuliyyəti), 1111-ci maddə (bina sahibinin məsuliyyəti) və 1112-ci maddə (həkimin məsuliyyəti).

[60] Məsələn, bu, o halda baş verə bilər ki, zərərvurmanın səbəbi müstəsna olaraq zərər vurmuş şəxsin nəzarətində olsun və buna görə də zərərçəkmişin hadisənin gedişi barədə dəqiq təsəvvürü olmasın.

və ya xidmət göstərmiş şəxs) hər hansı qüsura görə fiziki şəxsin həyatına, yaxud sağlamlığına ziyan vurduqda təqsirin olub-olmamasından asılı olmayaraq məsuliyyət daşıyır. Bundan başqa, o, malın, işin və ya xidmətin qüsurları nəticəsində əmlaka zərər vurulan hallarda da məsuliyyət daşıyır, bir şərtlə ki, keyfiyyətsiz məhsul başqa əmlaka zərər vursun və həmin əmlak təyinatına görə əsasən istehlak məqsədi üçün istifadə edilsin. Avropa Birliyinin malın, işin və ya xidmətin qüsurlarına görə məsuliyyət barədə 25.7.1985-ci il tarixli direktivinin əsas ideyasına zidd olaraq istehlakçıların qorunması əsası ilə zərərçəkənin seçimindən asılı olaraq qüsurlu mala görə satıcının (adətən, yerli satıcının) alternativ məsuliyyəti barədə müddəa dəyişdirilməmişdir. Böyük ziyan vurulan hallarda[61] yerli istehsalçıların, xüsusilə xırda sahibkarların kapitalı kifayət etməyəcəyinə görə bu məsuliyyətin onsuz da tez-tez uğursuz olacağına baxmayaraq, qanunverici yeni 1129.4-cü maddədə nəzərdə tutur ki, keyfiyyətsiz məhsul nəticəsində vurulmuş zərəri məhsulun satıcısı ödədiyi halda Məcəllənin 1114.2-ci maddəsinin müddəaları tətbiq edilir. Bu isə, bir qayda olaraq, satıcının əsas cavabdeh qismində məsuliyyət daşıması ilə nəticələnəcəkdir.

15. **Vərəsəlik hüququ** ilə bağlı da mühüm dəyişikliklər edilmişdir. Bu vaxta qədər heç bir əsas olmadan mirasın qəbulu üçün 6 ay, mirasdan imtina üçün isə 3 ay müddət müəyyən edilmişdi. İndi isə 1246-cı maddənin yeni redaksiyasına uyğun olaraq mirasın qəbulu üçün də 3 ay müddət müəyyən edilmişdir. Bu müddət vərəsənin vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən başlayır və ən geci mirasın açıldığı gündən 6 ay sonra başa çatır. Belə qısa müddət bütün iştirakçılar üçün tez bir zamanda aydın vəziyyət yaradır və miras aktivi və passivi barədə təsəvvür ya-

[61] Məsələn, qüsurlu maşınlar, dərman preparatları və s.

ratmaq, mirasın qəbulu barədə qərar qəbul etmək üçün hər bir halda vərəsəliyə çağırılmış şəxsə kifayət edəcək. Daha sonra, vərəsənin qanunla müəyyən edilmiş müddət ərzində mirası qəbul etmədiyi, yaxud ondan imtina etmədiyi hallar yeni əlavə olunmuş 1273-1-ci maddə ilə tənzimlənir.

1157-ci maddəyə uyğun olaraq, miras vərəsələr arasında bölüşdürülənədək vahid əmlak şəklində bütün vərəsələrə mənsubdur. Bu vaxta qədər həmin müddət ərzində mirasın idarə edilməsi məsələsi qaranlıq qalırdı. Yeni əlavə olunmuş 1157-1-ci maddəyə əsasən, miras şərikləri mirasın bölüşdürülməsinə qədər onu birgə idarə edirlər. İdarəçiliklə bağlı bütün qərarları vərəsələr miras paylarına mütənasib surətdə sadə səs çoxluğu ilə qəbul edirlər. Mirasın qorunması ilə bağlı hansısa tədbirə (məsələn, mirasqoyanın evinin damının təmir edilməsi) ehtiyac duyularsa, bunu hər bir vərəsə başqa miras şəriklərinin razılığı olmadan da həyata keçirə bilər. Mirasın idarə edilməsi ilə bağlı xərcləri vərəsələr miras paylarına mütənasib surətdə çəkirlər.

1251-ci maddənin yeni redaksiyasında mirasa daxil olan ayrı-ayrı əşyalar üzərində səlahiyyətsiz şəxsin sərəncam verdiyi hallar – həmin əşyaları əldə edən şəxs əşyalar üzərində səlahiyyətsiz sərəncam verən şəxsi vicdanlı olaraq 182.1-ci maddədə nəzərdə tutulan anlamda mülkiyyətçi hesab etdiyi hallar birmənalı surətdə tənzimlənir. Bu halda vərəsələr yeni mülkiyyətçi kimi vicdanlı əldə edənə qarşı 152.2-ci maddəyə uyğun olaraq geriqaytarma tələbi ilə çıxış edə bilməzlər. Bununla belə, onlar 1251-ci maddənin yeni redaksiyasına əsasən səlahiyyətsiz sərəncam vermiş şəxsdən onun sərəncamvermə vasitəsilə əldə etdiyini tələb edə bilərlər.

Mirasın bölüşdürülməsi baxımından bir çox cəhətdən uğursuz olan 1277-ci maddə (hədiyyənin vərəsənin payına daxil edilməsi) və 1295-ci maddə (payların bölüşdürülməsi) çıxarılmışdır. Təbii ki, vəsiyyətnamədən fərqlənən qərarların qə-

bulunda mirasqoyan sərbəstdir. Vərəsələrdən biri vərəsəlik hüququndan məhrum olarsa, onun payı başqa vərəsələr arasında bu vaxta qədər olduğu kimi bərabər qaydada deyil, onların paylarına mütənasib surətdə bölüşdürülür (1144, 1178-ci maddələr).

Məhkəmə təcrübəsi üçün 1306.1-ci maddəyə edilmiş əlavə çox önəmlidir. Bu maddənin yeni redaksiyasına görə, vərəsələr mirasqoyanın öhdəlikləri üçün paylarına uyğun deyil, birgə borclu kimi məsuliyyət daşıyırlar. Bu isə 500.1-ci maddəyə uyğun olaraq o deməkdir ki, kreditor öz seçimindən asılı olaraq bir və ya bir neçə vərəsəyə qarşı yalnız onların vərəsəlik payına mütənasib olan məbləğ həcmində tələblə deyil, tam həcmdə tələblə çıxış edə bilər. Beləliklə də kreditor bütün vərəsələri tapmalı və onların mirasdakı paylarını müəyyənləşdirməli, sonra isə onların hamısına qarşı şikayət verməli deyil. Əksinə, o, bir və ya bir neçə vərəsəyə qarşı tələb irəli sürməklə yetərlənə bilər. Bu, vərəsələrdən birinin, misal üçün, Rusiya Federasiyasında yaşadığı, yaxud onun yaşayış yerini müəyyən etmək mümkün olmadığı heç də az rast gəlinməyən hallarda xüsusilə önəmlidir. Ona qarşı irəli sürülmüş tələbi təmin etmiş vərəsənin isə 509.1-ci (yaxud yeni 509.3-cü)[62] maddəyə uyğun olaraq qalan borclular barəsində onların paylarına mütənasib surətdə reqres qaydasında tələb hüququ var. Beləliklə, kreditor ayrı-ayrı vərəsələrin ödəmə qabiliyyəti olmaması riski daşımır. Əslində, məsələnin bu cür tənzimlənməsi həm də məqsədəuyğundur. Çünki mirasın açılmasına qədər kreditorun qarşısında onun iqtisadi imkanlarına etibar etdiyi bir borclu olmuşdur. Miras passivi üçün isə məcburi pay hüququ olanlar deyil, yalnız vərəsələr məsuliyyət daşıyırlar. Qanunvericilik texnikası baxımından uğursuz olan 1306.3-cü maddə çıxarılmışdır. 1310-cu maddənin çıxarılması ilə gə-

[62] Bax: yuxarıda 10.

ləcəkdə kreditorların tələblərinin irəli sürülməsi üçün müddətlərin olmayacağına da diqqət yetirilməlidir. İndi bu tələblərə iddia müddətləri, yaxud tələb hüququnun qüvvədən düşməsi ilə bağlı qanunun ümumi müddəaları şamil olunacaq.

73-cü fəsil (mirasın qorunması) qismən təkmilləşdirilib. Bu vaxta qədər qüvvədə olan hüquqa görə, mirasın qorunması vəzifələri ilə həddindən artıq yüklənmiş notariat kontorlarının vəzifələri indi zəruri xarakterli tədbirlərlə məhdudlaşır. 1317-ci maddənin yeni redaksiyasına uyğun olaraq, mirasın qəbul edilməsinə qədər mirasın açıldığı yerdəki notariat orqanı zərurət olarsa, vərəsə məlum olmazsa və ya onun mirası qəbul edib-etməməsinin bilinmədiyi hallarda mirasın qorunması üçün tədbirlər görür. Başqa hallarda isə mirasın qorunması əsasən vərəsələrin vəzifəsidir. Artıq aydın şəkildə müəyyən edilib ki, notariat orqanının mirasın qorunması ilə bağlı çəkdiyi xərclər miras passivinə aid edilir və bununla da onu vərəsələr daşımalıdır (1320-ci maddənin yeni redaksiyası).

74-cü fəsildə nəzərdə tutulmuş vərəsəlik şəhadətnaməsi bu vaxtadək o qədər də önəmli deyildi. Qanunda nəzərdə tutulmuş qaydaya əsasən burada söhbət vərəsəlik qaydası barədə rəsmi şəhadətnamədən və beləliklə, adi dövlət sənədindən gedirdi ki, bunun da nə düzgünlüyü barədə ehtimal, nə də buna ictimai etimad var idi. Lakin yeni əlavə edilmiş 1321.3-cü maddə bunu artıq dəyişdirir. Həmin maddəyə əsasən, vərəsəlik şəhadətnaməsində vərəsə kimi qeyd olunan şəxsin şəhadətnamədə göstərilən hüququnun olması ehtimal edilir. Bu ehtimal vərəsəlik şəhadətnaməsində vərəsə kimi qeyd olunan şəxsdən onun miras payına aid olan hər hansı predmeti, belə predmetlə bağlı hüququ və ya miras payına daxil olan hər hansı hüquqdan azadetməni əldə edən şəxsin xeyrinə də qüvvədədir, bir şərtlə ki, əldə edən vərəsəlik şəhadətnaməsinin düzgün olmadığını bilməsin. Vərəsəlik şəhadətnaməsinin əhəmiyyətinin bu hüquqi nəticələrlə bağlı olaraq artması məq-

sədəuyğundur. «Notariat haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq notariat orqanı vərəsəlik şəhadətnaməsini verməzdən əvvəl ərizə ilə müraciət etmiş vərəsənin məlumatlarını dəqiq yoxlamalıdır.

Yeni əlavə edilmiş 1321.3-cü maddənin düzgün təfsiri zamanı vərəsəlik şəhadətnaməsinin təkcə vərəsə kimi qeydolunmaya deyil, eləcə də miras payının həcminə şamil olunan həqiqiliyi ehtimalı xüsusilə o vaxt önəmlidir ki, hakim işin əsl vəziyyətini (mahiyyətini) müəyyənləşdirərkən çətinlik çəksin. Bu zaman ehtimal həm vərəsəlik şəhadətnaməsi sahibinin xeyrinə (məsələn, o, mirasla bağlı hər hansı tələblə çıxış etdikdə), həm də ziyanına (məsələn, miras öhdəliyi ilə bağlı ona qarşı hər hansı tələb irəli sürüldükdə) ola bilər. Vərəsəlik şəhadətnaməsinə ictimai etimadın olmasına görə vicdanlı əldə edənlər qorunurlar, yəni onlar həqiqi (əsl) vərəsə ilə əqd bağlamış şəxs kimi qəbul olunurlar. Bunu iki misalla izah etmək olar.

1-ci misal: Miras qoyan E-nin vəfatından sonra onun iki oğlu (A və B) qalır. Onların hər ikisi mirasqoyanın yeganə qanuni vərəsələridir. Vərəsəlik şəhadətnaməsi ilə haqsız olaraq özünü yeganə vərəsə kimi təqdim etmiş A mirasa aid olan bahalı bir şəkli gizli olaraq G-yə satır. G bilir ki, E-nin iki oğlu var idi, lakin vərəsəlik şəhadətnaməsi əsasında o, A-nı E-nin yeganə vərəsəsi hesab edir.

A yeganə mülkiyyətçi olmadığı üçün o, şəkli təkbaşına özgəninkiləşdirə bilməzdi. Həmçinin 182.1-ci maddə əsasında da G-nin vicdanlı əldəetməsi istisna edilir, çünki G mövcud qohumluq münasibətlərini bilirdi və ona görə də A-nın yeganə mülkiyyətçi olduğuna şübhə etməli və bunun təfərrüatına varmalı idi[63]. Buna baxmayaraq, vərəsəlik şəhadətnaməsinin olmasına görə 1321.3-cü maddəyə əsasən G əqdi həqiqi (əsl)

[63] 182.1-ci maddəyə əsasən, vicdanlı əldəetməni istisna etmək üçün təkcə ehtiyatsızlıq kifayət edir.

vərəsələrlə, yəni həm də B ilə bağlamış hesab edilir. Beləliklə, G şəkil üzərində mülkiyyət hüququ əldə edir.

2-ci misal: Vərəsəlik şəhadətnaməsi ilə haqsız olaraq özünü vərəsə kimi təqdim etmiş A mirasqoyan E-nin alqı-satqı qiyməti ilə bağlı K-ya qarşı pul tələbini G-yə güzəşt edir.

MM-in 193 və ondan sonrakı maddələrinə əsasən, hüququ olmayan şəxsin tələbi güzəşt etməsi, prinsipcə, mümkün deyil. Bununla belə, 1321.3-cü maddəyə əsasən, G tələbin ona həqiqi (əsl) vərəsə tərəfindən güzəşt olunduğu şəxs qismində nəzərdə tutulur. Bununla da G vərəsəlik şəhadətnaməsinin həqiqiliyinə etimad əsasında tələbi də vicdanlı əldə edir.

Daha sonra onu göstərmək lazımdır ki, qanunverici 1322-ci maddədə redaksiya səhvini də düzəldib. Bu maddəyə uyğun olaraq, vərəsəlik şəhadətnaməsi mirasın açılmasından 6 ay keçdikdən sonra (yəni 6 ay ərzində yox) verilir.

III. Mülki Məcəlləyə dəyişikliklər haqqında qanunda yeni hüququn tətbiqi üçün **keçid müddəaları nəzərdə tutulmamışdır.** Buna görə də 7.1-ci maddə tətbiq olunur. Həmin maddəyə əsasən, mülki qanunvericilik müddəalarının geriyə qüvvəsi yoxdur və onlar qüvvəyə mindikdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilir. 7.1-ci maddənin mətninə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində nəzərdə tutulanlar bu qaydadan istisna təşkil edir[64]. Lakin mülki hüquqda belə bir qeyd-şərtin nəzərdə tutulması qanunun tətbiqində çətinliklər yaradacaq. Çünki mülki hüquqda müntəzəm olaraq bir-birinə zidd maraqlarla qarşı-qarşıya duran ən azı iki tərəf olur. Norma tə-

---

[64] «Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, onların hüquqi məsuliyyətini aradan qaldıran, yaxud yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Digər normativ-hüquqi aktların isə qüvvəsi geriyə şamil edilmir».

rəflərdən birinin hüquqi vəziyyətini yaxşılaşdırırsa, bu, təbii olaraq qarşı tərəfin hüquqi vəziyyətinin pisləşməsi ilə nəticələnir. Bununla da hüquqi qiymətləndirmə daim konkret halda normanın hüquqi nəticələrinin nəzərdən keçirildiyi baxış bucağından asılıdır və buna görə onun burada elə böyük köməyi yoxdur.

Bütün bunlar o deməkdir ki, 2005-ci il noyabrın 1-də dəyişikliklər barədə qanunun qüvvəyə minməsindən əvvəl yaranan hüquq münasibətlərinin hüquqi nəticələri köhnə hüquqla tənzimlənir. Beləliklə, hakim qanunun köhnə redaksiyasını kənara qoya bilməyəcək, əksinə, uzun müddət qanunun həm köhnə, həm də yeni redaksiyası ilə işləməli olacaq. Misal üçün, bu, dəyişikliklər barədə yeni qanunun aradan qaldırdığı yazılı forma ilə bağlı çoxsaylı tələblərə münasibətdə önəmli olacaq.

İki şəxs 2005-ci il noyabrın 1-dən əvvəl MM-in 627.2-ci maddəsinə zidd olaraq göndərmə müqaviləsini şifahi bağlayıbsa, mübahisə yarandıqda dəyişikliklər barədə yeni qanunun qüvvəyə minməsindən sonra yazılı forma ilə bağlı tələbin ləğv edilməsinə baxmayaraq, tərəflərdən biri müqavilə formasının etibarsızlığına istinad edə biləcək.

II hissə

A. Mülki işlərə baxan hakimin iş texnikasına giriş

Mülki işlərə baxan hakim gündəlik işi zamanı təkcə hüququn konkret işin hallarına tətbiqi vəzifəsi ilə qarşılaşmır. Hüququn tətbiqini o, artıq universitetdə öyrənib. Mülki prosesdə ondan qat-qat artıq şeylər tələb olunur. Burada o, çox zaman proses iştirakçılarının işin halları ilə bağlı qaydasız, asan dərk edilə bilməyən və bəzən ziddiyyətli izahatları ilə üz-üzə qalır. Vəziyyəti çətinləşdirən daha bir məqam tərəflər arasında işin faktiki hallarının mübahisə doğurmasıdır. Beləliklə, hakim, yeri gələrsə, sübutları araşdırmaqla barəsində qərar verəcəyi faktiki halları tapıb ortaya çıxarmalıdır. Bu zaman o, belə bir çətinliklə də rastlaşır ki, tərəflər, bir qayda olaraq, mübahisənin hüquqi həlli üçün zəruri olandan daha artıq faktları və halları məhkəməyə bildirirlər. Buna görə də prosesdə hüququn tətbiqi deyil, faktiki hallarla iş ön plana keçir.

Beləliklə, mülki işlər üzrə hakimin elə bir iş metoduna ehtiyacı var ki, bunun vasitəsilə o, iş materialları arasından işin həlli üçün əhəmiyyətli olan faktiki halları tez və dəqiq tapa bilsin və həmin faktiki hallara qanunu tətbiq etsin. Hakim tez bir zamanda prosesin yekun qərar çıxarılması üçün yetişdiyini və ya bunun üçün nəyin çatışmadığını müəyyənləşdirmək iqtidarında olmalıdır. Xüsusilə də o, lazımsız sübutların araşdırılmasına yol verməməlidir. Hakimin əsas məqsədi həmişə ondan ibarət olmalıdır ki, ən tez (və tərəflər üçün xərclər baxımdan ən sərfəli yolla) düzgün qərara gəlsin və sonradan həmin qərarını başadüşülən formada əsaslandırsın.

Aşağıda təqdim ediləcək iş metodu Almaniyada praktikada özünü doğrultmuş yardımçı düşüncə və iş vasitəsi olmaqla, hakimə, hər şeydən əvvəl, hüquqi mübahisənin həlli üçün zəruri faktiki məsələləri dəqiq süzgəcdən keçirib müəyyənləşdirməyə, hüquqi mübahisəni faktiki məsələlər ətrafında

cəmləşdirməyə, onları sübutetmə vəzifəsi nəzərə alınmaqla araşdırmağa və beləliklə də mübahisəni ən tez yolla düzgün həll etməyə imkan yaradır. Bu metod hakimin işinin yüngülləşdirilməsinə və vaxtına qənaət edilməsinə səbəb olmaqla yanaşı, eyni zamanda, hüquqtətbiqetmənin eyniliyi və proqnozlaşdırıla bilən olmasını təmin edir. Prosesin nəticəsi gözlənilə və yoxlanıla bilən olur.

Bu iş metodikası aşağıdakı mərhələlərdən ibarətdir:

* Tərəflərin işlə bağlı məhkəməyə bildirdikləri, işin həlli üçün əhəmiyyət kəsb edən faktiki halların sistemli şəkildə hazırlanması və qaydaya salınması (işdən çıxarış);

* İddia ərizəsinin mümkünlüyünün və yolverilənliyinin yoxlanması;

* İşin həlli üçün əhəmiyyət kəsb edən faktiki halların iddiaçı və cavabdehin məhkəməyə təqdim etdiklərinə əsasən ayrı-ayrılıqda aşağıdakı suallar ətrafında hüquqi dəyərləndirilməsi:

a) İddia yalnız iddiaçının izahatına əsasən əsaslıdırmı?

b) İddia cavabdehin də izahatları nəzərə alınmaqla əsaslıdır, yoxsa rədd edilməlidir?

* Tərəflər arasında mübahisəli olan və işin həlli üçün mühüm əhəmiyyət kəsb edən faktların müəyyənləşdirilməsi;

* Sübutetmə çərçivəsində mübahisəli faktların aydınlaşdırılması[65].

Yuxarıda göstərilən işin nəticələrinə uyğun olaraq hakim qətnamənin təsviri hissəsində işin faktiki hallarını müəyyən qaydaya uyğun əks etdirməli və qətnamənin əsaslandırıcı hissəsini tərtib etməlidir[66].

Bu iş metodu qanunda bilavasitə təsbit edilməsə də, məcburi şəkildə mülki-prosessual hüququn əsas prinsiplərindən irə-

---

[65] Bununla bağlı ətraflı bax: aşağıda II hissə B.

[66] Bununla bağlı daha ətraflı bax: aşağıda II hissə C.

li gəlir. Həmin prinsiplərə, ilk növbədə, **«tərəflərin prosesdə hökmranlığı»**və **«prosessual qənaət»** prinsipləri aiddir.

«Tərəflərin prosesdə hökmranlığı» prinsipi aşağıdakıları əhatə edir:

a) Dispozitivlik (sərbəstlik) prinsipi

Bu prinsipə əsasən hakim deyil, yalnız tərəflər mülki prosesin başlanması, onun predmeti və mülki prosesin yekunlaşdırılması barədə qərar qəbul edir (müqayisə et: MPM-in 5.1 və 5.4-cü maddələri. Bunun əksi cinayət prosesində rəsmilik prinsipidir).

b) Formal həqiqət prinsipi

Bu prinsipə əsasən, bir tərəfdən, hakim yalnız tərəflərin məhkəməyə bildirdiyi və təqdim etdiyi faktiki halları və sübutları nəzərə almalıdır. Başqa yandan isə hakim faktlarla və hallarla bağlı tərəflərin dəlillərinin həqiqiliyini yalnız o zaman müəyyən edə bilər ki, onları qarşı tərəf mübahisələndirsin (müqayisə et: MPM-in 14.2-ci maddəsi; bunun əksi qulluq mövqeyinə görə araşdırma prinsipidir (obyektiv həqiqət prinsipi))[67].

Prosessual qənaət prinsipinə əsasən, məhkəmə prosesində yalnız elə faktlarla və hallarla bağlı sübutlar nəzərə alın-

---

[67] Formal həqiqət prinsipi belə əsaslandırılır ki, kökündə mülki (özəl) hüquqi münasibətlər duran faktların (halların) xidməti vəzifəyə əsasən (qulluq mövqeyinə görə) müəyyənləşdirilməsində hər hansı bir ictimai (public) maraq yoxdur. Beləliklə də bu, iradə azadlığının prosessual təcəssümüdür. Həmin prinsip, nəticə etibarilə, məhkəmə və tərəflər arasında iş bölgüsünə təsir edir: (yalnız) tərəflər faktları (halları) təqdim edir, məhkəmə isə bunların əsasında müəyyən hüquqi nəticəyə gəlir. Azərbaycan mülki prosesi üçün həlledici əhəmiyyət daşıyan formal həqiqət prinsipi Azərbaycan Respublikası Konstitusiyasına yeni 125-ci maddənin VII hissəsinin əlavə edilməsi ilə qüvvədən düşməyib. Konstitusiyanın bu müddəası hələ də qüvvədə olan MPM nəzərə alınmaqla təfsir edilməli və ilk növbədə hakimin qulluq mövqeyinə əsasən maddi (obyektiv) həqiqəti müəyyənləşdirməli olduğu cinayət və inzibati prosesə tətbiq edilməlidir.

malıdır ki, onlar işin həlli üçün hüquqi baxımdan əhəmiyyət kəsb etsin. Çox mühüm olan və Azərbaycan məhkəmə praktikasında ardıcıl əməl edilməyən bu prinsip MPM-in 80-ci maddəsində təsbit edilib. Bu prinsip, ilk növbədə, tərəflərin maraqlarına xidmət edərək, onları lazımsız vaxt və maddi itkilərdən qoruyur. Lakin bu, ədalət mühakiməsinin maraqlarına da xidmət edir, çünki onsuz da çox olmayan resurslar lazımsız prosessual tədbirlərin keçirilməsinə imkan vermir. Məhz Azərbaycanda olduğu kimi, keçid dövrünü yaşayan ədalət mühakiməsi üçün bu prinsipin xüsusi əhəmiyyəti var.

I. İşin faktiki hallarının toplanması və qaydaya salınması (işdən çıxarış):

Hakimin işi iddia tələbinin aydınlaşdırılması ilə başlayır: hakim dispozitivlik prinsipi nəzərə alınmaqla, öncə tərəflərin dəqiq nə istəmələrini özü üçün müəyyənləşdirməlidir. O, MPM-in 218.3-cü maddəsinə uyğun olaraq, tərəflərin iddia tələblərindən kənara çıxa bilməz. Xüsusilə hakim iddiaçının irəli sürdüyündən daha çox və ya başqa tələblərin təmin edilməsi barədə qətnamə çıxara bilməz. Lakin irəli sürüləndən daha az tələblərin təmin edilməsi barədə qətnamə çıxarılması mümkündür.

Bundan sonra hakim tərəflərin təqdim etdikləri işin faktiki hallarını müəyyənləşdirməlidir. Bu prinsip təbii qarşılanmalı prinsip kimi görünsə də, onu dəfələrlə vurğulamaq lazımdır. Hüquqçu fəaliyyətinin yalnız hüquqi məsələlərin yoxlanması və cavablandırılmasından ibarət olmasını düşünənlər dərindən yanılırlar. Tez-tez qərarların əsaslanmalı olduğu işin faktiki hallarının dəqiq şəkildə müəyyənləşdirilməsi müqayisə edilməyəcək qədər artıq əziyyət tələb edir. Hakim müəyyən incəliklərlə bağlı düzgün olmayan faktiki hallara əsaslanarsa, bunun ağır nəticələri ola bilər. Belə olduqda, onun hüquqi düşüncələri tərəflərin təqdim etdikləri faktoloji tərkibə uyğun

gəlmir və məcburi şəkildə səhv qətnamənin çıxarılması ilə nəticələnir. Bu baxımdan hakim iş üçün əhəmiyyət kəsb edən faktiki halları araşdırarkən həddən artıq diqqətli olmalıdır.

Yuxarıda adı artıq çəkilmiş formal həqiqət prinsipinə əsasən tərəflər işin faktiki hallarını məhkəməyə bildirməklə məhkəmə üçün icbari xarakter daşıyan və həll edilməli olan faktoloji tərkibi ona təqdim edirlər. Hakim üçün bu, məcburidir. Nəticə etibarilə bu ona gətirib çıxara bilər ki, hakim yanlış faktoloji tərkibə bağlı qərar çıxarmalı olar. Bu, məsələn, belə hallarda olur ki, tərəflər əslində həqiqətə uyğun olmayan halı mübahisəsiz olaraq qəbul edirlər (məsələn, tərəflər hər ikisi prosesdə bildirir ki, işıqforun işığı iddiaçı üçün «yaşıl» işarəsini verib, baxmayaraq ki, əslində işarə «qırmızı» idi. Belə olan halda hakimin qərarının əsasını işıqforun işarəsinin yaşıl olması halı təşkil edəcək). Bununla əlaqədar belə prinsip mövcuddur: ***«Da mihi factum, dabo tibi ius»*** (lat.): «Faktları mənə ver, mən sənə hüquq verəcəyəm». Bununla belə, tərəflərin hüquqi mülahizələri hakim üçün heç bir halda məcburi deyil. Hüququn tətbiqi bilavasitə hakimin cavabdehlik daşıdığı vəzifədir.

Qərar qəbul etmək üçün işin önəmli faktiki halları necə araşdırılmalıdır?

Bir qayda olaraq, hakim aydın strukturu və mübahisəsiz faktoloji tərkibi olan işlərə deyil, əksinə, bir-birindən az və ya çox fərqlənən faktlarla bağlı ən azı ikiversiyalı işlərə baxır. Həmin versiyalar da tez-tez sistemli, məntiqi cəhətdən ardıcıl və başadüşülən şəkildə təqdim olunmur. Bu, xüsusilə tərəflərin prosesdə vəkillə təmsil olunmadıqları hallara şamil olunur.

İşin içində əsasən belə sistemsiz toplanmış sənədlər olur:

– faktlar barədə izahat;

– hüquqi mülahizələr;

– sübutlarla bağlı təkliflər;

– şəxsi dəyərləndirmələr;

– istinadlar və s.

Bütün bunların hamısı isə istər tərəflərin bildirdiklərini əsaslandırmaq üçün, istərsə də sübutetmə məqsədi ilə əlavə edilmiş sənədlər vasitəsilə tamamlanır. Tez-tez tərəflər hüquqi mübahisənin gedişində təqdim etdikləri faktları dəyişdirir, onlara düzəlişlər edirlər.

Hakim faktların belə sistemsiz şəkildə təqdim olunmasına görə iş haqqında ümumi təsəvvürünü itirmək istəmirsə, o, işə dair materialları çeşidləməli və onları sistemləşdirməlidir.

Beləliklə, hakimin ilkin vacib addımı ondan ibarətdir ki, tərəflərin izahatlarının üst-üstə düşdüyü və bir-birini inkar etdiyi hissələrini müəyyənləşdirsin. Hakim hər iki tərəfin əsaslandığı faktları (işin mübahisəsiz faktiki halları) və onlar arasında mübahisənin mövcud olduğu məsələləri (tərəflərin mübahisələndirdiyi faktiki halları) müəyyən etməlidir.

Məntiqi olaraq o, bunu aşağıdakı qaydada edir.

O, iri kağız vərəq götürür, onu ortadan iki hissəyə ayırır və yuxarıda tərəflərin tələblərinin nədən ibarət olduğunu göstərir. Sol tərəfdə o, iddiaçının tələbini, sağ tərəfdə isə cavabdehin tələbini qeyd edir. Hakimin bu qayda ilə tərəflərin tələblərinin nədən ibarət olduğunu dəqiq nəzərdə saxlaya bilməsi həddən artıq vacibdir.

Daha sonra hakim bunun altında qısa şəkildə tərəflərin işin halları barədə izahatlarını qeyd edir. Yenə də yuxarıda olduğu kimi, kağızın sol tərəfində iddiaçının, sonra isə sağ tərəfində cavabdehin bildirdikləri göstərilir. İşin halları barədə izahat dedikdə, ilk növbədə tərəflərin məhkəməyə bildirdikləri faktlar başa düşülür. Prinsipcə, bunlar elə hallardır ki, nəzəri cəhətdən onların sübut olunması şahidlər, ekspertlər və s. vasitəsilə mümkündür. Tərəflərin hüquqi baxışları və ya şəxsi fikirləri ciddi şəkildə bunlardan fərqləndirilməlidir. Faktlardan fərqli olaraq, bunlar hakim üçün məcburi xarakter daşımır. Onlar yalnız tərəflərin bildirdiyi faktların başa düşülmə-

si üçün zəruri olan halda faktiki halların toplusuna aid edilir və bu zaman fərqləndirilməlidir.

Faktlarla yanaşı maddi-hüquqi xarakterli hüquq münasibətlərinin dəyişilməsinə yönələn hüququn həyata keçirilməsi ilə bağlı məlumatlar da işdən çıxarışa daxil edilməlidir: məsələn, müqavilənin icrasından imtina ilə bağlı bildiriş, mübahisələndirmə, qarşılıqlı tələblərin əvəzləşdirilməsi, yaxud borclunun ona münasibətdə yerinə yetirilməli olan öhdəliyin icra edilməsinə qədər öz öhdəliklərinin icrasından imtina etmək barədə bildirişi və ya iddia müddətinin keçməsi.

Bunları asanlaşdırmaq üçün tərəflərin eyni məsələ ilə bağlı bildirdiklərini qarşılıqlı şəkildə vərəqin eyni sətrində qeyd etmək lazımdır.

Tərəflərdən biri qarşı tərəfin bildirdiyi faktı mübahisələndirərsə, onda bunu, sadəcə «–» işarəsi ilə qeyd edirlər. Bu zaman həmin faktla əlaqədar əlavə bildirilənlər də buraya daxil edilməlidir. Tərəf müəyyən faktı etiraf edirsə, yaxud aşkar şəkildə onu mübahisələndirmirsə, bunu «+» işarəsi ilə qeyd edirlər. Burada tərəflərin təqdim etdikləri sübutların, istinad edilən mənbə qismində nömrələnmiş iş vərəqlərinin göstərilməsi də məqsədəuyğundur.

Faktiki halların toplusunun tərəfin faktları nə vaxt bildirməsinə görə yox, barəsində məlumat verilən faktın <u>məzmun cəhətdən hara</u> aid olmasına əsasən sistemləşdirilməsi vacibdir. Yəni faktiki halların toplusu <u>vaxt</u> meyarlarına əsasən deyil, <u>məzmun</u> meyarlarına əsasən tərtib edilir. Bunun səbəbi ondan ibarətdir ki, tərəflərin bildirdiyi faktların hamısı şifahi icraatda vahid şəkildə bildirilən kimi qeyd olunur və qərar qəbul edilməsi üçün məhkəməyə təqdim edilir (şifahi icraatın tamlığı (vahidliyi) prinsipi). Məhkəmə tərəflərin işin halları barədə izahatları əsasında vahid surətdə qərar qəbul edir, yəni işin faktiki halları <u>eyni zamanda</u> şifahi icraatda bildirilmiş kimi qəbul edilir.

Sxematik baxımdan faktiki halların toplusu aşağıdakı formada olur:

İddiaçının tələbi	Cavabdehin tələbi
İşin faktiki halları (iddiaçının məhkəməyə bildirdiyi kimi) İş vərəqi: (Sübut:...) İş vərəqi...)	İddiaçının məhkəməyə bildirdiyi faktlar mübahisələndirilmirsə: «+» Mübahisələndirilirsə: «–» (Sübut:... İş vərəqi...) Həmin hallarla bağlı cavabdehin məhkəməyə bildirilən tamamlayıcı məruzəsi. İş vərəqi:
Cavabdehin məhkəməyə bildirdiyi işin faktiki halları mübahisələndirilirsə: «–» İş vərəqi: (Sübut...) İş vərəqi Mübahisələndirilmirsə: «+»	Cavabdehin məhkəməyə bildirdiyi işin yeni faktiki halları. İş vərəqi: (Sübut...) İş vərəqi...)
İddiacının hüquq münasibətlərinin dəyişdirilməsinə yönələn hüquqlardan istifadə etməsi, uyğun hallara istinad etməklə	Cavabdehin hüquq münasibətlərinin dəyişdirilməsinə yönələn hüquqlardan istifadə etməsi, uyğun hallara istinad etməklə
İddiaçının hüquqi baxışları (qavrama üçün zəruri olan həddə qədər) İş vərəqi:	Cavabdehin hüquqi baxışları (qavrama üçün zəruri olan həddə qədər)

İş materiallarının faktiki hallarının toplusunun qeydiyyatı zamanı hakimin nə dərəcədə dəqiq fəaliyyət göstərməsi kazusun xüsusiyyətlərindən asılıdır:

Misallar:

(1) Məsələn, hakim işin materiallarının ilkin ümumi yoxlamasından sonra prosesdə mübahisənin ilk növbədə alqı-satqı predmetinin qüsurları barədə olduğunu, müqavilənin bağlanmasının isə özlüyündə problemsiz olduğunu müəyyənləşdirirsə, faktiki halların toplusunu hazırlayarkən o, iddiaçının tərəfində yalnız qısa bir qeydlə – «tərəflərin arasında __ tarixli alqı-satqı müqaviləsi» ifadəsi ilə kifayətlənə və cavabdehə aid hissədə eyni səviyyədə yalnız «+» işarəsini qeyd etməklə məsələnin tərəflər arasında mübahisəsiz olduğunu göstərə bilər.

(2) Kazusdakı problemlər müqavilənin bağlanma mərhələsi ilə bağlıdırsa, faktiki halların toplusunun artıq bu hissəsində hakim daha ətraflı qeydiyyat aparmalıdır (məsələn, ofertanın məzmunu və tarixi, cavabdehin akseptinin tarixi).

Yetərincə təcrübəsi olmayan hakim faktiki baxımdan problemli olmayan mübahisəli işlər üzrə də tərəflərin işin halları barədə məhkəməyə bildirdiklərini daha tam şəkildə faktiki halların toplusunda əks etdirməyə çalışacaq. Hər halda belə hərəkət etdikdə o, qərar çıxaran zaman, ola bilsin ki, mühüm əhəmiyyət kəsb edən halı nəzərdən qaçırmaq təhlükəsindən uzaq olur. Lakin bu halda çox geniş olan faktiki hallar toplusundan qərar üçün zəruri olan faktiki halları süzgəcdən keçirmək üçün o, son olaraq, işdən çıxarışı yenidən daha dəqiq nəzərdən keçirməli və qərar üçün əhəmiyyət kəsb etməyən faktlar barədə gümanların, yaxud sadəcə təkrarlanan məsələlərin üzərindən xətt çəkməlidir. O, gümanlardan birinin proses gedişində sonradan dəyişdirildiyini müəyyən etsə, bunlar da pozulmalıdır.

Beləliklə, işin halları barədə tərəflərin bütün izahatları sinoptik qarşılıqlı təsvir qaydasında və ayrı-ayrı mövzulara uyğun əks etdiriləcək. Belə icraat ilk baxışdan bir qədər çox vaxt aparan kimi görünsə də, məhz mürəkkəb proseslər zamanı mühüm informasiyaların məhkəmənin diqqətindən kənarda qal-

mayacağına yalnız bu şəkildə əmin olmaq olar. Belə qarşılıqlı təsvir qaydası, aşağıda göstəriləcəyi kimi, işin hüquqi dəyərləndirilməsi zamanı da yardımçı olur. Onun mühüm üstünlüyü ondan ibarətdir ki, sübuta ehtiyacı olan faktiki hallar barədə gümanlar tez süzgəcdən keçirilir və mübahisəli olmayan və ya mühüm əhəmiyyət kəsb etməyən hallar barəsində sübutların araşdırılmasına yol verilmir. Məhz buna görə də o, hakimin iş prosesinin əhəmiyyətli dərəcədə yüngülləşdirilməsinə və icraatın sürətləndirilməsinə gətirib çıxarır.

Faktiki halların belə toplusunun başqa bir üstünlüyü ondan ibarətdir ki, iş materialları ilə praktik olaraq yalnız bir dəfə dəqiq və tam işləməyə ehtiyac qalır. Məhkəməyə tərəflərin təqdim etdiyi yazılardan başqa zəruri faktlar irəli gəlirsə, onlar bütün hallarda sonradan problemsiz faktlar toplusuna daxil edilə bilər. Hakim işin faktiki hallar toplusunu iş materiallarının arasına qoymalı və orada saxlamalıdır. Həmin işə yenidən qayıtmalı olduqda, o, işdən çıxarış vasitəsilə tez və çətinlik çəkmədən qərar üçün əhəmiyyət kəsb edən proses materialını göz önünə gətirə biləcək və bu zaman işi yenidən vərəqləməyə ehtiyac qalmayacaq.

Nisbətən problemsiz, yalnız bu faktiki hallar toplusu əsasında məhkəmə qətnaməsinin təsviri hissəsinin (MPM-in 220.3-cü maddəsi) də tərtib edilməsi mümkündür.

II. Hüquqi dəyərləndirmə (iddianın yolverilənliyi və əsaslı olması)

Hakim tərəflərin məhkəməyə bildirdikləri faktiki halları yuxarıda göstərilən qaydalara uyğun hazırlayıbsa, mahiyyətcə əsl hüquqi fəaliyyəti başlayır, yəni o, iddianın yolverilənliyini və əsaslı olmasını yoxlayır.

1. İddianın **yolverilənliyi** həmişə ön plana çəkilməlidir.

Burada iş üzrə qərar çıxarmağa məhkəməyə maneçilik törədən bütün məsələlər yoxlanmalıdır (məsələn, aidiyyət –

MPM-in 3-cü fəsli, məhkəmə aidiyyəti – MPM-in 4-cü fəsli, mülki prosessual fəaliyyət qabiliyyətinin olmaması – MPM-in 49-cu maddəsi, mübahisənin münsiflər məhkəməsinə verilməsinə dair sazişin olması və s.). İddiaçı icra ilə bağlı tələblə öz məqsədinə daha sadə şəkildə çata bilərsə, müəyyənləşdirici iddianın hüquqi marağın olmaması üzündən yolverilməzliyi də bura aiddir.

İddia yolverilən deyilsə, məhkəmə işlə dərindən məşğul olmadan iddia ərizəsini qərardadla geri qaytarır (müqayisə et: MPM-in 152, 153-cü maddələri).

2. Başqa hallarda məhkəmə iddianın **əsaslı olmasını** yoxlayır.

Həmin yoxlama 2 mərhələdən ibarətdir.

Öncə yalnız iddiaçının məhkəməyə bildirdiyi faktiki hallar əsasında iddia tələbinin özlüyündə əsaslı olub-olmaması yoxlanmalıdır (şərti adı – **iddiaçının bölməsi).** Bu halda iddiaçının tələbi əsaslıdırsa, daha sonra cavabdehin məhkəməyə bildirdiyi işin faktiki halları nəzərə alınmaqla tələbin əsaslı olması, yaxud cavabdehin göstərdiklərinin tələbin rədd olunmasına gətirib çıxarması yoxlanmalıdır (şərti adı – **cavabdehin bölməsi).** Nəzərə almaq lazımdır ki, bu yoxlama mərhələsində tərəflərin gümanlarının həqiqətə uyğun olub-olmaması önəmli deyil.

(1) İddiaçının bölməsi

Burada hakim yalnız işin mübahisəsiz hallarını və iddiaçının mübahisələndirilən izahatlarını hüquqi cəhətdən dəyərləndirir. Bu zaman əvvəl hazırladığı faktiki halların toplusu onun köməyinə gəlir, çünki hakimin hüquqi dəyərləndirməsi yalnız yuxarıdakı cədvəlin sol sütunundakı proses materialları ilə məhdudlaşır. Hakim bu zaman özünə aşağıdakı sualı verir: «İddiaçının məhkəməyə bildirdiklərinin həqiqət olduğunu qəbul etsək, onun tələbi əsaslı ola bilərmi?»

Hakimin fikirləri bu zaman iddiaçının iddia ərizəsində məhkəməyə bildirdiyi konkret hüquqi nəticə ilə başlayır, bundan sonra qanunda nəzərdə tutulan mücərrəd hüquqi nəticədən hüquq normasının mücərrəd dispozisiya şərtlərinə keçid alır və konkret faktoloji tərkiblə, yəni iddiaçının bildirdiyi faktlarla yekunlaşır.

İddia tələbi aşağıdakı şərtlər olduqda əsaslıdır:

a) qanunda elə bir **müddəa** olmalıdır ki, onun **hüquqi nəticəsi** ilə iddia tələbi **üst-üstə düşsün** (yaxud istənilən hüquqi nəticə bilavasitə iradə ifadəsi azadlığına əsaslanan müqavilədən irəli gəlsin) və;

b) iddiaçının işin halları barədə məruzəsi həmin qanun müddəasının dispozisiya şərtlərinə (yaxud müqavilənin mətninə) uyğun olsun.

a) ilə bağlı

Qanunun belə müddəasına **iddia tələbinin qanuni əsası** deyilir.

İddia tələbinin qanuni əsası dedikdə, qanunun elə bir müddəası başa düşülür ki, o, qanunda göstərilən müəyyən dispozisiya şərtləri olduqda bir tərəfə qarşı tərəfdən icranı, yəni nəyisə etməyi və ya nəyisə etməməyi tələb etməyə imkan verir (müqayisə et: anlayışı MM-in 385.1, 372.1, 550-ci maddələrində verilib).

İddia tələbinin qanuni əsası iki hissədən ibarətdir: mücərrəd şəkildə müəyyən faktiki halların ümumi formada təsvirindən (dispozisiyadan) və həmin dispozisiya mövcud olduqda qanunla nəzərdə tutulan hüquqi nəticədən.

İddia tələbinin qanuni əsasına klassik misal kimi MM-in 567-ci maddəsini göstərmək olar: həmin maddədə alqı-satqı müqaviləsinə görə satıcının əşyanı alıcının mülkiyyətinə verməyi, alıcının isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürməsi

göstərilirsə, bu ifadə həm dispozisiyanı, həm də buna uyğun baş verən hüquqi nəticəni ehtiva edir. Bu normada dispozisiya «alqı-satqı müqaviləsinə görə...» sözləri ilə, hüquqi nəticə isə müqavilə tərəflərinin vəzifələrinin, yəni bir tərəfdən alıcının əşya üzərində mülkiyyət hüququnun və əşyanın satıcıya verilməsi vəzifələrinin, başqa yandan isə satıcının müəyyənləşdirilmiş pul məbləğini ödəməsi vəzifəsinin təsviri ilə ifadə olunmuşdur.

«Alqı-satqı müqaviləsinə görə...» ifadəsi yoxlanmalı olan faktiki halları çox qısa formada ifadə edir. Məsələn, alıcı və satıcı arasında müqavilənin etibarlığına dair mübahisə yoxdursa, lakin başqa məsələlər, tutaq ki, malların güman edilən qüsuru ətrafında fikir ayrılığı olarsa, bu şərtlərin mövcudluğu birmənalı ola bilər. Başqa halda isə alqı-atqı müqaviləsinin etibarlığı ilə bağlı çoxsaylı problemlər yarana bilər. Məsələn, söhbət müqavilənin etibarlı şəkildə bağlanmasından gedirsə, tərəflərin fəaliyyət qabiliyyətli olması, sazişin formal tələblərə əməl edilməklə bağlanması, yaxud təmsilçilik problemləri meydana çıxır. Həmin halda hakim hüquqi dəyərləndirməsi zamanı «alqı-satqı müqaviləsinə görə...» dispozisiya şərtinin yoxlanması çərçivəsində bütün bu problemləri araşdırmalı olacaq ki, MM-in 567-ci maddəsinin hüquqi nəticəsinin baş verməsi rəyinə gələ bilsin.

Qanunda iddia tələbinin qanuni əsasını tapmaq üçün hakim iddiaçının məhkəmədən konkret nə istəməsini aydın şəkildə dərk etməlidir. Son nəticədə bu, əsasən iddia tələbindən və qismən də iddianın əsaslandırılmasından irəli gəlir. Bundan sonra hakim qanunda elə normanı (normaları) tapmalıdır ki, onun (onların) hüquqi nəticəsi iddiaçının tələb etdiyinə uyğun gəlsin. Bunun üçün hakimin MM sistemi və onun ən vacib iddia tələblərinin qanuni əsasları barədə köklü təsəvvürü olmalıdır. İşin yüngülləşdirilməsi məqsədi ilə hakim bununla

əlaqədar müəllifin tərtib etdiyi «Azərbaycan Mülki Məcəlləsindəki bəzi vacib iddia tələblərinin qanuni əsaslarının və hüquq münasibətlərinin dəyişdirilməsinə yönəldilmiş hüquqların toplusu»[68] tədris vəsaitinə müraciət edə bilər.

Hakim hüquqi dəyərləndirmə zamanı nə tərəflərin tətbiq edilməli olan iddia tələblərinin qanuni əsaslarına dair hüquqi baxışları ilə kifayətlənməli, nə də məhz tərəflərin seçdiyi iddia tələblərinin qanuni əsasları ilə öz qətnaməsini əsaslandırmalıdır. O, işin hüquqi vəziyyətini müstəqil və öz məsuliyyəti əsasında yoxlayır. Formal həqiqət prinsipinə əsasən[69] (müqayisə et: yuxarıda A), hakim yalnız tərəflərin işin faktiki halları ilə bağlı gümanları ilə kifayətlənməlidir (gümanlarına tabe olmalıdır).

b) ilə bağlı

İddiaçının tələbinə uyğun gələn iddia tələbinin qanuni əsası tapılandan sonra iddiaçının məhkəməyə bildirdiyi faktiki halların həmin iddia tələbinin qanuni əsasının dispozisiya şərtlərinə uyğun olması yoxlanmalıdır. Yəni hakim iddiaçının bildirdiyi faktiki halları yoxlanan iddia tələbinin qanuni əsasının ayrı-ayrı dispozisiya şərtləri ilə müqayisə edir. Bu proses **hüquqi tövsif** adlanır. Bu zaman hakim, artıq qeyd edildiyi kimi, iddiaçının hüquqi baxışlarına (məsələn, müəyyən müqavilənin və ya iradə ifadəsinin təfsiri məsələsi ilə bağlı) tabe deyil[70].

---

[68] Müqayisə et: yuxarıda I hissə C.

[69] Müqayisə et: yuxarıda A. b).

[70] Lakin bu o demək deyildir ki, tərəflərin hüquqi baxışları tamamilə əhəmiyyətsizdir. Məhkəmədə dinlənilmək və ədalətli məhkəmə araşdırılması hüququ tələb edir ki, hakim həmin baxışları təfəkküründə analiz etsin və ən geci şifahi məhkəmə iclasında bu baxışları qəbul etməyəcəyini və nəyə görə qəbul etməyəcəyini bildirsin. Bu şəkildə o, tərəflər üçün gözlənilməz olan qərarların çıxarılmasından qaçmış olur, çünki onlar özlərinin səhv hüquqi mövqeleri əsasında işin həlli üçün əhəmiyyət kəsb edən digər faktiki halları məhkəməyə bildirməmiş ola bilərlər.

Burada hakim yalnız iddiaçının bildirdiyi faktları və halları yoxlamasına baxmayaraq, o, bu yoxlamanı tam və hərtərəfli şəkildə, yəni bunun hüquqi baxımdan iddiaçıya xeyir və ya ziyan gətirməsindən asılı olmayaraq yoxlamalıdır. Yəni hakim təkcə iddiaçının təqdim etdiyi faktların iddia tələbinin qanuni əsasına uyğunluğunu yoxlamalı deyil, o cümlədən iddiaçının bildirdiyi və ya onun mübahisələndirmədiyi faktları da nəzərə almalıdır ki, onlar da, məsələn, əks normanın şərtlərinə uyğun gəlməklə tələbin aradan qalxmasına və ya sonradan xitam verilməsinə gətirib çıxarsın.

a) və b) ilə bağlı

Hakim həmişə yoxlamalıdır ki, hansı iddia tələbinin qanuni əsasından istifadə etməklə o, ən qısa və prosessual baxımdan ən qənaətcil yolla iddiaçının arzuladığı məqsədə çata bilər. Buna görə də o, iddiaçının bölməsində nəzərdən keçirilə bilən bütün (həm müqavilədən, həm də qanundan irəli gələn) iddia tələblərinin qanuni əsaslarını yoxlamalıdır. Çünki cavabdehin məhkəməyə bildirdiklərini yoxlayan zaman (bununla bağlı aşağıda bax: (2)), məsələn, onun etirazlarının heç də iddia tələbinin qanuni əsaslarının hamısına münasibətdə deyil, yalnız birinə münasibətdə əhəmiyyət kəsb etməsi aşkar oluna bilər. Hakim yalnız hüquqi dəyərləndirməsində iddia tələbinin bütün uyğun gələn qanuni əsaslarını nəzərə aldığı halda müəyyənləşdirə bilər ki, hansı iddia tələbinin qanuni əsasına görə iddia tələbi cavabdehin işin faktiki halları barədə dəlilləri də nəzərə alınmaqla mümkün olan ən az prosessual hərəkətlərin həcmi ilə əsaslıdır.

İddiaçının bölməsinin nəticəsi aşağıdakılardan ibarət ola bilər:

* Qanunda uyğun iddia tələbinin qanuni əsası tapılmırsa və ya faktiki hallar tapılan iddia tələbinin qanuni əsasının şərtləri, yəni dispozisiyasının əlamətləri ilə uzlaşmırsa, hakim

üçün hüquqi dəyərləndirmə başa çatır. Artıq cavabdehin dəlillərini araşdırmağa ehtiyac qalmır, çünki işin həlli üçün bunun əhəmiyyəti yoxdur. İddiaçının dəlillərinə əsasən əsassız olduğuna görə iddia təmin edilməməlidir.

* Hakim iddiaçının bölməsinin hüquqi dəyərləndirməsi nəticəsində iddianın işin mübahisəsiz halları və iddiaçının mübahisələndirilən məruzəsi nəzərə alınmaqla əsaslı olması nəticəsinə gələrsə, **cavabdehin bölməsində** işin halları barədə cavabdehin dəlilləri də hüquqi baxımdan dəyərləndirilməlidir.

(2) Cavabdehin bölməsi

Hakim iddiaçının bölməsində təsdiqlənmiş tələblərin hüquqi dəyərləndirilməsi zamanı yalnız işin mübahisəsiz halları və cavabdehin mübahisəli dəlilləri (faktiki hallar toplusunun sağ bölməsi) nəzərə alındığı halda belə iddianın hələ də əsaslı olmasını yoxlayır. Cavabdehin müdafiəsi iddiaçının izahatlarının mübahisələndirilməsindən və/və ya irəli sürülmüş tələbin yaranmasına əvvəldən mane olan (məsələn, mübahisələndirmə, yetkinlik yaşına çatmama), onu sonradan aradan qaldıran (məsələn, icra, imtina), yaxud da onun həyata keçirilməsinin qarşısını alan (məsələn, iddia müddəti) əks normanın şərtlərinə uyğun gələn etirazların irəli sürülməsindən ibarət ola bilər.

a) Bu halda da iddianın əsaslı olması nəticəsi əldə edilərsə, deməli, cavabdehin məruzəsi əhəmiyyətsizdir. İddia bu halda əlavə yoxlama aparılmadan təmin edilməlidir.

Belə halları o zaman təsəvvür etmək olar ki, iddia tələbinin qanuni əsasını əsaslandıran iddiaçının dəlillərinin mühüm faktlarını cavabdeh mübahisələndirməsin və işin halları barədə mübahisələndirilən dəlilləri yalnız işin həllinin hüquqi baxımdan asılı olmadığı məsələlərə aid olsun.

Misal: İddiaçı mənzil üçün kirayə haqqının ödənilməsini tələb edir. Cavabdeh müdafiəsini belə əsaslandırır ki, kirayə haqqını ödəmək iqtidarında deyil, çünki o, işdən çıxarılıb və maaş almır. İddiaçı cavabdehin işdən çıxarılması barədə dəlilini mübahisələndirir. Məhkəmə cavabdehin məruzəsini araşdırmayacaq, çünki işin həlli bundan asılı deyil. İş yerinin itirilməsi kirayə haqqının ödənilməməsi üçün qanuni əsas deyil. Beləliklə, cavabdehin işin faktiki halları barədə məhkəməyə bildirdikləri əhəmiyyətsizdir. Bu hal xüsusilə də cavabdehin iş yerini itirib-itirməməsi ilə bağlı sübutların araşdırılmasını əsaslandıra bilməz. İddia tələbi təmin edilməlidir.

Bundan əlavə, cavabdeh iddiaçının məruzəsini mübahisələndirmirsə və yalnız işin həlli üçün əhəmiyyət kəsb etməyən hüquqi baxışlarını bildirirsə, onun məruzəsi əhəmiyyətsizdir.

Misal: İddiaçı cavabdehdən vaxtilə ondan oğurlanmış və sonradan oğrunun cavabdehə satdığı noutbukun geri qaytarılmasını tələb edir. Cavabdeh geri qaytarmadan imtina edir və bunu noutbuku satıcıdan vicdanla əldə etməsi ilə əsaslandırır. Bu zaman cavabdehin «vicdanlı» olaraq «mülkiyyət hüququnu» əldə etməsi barədə dəlili əhəmiyyətsizdir, çünki MM-in 182.2-ci maddəsinə əsasən, oğurlanmış əşyaların vicdanlı əldə edilməsi mümkün deyil. Bundan başqa, cavabdeh vicdanlı əldəetmə ilə bağlı hansısa faktları bildirmir. «Vicdanlı əldə etmişəm», vəssalam. Səhv hüquqi dəyərləndirmədir. Burada da iddia hansısa sübutlar araşdırılmadan təmin edilməlidir.

b) Cavabdehin dəlillərinin hüquqi dəyərləndirilməsinin nəticəsi iddianın təmin edilməməsinə gətirib çıxara bilərsə, yəni cavabdehin müdafiə ilə bağlı bildirdikləri iddiaçının bölməsində müsbət cavablandırılmış heç olmazsa bir iddia tələbinin qanuni əsası ilə bağlı əhəmiyyət kəsb edirsə, vəziyyət dəyişir. Bu halda işin faktiki halları barədə dəlillər əhəmiyyət-

lidir, beləliklə, onlar barəsində sübutların araşdırılmasına ehtiyac var.

Məsələn, cavabdeh iddia tələbini əsaslandıran mühüm faktiki halları mübahisələndirirsə, belə vəziyyət yarana bilər.

Misal: Cavabdeh müqaviləyə əsaslanan tələblə əlaqədar güman edilən müqavilə bağlanmasını mübahisələndirir. Belə olduqda, müqavilə bağlanması faktı ilə bağlı sübutlar araşdırılmalıdır.

Ola bilər ki, cavabdeh müqavilə tələbi ilə qarşı-qarşıya duran və onu xətm edən və ya ən azı həmin tələbin həyata keçirilməsinə mane olan etirazlar irəli sürsün (məsələn, barəsində tələb irəli sürülmüş öhdəliyin icrası, əvəzləşdirmə və ya mübahisələndirmə nəticəsində tələbə xitam verilməsi, iddia müddətinin keçməsi və s.). Bəzi mühüm əhəmiyyət kəsb edən etirazların birləşdirilməsi də mümkündür.

Misal: İddiaçı borcun qaytarılmasını tələb edir. Cavabdeh bildirir ki, o, pulu artıq iddia qaldırılmazdan əvvəl ödəyib, borc müqaviləsinin ləğv edilməsi barədə ona bildiriş verilməyib və iddiaçı ilə əvvəlki başqa bir müqaviləsinə əsasən onun iddiaçıya qarşı eyni məbləğdə qarşılıqlı pul tələbi var və həmin tələbləri o, hər bir halda əvəzləşdirir.

Burada cavabdehin işin faktiki halları barəsində iddiaçının bildirdiklərinə münasibəti həlledicidir. O, cavabdehin mühüm əhəmiyyət kəsb edən etirazlarından heç olmasa birini mübahisələndirmirsə, iddia iddiaçının dəlillərinə görə əsassızdır və rədd edilməlidir.

Əksinə, iddiaçı bunları mübahisələndirirsə, tərəflər müxtəlif dəlillər irəli sürdüyünə görə işin həlli üçün mühüm əhəmiyyət kəsb edən faktiki hallar barədə sübutlar araşdırılmalıdır[71].

---

[71] Müqayisə et: sübutetmə ilə bağlı aşağıda II hissə B.

III. Ümumiləşdirmə

Mülki işlərə baxan hakimin iş metodikası qısa olaraq belə təsvir edilə bilər:

Öncə **işin faktiki halları** toplanmalı, nəzərdən keçirilməli və sistemləşdirilməlidir. İşin mübahisəsiz halları mübahisələndirilən hallardan fərqləndirilməlidir. Qərar üçün əhəmiyyət kəsb etməyən və prosessual cəhətdən təkrarlanan dəlillərin üzərindən xətt çəkilməlidir.

Bundan sonra iddianın **yolverilənliyi** yoxlanmalıdır.

İddia yolveriləndirsə, iddianın **yalnız iddiaçının dəlilləri nəzərə alınmaqla** əsaslı olması yoxlanmalıdır. Bunun üçün hakim hüquqi nəticəsi iddia tələbinə uyğun gələn qanuni əsası tapmalı və bundan sonra iddiaçının dəlillərinin qanuni əsasının dispozisiya şərtlərinə uyğunluğunu yoxlamalıdır (hüquqi tövsif). Uyğun gələn bir neçə iddia tələbinin qanuni əsası varsa, onların hamısı yoxlanmalıdır. Yoxlama nəticəsində iddiaçının dəlillərinə əsasən iddianın əsaslı olmaması meydana çıxarsa, iddia tələbi əlavə yoxlama aparılmadan təmin edilməməlidir.

İddiaçının dəlilləri nəzərə alınmaqla iddia əsaslıdırsa, yəni iddia tələbini əsaslı edən ən azı iddia tələbinin bir qanuni əsası varsa, 2-ci hüquqi rəylə (cavabdehin bölməsi) iddianın **cavabdehin dəlilləri nəzərə alınmaqla** əsaslı olması, beləliklə də onun bildirdiyi faktiki halların əhəmiyyət kəsb etməməsi yoxlanır. Bu halda da iddia əsaslıdırsa, iddia əlavə yoxlama aparılmadan təmin edilməlidr.

Əksinə, bu halda iddia əsaslı olmazsa, mübahisəli hallar barəsində **sübutlar** araşdırılmalıdır.

B. Sübut hüququnun əsas prinsipləri

Mülki mübahisə üzrə hakim ilk növbədə iki vəzifənin öhdəsindən gəlməlidir. Birinci, o, faktiki nə baş verdiyini müəyyən etməlidir. Təkcə bunun müəyyən edilməsi çox zaman asan olmur. Əksər hallarda iddiaçı baş vermiş hadisəni qeyri-peşəkar və qeyri-dəqiq təqdim edir və bu zaman aydınlaşdırıcı suallara ehtiyac qalır. Həm də belə təqdimat cavabdehin işin faktiki halları barəsində təqdimatından fərqli olur. Bundan sonra isə hakim faktiki baş verən hadisəni hüquqi qiymətləndirməli və tələbin mövcud olub-olmadığını müəyyən etməlidir.

Sübut hüququ aşağıdakıları müəyyən edir:

1. Hakim nə vaxt sübut tələb etməlidir;
2. Sübutu kim təqdim etməlidir;
3. Sübutetmə hansı qaydada həyata keçirilə bilər;
4. Hakim təqdim edilmiş sübutları necə qiymətləndirməlidir.

1. Sübutların təqdim edilməsinin zəruriliyi (sübutlara ehtiyac):

a. İddiaçının işin hallarını təqdim etməsinin tamlığı

İddiaçı qanuna əsasən iddia tələbini əsaslandıran bütün faktiki halları məhkəməyə bildirməlidir. O, bu öhdəliyini yerinə yetirmirsə, onun iddiası elə həmin səbəbdən rədd edilməlidir. Bu halda hakim öz təşəbbüsü ilə iddianı əsaslandıran faktları araşdıra və sübutlar tələb edə bilməz.

İzah: Müəyyən tələb yalnız o zaman mövcud olur ki, qanunla müəyyən edilmiş dispozisiya şərtləri yerinə yetirilsin. Məsələn, podratçı yalnız o zaman MM-in 769 və 770-ci maddələrinə əsasən muzd tələb edə bilər ki, o, məmulatı hazırlasın və sifarişçi işi qəbul etsin. Sifarişçi ödəmirsə və bu səbəbdən podratçı muzd barəsində iddia qaldırmaq istəyirsə,

o, yuxarıda göstərilən iki normaya əsasən hakimə aşağıdakıları bildirməlidir (təqdim etməlidir):

– o, sifarişçi ilə podrat müqaviləsi bağlayıb və müqavilədə muzd razılaşdırılıb;

– o, məmulatı hazırlayıb;

– sifarişçi məmulatı qəbul edib.

Podratçı bütün göstərilən faktiki halları bildirmirsə, onda elə özünün bildirdiyi faktiki hallara əsasən ona muzd düşmür. Məsələn, podratçı sifarişçi ilə müqavilə bağladığını, lakin məmulatı hələ hazırlamadığını bildirirsə, bu hal mövcud olur. Bu halda məhkəmə heç bir sübut araşdırmadan iddianı rədd etməlidir.

Hakimin işinin birinci mərhələsi iddia tələbi üçün qanunda hansı dispozisiya şərtlərinin müəyyən edilməsini aşkar etməkdir. Bundan sonra hakim iddiaçının qanunda sadalanmış dispozisiya şərtlərinə uyğun bütün faktiki halları təqdim etməsini yoxlayır. İddiaçının təqdim etdiyi hallar tam deyilsə, hakim iddianı elə bu səbəbdən rədd edir.

Hakim yuxarıda göstərilən misal üzrə qətnaməni, məsələn, aşağıdakı kimi əsaslandıra bilər:

«İddia rədd edilməlidir. İddiaçının cavabdehdən razılaşdırılmış muzdun ödənilməsini tələb etmək hüququ yoxdur. MM-in 769 və 770-ci maddələrinə əsasən, belə tələbin mövcud olması üçün iddiaçı və cavabdeh muzdun da razılaşdırıldığı podrat müqaviləsi bağlamalı, podratçı işi yerinə yetirməli və cavabdeh məmulatı qəbul etməlidir. İddiaçı iddia ərizəsində cavabdehlə podrat müqaviləsi bağladığını göstərsə də, məmulatı artıq hazırladığını və sifarişçinin onu qəbul etdiyini məhkəməyə bildirməyib. Beləliklə, iddiaçının məhkəməyə bildirdiklərinə əsasən onun iddia tələbi mövcud deyilsə, sübutların araşdırılmasına da zərurət yoxdur».

b. Cavabdehin etirazı

İddiaçı qanuna əsasən tələbini əsaslandıran bütün faktiki halları məhkəməyə bildirirsə, hakimin sübut tələb etməsi cavabdehin hərəkətlərindən asılıdır.

Cavabdeh iddiaçının təqdim etdiyi faktları qəbul edirsə və ya hətta MPM-in 106.3-cü maddəsinə əsasən onları etiraf edirsə, hakim bu faktlar barədə sübut tələb etməyə bilər. Qəbul edilmiş və ya formal etiraf olunmuş faktlar bu halda mübahisəsiz hallar kimi qəbul olunur.

Misal: Cavabdeh iddiaçı ilə podrat müqaviləsi bağlandığını, iddiaçının məmulatı hazırladığını və işi qəbul etdiyini, amma muzdu ödəməyə pulu olmadığını bildirirsə, hakimə heç bir sübutun təqdim edilməsi zəruri deyil. Cavabdehin etirafı iddiaçının irəli sürdüyü faktların həqiqət kimi qəbul edilməsinə səbəb olur.

Əksinə, cavabdeh iddiaçının təqdim etdiyi faktları mübahisələndirirsə, hakim sübutlar tələb etməlidir.

Misal: İddiaçı iddia edir ki, o, cavabdehlə ev tikintisi barədə müqavilə bağlamış, müqaviləyə əsasən evi tikib hazır etmiş, cavabdeh isə tikilmiş evi qəbul etmişdir. Cavabdeh isə bunun əksinə olaraq bildirir ki, ev hələ hazır deyil, çünki evin pəncərəsi və qapısı çatışmır. Burada hakim evin hazır olub-olmaması sualı barədə sübut tələb etməlidir.

Tələbin qanunda göstərilən faktiki əsaslarına aid olmayan faktları cavabdehin mübahisələndirməsi əhəmiyyətsizdir. Hakim bu barədə sübutlar tələb etməməlidir. Əks halda hakim MPM-in 80-ci maddəsini pozmuş olardı. Burada söhbət işin həlli üçün önəmli olmayan hallardan və faktlardan gedir.

Misal: İddiaçı cavabdehlə qarajı olmayan evin tikilməsi barədə razılığa gəldiyini məhkəməyə bildirir. O, evin iki ay bundan əvvəl hazır edildiyini və cavabdehin evi qəbul etdiyini də güman edir. Cavabdeh iddiaçının irəli sürdüyü halları etiraf

etməklə yanaşı, əlavə olaraq bildirir ki, iddiaçı qaraj da inşa edib. Qarajın damı qüsurludur və əlavə təmirə ehtiyacı var. Cavabdehin bu fakt barədə gümanı əhəmiyyətsizdir. İddiaçının məhkəməyə bildirdiyi və cavabdehin mübahisələndirmədiyi dəlillərə əsasən podrat müqaviləsinin predmetini qarajsız evin tikilməsi təşkil edirdi. Beləliklə, iddiaçı qarajın tikilib-tikilməməsindən asılı olmayaraq muzdunu tələb edə bilər.

Nəhayət, bununla bağlı qanunla dəqiq tənzimlənməyən (praktikada tez-tez rast gəlinən) daha bir məsələyə də toxunmaq lazımdır. Söhbət iddiaçının göstərdiyi faktiki hallara cavabdehin heç bir münasibət bildirmədiyi, yəni həmin faktları şərh etmədiyi və iddiaya qarşı etirazında başqa məsələlərə toxunduğu haldan gedir. Onda belə bir sual ortaya çıxır ki, cavabdeh irəli sürülən faktlar və halları nə etiraf, nə də ki təkzib edirsə, nə etmək lazımdır? Bunun müxtəlif səbəbləri ola bilər, məsələn, qarşı tərəfin yazılı müraciətində göstərilən faktın, sadəcə olaraq, diqqətdən yayınması, səhvən həmin faktın işin halı üçün mühüm əhəmiyyət kəsb etməyən hal kimi qiymətləndirilməsi və s. Bu halda hakim MPM-in 184.1-ci maddəsində nəzərdə tutulmuş sual vermək hüququndan istifadə etməkdə azaddır. O, cavabdehin faktiki halı qəbul etməsi, yaxud mübahisələndirməsini soruşa bilər. Cavabdeh buna reaksiya vermirsə, onun susması uyğun faktiki halın qəbul edilməsi kimi qiymətləndirilməlidir. Hakimə bütövlükdə işin faktiki hallarını təqdim etmək və qarşı tərəfin məruzəsinə öz fikirlərini bildirmək tərəflərin vəzifəsidir. Bir çox hallarda isə qarşı tərəfin faktı mübahisələndirməyə vaxtı və imkanı olubsa, susmaq onun uyğun faktiki halı mübahisələndirmək istəyində olmaması kimi qəbul edilir. Bu, çox hallarda işin əvvəlki tarixçəsinə və ya tərəflərin hüquqi nəticəsi barədə mübahisə etdikləri sənədlərin həqiqiliyi və müqavilələrin mətninə münasibətdə olur. Hakimin bu faktı sonradan mübahisəsiz qəbul etməsi prosessual qənaət prinsipinə də uyğundur. Həmin qay-

da xüsusilə tərəfin vəkillə təmsil olunduğu hala şamil edilir, çünki bu zaman vəkilin hüquqi mübahisə üzrə nələrin əhəmiyyət kəsb etməsini bilməsi ehtimal olunur.

c. Xüsusi tənzimlənmiş hallarda sübutetmədən azadolma

MPM-in 82-ci maddəsində qanun sübut etməkdən azad olan halları nəzərdə tutur. Buna əsasən hakim hamıya bəlli olan hallar və ya faktlar barəsində sübut tələb etməməlidir (MPM-in 82.1-ci maddəsi). Bundan başqa, MPM-in 82.2-ci maddəsinə əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə müəyyən edilən və işdə iştirak edən şəxslərə aid olan hallar da sübut etməkdən azad olan hallara aiddir. MPM-in 82.4-cü maddəsinə əsasən, eyni qayda cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə hərəkətlərin olub-olmaması və bu hərəkətləri kimin etməsi məsələlərinə də şamil edilir.

Hamıya bəlli olan hallara misallar: haqqında bütün qəzetlərdə və televiziyada xəbər verildiyi hava limanına bitişik bazarda baş verən yanğın; ictimai şəkildə elan edilmiş xəbərlər, məsələn, inflyasiya dərəcəsi və ya seçkilərin nəticələri.

d. Ümumiləşdirmə

Hakim sübutların təqdim edilməsinin vacibliyini müəyyənləşdirmək üçün aşağıdakı ardıcıllıqla hərəkət edir: birinci, o, iddiaçının irəli sürdüyü tələbin qanunda göstərilmiş dispozisiya şərtlərini müəyyən edir. Sonra o, iddiaçının tələbini əsaslandıran bütün ilkin şərtləri əhatə edən faktları və halları məhkəməyə bildirməsini yoxlayır. İddiaçı bunu etməyibsə, o, iddianı rədd edir. Əksinə olarsa, o, cavabdehin hansı faktları və halları etiraf etdiyini, hansıları isə təkzib etdiyini yoxlayır. Cavabdeh iddia tələbinin qanuni əsasları ilə bağlı olmayan hallar barəsində mübahisə edirsə, bu, nəzərə alın-

mır. Cavabdeh iddia tələbinin qanuni əsaslarına dair faktlar və hallar barəsində mübahisə edərsə, hakim bunlarla əlaqədar sübutları araşdırmalıdır. Yalnız MPM-in 82-ci maddəsində nəzərdə tutulan hallar istisna təşkil edir.

2. Sübutetmə vəzifəsi (sübutetmə yükü)

a) Sübutetmə vəzifəsi

aa. Prinsip

Sübutların təqdim edilməsi vacibdirsə, MPM-in 77-ci maddəsi hansı tərəfin sübut təqdim etməli olmasını müəyyən edir. MPM-in 77.1-ci maddəsinə görə, tərəflər özü üçün əlverişli olan halları sübut etməlidir. Bu, bir qayda olaraq, o deməkdir ki, adətən iddiaçı öz tələbini əsaslandıran, cavabdeh isə etirazının əsasını təşkil edən (icra, borcların əvəzləşdirilməsi, icradan imtina etmək hüququ və ya iddia müddətinin keçməsi) halları sübut etməlidir.

1-ci misal: Sifarişçidən muzdunu tələb edən podratçı sübut etməlidir ki, podrat müqaviləsi həqiqətən də bağlanıb, məmulat hazır edilib və sifarişçi məmulatı qəbul edib.

2-ci misal: İddiaçı qardaşı oğlundan qədim saatın alqı-satqı qiymətinin ödənilməsini tələb edir. Qardaşoğlu məhkəmədə etiraz edərək bildirir ki, iddiaçı saatı ona bağışlayıb. İddiaçının tələbini əsaslandıran faktları cavabdeh mübahisələndirirsə, bunlar sübuta yetirilməlidir. Bu halda da o, sübut etməlidir ki, qardaşı oğlu ilə saat barədə alqı-satqı müqaviləsi bağlayıb və tələb irəli sürdüyü alqı-satqı qiyməti barədə razılıq əldə edilib.

bb. Sübutetmə vəzifəsinin tərsinə dəyişməsi

Bəzi hallarda qanun MPM-in 77-ci maddəsində təsbit edilmiş prinsipdən istisnalar müəyyən edir. Sübutetmə vəzifəsi ilə bağlı bu cür fərqli qaydalar, məsələn, MM-in 445.6, 448.4 və

ya 23.1-ci maddələrində nəzərdə tutulub. Bu normalara əsasən cavabdeh təqsirsizliyini və ya şərəf, ləyaqəti pozan məlumatların həqiqətə uyğunluğunu sübut etməlidir. Təqsirin olması və ya müəyyən məlumatın yalan olmasının özlüyündə tələbi əsaslandıran hal olmasına baxmayaraq, əsas norma olan MPM-in 77-ci maddəsinə əsasən əslində onları iddiaçı sübut etməli idi.

Misal: İddiaçı və cavabdeh sahibkar kimi istifadədə olmuş avtomobillərin ticarəti ilə məşğul olurlar. Cavabdeh davamlı olaraq tanışlarına və müştərilərinə bildirir ki, iddiaçının peşəkar əsaslarla avtomobil oğurluğu ilə məşğul olan və oğurlanmış avtomobilləri iddiaçı vasitəsilə şərikli olaraq satışa çıxaran kriminal dairələrlə sıx əlaqələri var. İddiaçı ləyaqətini və işgüzar nüfuzunu pozan belə məlumatların təkzib edilməsi tələbi ilə iddia qaldırır. Cavabdeh belə məlumatları yaymasını mübahisələndirmir və polisdən məlumatlarının olmasına istinad edir. İddiaçı burada MM-in 23.1-ci maddəsinə əsasən tələb irəli sürür. O, sübut etməlidir ki, cavabdeh faktiki olaraq həmin məlumatları yayıb və beləliklə də onun ləyaqəti və işgüzar nüfuzu ləkələnib. Bu kazus üzrə həmin məsələlər mübahisəsizdir. Bundan əlavə, məlumatın həqiqətə uyğun olmaması müəyyən edilməlidir. Bu hal isə iş üzrə mübahisəlidir. Hakim işin bu faktiki halı ilə bağlı hansı versiyanın düzgün olmasını bilmədiyindən, lakin hüquqi mübahisənin həlli həmin haldan asılı olduğundan bu halla bağlı sübut araşdırılmalıdır. Bu zaman MM-in 23.1-ci maddəsində nəzərdə tutulmuş sübutetmə vəzifəsi ilə bağlı qaydaya uyğun olaraq, cavabdeh güman etdiyi faktların həqiqətə uyğun olmasını sübut etməlidir.

Tövsiyə: Hakim, bir qayda olaraq, konkret sübut haqqında sualı sübutetmə vəzifəsinə uyğun olaraq xülasə etməlidir. Bu yolla o bilir ki, irəli sürülən hansı fakt barəsində özündə əminlik yaratmalıdır. Bununla o, prosessual cəhətdən müəy-

yənləşdirilməsi zəruri olandan daha artıq lazımsız faktların araşdırılmasının qarşısını alır. Eyni zamanda, tərəflər də sübutetmə vəzifəsi barədə məlumatlanırlar.

Misal: Yuxarıda göstərilmiş podrat müqaviləsi misalında sifarişçi məmulatın hazır edilmədiyini iddia etsə, hakim podratçının sübutetmə vəzifəsini nəzərə alaraq sübut haqqında sualı aşağıdakı kimi xülasə edəcək: «Podratçının hazırlamalı olduğu məmulat hazır edilibmi?» (Sual belə qoyulmamalıdır: «Podratçı hazırlanmalı olan məmulatı hələ hazır etməyib?»). Yəni sübut edilməli olan faktın həqiqiliyinin sübut edilməməsi kifayət edir, bunun əksinin sübut edilməsinə ehtiyac qalmır (müqayisə et: aşağıda 4 b. cc).

cc. Sübutetmənin asanlaşdırılması («İlk baxışdan sübut»)

Qanunda şərti olaraq «ilk baxışdan sübut» adlandırılan hal nizama salınmayıb. Həyatda tez-tez baş verən elə hallar olur ki, onlar ümumi həyat təcrübəsinə əsasən, xüsusilə müəyyən səbəbli əlaqənin və ya təqsirin mövcudluğunu təsdiqləmək üçün yetərlidir. Məsələn, qəbul edilməlidir ki, iki nəqliyyat vasitəsinin toqquşması adətən üstünlük hüququ olmayan sürücünün təqsiri üzündən baş verir. Toqquşma gecə baş veribsə, üstünlük hüququ olan nəqliyyat vasitəsinin işıqları yanmayıbsa, bəri başdan işıqların yanılı olmamasının qəzaya gətirib çıxarmasını qəbul etmək olar. Bu hallarda iddiaçı yalnız qəza ilə bağlı baş verənləri sübuta yetirməlidir. Üstünlük hüququ olmayan və ya başqasının yoluna çıxan sürücünün təqsiri və ya işığın yanılı olmaması ilə qəza arasında səbəbli əlaqənin olmasını məhkəmə öncə güman edə bilər.

Lakin belə güman ona gətirib çıxarmır ki, sübutetmə vəzifəsinin tərsinə dəyişməsi halında (müqayisə et: yuxarıda bb.) olduğu kimi, artıq cavabdeh təqsirinin və ya səbəbli əlaqə-

nin olmamasını sübuta yetirməlidir. Cavabdehin müəyyən halları məhkəməyə bildirməsi və bunları sübut etməsi nəticəsində hadisələrin baş verməsinin *başqa variantının* olması nəticəsi çıxırsa, bu, yetərlidir. Yəni o, özünün təqsirli olması və ya öz hərəkətinin qəza üçün səbəb olması prezumpsiyasını şübhə altına qoymağa çalışmalıdır. O, buna nail olarsa, artıq iddiaçı öz gümanlarını sübuta yetirməlidir.

Son nəticədə sübutetmənin belə asanlaşdırılmasının qəbul edilməsi və hansı hallarda mümkün olması məhkəmə praktikasında və hüquq elmində sonrakı müzakirələrdən asılı olacaq. Lakin sübutetmənin belə asanlaşdırılması birmənalı nizama salınmadığından, o, yalnız istisna hallarda tətbiq edilməli qətnamədə xüsusilə əsaslandırılmalıdır.

b. Sübutlar olmadıqda və ya yetərli olmadıqda hakimin təklifi

Tərəflərin təqdim etdikləri sübutlar hakimi sübut edilməli fakta inandırmaq üçün kifayət etmirsə, hakim MPM-in 77.3-cü maddəsinə əsasən tərəflərin diqqətini buna yönəldə bilər. O, əlavə sübutlar təqdim etmək barədə təklif verə bilər. Yuxarıda təqdim olunmuş şərəf və ləyaqətin müdafiəsi ilə bağlı kazusda, məsələn, hakim cavabdehdən iddiaçının peşəkar əsaslarla oğurlanmış avtomobilləri satmasını təsdiq edə bilən şahidi məhkəməyə təqdim etməsini tələb edə bilər.

Belə təklif vəzifəsi qanunla tənzimləndiyindən, bu vəzifənin icrası hakimin qərəzli sayılması və ona etiraz üçün əsas ola bilməz.

c. Sübutetmə vəzifəsinin bölüşdürülməsinin qətnamə üçün əhəmiyyəti

Sübut etməli olan tərəf özü üçün əlverişli olan halları sübut edə bilmirsə, bu, onun ziyanınadır. Bu, üzərinə sübutetmə

vəzifəsi düşən tərəfin, ümumiyyətlə, sübut təqdim etmədiyi və ya təqdim etdiyi sübutların hakimi inandıra bilmədiyi hallarda baş verir. Şərəf və ləyaqətin müdafiəsi ilə bağlı kazusda cavabdeh iddiaçının kriminal davranışını təsdiq edə bilən şahid tapa bilmirsə, bu, onun ziyanınadır. Beləliklə, hakim iddianı təmin edəcək. Eynilə cavabdeh şahid gətirdiyi təqdirdə belə hakimdə şahidin həqiqəti dediyinə inam yaranmazsa, hakim yenə də iddianı təmin edəcək.

3. Sübutların növləri və təqdim edilməsi

a. Sübutların növləri

MPM-in 76.2-ci maddəsində sübutların aşağıdakı növlərinin adı çəkilir: yazılı və maddi sübutlar, ekspert rəyi, yerində müayinə, səs və video yazılar, şahid ifadələri, işdə iştirak edən şəxslərin izahatları. Adətən adı çəkilmiş bütün sübut növləri vasitəsilə sübutlar təqdim edilə bilər. Ayrı-ayrı sübut növləri barəsində:

aa. Yazılı sübutlar (MPM-in 89-90-cı maddələri)

MPM-in 89.1-ci maddəsində sübut kimi qəbul edilə bilən yazılı sübutların tam olmayan siyahısı verilib. Burada notariat qaydasında təsdiqlənmiş sənədlər, aktlar, müqavilələr, arayışlar və işgüzar yazışmalar göstərilib. MPM-in 89.2-ci maddəsi müəyyən edir ki, yalnız bu yazılı sübutlar deyil, faks, elektron və ya başqa rabitə vasitəsilə, yaxud sair üsulla əldə edilmiş materiallar sübut kimi qəbul edilə bilər. Amma bunun üçün onların həqiqiliyini müəyyən etmək imkanı ilkin şərtdir. Məhkəməyə yazılı sübutların ya əsli, ya da lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. İşdə iştirak edən başqa şəxslərdə təqdim edilən yazılı sübutların surəti olmazsa, onların surəti MPM-in 89.5-ci maddəsinə uyğun olaraq həmin şəxslərə verilir.

aaa. İmzalı və imzasız yazılı sübutların fərqləndirilməsi

Sübutların qiymətləndirilməsi zamanı imzalanmış və imzalanmamış yazılı sübutlar fərqləndirilməlidir. Çünki imzalanmış yazılı sübutların üstün sübutetmə qüvvəsi var.

Misal: A mebel dükanının sahibidir. B divan almaq istəyir. A-nın həm ağ, həm də çəhrayı rəngdə təklif etdiyi divan modeli onun çox xoşuna gəlir. B 2-ci modeli almaq qərarına gəlir, amma rəng barədə xanımı ilə məsləhətləşmək istəyir. Buna görə də A və B yazılı şəkildə razılaşırlar ki, A B-yə seçilmiş modeldən olan divanı 500 manata satacaq. Daha sonra, müqaviləyə əsasən B-yə rəngi seçmək imkanı verilir ki, o da bu seçimi bir həftə ərzində etməlidir. İki gün sonra A bu mətndə faks alır: «Seçilmiş divanın ağ rəngdə göndərilməsini xahiş edirəm». Faks imzalanmamış olur. Bundan sonra A çəhrayı rəngli divanı başqasına satır. Həmin gün günortadan sonra B zəng vuraraq bildirir ki, o, çəhrayı rəngli divanı almaq qərarına gəlib. A-nın cəhrayı rəngli ikinci divanı olmadığına görə o, alınmış faksı əsas götürərək divanı göndərməkdən imtina edir. B belə faks göndərmədiyini bildirir. B çəhrayı divanın göndərilməsi barədə iddia qaldırsa, hakim hansı qərarı verəcək?

B-nin çəhrayı divanın göndərilməsi haqqında iddia tələbinin qanuni əsası kimi MM-in 614.1-ci maddəsi cıxış edə bilər. Buna əsasən tərəflər ağ deyil, məhz çəhrayı divan barəsində etibarlı pərakəndə alqı-satqı müqaviləsi bağlamalı idilər. Tərəflər arasında yalnız B-nin hansı rəngi seçməsi mübahisəlidir. A iddia edir ki, B faks ilə ağ rəngi seçib. B bunu təkzib edir və sonra aparılan telefon danışığını əsas gətirir. Həmin telefon danışığını A təkzib etmir və bildirir ki, həqiqətən də telefonla B çəhrayı rəngi seçmişdi. Beləliklə, işin həlli B-nin telefon danışığından qabaq artıq ağ divanı seçməsi faktını faks vasitəsilə sübut edə bilməsindən asılıdır. Bu halda B artıq seçim hüququndan istifadə edib və ağ divan müqavilənin

predmetinə çevrilib. Buna görə də onun çəhrayı divanın göndərilməsi ilə bağlı heç bir tələbi ola bilməz.

Məzmununa görə faks ağ divanın seçilməsini təsdiqləyir. Amma faksı B imzalamayıb. Buna görə də onu B-nin tərtib etməsi nəticəsinə gəlmək olmur. Elə B də faksı tərtib etdiyini təkzib edir. Deməli, A faksın həqiqətən də B-nin tərtib etdiyini sübut edən halları və faktları təqdim etməlidir. O, sübut etməlidir ki, B öz seçim hüququndan telefonla danışıqdan əvvəl istifadə edib. O, yalnız imzalanmamış faksı təqdim etməklə kifayətlənirsə, onda ağ divanın seçilməsini sübut edə bilməyəcək. Lakin A faksın göndərilmə nömrəsinin B-nin faks nömrəsi olduğunu bildirsə və həmin halı sübut edə bilsə, o, buna nail ola bilər. Bu fakt faksı B-nin tərtib etdiyini təsdiq edəcək tutarlı dəlil ola bilər.

<u>Misalın dəyişdirilmiş variantı:</u> faksda B-nin imzası olsaydı, vəziyyət necə dəyişərdi?

Faksı B imzalasaydı, onda A-nın ağ divanın seçilməsini sübut etmək üçün faksı təqdim etməsi kifayət edərdi. Çünki imzanın olması faksda göstərilən iradə ifadəsini B-nin verməsi nəticəsinə gəlməyə imkan verir.

bbb. İmzalanmış yazılı sübutun məzmunca düzgünlüyü və tamlığı prezumpsiyası

İmza edən şəxs bildirir ki, sənədi o tərtib edib, sənədin məzmunu ilə razıdır və onu özü üçün qüvvədə olan hesab edir. Buna görə imza yazının məzmunca düzgün və tam olması üçün prezumpsiyadır. Çünki ümumi həyat təcrübəsindən çıxış edərək demək olar ki, şəxs yalnız yazıda uyğun məsələ ilə əlaqədar bütün zəruri bəndlər müəyyən edildikdə və o, yazının məzmunu ilə razı olduqda formal olaraq yazını imzalayır. Amma bunun ümdə şərti ondan ibarətdir ki, şəxs imzanı yazının müəyyən hissəsi ilə bağlı deyil, bütövlükdə yazının altında qoymalıdır.

Düzgünlük və tamlıq prezumpsiyası o zaman qüvvədə olur ki, yazı:

(1) **zahirən toxunulmaz** olsun,

(2) **imza** həqiqətən də **imzalayan** şəxsin olsun.

(1) ilə bağlı:

Yazı zahirən toxunulmaz deyilsə, yəni, misal üçün, sənəddə qaralama, sonradan düzəlişlər və ya başqa dəyişikliklər varsa, onun sübut kimi dəyəri xeyli azalır. Həyat təcrübəsinə əsasən, zədələr və sonrakı mətn dəyişiklikləri sənədin mətninin imza edənin iradəsinə uyğun olmasına şübhələr yaradır. Əlbəttə, imza edən şəxs dəyişikliyi xüsusi imza ilə ayrıca rəsmiləşdirsəydi, bu, başqa cür qəbul oluna bilərdi.

Misal: Tərəflər «Lada» maşını barəsində yazılı alqı-satqı müqaviləsi bağlayırlar. Onlar 5.000 manat qiymət barəsində razılığa gəlirlər və bunu alqı-satqı sənədlərində qeyd edirlər. Sonradan onlar qiymət haqqında danışıqlar aparırlar. Tərəflər sonda qiymətin 4.500 olması barədə razılığa gəlirlər. Bütün müqaviləni yenidən tərtib etməmək üçün onlar 5.000-i pozub, yerinə yeni qiyməti yazırlar. Bu dəyişikliklər uyğun imzalarla aydın olaraq təsdiqlənsə, onda tərəflərin razılaşdığı qiymətin həqiqətən də 4.500 olması prezumpsiyası güman edilə bilər.

Aşağıdakı hallarda sənəd zahirən toxunulmaz deyil:

– kağız zədələnib. Sənədin bir hissəsi kəsilib, cırılıb və ya üstünə nə isə yapışdırılıb;

– mətnin müəyyən parçalarının üzərindən xətt çəkilib və başqası ilə əvəz edilib;

– mətnin manipulyasiyası (yan-yörəsinin düzəldilməsi), məsələn, tippeksin və ya pozanın köməyi ilə.

(2) ilə bağlı:

İmza etməsi güman edilən şəxs imzanın onun olduğunu təkzib edirsə, onda sənədi öz xeyrinə təqdim edən qarşı tərəf

imzanın saxta olmadığını sübut etməlidir. Belə prinsip var ki, **sənədi sübut kimi təqdim edən tərəf sənədin həqiqiliyi mübahisələndirildikdə imzanın imza edən şəxsə mənsub olmasını sübut etməlidir.** Bu cür sübut qrafoloji ekspert rəyi və ya başqa sübut vasitələri ilə, məsələn, imza edilən zaman iştirak etmiş şahidlərin köməyi ilə irəli sürə bilər.

Misal: Tərəflər satıcının avtomobili artıq alıcıya verməsi barədə mübahisə edirlər. Alıcı iddia edir ki, satıcı avtomobili hələ ona verməyib və satıcıya qarşı maşının onun mülkiyyətinə verilməsi haqqında iddia qaldırır. Satıcı isə bununla bağlı güman edir ki, avtomobili artıq alıcıgilə gətirib və onun oğluna verib. Burada satıcı (tələbin icra edilməsi məsələlərində həmişə olduğu kimi) maşını verdiyini sübut etməlidir, çünki bu, onun üçün əlverişli (onun istinad etdiyi) haldır. Sübut kimi satıcı alıcının oğlunun imzaladığı təhvilalma qəbzini təqdim edir. Alıcı güman edir ki, sənəd saxtadır. Burada satıcı qəbzin həqiqətən də alıcının oğlunun imzaladığını sübut etməlidir.

ccc. Sənədlərin manipulyasiyası və ya natamamlığının güman edilməsi zamanı sübutetmə vəzifəsi

Sənədin həqiqiliyi qəti müəyyəndirsə, yəni imza həqiqətən də sənəddə göstərilən şəxsə məxsusdursa, qarşı tərəf yalnız sənədin **məzmunca** yanlış olması barədə etirazları ilə (məsələn, əldə olunmuş razılaşmalar düzgün əks olunmayıb və ya müqavilədə əks olunmayan başqa qeyd-şərtlər nəzərdə tutulub) sənədin məzmunca düzgün və tam olması prezumpsiyasını qüvvədən sala bilməz. Həmin etirazlardan əlavə, o, sənədin məzmun baxımından düzgün olmaması və ya tamamlayıcı, fərqli qeyd-şərtlərin olmasını sübut etməlidir.

Misal: (məzmunun düzgünlüyünün mübahisələndirilməsinə dair): A və B kompüter proqramının göndərilməsi barəsində yazılı alqı-satqı müqaviləsi bağlayırlar. Hər iki tərəfin imzaladığı müqavilədə alqı-satqı məbləği kimi 30.06.2004-cü ildə

ödənilməli olan 500 manat göstərilir. Satıcı 15.07.2004-cü ildə müqaviləyə əsaslanaraq A-ya qarşı 500 manatın ödənilməsi haqqında iddia qaldırır. A etiraz edir və bildirir ki, müqavilədə malın qiymətinin 20.09.2004-cü ildə ödənilməsi barədə razılığa gəlinib. 30.06 tarixi yalnız texniki-mühasibat səbəblərindən B-nin xüsusi arzusu nəzərə alınaraq müqavilədə ödəniş tarixi kimi göstərilib. Hakim hansı qərarı qəbul edəcək?

B MM-in 427-ci maddəsinə əsasən iddia ərizəsinin verilməsinə qədər artıq icra müddətinin çatmasını sübut etməlidir. Bunu sübut etmək üçün o, müqavilənin mətnini əsas gətirə bilər. Ümumi həyat təcrübəsinə əsasən, müqavilə mətninin tərəflərin iradəsinə uyğunluğu prezumpsiyası mövcuddur. Buradan belə çıxır ki, A tərəflərin həqiqətən də şifahi olaraq başqa ödəniş vaxtı müəyyənləşdirdiyini sübut etməlidir. Yəni o, sənədin məzmunca yanlış olması ilə bağlı tam sübut təqdim etməlidir.

<u>Misal</u> (blankın sui-istifadə nəticəsində doldurulması): A öz şəxsi musiqi kolleksiyasından satışda tapılmayan bir neçə qədim musiqi vallarını B-yə satmaq istəyir. Bunun üçün o, bütün vallarını B-yə təqdim edir. B 30 val seçir. A-nın çox vaxtı olmadığına görə o, B-dən seçdiyi valların siyahısını yazılı qeyd etməsini xahiş edir. Sonra o, B-nin səmimiliyinə etibar edərək hələ tam doldurulmamış blanka imza edir. B isə blanka seçdiyi valların yalnız 10-nu daxil edir. Az sonra B razılaşdırılmış qiyməti ödəməkdən imtina edir və bildirir ki, A ona yalnız siyahıda göstərilmiş 10 valı satıb və 10 val verib. A həqiqətən də B-yə 10 deyil, 30 val satdığını sübut etmək üçün nə etməlidir?

A-nın siyahının altından imza atması bu cür güman etməyə əsas verir ki, o, yazını özü tərtib etmiş, ən azı onun məzmunu ilə razılaşmış və onu özü üçün qüvvədə olan hesab etmişdir. Həmin prezumpsiyanı təkzib etmək üçün A B-nin blankı onların gəldikləri razılığa zidd olaraq doldurması və əslində B-yə 30 val satması və verməsini tam sübut etməlidir.

bb. Şahidlər (MPM-in 104-105-ci maddələri)

Adətən şahidlər ifadələrini hakim qarşısında şifahi verməlidirlər. Amma MPM-in 104-cü maddəsinə uyğun olaraq, hakim yazılı ifadənin verilməsini də tələb edə bilər. Bu, məsələn, şahidin çox uzaqda yaşadığı və onun məhkəməyə gəlməsinin həddən artıq çox xərclərə səbəb ola biləcəyi hallarda ola bilər. Yazılı ifadənin verilməsi həmişə məhdud, qaçılmaz istisna hallarda olmalıdır, çünki sübutların qiymətləndirilməsi üçün şahid barəsində şəxsi təəssürat vacibdir və tərəflərin sual hüququ da təmin edilməlidir.

MPM-in 104.4-cü maddəsinə əsasən müəyyən şəxslər şahid qismində dindirilə bilməzlər, MPM-in 104.5-ci maddəsinə görə isə, müəyyən şəxslər ifadə verməkdən imtina edə bilərlər.

Şahid qismində dindirilə bilməyən şəxslər:

– azyaşlı olduğuna görə, fiziki və ya psixi qüsurları üzündən faktları düzgün qavraya bilməyən və ya faktlar barədə düzgün ifadə verə bilməyən şəxslər;

– vəzifələrini icra etməklə əlaqədar onlara məlum olan hallar barədə mülki işlər üzrə nümayəndələr və cinayət işləri üzrə müdafiəçilər;

– ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar ona məlum olan məsələlər üzrə – hakim;

– dini etiqad ilə əlaqədar onlara məlum olan məsələlər üzrə – din xadimləri;

– peşə borcunu həyata keçirməklə əlaqədar onlara məlum olan hallar barədə – vəkillər.

İfadə verməkdən imtina etmək hüququ aşağıdakı şəxslərə məxsusdur:

– şəxs özünə qarşı;

– ər-arvad bir-birinə qarşı, uşaqlar valideynlərinə, valideynlər uşaqlarına qarşı;

– qardaş və bacılar bir-birinə qarşı, nənə-baba nəvələrinə, nəvələr baba-nənələrinə qarşı;

– vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar onlara məlum olan məlumatlar üzrə AR Milli Məclisinin və Naxçıvan MR Ali Məclisinin deputatları.

Adı çəkilən istisna hallar nəzərə alınmaqla şahidlər MPM-in 105.1 və 62.2-ci maddələrinin tələblərinə görə məhkəmədə ifadə verməyə borcludurlar. Bu zaman onlar MPM-in 62.3-cü maddəsinə əsasən həqiqəti demək vəzifəsi daşıyırlar.

Haşiyə: Şahidlərin dindirilməsi ilə bağlı tövsiyələr

(1) Hər bir şahid təklikdə, başqa şahidlərin iştirakı olmadan dindirilməlidir. Hələ ifadə verməmiş şahidlər məhkəmə zalında qala bilməzlər (MPM-in 195.1, 195.6-cı maddələri).

(2) Bir neçə şahid olduqda: sübutetmə vəzifəsi daşıyan tərəfin məhkəməyə təqdim etdiyi və ifadəsinin daha dolğun olmasının gözləndiyi şahidin dindirilməsi ilə başlayın. Əks şahidlər bundan sonra dindirilməlidir.

(3) Şahid məhkəməyə yalan ifadə verməyə görə məsuliyyət barədə xəbərdar edilməlidir (MPM-in 194.1-ci maddəsi).

(4) Öncə şəxsiyyəti ilə bağlı məlumatlar (MPM-in 194.1-ci maddəsi)

(5) Zəruri hallarda şahidin ifadə verməkdən imtina edə bilməsi barədə məlumatlandırma (MPM-in 104.5-ci maddəsi). Buna baxmayaraq, ifadə vermək istəyirsə, o, həqiqəti söyləməlidir.

(6) İfadə verməyə başlamamışdan əvvəl hakim bir daha şahidə konkret sualını bildirməli və bu məsələ ilə bağlı bildiklərini məhkəməyə deməyə onu dəvət etməlidir.

(7) Bir qayda olaraq, şahid ifadə verərkən onun sözünü kəsmək olmaz, lakin sübut edilməli olan məsələdən uzaqlaşan şahidi hakim vaxtaşırı həmin mövzuya qaytara bilər (diqqət: müəyyən hallarda əlavə hadisələr də əhəmiyyət kəsb edə bilər, məsələn, inandırıcılığın dəyərləndirilməsi zamanı).

(8) Hakim nəzakətli, açıq və səbirli olmalıdır. Şahidə mənəvi iradlar tutmayın. Xoş səslə sərbəst dindirmə üsulu və şahidlə hörmətlə davranma onun üçün yad olan məhkəmə zalında şahidin mümkün olan çəkingənliyini aradan qaldıra bilər.

(9) Şahid hirslənirsə, hakim buna görə tənqid etmək əvəzinə onu sakitləşdirməlidir. Şahidə emosional baxımdan daha az təsir edən məsələ barəsində sorğu-sual etmək olar.

(10) Qısa cümlələrlə, ümumi anlaşılan sözlərdən ibarət dindirmə dilinə fikir verin, mücərrəd və hüquqi məfhumlardan imkan daxilində yayının.

(11) Diqqət yetirin ki, şahid məhz özünün bilavasitə qavradığı faktlar barədə məlumat versin, gəldiyi nəticələr, qiymətləndirmələr, təcrübə və öz fikirlərini bildirməsin. Mühüm əhəmiyyət kəsb edən məqamdır ki, şahid hadisə barədə başqalarından eşitdiyini deyil, özünün eşitdiyi və gördüyünü bildirsin.

(12) İmkan dairəsində açıq suallardan («Nə baş vermişdir?») istifadə etmək və sadəcə olaraq «bəli» və ya «xeyr»lə cavablandırıla biləcək suallardan qaçmaq. Yönəldici suallardan, yəni şahidi faktiki olaraq həmin cavaba sövq edən suallardan istifadə etməmək.

(13) Hakim ifadənin bəri başdan nə ilə nəticələnəcəyinin özü üçün müəyyənləşdirilmiş olması kimi görünüş yaratmaqdan qaçmalıdır.

(14) Birmənalı yalan ifadələr verilən zaman hakim şahidə onun yalan deməsi barədə gəldiyi nəticəni dərhal birdirməməlidir. İdeal halda hakim elə şərait yaradır ki, şahid özü yalan ifadə verdiyini boynuna alır. Açıq-aşkar yalan ifadəni düzəlt-

mək üçün yalnız son imkanda hakim birmənalı olmalıdır (təkidlə yalan ifadə verməyə görə məsuliyyət barədə şahidə xəbərdarlıq etmə, ziddiyyətlərin şahidin diqqətinə çatdırılması).

(15) Sual verənlərin növbəliliyi:

a) öncə hakim (sözsüz ki, o, prosesin istənilən mərhələsində suallar verə bilər, MPM-in 195.4-cü maddəsi), sonradan

b) vəsatəti əsasında şahidin dəvət edildiyi tərəf (MPM-in 195.3-cü maddəsi), daha sonra

c) qarşı tərəf.

(16) Tərəflərin/vəkillərin sualları zamanı məhkəmə faktlarla bağlı yalnız konkret sualların şahidə verilməsinə və sualların izahatlar və ya qiymətləndirilmələrdən azad olmasına diqqət yetirməlidir. Açıq-aşkar sübutetmə sualına aid olmayan, şahidin artıq cavablandırdığı və ya şahidə qarşı aqressiv suallara icazə verilməməlidir.

cc. Ekspertlər (MPM-in 97-103-cü maddələri)

İşə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək məqsədi ilə hakim işdə iştirak edən şəxslərin vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər (MPM-in 97.1-ci maddəsi). İşdə iştirak edən şəxslər konkret səlahiyyətli şəxsin ekspert təyin edilməsi barədə razılığa gələrlərsə, hakim həmin şəxsi ekspert təyin edə bilər (MPM-in 97.2-ci maddəsi). Tərəflər ekspertin həll edəcəyi məsələ barədə sualları məhkəməyə təqdim edə bilərlər. Buna baxmayaraq, ekspert rəyinin alınmasına dair sualların yekun məzmununu məhkəmə müəyyən edir. MPM-in 98-ci maddəsinə əsasən, ekspertin təyin olunması haqqında tərtib edilən qərardadda ekspertiza qarşısında qoyulan suallarla yanaşı, təsdiq və ya rədd edilməsi üçün ekspertiza keçirilən faktlar göstərilməlidir. Vaxtın uzanmasından, təkrar/əlavə suallardan və xərclərdən qaçmaq üçün həmişə sübut barədə sualların mümkün qədər dəqiq xülasə edilməsi tövsiyə olunur. MPM-in 99-101-ci maddələrində ekspertiza apa-

rılması qaydası tənzimlənir. Daha sonra, ekspertiza ilə bağlı hissədə ekspert rəyinin qiymətləndirilməsinə dair daha iki qayda nəzərdə tutulur: MPM-in 103-cü maddəsi ekspert rəyinin məhkəmə üçün məcburi olmadığını müəyyən edir. Yəni ekspert rəyini də, başqa sübutlar kimi, məhkəmə qiymətləndirir. Hakim həmişə ekspert rəyi əsasında mövqeyini (inamını) formalaşdırmalıdır. Hakimin mövqeyi ekspertin fikrindən fərqlidirsə, MPM-in 103.2-ci maddəsinə əsasən, o, mövqeyini xüsusi olaraq əsaslandırmalıdır. Tərəflərdən biri ekspertizanın keçirilməsinə mane olursa, MPM-in 97.5-ci maddəsinə görə, hakim mübahisəli fakt barəsində hansı tərəfin mane olmasından asılı olaraq faktı onun ziyanına təsdiq olunmuş və ya rədd edilmiş hesab edə bilər.

dd. Maddi sübutlar (MPM-in 91-94-cü maddələri)

Maddi sübutlar haqqında qaydalar MPM-in 91-94-cü maddələrində nəzərdə tutulub. MPM-in 93.3-cü maddəsi maddi sübutların müayinəsi və tədqiqinə dair məlumatların mütləq protokola salınmalı olmasını müəyyən edir. Yalnız belə olduqda, tərəflər sonra çıxarılacaq qətnaməni və onun əsaslandırılmasını dərk edə bilərlər.

ee. Səs və video yazılar (MPM-in 95-96-cı maddələri)

Adətən gizli yolla əldə edilmiş səs və video yazılardan sübut kimi istifadə olunmasına icazə verilmir. MPM-in 95.2-ci maddəsinə görə, bundan istisnaları qanun özü müəyyən etməlidir. Saxtalaşdırma riski böyük olduğundan səs və video yazıların sübut kimi qiymətləndirilməsi zamanı xüsusi diqqət göstərilməlidir.

ff. Sübutların olduğu və saxlandığı yerdə müayinə və tədqiq edilməsi (MPM-in 79-cu maddəsi)

Yazılı və ya maddi sübutu məhkəməyə təqdim etmək mümkün deyilsə və ya məhkəməyə gətirmək çətindirsə, hakim on-

ları olduğu və ya saxlandığı yerdə müayinə və tədqiq edə bilər. Məsələn, iş tikintidə olan qüsurlar barəsindədirsə, hakimin sübutları olduğu yerdə müayinə və tədqiq etməsi ağlabatan olar. Tikinti qüsurlarını aşkar etmək üçün texniki biliklər tələb olunursa, hakim MPM-in 79.3-cü maddəsinə əsasən müayinə və tədqiqatda iştirak etmək üçün ekspert dəvət edə bilər.

gg. İşdə iştirak edən şəxslərin izahatları (MPM-in 106-cı maddəsi)

MPM-in 106-cı maddəsinə əsasən hakim tərəflərin izahatlarını başqa sübutlarla birgə qiymətləndirir. Bu müddəadan tərəflərin izahatlarının nəzəri baxımdan sübut olunması tam aydın olmur. Amma uyğun qaydaların sübut hüququ bölməsində yerləşdirilməsi və tərəflərə MPM-in 104.5.1-ci maddəsinə əsasən ifadə verməkdən imtina etmək hüququnun verilməsi buna işarə edir. MPM-in 106.2-ci maddəsi də ifadə verməkdən imtina məsələsinə toxunur: tərəf hakimin sorğu etdiyi məsələyə dair məlumat verməkdən imtina edirsə, məhkəmə mövcud məlumatlara əsasən işin hallarını müəyyən olunmuş hesab edə bilər. Tərəflərin izahatlarının sübut kimi tövsif edilməsinin əleyhinə tərəflərin şahidlərdən və ekspertlərdən fərqli olaraq həqiqəti demək vəzifəsini daşımamaları çıxış edir. Tərəflər üçün MPM-in 62.3, 62.4 və 63.4-cü maddələrindəki kimi qaydalar müəyyən olunmayıb. Nəzəri bölgüdən asılı olmayaraq, tərəflər işdə maraqlı şəxs olduqlarından hakim sübutların qiymətləndirilməsi zamanı tərəflərin izahatlarının sübut dəyərinə görə şahid ifadəsinə bərabər tutula bilməməsini həmişə nəzərə almalıdır.

b. Sübutların təqdim və tələb edilməsi

MPM-in 78.1-ci maddəsinə əsasən, bütün sübutlar artıq birinci instansiya məhkəməsinə təqdim edilməlidir.

Tərəfin işdə iştirak etməyən şəxslərdən və ya orqanlardan zəruri olan sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, MPM-in 78.2-78.5-ci maddələrinə uyğun olaraq həmin sübutları tələb etmək barədə məhkəməyə vəsatətlə müraciət edə bilər. Vəsatətə cavab olaraq məhkəmə tərəfə sübutun əldə edilməsini işdə iştirak etməyən şəxsdən və ya orqandan tələb etməsi hüququ verən sənəd verə bilər. İşdə iştirak etməyən şəxslər və ya orqanlar sübutu ya bilavasitə məhkəməyə göndərir, ya da sorğu verən tərəfə təqdim verirlər. Sübutu təqdim etmək vəzifəsi məhkəmənin üzrsüz hesab etdiyi səbəblərə görə yerinə yetirilməzsə, şəxs MPM-in 78.4-cü maddəsinə əsasən cərimələnə bilər. O, 220 manatadək cərimə tətbiq edə bilər. Bununla yanaşı, MPM-in 78.5-ci maddəsinə əsasən, cərimə qoyulması tələb olunan sübuta malik şəxsi həmin sübutu məhkəməyə təqdim etmək vəzifəsindən azad etmir.

c. Sübut kimi qəbul etməkdən imtina

Qətnamənin qəbul edilməsi bundan asılıdırsa, hakim tərəflərin bütün sübut təkliflərini qəbul etməlidir. O, yalnız yolverilməz, əhəmiyyətsiz və lazımsız sübutların qəbul olunmasından imtina edə bilər.

aa. Sübutun yolverilməz olmasını qanun müəyyən edir. Məsələn, MPM-in 76.3-cü maddəsinə əsasən, qanunazidd yolla əldə olunmuş sübutlardan istifadə olunmasına yol verilmir. Misal üçün, oğurlanmış məktub və ya hədə-qorxu ilə əldə edilmiş şahid ifadəsi sübut kimi istifadə oluna bilməz. Sübut konkret sübutetmə mövzusuna aid deyilsə, yalnız yeni məlumat əldə etmək üçün verilirsə, o, yolverilməzdir.

Misal: İddiaçı müqavilənin bağlanması ilə bağlı danışıqlarının məzmunu ilə əlaqədar müəyyən şahidin dindirilməsini xahiş edir, lakin şahid nəyi təsdiq etməsi barədə konkret bir şey söyləmir. O, ümid edir ki, dindirmə nəticəsində özü üçün əlverişli olan faktlar barəsində məlumat ala bilər.

bb. Əhəmiyyətsiz sübut əhəmiyyətsiz faktı təsdiqetmədir. Məsələn, məntiqi baxımdan istifadəyə yararsız dəlil bura aiddir (dəlillə bağlı müqayisə et: aşağıda 4. b. bb. (1)).

cc. Lazımsız sübut sübut etməli olan tərəfin təqdim etdiyi elə sübutdur ki, onun sübut gətirdiyi faktın həqiqiliyi barəsində hakim artıq əmindir (məsələn, artıq təqdim olunmuş başqa sübutlara əsasən). Amma hər bir halda bu zaman o, bir qayda olaraq, həmin faktla bağlı qarşı tərəfin təqdim etdiyi sübutları nəzərə almalıdır.

Hakim heç vaxt sübutu yalnız onu uyğun olmayan hesab etdiyi üçün qəbul etməkdən imtina edə bilməz. Məsələn, şahidin tərəflə yaxın qohumluğu və ya sübutun tədqiq edilməsinin, yəqin ki, uğursuzluqla nəticələnəcəyi bu baxımdan yetərli deyil. Məhkəmə sübutları yalnız o zaman qiymətləndirə bilər ki, onlar təqdim edilsin. Əks halda, tərəflərin məhkəməyə müraciət etmək hüququ/məhkəmədə dinlənilmək hüququ pozulacaq.

4. Sübutların qiymətləndirilməsi

a. Məhkəmənin sübutları azad qiymətləndirməsi prinsipi

MPM-in 88-ci maddəsinə əsasən, məhkəmənin sübutları azad qiymətləndirməsi prinsipi qüvvədədir. Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra qiymət verir. MPM-in 88-ci maddəsinin ikinci cümləsi müəyyən edir ki, heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur. Bu, xüsusilə ekspertiza ilə bağlı önəmlidir. MPM-in 103-cü maddəsinə görə, ekspert rəyi məhkəmə üçün məcburi deyil. Hakim ekspert rəyini də tənqidi təhlil etməli və bunun əsasında fikrini qurmalıdır.

Ümumi olaraq sübutların qiymətləndirilməsi ilə bağlı demək olar ki, **tərəfin güman etdiyi mübahisəli halın obyektiv olaraq, böyük yəqinliklə düzgün olması mövcud**

olmalı və hakim subyektiv olaraq işin halının düzgün olmasına inanmalıdır, yəni onun düzgünlüyünə əsaslı şübhələri olmamalıdır. İnam olmadan yəqinliyin olması kifayət etmir. Yəqinlik olmadan inamın olması isə özbaşınalıqdır.

b. Konkret halda hakimin hərəkətləri

MPM-in 88-ci maddəsinin tələblərinə cavab vermək üçün hakim hansı ardıcıllıqla hərəkət etməlidir?

aa. Birinci, hakimin həmişə hansı konkret faktın (halın) sübut olunmasını yadda saxlaması vacibdir. Bunun üçün hakimin əvvəlcədən sübutetmə vəzifəsinə uyğun olaraq sübut barəsində sualı dəqiq xülasə etməsi çox vacibdir (müqayisə et: yuxarıda 2 a.).

bb. Bundan sonra hər bir sübut iki cəhətdən yoxlanmalıdır:

(1) O, nəyi ifadə edir (ifadənin məzmunu, təfsir)?

(2) O, inandırıcıdırmı (sübutetmə qüvvəsi)?

(1) ilə bağlı:

Hakim ilk növbədə **sübut vasitəsinin məzmununu** anlamalıdır və **sübut edilməli olan fakt barədə** həmin sübutun hansısa qərara gəlməyə imkan verib-verməməsi barədə fikir yürütməlidir. Yazılı sənədlərin, şahid ifadələrinin bir çox hallarda təfsirə ehtiyacı olur. Bundan sonra hakim sübut vasitəsinin sübut edilməli olan faktı bilavasitə sübut etməsini, yaxud da sübut edilməli olan fakt barəsində məntiqi yararlı nəticəyə gəlməyə imkan verən başqa bir fakt barəsində olmasını müəyyənləşdirməlidir. İkinci halda söhbət dəlillərdən gedir (Dəlillər elə köməkçi faktlardır ki, onlar mübahisələndirilən əsas faktlar barədə məntiqi nəticəyə gəlməyə imkan verir. Daxili faktlar, məsələn, tərəfin niyyəti və ya müəyyən məsələni bilməsi praktik olaraq yalnız dəlillərlə sübut edilə bilər. Dəlilin məntiqi baxımdan yararlığını müəyyən etmək adətən həyat təcrübəsinə istinadən mümkündür).

Misal: İddiaçı cavabdeh satıcının alqı-satqı predmetinin qüsurlu olmasını pozitiv bildiyini sübut etməlidirsə, o, bunu, bir qayda olaraq, bilavasitə deyil, dəlillər vasitəsilə sübuta yetirə bilər. Bunun üçün məntiqi baxımdan yararlı dəlil, məsələn, cavabdehin qüsur barəsində bilgisini satışdan əvvəl satıcısına bildirməsi ola bilər. Bundan fərqli olaraq cavabdehin alqı-satqı predmetini bazar qiymətindən xeyli aşağı qiymətə təklif etməsi və satması yararsız dəlildir.

(2) ilə bağlı:

Bundan sonra hakim **sübut vasitəsinin inandırıcı olub-olmaması sualına** cavab verməlidir. Burada onun şəxsi həyat təcrübəsi və bilikləri ona kömək olacaq.

a) Şahid ifadəsinin qiymətləndirilməsi zamanı hakim adətən aşağıdakı sualları qoymalıdır:

– Şahid faktlar, yaxud özünün gəldiyi nəticələr barəsində ifadə verir?

– Şahid baş vermiş hadisəni özü görmüş/qavramış, yaxud bunu kimdənsə eşitmişdir?

– Şahid dayandığı yerdə və olduğu şəraitdə (yer, vaxt, görünüş, məsafə, hava), ümumiyyətlə, bunu özü qavraya bilərdimi? (şahid təxmini müəyyənetməni xüsusi olaraq məşq etməyibsə, məsafənin, sürətin və miqdarın təxmini müəyyən edilməsinə inanmaq olmaz!).

– Fiziki və psixi vəziyyətinə görə şahid məhkəməyə bildirdiyini qavramaq iqtidarında idimi (məsələn, o, oyaq, sağlam, ayıq, diqqətli idimi)?

– Şahid qavramaq üçün hazır idimi? O, barəsində şahidlik etdiyi hadisəni diqqətli və maraqlanan şəxs kimi, yoxsa tamam başqa işlə məşğul olduğu vaxt təsadüfən, hec də daxili marağı olmadan etmişdir? Onun başı qarışıq olmuşdurmu?

– Şahidin müşahidəsinin obyektivliyinə onun rəğbəti və ya antipatiyası, həyəcanı, hirsi, vahimələnməsi, qorxması, nifrəti və ya özünün daxili dəyərləri kölgə salırmı?

– İfadə özlüyündə ziddiyyətsiz və ümumi həyat təcrübəsi nəzərə alınmaqla yəqindirmi? Şahidin hadisəni ardıcıl və ziddiyyətsiz canlandırması çox əhəmiyyətlidir. Xırda detalların çoxluğu daha çox hadisənin həqiqət olmasından xəbər verir. Praktikada qabaqcadan razılaşdırılmış ifadələr çox zaman ziddiyyətlərdən qaçmaq üçün ifadədə yalnız əsas hadisə ilə bağlı məlumatlar verilməsindən bilinir.

– Şahid həqiqəti deməyə hazırdırmı? Ər-arvad, qohumlar, dostlar, qonşular, işəgötürən, əməkdaşlar, prosesin gedişində maddi maraqlı şəxslər tam yalan danışmasalar da, işi yumşaltmaq və ya kəskinləşdirmək, haqq qazandırmaq və ya həddən artıq şişirtməyə cəhd edirlər.

– Şahid ifadə verən zaman davranışına, mimikasına, jestlərinə və suallara olan reaksiyasına görə şəxsən inandırıcı görünürmü? Hər halda şəxsi təəssüratlara böyük əhəmiyyət verilməməlidir. Bu, təcrübədə çox vaxt həddən artıq dəyərləndirilir. Tamamilə müxtəlif səbəblər hər hansı şahidi sakit, nəzakətli və ya əsəbi, həyəcanlı davranmağa, rəvan və ardıcıl və ya qırıq-qırıq, uzada-uzada danışmağa vadar edə bilər.

b) Yazılı sənədlə bağlı tipik olaraq hakim aşağıdakı sualları araşdırmalıdır:

– Yazılı sənəd imzalanmış sənəddirmi? O, həqiqidirmi, yəni imza imzalayan şəxsə məxsusdurmu?

– Belədirsə, onda ümumi həyat təcrübəsinə əsasən yazılı sənədin məzmununun düzgünlüyü və tamlığı, imza edən şəxsin iradəsinə uyğunluğu prezumpsiyasından çıxış etmək olarmı? Sənədin, məsələn, qaralamalar və ya başqa düzəlişlərlə dəyişilməsi halları bura daxil deyil.

– Hakim sənədi imza edən şəxsin tərtib etməsinə və onun məzmunca düzgün və tam olmasına əmindirsə, onda o, məzmunu araşdırmalıdır. Bunun üçün lazım olarsa, sənəd təfsir edilməlidir.

– Söhbət imzası olmayan yazılı sənəddən gedirsə, onun nəyi sübut edə bilməsi yoxlanmalıdır. Yazılı sənədi konkret

şəxsin tərtib etməsi nəticəsinə gəlmək üçün başqa sübut vasitəsinin olub-olmaması yoxlanmalıldır.

c) Ekspert rəyinin sübut qüvvəsi əsasən aşağıdakı məsələlərdən asılıdır:

– Ekspert qoyulan sualları düzgün başa düşübmü və onları rəyində düzgün əks etdiribmi?

– Eskpert təqdim olunmuş düzgün ilkin məlumatları əsas götürübmü?

– Ekspert tətbiq etdiyi tədqiqat metodlarını əks etdiribmi, yəni həmin nəticəyə necə gəlməsi müəyyən oluna bilərmi?

– Ekspertin gəldiyi nəticə əsaslıdırmı?

– Bundan başqa, qanun MPM-in 97.5-ci maddəsində ekspertizanın həyata keçirilməsini mümkünsüz edən hal üçün qayda nəzərdə tutur. Bu cür hal, məsələn, tərəfin birinin ekspertizanın həyata keçirilməsində iştirakdan imtina etməsi və ya onun həyata keçirilməsinə mane olması, yəni lazım olan məlumatları və ya predmetləri təqdim etməməsi ola bilər. Belə davranışı hakim sübutların qiymətləndirilməsi zamanı nəzərə almalıdır. O, düzgün hərəkət etməyən tərəfin zərərinə işin hallarından asılı olaraq mübahisəli faktı təsdiq olunmuş və ya rədd edilmiş hesab edə bilər. Bu cür yanaşma aşağıdakı fikirlərlə əsaslandırılacaq: təqdim ediləcək sübut düzgün hərəkət etməyən tərəfin xeyrinə olsaydı, o, sübutun araşdırılmasına mane olmaqda maraqlı olmazdı. Belə maraq yalnız o zaman ola bilər ki, tərəf sübutun araşdırılmasının onun zərərinə olacağını fikirləşsin.

Hakim ayrılıqda götürülmüş sübut vasitəsinin inandırıcılıq qüvvəsini təcrid olunmuş şəkildə yoxladıqdan sonra, nəhayət, sübut vasitəsini başqa sübut vasitələri ilə birlikdə **bütövlükdə** qiymətləndirir. O, müxtəlif sübut vasitələrinin bir-birini qarşılıqlı əsaslandırmasını və ya bir-birinə zidd olmasını yoxlamalıdır. O, məsələn, müəyyən şahid ifadəsinin tək olmasını,

yoxsa başqa ifadələr, sənədlər və ya mübahisəsiz faktlarla təsdiq olunmasını qiymətləndirir.

cc. Sübutların qiymətləndirilməsi başa çatdığı zaman hakim sübut edilməli olan fakta ya **inana,** ya da **inanmaya bilər.** O inanmırsa, onda bu, sübutetmə vəzifəsini daşıyan tərəfin zərərinədir. Bu yerdə sübutetmə vəzifəsinin əhəmiyyəti bir daha aydın olur. Yuxarıda göstərilmiş şərəf və ləyaqətin müdafiəsi ilə bağlı 2. a kazusunda şahidin dindirilməsi həyata keçirildikdən sonra, hakim iddiaçının bilə-bilə oğurlanmış minik avtomobillərini satmasına, yəni güman edilən faktın həqiqiliyinə inanmazsa, onda bu, sübut etməli olan cavabdehin zərərinə olacaq. Buna görə hakim iddianı təmin etməlidir.

Sübut etməli olan tərəfin irəli sürdüyü güman təkzib olunursa və onun dediyinin əksi sübut olunubsa, hakim yenə də sübutetmə yükünə uyğun məsələni həll etməlidir. Prosessual baxımdan burada yalnız 2 imkan var: ya irəli sürülən güman sübut olunub, yaxud sübut olunmayıb. Bunun əksinin sübut olunması (məsələn, şərəf və ləyaqətin müdafiəsi ilə bağlı kazusda şərəf və ləyaqəti pozan gümanın həqiqətə uyğun olmaması) önəmli deyil. Qərarın qəbul edilməsi də bundan asılı deyil. Mübahisəli gümanın əksinin sübutu istiqamətində hər hansı sonrakı fikir lazımsız olmaqla yanaşı, uduzan tərəfi çaşdıra bilər, o, elə nəticəyə gələ bilər ki, yuxarı instansiyalarda prosesi udmaq üçün məhkəmənin ilkin gümanın əksinə olan inamını zəiflətməlidir. Amma əslində tərəf yalnız özünün irəli sürdüklərini (öz gümanını) sübut edə bilmədiyindən işi uduzur.

Hakim sübut edilməli olan faktın həqiqi olmasına inanmırsa, deməli, bunun müxtəlif səbəbləri ola bilər. Məsələn, təqdim edilən sübut hakim üçün inandırıcı olmaya bilər. Bundan başqa, heç də biri başqasından daha inandırıcı olmayan sübutlar bir-birinə zidd ola bilər. Bu halda da sübut edilməli olan fakt sübut edilməmiş sayılır.

Misal: Yuxarıda qeyd olunan şərəf və ləyaqətin pozulması ilə bağlı kazus üzrə iki şahid dindirilib. Şahidlərdən biri – iddiaçının işdən çıxarılmış sabiq işçisi bildirir ki, iddiaçı peşəkar əsaslarla oğurlanmış avtomobillərin alveri ilə məşğul olur. İddiaçının məhkəməyə təqdim etdiyi və onun uzun müddət rəhbər işçisi olan başqa şahid isə ifadə verir ki, iddiaçı sonrakı satış üçün əldə etdiyi maşınların oğurlanmış maşınlar olmamasına həmişə xüsusi diqqət yetirir. Hər iki şahidin ifadələri özlüyündə ziddiyyətsiz və işin müxtəlif nəticələrində maraqlı olmalarına baxmayaraq, inandırıcıdırsa, hakim sübutların araşdırılmasından sonra da nəyin faktiki olaraq həqiqət olduğunu bilmir. O, sübut edilməli olan faktın həqiqiliyinə (burada, iddiaçının maşın oğurluğu ilə məşğul olan banda ilə əlbir olmasına) əmin olmayacaq. Bu isə sübut etməli olan tərəfin – cavabdehin zərərinədir.

dd. Hakim qətnamədə **sübutların qiymətləndirilməsini anlaşılan şəkildə və ətraflı** əks etdirməlidir. Bu, MPM-in 220.4-cü maddəsindən və hüquqi dövlətdə məhkəmə qərarına xas standartlardan irəli gəlir. Tərəflər hakimin həmin qərara necə gəlməsini başa düşməlidirlər. Yalnız belə olduqda, onlar yuxarı instansiya məhkəməsinə şikayət verilməsinin nə dərəcədə uğurlu olması ilə bağlı müəyyən nəticəyə gələ bilərlər. Qətnamədə sübutlar tam və ziddiyyətsiz qiymətləndirilməlidir. Ziddiyyətli şahid ifadələri və ekspert rəyləri tənqidi formada araşdırılmalıdır. Məhkəmə qətnamədə nəyə görə bir şahid ifadəsinə inanıb, başqasına inanmamasını, nəyə görə bir ekspert rəyini qəbul edib, başqasını isə qəbul etməməsini göstərməlidir. Qətnamədə tərəflərin hər hansı ifadənin inandırıcı olması və ya ekspert rəyinin düzgün olmasına qarşı etirazları da araşdırılmalıdır.

Hakim qətnamədə sübutların qiymətləndirilməsini başadüşülən formada əsaslandırmırsa, onun qərarı özbaşınalıq kimi görünəcək və hakimin qərəzli olmasına şübhələnmək üçün əsas olacaq.

C. Birinci instansiya məhkəməsinin qətnaməsi

Qətnamənin **forması və məzmunu** haqqında əsas normalar əksini MPM-in 16-cı fəslində tapıb (MPM-in 216 və sonrakı maddələri). 220.2-ci maddəyə əsasən, qətnamə aşağıdakı hissələrdən ibarətdir:

* **Qətnamənin giriş hissəsi («Rubrum»**[72] hissəsi, ətraflı MPM-in 220.3-cü maddəsinin 1-ci cümləsi).
* **Təsviri hissə** (işin faktiki hallarının təsviri).
* **Qətnamənin əsaslandırıcı hissəsi.**
* **Qətnamənin nəticə hissəsi** («Tenor»).

1. MPM-in 220.3-cü maddəsinin 2-ci cümləsinə əsasən qətnamənin təsviri hissəsi

Təsviri hissənin mənası və məqsədi tərəflərə, apelyasiya instansiyası məhkəməsinə və bundan başqa bütün maraqlanan oxuculara məhkəmənin qərar qəbul edərkən işin hansı faktiki hallarını əsas götürməsi barədə məlumat verməkdir. Mükəmməl qətnamə təkcə düzgün əsaslandırma ilə deyil, həm də xüsusi olaraq aydın, anlaşılan və başadüşülən təsviri hissəsi ilə səciyyələnir. Tərəflərin məhkəməyə bildirdikləri anlaşılan ifadələrdən istifadə edilməklə (müqayisə et: MPM-in 220.1-ci maddəsi) qısa şəkildə elə verilməlidir ki, tərəflərin mübahisəsinin konkret nə barədə olması və qətnamənin faktiki əsaslarının nələrdən ibarət olması aydın olsun. Təsviri hissə özlüyündə aydın olmalı və tərəflərin məhkəməyə bildirdikləri işin mübahisəli və mübahisəsiz hallarını əks etdirməlidir. Bu kitabda başqa bir yerdə faktiki halların araşdırılıb qeydiyyatının aparılması üçün təqdim olunmuş metod təsviri hissə yazılan zaman hakimin işinə çox kömək edir və işini asanlaşdırır. Hakim qətnamə üçün əhəmiyyət kəsb edən faktiki halları məhkəmə aktlarından nə qədər dəqiq süzgəcdən keçirib

[72] Qərarların giriş hissəsi əvvəllər qırmızı xətlə yazılırdı və buna görə də latın dilində «Rubrum» adlanırdı.

ayırarsa, çoxsaylı gümanları qısaldaraq qruplaşdırma yolu ilə onları mübahisəli və mübahisəsiz qruplara ayırarsa, qətnamənin təsviri hissəsinin tərtib olunmasında da işi bir o qədər asan olar. Bu halda o, təsviri hissəni əlyazma şəklində hazırladığı məhkəmə aktlarından çıxarışa əsasən də yaza bilər.

Qanun MPM-in 220.3-cü maddəsinin 2-ci cümləsində təsviri hissənin necə yazılmalı olduğu haqqında az məlumat verir. Beləliklə, hakimlərin bu zaman böyük bir yaradıcılıq sərbəstliyi olur. Azərbaycanda bununla bağlı hələ vahid praktika inkişaf etdirilməyib. Məsələn, qətnamələrdə təsviri hissə ilə qətnamənin əsaslandırıcı hissəsini heç də həmişə dəqiq fərqləndirmək olmur. Bəzən işin hallarının təsviri ilə bağlı mühüm məlumatlar ilk dəfə qətnamənin əsaslandırıcı hissəsində əks etdirilir və bu zaman məhkəmənin bu məlumatları haradan alması aydın olmur. Tərəflərin hansı faktlar barədə mübahisə etmələri və məhkəmənin ayrı-ayrılıqda hansı hallar barədə sübutları araşdırması tez-tez qaranlıq qalır.

Bundan əlavə, tərəflərin adlarının təsviri hissədə və əsaslandırıcı hissədə tam şəkildə göstərilməsi çoxlu təkrarlar olduğuna görə qətnamənin dərk edilməsini çətinləşdirir və eyni zamanda, qətnaməni tərtib edənin vaxtını aparır. Bu baxımdan tərəfləri, artıq qətnamənin giriş hissəsində onların prosessual vəziyyəti ilə təqdim etmək («iddiaçı», «cavabdeh», tərəflərin çoxluğu olduqda «I iddiaçı», «I cavabdeh» və s.) və sonradan onları təsviri və əsaslandırıcı hissədə yalnız bu ifadələrlə göstərmək daha asan olardı[73].

---

[73] Başqa sual bundan ibarətdir ki, Azərbaycanda məhkəmə qərarlarının tərəflərin və şahidlərin tam adları ilə dərc edilməsi proses iştirakçılarının qorunmalı olan hüquqlarına nə dərəcədə toxunur? Almaniyada ənənəvi olaraq məhkəmə qərarlarının dərc edilməsi anonim formada həyata keçirilir. Bu, proses iştirakçılarının şəxsiyyət hüquqları və səxsi məlumatların qorunması ilə əsaslandırılır. Avropa İnsan Hüquqları Məhkəməsinin, Avropa İttifaqı Məhkəməsinin, ingilis-sakson məhkəmələrinin praktikası başqa cürdür, onlar yalnız istisna hallarda iştirakçıların tam adlarını göstərmirlər.

Qanun qətnamənin strukturu üçün məcburi qayda müəyyən etməsə də, müəyyən bölgü sxeminin istifadə olunması tövsiyə olunur. Bu, oxucuya (tərəflərə, nümayəndəyə, növbəti instansiya hakiminə, maraqlı üçüncü şəxslərə) prosesin faktoloji tərkibi haqqında tez və asan ümumi məlumat almağa imkan verir və bununla yanaşı qərarın başa düşülməsini asanlaşdırır.

Alman məhkəmələrinin praktikasında birinci instansiya məhkəməsi qətnaməsinin strukturu üçün aşağıdakı sxem qəbul edilib:

(1) İşin mübahisəsiz hallarının təsviri;

(2) İddiaçının mübahisələndirilən məruzəsi;

(3) İddiaçının tələbi;

(4) Cavabdehin tələbi;

(5) Cavabdehin mübahisəli məruzəsi;

(6) Prosesin tarixçəsi: məhkəmənin araşdırdığı sübutların və varsa, məhkəmənin müəyyən etdiyi tamamlayıcı xarakterli halların (məsələn, tələb edilmiş aktların, sənədlərin və s.) qeydi.

Bu cür sxem hakim praktikasında inkişaf etdirilib ki, qətnamənin təsviri hissəsi mümkün qədər anlaşıqlı və vahid şəkildə tərtib edilsin. Bu qayda işin yüngülləşdirilməsi vasitəsi kimi sınaqdan çox yaxşı çıxaraq bütün məhkəmələrdə işlədilir. Almaniyada, demək olar ki, bütün birinci instansiya məhkəmələrinin qətnamələri həmin sxemə uyğun tərtib olunur. Maraqlanan şəxs bu qayda ilə tez bir surətdə qərarın əsasında duran prosesin faktoloji tərkibi barədə ümumi məlumat ala və sonradan asan şəkildə qərarın əsaslandırılmasını başa düşə bilir. Həmin bölgü hüquq elmi və praktikası üçün oxşar tərkibli işlərin müqayisəsi və qiymətləndirilməsini də asanlaşdırır. Gələcəkdə Azərbaycanda qətnamələrin dərc edilməsinin nəzərəçarpacaq dərəcədə artacağını nəzərə alsaq, qərarları oxucunun başa düşməsinə indikindən daha çox fikir verilməsinin zəruriliyi bir daha aydın olar.

Ümumi olaraq hesab olunur ki, bu cür bölgü ehkam deyil. Konkret işin xüsusiyyətləri tələb etdikdə, Almaniyada da bu qaydadan kənaraçıxmalar olur. Amma həmişə yazılanın anlaşılan olması ön plana çəkilməldir.

Bəzən oxucunun qərarı anlamasına giriş cümləsi kömək edə bilər. Bu cümlə qərarın təsviri hissəsi ilə oxucunun tanış olmasını asanlaşdırır və eyni zamanda, onun diqqətini dərhal mübahisənin mahiyyətinə yönəldir.

(Misallar: «İddiaçı cavabdehdən ... markalı maşın barədə ... tarixli alqı-satqı müqaviləsi üzrə ... məbləğində satış qiymətinin qaytarılmasını tələb edir», «İddiaçı cavabdehdən ... tarixdə verilmiş borcun qaytarılmasını tələb edir», «Tərəflər iddia və qarşılıqlı iddia ilə iddiaçının evinin tikintisi zamanı yol verilmiş qüsurlara görə cavabdehin məsuliyyəti və aparılan tikintinin haqqının qalan hissəsinin ödənilməsinə dair mübahisə edirlər»).

Giriş cümləsindən sonra yuxarıdakı nümunəyə uyğun olaraq tərəflərin müqavilə münasibətləri və başqa məsələlər barədə işin mübahisəsiz halları təsvir olunur.

Çoxlu iştirakçıların cəlb edildiyi çətin vərəsəlik işləri və mürəkkəb hüquq münasibətlərinin olduğu müxtəlif şəxslərin iştirak etdiyi hüquqi şəxslərlə bağlı proseslərdə təsviri hissənin daha yaxşı qavranması üçün giriş cümləsində əvvəlcə iştirakçıların şəxsi və hüquq münasibətləri baxımından təqdim olunması tövsiyə olunur.

İş üzrə **qarşılıqlı iddia** olduqda qətnamənin təsviri hissəsinin quruluşunda müəyyən xüsusiyyətlər olur:

* İddia və qarşılıqlı iddia bilavasitə mahiyyətcə [faktiki tərkib baxımından] qarşılıqlı əlaqədədirsə, yəni onlar eyni işin halları barəsindədirsə (məsələn, satış qiymətinin ödənilməsi barədə iddia və alqı-satqı müqaviləsinin etibarsızlığının müəyyən edilməsi haqqında qarşılıqlı iddia), onda aşağıdakı strukturu təklif etmək olar:

(1) İşin mübahisəsiz hallarının təsviri (iddia və qarşılıqlı iddia);

(2) İddiaçının mübahisələndirilən izahatı (iddiaya və qarşılıqlı iddiaya münasibətdə);

(3) İddiaçının tələbi;

(4) Cavabdehin tələbi;

(5) Cavabdehin qarşılıqlı tələbi;

(6) Qarşılıqlı iddianın rədd edilməsi barəsində iddiaçının tələbi;

(7) Cavabdehin mübahisələndirilən izahatı (iddiaya və qarşılıqlı iddiaya münasibətdə);

(8) Prosesin tarixçəsi: məhkəmənin araşdırdığı sübutların və varsa, məhkəmənin müəyyən etdiyi tamamlayıcı xarakterli halların (məsələn, tələb edilmiş aktların, sənədlərin və s.) qeyd edilməsi.

* İddia və qarşılıqlı iddia bilavasitə qarşılıqlı əlaqədə deyilsə (məsələn, satış qiymətinin qaytarılması haqqında iddia və borcun qaytarılması haqqında qarşılıqlı iddia), onda aşağıdakı struktur nümunəsini uyğun hesab etmək olar:

(1) İşin mübahisəsiz halları;

(2) İddiaçının mübahisələndirilən izahatı;

(3) İddiaçının tələbi;

(4) Cavabdehin tələbi;

(5) Cavabdehin mübahisələndirilən izahatı;

(6) Cavabdehin qarşılıqlı iddiaya münasibətdə məruzəsi (mübahisəsiz və mübahisəli hallar);

(7) Cavabdehin qarşılıqlı iddia tələbi;

(8) İddiaçının qarşılıqlı iddianın rədd edilməsi barədə tələbi;

(9) İddiaçının qarşılıqlı iddia ilə bağlı mübahisələndirilən izahatı;

(10) Prosesin tarixçəsi: məhkəmənin araşdırdığı sübutların və varsa, məhkəmənin müəyyən etdiyi tamamlayıcı xarakterli halların (məsələn, tələb edilmiş aktların, sənədlərin və s.) qeyd edilməsi.

2. MPM-in 220.4-cü maddəsinə uyğun olaraq qətnamənin əsaslandırıcı hissəsi

MPM-in 220.4-cü maddəsinə əsasən məhkəmə, adətən, qərarını **yazılı şəkildə** əsaslandırmalıdır.

Yeganə istisna iddia tələbinin etiraf edilməsidir. Bu zaman hakim MPM-in 220.4-cü maddəsinin 2-ci cümləsinə əsasən qətnamənin əsaslandırıcı hissəsində iddianın etiraf edilməsi və onu məhkəmənin qəbul etməsini göstərməklə kifayətlənə bilər.

Əsaslandırmaq vəzifəsi qanunla müəyyən olunmuş qayda olmaqla yanaşı, ədalət mühakiməsinin hüquqi dövlətə xas elementar prinsipidir. Bu, öncə mübahisənin tərəflərinə və xüsusilə uduzan tərəfə xidmət edir. Tərəflər bilməlidir ki, nə üçün məhkəmə işi başqa cür deyil, məhz qətnamənin nəticə hissəsində göstərdiyi kimi həll edib. Yalnız bu zaman onlar konkret halda apelyasiya instansiyasına şikayətin uğurlu olub-olmayacağını normal şəkildə yoxlaya bilərlər. Bundan əlavə, növbəti instansiya məhkəməsi də qərarın lazımi qaydada əsaslandırılmasında və beləliklə, qətnamənin dəlillərlə təhlil edilə bilməsində maraqlıdır. Qərarın əsaslandırılmasının mühüm olan daha bir cəhəti də odur ki, hakim bu yolla qərarını bir daha yoxlaya bilir. Bu, çoxdan təsdiq olunmuş faktdır ki, düşüncələrdə hazırlanmış qərar yazıya köçürüldüyü zaman hər şey heç də həmişə ilk baxışdan göründüyü kimi hamar və uyğun olmur. Yalnız həlledici əsaslar yazıya alındığı zaman hakim özünün dəlillərində zəif cəhətləri və səhvləri qətnamə-

nin qəti açıqlanmasından əvvəl aşkar etmək və düzəltmək imkanı əldə edir. Bundan başqa, hakim nəzərə almalıdır ki, onun tənqidə qarşı, xüsusilə uduzmuş tərəfin hakimin işin həllində şəxsən maraqlı olması barədə tənəsinə qarşı ən səmərəli müdafiəsi yaxşı tərtib olunmuş yazılı əsaslandırmadır.

Yaxşı əsaslandırılmış qərar yalnız ayrı-ayrı hakimlərin hərəkətlərinə haqq qazandırılmasına deyil, həm də ictimaiyyət arasında ədalət mühakiməsinin nüfuzunun artırılmasına xidmət edir. Bu nüfuzun gücləndirilməsi Azərbaycanda hər bir hakimin xüsusi maraq dairəsində olmalıdır. O, dərk etməlidir ki, qətnamə tərtib olunarkən Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinə əsasən Azərbaycan Respublikasının adından qərar çıxarır.

MPM-in 220.4-cü maddəsində qərarın əsaslandırıcı hissəsinin məzmunu təsbit edilir. Həmin normaya əsasən, qətnamənin əsaslandırıcı hissəsində işin məhkəmədə müəyyən edilən halları, işin halları barədə məhkəmənin əsaslandığı sübutlar və məhkəmənin bu və ya başqa sübutları və iclasda iştirak edən şəxslərin istinad etdikləri qanun və hüquqi aktları rədd etmək üçün gətirdikləri dəlillər, məhkəmənin qətnamə çıxarılarkən rəhbər tutduğu qanunlar və normativ aktlar göstərilməlidir.

Qətnamənin əsaslandırıcı hissəsinin **strukturu** və **xülasəsi** ilə bağlı qanunda heç bir müddəa yoxdur.

a) Struktur

Qərarın əsaslandırıcı hissəsinin daha yaxşı qavranması üçün prosesin nəticəsi haqqında qısa giriş cümləsi ilə məlumat verilməsi tövsiyə olunur.

Misallar:

«İddia yolverilməzdir».

«(Yolverilən) İddia əsaslıdır».

«Yolverilən iddia yalnız qismən əsaslıdır».

«Yolverilən iddia əsassızdır».

«Yolverilən iddia əsaslıdır, qarşılıqlı iddia əsassızdır».

Bundan sonra nəticənin əsaslandırılmasına başlanır. Adətən qərarın əsaslandırıcı hissəsi iddianın **mümkünlüyü** və **əsaslığına** aid müddəalara bölünür. Amma prosessual mümkünlüyün əsaslandırılması o halda göstərilməyə bilər ki, həmin şərtlərin iş üzrə yerinə yetirilməsi şübhəsiz olsun və tərəflər bunlarla bağlı etiraz bildirməsin.

Prosesin nəticəsindən asılı olaraq iddia tələbi barədə qərar həm hüquqi, həm də faktiki olaraq əsaslandırılır. Hüquqi əsas arzuolunan hüquqi nəticəni mücərrəd şəkildə verən qanuni və ya müqavilə normasıdır (iddia tələbinin qanuni əsası). Bundan sonra iddia tələbinin qanuni əsasının dispozisiya şərtlərindən uyğun gələn və mübahisəsiz və ya sübut edilmiş olan faktlar zəruridir. Beləliklə, əsaslandırıcı hissə hüquqi tövsifin yolunu təsvir edir. O, iddiaçının arzuladığı konkret hüquqi nəticədən, mücərrəd hüquqi nəticə və normanın mücərrəd dispozisiya şərtləri vasitəsilə işin konkret hallarına aparır.

Tövsiyə edilmiş formada əsaslandırıcı hissənin prosesin nəticəsi ilə başlanması hakimin iş qaydasına da uyğun gəlir, çünki hakim yalnız işi artıq öz beynində həll edib və nəticəni bildikdən sonra qərarı yazmağa başlayır. Yəni qərar artıq formalaşmış olur, indi hakim yalnız onu əsaslandırmalıdır. Bu cür qətnamə yazmaq üslubu **«Çünki üslubu»** kimi də səciyyələndirilə bilər. Əvvəl göstərilmiş, abstrakt çıxarılmış nəticənin əsaslandırılması həmişə «çünki» ilə başlana bilər.

Misal:

«İddia əsaslıdır. («Çünki») İddiaçının cavabdehə qarşı MM-in 567-ci maddəsinə uyğun olaraq 8.000 manat satış qiymətinin ödənilməsinə dair tələb hüququ var. («Çünki») Tərəflər 15.11.2005-ci ildə «Mersedes-200» markalı avtomobil barədə etibarlı alqı-satqı müqaviləsi bağlayıblar. («Çünki») Müqa-

vilə iddiaçının 13.11.2005-ci il tarixli yazılı ofertasını cavabdehin 15.11.2005-ci ildə şifahi olaraq aksept edilməsi nəticəsində bağlanıb. («Çünki») Məhkəmənin gəldiyi nəticəyə görə, cavabdeh 15.11.2005-ci ildə iddiaçının mənzilində ona münasibətdə şəxsən belə bir iradəsini ifadə edib ki, maşını təklif olunan qiymətə, yəni 8.000 manata almağa razıdır. («Çünki») Şahid X ifadə verib ki... Məhkəmə hesab edir ki, ifadə inandırıcıdır, çünki...».

Ümumiyyətlə, qərarın əsaslandırıcı hissəsinin **strukturu** əsasən iddianın təmin, yaxud rədd edilməsindən asılıdır:

* İddiaçının tələbi **əsaslıdırsa,** hakim iddia tələbinə tam haqq qazandıran və iddia tələbinin olmasını ən asan formada əsaslandıran qanun normasına (iddia tələbinin qanuni əsası) istinadla kifayətlənə bilər. İddianın başqa iddia tələbinin qanuni əsaslarına uyğun əsaslandırılması artıq heç kimi maraqlandırmır.

Misal: İddiaçı delikt nəticəsində vurulmuş zərərin ödənilməsini MM-in 1097.1-ci maddəsinə uyğun olaraq tələb edə bilirsə, həmin tələbin müqavilə öhdəliklərinin pozulması ilə də əsaslandırıla bilməsi imkanının olması qərarın əsaslandırıcı hissəsi üçün önəmli deyil. Müqavilənin etibarlı şəkildə bağlanması haqqında mürəkkəb izahlar, aydın olmayan təmsilçilik münasibətləri, araşdırılması asan olmayan müqavilə əlaqələri və s. bu kimi məsələlərin işıqlandırılmasına daha ehtiyac qalmır. Qətnamədə o iddia tələbinin qanuni əsası və ya o arqumentin üzərində dayanıla bilər ki, tərəfləri ən çox inandıran olsun və prosesi tez həll etsin[74].

Hakimin həmişə (daha yaxşı olar ki, yazısının əvvəlində) iddianı əsaslandıran iddia tələbinin qanuni əsasını göstərməsi və sonra konkret işin hallarını qanunda nəzərdə tutulmuş

[74] Bu rasional iş üsulu bir daha, başqa bir yerdə göstərildiyi kimi, iddiaçının tələbinə uyğun gələn bütün iddia tələblərinin qanuni əsaslarının nəzərə alınmasının və yoxlanılmasının zəruriliyini əsaslandırır.

normanın tərkibinə uyğun tövsif etməsi vacibdir. İddianın təmin olunması ilə nəticələnən hallarda cavabdehi yalnız bu cür inandırmaq olar ki, qətnamə özbaşına deyil, bilavasitə qanunun tələblərinə əsasən çıxarılıb (yuxarıda verilmiş «Çünki üslubu» haqqında misalı müqayisə et).

* İddia **rədd edilirsə,** iddia tələbinin mümkün ola biləcək bütün qanuni əsasları verilməli və ayrı-ayrılıqda göstərilməlidir ki, nə üçün konkret halda işin faktiki halları normanın qanunla müəyyən olunmuş tərkib əlamətlərinin tələblərinə cavab vermir. Hakim yalnız konkret halın yoxlanması zamanı qanunun həmin hal üçün nəzərdə tutduğu bütün müddəaları yoxladığını və tapılmış normaları düzgün təfsir və tətbiq etdiyini uduzmuş iddiaçıya izah etdiyi zaman ona prosesi hüquqi cəhətdən heç bir halda uda bilməməsini başa sala bilər.

* **Cavabdehin etirazlarına** aşağıdakılar tətbiq olunur: iddia təmin olunubsa, hakim iddianın əsaslı olmasına dair cavabdehin bütün etirazları ilə bağlı fikrini bildirməlidir (onlar elə əvvəldən tamamilə mənasız kimi qəbul edilməyibsə). Cavabdeh etirazını bildirirsə və ya iddiaçının bütün tələblərini heç edən qarşılıqlı hüquqlarını (məsələn, icra, iddia müddətinin keçməsi) irəli sürürsə, onda qətnamədə yalnız bu etirazın göstərilməsi kifayət edir və iddiaçının xeyrinə ola biləcək tələbin bütün mümkün əsaslarını araşdırmağa ehtiyac qalmır. Tələb yaranıbsa, ona hər bir halda xitam verilə bilməsi maraqlı deyil. O cümlədən, tələbin iddia müddəti keçibsə, tələbə xitam verilməsi də əhəmiyyət kəsb etməyəcəkdi.

Məhkəmə konkret iş üçün heç bir cəhətdən əhəmiyyət kəsb etməyən hüquqi məsələlər barədə qərar qəbul etməli deyil. Bu, xüsusilə müxtəlif hüquqi yanaşmaların sonda eyni nəticəyə gətirib çıxardığı hallara aiddir. Onda məhkəmə üçün bu sualla bağlı qərar qəbul etməyin (və bununla da uduzmuş tərəfi həmin suala görə uğursuz apelyasiya şikayətinə sürükləməyin) heç bir mənası olmur.

Qətnamənin əsaslandırıcı hissəsində tez-tez müəyyən edilən qüsurlardan biri də sübutların qiymətləndirilməsidir. Hakim əminliyini qətnamədə əsaslandırmalı və ona görə də qətnamədə sübutları tam və başadüşülən şəkildə qiymətləndirməlidir. Bu, MPM-in 220.4-cü maddəsinin tələblərindən də irəli gəlir. Məsələn, hakim ziddiyyətli şahid ifadələrini və ekspertizanın nəticələrini tənqidi araşdırmalıdır. O, qətnamədə nə üçün bir şahidə inandığını, başqasına isə inanmadığını, bir ekspertin nəticələri ilə razılaşdığını, başqası ilə razılaşmadığını əsaslandırmalıdır. Hakim şahid ifadəsinin inanıla bilən olması və ya ekspertiza nəticələrinin düzgün olması barəsində tərəflərin irəli sürdükləri etirazlara dair fikrini bildirməlidir. Mütəxəssis olmayan tərəflər üçün bütün bu suallar hakimin hüquqi sualı mücərrəd şəkildə cavablandırmasından daha çox başadüşüləndir. Məhz tərəflər sübutetmənin nəticələrini hakimin əsaslandırmasında xüsusilə maraqlıdırlar.

b) Xülasə (formulə) edilmə

Qərarın əsaslandırıcı hissəsi aydın, müəyyən və ümumi qəbul edilmiş anlaşılan dildə ifadə edilməlidir (MPM-in 220.1-ci maddəsi ilə müqayisə et). Həmişə düşünülməlidir ki, qərarın əsaslandırıcı hissəsi ilk növbədə hüquqi mübahisənin tərəflərinə, yəni hüquqi cəhətdən mütəxəssis olmayanlara ünvanlanır. Onlar qətnaməni qavraya bilməlidirlər. Ona görə də uzun cümlə konstruksiyası əvəzinə qısa cümlələrə üstünlük verilməli, mümkün olduğu qədər xarici sözlərdən qaçılmalı və ixtisas terminləri tez-tez istifadə edilən hüquqi terminlərlə əvəz edilməli, bu, mümkün olmadıqda isə imkan dairəsində onlar başqa sözlərlə təsvir edilməlidir. Yalnız belə olduqda şans var ki, prosesi uduzan tərəf qərarı başa düşsün və onun nəticəsi ilə razılaşsın (öncə həmin tərəfin əslində özünün haqlı və ədalətli olması fikrində olmasına baxmayaraq).

3. MPM-in 220.5-ci maddəsinə uyğun olaraq qətnamənin nəticə hissəsi

MPM-in 220.5-ci maddəsinə uyğun olaraq qətnamənin nəticə hissəsi, təbii ki, tərəflər üçün ən vacib hissəni təşkil edir. Məhz həmin hissənin hüquqi qüvvəsi var və udan tərəf üçün məhkəmə qərarının məcburi icra olunmasını tələb etməyə əsas verir. Nəticə hissəsi MPM-in 220.2-ci maddəsində nəzərdə tutulmuş sadalama sıralamasına uyğun olaraq, Azərbaycan Respublikası adından çıxarılmış mülki işlər üzrə məhkəmə qətnaməsinin yekun hissəsini təşkil edir.

Qətnamənin nəticə hissəsi işin mahiyyəti barədə məhkəmənin qərarını, hüquqi mübahisənin məhkəmə məsrəfləri barəsində qərarı və qətnamədən şikayət verilməsi mümkünlüyü haqqında məlumatı nəzərdə tutur.

a) İşin mahiyyətcə həlli

aa) İddia tam və ya qismən **təmin olunduğu halda** Azərbaycan məhkəmə praktikası üçün öncə qərarın nəticə hissəsində iddianın təmin edilməsi barədə ümumi müəyyənetmə verilməsi adi haldır (əslində bunu lazımsız kimi də qəbul etmək olar). Tərəflər üçün prosesin konkret nəticəsi daha çox maraqlıdır, çünki yalnız bu, məhkəmə qətnaməsinin məcburi icrası üçün vacib olan hissədir.

Qətnamənin nəticə hissəsinə gəldikdə, məhkəmə, MPM-in 218.3-cü maddəsinə görə, tərəflərin tələblərindən kənara çıxmamalıdır. Yəni ancaq tərəflərin tələb etdikləri barədə qərar çıxarıla bilər, onların tələb etdiyindən artıq və ya tələb etdiklərindən tamamilə fərqli bir şey barədə qərarın çıxarılması yolverilməzdir. Başqa yandan, məhkəmə bütün tələblər barədə tam həcmdə qərar qəbul etməlidir. Bu, o deməkdir ki, hakim iddianı qismən təmin etdiyi hallarda qətnamənin nəticə hissəsində bundan artıq olan tələbin rədd olunmasını aydınlaşdırmalıdır. Eyni qayda hakim əsas öhdəlik üzrə tələbi

qəbul etdiyi və həmçinin irəli sürülmüş əlavə öhdəliyi (faiz öhdəliyini) əsassız saydığı hallara da şamil olunur. Əks halda iddia tələbinin bu hissədə məhkəmədə araşdırılıb-araşdırılmaması məsələsi sual altında qalardı. Praktikada bu, tez-tez unudulur[75].

Qətnamə ilk növbədə tərəflərə ünvanlandığından, qətnamənin nəticə hissəsi aydın və anlaşılan olmalıdır. Ümumi qəbul olunmuş praktikaya görə, nəticə hissə elə ifadə edilməlidir ki, o, qətnamənin başqa hissələrinə qayıtmadan və başqa məhkəmə aktlarına müraciət etmədən də özlüyündə anlaşılan olsun. Qanun özü MM-in 229.1.2-ci maddəsində cavabdehin etməli olduğu hərəkətləri dəqiq göstərmədiyi hallarda qətnamənin tamamlanmasını müəyyən etməklə, praktik olaraq bunu şərt kimi irəli sürür. Buna görə də ödəmə ilə bağlı öhdəliklər məbləğ baxımından birmənalı şəkildə dəqiq müəyyən olunmalıdır[76]. Geri qaytarılmalı olan əşyalar elə dəqiq şəkildə təsvir olunmalıdır ki, hansı əşyanın nəzərdə tutulmasını məhkəmə icraçısı da bilsin və bu barədə gələcəkdə yeni mübahisə yaranmasın[77]. Cavabdehi müəyyən hərəkətləri etməyə məcbur edən qətnamə barədə qətnamənin nəticə hissəsi üçün qanun 223.1-3-cü maddədə xüsusi qaydalar müəyyən edir.

bb) İddia **rədd edilirsə,** qətnamənin nəticə hissəsində ancaq bunun ifadə edilməsi yetərlidir.

---

[75] Diqqətsizlik ucbatından iddia tələblərinin bir hissəsi barəsində qərar qəbul edilməyibsə (bu, xüsusilə də faiz ödəmələri kimi əlavə tələblər zamanı baş verə bilər), 229.1.1-ci maddəyə əsasən, tərəflərin ərizəsi ilə əlavə qətnamə çıxarıla bilər.

[76] Bununla bağlı müqayisə et: maddə 222.2.

[77] Məsələn, minik avtomobilinin istehsalçısı, buraxılış ili, modeli, tipi, rəngi, kuzovunun nömrəsi və s. göstərilməlidir, torpaq sahəsinin yeri və reyestr məlumatları, digər əşyalar da onların eyniləşdirmə meyarlarına əsasən imkan dairəsində konkret göstərilməlidir. Bundan əlavə, MPM-in 222.1-ci maddəsinə əsasən, verilməli olan predmetin qiyməti və olduğu yer göstərilməlidir.

cc) MPM-in 220.5-ci maddəsinə görə, məhkəmə qətnamənin nəticə hissəsində məhkəmə xərclərinin bölüşdürülməsi qaydasını da göstərməlidir. Aydın şəkildə qanunla müəyyən olunmasına baxmayaraq, tez-tez məhkəmə praktikasında bu qaydaya əməl olunmur. Məhkəmə xərclərinin bölüşdürülməsinin göstərilməsinin qanunla şərt kimi müəyyən olunması MPM-in 229.1.3-cü maddəsindən də irəli gəlir. Bu maddəyə əsasən məhkəmə xərcləri haqqında məsələni hakim müəyyən etməyibsə, tərəflərdən birinin ərizəsinə əsasən əlavə qətnamə çıxarılmalıdır.

Məhkəmə xərcləri MPM-in 107-ci maddəsinə əsasən dövlət rüsumundan (108 və sonrakı maddələr) və işə baxılması ilə əlaqədar məsrəflərdən (115 və sonrakı maddələr) ibarətdir. Sonunculara MPM-in 115.0.6-cı maddəsinə əsasən, xüsusilə vəkilə çəkilən xərclər daxildir. MPM-in 119.1-ci maddəsinə görə, tərəflər xərcləri tələblərinin ödənilməsi məbləğinə mütənasib olaraq daşıyırlar. Adətən prosesi uduzan tərəf bütün xərcləri çəkir. Beləliklə də 107-ci maddəyə uyğun olaraq bura qarşı tərəfin vəkil üçün çəkdiyi xərclər də daxil edilir[78]. Qismən uduzma zamanı xərclərin ödənilməsi müəyyən hissələrlə və ya faizlə müəyyənləşdirilir. Onun məbləği tələbin ödənilməsi və ya ödənilməməsi həcmindən asılı olaraq müəyyən olunur. MPM-in 112-ci maddəsinə əsasən, bunun müəyyən olunması üçün həlledici meyar iddianın qiymətidir. Ümumi olaraq demək olar ki, iddianın qiyməti həmişə iddiaçının iddia ərizəsi ilə iqtisadi cəhətdən nail olmaq istədiyinin obyektiv qiymətinə uyğun gəlir.

Misal: İddiaçı cavabdehin 35.000 manat ödəməsi haqqında qətnamə çıxarılmasını iddia ərizəsində xahiş edir. Məhkəmə

[78] Qarşı tərəfin vəkil xərclərini müəyyən şərtlər olduqda udan tərəfin üzərinə qoyulmasını tənzimləyən MPM-in 121.1-ci maddəsinin dəqiq tətbiqi sferası qaranlıq qalır.

iddianı 14.000 manat həcmində təmin edir, qalan hissəsini isə rədd edir. İddianın qiyməti burada 35.000 manatdır. Qətnamədə məhkəmə xərcləri barədə belə yazılmalıdır: «Məhkəmə xərclərinin 3/5 hissəsini (və ya 60%) iddiaçı və 2/5 hissəsini (və ya 40%) cavabdeh ödəyir».

Xüsusi tənzimlənmiş hallarda, məsələn, tərəflərdən birinin prosessual vəzifələrini pozduğu hallarda məhkəmə yuxarıda göstərilən qaydadan fərqli qayda müəyyən edə bilər (məsələn, MPM-in 119.3, 120-ci maddələri).

dd) Qətnamənin **icra edilməli olması** barədə qərarın verilməsini qanun qayda kimi **müəyyən etmir.** 234-cü maddəyə görə, qətnamələr adətən qanuni qüvvəyə mindikdən sonra icra olunur.

ee) Nəhayət, qətnamədə, 220.5-ci maddəyə əsasən, həmişə **qətnamədən şikayət vermək hüququnun olması haqqında məlumat** əksini tapmalıdır.

D. Hakimin işə baxmasına yol verilməməsi və hakimə etiraz

I. Giriş

MPM-in[79] 19-23-cü maddələrində qanunla hakimin işə baxmasına yol verilməməsi və hakimə etiraz barədə müddəalar nəzərdə tutulub. Bu müddəalar hüquqi dövlətdə ədalət mühakiməsini müstəqil və qərəzsiz hakimlərin həyata keçirməsi kimi mühüm prinsipi təmin etməlidir. Heç kim öz işi ilə bağlı hakim ola bilməz. Bu, hüquqi mübahisənin necə nəticələnəcəyində maraqlı olan hakimə də aiddir. Bir tərəfdən, tərəflərdən gözlənilə bilməz ki, onlar obyektivliyinə etibar etmədikləri adamı hakim kimi qəbul etsinlər. Başqa yandan, hakimin müstəqilliyi təkcə məhkəmə hakimiyyətinə deyil, tərəflərə münasibətdə də təmin edilməlidir.

II. Hakimin işə baxmasına yol verilməməsi üçün qanunla nəzərdə tutulan əsaslar

1. Maddə 19.1-də hakimin qanun əsasında işə baxmaqdan kənarlaşdırıldığı hallar sadalanır. Aşağıdakıların hakim qismində işə baxmasına yol verilmir:

– qanunvericiliyə uyğun olaraq, hakim vəzifəsinə təyin edilməmiş şəxslər;

– qanunvericiliyə uyğun olaraq, işin baxılması üçün nəzərdə tutulmuş hakim olmayanlar;

– hakim kimi əvvəllər başqa instansiya məhkəmələrində işə baxılmasında iştirak etmiş şəxslər.

Hakimin işə baxmasına yol verilməməsi qanundan irəli gəlir. Eyni qayda 19.1-ci maddəyə də aiddir: qohumluq əla-

[79] Bundan sonra qanunun adı çəkilmədən göstərilən maddələr MPM-in müddəalarıdır.

qəsində olan şəxslərin işə baxan məhkəmə tərkibində iştirakına yol verilmir.

2. Maddə 19.2-də hakimin işə baxılmasında iştirak edə bilmədiyi başqa əsaslar göstərilib. 19.2.1 və 19.2.2-ci maddələrə uyğun olaraq, hakim aşağıdakı hallarda işə baxılmasında iştirak edə bilməz və ona etiraz oluna bilər:

– o, əvvəllər hər hansı formada işə baxılmasında iştirak edibsə;

– o, tərəflərdən biridirsə və ya tərəflərdən birinin və yaxud onun nümayəndəsinin birbaşa qohumudursa və qohumu olubsa və ya qohumluq əlaqəsindədirsə.

Əlbəttə, belə hallarda qanunun mətninə əsasən vəsatətlə müraciət etmək tələb olunur. Lakin hakim prosesin istənilən mərhələsində, yəni işin ona daxil olmasından sonra, ən geci isə 165-ci maddəyə uyğun olaraq iş məhkəmədə baxılmağa hazırlanan zaman həmin iş üzrə müstəqil və qərəzsiz qərar qəbul edə biləcəyinə dair özündə aydın təsəvvür yaratmalıdır. 19.2.1 və 19.2.2-ci maddələrdə nəzərdə tutulmuş hallarda (da) bu şərtlərin olmadığı aydındır. Hakimin işə baxmasına yol verilməməsinə dair formal olaraq tərəflərin vəsatətlə müraciət etməməsinə görə hakimin bu işə baxması mənasız olardı. Buna görə də 21.1-ci maddədə göstərilir ki, bu Məcəllənin 19 və 21-ci maddələrində göstərilən hallar olduqda, hakim özü özünə etiraz etməyə borcludur. Bununla yanaşı, təbii ki, tərəflərin özlərinə də hakimin işə baxmasına yol verilməməsinə dair vəsatətlə müraciət etmək hüququ verilir.

III. Maddə 19.2.3-də nəzərdə tutulmuş ümumi qeyd-şərt əsasında qərəzlilik barədə vəsatətlə hakimin işə baxmasına yol verilməməsi

Hakimin işə baxmasına yol verilməməsinə dair qanunla nəzərdə tutulmuş başqa əsaslardan fərqli olaraq, 19.2.3-cü

maddə hakimi və ya başqa proses iştirakçılarını qərəzli hesab edən tərəfin daim vəsatətlə müraciət etməsini tələb edir. Maddə 19.2.3, bir növ, ümumi qeyd-şərt qismində çıxış edir. Həmin müddəaya əsasən, şəxsən, bilavasitə və ya dolayı yolla işin nəticəsində maraqlı olan, yaxud obyektivliyinə və qərəzsizliyinə şübhə olan hakimin işə baxmasına yol verilməyə və ya ona etiraz edilə bilər.

Beləliklə, normanın mətninə əsasən qərəzsizliklə bağlı sadəcə olaraq şübhələrin olması kimi əsaslar artıq kifayət edir. Hakimin həqiqətən də qərəzli olması zəruri deyil. Hakimin özünü qərəzli hesab edib-etməməsinin də əhəmiyyəti yoxdur. Əsas məsələ, etiraz edən təmkinli və ağıllı düşünən tərəfin fikrincə, hakimin qərəzsizliyinə şübhə etməyə səbəb olmuş kifayət qədər obyektiv əsasların olmasıdır.

IV. Qərəzliliyin təzahür formaları

19.2.3-cü maddədə yalnız hakimin işin nəticəsində birbaşa və ya dolayı marağı olduğu hal göstərilib. Qalan məsələlər isə konkret haldan asılıdır. Yəni hakimin qərəzsizliyinə inamsızlığın əsaslı olub-olmaması konkret işin bütün halları nəzərə alınmaqla diqqətlə yoxlanmalıdır.

Aşağıda 19.2.3-cü maddənin tətbiqi üçün ən mühüm hallar sadalanacaq. Bununla belə, sadalanacaq hallar heç də həmin maddənin əhatə edə biləcəyi bütün hallar demək deyil. Əsas məsələ konkret işin hallarıdır.

1. Proses nəticəsində hakimin maraqlı olması ilə işdə dolayı iştirakı

Bu hal hakimin marağı olduğu, eləcə də onun maraqlarının başqa maraqlarla toqquşduğu və ya prosesdə onun üçün əsl iqtisadi, yaxud mühüm şəxsi maraqların olduğu işə baxılan zaman nəzərə çarpır.

Misal: səhmdar cəmiyyəti ilə bağlı işdə hakim, yaxud onun qardaşı və ya yaxın ailə üzvlərindən biri həmin səhmdar cəmiyyətinin iri səhmdarıdır; prosesdə hakimin ailə üzvlərindən birinin vurulmuş zərərin ödənilməsi tələbi üzrə işə baxılır.

2. Üçüncü tərəfin təsiri

Bu zaman üçüncü tərəfin hakimə elə bir təsiri başa düşülür ki, tərəflərdə hakimin qərəzli olması barədə narahatlıq yaransın.

Bu zaman müxtəlif tərəflərin, məsələn məhkəmə hakimiyyəti sferasından (nazirlik, yuxarı instansiya məhkəməsi, prokurorluq və ya başqa hakim həmkarlar), yaxud ictimai rəyin (məsələn, kütləvi informasiya vasitələri) göstərdiyi təsirlər nəzərdə tutulur.

Misallar: Ədliyyə Nazirliyi hakimin prosesdə tərəflə necə davranmalı olması barədə təklif verir; hakimin həmkarı onun baxdığı işdə tərəflərdən birinin xeyrinə mövqe bildirərək və ona təsir etməyə çalışaraq prosesə müdaxilə edir.

3. Müəyyən siyasi ideologiyaya, yaxud xüsusi dini icmaya mənsubolma

Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin 2-ci bəndinə görə, hakim heç bir siyasi partiyaya mənsub ola bilməz. Lakin hakimin diqqəti cəlb edən hər hansı siyasi fikir bildirməsinin, yaxud onun dini icmaya aid olmasının artıq özü qərəzlilik üçün əsas kimi qəbul oluna bilər. Bunun şərti odur ki, bu məsələlərlə icraatın predmeti arasında xüsusi əlaqə olsun və/yaxud məsələ ilə bağlı başqa hallar olsun.

Misal: Hakimin mənsub olduğu dini icma xüsusilə radikal baxışları ilə fərqlənir (məsələn, qadınların ərlərindən boşanmasının qadağan edilməsi). Bu hal ən azı boşanma ilə bağlı işə baxılan zaman qərəzliliklə bağlı vəsatət qaldırmaq üçün əsas olardı.

4. Tərəflə yaxın şəxsi və ya işgüzar münasibətlərin olması

19.2.2-ci maddənin tətbiq olunması mümkün olmazsa, prosesdə tərəflərdən biri ilə yaxın şəxsi və ya işgüzar münasibətin olması qərəzlilik üçün əsas qismində çıxış edə bilər.

Misallar: Tərəflərdən biri ilə dostluq əlaqəsində, yaxud (əvvəllər) nişanlı olma. Tərəfin təmsil olunduğu orqanın üzvü ilə, yaxud tərəfin yanında və ya onunla əlaqəsi olan müəssisədə çalışan rəhbər şəxslərin biri ilə nikahda olma. Hakimlə prosesdə tərəf qismində çıxış edən məhkəmənin hakimi arasında kollegial münasibətin olması.

5. Tərəflərdən birinin maraqlarının qorunması, bərabərlik prinsipinin pozulması

Tərəflərdən birinin maraqlarının qorunması təcrübədə qərəzliliklə bağlı qaldırılan əksər vəsatətlərin əsasını təşkil edir. Hakim vəzifəsini qərəzsiz və bitərəf icra etməyə borcludur və bu, ondan ciddi surətdə obyektiv olmağı tələb edir.

Ümumi şəkildə bildirmək olar ki, birtərəfli qaydada məsləhət və tövsiyələrin verilməsi bir tərəfin xeyrinə mövqe bildirilməsi kimi qiymətləndirilməlidir və ona görə də bu, bitərəflik və qərəzsizlik prinsipləri ilə bir araya sığmır.

Misallar: Tərəflərdən birinə prosesdən kənar, telefonla və s. məsləhət və tövsiyələrin verilməsi. Bura prosesdən əvvəl hüquqi məlumatların verilməsi də aiddir.

Əksinə, məsləhət **bütün** iştirakçılara eyni qaydada verilibsə, qərəzlilik üçün əsas olmur.

Qanunda nəzərdə tutulmuş göstərişlərdə və izahedici məlumatlarda birtərəfli olma və bununla da tərəflərdən biri ilə yaxınlıq vəziyyəti olmur. Bu, xüsusilə proseslə bağlı məsələlərin aydınlaşdırılması, prosesə yardımetmə, işin və mübahi-

sənin hallarının açıq izahı çərçivəsində şifahi icraat zamanı tərəflərə qayğı göstərilməsinə aiddir. Məsələn, 14.3-cü maddəyə əsasən, məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur. Bununla əlaqədar olaraq, o, tərəflərə qətnamə vasitəsilə çıxarılan qərarın onlara hansı risklər yarada biləcəyini başa salmaq üçün özünün məsələ üzrə ilkin baxışını da söyləyə bilməlidir. O bildirməlidir ki, bu, heç də onun məsələ ilə bağlı hüquqi cəhətdən qəti qərarı deyil. Bu baxımdan hüquqi izahatların verilməsi və ya hüquqi vəziyyətin qiymətləndirilməsi məcburi xarakter daşıyır. Tərəflərə hüquqi qeydlər etmək və barışıq sazişi ilə bağlı təkliflər vermək hüququnu 52.4-cü maddə də vurğulayır.

Yalnız cavabdehin müraciəti əsasında hakimin nəzərə almalı olduğu etirazın olmasını (məsələn, iddia müddətinin keçməsi, öhdəliyin icrasından imtina etmək hüququ) cavabdehə bildirməyin qərəzliliyə görə etirazetmə üçün əsas olub-olmaması barədə müxtəlif fikirlər söyləmək olar[80].

Obyektivliyin, bitərəfliyin pozulmasına görə qaldırılan vəsatət xüsusilə aşağıdakı hallarda əsaslandırılmış hesab oluna bilər:

(a) Prosessual bərabərlik tələbinin pozulması

Tərəflər hakim qarşısında bərabərdir. Onlarla qeyri-bərabər davranma, istənilən özbaşınalıq qadağandır. Hakimin mühüm vəzifələrinin pozulması qərəzlilik üçün şübhə yaranmasına əsasdır.

Misallar: Birtərəfli qaydada protokollaşdırma ilə tərəflərlə qeyri-bərabər davranma; birtərəfli informasiyanın verilməsi

---

[80] Almaniyanın məhkəmə təcrübəsində bu məsələ çox mübahisəlidir. Belə hallarda problem ona görə yaranır ki, hakim etirazı yalnız cavabdehin birbaşa ona istinad etdiyi hallarda (məsələn, müqayisə et: MM-in 375.2-ci maddəsinə əsasən iddia müddətinin keçməsi ilə bağlı) nəzərə ala bilər.

və ya vaxtların təyin olunması zamanı (məsələn, bir tərəfin istəyinə əsasən qarşı tərəfi xəbərdar etmədən iclasın vaxtının başqa vaxta keçirilməsi) tərəflərdən birinə üstünlük verilməsi.

Lakin aşağıdakılar buna aid deyil: hakimin izahetmə və sualvermə hüququnu həyata keçirməsi çərçivəsində tərəflərdən birinə məsləhət və tövsiyələr verməsi, şifahi icraat zamanı ərizələrin tərtibi ilə bağlı yardım edilməsi, həqiqətin söylənməsi barədə hakimin xəbərdarlıq etməsi.

(b) Tərəflərdən biri ilə qeyri-obyektiv və qeyri-adekvat davranma, ona mənfi münasibət bəsləmə, yaxud özbaşına olaraq ona üstünlük vermə və ya onu əlverişsiz vəziyyətə salma

Misallar: hakimin mənfi əhval-ruhiyyə yaratmaqla işə qeyri-adekvat baxma üslubu (məsələn, tərəflərdən birinin üzərinə qışqırma və ya onu təhqir etmə); prosesdə və ya prosesdən əvvəl qeyri-obyektiv fikirlər söyləmə; tərəflərdən birinə və ya onun vəkilinə qarşı nifrət dolu, acı, kinayəli, istehzalı sözlərdən istifadə olunması (məsələn, «Sizin dediklərinizhüquqi cəfəngiyatdan başqa bir şey deyil»). Tərəflərdən birini özbaşına olaraq əlverişsiz vəziyyətə salma xüsusilə iclasın təxirə salınması, yaxud başqa vaxta keçirilməsi barədə haqlı vəsatət qaldırılması zamanı vəsatət rədd edildikdə, sənədlərlə tanış olmağa icazə verilmədikdə, təzyiq göstərildikdə, nümayəndənin iştirakı olmadan tərəf dindirildikdə baş verir.

Vaxtın dəyişdirilməsi və ya sənədlərlə tanış olmaqla bağlı qaldırılmış əsassız vəsatətin rədd edilməsi qərəzlilik üçün əsas deyil.

(c) Qabaqcadan müəyyən fikrə malikolma və şübhələnmə

Hakim şəxsi antipatiyasının və ya ilkin mühakimələrinin prosesə sirayət etməsinə yol verməməlidir.

Misallar: narkomana, yaxud fahişəyə onu pis vəziyyətə salmaq məqsədi güdən və işə aidiyyəti olmayan sualların verilməsi; bir tərəfin qarşı tərəfə dediklərini yoxlamadan qəbul etmə və s. Lakin tərəflərdən birinin dediklərinin həqiqətə uyğun olmaması ilə bağlı şübhələrin bildirilməsi hakimə qadağan oluna bilməz (xüsusilə başqa tərəf bununla şübhələri aradan qaldırmaq fürsəti əldə edirsə).

(d) Prosesi qeyri-obyektiv aparma, ciddi prosessual pozuntulara yolvermə, fəaliyyətsizlik

Bu halda tərəfin qərəzliliklə bağlı qaldırılan vəsatəti o zaman əsaslı hesab olunur ki, hakimin prosesi aparması qanuni əsasdan məhrum olsun və proses normal qaydalardan uzaq olmaqla, maraqlı tərəfdə onun əlverişsiz vəziyyətə salınması təəssüratı oyatsın.

Misallar: prosessual hüquqlar kobud surətdə pozulur (məsələn, dinlənilmə hüququ, yaxud ədalətli və özbaşınalıqdan uzaq məhkəmə araşdırması hüququ pozulur ki, bu zaman da tərəflərdən birinə mövqeyini bildirməsi üçün ümumiyyətlə imkan verilmir). Xüsusi şəkildə sual verməklə və ya ifadə verməyə məcbur etməklə (ifadə verməkdən imtina etmək hüququnun olmasına baxmayaraq) şahidə təsir göstərmə.

Bütün deyilənlərə rəğmən istənilən səhv hüquqi baxış və ya prosesi yanlış aparma hakimin qərəzliliyinə şübhə etmək üçün əsaslı səbəb ola bilməz (bu, hətta kobud hüquq pozuntusu olsa belə). Yəni səhvin hakimin qərəzliliyinə və ya sadəcə olaraq özbaşınalığına əsaslanan narahatlıqla bağlı olmasını sübut edən əlavə əsaslar olmalıdır. Hakimə etiraz heç vaxt ha-

kimin qərarlarının düzgünlüyünü yoxlamağa xidmət etmir. Səhvlər yalnız qeyri-obyektiv fikrə, yaxud hakimin özbaşınalığına əsaslandıqda hakimə etiraz edilməsi əsaslı hesab olunur.

V. Qərəzliliyin müəyyən edilməsi

Qərəzliliyə görə hakimə etiraz edilməsi onun həqiqətən qərəzli olmasını şərt kimi nəzərdə tutmur. 19.2.3-cü maddəyə əsasən, hakimin qərəzsizliyinə şübhə doğuran halların olması kifayətdir. Bunun üçün əsas – qərəzliliyin hakimin obyektiv cəhətdən müəyyən edilməsi mümkün olmayan, adətən sübut edilə bilməyən daxili vəziyyətidir.

Hakimin qərəzliliyi ilə bağlı şübhələr, prinsipcə, etiraz edən ərizəçinin mövqeyindən qiymətləndirilməlidir. Lakin etiraz edənin təhsili və təcrübəsinin səviyyəsi nəzərə alınmaqla hakimə etimadsızlıq göstərməsinə dair konkret səbəbin olması barədə sual verilməlidir. Etiraz edənin mövqeyinə əsasən, hakimin qərəzli olduğunu düşünməyə əsas verən obyektiv ağlabatan səbəblər olmalıdır. Onun etimadsızlığını ağıllı düşünən insan başa düşməlidir. Lakin son nəticədə bu məsələnin həlli yalnız konkret halla bağlıdır. Bir tərəfdən ərizəçinin əsası olmayan, tamamilə subyektiv xarakter daşıyan, şişirdilmiş və ya qeyri-tənqidi təsəvvürləri nəzərə alınmamalıdır. Başqa yandan etirazla bağlı əsaslandırılmış ərizəyə qoyulan tələblər şişirdilməməli və şübhə olan hallarda, ədalət mühakiməsinə olan etimadı qorumaq və ya etiraz olunmuş hakimə qarşı ərizəçinin şəxsi tənqidinə (bu, haqsız olsa belə) yol verməmək üçün etirazla bağlı ərizə təmin edilməlidir. Bu, həm də 22.3-cü maddədə əksini tapıb: etirazın lehinə və əleyhinə verilən səslərin sayı bərabər olduqda, hakim kənar edilmiş hesab olunur.

VI. İcraat

Hakimə etiraz edilməsi üzrə icraat

↓

Tərəflərdən birinin etiraz barədə ərizəsi (vəsatəti)

İlkin şərtlər:

* Yazılı (21.2-ci maddə)
* Şifahi icraat başlamamışdan və ya əsaslar sonradan məlum olduqda, işə baxılmağa başladıqdan sonra (21.2-ci maddə)
* Eitrazın əsaslandırılması (21.3-cü maddə)

Yadda saxla: Sübutlar təqdim edilmədən yalnız etirazın irəli sürülməsi kifayət etmir. Bu cür etiraz üzrə qərar qəbul etməyə ehtiyac yoxdur (21.3-cü maddənin 2-ci cümləsi)

↓

* Qarşı tərəfin dinlənilmə hüququnun təmin edilməsi
* Etiraz edilən hakimin özünü qərəzli hesab edib-etməməsi ilə bağlı fikrinin öyrənilməsi və izahatı (22.1-ci maddə)

↓

Mübahisələndirilməyən qərar (22.6-cı maddə)

Hakimə etiraz edilməsi ilə bağlı ərizələr barədə qərar vermək səlahiyyəti



VII. Kazuslar

1-ci kazus:

İşçi Səfərov Fikrət Rahib oğlu işəgötürəni Qasımov Tural Şakir oğluna qarşı onun əmək müqaviləsinə xitam verilməsinin etibarsızlığının müəyyənləşdirilməsinə dair məhkəmədə iddia qaldırır. Turalın müəssisəsində 15 işçi çalışır. İddiaçı və başqa bir işçi Rəşad Əhmədov təxminən eyni işi görürlər. Rəşad Əhmədov hakim Əhmədova Elnarə Davud qızının həyat yoldaşıdır. Son zamanlar Turalın müəssisəsində işlər yaxşı getmədiyi üçün o, iqtisadi vəziyyətin pis olmasına görə Fikrətlə müqaviləyə xitam verib. İddiaçı məhkəmə icraatı başlamazdan əvvəl hakimə qarşı qərəzliliklə bağlı vəsatətlə çıxış edib. Fikrət vəsatəti əsaslandırarkən göstərir ki, onunla müqaviləyə müəssisənin iqtisadi vəziyyəti ilə bağlı xitam verilməsinin heç bir əsası yoxdur. Əksinə, həmkarı Rəşad Əhmədov səmərəsiz işlədiyinə və çalışqan olmadığına görə əslində onunla bağlanmış əmək müqaviləsinə xitam verilməli idi.

Hakim isə verdiyi yazılı rəydə qərəzli olmadığını bildirir.

Bu halda Bakı şəhəri X rayon məhkəməsinin sədri məsələni necə həll edəcək?

Həlli:

Qərəzliliklə bağlı qaldırılan vəsatət yolveriləndirsə və əsaslandırılıbsa, məhkəmənin sədri vəsatəti təmin edəcək.

1. Vəsatət yolveriləndir. O, 21.2-ci maddəyə uyğun olaraq yazılı formada və işə mahiyyəti üzrə baxılması başlanana qədər qaldırılıb. Bundan əlavə, vəsatət həm də 21.3-cü maddəyə uyğun əsaslandırılıb. 22.2-ci maddəyə əsasən isə, işə təkbaşına baxan hakimə etiraz edilməsi məsələsini məhkəmənin sədri həll edir.

2. Vəsatət həm də əsaslandırılıb. Hakimlə tərəflər arasında yaxın şəxsi münasibətlər olmasa da, hakimə etiraz edən tə-

rəfin fikrincə, etiraz üçün əsaslar var. Və bunlar ağıllı *(rasional)* düşünən tərəfin mövqeyinə əsasən hakimin qabaqcadan müəyyən fikirdə olmasına şübhə etmək üçün əsas verir. Hakimin işin necə nəticələnəcəyində müəyyən marağı var. O, əmək müqaviləsinə xitam verilməsini etibarsız elan etsə, cavabdeh müəyyən şərtlər daxilində onun həyat yoldaşını işdən azad etməli olardı. Beləliklə, bu qərarla bağlı hakimin şəxsi və iqtisadi maraqları da ortaya qoyulub. İddiaçının fikrincə, bunları nəzərə aldıqdan sonra hakimin həyat yoldaşının iş yerini qorumaq üçün müqaviləyə xitam verilməsini əsaslı hesab edəcəyini və iddianı rədd edəcəyini istisna etmək olmaz.

Bununla da məhkəmə sədri 22.6-cı maddəyə uyğun olaraq vəsatəti təmin edən qərardad çıxarmalıdır ki, bundan da şikayət verilə bilməz. Qərardad aşağıdakı formada ola bilər:

Bakı, X rayon məhkəməsi
Az.: ...

Qərardad

Cənab Səfərov Rahib Fikrət oğlu, Nizami küçəsi, 23/12, 1005 Bakı

iddiaçı və ərizəçi

Cənab Qasımov Tural Şakir oğluna, Teymur Elçin küçəsi 7/24, 1003 Bakı

cavabdeh

qarşı işdə

Bakı X rayon məhkəməsi sədr vasitəsilə 20 iyun 2005-ci ildə aşağıdakıları qərara aldı:

İddiaçının hakim Əhmədova Elnarə Davud qızına qarşı etirazı əsaslandırılmış elan olunur.

Əsaslar:

Etirazla bağlı vəsatət yolverilən dir və əsaslandırılıb.

MPM-in 19.2.3-cü maddəsinə əsasən, hakim şəxsən, bilavasitə və ya dolayı olaraq işin nəticəsində maraqlıdırsa, yaxud onun obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər əsas varsa, ona etiraz edilə bilər. Bu işdə həmin şərtlər var.

Hakim tərəflərlə şəxsən qohumluq və ya dostluq münasibətində olmasa da, hakimin həyat yoldaşı və cavabdeh arasında işçi-işəgötürən münasibəti var. Bunun hakimin obyektivliyinə şübhə etmək üçün kifayət qədər əsas olub-olmaması məsələsi isə açıq saxlana bilər. Çünki iddiaçı və hakimin həyat yoldaşı həm də eyni işdə çalışırlar və bununla da birbiri ilə müəyyən mənada rəqabət münasibətindədirlər. Bununla da iddiaçının işdən çıxarılması müəssisənin iqtisadi vəziyyəti ilə bağlı olduğu üçün iddia uğurlu olarsa, hakimin həyat yoldaşının işdən çıxarılma qorxusunun olmasını istisna etmək olmaz. Ona görə də hər halda iddiaçının mövqeyinə əsasən hakimin işin nəticəsində müəyyən marağının olmasını nəzərə almamaq olmaz (hətta məhkəmə sədri özünü qərəzsiz hesab edən hakimin işə obyektiv və qərəzsiz baxacağına şübhə etməsə belə). Bununla belə, hakimin həqiqətən də qərəzli olub-olmaması yoxlanılmır. MPM-in 19.2.3-cü maddəsinə əsasən, etirazetmə ilə bağlı qaldırılan vəsatət hakimin qərəzsizliyinə və obyektivliyinə şübhə doğuran kifayət qədər əsas olduqda artıq əsaslandırılmış hesab edilir və bu iş üzrə də belədir.

<u>2-ci kazus</u>

İddiaçı Səfərov Fikrət Rahib oğlu prosesdə cavabdeh Qasımov Tural Şakir oğluna qarşı alqı-satqı ilə bağlı 15.000 manat pul məbləğinin ödənilməsi tələbi ilə çıxış edir. İşə mahiyyətcə baxılmasına başlandıqdan sonra hakim Əhmədova Elnarə Davud qızı barışıq sazişi ilə bağlı təklifi çərçivəsində iddiaçının nəzərinə çatdırır ki, prosesin indiki mərhələsində mövcud olan sübutlar onun tələbinin tam həcmdə həyata keçirilməsi üçün

ən azı şübhələr yaradır. Təqdim olunmuş sənədlərə əsasən iddiaçının pul məbləği ilə bağlı tələbinin yalnız 10.000 manat olduğu sübut edilə bilər. Eyni zamanda 10.000 manat məbləğində qarşılıqlı tələblə çıxış edən cavabdehə isə hakim bildirir ki, o, tələbinin yalnız 5.000 manatını yazılı formada sübut edə bilər. Bundan başqa, onun təklif etdiyi şahidlərin inandırıcı olması onlar arasında şəxsi yaxınlıq olduğuna görə, ola bilsin ki, mübahisələndirilə də bilər. Beləliklə, tərəflərin təqdim etdiyi sübutların onların tələblərini sübut etmək üçün kifayət etməməsinə dair bir sıra dəlillər var. Sübutların vəziyyəti və işin nəticəsi isə bütövlükdə açıq qaldığı üçün hakim tərəflərə 7.500 manat pul məbləğinə dair barışıq sazişi təklif edir. Buna cavab olaraq iddiaçı hakimə qarşı qərəzliliklə bağlı vəsatət qaldırır. Hakim verdiyi rəyində qərəzsiz olduğunu elan edir.

Məhkəmə bu məsələni necə həll edəcək?

Həlli:

Etirazla bağlı vəsatət yolverilən olsa da, əsaslı deyil.

19.2.3-cü maddəyə əsasən, hakim şəxsən, bilavasitə və ya dolayı olaraq işin nəticəsində maraqlıdırsa, yaxud onun obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər əsas varsa, ona etiraz edilə bilər.

Lakin bu kazusda hakimin təkcə təqdim olunmuş sənədləri nəzərə almaqla sübutlarla bağlı fikir bildirməsi faktı etirazla bağlı vəsatət qaldırmaq üçün hələ əsas deyil.

14.3-cü maddəyə əsasən məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur. Bununla bağlı hakim tərəflərə işə mübahisəli icraat qaydasında baxılan zaman onlar üçün yaranacaq riskləri göstərmək, onları barışıq sazişi ilə işi tamamlamağa sövq etmək üçün ilkin hüquqi mövqeyini də söyləyə bilməlidir. Bu kazusdan göründüyü kimi, hakim dediklərinin həmin vaxt ilkin fikir olduğunu və bunun məsələ ilə bağlı qəti hüquqi nəticə olma-

dığını bildirib. Bundan əlavə, 52.4-cü maddə hakimin birmənalı olaraq barışıq sazişi ilə bağlı təkliflər vermək hüququnu tanıyır. Başqa yandan, göstəriş və sual hüququ da qanunda (14, 184, 190-cı maddələr) nəzərdə tutulub. Bu, son nəticədə prosesin şəffaflığına xidmət edir və tərəflər üçün gözlənilməz qərarların qəbulunun qarşısının alınmasına yardım edir.

Məhkəmənin qərarı belə ola bilər:

Bakı, X rayon məhkəməsi

Az.: ...

Qərardad

Cənab Səfərov Rahib Fikrət oğlu, Nizami küçəsi, 23/12, 1005 Bakı

iddiaçı və ərizəçi

Cənab Qasımov Tural Şakir oğluna, Teymur Elçin küçəsi, 7/24, 1003 Bakı

cavabdeh

qarşı işdə

Bakı X rayon məhkəməsi sədr vasitəsilə 20 iyun 2006-cı ildə aşağıdakıları qərara aldı:

İddiaçının hakim Əhmədova Elnarə Davud qızına qarşı etirazı əsassız olduğuna görə rədd edilir.

Əsaslandırma:

Etirazla bağlı yolverilən vəsatət əsassızdır.

Hakimin işə baxmasına yol verilməməsi üçün MPM-in 19.2.3-cü maddəsində nəzərdə tutulmuş şərtlər burada yoxdur. Həmin müddəaya görə, hakim şəxsən, bilavasitə və ya dolayı olaraq işin nəticəsində maraqlıdırsa, yaxud onun obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər

əsas varsa, ona etiraz edilə bilər. Hakimin təkcə təqdim olunmuş sənədləri nəzərə almaqla tərəflərə iddianın uğurlu olub-olmayacağını bildirməsi faktı qərəzliliklə bağlı narahatlıq üçün əsas vermir.

Qanuna əsasən hakim prosesi elə şəffaf qaydada aparmalıdır ki, tərəflər gözlənilməz qərarlarla üzləşməsinlər. Bu, MPM-in 14, 184 və 190-cı maddələrindən irəli gəlir. O, tərəflərin işlə əlaqədar önəmli hallarla bağlı tam fikir bildirməsinə və zərurət olduqda, onu tamamlamasına kömək etməlidir. Bu məqsədlə hakim prosesin hər bir mərhələsində tərəfləri dinləməlidir. Bu isə məcburi olaraq hakimin tərəflərə ilkin fikrini bildirməsini şərtləndirir. Yalnız bundan sonra tərəflər dinlənilmə hüquqlarını effektiv həyata keçirə bilərlər.

MPM-in 14.3-cü maddəsinə əsasən, hakim tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur. MPM-in 52.4-cü maddəsinə əsasən, hakim tərəflərə barışıq sazişi ilə bağlı təkliflər verməyə haqlıdır. Ona görə də hüquqi izahların verilməsi və ya vəziyyətin hüquqi baxımdan qiymətləndirilməsi qaçılmazdır. Tərəflər yalnız işə mübahisəli icraat qaydasında baxılan zaman onlar üçün yaranacaq riskləri öyrəndikdən sonra barışıq sazişinin mənfi və müsbət tərəflərini məqsədəuyğun surətdə təhlil edə bilərlər.

Bununla da hakim hüquqi vəziyyətlə bağlı izahatlar verməklə Mülki Prosessual Məcəllə çərçivəsində fəaliyyət göstərib. Bundan əlavə, hakim tərəflərin başqa, daha yaxşı dəlillərini qəbul etməyəcəyi təəssüratı da yaratmayıb, əksinə, dediklərinin yalnız hüquqi vəziyyətin ilkin qiymətləndirilməsi olduğunu söyləyib. Bu isə təmkinli və rasional düşünən tərəfin fikrincə, hakimin qərəzsizliyinə şübhə etmək üçün heç bir əsas vermir.

III hissə

A. Çalışmalar üçün 8 kazus

1-ci kazus: Nasaz kompüter proqramı

(Qarışıq müqavilə, qarantiya tələbi, sübutların qiymətləndirilməsi)

I. İşin halları

1 saylı Yerli İqtisad Məhkəməsinə
İddiaçı: «Günel» MMC
Ünvan: Füzuli küç., 3/7, AZ 1007 Bakı
Təmsilçi: Direktor – cənab Məmmədli Təbriz Kamil oğlu

Cavabdeh: «Komputek» MMC firması
Ünvan: M.F.Axundov küç., 21/34, AZ 1003 Bakı
Təmsilçi: İcraçı direktor – xanım Dəmirli Cəmilə Arif qızı

İddia ərizəsi

(Qüsura görə dəymiş zərərin ödənilməsi barədə)

Əsaslandırma:

İddiaçı tikinti müəssisəsidir. Cavabdeh ofis ehtiyacları üçün kompüter vasitələri, proqramları və başqa elektron cihazlarının satışı ilə məşğul olur.

2007-ci ilin əvvəlində iddiaçı daxili mühasibat sistemini müasirləşdirmək qərarına gəlir. 2007-ci il 16 fevral tarixində o, müəssisə proqramı və mühasibatlıq üçün xüsusi proqramla təchiz olunmuş 4 kompüterin göndərilməsi barədə cavabdehə 4.300 manat dəyərində sifariş verir.

Əvvəlcədən tərəflər müqavilə üzrə danışıqlar zamanı cavabdehin proqramları kompüterə yükləməsi və iddiaçının iş-

çilərinə xüsusi mühasibat proqramının necə tətbiq olunmasını öyrətməsi barədə razılığa gəlmişdilər. 2007-ci il 18 fevral tarixli məktubla cavabdeh qeyd edilən şərtlərlə razı olduğunu bildirir və 10 mart 2007-ci il tarixini göndərilmə tarixi kimi göstərir. Bundan əlavə, o, iddiaçının işçilərinə bir qədər əvvəl öz ofisində təlim keçməsini təklif etmişdi.

Sübut: 2007-ci il 18 fevral tarixli sifarişi təsdiq edən sənədin surəti.

Fevralın sonuncu həftəsi iddiaçının hər iki katibəsi – xanım Ələkbərova Samirə Şamil qızı və xanım Qasımova Sahibə Rafiq qızı cavabdehin ofisində mühasibat proqramına dair təlimlərdə iştirak edirlər.

2007-ci il martın 10-da proqramların yükləndiyi 4 kompüter iddiaçıya göndərilir.

Amma xüsusi mühasibatlıq proqramı lazımi qaydada işləmir. Xanım Samirə Ələkbərova 2004-cü il martın 10-da cavabdehə zəng edib bu barədə xəbər verir. Cavabdeh israr edir ki, belə bir şeyin baş verməsi mümkün deyil. Çünki onun işçisi mal göndərilməzdən əvvəl bütün proqramların düzgün yükləndiyini və səhvsiz işlədiyini bir daha yoxlayıb. Xanım Ələkbərova Samirəyə heç bir kömək olmadan proqramı yenidən açmağa bir daha cəhd göstərməsi təklif edilir, çünki həmin anda cavabdehin ora göndərə biləcəyi boş işçisi olmur. Amma proqramı yenidən açmağa göstərilən cəhdlər uğursuz olur.

Sübut: Xanım Ələkbərova Samirənin şahid ifadələri (iddiaçı vasitəsilə məhkəməyə çağırılmalıdır).

Buna görə də iddiaçı ilk əvvəl 2007-ci il 15 mart tarixli məktubla mühasibat proqramının yenidən yüklənməsini və ya qüsurun başqa üsulla aradan qaldırılmasını cavabdehdən tələb edir.

Sübut: 2007-ci il 15 mart tarixli məktubun surəti.

Cavabdeh həmin məktuba heç bir reaksiya vermədiyindən iddiaçı 2007-ci il 22 mart tarixli məktubu ilə bir daha proqramın işlək variantda quraşdırılmasını tələb edir. Bundan əlavə, o, cavabdehə 2004-cü il 5 aprel tarixə kimi vaxt verir. O bildirir ki, bu müddətə kimi tələb yerinə yetirilməsə, başqa bir müəssisəyə proqramın quraşdırılması ilə bağlı sifariş verəcək.

Sübut: 2004-cü il 22 mart tarixli məktubun surəti.

Yenə də cavabdeh heç bir reaksiya vermir. Buna görə iddiaçı 2007-ci il aprelin 6-da mühasibat proqramının quraşdırılmasını «Beratel» MMC-yə tapşırır. Bunun üçün isə o, mühasibat proqramını «Beratel» MMC-dən yenidən almalı olur. Çünki cavabdeh 2007-ci il martın 10-da mühasibat proqramlarının yükləndiyi 4 kompüteri göndərməsinə baxmayaraq, onlara aid olan CD-ROM-u verməmişdi. Proqramın uğurla quraşdırılmasından sonra «Beratel» MMC-nin işçiləri cavabdehə bildirirlər ki, sistem mühasibat proqramında fayllardan biri yüklənmədiyinə görə açılmırdı.

Sübut: Cənab Səfiyev Fikrət Yaqub oğlunun şahid ifadələri.

«Beratel» MMC iddiaçıya 300 manat məbləğində hesab təqdim edir.

Sübut: 2007-ci il 8 aprel tarixli hesabın surəti.

2007-ci il 8 aprel tarixli məktubu ilə iddiaçı cavabdehdən tələb edir ki, bu hesaba uyğun olaraq çəkdiyi xərcləri ödəsin. Amma cavabdeh həmin tələbə məhəl qoymur. Bu səbəbdən iddianın qaldırılmasına ehtiyac yaranır.

MM-in 587.1.3-cü maddəsinə əsasən, iddiaçı cavabdehdən mühasibat proqramının yenidən quraşdırılması üçün çəkdiyi xərcin ödənilməsini tələb edə bilər. Onun cavabdehlə bağladığı alqı-satqı müqaviləsi 4 kompüter və müəssisə proqramı ilə yanaşı xüsusi mühasibat proqramının da göndərilməsini nəzərdə tutmuşdu. Sonuncu isə düzgün işləmirdi. Beləliklə,

alqı-satqı predmeti qüsurlu olub. Göstərilən müddəaya əsasən iddiaçı cavabdehdən qüsurların aradan qaldırılması üçün çəkdiyi xərclərin ödənilməsini tələb edə bilər.

Yuxarıda göstərilənləri nəzərə alaraq,

xahiş edirəm:

300 manatın cavabdehdən alınıb iddiaçıya ödənməsi barədə qətnamə çıxarasınız.

İmza: Məmmədli Təbriz
(İcraçı direktor)

Bakı şəhəri, 10.05.2008

1 saylı Yerli İqtisad Məhkəməsinə

Cavabdeh: «Komputek» MMC firmasının
səlahiyyətli nümayəndəsi vəkil Səfərov Əhməd
Ünvan: «20 Yanvar» küç., 32/24, AZ 1006 Bakı
Tel: 901567, Faks: 490 1667

İddiaçı: «Günel» MMC
Ünvan: Füzuli küç., 3/7, AZ 1007 Bakı

İddia ərizəsinə etiraz

«Günel» MMC firması / «Komputek» MMC firması arasında olan mülki mübahisə üzrə cavabdehin etibarnaməsi əsasında və onun adından xahiş edirəm ki, iddianı rədd edəsiniz.

Əsaslandırma:

I. İddiaçı və cavabdehin müəssisə və mühasibat proqramının quraşdırılması da daxil olmaqla 4 kompüterin göndərilməsi haqqında müqavilə bağladıqları doğrudur. Göndərilmə də, razılaşdırıldığı kimi, 2007-ci il martın 10-da həyata keçirilib.

Amma iddiaçının, guya ki, mühasibat proqramının düzgün quraşdırılmadığı üçün işləməməsi barədə gümanı həqiqətə uyğun deyil. Cavabdehin işçisi İbrahimov Davud Fuad oğlu göndərməzdən əvvəl həm müəssisə, həm də mühasibat proqramlarını yoxlayıb. Bu yoxlama zamanı hər iki proqram qüsursuz işləyib.

Sübut: Cənab İbrahimov Davud Fuad oğlunun şahid ifadələri (cavabdeh vasitəsilə dəvət edilməlidir).

Cavabdeh iddiaçının mühasibat proqramını açа bilməməsini yalnız iddiaçının işçilərinin proqramı qaydaya uyğun istifadə etməməsi ilə izah edə bilər. Bu, kompüterlərin göndərilmə günü iddiaçının işçisi zəng vurub şikayət edəndə də ona bildirilmişdi. Hətta ola bilsin ki, guya əvvəlcədən mövcud ol-

mayan sistem faylını da onlar pozmuşlar. Hər halda keçirilən təlimlər zamanı katibələrdən biri elektron məlumatların işlənməsi sahəsində xüsusi istedadı olmadığını göstərib və üzərində məşq keçirilən kompüteri tez-tez sıradan çıxarıb. Bu faktı təlimi keçən cənab Davud İbrahimov Fuad oğlu da təsdiq edə bilər.

II. MM-in 587.1.3-cü maddəsinə əsasən, iddiaçının guya səhv quraşdırılmış mühasibat proqramı ilə əlaqədar heç bir hüququ yaranmır. Çünki proqramların quraşdırılması alqı-satqı müaviləsinin predmeti ola bilməz. Əksinə, bu münasibətə podrat müqaviləsi haqqında müddəalar daha çox uyğun gəlir.

İmza: Səlahiyyətli nümayəndə — vəkil Əhməd Səfərov

Bakı şəhəri, 30.05.2008

İşdən çıxarış

İddiaçının bildirdikləri	Cavabdehin bildirdikləri
I. Tələblər	
300 manatın ödənilməsi	İddianın rədd edilməsi
II. İşin faktiki halları	
İddiaçı 16.02.2007-ci ildə müəssisə proqramı və mühasibat proqramının yükləndiyi 4 kompüter barədə cavabdehə 4.300 manat dəyərində sifariş verib.	+
Razılaşmaya görə, cavabdeh proqramları quraşdırmalı və iddiaçının işçilərinə təlim keçməli idi.	+
Cavabdeh 18.07.2007-ci ildə sifarişi təsdiq edib, 10.03.2007-ci ildə göndərməni icra edəcəyinə vəd verib və işçilərə təlim keçməyi təklif edib.	+
Fevralın sonuncu həftəsi iddiaçının hər iki katibəsi təlim keçib.	Katibələrdən biri xüsusi istedadı olmadığını göstərib və dəfələrlə kompüteri sıradan çıxarıb *(İbrahimov Davud Fuad oğlunun ifadəsi)*
10.03.2007-ci ildə hər iki proqramın quraşdırıldığı 4 kompüter göndərilib.	+

Mühasibat proqramı lazımi qaydada işləməyib. *(Samirə Ələkbərovanın ifadəsi)* Sistem fayllarından biri yüklənmədiyinə görə mühasibat proqramı işləmirdi. *(Səfiyev Fikrət Yaqub oğlunun ifadəsi)*	– Səbəb kompüterin düzgün istifadə edilməməsidir. *(İbrahimov Davud Fuad oğlunun ifadəsi)*
Samirə Ələkbərova elə həmin gün telefon vasitəsilə qüsurlarla əlaqədar şikayət edib.	+
15.03 və 22.03 tarixlərində qüsurların aradan qaldırılması barədə pretenziyalar. 05.04.2007-ci ilə qədər vaxt müəyyən edilməsi və qüsurların 3-cü şəxslərin köməyi ilə aradan qaldırılacağı barədə xəbərdarlıq.	+
06.04.2007-ci ildə iddiaçı «Beratel» MMC-yə mühasibat proqramının quraşdırılması barədə sifariş verib. «Beratel» MMC proqramı almaq məcburiyyətində qalıb, cavabdeh CD-ROM-ları kompüterlə birlikdə göndərməmişdi.	+
«Beratel» MMC iddiaçıya 300 manatlıq hesab təqdim edib. +	+

II. İş üzrə rəy

I mərhələ: İrəli sürülən tələbin qanuni əsaslarının tapılması

İddia ərizəsində iddiaçı irəli sürdüyü tələb üçün hüquqi əsas kimi MM-in 587.1.3-cü maddəsini göstərib. Hakim üçün iddiaçının qiymətləndirməsi məcburi deyil. Əksinə, o özü iddiaçının tələbinin hansı normalardan irəli gəldiyini müəyyən etməlidir. İddiaçının göstərdikləri yalnız ona kömək ola bilər.

Bu kazus üzrə tələbin əsası kimi həm MM-in 587.1.3-cü maddəsi 639.1, 627.1-ci maddələri ilə birlikdə, həm də 764.1-ci maddəsi çıxış edə bilər. Çünki tərəflər arasında bağlanmış müqavilə həm alqı-satqı (4 kompüter və iki proqramın göndərilməsi), həm də podrat müqaviləsinin (iki proqramın quraşdırılması) ünsürlərini nəzərdə tutur.

Deməli, burada söhbət MM-in 390.4-cü maddəsində təsbit edilmiş qarışıq müqavilədən gedir. Bu isə ona gətirib çıxarır ki, MM-in 390.4-cü maddəsinə uyğun olaraq, tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən başqa hal irəli gəlmirsə, hər iki proqramın quraşdırılmasına podrat müqaviləsi haqqında qaydalar tətbiq olunur. Tərəflər proqramların quraşdırılması ilə bağlı tətbiq olunacaq normalar haqqında birmənalı razılaşma əldə etməyiblər. Buna görə hakim müqavilənin mahiyyətinə uyğun dəyərləndirmə aparmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, 4 kompüterin və iki proqramın göndərilməsi ilə müqayisədə quraşdırma dəyər baxımından önəmli deyil. Quraşdırma müqavilə üçün xarakterik olmayan standart proseduru ifadə edir. Hakim belə bir nəticəyə gələcək ki, müqavilənin mahiyyətinə görə ona alqı-satqı və podrat müqavilələrinin müxtəlif elementləri tətbiq edilə bilməyəcək. Burada söhbət proqramla yüklənmiş 4 kompüterə dair vahid alqı-satqı müqaviləsindən gedir.

Daha sonra burada alqı-satqı müqaviləsinin hansı növünün olması aydınlaşdırılmalıdır. Bu zaman belə bir sual meydana çıxır: Tərəflərin bu razılığı MM-in 567-ci maddəsinə uyğun surətdə ümumi alqı-satqı müqaviləsi kimi, yoxsa MM-in 627-ci maddəsinə uyğun olaraq sahibkar fəaliyyətinə xas olan göndərmə müqaviləsi kimi tövsif edilməlidir?

Göndərmə müqaviləsi o zaman mövcud olur ki, hər iki tərəf sahibkar olsun və müqavilənin predmetini satıcının şəxsi istehlakı üçün nəzərdə tutulmayan, onun istehsal etdiyi və ya sonradan satma məqsədi ilə aldığı mal təşkil etsin. Bu ilkin şərtlər yoxdursa, onda müqavilə ümumi alqı-satqı müqaviləsidir.

Burada həm iddiaçı, həm də cavabdeh MM-in 64-cü maddəsinə uyğun təsərrüfat cəmiyyətləridir və beləliklə, MM-in 627-ci maddəsi mənasında sahibkardırlar. İddiaçıya müəssisənin məqsədləri üçün lazım olan proqramların yükləndiyi 4 kompüter də MM-in 627-ci maddəsində nəzərdə tutulan anlamda alqı-satqı predmetinə uyğun gəlir. Nəticədə burada söhbət göndərmə müqaviləsindən gedir.

Buradan belə çıxır ki, düzgün iddia tələbinin qanuni əsası kimi MM-in 639.1 və 627.1-ci maddələri ilə birgə MM-in 587.1.3-cü maddəsi çıxış edir.

II mərhələ: İddiaçının tələbinin öz-özlüyündə əsaslandırılmış olmasının yoxlanması

Hakim iddiaçının tələbinin qanuni əsasını tapdıqdan sonra onun məhkəməyə bildirdiklərinin həmin normanın dispozisiya şərtlərinə uyğun olmasını yoxlamalıdır. Bu yoxlama zamanı aşağıdakı sual cavablandırılmalıdır: iddiaçının məhkəməyə bildirdiyi işin halları iddia tələbinin qanuni əsası olan MM-in 587.1.3, 639.1 və 627.1-ci maddələrinin dispozisiya şərtlərinə uyğun gəlirmi?

Çəkilmiş xərclərin ödənilməsi ilə bağlı tələbin qanuni əsasının, yəni MM-in 587.1.3, 639.1 və 627.1-ci maddələrinin dispozisiya şərtləri aşağıdakılardır:

– tərəflər arasında yazılı göndərmə müqaviləsi;

– alqı-satqı predmetinin qüsurlu olması;

– qüsurun əşya alıcıya verilən zaman artıq mövcud olması və

– satıcının onu gizlətməsi;

– alıcının qüsuru aradan qaldırması;

– MM-in 589-cu maddəsində göstərilən müddətə əməl edilməsi.

İddiaçının dediklərinə görə, o, cavabdehə 2007-ci il fevralın 16-da müəssisə proqramı və xüsusi mühasibat proqramı quraşdırılmış 4 kompüterə dair göndərmə müqaviləsinin bağlanmasına dair oferta verib. Cavabdeh ofertanı 2007-ci il fevralın 18-də təsdiqləyici məktubla qəbul edib. Qiymət kimi 4.300 manat razılaşdırılıb. Tərəflər sahibkardır. Bundan əlavə, iddiaçı kompüter və proqramları şəxsi məqsədlər üçün deyil, müəssisəsi üçün (sahibkarlıq məqsədləri üçün) alıb. Beləliklə, iddiaçının bildirdiklərinə əsasən, tərəflər arasında etibarlı göndərmə müqaviləsi mövcud olub.

Daha sonra iddiaçı bildirir ki, mühasibat proqramı açılmayıb. Bununla da o, alqı-satqı predmetinin qüsurlu olduğunu güman edir. Onun dediklərinə görə, qüsur göndərmə zamanı artıq mövcud olub. Cavabdeh onu bu barədə məlumatlandırmayıb. İddiaçının katibələrindən biri hələ göndərmə günü mühasibat proqramını açmağın mümkün olmadığını telefonla cavabdehə xəbər verib. Cavabdeh proqramı yenidən quraşdırmadığına görə iddiaçı qüsuru aradan qaldırıb. MM-in 589.2-ci maddəsində nəzərdə tutulmuş 2 illik müddət keçməyib.

Nəticədə iddiaçı MM-in 587.1.3, 639.1 və 627.1-ci maddələrində nəzərdə tutulmuş bütün ilkin dispozisiya şərtlərinə uyğun halları və faktları bildirib.

III mərhələ: Cavabdehin bildirdiklərinin yoxlanması

Növbəti hərəkət kimi hakim iddiaçının işin faktiki halları barədə məruzəsinə cavabdehin necə reaksiya verməsini araşdırmalıdır. O, iddiaçının məhkəməyə bildirdiyi hansı halları cavabdehin təsdiq, hansılarını isə təkzib etməsini/mübahisələndirməsini yoxlamalıdır. Yalnız mübahisələndirilən və işin həlli üçün mühüm əhəmiyyət kəsb edən faktlar sübut olunmalıdır.

İddiaya etirazda cavabdeh həm müqavilənin bağlanmasını, həm 2004-cü il martın 10-da 4 kompüterin göndərilməsini, həm də eyni gündə telefon vasitəsilə qüsurla bağlı şikayət edilməsini təsdiqləyir. Həmin faktlarla bağlı tərəflər arasında mübahisə olmadığından hakim onlar barəsində sübutları araşdırmalı deyil.

Amma cavabdeh mühasibat proqramının düzgün quraşdırılmadığını və bununla da göndərmə zamanı malın qüsurlu olduğunu təkzib edir. Burada alqı-satqı predmetinin artıq göndərmə zamanı qüsurlu olması ilə bağlı irəli sürülmüş iddia tələbinin dispozisiya şərtlərinin birinə uyğun olan haldan söhbət getdiyindən hakim bu halla bağlı sübutları araşdırmalıdır.

Deməli, nəticə etibarilə mühasibat proqramının göndərmə zamanı səhv quraşdırılması sübut edilməlidir.

IV mərhələ: Sübutetmə vəzifəsinin aydınlaşdırılması

Bundan sonra hakim sübut edilməli hal üzrə sübutetmə vəzifəsini aydınlaşdırır. Bu, MPM-in 77.1-ci maddəsində nəzərdə tutulmuş prinsipə uyğun aparılır. Hər tərəf özü üçün əlverişli olan halları sübut etməlidir.

Beləliklə, bu iş üzrə iddiaçı göndərmə zamanı kompüter proqramının səhv quraşdırıldığını sübut etməlidir.

V mərhələ: Tərəflərin təqdim etdiyi sübutlarla bağlı vəsatətlərin yoxlanması

İddiaçı quraşdırılmış mühasibat proqramının işləməməsini sübut etmək üçün şahid kimi xanım Ələkbərova Samirəni və «Beratel» MMC-nin əməkdaşını təklif edib.

Cavabdeh bunun əksinin sübut edilməsi üçün işçisi İbrahimov Davud Fuad oğlunu təklif edib. Hakim uyğun faktiki halla bağlı tərəflərin gətirdikləri bütün şahidləri dindirməlidir.

VI mərhələ: Sübutlar barədə qərardadın çıxarılması

Beləliklə, hakim aşağıdakı **sübutlar barədə qərardad** çıxara bilər:

«Bakı şəhər 1 saylı İqtisad Məhkəməsi
«Günel» MMC-nin
«Komputek» MMC-yə qarşı
iş üzrə

SÜBUTLAR BARƏDƏ QƏRARDAD

1. Cavabdehin 10.03.2007-ci il tarixdə göndərdiyi kompüterdə quraşdırdığı proqramın tərkib hissəsi olan xüsusi mühasibat proqramının lazımi qaydada işləməməsi barədə İddiaçının gümanları sübut olunmalıdır.

Sübutetmə aşağıdakı şahidlərin dindirilməsi vasitəsilə həyata keçiriləcək:

a) Ələkbərova Samirə (iddiaçı vasitəsilə dəvət olunmalıdır);

b) Səfiyev Fikrət Yaqub oğlu;

– iddiaçının şahidləri:

c) İbrahimov Davud Fuad oğlu (cavabdeh vasitəsilə dəvət olunmalıdır);

– cavabdehin şahidi.

2. İddiaçıya bu qərardadın daxil olduğu gündən sonra 1 həftə ərzində b) bəndində göstərilən şahidin ünvanı barədə məlumat vermək tapşırılır.

3. Şahidlərin dəvət olunması bu qərardadın adları çəkilən hər bir şahidə çatmasından sonra 2 həftə ərzində tərəflərin ... Azərbaycan manatı həddində məbləği məhkəmənin depozit hesabına ödəməsindən asılıdır.

4. Sübutların araşdırılması və şifahi icraatın keçirilməsi çərşənbə günü, 29.03.2006-cı il saat 9-a təyin olunur (... saylı iclas zalı).

Tarix, imza»

VII mərhələ: Sübutların araşdırılması

Şahidlərin dindirilməsinin nəticələri

Şahidlər iddiaçının gümanı, yəni mühasibat proqramının göndərmə anında qüsurlu quraşdırılmış olması ilə bağlı dindiriliblər.

I. Xanım Ələkbərova Samirə Şamil qızı:

«Mən, Ələkbərova Samirə Şamil qızının tərəflərin direktorları (rəhbərləri) ilə qohumluq əlaqələrim yoxdur. Başa düşürəm ki, burada həqiqəti deməliyəm və yalan danışacağım halda cinayət məsuliyyəti daşıyıram.

Artıq iki ildir ki, mən iddiaçının yanında katibə vəzifəsində çalışıram. Kompüterlərlə bağlı hadisəyə dair aşağıdakıları deyə bilərəm:

Hələ mən işə təyin olunan zaman icraçı direktor cənab Təbriz Məmmədli mənə bildirmişdi ki, mühasibat sisteminin yeniləşdirilməsi planlaşdırılır. O zamanlar hələ heç bir elektron mühasibat sistemi yox idi. Buna görə də mənim müxtəlif kompüter proqramlarından yaxşı istifadə edə bilmək bacarığım onun

üçün çox vacib idi. Əvvəlki işəgötürənimin yanında mən artıq elektron mühasibat proqramı ilə işləmişdim. Mənim yeni işə götürülməyimin səbəbi də məhz bu sahədə təcrübəmin olması idi. Çünki həmin müəssisədə artıq bir neçə il çalışan həmkarım müasir proqramlarla işləyə bilmir və bəzən çox sadə şeyləri soruşurdu.

Cənab Məmmədli 2007-ci ilin əvvəlində təzə kompüterlər və lazım olan proqramları əldə etmək qərarına gəldi. Onlar mart ayında göndərildi. Mən bunu dəqiq xatırlayıram, çünki cənab Məmmədli mənə bütün kompüterlərdəki proqramları yoxlamaq tapşırığı verdi. Əslində həmin gün mənim çoxlu başqa işlərim var idi, amma cənab Məmmədli təcili olaraq istəyirdi ki, əvvəl yoxlamanı həyata keçirim. Hələ bunun ucbatından iş yoldaşımla mübahisə də etdim. Çünki uzun illər burada çalışan bir əməkdaş kimi işin ona etibar edilməməsi ona toxunmuşdu. Bundan başqa, o, öz işlərindən əlavə mənim də işlərimi yerinə yetirməli idi.

Kompüterlər problemsiz açılır və mənim yoxladığım bütün ümumi müəssisə proqramları qüsursuz işləyirdi. Amma kompüterlərin heç birində mühasibat proqramını açmaq mənə müyəssər olmadı. Bu, məni çox təəccübləndirdi. Çünki bir həftə əvvəl cavabdehin yanında təlimdə iştirak etmişdik və orada mühasibat proqramı ilə işləmək mənə heç də çətin gəlməmişdi. Buna görə də proqramın işləməməsini xəbər vermək məqsədi ilə cavabdehə zəng vurdum. Orada bizə dərs keçən cənab İbrahimovla danışdım. Cənab İbrahimov proqramın işləməməsini istisna etdi. Mən proqramı açmaq üçün etdiyim bütün hərəkətlərin ardıcıllığını ona izah etdim. O dedi ki, bu, elə belə də olmalıdır və mən bir daha həmin qaydada proqramı açmağa cəhd etməliyəm. Daha sonra o, bütün gün ərzində vacib görüşləri olduğundan gələ bilməyəcəyini və başqa həmkarlarının da məşğul olduğunu bildirdi.

Beləliklə, mən daha bir cəhd etdim, lakin proqram açılmadı.

Mən cənab Məmmədliyə telefon danışığı barəsində məlumat verəndə o, müştəri xidmətinin bu cür olmasına hirsləndi və mənə bildirdi ki, həmin işi bundan sonra özü araşdıracaq.

O, cavabdehə bir və ya iki dəfə məktub yazdı. Amma sonda bu problemi başqa firma aradan qaldırdı. Mühasibat proqramında nəyin düzgün olmadığını deyə bilmərəm. O düzəldilən vaxt mən xəstə idim».

II. Səfiyev Fikrət Yaqub oğlu:

«Mən Səfiyev Fikrət Yaqub oğlu «Beratel» MMC-nin işçisiyəm, tərəflərin rəhbərləri (direktorları) ilə qohumluq əlaqəm yoxdur.

Məhkəmə qarşısında həqiqəti deməli olduğum barədə məlumatlandırılmışam və bilirəm ki, yalan danışacağım halda cinayət məsuliyyəti daşıya bilərəm.

İddiaçının müəssisəsində apardığım işlərlə bağlı əslində mən elə də çox şey deyə bilmərəm. İddiaçı ilə cavabdeh arasındakı mübahisə ilə bunun nə əlaqəsi olduğunu bilmirəm.

Biz 2007-ci ilin baharında iddiaçıdan onun müəssisəsində kompüter proqramının quraşdırılmasının yoxlanması barədə tapşırıq aldıq. «Beratel» firmasının texniki kimi mən iddiaçının müəssisəsinə göndərildim. Orada cənab Məmmədli mənə 4 kompüter göstərdi. Onların hamısı həmin dövr üçün lap təzə modellər idi. O, xüsusi bir mühasibat proqramının quraşdırıldığını, amma açılmadığını mənə bildirdi. Onları gözdən keçirdim və müəyyən etdim ki, bu, kiçik müəssisələr üçün nəzərdə tutulan standart mühasibat proqramıdır. Belə proqramı biz də satırıq. Bütün sistem faylları yüklənmədiyindən proqramları açmaq mümkün deyildi. Cənab Məmmədlidə proqrama aid faylların olduğu CD-ROM yox idi. O, hesab

edirdi ki, kompüterlərin satın alındığı müəssisədən bu CD-ROM-un əldə edilməsi çox uzun çəkəcək. Mən təklif etdim ki, proqramı «Beratel» firmasından yenidən alsın və biz onu təzədən quraşdıraq. Cənab Məmmədli əvvəl bunun neçəyə başa gələcəyini soruşdu. Mən bildirdim ki, bu, təxminən 250 manatdan 300 manata qədər başa gələr. Cənab Məmmədli razılığını verdi və mən müəssisəmizdən proqram üçün CD-ROM-u götürüb quraşdırmanı yenidən həyata keçirdim. Baş verənlər bunlar idi».

Məhkəmənin sualına cavab olaraq:

«Mən kompüteri yoxlayanda sistem fayllarından biri yox idi. Buna görə də, hesab edirəm ki, proqram düzgün quraşdırılmayıb. Proqramı quraşdırmaq üçün bir-birinin ardınca 5 fayl yüklənməlidir. Çatışmayan fayl sonuncu yüklənməli olan fayldır. Nəzəri cəhətdən bütün faylların düzgün olaraq yüklənməsi və sonradan 5-ci sistem faylının ləğv edilməsi mümkündür. Amma bu, yəqin ki, ehtiyatsızlıqdan/bilmədən baş verə bilməz. Həmin fayl xüsusi olaraq ləğv edilmiş ola bilərdi. Bundan başqa, hər istifadəçidən sistem faylının həqiqətən də pozulmasını istəməsi əlavə olaraq soruşulur. Beləliklə, fayl ehtiyatsızlıqdan pozula bilməzdi».

III. İbrahimov Davud Fuad oğlu:

«Mən İbrahimov Davud Fuad oğlu, cavabdehin işçisiyəm, tərəflərin rəhbərləri (direktorları) ilə qohumluq əlaqəm yoxdur.

Bilirəm ki, məhkəmə qarşısında həqiqətə uyğun ifadə verməliyəm və yalan danışmağım cinayət məsuliyyətinə səbəb ola bilər.

Baş verənləri indi tam dəqiqliyi ilə xatırlamıram. 2007-ci ilin əvvəli bizim işimiz həddindən artıq çox idi. Amma onlardan biri yadımda qalıb. Mən iddiaçının iki işçisinin də iştirak

etdiyi mühasibat proqramına dair təlim aparmışam. Onlardan biri çox tez qavrayan idi. O birinin isə, belə deyək, müasir texnologiyalarla davranmaqda xüsusi bacarığı yox idi. O, üç saat ərzində kompüterini iki dəfə sıradan çıxarmışdı. Mən, ümumiyyətlə, onun izah etdiklərimi başa düşdüyünə şübhə ilə yanaşıram.

Məhkəmənin sualına cavab olaraq:

«Söhbət indi şahid kimi iştirak edən işçidən gedir».

Şahid daha sonra izah etdi:

«Həmin gün kompüterlərin göndərilməsindən sonra mənə telefon zəngi olanda öncə çox təəccübləndim, çünki proqramları bir gün əvvəl özüm quraşdırmışdım və hesab edirdim ki, hər şey düzgün aparılıb. Sonra isə işçinin dərs zamanı çətinlikləri olduğunu xatırlayıb ona izah etdim ki, mühasibat proqramını yenidən açsın. O, bir daha zəng vurmadı. Mən də elə bildim ki, problem aradan qaldırılıb».

Məhkəmənin sonrakı suallarına cavab olaraq:

«Mən quraşdırmadan sonra ən azı müəssisə proqramını yoxladım. Bundan əlavə, mühasibat proqramının quraşdırılması tam quraşdırılma olmadan mümkün deyil. Mühasibat proqramını bir daha yoxlayıb-yoxlamadığımı indi əminliklə deyə bilmərəm. Qeyd olunduğu kimi, həmin vaxt bizdə həddindən artıq çox iş var idi. Bizim katibə də xəstə olduğu üçün çoxlu poçt göndərişləri yığılıb qalmışdı».

VIII mərhələ: Şahid ifadələrinin qiymətləndirilməsi

Ayrı-ayrı ifadələri qiymətləndirməyə başlamazdan əvvəl hakim sübuta dair sualı dəqiq yadına salmalıdır. Burada sübut olunmalı fakt mühasibat proqramının göndərmə anına qədər səhv quraşdırılmasıdır.

a. Hər bir şahid ifadəsinin ayrılıqda nəzərdən keçirilməsi

aa. Şahid Ələkbərova Samirə Şamil qızının ifadəsi

– Sübut edilməli olan fakta münasibətdə ifadənin məzmunu:

Şahid Ələkbərova bildirir ki, mühasibat proqramını göndərmədən dərhal sonra açmaq mümkün olmadı. Yəni onun dediklərinə görə, proqram artıq göndərmə zamanı səhv quraşdırılmışdı.

– İfadənin inandırıcılıq qüvvəsi:

Şahidə göndərilmiş kompüterlərin və quraşdırılmış proqramların yoxlanması tapşırılmışdı və o, qaydaya uyğun quraşdırılma ilə məşğul olurdu. O, baş vermiş hadisəni aydın və məntiqi ardıcıllıqla təsvir edib. Onun ifadəsində heç bir ziddiyyət yoxdur. Şahidin iddiaçının işçisi və buna görə işin gedişində müəyyən şəxsi marağı olmasına baxmayaraq, ifadə verən zaman ona kənar motivlərin təsir etdiyini demək mümkün deyil. Şahid hadisəni detalları ilə və mahiyyətinə uyğun təsvir edib. Görünür, o, hadisəni hələ də yaxşı xatırlayır. Onun ifadəsində xırda detalların çoxluğu yalan danışmadığından xəbər verir. Təcrübə göstərir ki, yalan danışan şahid mümkün qədər az detallardan danışır ki, ziddiyyətlərin içində itib-batmasın. Nəticədə bu şahidin ifadəsi özü-özlüyündə ayrılıqda götürüldükdə inandırıcıdır.

bb. Şahid Səfiyev Fikrət Yaqub oğlunun ifadəsi

– Sübut edilməli olan fakta münasibətdə ifadənin məzmunu:

İfadəsinin birinci hissəsində şahid cənab Səfiyev ancaq təsdiq edir ki, mühasibat proqramı düzgün quraşdırılmayıb. Amma bu hissə belə bir nəticə çıxarmağa əsas vermir ki, proqram artıq göndərilən zaman səhv quraşdırılıbmış. Həmin

məsələni şahid yalnız hakimin sualından sonra cavablandırır. Onun cavabına əsasən nəzəri olaraq belə bir imkan mövcuddur ki, sistem faylı sonradan pozulub. Amma pozulma ehtiyatsızlıqdan baş verə bilməz. Ona görə də, çox güman ki, fayl əvvəlcədən yüklənməyib.

– İfadənin inandırıcılıq qüvvəsi:

Şahid Səfiyev kompüterlərin göndərilməsi zamanı iştirak etməyib. Deməli o, mühasibat proqramının göndərmə zamanı düzgün quraşdırılmadığı barədə öz qavraması əsasında fikir söyləyə bilməz. Onun ifadələri daha çox kompüterlərin sonradan yoxlanması zamanı müəyyən etdiklərindən çıxan nəticələrlə məhdudlaşır. Amma ifadə özlüyündə ziddiyyətli deyil. Şahid sonradan mühasibat proqramının artıq göndərmə zamanı səhv quraşdırıldığının nə üçün daha dəqiq olmasını izah edib. Onun dediklərinin doğru olması cavabları yalnız hakimin sorğusundan sonra cavab olaraq deməsi ilə şübhə altına alınmır. Çünki çox vaxt olur ki, şahid dərhal deyil, ancaq məhkəmə dəqiq soruşduqdan sonra sübut sualına cavab verir. Şahid açıq-aşkar işin gedişində maraqlı deyil, çünki o, tərəflərdən heç birinə yaxın deyil. Onun ifadəsi şahid Ələkbərovanın ifadəsi kimi detallı olmasa da, o, mühüm məsələləri canlı və əsaslandırılmış tərzdə izah edib. Nəticədə şahid Səfiyevin ifadəsi də inandırıcı görünür.

cc. Şahid İbrahimov Davud Fuad oğlunun ifadəsi

– Sübut olunmalı olan fakta münasibətdə ifadənin məzmunu:

Şahid İbrahimov bir tərəfdən bildirir ki, mühasibat proqramını quraşdırıb. Amma o, göndərməzdən qabaq onu bir daha yoxladığına əmin deyil. Sonra o, göndərməzdən əvvəl qaydaya uyğun quraşdırma barədə əminliklə şahidlik etmir.

– İfadənin inandırıcılıq gücü:

Şahid sübut sualına dair birmənalı ifadə verə bilmədiyindən ifadənin inandırıcı olması həlledici deyil.

b. Ümumi dəyərləndirmə:

Şahid Ələkbərova aydın və ziddiyyətsiz bildirdi ki, mühasibat proqramı işləmirdi. Onun ifadəsi mahiyyətcə şahid Səfiyevin inandırıcı ifadəsi ilə təsdiqləndi. Bu ifadəyə əsasən yüklənməli olan sonuncu sistem faylı yüklənməmişdi. Şahid İbrahimovun ifadəsi də bunları birmənalı inkar etmir. Çünki o, mühasibat proqramını necə quraşdırdığını belə yaxşı xatırlamır və göndərməzdən əvvəl proqramı yoxladığını dəqiq deyə bilmir. Hətta şahid Ələkbərovanın keçilən dərslərdə özünü bacarıqsız göstərməsi də onun ifadəsinin inandırıcılığına təsir etmir. Xüsusilə istifadə səhvi proqramın işləməməsi üçün səbəb kimi qəbul oluna bilməz. Çünki ixtisas biliklərinə heç bir şübhə olmayan şahid Səfiyev faylın ehtiyatsızlıqdan ləğv edilməsinin texniki səbəblərdən baş verməsini istisna edir.

c. Nəticə:

Sübutların araşdırılması nəticəsində hakim belə qənaətə gələcək ki, mühasibat proqramının göndərmə zamanı artıq səhv quraşdırılması barədə iddiaçının irəli sürdüyü faktiki hal (güman) sübut olunub. Hakim iddianı təmin edəcək və xərcləri prosesi uduzan cavabdehə aid edəcək.

<u>III Qətnamə</u>

Təsviri hissə

İddiaçı 2007-ci ilin fevral ayında cavabdehə əvvəlcədən quraşdırılmış müəssisə proqramı və xüsusi mühasibat proqramı olan, ümumi qiyməti 4.300 manatlıq 4 kompüter sifariş verib. Cavabdeh kompüterləri 10.03.2007-ci ildə göndərib.

Bundan bir qədər sonra iddiaçı mühasibat proqramından dəfələrlə şikayət edib və proqramın lazımi qaydada quraşdırılması məqsədi ilə cavabdehə müraciət etsə də, bunun heç bir nəticəsi olmayıb. Buna görə də iddiaçının tapşırığı əsasında «Beratel» MMC firması mühasibat proqramını yenidən quraşdırıb və bu işə görə iddiaçıya 300 manat məbləğində hesab təqdim edib. İddiaçı isə bu məbləğin ödənilməsini cavabdehdən tələb edir. O, cavabdehin quraşdırdığı mühasibat proqramının əvvəldən səhv işlədiyini güman edir.

İddiaçı cavabdehin ona 300 manat məbləğində pul ödəməsi barədə tələb irəli sürüb.

Cavabdeh isə iddianın rədd edilməsini məhkəmədən xahiş edib.

Cavabdeh quraşdırmanın düzgün aparılmadığını mübahisələndirir və hesab edir ki, səhv yalnız iddiaçının işçilərinin kompüterdən düzgün istifadə etməmələri nəticəsində yarana bilərdi. O, kompüterlərin göndərilməsindən bilavasitə əvvəl keçirilən sınaq zamanı bütün proqramların problemsiz işlədiyini güman edir.

Məhkəmə şahidlər Samirə Ələkbərova, Fikrət Səfiyev və Davud İbrahimovun dindirilməsi vasitəsilə kompüterlərə quraşdırılmış mühasibat proqramının lazımi qaydada işləməməsi barədə sübutları araşdırıb.

Əsaslandırıcı hissə

İddia əsaslıdır. MM-in 587.1.3, 639.2 və 627.1-ci maddələrinə əsasən iddiaçının cavabdehə qarşı 300 manatın ödənilməsinə dair tələb hüququ var.

Ödənilmə haqqında tələbin qanunla müəyyənləşdirilmiş bütün ilkin şərtləri var.

Tərəflər mübahisəsiz olaraq 2007-ci il fevralın 18-də müəssisə proqramı və xüsusi mühasibat proqramının quraşdırıldı-

ğı 4 kompüterin göndərilməsi haqqında müqavilə bağlayıblar. Amma cavabdehin göndərdiyi kompüterlər müqavilə ilə razılaşdırılmış məqsədə uyğun deyil və beləliklə, MM-in 587-ci maddəsi mənasında qüsurlu mal sayılmalıdır. Çünki cavabdehin müqaviləyə uyğun quraşdırılmalı olan mühasibat sistem proqramı işlək vəziyyətdə olmayıb. Məhkəmə sübutların araşdırılmasından sonra bu nəticəyə gəlib.

Şahid Ələkbərova inandırıcı şəkildə bildirdi ki, mühasibat proqramı göndərildiyi gün dərhal yoxlandığı zaman 4 kompüterin heç birində onları işə salmaq mümkün olmayıb. Şahidin bu ifadəsi inandırıcıdır. Ona göndərilmiş kompüterlərin və proqramların yoxlanması tapşırılmışdı və beləliklə, o, kompüterlərin necə təchiz olunduğunu öz bildiyi kimi təsvir edə bilərdi. Həmin hadisəni belə yaxşı xatırlamasının səbəbini şahid məntiqi və dərkedilən dərəcədə əsaslandırıb.

Düzdür, iddiaçının işçisi kimi xanım Ələkbərovanın işin gedişində müəyyən şəxsi marağı ola bilməsini istisna etmək olmaz. Buna baxmayaraq, onun ifadələrinə etibar etmək olar. Onun dedikləri aydın, detallı və düşünülmüşdür. Eyni zamanda, həmin ifadələr mahiyyətcə iddiaçının tapşırığı ilə son nəticədə proqramı düzgün quraşdıran və mübahisənin bu və ya başqa həllində şəxsən heç bir marağı olmayan şahid Səfiyevin ifadəsi ilə də təsdiqlənir. Onun ifadəsinə görə, mühasibat proqramı uyğun sistem faylının olmaması səbəbindən işləmirdi. Düzdür, o, faylın sonradan pozula bilməsini istisna etmir. Lakin şahid faylın ehtiyatsızlıqdan pozulmasının mümkünsüzlüyü barədə nəticəsini məntiqi surətdə əsaslandırıb. Onun ifadəsinə görə, bu halda istifadəçinin etməli olduğu müxtəlif ardıcıl mərhələlər nəzərə alınmaqla, həmin faylın ehtiyatsızlıqdan pozulmasını güman etmək üçün həddən artıq az əsas var.

Şahid Ələkbərovanın ifadəsinin inandırıcılığı şahid İbrahimovun ifadəsi ilə də şübhə altına alına bilməz. Çünki o, gön-

dərməzdən qabaq mühasibat proqramının quraşdırılmasını dəqiq xatırlamır. Xüsusilə o, göndərməzdən qabaq mühasibat proqramını yoxlaması barədə konkret məlumat verə bilmir. Bununla bağlı, şahid İbrahimovun dediyi kimi, şahid Ələkbərovanın kompüterlə davranmada təcrübəsiz olması və dərslərdə özünü bacarıqsız göstərməsi önəmli deyil. Mühasibat proqramından istifadə ilə bağlı heç bir çətinliyi olmadığını bildirən şahid Ələkbərovanın ifadəsinə nisbətən şahid İbrahimovun ifadəsinə daha artıq inanması üçün məhkəmə heç bir səbəb görmür. Bundan əlavə, inandırıcı olan şahid Səfiyevin ifadəsinə əsasən də sistem faylının sonradan ləğv edilməsinin Ələkbərovanın bacarıqsızlığı səbəbindən baş verməsi qəbul edilə bilməz. Bu imkan yalnız nəzəri baxımdan istisna edilə bilər. Göstərilənlərə əsasən, məhkəmənin şahid Səfiyevin peşəkar biliklərindən şübhələnməsinə əsası yoxdur. Faylın qəsdən pozulması üçün də heç bir əsaslandırılmış səbəb yoxdur.

İddiaçı mübahisəsiz olaraq «Beratel» MMC firmasından mühasibat proqramının quraşdırılması ilə bağlı qüsurun aradan qaldırılması üçün yaranan 300 manat məbləğində məsrəflərin əvəzini tələb edə bilər».

Nəticə hissəsi

1. Cavabdehdən 300 manat alınıb iddiaçıya verilsin.

2. Mübahisə ilə bağlı məhkəmə xərclərini cavabdeh ödəməlidir.

3. Hüquqi müdafiə vasitələri barədə məlumatlandırma.

2-ci kazus: Pul olan yerdə dostluq qurtarır

(Borc, bağışlama, sənədlər vasitəsilə sübutetmə, sübutların qiymətləndirilməsi)

I. İşin halları

X rayon məhkəməsinə

İddiaçı: Kazımov Tural Şakir oğlu
Ünvan: Teymur Elçin küçəsi, 7/24
AZ1003 Bakı

Cavabdeh: Səfərov Fikrət Rahib oğlu
Ünvan: Nizami küçəsi, 23/12
AZ 1005 Bakı

İddia ərizəsi

(Borcun qaytarılması barədə)

Əsaslandırma:

Mən cavabdehə 2008-ci il yanvarın 4-də şifahi razılaşmaya əsasən 1.000 manat pul borc vermişəm və MM-in 739.1-ci maddəsinə əsasən həmin məbləği ondan geri tələb edirəm.

Borcun verilməsi belə baş verib: mən cavabdehlə köhnə məktəb dostu olmuşam. Cavabdeh 2006-cı ilin oktyabrında iş yerini itirmişdi. O, 2008-ci ilin yanvarından yeni iş tapdı. Buna baxmayaraq, cavabdehin yanvarda pula ehtiyacı var idi. Ona görə o, məndən ona müvəqqəti olaraq kömək etməsini xahiş etdi və ayın sonunda birinci maaşını aldıqdan sonra borcu qaytaracağını bildirdi.

Aramızda uzunmüddətli dostluq əlaqəsi olduğuna görə mən onun xahişilə bu şərtlə razılaşdım ki, cavabdeh ilk maaşının

verilməsindən dərhal sonra, ən geci 2008-ci il fevralın 4-də pulu geri qaytarmalıdır.

Bütün bunları qızım Kazımova Xatirə Tural qızı (yaşayır: Teymur Elçin küçəsi, 7/34, 1003 Bakı) təsdiq edə bilər. O, 2008-ci il yanvarın 4-də yuxarıda göstərilən söhbətdə iştirak etmişdir.

Bu vaxta qədər edilən çoxsaylı telefon və yazılı tələblərə baxmayaraq, cavabdeh bir manat da geri qaytarmayıb. Ona görə də iddia əsaslıdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası MM-in 739.1-ci maddəsinə əsasən

xahiş edirəm:

Cavabdehdən 1.000 manatın alınıb mənə ödənilməsi haqqında qətnamə çıxarasınız.

İmza: Kazımov Tural

X rayon məhkəməsinə

Cavabdeh: Səfərov Fikrət Rahib oğlundan
Ünvan: Bakı şəhəri, Nizami küçəsi,
23/12, AZ 1005

E t i r a z

Kazımov/Səfərov arasında olan mübahisə üzrə mən, cavabdeh Səfərov Fikrət Rahib oğlu, iddia ərizəsi ilə bağlı aşağıdakı qaydada etiraz etmək istərdim:

Pul çətinliklərim olduğundan iddiaçının 2008-ci il yanvarın 4-də mənə 1.000 manat borc pul verməsi düzdür.

Amma həmin məbləği guya 2008-ci il fevralın 4-dək qaytaracağım barədə iddiaçı ilə razılaşdığımız yalandır. Bizim hələ

o vaxt mövcud olan dostluğumuza görə, iddiaçı pulu mənə bağışlamaqda israr etdi. O, xarici firmada çalışır və yaxşı qazanır. İddiaçı deyirdi ki, mənə kömək etmək onun üçün şərəf işidir və pulu mənə bağışlayır. Ola bilsin ki, günlərin bir günü onun dostunun köməyinə ehtiyacı oldu. Onda mən həmin yaxşılığın əvəzini çıxa bilərəm. Bunu qardaşım oğlu Səfərov Rəşad Ünsal oğlu (Nizami küçəsi, 23/15-də yaşayır) təsdiq edə bilər. Mən həmin vaxt iddiaçıgilə gedərkən o da məni müşayiət etmişdi.

Məsələyə hüquqi qiymət versək, mən MM-in 739-cu maddəsi mənasında borc müqaviləsi deyil, MM-in 666-cı maddəsi mənasında bağışlama müqaviləsi bağlamışam. Məhz bu səbəbdən o, pulu geri tələb edə bilməz.

Buna baxmayaraq, mən iddiaçıya bağışlanmış məbləğin bir hissəsini (600 manatı) qaytarmışam. Çünki dostluğumuza baxmayaraq, iddiaçıya bu məbləğdə borclu qalmağım mənə xoş deyildi. Pulu mən 2008-ci il fevralın 1-də elə birbaşa iddaçının ofisinə gətirmişdim. O, ofisdə olmadığından mən məbləği bir zərfə qoyub onun katibəsi xanım Əhmədovaya vermişəm. Onun istənilən katibə kimi iddiaçının adından pulu qəbul etmək səlahiyyəti var idi. O, pulu sayandan sonra mənə bir qəbz verdi və həmin qəbzin əslini mən sübut kimi təqdim edirəm.

İmza: Səfərov Fikrət

Qəbz

Bakı şəhəri, 1 fevral 2008-ci il

Təsdiq edirəm ki, cənab Fikrət Sahib oğlundan içərisində 600 manat pul olan zərfi qəbul etmişəm.

İmza: Əhmədova E.

X rayon məhkəməsinə

İddiaçı: Kazımov Tural Şakir oğlundan
Ünvan: Teymur Elçin küç., 7/24
AZ1003 Bakı

Etirazla bağlı mülahizə

Kazımov / Səfərov arasında olan mübahisə üzrə cavabdeh Səfərovun verdiyi iddiaya etiraz aşağıdakı mülahizələr üçün əsas verir:

1. Mən 1.000 manat məbləğində pulu cavabdehə qətiyyən bağışlamamışam. Şahid kimi gətirilən qızımın da təsdiq edə biləcəyi kimi, tərəflər pulun bir ay ərzində geri qaytarılması barədə razılaşma əldə etmişdilər.

2. Bundan başqa, cavabdehin guya pulun bir hissəsini artıq geri qaytarması bərədə gümanı da yalandır. Cavabdehin təqdim etdiyi qəbz saxta sənəddir. Düzdür, 2008-ci il fevralın 1-də cavabdeh mənim ofisimə gəlmiş və orada katibəm Əhmədova Elnarə Davud qızı ilə (Bakı şəhəri, N.Tusi küçəsi 31/150-də yaşayır) rastlaşmışdır. Cavabdeh ondan borcun geri qaytarılmasını müzakirə etmək üçün mənimlə görüş təyin etməyi xahiş etmişdir. Xanım Əhmədova elə bu vaxt ofis üçün müxtəlif ləvazimatların alınmasına qəbz tərtib etməklə məşğul imiş. O, formulyara artıq imza atmış, lakin onu hələ doldurmamışdı. Mənim görüşlər təqvimimə nəzər salmaq üçün o, qısa müddətə otağı tərk edir. Cavabdeh çıxıb gedəndən sonra xanım Əhmədova imzalanmış, lakin doldurulmamış qəbzi tapa bilməsə də, həmin vaxt bu məsələyə böyük diqqət yetirməyib. Göstərilənləri katibəm şahid kimi təsdiq edə bilər. 600 manatın geri qaytarılması barədə katibəmin imzaladığı qəbzin olması faktını ancaq belə izah edə bilərəm ki, cavabdeh həmin imzalanmış qəbzi götürərək sonradan özü doldurmuşdur.

İmza: Kazımov Tural

X rayon məhkəməsinə

Cavabdeh: Səfərov Fikrət Rahib oğlundan
Ünvan: Bakı şəhəri, Nizami küçəsi, 23/12
AZ 1005

M ü l a h i z ə

Kazımov / Səfərov arasında olan mübahisə üzrə qəbzi guya saxtalaşdırmağım barədə iddiaçının bildirdiklərini birmənalı şəkildə təkzib edirəm. Onun katibəsi yalan danışır. O, yəqin, pulu özünə götürüb və bu yalanla özünü müdafiə etmək istəyir. O, şahid kimi dindirilməlidir.

İmza: Səfərov Fikrət

İşdən çıxarış

İddiaçının bildirdikləri	Cavabdehin bildirdikləri
I. Tələblər	
1.000 manatın ödənilməsi	İddianın rədd edilməsi
II. İşin faktiki halları	
Cavabdeh iddiaçının məktəb yoldaşıdır. Onun 2008-ci ilin yanvarında pula ehtiyacı var idi, çünki 2006-cı ilin oktyabrından işsiz idi və iddiaçıdan 04.01.2008-ci ildə yardım istədi.	+
Cavabdeh borc pul istədi və o, həmin pulu ilk maaşını alan kimi, lakin ən geci 04.02.2008-ci ildə qaytarmağı planlaşdırdı *(Xatirə Kazımovanın ifadəsi)*	+ Pulu alıb, lakin geri ödəmə barədə razılıq olmayıb *(Rəşad Səfərovun ifadəsi)*
İddiaçı cavabdehə 1.000 manat pul verdi və o, razılaşmaya əsasən bunu 04.02.2008-ci ilə qədər geri ödəməli idi *(Xatirə Kazımovanın ifadəsi)*	
Dəfələrlə xəbərdarlığa baxmayaraq, cavabdeh pulu ödəməyib.	Cavabdeh 01.02.2008-ci ildə 600 manatı qaytarıb, cünki bağışlamanın məbləği onu utandırırdı.
Cavabdeh yalnız pulun geri qaytarılmasını iddiaçı ilə müzakirə etmək üçün katibə ilə görüş vaxtını dəqiqləşdirmək istəyirdi. Qəbz saxtadır. Katibə ofis məmulatları almaq üçün boş blank hazırlamışdı. Birmənalıdır ki, həmin blankı cavabdeh gizlicə olaraq götürüb və doldurub.	O, pulu zərfin içində iddiaçının katibəsinə vermişdi və katibənin də pulu qəbul etmək səlahiyyəti var idi. Katibə pulu alması barədə qəbz vermişdir *(Sübut: Qəbz)*

II. İddia ərizəsində irəli sürülmüş tələbin hüquqi əsasının tapılması

I mərhələ: İrəli sürülən tələbin qanuni əsaslarının tapılması

İddiaçı ödəmə tələbini MM-in 739.1-ci maddəsi ilə əsaslandırır. Hakim üçün bu hüquqi dəyərləndirmə məcburi deyil. O, iddiaçının göstərdiklərinə əsasən bu normanın tələbin qanuni əsası kimi yoxlana bilməsini fikrində yoxlamalıdır. Burada iddiaçının göstərdiyi əsas irəli sürülmüş tələbə uyğun gəlir. Düzdür, iddiaçının qaytarma tələbi MM-in 732-ci maddəsindən də irəli gələ bilərdi. Amma onda iddiaçı məhz cavabdehə verdiyi həmin pul əskinaslarını tələb etməkdə haqlı olardı. Bunun əksinə olaraq, borc müqaviləsinə görə onun verilmiş məbləği geri tələb etmək hüququ var. Adətən müvəqqəti zaman kəsiyində pulun «kiminsə ixtiyarına verilməsi» borc adlanır.

II mərhələ: İddiaçının tələbinin özlüyündə əsaslandırılmış olması

Bundan sonra hakim iddiaçının qaytarma tələbinin əsaslandırılması üçün MM-in 739.1-ci maddəsinin bütün dispozisiya şərtlərini təqdim edib-etmədiyini yoxlamalıdır.

Burada yoxlanmalı ilkin şərtlər bunlardır:

– etibarlı borc müqaviləsinin bağlanması;

– borc alana razılaşdırılmış borcun verilməsi və

– MM-in 742-744-cü maddələrinə əsasən qaytarma vaxtının çatması.

İddiaçı 1.000 manat məbləğində şifahi borc müqaviləsinin bağlandığını iddia edir. MM-in 740-cı maddəsinə əsasən, borc müqaviləsi şifahi və ya yazılı formada bağlana bilər. Onun deməsinə əsasən, geri qaytarma vaxtı kimi 2008-ci il fevralın

4-ü razılaşdırılmışdı. Bundan başqa, o, cavabdehə məbləği verdiyini iddia edir. Nəticədə, iddiaçının deməsinə görə, 1.000 manat həcmində qaytarma tələbi var.

III mərhələ: Cavabdehin təqdim etdiklərinin yoxlanması

İddiaya etirazda cavabdeh 1.000 manatın ona verildiyini təsdiq edir. Amma o, iddiaçı ilə borc müqaviləsinin bağlandığını təkzib edir. Onun dediklərinə görə, bu, bağışlama müqaviləsi olub. Bağlanmış müqavilənin növü aydın deyil. Hakim tərəflərin borc müqaviləsi bağlamaları haqqında sübutları araşdırmalıdır.

Daha sonra cavabdeh iddia edir ki, o, hüquqi öhdəliyi olmadığına baxmayaraq, artıq 600 manatı geri qaytarıb. Bu, ona gətirib çıxarardı ki, MM-in 528-ci maddəsinə əsasən 600 manat həcmində borcun geri qaytarılması öhdəliyinə xitam verilərdi. Düzdür, cavabdeh pulu şəxsən iddiaçının özünə qaytarmayıb. Lakin bunun ziyanı yoxdur, çünki cavabdehin məruzəsinə əsasən iddiaçının katibəsinin pulu qəbul etmək səlahiyyəti var idi[81]. Deməli, hakim bu məsələ haqqında da sübut tələb etməlidir.

IV mərhələ: Sübutetmə vəzifəsinin aydınlaşdırılması

MPM-in 77.1-ci maddəsinə əsasən, iddiaçı onun xeyrinə olan, lakin cavabdehin qəbul etmədiyi) halları sübut etməlidir. Bu o deməkdir ki, o, tələbini əsaslandıran bütün faktları sübut etməlidir. Beləliklə, iddiaçı 2008-ci il yanvarın 4-də cavabdeh ilə borc müqaviləsi bağladığını sübut etməlidir.

---

[81] Hətta cavabdeh bunu izahatında bildirməsəydi belə, çox güman ki, ümumi həyat təcrübəsinə əsasən qəbul edilə bilər ki, katibə, bir qayda olaraq, normal iş şəraitində rəisi üçün nəzərdə tutulmuş nağd ödənişləri qəbul etmək və qəbulu qəbzlə rəsmiləşdirməklə bağlı rəisindən konkludent etibarnamə əldə edir.

Cavabdeh isə öz növbəsində sübut etməlidir ki, 2008-ci il fevralın 1-də iddiaçıya 600 manatı qaytarıb.

V mərhələ: Sübutların araşdırılmasının həyata keçirilməsi

İddiaçı borc müqaviləsinin bağlandığını sübut etmək üçün qızını şahid kimi göstərib. Cavabdeh isə bunun əksinin sübutu kimi qardaşı oğlunu şahid kimi təklif edib.

Alınan pulun hissəvi olaraq geri qaytarılması sübutu kimi cavabdeh 01.02.2008-ci il tarixli qəbzə istinad edib. Həmin qəbz sənəd sübutu kimi dəyərləndirilməlidir. O, pulun geri qaytarılması üçün inandırıcı sübut vasitəsi olacaqsa, onda iddiaçının katibəsi çekin məzmununun düzgün olmamasına dair əks şahid kimi dindirilməlidir.

Beləliklə, hakim aşağıdakı **sübutlar barədə qərardad** çıxara bilər:

«X rayon məhkəməsi

Qasımov Tural Şakir oğlunun
Səfərov Fikrət Rahib oğluna qarşı
mülki iş üzrə

SÜBUTLAR BARƏDƏ QƏRARDAD

1. Tərəflərin aşağıdakı gümanları barədə sübutlar araşdırılmalıdır:

a) Tərəflər 04.01.2006-cı ildə cavabdehin iddiaçıdan alınan 1.000 manatı ən geci 04.02.2008-ci ilədək geri qaytarması barədə razılığa gəliblərmi?

Sübutların araşdırılması:

aa) şahid Qasımova Xatirə Tural qızı, ünvanı – Teymur Elçin küçəsi, 7/24, 1003 Bakı

(iddiaçının şahidi);

bb) şahid Səfərov Rəşad Ünsal oğlu, ünvanı – Nizami küçəsi, 23/15, 1000 Bakı

(cavabdehin şahidi)

dindirilməsi vasitəsilə həyata keçiriləcək.

b) 01.02.2008-ci ildə cavabdeh iddiaçının ofisinə gələrkən iddiaçının katibəsinin imzaladığı qəbz blankını özünə götürmüş və ona məlumat vermədən qəbzi özü doldurmuşdurmu?

Sübutların araşdırılması:

Şahid Əhmədova Elnarə Davud qızı, N.Tusi küçəsi, 31/150, 1005 Bakı

(iddiaçının şahidi)

dindirilməsi vasitəsilə həyata keçiriləcək.

2. Şahidlərin dəvət olunması bu qərardadın adları çəkilən hər bir şahidə çatmasından sonra 2 həftə ərzində tərəflərin məhkəmənin depozit hesabına ... manat ödəməsindən asılıdır.

3. Sübutların araşdırılması və məhkəmə baxışının keçirilməsi çərşənbə günü 29.03.2009-cu ilə, saat 9-a təyin olunur (... saylı məhkəmə zalı).

Tarix, imza»

Şahidlərin dindirilməsinin nəticələri:

Qasımova Xatirə Tural qızının ifadəsi:

«Mən, Qasımova Xatirə Tural qızı iddiaçının qızıyam. Anladım ki, ifadə verməkdən imtina etmək hüququm var. Buna baxmayaraq, məhkəmədə ifadə vermək istəyirəm. Mənə məlumdur ki, həqiqəti deməliyəm. Əks halda cinayət məsuliyyəti daşıyıram.

4 yanvar 2008-ci ildə söhbət zamanı orada idim. Cavabdeh qardaşı oğlu ilə birgə təxminən saat 19.00 radələrində bizə gəldi. Atam xahiş etdi ki, çay gətirim. Mən otağa çay gətirən zaman atam və cavabdeh cavabdehin yeni iş yeri tapmasının yaxşı olması barədə söhbət edirdilər. Bilmirdim ki, cavabdeh əvvəllər işsiz olub. Sonra cavabdehin qardaşı oğlunun mobil telefonu zəng çaldı. O, zəngə cavab verdi, amma nədənsə söhbət etdiyi adamı eşidə bilmədi. Bizim mənzildə mobil telefon şəbəkəni çox pis tutur. Bu səbəbdən onun qardaşı oğlu eyvana çıxdı. Soyuq olduğuna görə qapını onun arxasınca örtdüm. Atam və cavabdeh hələ də onun yeni işi və maliyyə vəziyyəti barədə danışırdılar. Əvvəl işsiz olduğundan cavabdehin maliyyə çətinlikləri var idi. Buna görə atam ona kömək təklif etdi. Amma bu zaman o bildirdi ki, pulun mümkün qədər tez geri qaytarılmasını istəyir. Onu da bildirməyi vacib hesab edirəm ki, atamın bu mənada başqa bir tanışı ilə artıq mənfi təcrübəsi var idi».

Məhkəmənin sualına cavab olaraq:

«Atamın pul bağışladığı hallar olub, amma yalnız qohumlarımıza. Cavabdeh dedi ki, o, pulu birinci maaşını aldıqdan dərhal sonra qaytaracaq. Bu səbəbdən atam cavabdehə 1.000 manat borc verməyi təklif etdi. Evdə atamın nağd formada bundan artıq pulu da yox idi. Atam pulu götürmək üçün yataq otağına keçdi. Mən cavabdehin artıq söhbətini qurtarmış və

eyvanın qapısını döyən qardaşı oğluna qapını açdım. Cavabdeh sevinərək qardaşı oğluna atamın necə yaxşı dost olması barədə danışdı və atamın ona 1000 manat məbləğində kömək edəcəyini dedi. Atam geri döndü və cavabdehə söz verdiyi pulu gətirdi. Mən axşama çörək almalı olduğum üçün çıxdım və qonaqların ondan sonra bizdə nə qədər qaldıqlarını deyə bilmərəm».

Səfərov Rəşad Ünsal oğlunun ifadəsi:

«Mən, Səfərov Rəşad Ünsal oğlu cavabdehin qardaşı oğluyam. Məhkəmə qarşısında həqiqəti deməli olduğum barədə mənə xəbərdarlıq edildi.

Əmimin və iddiaçının yanvarın əvvəli gəldiyi razılaşma barəsində aşağıdakıları deyə bilərəm:

Yanvarın əvvəli əmimlə onun dostu, yəni iddiaçıgilə getmişdim. O, bizi çox qonaqpərvərliklə qəbul etdi və bizə qızının hazırladığı çayı təklif etdi. Uzun müddət işsiz olduğundan əmimin maliyyə çətinlikləri var idi. 1 yanvardan yeni iş tapmasına baxmayaraq, əmim bankdan qısamüddətli kredit götürməyi düşünürdü. Əmim yeni iş yeri barədə danışanda iddiaçı sevinclə onu təbrik etdi. Bu zaman mobil telefonum zəng çaldı. Telefon çox pis tutduğundan balkona çıxdım ki, zəng edən şəxsin səsini eşidə bilim.

Geri qayıdanda əmim sevinə-sevinə deyirdi ki, iddiaçı əsl dostdur. O, əmimə 1000 manat maliyyə yardımı etməyə hazır olduğunu demişdi. Sonra iddiaçı geri qayıtdı və pulu əmimə verdi. Mən çox təəccüblənmişdim. Çünki bilmirdim ki, əmim iddiaçı ilə belə yaxın dostdur və hətta özünün yeni işinə baxmayaraq, hələ də pul çətinlikləri barədə ona deyib. Sonra iddiaçı bizə danışdı ki, onun böyük qızı magistraturanı Almaniyada oxumağa getmək istəyir. O bilmək istəyirdi ki, əmim bu barədə nə fikirləşir. Sonra biz çıxıb getdik».

Məhkəmənin sualına cavab olaraq:

«Yox, pulun geri qaytarılması barədə əmim və iddiaçı heç nə danışmadılar. İddiaçının yetərincə imkanlı olduğunu və əmimin bu qədər sevinməsini nəzərə alaraq hesab etdim ki, iddiaçı pulu əmimə bağışlayır. Bir də ki, yeni əmək müqaviləsi hesabına əmim istənilən bankdan müvəqqəti kredit götürə bilərdi».

Əhmədova Elnarə Davud qızının ifadəsi:

«Mən, Əhmədova Elnarə Davud qızı iddiaçının katibəsi işləyirəm.

Bilirəm ki, burada yalan danışa bilmərəm və məhkəmə qarşısında yalan danışmağım cinayət məsuliyyəti yarada bilər.

Cavabdeh mənə heç vaxt pul olan zərf verməyib. O, başqa şey deyirsə, deməli, yalan danışır».

Məhkəmənin sualına cavab olaraq:

«Qəbzdə olan imzanın mənə məxsus olub-olmaması soruşulursa, onda təsdiqləyici cavab verməli olacağam. Amma buna baxmayaraq, qəbzi mən tərtib etməmişəm. Mən heç vaxt belə qəbz verməmişəm».

Məhkəmənin sualına cavab olaraq:

«Bəli, cavabdeh 2008-ci il fevralın 1-də bizim ofisə gəlmişdi. O, iddiaçı ilə hanısısa borc haqqında danışmaq istəyirdi. Amma iddiaçının ofisdən kənar görüşü var idi. Mən cavabdehə təklif etdim ki, söhbət üçün ona görüş vaxtı təyin edim. İddiaçının görüş təqviminə baxmaq üçün bir neçə dəqiqəliyə otaqdan çıxdım.

Qəbzin altında olan imzamı mən ancaq belə izah edə bilərəm ki, cavabdeh bu zaman ofisdən boş qəbz blankını götürüb və sonradan özü doldurub».

Məhkəmənin sualına cavab olaraq:

«Nə üçün hələ doldurulmamış qəbzin altından imza atmağımın səbəbini indi dəqiq izah edə bilmərəm. Məncə, həmin gün biz günortadan sonra ofis malları almalı idik, malları gətirən isə həmişə tələsdiyindən mən hər şeyi əvvəlcədən hazır etmək istəyirdim».

Məhkəmənin növbəti sualına cavab olaraq:

«Adətən belə olur ki, mal göndərən gətirdiyi mallarla birgə əvvəlcədən doldurulmuş qəbz gətirir, malı alan isə sonradan onun altından imza qoyur. Nə üçün o vaxt qəbzin hazırlanmasının daha yaxşı olması fikrində olduğumu bu gün izah edə bilmərəm».

Maliyyə vəziyyətim barədə burada heç nə demək istəmirəm. Cavabdehin məhkəmədə pulları guya ki, özümə götürdüyümü iddia etməsini həyasızlıq kimi qiymətləndirirəm».

VI mərhələ: Sübutların qiymətləndirilməsi

Ayrı-ayrı ifadələri və sənədləri qiymətləndirməyə başlayanda hakim bir daha sübut suallarını dəqiq yadına salmalıdır. Burada aşağıdakılar sübut olunmalıdır:

a) İddiaçının cavabdehlə 1.000 manat məbləğində borc müqaviləsi bağlaması haqqında gümanı və (bu təsdiqlənərsə);

b) Cavabdehin 2008-ci il fevralın 1-də 600 manatı iddiaçıya geri qaytarması haqqında gümanı.

I. a) sübut sualı barəsində

1. Ayrı-ayrı şahid ifadələrinin təcrid olunmuş şəkildə araşdırılması

a. Qasımova Xatirə Tural qızının ifadəsi

– Sübut olunmalı fakta münasibətdə ifadənin məzmunu:

Şahid Qasımova Xatirə ifadə verir ki, onun atası cavabdehlə qaytarmaq öhdəliyi barəsində razılığa gəlib. Cavabdeh razılaşıb ki, birinci maaşını alan kimi pulu geri qaytarsın. Düzdür, onun ifadəsindən görünür ki, atası pulu bağışladığı hallar da olub, amma bu, bir qayda olaraq, qohumlara münasibətdə olub. Buna əsasən tərəflər bağışlama müqaviləsi deyil, borc müqaviləsi bağlamışlar.

– İfadənin inandırıcılıq qüvvəsi:

Şahid söhbətdə fasiləsiz iştirak edib, ona görə də öz qavraması əsasında ifadə verə bilər. O, hadisəni aydın, çox detallı və ziddiyyətsiz təsvir edib. Onun dedikləri ümumilikdə məntiqli görünür. Əlbəttə ki, şahid iddiaçı ilə yaxın qohum olduğundan işin gedişində yüksək marağı var. Amma təkcə bu, onun dediklərini mütləq olaraq şübhəli qəbul etməyə əsas vermir. Onun ifadəsində bu ifadəsini qohumluq münasibətlərinin təsiri altında verməsini güman etməyə əsas verən hallar nəzərə çarpmadı. Əksinə, ifadəsində detalların çoxluğu daha çox onun hadisəni həqiqətə uyğun təsvir etməyə çalışdığından xəbər verir.

b. Səfərov Rəşad Ünsal oğlunun ifadəsi

– Sübut edilməli olan fakta münasibətdə ifadənin məzmunu:

Düzdür, şahid öz ifadəsində yəqin deyir ki, pul onun əmisinə bağışlanıb. Məhkəmənin sualına cavabında o bildirir ki, tərəflər onun iştirakı zamanı pulun qaytarılması haqqında danışmamışdılar. Bəli, cavabdeh şahidə deyib ki, iddiaçı ona maliyyə cəhətdən kömək edəcək. Amma belə cavab burada söhbətin köməyin hansı növündən getdiyi məsələsini açıq qoyur. Şahidin təsvir etdiyi, əmisinin pulun alınmasına olan reaksiyası məhz onu anlamağa əsas verir ki, cavabdeh, ümumiyyətlə, iddiaçının pul məbləğini ona verməsinə və bununla maliyyə ehtiyaclarından azad olacağına sevincini ifadə edib.

– İfadənin inandırıcılıq qüvvəsi:

Şahid özü sübut sualına dair birmənalı ifadə vermədiyindən və pulun verilməsinin bağışlama olması barədə gümanını öz qavraması ilə deyil, yalnız müəyyən hallardan çıxardığı nəticə ilə əsaslandırdığından ifadəsinin inandırma qüvvəsi və beləliklə də inandırıcılığı böyük əhəmiyyət kəsb etmir.

2. Ümumu dəyərləndirmə:

Şahid Xatirə Qasımova aydın və başadüşülən şəkildə bildirdi ki, iddiaçı cavabdehə pulu borc kimi verib. Söhbətin zahiri gedişi barədə onun dedikləri şahid Rəşad Səfərovun ifadəsi ilə mahiyyətcə üst-üstə düşür və bunlar, ümumilikdə, ifadənin düzgünlüyündən xəbər verir. Şahid Səfərov Rəşadın borc vədi barəsində heç nə eşitmədiyini məntiqi baxımdam bununla izah etmək olar ki, hər iki şahidin ifadəsinə görə o, söhbət əsnasında müəyyən müddət eyvanda olub və şahid Xatirə Qasımovanın dediyinə görə isə, müqavilənin mahiyyəti barəsində konkret razılaşma məhz elə həmin vaxt otaqda əldə edilib. İddiaçı ilə olan yaxın qohumluq münasibətləri də şahid Xatirə Qasımovanın ifadəsini şübhə altına almağa əsas vermir.

3. Nəticə:

Şahid ifadələrinin qiymətləndirilməsi əsasında hakim bu nəticəyə gəlməlidir ki, iddiaçının borc müqaviləsinin bağlanması haqqında gümanı sübut olunub.

II. b) sübut sualı barəsində

600 manatın geri qaytarılmasının sübut edilməsi üçün cavabdeh bir qəbz təqdim edib. Məzmununa görə qəbz məbləğin katibəyə ödənildiyini təsdiq edir.

İddiaçı qəbzdəki imzanın katibəsinə məxsus olduğunu təkzib etməyib. Bununla da sənədin doğruluğu müəyyən olun-

muş sayılır. Sənəd ümumi həyat təcrübəsinə görə cavabdehin xeyrinə belə bir prezumpsiyaya əsas verir ki, qəbz məzmunca düzgün və tamdır, yəni pul həqiqətən də, qəbzdə qeyd olunduğu kimi, geri qaytarılıb.

Bu prezumpsiyanı təkzib etmək üçün iddiaçı bunun əksini, yəni qəbzin məzmunca səhv olmasını sübut etməlidir. Məhz buna görə iddiaçı katibəsinin imzaladığı, lakin hələ doldurulmamış qəbz blankının sui-istifadə nəticəsində tərtibi barədə gümanını təsdiq etmək üçün sübut təqdim etməlidir. Yalnız qəbzin düzgünlüyü prezumpsiyasının qüvvəsini zəiflədən, lakin həmin prezumpsiyanı tamamilə təkzib etməyən halların göstərilməsi yetərli deyil.

İddiaçı katibəsinin imzaladığı, lakin hələ doldurulmamış qəbz blankını cavabdehin sui-istifadə nəticəsində tərtib etməsinə dair irəli sürdüyü gümanının sübutu üçün şahid Elnarə Əhmədovanın ifadəsinə istinad edir.

Şahid Əhmədova Elnarə Davud qızının ifadəsinin qiymətləndirilməsi

– Sübut edilməli olan fakta münasibətdə ifadənin məzmunu:

Şahid Elnarə Əhmədova cavabdehdən, ümumiyyətlə, içərisində pul olan zərf almadığını bildirir. Bundan əlavə, o, qəbz verdiyini təkzib edir. O, daha çox bu qənaətə gəlməyə əsas verən halları təsvir edir ki, cavabdeh 2008-ci il fevralın 1-də katibənin artıq imzaladığı qəbz blankını ofisdən götürüb və sonradan onu özü doldurub.

– İnandırıcılıq qüvvəsi:

Şahid 2008-ci il fevralın 1-də baş verən hadisə barədə öz qavraması əsasında ifadə verir. Amma onun ifadəsi az inandırıcıdır. Şahid bildirir ki, o, qəbzi sonra gətiriləcək ofis mal-

ları üçün vaxta qənaət etmək məqsədi ilə hazırlamışdı. Adətən ofis mallarını gətirən şəxs əvvəlcədən tərtib edilmiş qəbzi özü ilə gətirir. Malı alan bunu yalnız imzalamalıdır. Malı alan şəxsin özünün qəbz tərtib etməsi Azərbaycanda mövcud olan işgüzar qaydalara uyğun deyil. Bundan əlavə, şahidin çeki vaxta qənaət etmək məqsədi ilə hazırlaması haqqında ifadəsi də inandırıcı görünmür. O, gətirilən malların dəqiq predmetini və göndərmə həcmini əvvəlcədən bilə bilməzdi. Yalnız belə olduqda, şahidin özünün həqiqətən də qəbzi hazırlamalı olması qəbul edilərsə, müəyyən vaxta qənaətdən danışmaq olardı. Hər hansı kağızın imzalanması isə özlüyündə vaxta elə bir qanaətə gətirib çıxarmır. Bu səbəblərdən şahidin 2008-ci il fevralın 1-dən az sonra gətiriləcək ofis malları üçün imzalanmış qəbz blankı hazırlaması ağlabatan görünmür. Bundan əlavə, şahidin təqdim etdiyi versiyaya qarşı o da çıxış edir ki, məhkəmənin sualına cavab olaraq o öz hərəkətinə anlaşılan izah verə bilmir, əksinə, fikri yayındırmaq üçün bildirir ki, hansı səbəbdən blank tərtib etməsini dəqiq xatırlamır. Maliyyə vəziyyətini açıqlamaq istəməməsi də bu istiqamətdə inamsızlıq yaradır. Hər halda şahidin bununla pulu özünə götürmək motivini pərdələmək istəməsi istisna olunmur. Bu ifadə barəsində bütün şübhələr iddiaçının ziyanınadır. Yuxarıda qeyd olunduğu kimi, iddiaçı katibəsinin imzaladığı, lakin hələ doldurmadığı qəbz blankını cavabdehin sui-istifadə nəticəsində doldurmasını tam şəkildə sübuta yetirməli idi. Təkcə katibəsinin verdiyi ifadə ilə o, buna nail ola bilməyib.

Nəticə:

Nəticədə hakim 2008-ci il fevralın 1-də iddiaçıya 600 manatın ödənildiyini sübut olunmuş kimi qəbul edəcək.

Ümumi nəticə:

Hakim cavabdehin 400 manatı ödəməsi barəsində qətnamə çıxaracaq. Qalan hissədə iddia rədd ediləcək. Məhkəmə xərclərinin 6/10 hissəsini iddiaçı, 4/10 hissəsini isə cavabdeh çəkəcək.

III. Məhkəmə qətnaməsinin layihəsi

Təsviri hissə

Tərəflər köhnə məktəb dostlarıdır. İddiaçı 4.1.2008-ci ildə cavabdehə 1000 AZN məbləğində pul verib. O, iddia qaldıraraq bu məbləğin qaytarılmasını tələb edir. İddiaçı bildirir ki, o, bu pulu həmin vaxtlar pul çətinliyi olan və təzə işə düzəlmiş cavabdehə xahişi əsasında borc verib. Onlar belə bir razılığa gəliblər ki, cavabdeh bu məbləği ən geci 4.2.2008-ci ildə, yəni birinci maaşı aldıqdan dərhal sonra qaytaracaq. Cavabdehin təqdim etdiyi və katibəsinin imzaladığı 600 manatlıq geriödəmə qəbzi saxtalaşdırılıb. Qəbz hazır blank şəklində imzalanıb və ofis materiallarının qəbulu üçün nəzərdə tutulub. Cavabdeh bu qəbzi 1.2.2008-ci ildə onun ofisinə gələrkən gizlincə özünə götürüb və sonradan onu özü doldurub.

İddiaçı cavabdehin ona 1000 AZN məbləğində pul ödənməsi barədə qətnamə çıxarılmasını xahiş edir.

Cavabdeh isə iddianın rədd edilməsini xahiş edir.

Cavabdeh bildirir ki, iddiaçı pulu ona aralarındakı uzunmüddətli dostluq münasibətlərinə əsaslanaraq bağışlayıb və bu zaman məqsədi onu düşdüyü çətin vəziyyətdən çıxarmaq olub. Lakin onlar arasındakı dostluq münasibətinə görə iddiaçıya borclu qalmaq istəmədiyindən 1.2.2008-ci ildə 600 AZN məbləğində pulu zərfə qoyaraq qaytarıb. İddiaçının katibəsi pulu qəbul edib, sayıb və qəbuletmə faktını məhkəməyə təqdim olunmuş qəbzdə aşkar şəkildə təsdiq edib.

Məhkəmə şahidlər Qasımova Xatirə Tural qızı və Səfərov Rəşad Ünsal oğlunun dindirilməsi ilə alınmış pul məbləğinin ən geci 4.2.2008-ci ildə qaytarılacağı barədə razılığa dair sübutları araşdırıb. Daha sonra məhkəmə şahid Əhmədova Elnarə Davud qızını blank şəklində imzalanmış qəbzi cavabdehin 1.2.2008-ci ildə onun xəbəri olmadan özünə götürməsi və doldurması sualı barədə dindirib.

Əsaslandırıcı hissə

İddia yalnız qismən təmin olunmalıdır. İddiaçının MM-in 739.1-ci maddəsinə əsasən cavabdehə qarşı 400 manatın ödənilməsini tələb etmək hüququ var.

1. Tərəflər 04.01.2008-ci ildə 1000 manat dəyərində borc müqaviləsi bağlayıblar. Çünki təqdim olunmuş sübutlara əsasən, məhkəmə verilməsi mübahisəsiz olan pul qaytarılarkən cavabdehin birinci maaşını alanda yəni fevralın əvvəlində iddiaçıya pulu qaytaracağı barədə tərəflərin razılığa gəlməsinə əmindir.

Bu nəticə əsasən şahid Xatirə Qasımovanın doğru və ziddiyyətsiz ifadəsindən irəli gəlir. Buna əsasən tərəflər şifahi olaraq razılığa gəliblər ki, cavabdeh pulu yanvar maaşını aldıqdan sonra qaytaracaq. Düzdür, şahid ifadəsində atasının pulu bağışladığı hallar olduğunu qeyd edib, amma bu, prinsipcə, yalnız qohumlara münasibətdə olub. Bütün halları nəzərə alaraq məhkəmə iddiaçının pulu cavabdehə əvəzsiz olaraq verməsi üçün heç bir məntiqi əsaslar görmür. Az olmayan bu məbləğin yalnız uzun illik dostluğa görə verilməsi bu cür səxavətli hərəkətin izahı üçün inandırıcı motiv deyil.

Şahid Qasımovanın ifadəsi şahid Səfərovun ifadəsi ilə təkzib olunmur. Çünki şahid Səfərov söhbətin sübut üçün əhəmiyyətli olan hissəsində iştirak etməyib və bu zaman eyvanda telefonla danışıb. Elə buna görə də o, tərəflərin bağışlama

və ya borc haqqında danışdığını eşidə bilməzdi. Düzdür, sonradan cavabdeh ona deyib ki, iddiaçı ona maliyyə cəhətdən kömək etmək istəyir. Amma belə fikir söhbətin hansı kömək növündən getdiyi barədə suala cavab vermir, çünki bunun heç də pulun əvəzsiz verilməsi kimi başa düşülməsi vacib deyil. Şahidin əmisinin pulun alınmasına olan reaksiyasının təsvirindən görünür ki, o, ümumiyyətlə, pulun alınmasına olan sevincini ifadə edib. Çünki bununla o, həmin an mövcud olan maliyyə çətinliklərindən azad olurdu. Bu zaman söhbətin bağışlamadan getməsi barədə şahidin gümanı yalnız onun özünün çıxardığı nəticədir və heç də hadisəni bilavasitə qavramasına əsaslanmır.

Məhkəmə nəzərdən qaçırmır ki, şahid Qasımova iddiaçının qızı kimi prosesin gedişində maraqlıdır. Amma təkcə bu, hələ onun ifadəsinin doğruluğunu sual altına almaq üçün yetərli deyil. Onun ifadəsi detallı və ardıcıl olub. Bu ifadənin qohumluq münasibətlərinin təsiri altında verilməsini güman etməyə əsas verən əsaslı hallar məhkəmənin nəzərinə çarpmayıb.

2. Lakin borcun qaytarılmasına dair iddiaçının tələbi 600 manat məbləğində MM-in 528-ci maddəsinə əsasən icra edilib və bununla da xətm olunub. Ümumi həyat təcrübəsinə əsasən, qəbz ilə pul olan zərfin sənədləşdirilmiş şəkildə verilməsinin həqiqətən də baş verməsini qəbul etmək olar. Düzdür, şahid özü pul aldığını təkzib edir. Amma bu sənədin tutarlı sübut qüvvəsini nəzərə alaraq, ödəmənin sadəcə təkzib edilməsi kifayət etmir. İddiaçı daha çox inandırıcı əsaslar təqdim etməli və sübut etməlidir ki, sənəd məzmunca yanlışdır. Belə sübutu isə o, təqdim etməyib. İddiaçının şahid Əhmədovanın imzaladığı qəbz blankını cavabdehin götürməsi və sui-istifadə nəticəsində doldurması barədə gümanı sübutların araşdırılması nəticəsində birmənalı şəkildə təqdiqlən-

məyib. Bununla bağlı şahid Əhmədovanın ifadəsi məhkəməni inandırmayıb.

Şahid əvvəlcə qeyd edib ki, o, qəbz blankını sonra gətiriləcək ofis malları ilə bağlı vaxta qənaət üçün hazırlayıb. Bu isə artıq o səbəbdən az inandırıcı görünür ki, adətən ofis mallarının gətirilməsi zamanı malları gətirən əvvəlcədən hazırlanmış qəbzi özü ilə gətirir, qəbul edən isə yalnız onun aşağısında imza atır. Bu, ümumiyyətlə, işgüzar qaydalara ziddir ki, alıcı özü mal üçün qəbz tərtib etsin. Şahid gətiriləcək malların miqdarını əvvəlcədən bilə və bütün malların dəqiq siyahısını əvvəlcədən tərtib edə bilməzdi. Yalnız belə olduqda, şahidin özünün həqiqətən də qəbzi hazırlamaq istəməsi müəyyən vaxta qənaətə gətirib çıxara bilərdi. Amma o, məhkəmənin bu barədə sualına cavab verməkdən yayınıb və bildirib ki, hansı səbəbdən qəbz blankını hazırlamasını dəqiq xatırlaya bilmir. Beləliklə, o, bu cür qeyri-adi hərəkətinə başadüşülən izah verə bilməyib. Sonda şahidin əmlak vəziyyətini açıqlamaması da onun xeyrinə deyil. Hər halda belə bir şübhə istisna edilmir ki, o, bu yolla pulu götürməsi motivini pərdələmək istəyib.

Bu ifadənin inandırıcılığı ilə bağlı bütün şübhələr qəbz blankının sui-istifadə nəticəsində doldurulmasını sübut etməli olan iddiaçının ziyanınadır».

Nəticə hissəsi:

1. Cavabdehdən 400 manat tutulub iddiaçıya ödənilsin.

2. Qalan hissədə iddia rədd edilsin.

3. Məhkəmə xərclərinin 60 faizi iddiaçıya, 40 faizi isə cavabdehə aid edilsin.

4. Qətnamədən şikayət verilmə qaydasının izah edilməsi.

3-cü kazus: İstifadəyə verilmiş kamera

(Vindikasiya, vicdanlı əldə etmə, istifadə üçün kompensasiya, sübutetmə vəzifəsi, sübutların qiymətləndirilməsi)

I. İşin halları

X rayon məhkəməsinə

İddiaçı: Artur Məmmədov
Ünvan: .....

Cavabdeh: Şakir Əliyev
Ünvan: .....

İddia ərizəsi

İddia ərizəsi ilə cavabdehin «Canon Ixus 500» markalı, buraxılış ili 2006-cı il, qara rəngli kameranı mənə qaytarması barədə qətnamə çıxarılmasını xahiş edirəm.

Əsaslandırma:

İddiaçı «Canon Ixus 500» markalı kamerasını Məmməd Kərimova Nabranda keçirəcəyi məzuniyyət vaxtına istifadəyə verib. Məzuniyyət zamanı Kərimovlar ailəsi mehmanxananın hovuzunda çimərkən onların mehmanxanadakı otaqlarından bütün nağd pul və dəyərli əşyaları oğurlanıb.

Sübut: Polisin 23.06.2006-cı il tarixli arayışı.

Yalnız kamera Məmməd Kərimovda qalmışdı, çünki o, hovuza gedərkən kameranı özü ilə götürmüşdü. Başqa maliyyə vəsaiti olmadığından o, 600 manat məbləğində hotel pulunu ödəyə bilmirdi. Həmin hoteldə məzuniyyətini keçirən və Məmməd Kərimovu hələ Bakıdan tanıyan cavabdeh ona kameranı 600 manata satın almağı təklif etdi. Məmməd Kəri-

mov ona məxsus olmadığından kameranı sata bilməyəcəyini bildirdi.

Sübut: Məmməd Kərimovun şahid ifadəsi.

Məmməd Kərimovun həyat yoldaşı Leyla Kərimovanın şahid ifadəsi.

Hotel müdiri Müşfiq Ağalarovun şahid ifadəsi.

Kameranın üzərindəki «A.M.» inisiallı etiketi Məmməd Kərimov cavabdehə göstərdi. Bu etiketi iddiaçı kameranı Məmməd Kərimova verməzdən əvvəl yapışdırmışdı.

Sübut: Məmməd Kərimovun şahid ifadəsi.

Məmməd Kərimovun həyat yoldaşı Leyla Kərimovanın şahid ifadəsi.

Hotel müdiri Müşfiq Ağalarovun şahid ifadəsi.

Məmməd Kərimov sonradan başqa çıxış yolu olmadığından kameranı 600 manata cavabdehə satdı.

İddiaçı cavabdehdən bir neçə dəfə kameranın qaytarılmasını tələb edir, lakin bu tələblər nəticəsiz qaldığından məhkəməyə iddia ilə müraciət edir.

İmza: Artur Məmmədov

Tarix: 20.07.2006

X rayon məhkəməsinə

Cavabdeh: Şakir Əliyev
Ünvan: .....

İddiaçı: Artur Məmmədov
Ünvan: .....

İddia ərizəsinə etiraz

Artur Məmmədovun Şakir Əliyevə qarşı əşyanın qaytarılmasına dair iddia tələbinin rədd olunması barədə qətnamə çıxarılmasını xahiş edirəm.

İddia əsaslı hesab olunarsa, mən qarşılıqlı iddia şəklində məhkəməyə müraciət edirəm ki, iddiaçının cavabdehə 140 manat məbləğində məsrəfin əvəzinin ödənilməsi barədə qətnamə çıxarılsın.

İddia ilə tələbin əsaslandırılması:

İddiaçı mübahisəli kameranı tələb edə bilməz. Məmməd Kərimov kameranın ona mənsub olmadığı barədə cavabdehə heç zaman heç nə bildirməyib.

Sübut: Cavabdehin həyat yoldaşı Afiqə Əliyevanın şahid ifadəsi.

Hotel işçisi Ramin Həsənovun şahid ifadəsi.

Cavabdeh məlum hadisə zamanı həmişə kameranı həqiqi mülkiyyətçisindən əldə etməsi qənaətində olub. Nəhayət, cavabdeh kameraya görə 600 manat ödəyib və beləliklə, kamera onun qanuni mülkiyyətindədir.

Üzərində iddiaçının inisialı olan etiketi də o, kameranın üzərində heç zaman görməyib. Bundan əlavə, kameranın üzə-

rindəki kiminsə inisialı yazılmış etiketin olması mütləq mənada onun mülkiyyətçisinə işarə etmir.

Qarşılıqlı iddianın əsaslandırılması:

Məmməd Kərimov hoteli tərk etdikdən sonra cavabdeh kamera linzasında cızıqların olmasını aşkar edib. Linzanın tam olaraq dəyişdirilməsinə görə cavabdeh 100 manat ödəyib, yoxsa şəkillərin mühüm qüsurları olacaqdı.

Sübut: 05.07.2006-cı il tarixli təmir haqqında qəbzin surəti.

Bundan başqa, kameranın işıq lampası yetərincə güclü olmadığından, cavabdehin axşamlar çəkdiyi şəkillər işıqlı alınmırdı. Bu səbəbdən cavabdeh kameraya 40 manat dəyərində işıq lampasını gücləndirən qurğu quraşdırıb.

Sübut: 06.07.2006-cı il tarixli işıq lampasını gücləndirən qurğunun alınması barədə qəbz.

Cavabdeh kameranı iddiaçıya geri verməli olarsa, linzanın təmiri üçün 100 manat və işıq lampası üçün 40 manat həcmində məsrəflərin əvəzinin ödənilməsini tələb edir.

İmza: Şakir Əliyev

Tarix: 30.07.2006

X rayon məhkəməsinə

İddiaçı: Artur Məmmədov
Ünvan: .....

Cavabdeh: Şakir Əliyev
Ünvan:.....

Etirazla bağlı izahat

Cavabdehin 30.07.2006-cı il tarixli etirazı ilə bağlı aşağıdakıları bildirmək istəyirəm:

1. İddia ilə bağlı:

Məmməd Kərimov kameranın əsl mülkiyyətçisinin kim olduğunu cavabdehə bildirmişdi. Adları çəkilmiş şahidlər bunu təsdiq edəcəklər.

2. Qarşılıqlı iddia ilə bağlı:

Qarşılıqlı iddianın rədd olunması xahiş olunur.

Kameranın linzasını dəyişdirmək üçün 100 manat və işıqgücləndirici qurğunu qoymaq üçün 40 manat həcmində çəkilmiş xərclər cavabdehin şəxsi işidir. Bunun əvəzini iddiaçı ödəməli deyil. Cavabdeh kameranın iddiaçıya məxsus olduğunu bilirdi və özbaşına təmir işləri aparmalı deyildi.

Artur Məmmədov

10.08.2006

İşdən çıxarış

İddiaçının bildirdikləri	Cavabdehin bildirdikləri
III. Tələblər	
«Canon Ixus 500» kamerasının geri qaytarılması Qarşılıqlı iddianın rədd edilməsi	İddianın rədd edilməsi Qarşılıqlı iddia (subsidiar qaydada, iddia təmin edilərsə): 140 manatın ödənilməsi
IV. İşin faktiki halları	
İddia ilə bağlı:	
İddiaçının kameranı Məmməd Kərimovun əvəzsiz istifadəsinə verməsi	+
Məmməd Kərimovun kameranı iddiaçıya 600 manata satması	+
M.Kərimov kameranın iddiaçıya məxsus olmasını cavabdehə bildirib *(M.Kərimovun, Leyla Kərimovanın, Müşfiq Ağalarovun şahid ifadələri)*	– *(Afiqə Əliyevanın, Ramin Həsənovun şahid ifadələri)*
M.Kərimov cavabdehə kamera üzərindəki (A.M.) inisiallı etiketi göstərib *(M.Kərimovun, Leyla Kərimovanın, Müşfiq Ağalarovun şahid ifadələri)*	–

(Əliyev Şakirin ifadəsi)	Qarşılıqlı iddia ilə bağlı:
+	Kameranın linzasında cızıqlar var idi.
(hüquqi mövqe: cavabdeh özbaşına təmir işləri aparmaqda haqlı deyildi)	Kameranın linzasının təmiri: xərc 100 manat *(Sübut: təmir haqqında 05.07.2006-cı il tarixli qəbzin surəti)*
(hüquqi mövqe: cavabdehin şəxsi işidir)	İşıq lampası zəif idi. İşıq lampasını gücləndirən qurğunun quraşdırılması *(Sübut: 06.07.2006-cı il tarixli işıq lampasını gücləndirən qurğunun alınması barədə qəbz)*

Rayon məhkəməsinin açıq məhkəmə iclasının protokolu

Bakı, 25.08.2006-cı il

Hakim Quliyevin sədrliyi ilə

Artur Məmmədovun Şakir Əliyevə qarşı iddiası üzrə işə baxıldı.

Məhkəməyə çağırılmış iddiaçı və cavabdeh iştiraklarını təsdiqlədilər.

Şahidlər təlimatlandırıldıqdan sonra məhkəmə zalını tərk etdilər.

İddiaçı 20.07.2006-cı il tarixli iddia ərizəsində və 10.08.2008-ci il tarixli yazılı izahatında göstərilən tələbini müdafiə etdiyini bildirdi.

Cavabdeh 30.07.2006-cı il tarixli etirazında göstərilən tələbini müdafiə etdiyini bildirdi.

İşin faktiki və hüquqi vəziyyəti işdə iştirak edən tərəflərlə ətraflı şəkildə müzakirə edildi.

Qərara alındı və elan olundu:

Məmməd Kərimovun cavabdehə kameranın Məmməd Kərimova yox, iddiaçıya mənsub olduğunu bildirməsi və cavabdehə kameranın üzərində olan "A.M." inisiallı etiketi göstərməsi barədə iddiaçının gümanı ilə bağlı sübutlar araşdırılmalıdır.

Bununla bağlı iddiaçının əvvəlcədən dəvət olunmuş şahidləri Məmməd Kərimov, Leyla Kərimova və Müşfiq Ağalarov, cavabdeh tərəfindən şahid qismində təklif edilmiş şəxslər – Afiqə Əliyeva və Ramin Həsənov dindirilməlidir.

Şahid Məmməd Kərimov məhkəmə zalına çağırıldı və aşağıda göstərilən kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Məmməd Kərimov, yaşı – 42, sənəti – taksi sürücüsü, yaşayış yeri – Bakı, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

Hoteldə bizim otağımız soyulan zaman dəyərli əşyalardan yalnız iddiaçının kamerası mənim yanımda idi. Mən ailəmin hovuzda şəkillərini çəkmək istəyirdim. Əşyalarım oğurlandıqdan sonra hoteldə keçirdiyimiz günlərin haqqını ödəmək üçün nağd pulum yox idi. Hotel pulu 600 manat məbləğində idi. Bu zaman təsadüfən hoteldə cavabdehə və ailəsinə rast gəldim. Ona vəziyyətimi danışdım və ümid etdim ki, o, mənə borc pul verər. Lakin cavabdeh məndən kameranı satın almaq istəyirdi.

Ona dərhal dedim ki, kamera iddiaçıya məxsusdur və bunu ona sata bilmərəm. Buna cavab olaraq cavabdeh mənə hotel pulunu necə ödəyəcəyimin mənim problemim olduğunu bildirdi. Nəhayət, kameranı cavabdehə 600 manat məbləğinə satmağa razı olduğumu bildirdim. Kameranı təhvil verərkən cavabdehə bir daha açıqladım ki, kamera əslində iddiaçıya məxsusdur. Ona kameranın üzərindəki "A.M." inisiallı etiketi göstərdim. Cavabdeh bunun heç bir fərq etmədiyini bildirdi və etiketi kameranın üzərindən qopardı. 600 manat hotel pulumu ödədim və ailəmlə birgə Bakıya qayıtdım. Xoşbəxtlikdən maşınımın çəni hələ də benzinlə dolu idi.

Məhkəmənin sualına cavab olaraq:

Kameranın satışında mənim və cavabdehin həyat yoldaşları iştirak etmişlər. Hotel müdiri də otaqda idi. Çünki o, hotel pulunun tez bir zamanda ödənilməsini istəyirdi, buna görə də bizi addım-addım izləyirdi.

Şahid Leyla Kərimova məhkəmə zalına çağırıldı və aşağıda göstərilən kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Leyla Kərimova, yaşı – 35, sənəti – kitabxanaçı, yaşayış yeri – Bakı, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

Hoteldə əşyalarımız oğurlandıqdan sonra hotel hesabını ödəməyə pulumuz yox idi və onda cavabdeh bizə köməyini təklif edərək bizdən kameranı 600 manata almaq istədi. Həyat yoldaşım kameranın iddiaçıya məxsus olduğunu cavabdehə bir neçə dəfə bildirdi. Ancaq cavabdeh buna baxmayaraq kameranı almaq istəyində idi. Həyat yoldaşım və mən kameranı satmaqdan başqa çıxış yolu görmədik. Hotel müdiri hotel hesabının ödənilməsini istəyirdi və hər gün bir neçə dəfə bunu yadımıza salırdı. Həmin gün də o, bizim

otaqda idi və hoteldə keçirdiyimiz günlərin pulunu tələb edirdi. Belə olduqda həyat yoldaşım kameranı cavabdehə satdı. Alınmış 600 manata hotel pulunu ödədik və evə qayıtdıq.

Məhkəmənin sualına cavab olaraq:

Mən "A.M." inisiallı etiketi kameranın üzərində görmüşəm. Bu barədə mən yoldaşımla danışdım və inisialları cavabdehə göstərməsini xahiş etdim. Problem olmasını istəmirdim. Həyat yoldaşım inisialları cavabdehə göstərərək kameranın Artur Məmmədova aid olduğunu bildirdi. Cavabdeh etiketi qopararaq dedi: «Sahibin kim olduğu məni maraqlandırmır, bu kameranın yiyəsi indi özüməm!» Bu sözlər yaxşı yadımdadır, çünki o, bunları çox ucadan dedi.

Şahid Müşfiq Ağalarov məhkəmə zalına çağırıldı və aşağıda göstərilən kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Müşfiq Ağalarov, yaşı – 48, sənəti – hotel müdiri, yaşayış yeri – Nabran, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

Kərimovlar ailəsinə yazığım gəldi. Lakin oğurluq Kərimovlar ailəsinin ehtiyatsızlığı üzündən baş vermişdi. Bu səbəbdən hotel buna görə heç bir məsuliyyəti öz üzərinə götürmədi və 600 manat həcmindəki hotel pulunun ödənilməsini tələb etdi. Bundan sonra mən onunla bir neçə dəfə danışdım və hotel pulunun ödənilməsini xahiş etdim. Doğrusunu desək, həm də yoxlamaq istəyirdim ki, Məmməd Kərimov hələ də hoteldədir, ya yox. Qorxurdum ki, o, pulu ödəməmiş xəlvətcə ailəsi ilə birgə evə qayıdar.

Bir gün mən Məmməd Kərimovla yenidən pulun ödənilməsi haqqında danışmağa gedəndə, o, hotel nömrəsində həyat yoldaşı və cavabdehlə oturmuşdu. Cavabdeh əlindəki kame-

ranı nəzərdən keçirirdi. Məmməd Kərimov deyəndə ki, onun hotel hesabını ödəməyə pulu yoxdur, cavabdeh ona axırıncı dəfə kameranı satın almağı təklif etdi. Məmməd Kərimov razı olduğunu bildirdi. Ancaq o, kameranın ona məxsus olmadığını aydın şəkildə bildirdi. Kərimovun yoldaşı onun qulağına nə isə pıçıldayandan sonra Məmməd Kərimov cavabdehə kameranın üzərindəki "A.M." inisiallı etiketi göstərdi. Həyat yoldaşı dedi ki, kamera iddiaçınındır. Cavabdeh, deyəsən, kameranın kimə aid olduğunun fərq etmədiyini deyərək etiketi qopardı. Sonra o, hotel otağına gedərək 600 manat həcmində pulu Məmməd Kərimova gətirdi. Məmməd Kərimov pulu mənə verdi və dedi ki, mən onu indi rahat buraxmalıyam. Həmin gün Məmməd Kərimov hoteli tərk edərək evinə qayıtdı.

Şahid Afiqə Əliyeva məhkəmə zalına çağırıldı və aşağıda göstərilən kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Afiqə Əliyeva, yaşı – 37, sənəti – evdar qadın, yaşayış yeri – Bakı, cavabdehin həyat yoldaşıdır. Şahid təlimatlandırıldı. Şahid ifadə verməyə razılaşdı.

İşə aid:

Biz hələ Bakıdan tanıdığımız Kərimovlar ailəsi ilə təsadüfən Nabranda rastlaşdıq. Onlar Nabrana məzuniyyətə gəlmişdilər. Bir gün biz Kərimovlar ailəsinə onların hotel otağında baş çəkdik. Məmməd Kərimov əşyalarının oğurlandığını bizə danışdı. Ərim ondan kameranı 600 manata satın almağı təklif etdi. Bu an bizim hər iki övladımız hotel otağına atıldı. Həyat yoldaşımın Məmməd Kərimova kameranı almaq təklifini etdiyi andan mən uşaqlarla məşğul oldum və Məmməd Kərimovun həyat yoldaşıma nə dediyini eşitmədim. Təqribən 20 dəqiqə mən uşaqlarla məşğul oldum, sonra hovuza getdim.

Məhkəmənin sualına cavab olaraq:

Ora gedərkən hotel müdirinin də otaqda olduğunu gördüm. O, hotel otağında Məmməd Kərimovdan hotel pulunu ödəməyi ucadan tələb edirdi. Otağın qarşısında bir kişi də durmuşdu. Zənnimcə, o, hoteldə işləyirdi, çünki onu tez-tez hotelin qəbul otağında görürdüm. Yoldaşımla təqribən 20 dəqiqə sonra hovuzun yanında rastlaşdım. O, mənə artıq kameramızın olduğunu dedi. Məmməd kameranı ona satmışdı. Fikirləşirdim ki, Məmməd kameranın yiyəsidir. Yoxsa o, kameranı satmazdı. Həyat yoldaşım kameranın Məmmədə məxsus olmadığını bilsəydi, kameranı ondan almazdı.

Şahid Ramin Həsənov məhkəmə zalına çağırıldı və aşağıda göstərilən kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Ramin Həsənov, yaşı – 24, sənəti – hotel işçisi, yaşayış yeri – Nabran, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

Bir gün şef, Müşfiq Ağalarov yanıma gəlib onunla getməyimi dedi. Dedi ki, hotelin bir qonağı hotel pulunu hələ də ödəməyib və indi onu axtarıb tapmalıdır. Mən yardım üçün gəlməli idim, çünki hotel qonağının özünü necə aparacağı məlum deyildi. Beləliklə, biz hotel qonağının yanına getdik. Qonaq burada olan şahid Məmmədov idi. Mən hotel otağının qarşısında dayandım və siqaret çəkirdim. Məmməd Kərimovun kameranın iddiaçıya aid olduğu barədə cavabdehə məlumat verməsini eşitmədim. Bütün vaxtı qapının arxasında dayanıb gözləyirdim. Bundan əlavə, hansısa uşaqlar ətrafda və otağın içərisində qaçırdılar və kifayət qədər səs-küy vardı. Sonra bir qadın uşaqlarla otaqdan çıxdı.

II. Hüquqi rəy

A. İddia ilə bağlı

İddiaçı cavabdehdən «Canon Ixus 500» markalı kameranın qaytarılmasını tələb edir. İddiaçının cavabdehə qarşı iddia tələbinin hüquqi əsası MM-in 157.2-ci maddəsidir və buna əsasən mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edə bilər.

Burada üç dispozisiya şərtinin olması vacibdir:

1) iddiaçı əmlakın mülkiyyətçisi olmalıdır;

2) cavabdeh əşyanın sahibi olmalıdır;

3) cavabdehin əşya üzərində sahibliyi qanunsuz olmalıdır.

1. İddiaçının kamera üzərində mülkiyyət hüququ

1-ci sualla bağlı tövsiyə olunur ki, tarixi araşdırma aparılsın, yəni mülkiyyət hüququnun kimə aid olduğunu araşdırdıqda tərəflərin izahatlarına əsasən ilk mülkiyyətçidən başlansın.

a) Öncə iddiaçı kameranın mübahisəsiz mülkiyyətçisi idi. O, kamerasını Məmməd Kərimova onun məzuniyyəti dövründə istifadəsinə verməklə kamera üzərində mülkiyyət hüququnu itirməyib. Burada MM-in 732-ci maddəsində göstərilmiş əvəzsiz istifadə müqaviləsindən söhbət gedir və belə müqaviləyə əsasən hər hansı əşyanı kirayəyə verən onu kirayəçinin istifadəsinə verməyi öhdəsinə götürür, lakin heç zaman əşya üzərindəki mülkiyyət hüququnu itirmir.

b) Cavabdeh həm də kameranı birbaşa səlahiyyətli şəxsdən əldə etməyib. Çünki alqı-satqı müqaviləsini tərəflər özləri bağlamayıblar və Məmməd Kərimovun iddiaçının adından onun nümayəndəsi kimi mübahisələndirilən kameranı satmaq səlahiyyəti yox idi.

c) Bununla belə, iddiaçı əşya üzərində mülkiyyət hüququnu cavabdehin əşyanı vicdanlı əldə etməsi nəticəsində itirə

bilərdi. MM-in 182.1-ci maddəsinə görə, daşınar əşyanı onun mülkiyyətçisi olmayan özgəninkiləşdirən şəxsdən satın alan əşyanı əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olması faktı barədə vicdanlıdırsa və əşya mülkiyyətçinin sahibliyindən onun iradəsinə zidd olaraq çıxmayıbsa (MM-in 182.2-ci maddəsi), əşyanın mülkiyyətçisi olur. Əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır (MM-in 182.1-ci maddəsi). Özgəninkiləşdirənin səlahiyyətlərinin olmamasına münasibətdə hətta yüngül səhlənkarlıq belə vicdanlılıq elementini istisna edir.

İddiaçı güman edir ki, Məmməd Kərimov cavabdehə mülkiyyət münasibətlərini izah edib. Belə olduqda cavabdeh kameranı vicdanlı şəkildə əldə edə bilməzdi və iddiaçı mülkiyyət hüququnu itirməzdi. Cavabdeh isə Məmməd Kərimovun belə məlumat verdiyini mübahisələndirir.

Buna görə məhkəmə bu mübahisəli halla bağlı sübutları araşdırmalıdır. Sübutetmə vəzifəsinin müəyyənləşdirilməsi MM-in 182.1-ci maddəsinin ikinci cümləsinin mətnindən irəli gəlir və buna əsasən əldə edənin vicdanlı olması prezumpsiyasından çıxış etmək lazım gəlir. Beləliklə, sübutetmə vəzifəsini iddiaçı daşıyır; o, cavabdehin vicdanlı olmadığını sübut etməlidir.

Kameranı əldə edən zaman Məmməd Kərimovun səlahiyyətsiz olmasının cavabdehə məlum olduğunu sübut etmək üçün iddiaçı Məmməd Kərimov, Leyla Kərimova və hotel müdiri Müşfiq Ağalarovun şahid qismində dindirilməsini təklif edib. Cavabdeh bu sübuta qarşı həyat yoldaşı Afiqə Əliyevanın və hotel işçisi Ramin Həsənovun şahid qismində dindirilməsini təklif edib. Qərəzsizlik baxımından hakim, əlbəttə ki, təkcə iddiaçının təklif etdiyi şahidləri deyil, cavabdehin təklif etdiyi şahidləri də dinləməlidir.

aa) *Şahid Məmməd Kərimov* iddiaçının izahatını təsdiqlədi. Şahid hadisəni əyani və ziddiyyətsiz təsvir etdi. Onun de-

dikləri inandırıcıdır. Şahidin ovaxtkı maddi durumunu nəzərə alaraq və kameranın satışının mümkünlüyünü risk altına qoymamaq məqsədi ilə cavabdehə mülkiyyət münasibətləri barədə heç nə demədiyini də güman etmək olar. Lakin elə bir dəlil yoxdur ki, Məmməd Kərimovun həqiqəti demədiyini sübut etsin. Onun şahid kimi mötəbərliyi ilə bağlı nəzərə almaq lazımdır ki, Məmməd Kərimovun məhkəmə işinin həll olunmasında ən azı bilavasitə marağı var, çünki əks halda iddiaçı zərərin ödənilməsini ondan tələb edə bilər. Lakin təkcə bu fakt onun şahid kimi ifadələrinin mötəbərliyini sual altına qoymur.

bb) *Şahid Leyla Kərimova* da iddiaçının izahatını təsdiqləyir. Şahid bütün söhbət zamanı orada olub və hadisəni şəxsən gördüyü və eşitdiyi kimi təsvir edir. Onun oğurlanma, hotel hesabı və söhbətin zahiri gedişatı haqqında bildirdikləri şahid Məmməd Kərimovun bildirdikləri ilə üst-üstə düşür və onun ifadələrinin doğruluğunu təsdiqləyir. Cavabdehin sözləri hələ də şahidin yadındadır. Onun ifadələrinin təfsilatı hadisəni həqiqətəuyğun təsvir etməsinə çalışmasına işarə edir.

cc) *Şahid Müşfiq Ağalarov* da iddiaçının izahatını təsdiqləyir. O, baş verənləri şəxsən gördüyü və eşitdiyi kimi deyir. Şahid çalışdı ki, hadisəni təfsilatı ilə, əyani və aydın təsvir etsin. O, hadisədən əvvəl baş verənləri də geniş təsvir etdi. Şahidin həqiqəti deməməyindən nə isə qazanacağı bəlli deyil. Nəhayət, onun ifadələri o biri iki şahidin dediklərinə uyğun gəlir.

dd) *Şahid Afiqə Əliyeva* söhbətin sübut üçün mühüm olan hissəsində iştirak etməsə də, ifadəsini təfsilatı ilə verdi. Buna görə, mümkündür ki, Məmməd Kərimov cavabdehə kameranın əsl mülkiyyətçisi barədə məlumat verəndə şahid qonşu otaqda uşaqları ilə məşğul olub. Şahidin «cavabdeh kameranın Məmməd Kərimova məxsus olmadığını bilsəydi, onu

satın almazdı» kimi ifadəsi yalnız onun şəxsi fikrini bildirir və bunun da sübut qüvvəsi yoxdur.

ee) *Şahid Ramin Həsənovun* ifadələri də sübut olunmalı suallar baxımından faydalı deyil, çünki o, söhbət zamanı orada iştirak etməyib.

ff) Şahid ifadələrini qiymətləndirəndən sonra məhkəmə belə nəticəyə gələcək ki, cavabdehin kameranın həqiqi mülkiyyətçisi barədə məlumatlandırılması sübut olunur. Cavabdehin təklif etdiyi şahidlər bunu təkzib edə bilmədilər, çünki onların ifadələri sübut olunmalı mövzu baxımından faydalı deyil. Bundan əlavə, Məmməd Kərimovun və Müşfiq Ağalarovun üst-üstə düşən ifadələrinə əsasən, cavabdehə kameranın üzərindəki A.M. inisiallı etiket göstərilib. Cavabdeh bilməli idi ki, belə etiket adətən əşyanın üzərinə mülkiyyətçinin kim olduğunu göstərmək üçün vurulur. Bu halda inisialların kameranı özgəninkiləşdirən Məmməd Kərimova aid olmadığı birmənalıdır.

a) Cavabdeh vicdansız olduğundan iddiaçı hələ də kameranın mülkiyyətçisidir.

2. Cavabdehin sahibliyi

Cavabdeh kameranin bilavasitə (vasitəsiz) sahibidir.

3. Sahibliyin qanunsuz olması

MM-in 157.2-ci maddəsinə əsasən, cavabdehin iddiaçıya münasibətdə sahiblik hüququ yoxdur. Çünki o, alqı-satqı müqaviləsini birbaşa iddiaçı ilə bağlamayıb. Məmməd Kərimov da iddiaçıya münasibətdə kameranı cavabdehə satmağa səlahiyyətli deyildi.

4. İddianın nəticəsi

İddiaçının cavabdehdən kameranı qaytarmağı tələb etmək hüququ var.

B. Cavabdehin iddiaçıya qarşı qarşılıqlı iddiası (subsidiar tələb)

Məhkəmə iddiaçının kameranı qaytarmaqla bağlı tələbinin olmasını müəyyən etdiyindən cavabdehin irəli sürdüyü xərclərin əvəzinin ödənilməsi barədə qarşılıqlı iddiasına da baxmalıdır.

1. Linzanın təmiri üçün çəkilmiş 100 manat xərcin əvəzinin ödənilməsi barədə cavabdehin tələbi

Cavabdehin iddiaçıya qarşı irəli sürə biləcəyi qarşılıqlı iddianın qanuni əsası əksini MM-in 157.6-cı maddəsində tapır. Bu maddəyə əsasən, istər vicdanlı, istərsə də vicdansız sahib əmlaka sərf etdiyi zəruri məsrəflərin əvəzinin ödənilməsini mülkiyyətçidən tələb edə bilər.

a) Linzanın təmir olunma vaxtında iddiaçı və cavabdeh arasında vindikasiya vəziyyəti mövcud idi, yəni xərclər çəkilən zaman iddiaçı kameranın mülkiyyətçisi, cavabdeh də qanunsuz sahibi idi.

b) Cavabdeh xərc çəkən zaman vicdanlı deyildi, çünki o, yuxarıda müəyyən olunduğu kimi, iddiaçının kameranın mülkiyyətçisi olduğunu bilirdi. Lakin linzanın dəyişdirilməsi zəruri xərclər kimi qəbul edilərsə, cavabdehin vicdansızlığı MM-in 157.6-cı maddəsinə əsasən önəmli deyil. Xərc onda zəruri sayılır ki, görülən tədbir əşyanın saxlanması və onun normal istismarı üçün lazımidir və mülkiyyətçi bu xərclərə sahibin təşəbbüsü ucbatından qənaət etmişdir. Aydındır ki, linza kameranın təyinatı üzrə istifadəsi üçün zəruridir. İddiaçı kameranı istifadə etmək istəyirdisə, o, hər bir halda cızılmış linzanı dəyişdirməli olacaqdı. Buna görə burada zəruri məsrəfdən söhbət gedir.

Beləliklə, cavabdeh MM-in 157.6-cı maddəsinə görə iddiaçıdan 100 manat məbləğində xərcin ödənilməsini tələb edə bilər.

2. İşıq lampası üçün gücləndirici qurğunun quraşdırılmasına görə 40 manat xərcin ödənilməsi barədə cavabdehin tələbi

MM-in 157.6-cı maddəsindən irəli gələn tələb burada aradan qalxır, çünki işıq lampası üçün gücləndirici qurğunun quraşdırılması kameradan normal istifadə üçün lazım deyil və buna görə də burada zəruri məsrəflərdən söhbət gedə bilməz.

İşıq lampası üçün gücləndirici qurğunun quraşdırılmasına görə 40 manat xərcin ödənilməsi barədə cavabdehin tələbi MM-in 157.7-ci maddəsindən irəli gələ bilərdi. Bu maddəyə görə, vicdanlı sahibə əşyanın yaxşılaşdırılması üçün çəkdiyi məsrəflərin əvəzi ödənilir.

a) MM-in 157.7-ci maddəsinə əsasən, məsrəf o vaxt yaxşılaşdırma sayılır ki, görülmüş tədbir zəruri deyil, lakin əşyanın dəyərinin artırılmasına və ya istifadəsinin yaxşılaşdırılmasına gətirib çıxarır. İşıq lampası, gücləndirici qurğunun alınması və quraşdırılması şəkli daha aydın edir və kameranın istifadə imkanlarını artırır. Lakin bu qurğu elə də vacib deyil, çünki kamera bu gücləndirici qurğusuz da işləyirdi. Beləliklə, burada söhbət faydalı məsrəfdən gedir.

b) MM-in 157.7-ci maddəsi yalnız vicdanlı sahibin belə iddiasını nəzərdə tutur. Lakin yuxarıda müəyyən olunduğu kimi, cavabdeh xərclər çəkilən zaman əşyanın həqiqi mülkiyyətçisi barədə məlumatlı idi və deməli, vicdansız idi.

Beləliklə, cavabdeh iddiaçıdan 40 manat həcmində məsrəfin əvəzinin ödənilməsini tələb edə bilməz.

3. Nəticə

Qarşılıqlı iddia yalnız 100 AZN məbləğində əsaslıdır.

C. Ümumi nəticə

Kameranın geri qaytarılması ilə bağlı iddia əsaslıdır. Qarşılıqlı iddia 100 AZN həcmində əsaslıdır və qalan hissədə rədd edilməlidir.

Qətnamə layihəsi

Təsviri hissə

İddiaçı «Canon Ixus 500» markalı kamerasını Məmməd Kərimova Nabrandakı məzuniyyəti müddətində istifadə etməyə verib. Məzuniyyət zamanı Məmməd Kərimov kameranı cavabdehə 600 manata satıb ki, hotel pulunu ödəsin.

Cavabdeh kameranı aldıqdan sonra müəyyən edib ki, kameranın linzasında cızıqlar var. Linzanın dəyişdirilməsinə cavabdeh 100 AZN pul sərf edib. Bundan başqa, cavabdeh 40 AZN işıqlandırıcı lampanın gücləndirici qurğusunun quraşdırılmasına sərf edib, çünki qaranlıqda çəkilən şəkillər kifayət qədər işıqlı deyildi. Kamera iddiaçıya qaytarılarsa, cavabdeh bu məsrəflərin ödənilməsini tələb edir.

İddiaçı güman edir ki, Məmməd Kərimov cavabdehə kameranın mülkiyyətçisinin iddiaçı olduğunu bildirib və kameranın üzərindəki inisialları yazılmış etiketi də göstərib. İddiaçı belə fikirdədir ki, o, təmir xərclərinə görə məsuliyyət daşımalı deyil, çünki cavabdeh kameranın iddiaçıya aid olduğunu bilə-bilə kamerada özbaşına təmir işləri aparıb.

İddiaçı cavabdehdən «Canon Ixus 500» markalı, qara rəngli və buraxılış ili 2006 olan kameranı geri qaytarması barədə qətnamə çıxarılmasını tələb edib.

Cavabdeh iddianın rədd olunmasını tələb edib.

Cavabdeh subsidiar olaraq qarşılıqlı iddia ilə iddiaçıdan 140 manat həcmində məsrəflərin ödənilməsini tələb edir.

İddiaçı qarşılıqlı iddianın rədd olunmasını tələb edir.

Cavabdeh israr edir ki, o, Məmməd Kərimovun kameranın mülkiyyətçisi olmadığını bilmirdi. O, kameranın üzərindəki "A.M." inisialli etiketin olmadığını da bildirib.

Məmməd Kərimovun cavabdehə kameranın həqiqi mülkiyyətçisi barədə məlumat verdiyini və ona kameranın üzərin-

dəki “A.M.” inisiallı etiketi göstərdiyini müəyyən etmək üçün sübutlar araşdırılıb; şahidlər – Məmməd Kərimov, Leyla Kərimova, Afiqə Əliyeva, Müşfiq Ağalarov və Ramin Həsənov dindirilib.

Qətnamənin əsaslandırıcı hissəsi

İddia əsaslıdır. Qarşılıqlı iddia yalnız 100 manat həcmində əsaslıdır.

1. MM-in 157.2-ci maddəsinə əsasən, iddiaçı cavabdehdən «Canon Ixus 500» markalı kameranın qaytarılmasını tələb edə bilər. Bu maddəyə əsasən, əşyaya sahiblik qanunsuz olduqda, mülkiyyətçi sahibdən əşyanın qaytarılmasını tələb edə bilər.

İddiaçı hələ də mübahisəli kameranın mülkiyyətçisidir. O, kameranı Məmməd Kərimova məzuniyyət zamanı istifadəyə verməklə onun üzərində mülkiyyət hüququnu itirməyib. MM-in 732-ci maddəsinə görə, əvəzsiz istifadə müqaviləsi mülkiyyətçinin dəyişməsinə gətirmir. Məmməd Kərimov və cavabdeh arasındakı alqı-satqı müqaviləsi də iddiaçının kamera üzərindəki mülkiyyət hüququna xitam vermir. Məmməd Kərimov kameranı satmağa səlahiyyətli deyildi, cavabdeh kameranı MM-in 182.1-ci maddəsində nəzərdə tutulmuş mənada vicdanlı surətdə əldə etməmişdi. Şahid Məmməd Kərimov, Leyla Kərimova və Müşfiq Ağalarovun mahiyyətcə bir-birinə uyğun olan ifadələrindən sonra məhkəmə müəyyən etmişdir ki, cavabdeh Məmməd Kərimovun kameranı satmağa səlahiyyətli olmadığını bilirdi, çünki Məmməd Kərimov bu barədə cavabdehi aydın şəkildə məlumatlandırmışdı. Cavabdehə kameranın üzərində “A.M.” inisiallı etiket yapışdırılması da məlum idi. Ona aydın olmalı idi ki, belə etiketlər əşyaların üzərinə adətən onun mülkiyyətçisini göstərmək üçün vurulur və inisiallar Məmməd Kərimova işarə etmirdi.

Üç şahidin ifadələri inandırıcıdır. Onlar hadisəni təfsilatı ilə və ziddiyyətsiz təsvir etdilər. Düzdür, şahid Məmməd Kərimovun ovaxtkı maddi durumuna görə əsası var idi ki, kameranın satışını risk altına qoymamaq üçün cavabdehə kameranın həqiqi mülkiyyətçisi barədə heç nə deməsin. Onun məhkəmə işinin bitməsində marağı var, çünki iddiaçı iddia təmin olunmadığı halda ona qarşı zərərin ödənilməsi barədə tələb irəli sürə bilər. Lakin onun ifadələrini şahid Leyla Kərimova və Müşfiq Ağalarov təsdiqlədi. Bu iki şahid bütün söhbət boyu şəxsən iştirak edib. Ən azı Müşfiq Ağalarovun məhkəmə işinin nəticəsində heç bir marağı yoxdur. Bunun əksinə olaraq, şahidlər Afiqə Əliyeva və Ramin Həsənov alqı-satqı söhbətini şəxsən dinləməyiblər, buna görə də onların ifadələrinin heç bir sübut dəyəri yoxdur.

Cavabdehin sahiblik hüququ yoxdur. Belə bir hüquq cavabdehlə Məmməd Kərimov arasında bağlanmış alqı-satqı müqaviləsindən irəli gəlmir, çünki belə müqavilə yalnız alqı-satqı müqaviləsinin tərəfləri arasında öhdəliklər yaradır və iddiaçı üçün onun qüvvəsi yoxdur.

2. MM-in 157.6-cı maddəsinə əsasən, cavabdeh iddiaçıdan 100 manat məbləğində məsrəfin əvəzini tələb edə bilər. Burada MM-in 157.6-cı maddəsində nəzərdə tutulmuş mənada zəruri məsrəflərdən söhbət gedir, çünki kameranı linzada olan cızıqlara görə təyinatına uyğun istifadə etmək mümkün deyildi. Onsuz da qüsursuz şəkillər çəkmək üçün iddiaçı da bu təmiri etməli olacaqdı.

İşıq lampasının gücləndirici qurğusuna 40 manat həcmində çəkilmiş məsrəflər isə əksinə, zəruri deyil. Burada yaxşılaşdırmadan söhbət gedir, çünki bu məsrəflər kameranın istifadəyə yararlığının saxlanması üçün zəruri deyil, sadəcə, onun dəyərini artırır. Çünki kamera bu qurğusuz da işləyirdi. Sadəcə olaraq, bu qurğu kameranın istifadə imkanlarını yaxşı-

laşdırır. MM-in 157.7-ci maddəsinin 2-ci cümləsinə əsasən, yalnız vicdanlı sahib yaxşılaşdırmalarla bağlı məsrəflərin ödənilməsini tələb edə bilər. Cavabdeh isə vicdansızdır, çünki o, kameranın özgəninkiləşdirənə məxsus olmadığını bilirdi.

3. Məhkəmə xərclərinin tərəflər arasında bölüşdürülməsinə dair qərar MPM-in 119.1-ci maddəsinə əsaslanır. Məhkəmə xərcləri tərəflərin ödənilmiş tələblərinə mütənasib olaraq onlar arasında bölüşdürülür.

Nəticə

1. Cavabdehin iddiaçıya «Canon Ixus – 500» markalı, qara rəngli, buraxılış ili 2006 olan kameranı geri qaytarması qət edilsin.

Qarşılıqlı iddiaya əsasən iddiaçının cavabdehə 100 manat həcmində məsrəf ödəməsi qət edilsin. Qarşılıqlı iddia qalan hissədə rədd edilsin.

2. Məhkəmə xərclərinin 14%-ni iddiaçı, 86%-ni isə cavabdeh daşıyır.

(Qətnamədən şikayət etmə qaydası barədə məlumatlandırma)

4-cü kazus: Borcla toy

(Zaminlik, zaminin etirazları, podrat müqaviləsi, sübutetmə vəzifəsi, sübutların qiymətləndirilməsi)

I. İşin halları

X rayon məhkəməsinə

İddiaçı: Məmməd Əliyev
Ünvan: .....

Cavabdeh: Anar Həsənov
Ünvan: .....

İddia ərizəsi

İddia ərizəsi ilə cavabdehin mənə 2.000 manat ödəməsi barədə qətnamə çıxarılmasını xahiş edirəm.

Əsaslandırma:

Samir Məmmədovun qızı 2005-ci ilin dekabr ayında ərə getməli idi. Samir Məmmədova məxsus avtotəmir emalatxanasının işləri yaxşı getmədiyindən qızının toyunu özü maliyyələşdirə bilmirdi. Bu səbəbdən o, 28.11.2005-ci ildə iddiaçıdan xahiş etdi ki, müvəqqəti olaraq 2.000 manat həcmində pul verməklə ona kömək etsin.

İddiaçı Samir Məmmədovun işləri yaxşı getmədiyindən onun tezliklə pulu qaytara bilməyəcəyini bilirdi. Buna görə Samir Məmmədova borc vermək istəmirdi.

İki gün sonra Samir Məmmədov iddiaçını cavabdehlə tanış etdi. Cavabdeh Samir Məmmədovun 30.04.2006-cı il tarixə qədər 2.000 manat məbləğində borcu geri qaytarmayacağı

halda pulu iddiaçıya ödəməyə hazır olduğunu bildirdi. İddiaçıya məlum idi ki, cavabdehin Bakıda yerləşən çox gəlirli restoranı var.

Buna görə iddiaçı və cavabdeh yazılı şəkildə belə razılaşma əldə etdilər: «Samir Məmmədov Məmməd Əliyevdən 2.000 manat borc götürür və borcunu 30.04.2006-cı il tarixinə qədər geri qaytarmalıdır. Samir Məmmədov xəbərdarlıq edilməsinə baxmayaraq, öhdəliyini icra etməzsə, mən, Anar Həsənov bu məbləğə görə şəxsən cavabdehəm».

Sübut: 30.11.2005-ci il tarixli sənəd.

Bundan sonra iddiaçı Samir Məmmədova 2.000 manat məbləğində pul borc verdi. Samir Məmmədov 05.05.2006-cı ilə qədər borc pulu geri ödəmədikdə və özünə məxsus emalatxanada işlərinin yaxşı getmədiyindən 2.000 manat məbləğində borc pulu ödəyə bilməyəcəyini dedikdə, iddiaçı Samir Məmmədova qarşı məhkəmə qərarının qəbul olunmasına nail oldu. Məhkəmə Samir Məmmədovun iddiaçıya 2.000 manat məbləğində pulu ödəməli olduğu barədə qətnamə çıxardı.

Sübut: 20.06.2006-cı il tarixli məhkəmə qətnaməsi.

Məhkəmə qətnaməsinə baxmayaraq, Samir Məmmədov maliyyə durumunun pis olduğuna görə borc götürdüyü pulu ödəyə bilmədi. 2006-cı il avqust ayının əvvəlində qətnamənin icrası cəhdi Samir Məmmədova məxsus, üzərinə həbs qoyula biləcək əmlak olmadığından nəticəsiz qaldı. Bundan sonra iddiaçı bir neçə dəfə cavabdehdən tələb etdi ki, Samir Məmmədovun borcunu ödəsin, lakin həmin tələblər nəticəsiz qaldığından bu iddianı irəli sürdü.

İmza: Məmməd Əliyev

30.08.2006

X rayon məhkəməsinə

Cavabdeh: Anar Həsənov
Ünvan: .....
İddiaçı: Məmməd Əliyev
Ünvan:.....

İddia ərizəsinə etiraz

Məhkəməyə müraciət edərək Məmməd Əliyevin Anar Hüseynova qarşı iddiasının rədd olunmasını xahiş edirəm.

Əsaslandırma:

30.11.2005-ci il tarixli razılaşmanın əldə edilməsi barədə izahatlar doğrudur. Lakin əsas tələb artıq mövcud deyil. Məhkəmə qətnaməsindən sonra Samir Məmmədov borc götürdüyü pulu iddiaçıya ödəyib. Bu barədə Samir Məmmədov cavabdehə məlumat verib. Şahid Leyla Kərimova bunu təsdiq edə bilər, çünki o, Samir Məmmədovla birgə iddiaçıgildə olub və 2006-cı ilin avqust ayının ortalarında pulun verilməsində iştirak edib.

Sübut: Şahid Leyla Kərimovanın ifadəsi.

Şahid Samir Məmmədovun ifadəsi.

Bundan əlavə, cavabdeh borclu Samir Məmmədovun iddiaçıya qarşı 500 AZN məbləğində qarşılıqlı tələbinin əvəzləşdirilməsinə də istinad edə bilər. 2006-cı il yanvar ayının əvvəlində iddiaçı «Mersedes ML-350» markalı maşınını Samir Məmmədovun emalatxanasına təmirə gətirib. Motorda bəzi təmir işlərinin aparılması və karbüratorun dəyişdirilməsi üçün 500 AZN məbləğində muzd razılaşdırılıb. Razılaşdırılmış pul təmir başa çatdıqdan sonra ödənilməliydi.

Sübut: Şahid Samir Məmmədovun ifadəsi.

Şahid Şakir Ağalarovun ifadəsi (Samir Məmmədovun emalatxanasında çalışan köməkçi).

2006-cı il yanvarın sonunda borclu iddiaçıya zəng vuraraq maşının artıq təmir olunduğunu bildirib. Emalatxanaya gəldikdə, iddiaçı pulqabını evdə yaddan çıxardığını görür. Lakin həmin gün onun işgüzar görüşü var idi və oraya yalnız maşınla gedə bilərdi. Beləliklə, iddiaçı borcluya söz verir ki, bir gün sonra saat 10:00-da pulu ödəmək üçün gələcək. Borclu iddiaçını yaxşı tanıdığından və ona etibar etdiyindən maşını ödənişsiz götürməyə icazə verir. Borclu sonralar bunu iddiaçının yadına salsa da, iddiaçı 500 AZN məbləğində təmir haqqını ödəməyib.

Bu səbəbdən hər bir halda zaminliklə təmin olunmuş öhdəliklə bağlı cavabdehə 500 AZN həcmində tələb irəli sürülə bilməz.

Anar Həsənov

15.09.2006

X rayon məhkəməsinə

İddiaçı: Məmməd Əliyev
Ünvan: .....
Cavabdeh: Anar Həsənov
Ünvan: .....

Etirazla bağlı izahat

Qarşı tərəfin 15.09.2006-cı il tarixli etirazı ilə bağlı aşağıdakıları bildirirəm:

1. İddiaçı heç vaxt borc verdiyi 2.000 manat məbləğində pulu cavabdehdən geri almayıb. Samir Məmmədov cavabdehə yalan danışıb. Bundan əlavə, cavabdeh icra ilə bağlı etirazı bu işdə irəli sürə bilməz. Həmin etirazı irəli sürmək hüququ cavabdehə deyil, yalnız Samir Məmmədova məxsusdur.

2. Cavabdeh qarşılıqlı tələbinin olmasına istinad edə bilməz. Belə ki, iddiaçının Samir Məmmədova qarşı qaldırdığı iddia ilə bağlı icraatda Samir Məmmədov özü tələblərin qarşılıqlı surətdə əvəzləşdirilməsinə istinad etməyib.

3. Bundan əlavə, borclu təmir haqqının ödənilməsi tələbini irəli sürə bilməz, çünki təmir işləri hələ də tam başa çatmayıb. 2006-cı il yanvar ayının əvvəlində iddiaçı maşını Samir Məmmədovun emalatxanasına gətirdikdə, karbüratorun dəyişdirilməsi, motorda bəzi təmir işlərinin aparılması və sağ qabaq qapının rənglənməsi üçün 500 manat həcmində təmir haqqı razılaşdırılmışdı. Sağ qabaq qapının rənglənməsindən başqa bütün razılaşdırılmış işlər 2006-cı il yanvar ayının axırına qədər yerinə yetirilib. Samir Məmmədovun sözlərinə görə, lazımi boya rəngi olmadığından o, bunu almağı planlaşdırırdı. İddiaçı isə işgüzar səbəblərdən avtomaşını rənglənməməsinə baxmayaraq, 2006-cı il yanvarın axırında Samir Məmmədovun emalatxanasından müvəqqəti götürməli oldu. Samir Məmmədov qapını 2006-cı il fevral ayının ortasına qədər rəngləyəcəyinə söz verdi. İndiyə qədər sağ qapı rənglənməyib.

Məmməd Əliyev

30.09.2006

İşdən çıxarış

İddiaçının bildirdikləri	Cavabdehin bildirdikləri
V. Tələblər	
2.000 manatın ödənilməsi.	İddianın rədd edilməsi.
VI. İşin faktiki halları	
30.11.2005-ci ildə iddiaçı Samir Məmmədova onun maliyyə çətinliklərini bilə-bilə 2.000 manat pul borc verib.	+
Borc 30.04.2006-cı ilə qədər qaytarılmalı idi.	+
Cavabdeh xəbərdarlığa baxmayaraq, Samir Məmmədovun pulu iddiaçıya geri ödəmədiyi təqdirdə həmin məbləğə görə cavabdehlik daşıması barədə yazılı öhdəlik götürür.	+
05.05.2006-cı ilə qədər pul ödənilməyib. Buna görə də ödəmə ilə bağlı 20.06.2006-cı ildə qətnamə çıxarılıb.	+

S.Məmmədovun mənzilində üzərinə həbs qoyula biləcək əşyalar olmadığından avqustun əvvəllərində qətnamənin icra cəhdi uğursuz qalıb.	+
– *(hüquqi mövqe: icra ilə bağlı etiraza yalnız S.Məmmədov istinad edə bilər)*	– Borclu avqustun ortalarında 2.000 manatı ödəyib *(Sübut: Samir Məmmədovun, Leyla Kərimovanın ifadələri)*
	Borclu 500 manat məbləğində qarşılıqlı tələbi əvəzləşdirə bilər. Bu həcmdə cavabdehin ödəməyə ehtiyacı yoxdur. <u>Əsas:</u> 2006-cı ilin əvvəllərində iddiaçı və S.Məmmədov arasında avtomobilin təmiri barəsində müqavilə. Müqaviləyə əsasən 500 manat muzd razılaşdırılmışdı və işlərin görülməsindən sonra ödənilməli idi.
Muzdla əhatə olunan işlər: karbüratorun dəyişməsi, motorda bəzi təmir işləri və sol qabaq qapının rənglənməsi.	Muzdla karbüratorun dəyişməsi və motorda bəzi təmir işləri əhatə olunurdu *(Sübut: S.Məmmədov və Şakir Ağalarovun ifadələri)*
+ .	Yanvarın sonunda işlər görülüb (rənglənmə istisna olmaqla) və avtomobil geri qaytarılıb.
+	S.Məmmədov gördüyü işə görə pul almayıb.
Təmir işləri hələ tam qurtarmayıb. Avtomobil yalnız müvəqqəti olaraq götürülüb.	

Rayon məhkəməsinin açıq məhkəmə iclasının protokolu

Bakı 10.10.2006

Hakim Quliyevin sədrliyi ilə

Məmməd Əliyevin Anar Hüseynova qarşı iddiası üzrə işə baxıldı.

Məhkəməyə çağırılmış iddiaçı və cavabdeh iştiraklarını təsdiqlədilər.

Şahidlər təlimatlandırıldıqdan sonra məhkəmə zalını tərk etdilər.

İddiaçı 30.08.2006-cı il tarixli iddia ərizəsində göstərilən tələbini müdafiə etdi.

Cavabdeh 15.09.2006-cı il tarixli etirazında göstərilən tələbini müdafiə etdi.

İşin faktiki və hüquqi vəziyyəti işdə iştirak edən tərəflərlə ətraflı şəkildə müzakirə edildi.

Qərara alındı və elan olundu:

1. Samir Məmmədovun 2.000 manat məbləğində borc pulu avqust ayının əvvəllərində iddiaçıya qaytarması barədə cavabdehin ifadəsi ilə bağlı sübutlar araşdırılmalıdır. Bununla bağlı cavabdehin şahid qismində təklif etdiyi və məhkəməyə çağırılmış şəxslər – Leyla Kərimova və Samir Məmmədov dindirilməlidir.

2. Bundan əlavə, iddiaçı və Samir Məmmədov arasında razılaşdırılmış işlər barədə cavabdehin ifadəsi, yəni 500 AZN məbləğində muzdun müqabilində yalnız karbüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin aparılması, lakin sağ qabaq qapının rənglənməsinin razılaşdırılmaması ilə bağlı sübut-

lar araşdırılmalıdır. Bununla bağlı cavabdehin şahid qismində təklif etdiyi və məhkəməyə çağırılmış şəxslər – Şakir Ağalarov və Samir Məmmədov dindirilməlidir.

Şahid Samir Məmmədov məhkəmə zalına çağırıldı və aşağıda göstərilən kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Samir Məmmədov, yaşı – 44, sənəti – maşın ustası, yaşayış yeri – Bakı, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

2005-ci ilin noyabrında iddiaçı mənə 2.000 manat məbləğində borc pul verdi. Pulu 30.04.2006-cı ilə qədər ödəyəcəyim barədə razılaşdıq. Zənn edirdim ki, emalatxanam 2006-cı ilin yazında daha yaxşı işləyəcək və borcu qaytarmağa problemim olmayacaq. Lakin emalatxanam ümid etdiyim kimi yaxşı işləmədi. 2006-cı il aprel ayının axırında borcu qaytara bilmədim. İddiaçının müraciəti ilə məhkəmə mənə qarşı qərar çıxaranda qorxuya düşdüm. 2.000 manat məbləğində borcum olduğu artıq haradasa rəsmiləşmişdi. Evimdə hələ də üç qiymətli xalça var idi və onları avqust ayının ortalarında tanış və qohumlarıma satdım. Beləliklə, əldə etdiyim puldan iddiaçının borcunu qaytardım.

Məhkəmənin sualına:

Xalçaların satışını təsdiq edən qəbz və ya başqa sənədim yoxdur. Həm də hansı xalçanı kimə satmağım da artıq yadımda deyil.

Məhkəmənin sualına:

Mən iddiaçının yanına tək getməmişdim. Tanışım Leyla Kərimova da pulun verilməsində iştirak edib. O, orada təsadüfən iştirak etdi. İddiaçının yanına gedəndə avtobusda ona rast gəldim. O, iddiaçının həyat yoldaşının rəfiqəsidir. Mən

də onu tanıyırdım, çünki o, tez-tez mənim həyat yoldaşımla görüşür.

Təmir haqqında müqavilə barədə bunu deyə bilərəm: 2006-cı il yanvarın əvvəlində iddiaçı «ML-350» markalı maşınını emalatxanama gətirib dedi ki, maşında nasazlıq var. Birinci baxışdan sonra karbüratorun dəyişdirilməsinin və motorda bəzi təmir işlərinin aparılmasının lazım olduğunu müəyyən etdim. İddiaçıya 500 manat pul müqabilində bütün bu işləri görəcəyimi təklif etdim. İddiaçı razılaşdı. Maşının sağ qabaq qapısının rənglənməsi barədə söhbət olmayıb. Rəngləmək üçün zəruri avadanlığım yoxdur və heç vaxt emalatxanamda maşın rəngləməmişəm. Boyanın iyinə allergiyam olduğundan artıq 20 ildir ki, maşınların rənglənməsi ilə məşğul olmuram. Bütün razılaşdırılmış işləri 2006-cı il yanvarın axırına qədər yerinə yetirdim. 2006-cı il yanvarın axırında emalatxanama maşınını götürmək üçün gəlmiş iddiaçı pul kisəsini evdə yaddan çıxardığını aşkar etdi. Buna baxmayaraq, maşınını götürmək istədiyini bildirdi, çünki maşın ona həmin gün çox lazım idi. Bir gün sonra pulu gətirib ödəyəcəyinə söz verdi. İddiaçını çoxdan tanıdığımdan ona həmişə etibar edirdim. Bu səbəbdən, istisna kimi, təmir haqqını ödəmədən maşını götürməyə icazə verdim. Lakin iddiaçı nə bir gün sonra, nə də sonrakı günlərdə gəlib mənə pulu geri ödədi.

Məhkəmənin sualına:

İddiaçı emalatxanama gələndə mən tək deyildim. Köməkçim Şakir Ağalarov da emalatxanada idi. Həmişə çalışıram ki, o, emalatxanada görülən işlərin hamısında iştirak etsin ki, daha yaxşı öyrənsin.

Şahid Leyla Kərimova məhkəmə zalına çağırıldı və aşağıda göstərildiyi kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Leyla Kərimova, yaşı – 35, sənəti – evdar qadın, yaşayış yeri – Bakı, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

İş barədə çox danışa bilmərəm. 2006-cı il avqust ayının əvvəllərində Samir Məmmədova təsadüfən avtobusda rast gəldim. O, iddiaçının evinə getdiyini bildirdi. Onun yanına getmə səbəbini demədi. İddiaçının evinə gələndə mən dərhal iddiaçının həyat yoldaşı ilə bazara getdim. Samir Məmmədovun iddiaçıyla nə barədə danışdığı və iddiaçıya pulu verməsi haqqında heç nə bilmirəm. Bilmirdim ki, Samir Məmmədov iddiaçıya borcludur.

Şahid Şakir Ağalarov məhkəmə zalına çağırıldı və aşağıda göstərildiyi kimi dindirildi:

Şəxsiyyəti haqqında:

Şakir Ağalarov, yaşı – 24, sənəti – Samir Məmmədovun emalatxanasında köməkçi, yaşayış yeri – Bakı şəhəri, işin tərəfləri ilə qohumluq əlaqəsi yoxdur.

İşə aid:

2006-cı il yanvarın əvvəlində iddiaçı «ML-350» markalı maşınını Samir Məmmədovun emalatxanasına gətirdi. Jeep-də nasazlıq olduğunu bildirdi. Samir maşını baxışdan keçirdikdən sonra maşının karbüratorunun dəyişdirilməsi və motorda bəzi təmir işləri aparılmasının lazım olduğunu müəyyən etdi. İddiaçı və Samir Məmmədov karbüratorun dəyişdirilməsi və motorun təmiri üçün 500 manat həcmində təmir haqqını razılaşdırdılar. Razılaşdırılmış təmir haqqına sağ qabaq qapının rənglənməsinin də daxil olduğunu bilmirəm. Yüz faiz əmin-

liklə deyə bilərəm ki, bütün söhbət boyu orada idim. Şef həmişə istəyir ki, mən maşınların qəbul olunmasında iştirak edim və ondan öyrənim. İddiaçı emalatxanadan gedənədək mən orada idim. Sağ qapının rənglənməsi barədə heç bir söhbət olmamışdı. Biz emalatxanada rəngləmə işləri aparmırıq və bunun üçün zəruri avadanlığımız da yoxdur. Samir Məmmədov mənə nə vaxtsa demişdi ki, 20 il əvvəl onun avtomaşın lakına allergiyasının olduğu müəyyən olunmuşdu. Məhz buna görə o, avtomobildə rəngləmədən başqa bütün təmir işlərini görür.

Hakim Quliyev

Katib Əliyev

II. Hüquqi rəy

İddiaçı cavabdehdən zamin durduğu məbləğin ödənilməsini tələb edir.

İ. İddiaçının tələbi

İddiaçının cavabdehə qarşı iddia tələbinin hüquqi əsası MM-in 472.1-ci maddəsi ola bilər və buna əsasən zamin zaminlik müqaviləsinə görə kreditorun borcluya qarşı tələbini yerinə yetirməlidir.

İddia tələbinin əsaslı olması üçün iki şərt olmalıdır: (1) etibarlı zaminlik müqaviləsinin MM-in 471-ci maddəsinə əsasən yazılı şəkildə bağlanması; (2) zaminin zaminliklə təmin etdiyi öhdəliyin olması.

(1) Etibarlı zaminlik müqaviləsinin bağlanması

a) Tərəflərin bağladıqları müqaviləyə əsasən S.Məmmədov xəbərdarlığa baxmayaraq, pulu qaytarma öhdəliyini icra etməzsə, cavabdeh iddiaçı qarşısında 2.000 manatın ödənilməsinə görə məsuliyyət daşıyır. Beləliklə, onlar Mülki Məcəllənin 470.1-ci maddəsi anlamında zaminlik müqaviləsi bağlayıblar. «Zaminlik» sözündən müqavilədə istifadə olunması önəmli deyil, çünki tərəflərin iradəsi yazılı müqavilədən, şübhəsiz, irəli gəlir.

b) Zaminlik müqaviləsi MM-in 471-ci maddəsinə əsasən yazılı şəkildə bağlanıb.

(2) Borclunun öhdəliyinin olması

a) İddiaçının bildirdiklərinə əsasən borclunun borcu ödəmək öhdəliyi var və cavabdeh öhdəliyə görə zamin kimi məsuliyyət daşıyır. Deməli, iddia tələbi əsaslıdır, çünki işin mübahisələndirilməyən faktiki halları və iddiaçının mübahisələndirilən izahatlarına əsaslanır.

b) İddiaçının gümanları ilə müqayisədə cavabdehin işin faktiki halları barədə gümanları **əhəmiyyətlidirmi,** ya da iddia cavabdehin izahatları da nəzərə alınmaqla əsaslıdırmı?

Cavabdeh güman edir ki, borclu Samir Məmmədov iddiaçıya borcu 2006-cı ilin avqust ayında qaytarıb.

Cavabdeh öhdəliyin icra edilməsinə dair etiraz irəli sürə bilər. MM-in 474.1-ci maddəsinə əsasən, zamin kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazları irəli sürə bilər.

İddiaçının izahatları ilə müqayisədə bu mülahizə **əhəmiyyətlidir,** çünki bu halda cavabdehin iddia etdiyi icra z**aminliyin xitamına** gətirərdi. Çünki zaminliyə əsasən borclunun əsas borca görə davamlı asılılığı var və məhz buna görə kreditor zamindən əsas borcludan ala biləcəyi borcu ala bilər.

Cavabdeh iddiaçının faktlarla bağlı izahatlarını (borcun ödənilməsi barədə etibarlı tələbin olmasını) təkzib etdiyindən bununla bağlı sübutlar tədqiq edilməlidir.

a) Bundan sonra hakim sübut olunmalı sualla bağlı, yəni borclu Samir Məmmədovun 2.000 AZN borcu qaytarması ilə bağlı sübutetmə vəzifəsinin kimin üzərinə düşdüyünü aydınlaşdırır.

aa) MPM-in 77.1-ci maddəsi tərəflərin sübutetmə vəzifəsini təyin edir. MPM-in 77.1-ci maddəsinə əsasən, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. İddiaçı prinsipcə əsas öhdəliyin – borcun yaranmasını və icra müddətinin çatmasını sübut etməlidir; hər iki məqam mübahisəsizdir. Bunun əksinə olaraq, cavabdeh sübut etməlidir ki, borcdan irəli gələn tələbə borclunun icrası nəticəsində xitam verilib.

bb) İcra ilə bağlı etiraza cavabdeh hətta o zaman da istinad edə bilər ki, əsas borclu ondan istifadə etməsin. Bu, MM-in 474.1-ci maddəsinin 2-ci cümləsindən irəli gəlir.

cc) Cavabdeh borclunun iddiaçının tələbini ödəməsi barədə ifadəsini sübut etmək üçün borclunun özünün (1) və şahid qismində Leyla Kərimovanın (2) dindirilməsini təklif edib. Onlar dindiriliblər.

Sübutların qiymətləndirilməsi

(1) Şahid Samir Məmmədov bildirdi ki, o, borclu kimi borc götürdüyü 2.000 manat pulu iddiaçıya qaytarıb. O, evindəki bir neçə xalçanı satmaqla 2.000 manat həcmində pulu əldə edib.

Şahid Samir Məmmədovun izahatı inandırıcı deyil, çünki o, xalçaları satdığı halları dəqiq xatırlaya bilmir, xüsusilə də xalçaları kimə satdığını bilmir. Xalçaların satışını təsdiqləyən sənədlərin olmaması ən azı 2.000 manat satış məbləği nəzərə alınarsa, bir qədər qeyri-adi haldır. Eyni zamanda, geri ödəmə ilə bağlı onun hər hansı qəbzi də yoxdur.

Bundan əlavə, avqustun əvvəllərində, məhkəmə qətnaməsinin icrası zamanı borcluya məxsus üzərinə həbs qoyula biləcək əmlak yox idi. Bu faktla şahidin 2006-cı il avqustun ortasında evində üç qiymətli xalçanın olması barədə verdiyi ifadə uzlaşmır. Bundan başqa, belə olsaydı, işgüzar adam olan şahid ödəmə zamanı borclu olduğu məbləğdən qarşılıqlı tələb üzrə ona çatası pulu ödədiyi məbləğdən çıxardı.

Nəhayət, nəzərə almaq lazımdır ki, borclu kimi şahidin mübahisənin həllində ən azı dolayı marağı var, çünki MM-in 475.1-ci maddəsinə əsasən, cavabdeh ona qarşı reqres tələb irəli sürə bilər.

(2) Şahid Leyla Kərimova iddiaçının evində olduğunu, lakin iddiaçının həyat yoldaşı ilə birgə bazara getmək üçün oranı dərhal tərk etdiyini bildirib. Bununla o, cavabdehin mülahizəsini təsdiqləməyib.

(3) Beləliklə, cavabdehə borcun geri qaytarılmasını sübut etmək müyəssər olmadı. Qiymətləndirmədən sonra şahid Samir Məmmədovun ifadəsinin inandırıcılığı ilə bağlı şübhələr sübutetmə vəzifəsini daşıyan cavabdehin zərərinə həll olunmalıdır.

Beləliklə, borcun ödənilməsi barədə tələbə borclunun öhdəliyi icra etməsi nəticəsində xitam verilməyib.

(3) Cavabdehin məsuliyyəti

Borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə, MM-in 472.1-ci maddəsinə əsasən, onunla yanaşı zamin də birgə məsuliyyət daşıyır. Bu, o deməkdir ki, kreditor öz seçiminə əsasən əsas borcluya və ya zaminə qarşı tələb irəli sürə bilər (MM-in 501-ci maddəsi). Zaminlik müqaviləsində subsidiar məsuliyyət nəzərdə tutulduqda, vəziyyət başqa cür olur. Bu halda kreditor tələbini əvvəl əsas borcluya qarşı irəli sürməlidir (MM-in 453.1-ci maddəsi). Əsas borclu kreditorun tələbini ödəməkdən imtina edərsə və ya kreditor irəli sürdüyü tələb üçün ondan ağlabatan müddətdə cavab ala bilməzsə, kreditor zaminə qarşı tələb irəli sürə bilər (MM-in 453.2-ci maddəsi).

Bu iş üzrə tərəflər cavabdehin subsidiar məsuliyyəti barədə razılıq əldə ediblər, çünki o, əsas öhdəliyin icrasına görə yalnız əsas borcluya qarşı tələbin irəli sürülməsi nəticəsiz qaldığı halda məsuliyyət daşımaq istəyirdi. Bu şərtlərə də əməl olunub, çünki S.Məmmədova qarşı çıxarılan qətnamənin icrası uğursuz alınıb.

II. Borclunun iddiaçıya qarşı qarşılıqlı tələbinin əvəzlənməsinə görə cavabdehin (zaminin) zaminliklə təmin olunan öhdəliyi icra etməsindən imtinası

Cavabdeh bildirir ki, borclu S.Məmmədovun iddiaçıya qarşı 500 manat həcmində tələbi var və o, həmin tələblə əvəzləşdirmə apara bilər. Bu həcmdə o, ödəmədən imtina edir.

1. Öhdəliyin icrasından imtina etmə hüququnun mümkünlüyü

MM-in 474.1-ci maddəsinə əsasən, cavabdeh zamin kimi iddiaçının tələbinə qarşı borclunun irəli sürə biləcəyi tələb və etirazları irəli sürə bilər. Buna əsas tələbin borclunun qarşılıqlı tələbi ilə əvəzləşdirilməsinə dair etiraz da aiddir. Lakin MM-in 453.3-cü maddəsindən belə çıxır ki, bu, yalnız zaminin subsidiar məsuliyət daşıması hallarına şamil edilir. Bu iş üzrə də vəziyyət belədir (bax: yuxarıda).

İddiaçının borcluya qarşı irəli sürdüyü iddia üzrə məhkəmə işində borclunun qarşılıqlı tələblərin əvəzləşdirilməsinə istinad etməməsi önəmli deyil. MM-in 474.1-ci maddəsinə əsasən (2-ci cümlə), zamin kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazları irəli sürmək hüququnu hətta borclunun onlardan imtina etdiyi halda da itirmir. Qanun kreditorun tələbinə qarşı borclunun irəli sürə biləcəyi etirazlardan qəti şəkildə imtina etdiyi halda belə zaminin bu etirazları irəli sürmək hüququnu tanıyırsa, onda borclu bu etirazları irəli sürmədikdə də bu hüquq, şübhəsiz, qüvvədə olmalıdır.

2. Borclu Məmmədovun qarşılıqlı tələbinin olması

Borclunun iddiaçıya qarşı sürə biləcəyi tələbinin hüquqi əsası əksini MM-in 752.1, 769-cu maddələrində tapır və buna əsasən sifarişçi podratçıya razılaşdırılmış muzd ödəməyi öhdəsinə götürür.

a) MM-in 752-ci maddəsinə əsasən, iddiaçı və borclu arasında etibarlı podrat müqaviləsi bağlanıb. Çünki müqavilə tərəfləri iddiaçının maşınında borclunun muzd müqabilində bəzi təmir işləri aparacağını razılaşdırıb.

b) Borclu 500 manat müqabilində razılaşdırımış bütün işləri yerinə yetirməli idi. Cavabdehin izahatına görə, iddiaçı və borclu razılaşıblar ki, borclu 500 manat müqabilində karbüratoru dəyişdirir və motorda bəzi təmir işləri aparır. Bu işləri borclu mübahisəsiz yerinə yetirib.

c) İddiaçı cavabdehin gümanına əsasən 2006-cı ilin yanvar ayının axırında təmir olunmuş maşını təmirin həcmi ilə bağlı etirazlarını bildirmədən götürüb. Bununla o, MM-in 770-ci maddəsinə əsasən yerinə yetirilmiş işi qəbul edib. Beləliklə, muzdun ödənilməsinə dair tələb icra edilə bilən tələb olardı.

İşin mübahisələndirilməyən faktiki halları və cavabdehin mübahisələndirilən izahatlarına uyğun olaraq borclunun iddiaçıya qarşı icra edilə bilən muzdu ödəmək tələbi mövcud olardı.

İddiaçı isə əksinə, razılaşdırılmış işlərin tam yerinə yetirilmədiyini güman edir. Onun bildirdiyinə görə, 500 manat müqabilində kabürator dəyişdirilməsi, motorda bəzi təmir işlərinin aparılması və qabaq qapının rənglənməsi barədə razılaşma var idi. Bu izahat cavabdehin izahatı ilə müqayisədə **əhəmiyyətlidir,** çünki bu halda iş başa çatdırılmamış olardı və maşının götürülməsi işin qəbul edilməsi kimi dəyərləndirilə bilməzdi. Beləliklə, cavabdehin irəli sürdüyü tələb **icra edilə bilən** olmazdı; tərəflər arasında borcun qismən ödənilməsi barədə razılaşmanın olmaması da nəzərə alınmalıdır.

İddiaçı cavabdehin bu məsələ ilə əlaqədar izahatlarını mübahisələndirdiyinə görə, bununla bağlı sübutlar araşdırılmalıdır.

(aa) Qanuna əsasən cavabdeh tələbini əsaslandıran bütün faktları təqdim və sübut etməlidir. Podratçının razılaşdırılmış işləri yerinə yetirməsi faktı MM-in 752, 769-cu maddələrin-

dən irəli gələn tələbin qanuni şərtlərindən biridir. Buna görə də bu şərtin sübutu məhz cavabdehin vəzifəsidir.

Cavabdeh karbüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin aparılması üçün 500 manat məbləğində muzdun razılaşdırıldığına dair izahatını sübut etmək üçün şahid qismində Samir Məmmədovun (1) və Şakir Ağalarovun (2) dindirilməsini təklif edib. Onlar dindiriliblər.

Sübutların qiymətləndirilməsi

(1) Şahid **Samir Məmmədov** bildirib ki, razılaşdırılmış 500 manat məbləğində muzda karbüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin aparılması daxildir. O, hadisəni əyani və ziddiyyətsiz təsvir etdi. Boyaya qarşı allergiyası haqqında bildirdikləri də əsaslı görünür. Şahidin podratçı kimi məhkəmə işinin həllində böyük marağı ola bilər. Başqa yandan, onun boyaya qarşı allergiyasının olduğu barədə bildirdikləri əslində rənglənmə işlərinin razılaşdırılmadığını təsdiqləyir.

(2) Şahid **Şakir Ağalarov** bildirdi ki, borclu və iddiaçı 500 manat müqabilində karbüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin aparılması barədə razılıq əldə etmişlər. Şahid bütün danışıqda arası kəsilmədən iştirak edib və bunun üçün məntiqi səbəb də göstərib. O, hadisəni ziddiyyətsiz təsvir etdi. Şahid Samir Məmmədovun boyaya qarşı allergiyası və rəngləmə üçün avadanlığın olmadığı barədə dediklərini təsdiqlədi.

(3) Şahidlərin ifadələrini qiymətləndirdikdən sonra hakim belə nəticəyə gələcək ki, iddiaçı və borclunun razılaşmasının yalnız karbüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin aparılmasını əhatə etməsi barədə cavabdehin irəli sürdüyü gümanı sübut olundu.

bb) Borclu razılaşdırılmış işləri yerinə yetirdiyinə görə onun iddia tələbi icra edilə biləndir.

1. Borclunun 500 manat məbləğində qarşılıqlı tələbi olduğundan cavabdeh bu məbləğin əsas tələblə əvəzləşdirilməsini tələb edə bilər və bunun nəticəsində onun MM-in 474.1-ci maddəsinə əsasən, 500 manat həcmində öhdəliyin icra edilməsindən imtina etmək hüququ var. Bu, həmin həcmdə iddianın rədd edilməsinə gətirib çıxarır (qarşılıqlı icra qismində qətnamə çıxarılması da mümkündür).

III. Nəticə

Cavabdehə qarşı iddia yalnız 1.500 manat həcmində əsaslıdır. Qalan hissədə o, rədd edilməlidir.

III. Qətnamə layihəsi

Təsviri hissə

İddiaçı 30.11.2005-ci ildə Samir Məmmədova 2.000 manat məbləğində borc verib. Samir Məmmədov 30.04.2006-cı ilə qədər borcu iddiaçıya qaytarmağı üzərinə götürüb. İddiaçı və pulun verilməsində iştirak edən cavabdeh yazılı şəkildə aşağıdakı razılığa gəliblər: «Samir Məmmədov Məmməd Əliyevdən 2.000 manat borc götürüb və borcunu 30.04.2006-cı ilə qədər qaytarmalıdır. Samir Məmmədov xəbərdarlıq edilməsinə baxmayaraq, öhdəliyini icra etməzsə, mən Anar Həsənov bu məbləğə görə şəxsən cavabdehəm». Samir Məmmədov maliyyə çətinlikləri ilə bağlı borc götürdüyü pulu iddiaçıya 30.04.2006-cı ilə qədər qaytara bilməyib.

Samir Məmmədov 05.05.2006-cı ilə qədər pulu ödəmədikdə, iddiaçı 20.06.2006-cı ildə məhkəmə qaydasında Samir Məmmədova qarşı 2.000 manat həcmində məbləğin qaytarılması barədə qətnamənin qəbul olunmasına nail olub. Bu qətnamənin icrası nəticəsiz qalıb. Samir Məmmədovun borc götürdüyü

2.000 manat məbləğində pulun ödənilməsini iddiaçının bir neçə dəfə cavabdehdən tələb etməsinə baxmayaraq, cavabdeh pulu ödəməyib.

İddiaçı cavabdehin ona 2.000 manat ödəməsi barədə qətnamə çıxarılmasını xahiş edib.

Cavabdeh iddia ərizəsinin rədd olunması barədə qətnamə çıxarılmasını xahiş edib.

Cavabdeh güman edir ki, borclu Samir Məmmədov məhkəmə qərarı çıxarıldıqdan sonra 2.000 manat məbləğində borcu iddiaçıya qaytarıb.

Bundan əlavə, cavabdeh borclunun iddiaçıya qarşı irəli sürə biləcəyi qarşılıqlı tələbə istinad edir və həmin qarşılıqlı tələbi borclu borc götürdüyu pulun qaytarılması tələbi ilə əvəzləşdirə bilər. Bu tələbin əsasını işin mübahisələndirilməyən aşağıdakı faktları təşkil edir: iddiaçı 2006-cı il yanvar ayının əvvəlində «ML-350» markalı avtomobilini təmir üçün Samir Məmmədovun emalatxanasına gətirib. 500 manat məbləğində muzd razılaşdırılıb. Yanvarın axırında iddiaçı muzdu ödəmədən avtomobili götürüb. Cavabdeh iddia edir ki, yalnız kabüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin görülməsi razılaşdırılıb. Sadalanan işlər mübahisəsiz yerinə yetirilib.

Bu məsələ ilə bağlı iddiaçı güman edib ki, razılaşdırılmış 500 manat muzda sağ qabaq qapının rənglənməsi də daxil idi və bu işi Samir Məmmədov hələ də yerinə yetirməyib.

Bundan əlavə, iddiaçı Samir Məmmədovdan borc pulu geri almadığını bildirir. Onun zənnincə, öhdəliyin icra edilməsinə dair etirazı irəli sürmək hüququ cavabdehə yox, yalnız Samir Məmmədova aiddir.

Samir Məmmədovun 2.000 manat həcmində pulu iddiaçıya qaytarmasını aydınlaşdırmaq üçün məhkəmə cavabdehin təklif etdiyi şahidləri – Samir Məmmədovu və Leyla Kərimovanı dindirib. Daha sonra, 500 manat həcmində muzdun müqabi-

lində hansı işlərin razılaşdırıldığını (yəni yalnız karbüratorun dəyişdirilməsi və motorda bəzi təmir işlərinin aparılması və ya sağ qabaq qapının rənglənməsini də) müəyyən etmək üçün məhkəmə cavabdehin təklif etdiyi şahidləri – Samir Məmmədovu və Şakir Ağalarovu dindirib.

Əsaslandırıcı hissə

Mümkün ola bilən iddia qismən əsaslıdır.

İddiaçının cavabdehə qarşı MM-in 472.1-ci maddəsinə əsasən 1.500 manat məbləğində pulun ödənilməsinə dair tələbi var.

1. Tərəflər 30.11.2005-ci ildə yazılı şəkildə etibarlı zaminlik müqaviləsi bağlayıblar. Müqaviləyə əsasən Samir Məmmədovun borcu qaytarmasına görə cavabdeh iddiaçı qarşısında subsidiar məsuliyyət daşıyır. Zaminlik onun əsasını təşkil edən borcun qaytarılması ilə xətm olunmayıb. Şahid Samir Məmmədovun və Leyla Kərimovanın ifadələri cavabdehin gümanlarını təsdiqləməyib.

Samir Məmmədov 2.000 manatı qaytardığını bildirib, çünki o, bu məqsədlə evindən bir neçə xalçanı satıb. Lakin məhkəmə onun ifadələrinin nə dərəcədə inandırıcı olduğuna əmin deyil. Birinci, qeyri-adi haldır ki, şahidin xalçaları satmasını təsdiqləyən heç bir sənədi yoxdur. Xalçanın yüksək dəyərini nəzərə alaraq onların satışının sənədləşdirilməli olduğunu güman etmək olar. Bundan əlavə, əmlakı olmayan şahidin avqust ayının əvvəlində məhkəmə qətnaməsinin baş tutmayan icrasından az vaxt sonra birdən-birə dəyərli xalçaların mülkiyyətçisinə çevrilməsi şübhəlidir. Xalçaların satışından sonra keçən qısa müddətdə alıcıları yada sala bilməmək yalnız pis hafizənin olması ilə əsaslandırıla bilməz. Borc qaytarılarkən iddiaçının borclu olduğu 500 manatın borc məbləğindən çıxılması və qaytarmanın qəbzlə təsdiqlənməsi daha məntiqli olardı. Nəhayət, onun ifadələrinin dəyərləndirilmə-

si zamanı nəzərdən qaçırmaq olmaz ki, məhkəmə mübahisəsinin bitməsində şahidin şəxsi marağı var, çünki cavabdeh məhkəmə işində məğlub olduğu halda MM-in 475.1-ci maddəsinə əsasən borcluya qarşı reqres tələb irəli sürə bilər.

Şahid Leyla Kərimova da təsdiq edə bilmədi ki, borc qaytarılıb, çünki o, sübut üçün əhəmiyyətli olan vaxtda orada iştirak etməyib.

2. Lakin cavabdeh zaminliklə təmin olunmuş öhdəliyin 500 manat məbləğində icra edilməsinə dair etiraz edə bilər. Prinsipcə, MM-in 474.1-ci maddəsinə əsasən zamin kreditora münasibətdə tələbə qarşı borcluya aid etirazları irəli sürə bilər. Zamin borc pulun geri qaytarılmasına görə subsidiar məsuliyyət daşıdığından, MM-in 453.3-cü maddəsinə əsasən borclu Samir Məmmədovun iddiaçıya qarşı 500 manat həcmində qarşılıqlı tələbinin olmasına və borclunun bu tələblə borcun qaytarılması tələbinin əvəzləşdirməsinə istinad edə bilər.

Bununla bağlı iddiaçının borcluya qarşı qaldırdığı məhkəmə işində borclunun qarşılıqlı tələbin əvəzləşdirilməsi barədə tələbi irəli sürməməsi önəmli deyil. MM-in 474.1-ci maddəsinin 2-ci cümləsinə əsasən, zamin bu cür etirazlar irəli sürmək hüququnu hətta borclunun onlardan imtina etdiyi halda da itirmir. Qanun belə etirazları irəli sürməyə borclunun onlardan imtina etdiyi halda da icazə verirsə, onda, şübhəsiz ki, bu hüquq borclu ondan istifadə etmədikdə də etibarlıdır.

Borclu Samir Məmmədovun qarşılıqı tələbi MM-in 752.1, 769-cu maddələrindən irəli gəlir. Onunla iddiaçı arasında MM-in 752-ci maddəsi anlamında etibarlı podrat müqaviləsi var idi. Tərəflər Samir Məmmədovun 500 manat müqabilində iddiaçıya məxsus avtomobili təmir etməsini razılaşdırmışdılar. Karbüratorun dəyişdirilməsi və motorda bir sıra təmir işlərinin aparılması razılaşdırılmışdı. Bu işlər tam olaraq yerinə yetirilib. Şahidlər Samir Məmmədov və Şakir Ağalarovun dindirilməsi nəticəsində əldə olunmuş inandırıcı sübutların qiymətləndirilməsindən sonra məhkəmə bu nəticəyə gəlib.

Hər iki şahid təsdiq etdi ki, podrat müqaviləsi yalnız karbüratorun dəyişdirilməsini və motorda bəzi təmir işlərini nəzərdə tuturdu. İddiaçının güman etdiyi kimi, əlavə olaraq sağ qapının rənglənməsi barədə söhbət olmayıb. Şahid Məmmədov bunu əyani və ziddiyyətsiz təsvir etdi və əsas kimi allergiyasının olmasına istinad etdi. Beləliklə, şahid yaxşı dərk edilən səbəb göstərməklə iddiaçı ilə rəngləmə işlərinin razılaşdırılmadığını təsdiq edən sübut irəli sürdü. Onun ifadəsi şahid Şakir Ağalarovun dəqiq məlumatları ilə üst-üstə düşür, çünki Şakir Ağalarov da qapının rənglənməsinin razılaşdırılmadığını təsdiq etdi. Şahid bütün söhbət zamanı orada olub və şəxsən eşitdiklərinə istinadən ifadələrini bildirdi. O da şahid Samir Məmmədovun boyaya qarşı allergiyasının olduğunu təsdiq etdi.

İddiaçı maşını 2006-cı ilin yanvar ayının sonlarında qəbul etdiyindən (MM-in 770-ci maddəsi) podrat müqaviləsindən irəli gələn tələb icra edilə biləndir və borcun ödənilməsi ilə bağlı tələblə əvəzləşdirilə bilər.

Yuxarıda göstərilənlərə əsasən cavabdeh öhdəliyin 500 AZN həcmində icra edilməsinə etiraz edə bilər.

3. Məhkəmə xərclərinin tərəflər arasında bölüşdürülməsinə dair qərar MPM-in 119.1-ci maddəsinə istinad edir. Məhkəmə xərcləri tərəflərin ödənilmiş tələblərinə mütənasib olaraq onlar arasında bölüşdürülür.

Nəticə hissəsi

1. Cavabdehin iddiaçıya 1.500 manat həcmində pul ödəməsi qət edilsin. Qalan hissədə iddia rədd edilsin.

2. İddiaçı məhkəmə xərclərinin ¼ hissəsini, cavabdeh isə ¾ hissəsini ödəyir.

3. Məhkəmə qətnaməsindən 1 ay müddətində X rayon məhkəməsi vasitəsilə apelyasiya məhkəməsinə apelyasiya şikayəti vermək olar.

5-ci kazus: Mübahisəli ipoteka

(İpoteka ilə yüklü edilmə, təmsilçilik, daşınmaz əmlakın dövlət reyestrinin düzgünlük və tamlıq prezumpsiyası, sübutetmə vəzifəsi, sübutların qiymətləndirilməsi)

I. İşin halları

X rayon məhkəməsinə

İddiaçı: «Azəribank» Səhmdar Cəmiyyəti
(qanuni nümayəndə – idarə heyətinin sədri Fikrət Qasımov)
Ünvan: Teymur Elçin küçəsi, 7/24, 1003 Bakı
Etibarnamə üzrə nümayəndə və vəkil:
R.Əhmədov

Cavabdeh: Erkin Hüseynli
Ünvan: Nərimanov küçəsi, 10, 1005 Bakı

İddia ərizəsi

İddiaçının adından və onun verdiyi etibarnamə əsasında reyestrdə 864993/05 AZ nömrəsi ilə qeydə alınmış ipoteka müqaviləsi əsasında cavabdehin Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən və reyestr nömrəsi 365490/02 AZ olan torpaq sahəsinin məcburi qaydada açıq hərracda satılması barədə qətnamə çıxarılmasını xahiş edirəm.

Əsaslandırma:

İddiaçı cavabdehin Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən və borc götürmək üçün yüklü edilmiş torpaq sahəsi üzərində ipotekasının sahibidir. Bu ipoteka reyestr kitabında 864993/05 AZ nömrəsi ilə qeydə alınıb. İddia ərizə-

si ilə iddiaçı cavabdehə qarşı həmin ipotekadan irəli gələn tələbini irəli sürür. Bunun səbəbləri aşağıdakılardır:

05.12.2005-ci ildə iddiaçı və cavabdeh notariat qaydasında təsdiq olunmuş ipoteka müqaviləsi bağlayıblar. Müqaviləyə əsasən, cavabdeh torpaq sahəsini iddiaçının xeyrinə ipoteka ilə yüklü etmiş və bu ipoteka iddiaçıdan götürülmüş 10.000 AZN (o vaxtlar 50 milyon AZM) məbləğində kreditin təminatına xidmət etmişdir. Cavabdehi həmin vaxt qardaşı Anar Hüseynli təmsil etmişdir. Anar Hüseynli müqavilənin bağlanması zamanı 01.12.2005-ci ildə verilmiş və notariat qaydasında təsdiq olunmuş etibarnamə təqdim etmişdir. Bu etibarnaməyə uyğun olaraq, cavabdeh qardaşı Anar Hüseynliyə Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən daşınmaz əmlakla bağlı bütün hüquqi hərəkətləri etməyi etibar etmişdir. 21.12.2005-ci ildə reyestrdə qeydə alınma ilə ipoteka etibarlı şəkildə meydana gəlmişdir.

Sübutlar: 05.12.2005-ci ildə bağlanmış və notariat qaydasında təsdiqlənmiş ipoteka müqaviləsi;

01.12.2005-ci ildə verilmiş və notariat qaydasında təsdiq olunmuş etibarnamə;

Reyestrdən çıxarış;

05.12.2005-ci il tarixli kredit müqaviləsi.

İpoteka 05.12.2005-ci ildə Anar Hüseynlinin adından iddiaçıdan götürdüyü 10.000 AZN məbləğində kreditin təmin edilməsinə xidmət edirdi. Kredit məbləği Anar Hüseynliyə tam ödənilib. Lakin bu vaxta qədər o, kreditin razılaşdırılmış qaydada geri qaytarılması üçün heç bir ödəmə etməyib və ona edilən çoxsaylı xəbərdarlıqlara məhəl qoymayıb. Anar Hüseynlinin ünvanının yoxlanması zamanı müəyyən edildi ki, o, artıq həmin ünvanda qeydiyyatda deyil və harada olması

da bəlli deyil. Ona görə də iddiaçı kredit müqaviləsinə müddətə uyğun olaraq xitam verib və ipoteka ilə bağlı tələbini cavabdehə qarşı irəli sürüb. Lakin cavabdeh də heç nə ödəmədiyi üçün iddiaçı iddia ərizəsi ilə məhkəməyə müraciət etməyi qərara alıb.

R.Əhmədov, vəkil

12.02.2007-ci il

X rayon məhkəməsinə

Cavabdeh: Erkin Hüseynli
Ünvan: Nərimanov küçəsi, 10, 1005 Bakı

İddiaçı: «Azəribank» Səhmdar Cəmiyyəti
Ünvan: Teymur Elçin küçəsi, 7/24, 1003 Bakı

İddia ərizəsinə etiraz

(«Azəribank» SC-nin Hüseynliyə qarşı işi ilə bağlı)

İddianın rədd edilməsi və qarşılıqlı iddia qaydasında Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən, 365490/02 AZ nömrəsi ilə qeydiyyata alınan torpaq sahəsi üzərində cavabdehin reyestrdə 864993/05 AZ nömrəsi ilə qeydə alınmış 10.000 AZN məbləğində ipotekasının ləğv edilməsinə razılıq verməsi barədə qətnamə çıxarılmasını xahiş edirəm.

Əsaslandırma:

Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən torpaq sahəsinin mülkiyyətçisi olmağım düzdür. Lakin reyestrdə mənə məxsus olan bu torpaq sahəsinin ipotekə qoyulması ilə bağlı qeydin olması bu yaxınlarda mənə məlum

olub. Azərbaycanda yaşamıram və 01.03.2005-ci il tarixdən Moskvada yerləşən «Gusanov Steel» müəssisəsində çalışıram. Buna görə də etibarnamənin rəsmiləşdirilməsi zamanı Bakıda olmamışam.

Sübut: İşəgötürən Xalid Qusanovun ifadəsi;

«Gusanov Steel»lə bağlanmış əmək müqaviləsi.

Qardaşım Anarla artıq bir neçə ildir ki, heç bir əlaqəm yoxdur və onun indi harada olması da mənə məlum deyil. Bundan əlavə, ona mülkiyyətçisi olduğum torpaq sahəsi ilə bağlı işlərdə məni təmsil etmək üçün heç bir etibarnamə verməmişəm. Yəqin ki, o, mənim imzamı saxtalaşdırıb. Notarius mənim orada olmadığımı təsdiq edəcək.

Sübutlar: Notarius Məmməd Bağırovun ifadəsi;

Xətlə bağlı ekspert rəyinin alınması barədə vəsatət.

Beləliklə, mülkiyyətçisi olduğum torpaq sahəsinin ipoteka ilə yüklü edilməsi etibarsızdır. Bununla bağlı reyestrdə aparılan qeyd düzgün deyil və həmin qeyd ləğv edilməlidir.

Erkin Hüseynli

25.02.2007-ci il

X rayon məhkəməsinə

İddiaçı: «Azəribank» Səhmdar Cəmiyyəti
Ünvan: Teymur Elçin küçəsi, 7/24, 1003 Bakı

Cavabdeh: Erkin Hüseynli
Ünvan: Bakı – 1005, Nərimanov küçəsi, 10

Etirazla bağlı izahat

(«Azəribank» SC-nin Hüseynliyə qarşı işi ilə bağlı)

Etirazla bağlı aşağıdakı rəyi bildiririk:

Etibarnamənin düzgün olması ilə bağlı heç bir şübhə olmayıb və belə bir şübhə indi də yoxdur. Özü də bu etibarnamə notariat qaydasında təsdiq olunub. Etibarnaməni cavabdeh şəxsən verib.

Sübut: Notarius Məmməd Bağırovun ifadəsi.

Bundan başqa, ipoteka reyestrdə qeydə alınıb. Reyestrdə aparılmış qeydlər düzgün qəbul edilməlidir və sonradan ona dəyişiklik edilə bilməz. Ona görə də cavabdeh bu vaxta qədər barəsində etirazını bildirmədiyi qeydin ona şamil olunmasını qəbul etməlidir.

Bununla bağlı qarşılıqlı iddianın rədd olunmasını xahiş edirəm.

Vəkil R.Əhmədov

03.03.2007-ci il

İşdən çıxarış

İddiaçının bildirdikləri	Cavabdehin bildirdikləri
I. Tələblər	
Cavabdehə məxsus olan torpaq sahəsinin məcburi qaydada açıq hərracda satılması.	İddianın rədd edilməsi.
Qarşılıqlı iddianın rədd edilməsi.	*Qarşılıqlı iddia:* daşınmaz əmlakın dövlət reyestrinə düzəliş edilməsi.
II. İşin faktiki halları	
05.12.2005: 10.000 AZN kreditin təminatı kimi qardaşı Anar Hüseynli ilə təmsil olunmuş cavabdehlə notariat qaydada ipoteka müqaviləsi.	Anar Hüseynlinin torpaqla bağlı müqavilələr üzrə təmsilçilik səlahiyyəti yox idi – ipoteka müqaviləsi etibarlı deyil.
Cavabdehin imzaladığı və notariat qaydasında təsdiqlənmiş 01.12.2005-ci il tarixli etibarnamə *(Sübut: notarial qaydada təsdiq edilmiş etibarnamə, notarius Bağırovun ifadəsi)*	Anar Hüseynli saxtalaşdırıb, cavabdeh Bakıda olmayıb, daim Moskvada qalır *(Sübut: Xalid Qusanov, notarius Bağırovun ifadələri, ekspertiza rəyi).*
21.12.2005-ci ildə ipotekanın daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması *(hüquqi mövqe: həmin qeydin cavabdehə də şamil olunmasını cavabdeh qəbul etməlidir)*	+
İpoteka Anara verilmiş 10.000 AZN kreditin təminatı kimi çıxış edir.	+
Xəbərdarlıqlara və müddətin çatmasına baxmayaraq, Anarın kredit üzrə ödəmələrdən yayınması.	+
Kredit müqaviləsinə xitam verilməsi.	+

Rayon məhkəməsinin açıq məhkəmə iclasının protokolu

Bakı 20.03.2007-ci il

Hakim Məmmədovun sədrliyi ilə

«Azəribank» Səhmdar Cəmiyyətinin Erkin Hüseynliyə qarşı iddiası üzrə işə baxıldı.

Məhkəməyə çağırılmış iddiaçının nümayəndəsi (vəkili) və cavabdeh iştiraklarını təsdiqlədilər.

Şahid qismində çağırılmış Məmməd Bağırov və Xalid Qusanov şahid qismində daşıdıqları vəzifələr barədə məlumatlandırıldıqdan sonra iclas zalını tərk etdilər.

İddiaçi 12.02.2007-ci il tarixli iddia ərizəsindəki tələbləri irəli sürür.

Cavabdeh 25.02.2007-ci il tarixli etirazındakı tələbləri irəli sürür.

İşin faktiki və hüquqi vəziyyəti tərəflərlə ətraflı araşdırıldı.

Məhkəmə 01.12.2005-ci il tarixli etibarnamədə Erkin Hüseynlinin imzasının həqiqi olması ilə bağlı ekspert Fariz Ruslanovun hazırladığı və tərəflərə təqdim edilmiş qrafoloji ekspertiza rəyini onlarla müzakirə etdi (cavabdehin ekspertiza aparmaq üçün ekspertə təqdim etdiyi, əvvəllər imzaladığı başqa 3 sənəddəki imzalarla diqqətlə müqayisə aparıldıqdan sonra yazılı rəyin nəticəsi aşağıdakı kimi müəyyən edilib:

«01.12.2005-ci il tarixli etibarnamədəki imzanın böyük ehtimalla Erkin Hüseynliyə aid olmadığı müəyyən edildi. Lakin imzanın ona məxsus ola bilməsini də tam şəkildə istisna etmək olmaz»).

Məhkəmənin verdiyi suala cavab olaraq tərəflər bildirdilər ki, onların ekspertə əlavə sualı yoxdur və onun şifahi məhkəmə baxışına çağırılmasına ehtiyac yoxdur.

Bundan sonra məhkəmə aşağıdakı qərardadı qəbul etdi:

«Cavabdehin 01.12.2005-ci il tarixli etibarnamədəki imzanın ona məxsus olmaması gümanı ilə bağlı sübutlar araşdırılmalıdır. Bununla bağlı şahid qismində çağırılmış Məmməd Bağırov və Xalid Qusanov dindirilməlidir».

Şahid Məmməd Bağırov aşağıdakı kimi dindirildi:

Şəxsiyyəti barədə: Adım Məmməd Bağırovdur. Bakı şəhərində yaşayıram, 57 yaşım var. Notarius işləyirəm, tərəflərin heç biri ilə qohumluq əlaqəm yoxdur.

Məhkəmədə yalnız həqiqəti deməli olduğum barədə mənə xəbərdarlıq edildi.

İşlə bağlı bunları deyə bilərəm:

01.12.2005-ci ildə iş yerimə özünü Erkin Hüseynli kimi təqdim etmiş bir şəxs gələrək daşınmaz əmlakla bağlı etibarnaməni təsdiq etməyi xahiş etdi. Etibarnaməni təsdiq etdim. Burada söhbət məhkəmədə mənə təqdim edilmiş etibarnamədən gedir. Başqa heç nə deyə bilmərəm.

Məhkəmənin verdiyi suala cavab olaraq:

Etibarnamənin təsdiq olunması tarixindən bir qədər vaxt keçdiyinə görə, təəssüf ki, təfsilatları xatırlaya bilmirəm. Xüsusilə etibarnaməni verən şəxsin xarici görünüşünü dəqiq yadıma sala bilmirəm. Bu, cavabdeh də ola bilər. Lakin fikrimə tam əmin deyiləm.

Məhkəmənin növbəti sualına cavab olaraq:

Əslində həmişə şəxsiyyət vəsiqəsinin təqdim olunmasını tələb edirəm və etibarnaməni verən şəxs barədə məlumatları yoxlayıram ki, hər şey düzgün olsun. Yəqin ki, bu işdə də belə olub. Lakin dediyim kimi, təfərrüatlar dəqiq yadımda deyil.

Bu hadisə bir ildən çox müddət əvvəl baş verib və mən hər gün onlarla belə sənəd təsdiq edirəm. Təəssüf ki, notariat kontorunda yarım il əvvəl baş verən yanğın nəticəsində təsdiqləmələrin qeydiyyatı aparılan kitab və bununla bağlı sənədlər məhv olub, buna görə də etibarnamə verən şəxsin şəxsiyyəti barədə sənədlər bizdə yoxdur.

Cavabdeh: Qardaşım mənə çox oxşayır.

İddiaçının vəkili: Mən qətiyyən bu fikirdə deyiləm.

Şahid Xalid Qusanov aşağıdakı şəkildə dindirildi:

Şəxsiyyəti barədə: Mənim adım Xalid Qusanovdur. Bakı şəhərində yaşayıram, 45 yaşım var. «Gusanov Steel» müəssisəsinin icraçı direktoruyam və tərəflərin heç biri ilə qohumluq əlaqəm yoxdur.

Yalnız həqiqəti demək vəzifəsi daşımağım barədə mənə xəbərdarlıq edildi.

İşlə bağlı bunları deyə bilərəm:

Cənab Erkin Hüseynli 2003-cü ildən bizim müəssisədə çalışır. O, çox etibarlı insandır və peşəsinin vurğunudur. Ona görə də mən Moskvadakı filialımızın idarə edilməsi işini ona tapşırdım və o, 01.03.2005-ci ildən bu vəzifəni icra edir. Həmin vaxtdan etibarən cənab Hüseynli Rusiyada yaşayır və işləyir. 2005-ci ilin dekabr ayında da o, Rusiyada olub.

İddiaçının vəkilinin sualına cavab olaraq:

Sənədlərə əsasən cənab Hüseynli dekabr ayında məzuniyyət götürmək barədə müraciət etməyib və işlə bağlı da Azərbaycanda səfərdə olmayıb. Amma təbii ki, təcili şəxsi işləri qaydaya salmaq üçün onun mənə əvvəlcədən xəbər vermədən qısa müddətə bir neçə günlük evə uçması nəzəri

cəhətdən mümkündür. Axı bir gün ərzində də Azərbaycana uçub geri qayıtmaq olar. Mən özüm işlə bağlı tez-tez xaricdə oluram və telefonla mənimlə əlaqə yaradılması çətin olur. Təbii ki, hər gün filial rəhbərlərimizlə əlaqə saxlamaq imkanım olmur. O, torpaq sahəsi ilə bağlı şəxsi işlərini həll etmək üçün Bakıya gəlmək istəyi barədə bizə məlumat versəydi də, biz buna etiraz etməyəcəkdik. Biz bu işçimizə tam etibar edirik.

II Hüquqi rəy

A. İddia

I. (Yalnız) iddiaçının bildirdiklərinə əsasən iddianın əsaslı olması barədə

İddiaçı MM-in 317.1, 319.1-ci maddələrinə (1-ci cümlə) əsasən cavabdehə qarşı tələb irəli sürə bilər. Bu müddəalara əsasən, borclu ipoteka ilə təmin edilmiş öhdəliklər üzrə ödəmələri gecikdiribsə, ipoteka saxlayan ipoteka verəndən ipoteka ilə yüklü edilmiş daşınmaz əmlakın satılmasını tələb edə bilər. Başqa razılıq olmadıqda (MM-in 319.2-ci maddəsi) MM-in 319.1-ci (1-ci cümlə) maddəsində göstərilən satış, bir qayda olaraq, MM-in 319.4-319.6-cı maddələrində nəzərdə tutulmuş qaydalara əsasən açıq hərrac vasitəsilə həyata keçirilir[82].

İpoteka ilə bağlı məsələlər MM-in 269-cu və ondan sonrakı maddələri (12-ci fəsil) və «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. İpotekanın hüquqi anlayışı MM-in 269.4-cü maddəsində verilmişdir. Həmin müddəaya əsasən, ipoteka daşınmaz əşyalara, rəsmi reyestrdə qeydə alınmalı daşınar əşyalara əşya hüquqlarının məhdudlaşdırılmasıdır. O, hər hansı əşya ilə bağlı satmaq hüququnu ehtiva

[82] İpoteka saxlayan borcun ödənişini deyil, yalnız obyektin satılmasını tələb edə bilər!

edir ki, bu da kreditora ipoteka ilə yüklü edilmiş əşyanın, bir qayda olaraq, torpaq sahəsinin satılması ilə pul məbləğini əldə etmək hüququ verir. MM-in 269.5-ci maddəsinə, eləcə də «İpoteka haqqında» qanunun 10.1-ci maddəsinə əsasən, ipoteka təminat vasitəsidir və daim təmin edilməli olan tələbin mövcud olmasını şərtləndirir. İpoteka həmin tələbin yaranması, mövcudluğu və həyata keçirilə bilib-bilməməsindən asılıdır. İpoteka ilə təmin edilmiş əsas tələb arasında belə sıx bağlılığa görə onun aksessorluğundan (əlavəliyindən) bəhs edilir.

İpotekadan irəli gələn və obyektin məcburi qaydada hərracda satılmasını nəzərdə tutan tələb əşya hüququ ilə bağlı olan tələbdir. Bunun əksinə olaraq, ipotekanın əsasını təşkil edən tələblər isə (bir qayda olaraq, borcun qaytarılması tələbi) öhdəlik hüququ ilə bağlı olan tələblərdir ki, bunlar da MM-in 739-cu və ondan sonrakı maddələri ilə tənzimlənir.

Cavabdehin torpaq sahəsi iddiaçının xeyrinə ipoteka ilə yüklü edilibsə və bu, Mülki Məcəllənin 309-cu maddəsinə əsasən («İpoteka haqqında» qanunun 11-ci maddəsi) rəsmi reyestrdə qeydiyyata alınıbsa, onda iddia əsaslı olardı.

1. İpoteka müqaviləsinin bağlanması

Məcburi qaydada açıq hərracda satışa çıxarmaq tələbinin ilkin şərti cavabdehin torpaq sahəsinin iddiaçının xeyrinə etibarlı şəkildə ipoteka ilə yüklü edilməsidir.

1.1. MM-in 307.6-cı maddəsinə əsasən, ipoteka müqaviləsi ipoteka verənlə ipoteka saxlayan arasında bağlanmalıdır. Prinsipcə, əşyanı yalnız onun mülkiyyətçisi ipoteka qoya bilər (MM-in 271.1-ci maddəsi). Burada isə müqavilə cavabdehin şəxsən özü ilə bağlanmayıb.

Lakin bu, heç də o demək deyil ki, mülkiyyətçi müqaviləni şəxsən özü bağlamalıdır. Əksər müqavilə növlərində olduğu

kimi, burada da müqavilənin təmsilçilik əsasında bağlanması mümkündür (MM-in 359 və ondan sonra gələn maddələri). Xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də Mülki Məcəllə ilə təmsilçiliklə bağlanması qadağan edilmiş başqa əqdlərin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir (MM-in 359.4-cü maddəsi). Bu iş üzrə həmin halların heç biri yoxdur.

1.2. MM-in 359.1-ci maddəsinə əsasən təmsilçilik əsasında bağlanmış əqd o vaxt etibarlı hesab olunur ki, təmsilçi etibarlı səlahiyyətləndirmə əsasında başqasının adından öz iradəsini ifadə etsin:

a) öz iradəsini ifadəetmə

Bu kazusda Anar Hüseynli ipoteka müqaviləsinin bağlanması zamanı öz iradəsini ifadə edib[83].

b) başqasının adından

Burada əqd aşkar şəkildə onun qardaşı, yəni cavabdehin adından bağlanıb.

c) etibarlı səlahiyyətləndirmə

Anar Hüseynli 01.12.2005-ci ildə notariat qaydasında təsdiq edilmiş etibarnamə əsasında hərəkət edib. Notariusun təsdiqlədiyi etibarnamədən bəlli olur ki, cavabdeh 01.12.2005-ci ildə qardaşına torpaq sahəsi məsələləri ilə bağlı bütün məsələlərdə onu təmsil etmək səlahiyyəti verib. Etibarnamənin belə geniş mətninə əsasən, Nərimanov küçəsi, 10-da yerləşən torpaq sahəsinin ipoteka ilə yüklü edilməsi də bura aid edilir.

Etibarnamə notariat qaydasında təsdiq olunduğundan forma baxımından da etibarlıdır. Əsas əqd, yəni ipoteka müqaviləsi MM-in 307.7-ci maddəsinə əsasən notariat qaydasında təsdiqlənməli olduğuna görə, MM-in 362.2-ci maddəsinə əsasən,

---

[83] Başqasının iradə ifadəsini ötürən kuryerdən fərqli olaraq, təmsilçi həmişə öz iradəsini ifadə edir.

bu müqavilənin bağlanması üçün verilən etibarnamə də notariat qaydasında təsdiqlənməlidir.

1.3. MM-in 271.2-ci maddəsinə uyğun olaraq, üçüncü şəxs, yəni bu kazusda cavabdehin qardaşının xeyrinə (onun öhdəliklərinin təmin edilməsi üçün) ipoteka qoyulması da mümkündür[84].

1.4. MM-in 307.7-ci maddəsinə («İpoteka haqqında» qanunun 10.2-ci maddəsinin 2-ci cümləsi) əsasən, daşınmaz əmlak barədə müqavilə notariat qaydasında təsdiqlənməlidir. Bu kazusda yazılı forma ilə bağlı tələb 05.12.2005-ci ildə notariusun yanında müqavilənin bağlanması ilə yerinə yetirilib.

2. Rəsmi reyestrdə qeydiyyat

MM-in 309.1-ci maddəsinə («İpoteka haqqında» qanunun 10.4, 11-ci maddələri) uyğun olaraq, ipoteka rəsmi reyestrdə qeydiyyata alınmalıdır və qeydə alınma anından qüvvəyə minir. Qeydiyyat MM-in 139.1, 309.2-ci maddələrinə («İpoteka haqqında» qanunun 11, 12-ci maddələri) əsasən, daşınmaz əmlakın dövlət qeydiyyatı haqqında qaydalar nəzərə alınmaqla dövlət reyestr idarələrində həyata keçirilir. Bu kazusda rəsmi reyestrdə qeydiyyat 21.12.2005-ci ildə baş verib.

---

[84] Burada MM-in 359.3-cü maddəsinə əsasən yolverilməz olan təmsilçinin özü ilə əqd bağlaması halı mövcud deyil. Bu zaman elə əqdlərdən söhbət gedir ki, şəxs həmin əqdi özünə münasibətdə özü bağlayır. MM-in 359.3-cü maddəsi 2 bu qəbildən olan əqd tanıyır:

a) Təmsilçinin özü ilə əqd bağlaması: bu halda təmsilçi təmsil edilənin adından özü ilə öz adından əqd bağlayır. b) Bir neçə şəxsin eyni zamanda təmsilçiliyi: bu halda təmsilçi təmsil edilənin adından özü ilə başqa bir üçüncü şəxsin adından əqd bağlayır.

Təmsilçinin özü ilə əqd bağlaması halının əsas əlaməti ondan ibarətdir ki, eyni bir şəxs əqdin hər iki tərəfində çıxış edir. Bu iş üzrə (formal olaraq, kredit müqaviləsindən fərqləndirilməli olan!) ipoteka müqaviləsində belə hal mövcud deyil. Anar Hüseynli yalnız cavabdehin tərəfində çıxış edir. Onun kredit alan kimi ipotekanın qoyulmasında ciddi marağının olması nəzərə alınmamalıdır və qanunverici tərəfindən məqbul hesab edilir.

3. Etirazlar

Bəlli olur ki, ipotekaya qarşı etirazlar yoxdur. Xüsusilə müqaviləyə xitam verildikdən sonra icra edilməli olan təmin edilmiş borc qaytarılmamışdır (ipotekanın aksessorluğu!).

4. Nəticə

İddiaçının izahatına əsasən cavabdehə qarşı ona məxsus torpaq sahəsini açıq hərracdan satmaq barədə tələbi mövcuddur.

II. Cavabdehin izahatının əhəmiyyəti

Cavabdeh etibarnaməni imzaladığını mübahisələndirir.

1. İddiaçı etibarnamənin saxtalaşdırıldığını bilmirdisə və vicdanlı şəkildə sənədin əsl olmasına əsaslana bilərdisə, onda etibarnamənin həqiqi və bununla da etibarlı qaydada verilməsi məsələsinin öncə əhəmiyyəti olmazdı. Axı cavabdeh də iddiaçının güman edilən saxtalaşdırmanı bilməsini, yaxud bilə bilməsini iddia etmir. Lakin etibarnamənin olmasına münasibətdə vicdanlı olma qanunla qorunmur. Yəni etibarnamə ilə bağlı belə bir ümumi qayda var: etibarnamə ya var və etibarlıdır, yaxud da o, yoxdur və təmsil edilən onunla heç bir halda bağlı deyil. MM-in 182.1-ci maddəsindən də başqa bir qayda irəli gəlmir. Bir tərəfdən, bu müddəa yalnız daşınar əmlak üzərində mülkiyyət hüququnun əldə edilməsini tənzimləyir və torpaq sahəsi ilə bağlı hüquqların əldə edilməsinə aid deyil. Başqa yandan isə, bu norma özgəninkiləşdirən şəxsin adından fəaliyyət göstərənin təmsilçilik səlahiyyətinə vicdanlı inanmanı deyil, yalnız əldə edənin özgəninkiləşdirənin səlahiyyəti faktı ilə bağlı vicdanlı olma hallarını qoruyur.

2. İddiaçı MM-in 140-cı maddəsinə uyğun olaraq reyestrin həqiqiliyinə və ona vicdanlı inanmağa istinad edə bilsə belə, bu, yenə də etibarnamənin əhəmiyyətini azaltmır. Bu müddəaya əsasən, reyestrdə qeydə alınmış özgəninkiləşdirənin səlahiyyətlərinə münasibətdə reyestrdəki qeyd əşya hüququnu əldə

edənin xeyrinə həqiqi hesab olunur. Özgəninkiləşdirən şəxsin həqiqətən də əşya üzərində hüququ yoxdursa, yaxud qeydə alınmış hüquq əslində mövcud deyilsə və ya artıq mövcud deyilsə, onda əldə edən, buna baxmayaraq, reyestrdə qeydə alınmış hüququ əldə edir, bir şərtlə ki, o, reyestrdə qeydin həqiqi olmadığını bilməsin və ya MM-in 140, eləcə də 141.2-ci maddələrinə əsasən reyestrdə bununla əlaqədar etiraz qeydə alınmasın. Lakin bu kazusda söhbət cavabdehin mülkiyyətçi kimi səlahiyyətli olub-olmamasından getmir, çünki o, reyestrdə mülkiyyətçi qismində mübahisəsiz olaraq düzgün qeydə alınıb. Əldəetmə ilə bağlı başqa nöqsanlar, məsələn, güman edilən təmsilçinin səlahiyyətinin olmaması isə MM-in 140-cı maddəsinin təsiri altına düşmür.

3. Bununla da etibarlı təmisilçilik səlahiyyətinin mövcudluğu məsələsi qəbul ediləcək qərar üçün önəmlidir.

III. Faktların müəyyən edilməsi

Beləliklə, mübahisə ilə bağlı qəbul ediləcək qərar etibarnaməni cavabdehin imzalayıb-imzalamamasından asılıdır.

1. Sübutetmə vəzifəsi

Etibarnamənin həqiqətən də mövcud olub-olmamasının sübut edilməsi vəzifəsi ilə bağlı məsələlər MPM-in 77.1-ci maddəsində nəzərdə tutulmuş ümumi sübutetmə prinsiplərinə əsasən həll olunur. Bu müddəaya əsasən, hər bir tərəf tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Beləliklə, etibarlı təmsilçiliyin olmasına istinad edən onun şərtlərini də sübut etməlidir. Yəni bu iş üzrə iddiaçı təmsilçilik səlahiyyətinin olmasını və etibarnamənin həqiqiliyini sübut etmək vəzifəsi daşıyır. Etibarnamənin əsl olub-olmadığını sübut etmək vəzifəsi Azərbaycan MPM-də sənədlərin sübut edilməsi ilə bağlı xüsusi müddəanın olmaması səbəbindən sübutetmə barədə ümumi qaydadan irəli gəlir. Bu qaydaya uyğun ola-

raq, sənədin əsl olduğunu iddia edən tərəf bu barədə mübahisə yaranan halda onu sübut etməlidir.

Lakin bu nəticə MM-in 140-cı maddəsində nəzərdə tutulmuş daşınmaz əmlakın dövlət reyestrinin tamlığı və həqiqiliyi prinsipi ilə çətin ki, bir araya sığaydı. MM-in 314-cü maddəsində ipotekanın güzəşt edilməsi ilə bağlı reyestrdəki qeydlərin onların əksi sübut olunana qədər düzgün olması prezumpsiyası mövcuddur. Beləliklə, burada söhbət sübutetmə ilə bağlı qanunun xüsusi qaydasından gedir və buna əsasən reyestrin həqiqiliyinə olan ictimai inamın yuxarıda göstərilən sübutetmə ilə bağlı ümumi qaydalardan üstün qüvvəsi var.

MM-in 140-cı maddəsində nəzərdə tutulmuş prezumpsiya hamının xeyrinə və əleyhinədir. Yəni o, təkcə əqdin bağlanmasında iştirak etməyən və buna görə də reyestrin məzmununa etimad göstərə bilməli olan üçüncü şəxslərə münasibətdə qüvvədə olmur. Bu, daha çox əqdin bağlanmasında iştirak etmiş şəxslərə aiddir. Onlar da reyestrdəki qeydin həqiqiliyini sübut etmək üçün reyestrə istinad edə bilərlər. Bu, xüsusilə reyestrin özündən irəli gələn hallara deyil, eləcə də məsələn, etibarnamənin mövcud olub-olmaması məsələsinə münasibətdə reyestrlə bağlı olmayan hallara da şamil edilir. Bu nəticəni reyestrə ictimai inamın xüsusi önəmi ilə əsaslandırmaq olar. Qanunvericinin burada məqsədi hüquqi təhlükəsizlik naminə reyestrin diqqət və ehtiyatla aparılmasına etimadı gücləndirmək istəyidir.

Beləliklə, nəticədə sübutetmə vəzifəsi tərsinə dəyişir: iddiaçının xeyrinə olaraq, reyestrdə ipoteka qeydinin həqiqiliyi güman edilir və ona görə də cavabdeh etibarnamənin mövcud olmadığını sübut etməlidir[85]. 01.12.2005-ci il tarixli etibarna-

[85] MM-in 140-cı maddəsinin ikili funksiyası var: bir tərəfdən o, maddi-hüquqi baxımdan qeydə alınmış hüquq sahibinin səlahiyyətli olması ehtimalını təsbit edir, başqa yandan isə, prosessual-hüquqi cəhətdən reyestrdəki qeydin həqiqi olmaması ilə bağlı sübutetmə vəzifəsini qeydə alınmış şəxsin prosesdəki rəqibinin üzərinə qoyur.

mədəki imzanın cavabdehə məxsus **olmaması** faktını sübut etmək üçün məhkəmə mütəxəssis Fariz Ruslanovdan qrafoloji rəy hazırlamasını xahiş edib və şahid qismində cavabdehin çağırdığı Məmməd Bağırovu və Xalid Qusanovu dindirib.

2. Sübutların qiymətləndirilməsi

2.1. Mütəxəssisin hazırladığı rəy vasitəsilə sübut edilməli olan məsələ barədə birmənalı nəticəyə gəlmək olmur. Əlbəttə, mütəxəssisin fikrincə, bir neçə imzanın müqayisəsi əsasında etibarnamədəki imzanın böyük ehtimalla cavabdehə məxsus olmadığını söyləmək olar. Lakin o, bunun əksini də əminliyə yaxın olan ehtimalla istisna edə bilmir və buna görə də təkcə onun müəyyənləşdirmələri əsasında saxtalaşdırma sübut edilmiş kimi qəbul oluna bilməz.

2.2. Şahid Qusanovun bildirdiyinə görə, cavabdeh 2005-ci ilin mart ayından etibarən «Gusanov Steel» firmasının Moskvadakı filialına rəhbərlik edir. Onun ifadəsinə əsasən, cavabdeh həmin tarixdən fasiləsiz olaraq Rusiyada yaşayır və 2005-ci ilin dekabrında Bakıda nə işgüzar, nə də şəxsi səfərdə olub. O, həmin müddətdə nə Bakıya işgüzar səfərə gedəcəyi haqda müraciət edib, nə də məzuniyyət götürmək barədə ərizə verib. Bununla belə, verilmiş suala cavab olaraq, şahid cavabdehin uyğun ayda məlumat vermədən qısa müddətə Bakıya səfər etməsini tam istisna edə bilməyib. Çünki onun özü tez-tez xarici səfərlərdə olur və buna görə də ona hər bir məsələ barədə vaxtında xəbər verilməsi mümkün deyil. Aydın və şahidin yazılı sənədlərindəki məlumatları əsasında inandırıcı görünən bu ifadə özlüyündə cavabdehin dediklərini qeyri-məhdud şəkildə təsdiq etmək üçün yaramır. Çünki cavabdehin rəisinin xəbəri olmadan Bakıya gəlməsini (yalnız etibarnamə vermək məqsədi ilə gəlməsindən asılı olmayaraq) yuxarıda göstərilən səbəblərdən tam istisna etmək olmaz.

2.3. Sübutetmə ilə bağlı etibarnamənin təsdiq edilməsi və xüsusilə onu imzalayan şəxsin xarici görünüşünü dəqiq xatırlaya

bilməyən şahid Bağırovun ifadəsi az əhəmiyyət daşıyır. O, 01.12.2005-ci ildə etibarnaməni cavabdehin, yaxud başqa şəxsin imzaladığını əminliklə söyləyə bilmir. Lakin belə məsələlərin həlli zamanı mövcud olan prosedur qaydalar onu deməyə əsas verir ki, notarius olan şahid Bağırov sənədi təsdiq etməzdən əvvəl, yəqin ki, etibar edənin şəxsiyyətini ona məxsus olan sənəd əsasında yoxlayıb. Lakin buna baxmayaraq, yenə də onun ifadəsi qeyri-müəyyən olaraq qalır. Yəni nəticə etibarilə bu ifadə də etibarnaməni onun imzalamadığına dair cavabdehin bildirdiklərini təsdiq etmir. Qardaşının zahirən ona çox oxşaması barədə cavabdehin mübahisələndirilən fikri isə ümumiyyətlə heç bir əhəmiyyət kəsb etmir. Çünki şahidin ifadəsinə əsasən bu halda da etibarnaməni cavabdehin imzaladığını istisna etmək olmaz. Bundan başqa, qardaşına çox oxşaması gümanı ilə bağlı cavabdeh heç bir sübut təqdim etməyib.

2.4. Bütün sübutlara ümumi nəzər yetirdikdə də etibarnamənin saxtalaşdırılmasını cavabdehin sübut edə bilməsi nəticəsinə gəlmək olmur. Qrafoloji rəyin gəldiyi nəticə, şahid Qusanovun ifadəsi ilə birlikdə etibarnaməni cavabdehin imzalamadığını göstərsə də, bunun həqiqətən də belə olmasına dair müəyyən qədər şübhələr yenə də qalır. Bu şübhələr hətta cüzi olsa belə, onlar etibarnamənin güman edilən saxtalaşdırılmasına hakimi inandırmayacaq. Çünki MPM-in 88-ci maddəsinə əsasən, hakimin sübutları müstəqil qiymətləndirməsi üçün tərəflərin mübahisələndirilən gümanlarının düzgün olması ilə bağlı yüksək obyektiv ehtimalın olması yetərli deyil. Əslində hakim eyni zamanda faktın düzgün olmasına subyektiv əmin olmalıdır[86].

[86] Bununla bağlı Almaniya Federal Ali Məhkəməsi zəkalı, həyati münasibətləri aydın görən insandan elə yüksək dərəcəli ehtimal tələb edir ki, o, şübhələri tam istisna etmədən onların hansısa rol oynamasına imkan verməsin.

Burada bildirilən mövqe əsas götürülsə və iddia edilən imzanın saxtalaşdırılması sübut edilməmiş hesab olunsa, onda bu, sübutetmə vəzifəsi daşıyan cavabdehin ziyanınadır.

IV. Aralıq nəticə

İddia əsaslıdır. İddiaçının ipoteka əsasında cavabdehdən ona məxsus torpaq sahəsinin hərracdan satılmasını tələb etmək hüququ var.

B. Qarşılıqlı iddia

1. Mümkünlük

Qarşılıqlı iddia MPM-in 155.1, 156.1.2-ci maddələrinə əsasən mümkündür. Çünki iddia və qarşılıqlı iddia bir-birini məzmun cəhətdən qarşılıqlı surətdə istisna edir. Cavabdehin ziyanına qətnamə çıxarılması üçün ipotekanın hüquqi cəhətdən etibarlı surətdə yaranması ümdə şərtdir. Bu isə məcburi qaydada reyestrdə düzəliş aparılmasını istisna edərdi. Bununla da qarşılıqlı iddia mümkün hesab olunur[87].

2. Əsaslı olma

Bundan əlavə, qarşılıqlı iddia həm də əsaslandırılmalıdır. Rəsmi reyestrə düzəliş edilməsi üçün iddia tələbinin əsası kimi MM-in 141.1-ci maddəsi çıxış edir. Reyestrə düzəliş edilməsi ilə bağlı tələbin qaldırılması üçün şərt 864993/05 AZ nömrəli ipotekanın reyestrdəki qeydiyyatının düzgün olmamasıdır.

---

[87] Təcrübədə bu kazusa oxşar hallarda öhdəliyin icrası ilə bağlı iddia ərizəsinin əvəzinə ipotekanın mövcud olmamasının müəyyənləşdirilməsinə dair iddia qaldırılır. Lakin belə müəyyənləşdirici qətnamə ilə, bir qayda olaraq, iddiaçı istədiyinə nail olmur. Çünki onu prosesdə qələbə çaldığı halda belə, cavabdeh istəməsə, onda iddiaçı reyestrə dəyişiklik edilməsi ilə bağlı növbəti iddia qaldırmalıdır. Bir qayda olaraq, tərəf öhdəliyin icra olunmasına dair iddia ilə prosesə qənaət baxımından istədiyi məqsədə daha tez çatarsa, onda müəyyənləşdirici iddianın qaldırılmasına ehtiyac qalmır. Ona görə də belə hallarda hakim MPM-in 14, 184, 190-cı maddələrinə uyğun olaraq tərəfin müəyyənləşdirici iddia ərizəsini öhdəliyin icrasına dair iddia ərizəsi ilə dəyişməsinə təsir göstərməlidir.

Reyestrdəki qeydiyyat o vaxt düzgün olmur ki, reyestrin məzmunu maddi-hüquqi vəziyyətlə üst-üstə düşməsin. Lakin yuxarıda artıq müəyyən olunduğu kimi, cavabdeh məhkəmə baxışında etibarnamədəki imzanın ona məxsus olmadığını sübut edə bilməyib. Burada da sübutetmə vəzifəsinin paylanması yuxarıda göstərilən prinsiplər əsasında həll olunur[88]. Beləliklə, reyestrdəki qeydin düzgün olmadığı dəqiq müəyyən edilməyib. Ona görə də qarşılıqlı iddia əsassızdır.

C. Ümumi nəticə

İddia əsaslıdır. Qarşılıqlı iddia əsassızdır.

D. Xərclər

Xərclər məsələsi MPM-in 119.1-ci maddəsi əsasında həll olunur. Bu müddəaya əsasən, məhkəmə xərcləri tərəflərin tələblərinin təmin edilməsinə mütənasib olaraq onlar arasında bölünür. Cavabdeh uduzmuş tərəf kimi məhkəmə xərclərini ödəmək vəzifəsi daşıyır.

Qətnamə layihəsi

Təsviri hissə

İddiaçı cavabdehdən reyestrdə 864993/05 AZ nömrəsi ilə qeydə alınmış və cavabdehin xeyrinə 10.000 AZN məbləğində ipoteka ilə yüklü edilmiş Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən və reyestr nömrəsi 365490/02 AZ olan torpaq sahəsinin məcburi qaydada açıq hərracdan satılması barədə qətnamə çıxarılmasını tələb edir.

İpoteka iddiaçı ilə cavabdehin qardaşı Anar Hüseynli arasında 05.12.2005-ci il tarixdə bağlanmış və notariat qaydasında

[88] Nəzərə almaq lazımdır ki, sübutetmə vəzifəsi həmişə tərəfin prosesdə rolundan asılı deyil: cavabdeh ipoteka əsasında ona qarşı tələbin həyata keçirilməsindən müdafiə olunursa, ya da özü qarşılıqlı iddia ilə reyestrdə ipotekanın ləğvini tələb edirsə, bu, sübutetmə vəzifəsi üçün heç bir əhəmiyyət kəsb etmir.

təsdiq olunmuş ipoteka müqaviləsi əsasında 21.12.2005-ci ildə rəsmi reyestrdə qeydiyyata alınmışdır. Müqavilənin imzalanması zamanı Anar Hüseynli 01.12.2005-ci il tarixli etibarnamə əsasında hərəkət etmişdir ki, orada da imzalayan şəxs qismində cavabdeh göstərilmişdir. Bu etibarnaməyə əsasən, Anar Hüseynliyə cavabdehə məxsus daşınmaz əmlakla bağlı bütün hüquqi hərəkətləri etmək etibar edilib. İpoteka Anar Hüseynlinin adından iddiaçıdan götürdüyü borcun təmin edilməsinə xidmət edirdi. 10.000 AZN məbləğində krediti iddiaçı Anar Hüseynliyə tam şəkildə ödəmişdir. Çoxsaylı xəbərdarlıqlara baxmayaraq, o, krediti qaytarmır. Onun harada olması da bəlli deyil.

İddiaçının fikrincə, Anar Hüseynlinin ona verilmiş etibarnamə əsasında cavabdehi təmsil etmək səlahiyyəti olub və ipoteka lazımi qaydada rəsmiləşdirilib.

İddiaçı reyestrdə 864993/05 AZ nömrəsi ilə qeydə alınmış ipoteka müqaviləsi əsasında Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən və reyestr nömrəsi 365490/02 AZ olan torpaq sahəsinin məcburi qaydada hərraca çıxarılması barədə qətnamə qəbul edilməsini xahiş edir.

Cavabdeh iddianın rədd olunmasını xahiş edir.

O, qardaşına belə səlahiyyət verdiyini mübahisələndirir. Cavabdehin fikrincə, qardaşı notariat qaydasında təsdiq olunmuş etibarnamədə onun imzasını saxtalaşdırıb.

Cavabdeh qarşılıqlı iddia qaldıraraq Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən və reyestr nömrəsi 365490/02 AZ olan torpaq sahəsinin 10.000 AZN məbləğində, reyestrdə 864993/05 AZ nömrə ilə iddiaçının xeyrinə qeydə alınmış ipotekanın ləğvinə iddiaçının razılıq verməsi barədə qətnamə çıxarılmasını xahiş edib.

İddiaçı qarşılıqlı iddianın rədd olunmasını xahiş edir.

İddiaçı etibarnamənin güman edilən saxtalaşdırılmasını mübahisələndirərək bildirir ki, ipoteka artıq rəsmi reyestrdə qeydiyyata alındığına görə etibarlıdır.

Məhkəmə notarius Məmməd Bağırov və şahid Xalid Qusanovun dindirilməsi, eləcə də etibarnamənin həqiqi olub-olmaması ilə bağlı ekspert Fariz Ruslanovun ekspertiza rəyi hazırlaması vasitəsilə məsələni araşdırıb.

Əsaslandırıcı hissə

İddia əsaslı, qarşılıqlı iddia isə əsassızdır.

İddiaçı MM-in 317, 319-cu maddələrinə uyğun olaraq cavabdehdən daşınmaz əmlakın açıq hərracdan satılmasını tələb edə bilər. Cavabdehin torpaq sahəsi iddiaçının 10.000 AZN məbləğində verdiyi kreditin təminatı kimi ipoteka ilə etibarlı şəkildə yüklü edilib. MM-in 319.1-ci maddəsinin 1-ci cümləsinə əsasən, torpaq sahəsi açıq hərracdan satılmalıdır. Çünki ipoteka ilə təmin edilmiş tələb üzrə borclu, yəni cavabdehin qardaşı Anar Hüseynli borcun qaytarılmasını ləngidib və iddiaçı da ipotekaya etibarlı şəkildə xitam verib.

Cavabdeh haqsız olaraq bildirir ki, ipoteka qeydiyyata alınmasına baxmayaraq, etibarlı surətdə yaranmayıb. Çünki cavabdehin qardaşının onun daşınmaz əmlakını ipoteka ilə yüklü etmək səlahiyyəti olmayıb. Tərəflər MM-in 307.6, 307.7-ci maddələrinə uyğun olaraq notariat qaydasında təsdiq olunmuş müqavilə ilə etibarlı surətdə cavabdehin daşınmaz əmlakını ipoteka ilə yüklü etmişlər ki, bu da MM-in 309.1-ci maddəsinə əsasən lazımi qaydada reyestrdə qeydiyyata alınıb. Əslində əşyanı yalnız onun mülkiyyətçisi ipoteka ilə yüklü edə bilər (MM-in 271.1-ci maddəsi). Lakin bunun üçün mülkiyyətçi mütləq özü fəaliyyət göstərməli deyil və MM-in 359-cu və ondan sonrakı maddələrinə əsasən onu üçüncü şəxs də təmsil edə bilər. Bu iş üzrə belə etibarlı təmsiletmə olub.

Cavabdeh etibarnaməni şəxsən imzalamasını mübahisələndirsə də, iddia etdiyi saxtalaşdırmanı sübut edə bilməyib. Beləliklə, sübut etmək vəzifəsi onun üzərinə düşür.

MPM-in 77.1-ci maddəsinə əsasən, hər bir tərəf tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Tərəfin tələbi etirabnamə ilə bağlıdırsa, onda o, bunun etibarlığını sübut etməlidir. Bu, o deməkdir ki, ümumi prinsiplərə əsasən, burada iddiaçı etibarnamənin əsl olmasını sübut etməli idi. Lakin daşınmaz əmlakın dövlət reyestrinə ictimai inamın olması prinsipinin nəzərdə tutulduğu MM-in 140-cı maddəsi iddiaçının xeyrinədir. Həmin müddəaya uyğun olaraq, reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamlığı prezumpsiyası qüvvədədir. Təkcə üçüncü şəxslərə münasibətdə deyil, eləcə də əqddə iştirak edən tərəflərin xeyrinə və ya ziyanına şamil olunan bu müddəa sübutetmə vəzifəsi ilə bağlı xüsusi norma hesab olunur və onun bu barədə nəzərdə tutulmuş ümumi qaydalardan üstün qüvvəsi var. Bu iş üzrə həmin müddəa qeydin səhv olması və bununla da etibarnamədəki imzanın saxtalaşdırılmasını sübut etmək vəzifəsini cavabdehin üzərinə qoyur.

Lakin cavabdeh sübut etməli olduğu halı sübut edə bilməyib.

Məhkəmənin təyin etdiyi qrafoloji ekspert rəyinə əsasən, cavabdehin imzasının birmənalı surətdə saxtalaşdırıldığı müəyyən edilməyib. Əlbəttə, ekspert etibarnamədəki imzanın böyük ehtimalla cavabdehə məxsus olmaması nəticəsinə gəlib. Lakin o, bunun əksinin də mövcudluğunu tam əminliklə istisna edə bilməyib. İşin faktiki hallarına uyğun olaraq, burada saxtalaşdırmanın mövcud olması daha ağlabatan görünür. Lakin məhkəməni bu faktın düzgünlüyünə inandırmaq üçün təkcə böyük ehtimalın olması kifayət etmir. Başqa yandan, məhkəmə üçün mütəxəssisin müəyyən etdiklərini şühbə altına almaq üçün də heç bir əsas yoxdur. Mütəxəssis

cavabdehin bir neçə imzasının müqayisəli əlamətlərini diqqətlə araşdırıb və gəldiyi nəticəni əsaslandırıb[89]. Onun hazırladığı rəyə tərəflər də etiraz etməyiblər.

Ekspertiza rəyi iddia olunan saxtalaşdırmanı tam əminliklə təsdiq etmədiyinə görə məhkəmə üçün qalan şübhələr şahid Qusanovun dedikləri ilə də aradan qaldırılmayıb. Bu şahidin dediklərinə əsasən, cavabdeh 01.03.2005-ci ildən onun müəssisəsinin Moskvadakı filialına rəhbərlik edir və 2005-ci ilin dekabrında Bakıda nə işgüzar, nə də şəxsi səfərdə olub. Lakin bu məlumatlar yalnız onun şəxsi məlumatlarıdır. O, cavabdehin onunla razılaşdırmadan bir neçə günlük Bakıya gəlməsini tam istisna edə bilməz. Bunun baş verməsi qeyriadi ola bilməz, çünki şahidin öz ifadəsinə əsasən, onun cavabdehlə daimi əlaqəsi olmayıb.

Nəhayət, şahid Bağırov da cavabdehin 01.12.2005-ci ildə notariat kontorunda olmadığını təsdiq etməyib. Onun hətta cavabdehi xatırlaya bilmədiyini deməsinə cavab olaraq cavabdehin qardaşının ona çox oxşaması fikri ona görə araşdırılmamalıdır ki, bu fikir düzgün olsa belə, həmin fakt cavabdehin deyil, onun qardaşının etibarnaməni verməsi nəticəsinə gətirib çıxarmır.

Sübutların araşdırılması cavabdehin etibarnaməni imzalamaması və bununla da onun imzasının saxtalaşdırılması nəticəsini çıxarmağa gətirib çıxarmadı. Cüzi də olsa, bu gümanın düzgün olması ilə bağlı şübhələr qalır. Bu isə sübutetmə vəzifəsi daşıyan cavabdehin ziyanınadır.

Cavabdehin qardaşına verilmiş etibarnamə qanunla nəzərdə tutulmuş formal tələblərə də cavab verir, çünki əsas əqd (ipoteka müqaviləsi) kimi o da notariat qaydasında təsdiqlənib (MM-in 307.7-ci maddəsi). Etibarnamə cavabdehin qardaşına

[89] Bu məsələ ekspertiza rəyinin köməyi ilə qətnamədə daha ətraflı şərh edilə bilər.

Nərimanov küçəsi, 10 ünvanında yerləşən daşınmaz əmlakla bağlı istənilən əqdin bağlanması üçün geniş səlahiyyət verir və bu, ipoteka ilə yüklənməni də əhatə edir. Burada daşınmaz əmlak özgə borcunun təmin edilməsi üçün ipoteka ilə yüklü edilsə də, MM-in 271.2-ci maddəsi baxımından bunun ziyanı yoxdur.

Göstərilən səbəblərdən iddia təmin edilməlidir və cavabdeh barəsində tələbə uyğun qətnamə çıxarılmalıdır.

Qarşılıqlı iddia əsassızdır. Cavabdeh MM-in 141.1-ci maddəsinə əsasən reyestrə düzəliş olunmasını tələb edə bilməz. Reyestr səhv deyil. Cavabdeh imzasının saxtalaşdırıldığını və etibarnamənin etibarsız olduğunu sübut edə bilməyib. Bununla bağlı yuxarıda göstərilənlərə istinad etmək olar. Sübut-etmə vəzifəsi yenə də cavabdehin üzərinə düşür və yuxarıda deyilənlər bura da aiddir.

Xərclər məsələsi MPM-in 119.1-ci maddəsi əsasında həll olunur.

Qətnamənin nəticə hissəsi:

1. İddia təmin olunsun. Reyestrdə 864993/05 AZ nömrəsi ilə qeydə alınmış ipoteka müqaviləsi əsasında cavabdehin Bakı – 1005, Nərimanov küçəsi, 10 ünvanında yerləşən və reyestr nömrəsi 365490/02 AZ olan torpaq sahəsi məcburi qaydada hərraca çıxarılaraq satılsın.

2. Qarşılıqlı iddia rədd edilsin.

3. Məhkəmə xərclərini cavabdeh daşıyır.

4. Qətnamədən 1 ay müddətində X rayon məhkəməsi vasitəsilə apelyasiya məhkəməsinə apelyasiya şikayəti verilə bilər.

6-cı kazus: Problemli ev alqı-satqısı

(Daşınmaz əmlakın alqı-satqısı, təmsilçilik, müqavilə bağlanması zamanı təqsir məsələləri, zərərin əvəzinin ödənilməsi, qarantiya tələbləri)

İlkin kazus:

Dul qadın xanım V-nin A, B və C adlı 3 oğlu, bir evi var. Anaları üç oğlunun hər birinə evin satışı üçün etbarnamə verir, lakin bu etibarnamələrdən yalnız C-yə veriləni notarial qaydada rəsmiləşdirir. A 02.11.2008-ci ildə evi Şakirə, B isə 15.11.2008-ci ildə Elçinə satır, hər iki alqı-satqı notarial qaydada rəsmiləşdirilir. C də 28.11.2008-ci ildə sadə yazılı formada müqavilə ilə evi D-yə satır. Şakir 02.12, Elçin isə 15.12.2008-ci ildə daşınmaz əmlakın dövlət reyestrinə qeydiyyata alınırlar.

Evin mülkiyyətçisi kimdir?

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.1-ci maddəsinə əsasən, daşınmaz əmlakla bağlı mülkiyət hüququnun başqa şəxsə keçməsi üçün notariat qaydasında təsdiq edilməli olan mülkiyyət hüququnun verilməsi aktı (MM-in 144.1-ci maddəsi) və bunun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması zəruridir. Burada mülkiyyət hüququnun verilməsi aktı MM-in 646.1, 646.2 və 567-ci maddələrinə əsasən alqı-satqı müqaviləsi ola bilər.

Ayrı-ayrı alqı-satqı müqavilələri ilə bağlı:

a) V/Şakir alqı-satqı müqaviləsi

A vasitəsilə təmsil olunmuş V/Şakir müqaviləsinin notarial qaydada rəsmiləşdirilməsi şərtinə əməl edilib. Müqavilə daşınmaz əmlakın dövlət reyestrində qeydə alınıb.

Müqavilələr MM-in 359.1-ci maddəsinə əsasən təmsilçi vasitəsilə də bağlana bilər. Təmsilçinin səlahiyyəti olmalıdır, burada da V A-ya belə səlahiyyət verib. Lakin A-nın etibarnaməsi MM-in 362.2-ci maddəsinə əsasən, notarial qaydada rəsmiləşdirilməlidir, çünki notarial forma tələb edən əqdin bağlanması üçün verilir. Bunun hüquqi nəticəsi MM-in 329.1-ci maddəsindən irəli gəlir: etibarnamə etibarsızdır və hər hansı hüquqi nəticəyə səbəb olmur (MM-in 337.4-cü maddəsi).

Təmsilçilik səlahiyyəti olmadan bağlanmış müqavilə, beləliklə, ən azı müvəqqəti olaraq etibarsızdır. Mülkiyyət hüququnun verilməsi baş tutmayıb. Daşınmaz əmlakın dövlət reyestrinə edilmiş qeyd bu baxımdan heç nəyi dəyişdirmir. O, özü-özlüyündə mülkiyyət hüququnun verilməsi üçün yetərli deyil. Daşınmaz əmlakın dövlət reyestrindəki qeyd səhvdir.

Şakirin mülkiyyət hüququnu vicdanlı əldə etməsi mümkün deyil. Qanun etibarnamənin mövcudluğuna vicdanlı inanmanı müdafiə etmir.

b) V/Elçin alqı-satqı müqaviləsi

B vasitəsilə təmsil olunmuş V/Elçin müqaviləsi də etibarnamənin notarial qaydada verilməməsi üzündən bağlanmış hesab oluna bilməz. Mülkiyyət hüququnun verilməsi baş tutmayıb.

c) V/D alqı-satqı müqaviləsi

C vasitəsilə təmsil olunmuş V/D müqaviləsi isə etibarnamənin verilməsinin etibarsızlığı səbəbindən deyil, daşınmaz əmlakla bağlı müqavilənin notarial qaydada rəsmiləşdirilməməsi səbəbindən etibarlı deyil (MM-in 146.1, 329.1-ci maddələri).

Nəticə: V hələ də evin mülkiyyətçisidir.

Kazusun 1-ci dəyişdirilmiş variantı:

Xanım V oğlanlarının bağladıqları alqı-satqı müqavilələrindən xəbər tutduqda Elçinə şifahi olaraq bildirir ki, onunla bağlanmış alqı-satqı müqaviləsi ilə razıdır. Bunun nəticəsində Elçin mülkiyyətçi olacaqmı?

Təmsilçilik səlahiyyəti olmadan bağlanmış müqavilə etibarsız deyil, çünki o, etibarlı edilə bilər. MM-in 357-ci maddəsi mənasında bəyənmə (sonradan verilən razılıq) MM-in 360.2-ci maddəsinə əsasən müqavilənin geriyə şamil olunmaqla etibarlığına gətirib çıxarır. MM-in 355.1-ci maddəsinə əsasən, bəyənmə müqavilə tərəfinə, burada Elçinə münasibətdə də bəyan edilə bilər. MM-in 355.2-ci maddəsinə əsasən, bəyənmənin xüsusi formaya əməl edilməklə verilməsinə ehtiyac yoxdur. Lakin Mülki Məcəllənin 362.2 və ya 146.1-ci maddəsinin analogiya üzrə tətbiqi barədə düşünmək olar. Notarial formanın müxtəlif funksiyaları var: o, müqavilənin əhəmiyyətini bir daha tərəflərin diqqətinə çatdırmalı və tələsik öhdəliklər və ya düşünülməmiş şərtlər qəbul etməkdən onları qorumalıdır (xəbərdaredici funksiya), əldə edilmiş razılıqların sübutunu təmin etməlidir (sübut funksiyası) və imkan dairəsində əqdin etibarlığını təmin etməlidir. Bütün bu göstərilənləri təkcə daşınmaz əmlakın alqı-satqısı və etibarnamənin verilməsinə deyil, daşınmaz əmlakın satılmasının bəyənilməsinə də şamil etmək olar ki, beləliklə də MM-in 146.1, 362.2-ci maddələrinin 11.1-ci maddəyə əsasən ən azı analogiya üzrə tətbiqi (qanunun analogiyası) məqbul hesab oluna bilər. Eyni zamanda, hər hansı forma tələbi olmayan bəyənmə mümkün hesab edilsəydi, təmsil edilən bəri başdan etibarnamənin verilməsi üçün çəkiən xərclərdən yayınmağa sövq edilmiş olardı.

Beləliklə, notarial qaydaya əməl edilmədiyindən bəyənmə etibarsızdır (MM-in 329.1-ci maddəsi).

Nəticə: Elçin mülkiyyətçi olmayıb.

Kazusun 2-ci dəyişdirilmiş variantı:

Şakir evin ona çatmayacağından xəbər tutduqda, o, A-dan və V-dən zərərin əvəzinin ödənilməsini tələb edir. Bir tərəfdən o, V ilə notarial müqavilənin bağlanması üçün 200 manat xərc çəkib. Başqa yandan isə Şakir artıq notarial qaydada rəsmiləşdirilmiş evin başqa şəxsə satılması ilə bağlı alqı-satqı müqaviləsi nəticəsində 10.000 AZN gəlir əldə edə bilərdi. A və V-yə qarşı zərərin ödənilməsi tələbləri varmı, varsa, tələb hancı həcmdədir?

a) V-yə qarşı tələblər:

V-yə qarşı müqavilədən irəli gələn hər hansı tələb yoxdur, çünki hüquqi baxımdan etibarlı müqavilə bağlanmayıb.

Mülki hüquqlara birbaşa qəsd olmadığından, MM-in 1096-cı maddəsinə əsasən, deliktdən irəli gələn tələb də yoxdur.

MM-in 386.3-cü maddəsindən irəli gələn tələb: bu maddəyə əsasən danışıqların iştirakçısı başqa iştirakçının təqsirli hərəkətləri nəticəsində bağlanmayan müqavilə ilə bağlı çəkdiyi xərclərin ödənilməsini tələb edə bilər. Burada qanunla nizama salınmış müqavilə danışıqları zamanı təqsir halından *(lat. culpa in contragendo)* söhbət gedir. Müqavilə bağlamaq istəyən şəxs müqavilənin bağlanması üçün zəruri olan formal şərtləri də yaratmaq öhdəliyi daşıyır. V üçüncü şəxslə müqavilə bağlamaq istədiyindən, bu məqsədlə verdiyi etibarnamənin qanunla müəyyənləşdirilmiş formal tələblərə uyğun olmasını təmin etməyə borclu idi. Hər halda həmin formal tələblər ona məlum olduqda, belə nəticə birmənalıdır. Bu kazus üzrə də vəziyyət eynidir, çünki o, hər halda C-yə formal baxımdan etibarlı etibarnamə vermişdi. Deməli, V-nin təqsiri var.

Beləliklə, Şakirin MM-in 386.3-cü maddəyə əsasən tələb hüququ var.

Tələbin həcmi müqavilənin bağlanması üçün sərf edilmiş 200 manatla məhdudlaşır. Zərərin tam ödənilməsi öhdəliyi yaranmır. Kreditorun vəziyyəti, müqavilə bağlanmış olsaydı və icra edilmiş olsaydı, olacağı vəziyyətlə bərabərləşdirilmir. Kreditor müqavilənin bağlanmasına olan boşa çıxmış inamına görə kompensasiya olaraq çəkdiyi xərclərin əvəzini əldə edir.

Nəticə: Şakir V-dən əldən çıxmış faydanı deyil, yalnız müqavilənin bağlanması üçün çəkdiyi xərclərin ödənilməsini tələb edə bilər.

b) A-ya qarşı tələb:

İddia tələbinin qanuni əsası kimi MM-in 360.1-ci maddəsi nəzərdən keçirilə bilər.

Forma tələblərinə əməl edilmədiyindən etibarsız olan etibarnamədən təmsilçilik səlahiyyəti irəli gəlmir. Təmsilçilik səlahiyyəti olmayan təmsilçi MM-in 360.1-ci maddəsinə əsasən təmsilçilik səlahiyyəti olmadan bağlanmış müqavilə nəticəsində müqavilənin qarşı tərəfinə vurulan zərəri ödəməyə borcludur. Zərərin həcmi ilə bağlı tətbiq edilən müddəa MM-in 21-ci maddəsi deyil, 459-cu maddəsidir. 459-cu maddə icra ilə bağlı öhdəliklərin icra edilməməsi üçün məsuliyyət müəyyən edir. MM-in 459.1-ci maddəsinə əsasən, əvəz ödəməyə borclu edən hal baş verməsəydi, mövcud olacaq vəziyyət bərpa edilməlidir. İlkin olaraq tərəfin üzərinə götürdüyü öhdəliyi icra edə bilmədiyindən MM-in 459.5-ci maddəsinə əsasən kreditora pul əvəzi verilməlidir.

Həm MM-in 360.1-ci maddəsi, həm də 459.1-ci maddəsindən birmənalı bəlli olur ki, zərərçəkən, müqavilə etibarlı olsaydı, olacağı vəziyyətə gətirilməlidir. Buna icra edilməmə ilə bağlı zərər deyilir, bu, həmçinin pozitiv müqavilə marağı

da adlandırılır. Zərərin əvəzinin ödənilməsi baş tutmayan icranı əvəzləməlidir. Faktiki mövcud olan vəziyyət icra ilə bağlı öhdəlik icra edilsəydi, mövcud ola biləcək hipotetik vəziyyətlə müqayisə edilir. Zərər zərərçəkənin ziyanına olan mövcud fərqdən ibarət olur (fərqləndirmə metodu).

Şakir evin baş tutmayan sonrakı satışından əldə edə biləcəyi gəlirin zərərin əvəzinin ödənilməsi kimi ona ödənilməsini tələb edir. Zərərçəkənin müqavilənin icrası nəticəsində əldə edə biləcəyi gəlir də zərərə aid edilir. Öhdəlik lazımi qaydada icra edilsəydi, məhz o durum mövcud olacaqdı (müqayisə et: MM-in 21.2-ci maddəsi).

Zərərin konkret hesablanması icra edilməmiş əqdin bütün üstünlük və çatışmazlıqları nəzərə alınmaqla fərqləndirmə aparılmasını tələb edir. Bizim kazus üçün bu nə deməkdir?

Əldən çıxmış fayda mənzilin sonrakı satışı barədə notarial qaydada bağlanmış müqavilə ilə yetərincə sübuta yetirilib. Lakin gəlir əldə edilə bilməsi üçün Şakirin ilkin olaraq evi əldə etməsi ümdə şərt olduğundan müqavilə lazımi qaydada icra edildikdə onun onsuz da çəkməli olduğu müqavilə xərcləri gəlirdən çıxılmalıdır və zərər kimi əvəzi ödənilməli deyil. Zərərin ödənilməsi varlanmaya gətirib çıxarmamalıdır.

Nəticə: Şakir A-dan müqavilə xərcləri (200 manat) çıxmaq şərtilə əldən çıxmış gəlirin (faydanın) (10.000 manat) əvəzinin ödənilməsini, yəni cəmi 9.800 manatın ödənilməsini tələb edə bilər.

Kazusun 3-cü dəyişdirilmiş variantı:

Artıq V notarial qaydada evin Elçinə satılmasına razı olduğunu bildirib. İşin hüquqi vəziyyəti üçün bunun nəticəsi nədir?

MM-in 360.2 və 357-ci maddələrinə əsasən, bəyənmə alqı-satqı müqaviləsinin və mülkiyyət hüququnun keçməsi-

nin geriyə şamil olunmaqla etibarlığına gətirib çıxarır. Elçin, geriyə şamil olunmaqla, 15.12.2008-ci il tarixdən evin mülkiyyətçisinə çevrilir.

Kazusun 4-cü dəyişdirilmiş variantı:

B-nin tərtib etdiyi və potensial alıcılara verdiyi evin təsvirində göstərilib ki, ev 1950-ci ildə tikilib və mətbəxi 2006-cı ildə yenidən əsaslı təmir olunub. Elçin müəyyənləşdirir ki, ev hələ 1935-ci ildə tikilib və mətbəxi 2000-ci ildə əsaslı təmir edilib. Notarial alqı-satqı müqaviləsində evin tikilmə ili və mətbəxin əsaslı təmir edilməsi ili göstərilməyib.

Elçinin V-yə və ya B-yə qarşı hər hansı tələbi ola bilərmi?

V-yə qarşı mümkün olan tələblər:

1. Daşınmaz əmlakın alqı-satqısı MM-in 646.1-ci maddəsində nizama salınıb. MM-in 646.2-ci maddəsinə əsasən, alqı-satqı barədə ümumi müddəalar daşınmaz əşyaların alqı-satqısına da tətbiq edilir.

Satılan əşyanın keyfiyyəti ilə bağlı tələblər MM-in 581-ci maddəsindən irəli gəlir. 581.1-ci maddəyə əsasən əşyanın keyfiyyəti alqı-satqı müqaviləsinə uyğun olmalıdır. Alqı-satqı müqaviləsində binanın tikilmə ili və mətbəx barədə heç bir tənzimləmə yoxdur. Beləliklə, müqavilədə nəzərdə tutulan keyfiyyətdən kənaraçıxma yoxdur. MM-in 581.2-ci maddəsinə əsasən, alqı-satqı müqaviləsində əşyanın keyfiyyəti haqqında şərtlər olmadıqda, satıcı alıcıya bu cür malın adətən istifadə edildiyi məqsədlərə yarayan əşya verməyə borcludur. Heç bir şübhə yoxdur ki, ev nəzərdə tutulan məqsəd, yəni yaşamaq üçün yararlıdır. Beləliklə, 581.2-ci maddəyə istinadən hər hansı bir tələb mövcud deyil.

MM-in 581.3-cü maddəsinin də yoxlanmasından söhbət gedə bilər, buna əsasən, əşyanı nümunəyə və (və ya) təsvirə əsa-

sən satarkən satıcı alıcıya nümunəyə və (və ya) təsvirə uyğun əşya verməyə borcludur. Lakin 581-ci maddə sərbəst şəkildə alıcının tələbləri üçün iddia tələbinin qanuni əsası kimi çıxış edə bilmir. Buna görə də elə bir norma tapılmalıdır ki, orada konkret tələblər göstərilsin. Bu baxımdan alqı-satqı hüququ, öhdəlik hüququnun ümumi hissəsi – öhdəliklərin icra edilməməsi (MM-in 22-ci fəsli) və öhdəliklərin icra edilməməsinə görə məsuliyyət (MM-in 23-cü fəsli) ilə bağlı qaydalar nəzərdən keçirilə biər. Daha xüsusi iddia tələbinin qanuni əsası kimi alqı-satqı hüququndan irəli gələn iddia tələbinin qanuni əsası nəzərdən keçirilməlidir. MM-in 587.1-ci maddəsində belə müddəa var. Beləliklə, iddia tələbinin tam qanuni əsası budur:

2. MM-in 581.3, 646.2-ci maddələri ilə birlikdə 587.1-ci maddəsi

a. MM-in 587.1-ci maddəsində qüsurlu əşyalardan danışılır. MM-in 581.3-cü maddəsinin tələb etdiyi kimi, satılan əşyanın təsvirə uyğun olmaması buna bərabər tututlmalıdır.

b. MM-in 587.1-ci maddəsində göstərilən 3 hüquqdan yalnız alış qiymətinin mütənasib surətdə azaldılması nəzərdən keçirilə bilər. Alıcının öz hesabına əşyanın qüsurlarını aradan qaldırması və satıcının əşyanın qüsurlarını aradan qaldırması mümkün deyil.

c. V evin təsvirini özü tərtib etməyib. Lakin MM-in 359.1-ci maddəsinə əsasən, B-nin evi təsvir etməsi V-nin adından təsviredilmə kimi qəbul edilməlidir, çünki alqı-satqı zamanı B V-nin nümayəndəsi olub və danışıqlar aparıb.

d. Təsvirin notarial qaydada rəsmiləşdirilməsi sual doğurur. MM-in 144.1-ci maddəsinin müəyyən etdiyi notarial qaydada rəsmiləşdirmə müqavilənin tərkib hissəsi olmalı olan bütün razılaşmalara aiddir. Buraya icra edilməli öhdəliklərin məz-

mun və həcmi barədə məlumatlar da aiddir. Başqa yandan, qanunla alqı-satqı predmetinin təsvirinə görə müəyyənləşdirilmiş məsuliyyət, həmin təsvirin də notarial qaydada rəsmiləşdirilməsi tələbi mövcud olarsa, boşa çıxmış olur. Alıcının müdafiəsi baxımından bunun üçün notarial formanın tələb edilməməsi daha məqsədəuyğundur (buna əks mövqe də məqbul hesab edilə bilər).

Nəticə: Elçin V-dən alqı-satqı qiymətinin mütənasib surətdə azaldılmasını tələb edə biər.

3. MM-in 581.3, 646.2-ci maddələri ilə birlikdə 587.2-ci maddəsi iddia tələbinin qanuni əsası kimi

MM-in 587.2-ci maddəsi növbəti iddia tələbinin qanuni əsası ola bilər. Hüquqi nəticə kimi burada nəzərdə tutulub ki, alıcı alqı-satqı müqaviləsinin icrasından imtina edə və əşya üçün ödədəyi pul məbləğinin geri qaytarılmasını tələb edə bilər. Bu, müqavilənin icrasından imtina hüququ kimi (müqavilənin ləğv edilməsi) qəbul edilə bilər.

Bunun şərti odur ki, əşyanın keyfiyyətinə dair tələblər önəmli dərəcədə pozulsun (qanunverici buna aid bir sıra misallar da gətirir). Keyfiyyətə dair tələblərin pozulmasının həqiqətən də önəmli olub-olmaması geniş surətdə mənafelərin tarazlaşdırılmış yoxlanmasını tələb edir. İlk növbədə qüsurun aradan qaldırılması üçün zəruri olan məsrəflər nəzərə alınmalıdır. Burada olan qüsurun aradan qaldırılması mümkün deyil. Qanun qüsurun aradan qaldırılmasının mümkün olmamasını keyfiyyətə dair tələblərin önəmli dərəcədə pozulması kimi göstərsə belə, təkcə qüsurun aradan qaldırılması imkanının olmaması önəmli pozuntudan danışmaq üçün yetərli deyil. Aradan qaldırıla bilinməyən qüsurdan doğan funksional və estetik çatışmazlıq, borclunun təqsirinin ağırlıq dərəcəsi də nəzərə alınmalıdır. Evin tikilmə ili və mətbəxin təmiri barədə yanlış məlumatlar evin çatışmazlığı kimi önəmli deyil, nəzə-

rə alınmalıdır ki, alıcı, yəqin, evdə olub və bu baxımdan evin qiymətini önəmli dərəcədə aşağı salan bir şey onun gözünə çarpmayıb. Başqa yandan, satıcının yetərincə ağır təqsiri var, burada qəsdən yanlış davranma şübhəsindən söhbət gedə bilər. Evin 15 il, mətbəxin isə 6 il «gəncləşdirilməsi» əhəmiyyətsiz bir şey kimi nəzərdən keçirilə bilməz. Beləliklə, əşyanın keyfiyyətinə dair tələblərin önəmli dərəcədə pozulmasından söhbət gedə bilər ki, bu da daha ədalətli müki dövriyyə tələbləri ilə bağlıdır.

Müqavilənin icrasından belə bir imtina hüququnun olması nəticəsinə gəlinərsə, Elçin V-yə bunu bəyan etməklə həmin hüququndan istifadə edə bilər və nəticə etibarilə evi V-yə geri qaytarmaq şərtilə ev üçün ödədiyi pulun geri qaytarılmasını tələb edə bilər.

4. MM-in 447.1-ci maddəsi iddia tələbinin qanuni əsası kimi

MM-in 447.1-ci maddəsindən irəli gələn müqavilədən imtina tələbi burada tətbiq edilə bilməz. Alıcının müqavilədən imtina hüququ xüsusi norma kimi MM-in 587.2-ci maddəsində nizama salınıb və beləliklə də xüsusi qayda olaraq müqavilələrdən irəli gələn öhdəliklərin icra edilməməsi zamanı müqavilədən imtina hüququna istinad edilməsini aradan qaldırır.

5. MM-in 443.1-ci maddəsi

Öhdəlik hüququnun ümumi hissəsinin məsuliyyət müəyyən edən bu mərkəzi normasına əsasən öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərəri ödəməyə borcludur.

a. İlk növbədə tələbə qanunun sistematikası baxımından istinad edilə bilinməsi məsələsi yoxlanmalıdır.

aa. Alqı-satqı zamanı daha xüsusi olan qarantiya tələbləri üstünlük təşkil edə bilər. Qanunda qarantiyanın üstünlük təş-

kil etməsi və ya eyni vaxtda tətbiq edilə bilməsi ilə bağlı göstəriş yoxdur. Alqı-satqı hüququnda zərərin ödənilməsi barədə tələblərin nizama salınmaması faktı ondan xəbər verir ki, yalnız qarantiya ilə bağlı tələblər tam tənzimləmə anlamına gələ bilməz. Hər halda qanunvericinin belə bir məramının olması qəbul edilə bilməz ki, o, qüsurlara görə məsuliyyəti istənilən zərərin ödənilməsi tələbinin istisna edilməsi formasında məhdud tənzimləmək istəmişdir.

bb. Müqavilələrin icra edilməməsi zamanı 447-ci maddənin qaydaları 443.1-ci maddəyə əsasən tələbi aradan qaldırmır, çünki bu müddəalar müqavilələr üçün tam və hərtərəfli xüsusi müddəalar deyil. Onlar yalnız müqavilələrdən imtinanı tənzimləyir.

b. Ev təsvirə uyğun gəlmədiyindən V B-nin onun adından üzərinə götürdüyü öhdəlikləri icra etməyib.

c. MM-in 443.1-ci maddəsinin 2-ci cümləsinə əsasən borclunun üzərinə öhdəliyi pozmağa görə məsuliyyət qoyulmadıqda, zərərin əvəzini ödəmək öhdəliyi yaranmır. Qanunun bu müddəasından bəlli olur ki, bu məsələ ilə bağlı borclunun üzərinə sübutetmə vəzifəsi düşür. V həmin sübutetməni həyata keçirə bilməyəcək. Səhv məlumatı o özü veribsə, buna görə məsuliyyət daşımalıdır. Məlumatlandırmanı B etmişsə, yenə də V MM-in 443.9-cu maddəsinə əsasən (habelə MM-in 448.3-cü maddəsnə əsasən) onun hərəkətləri üçün məsuliyyət daşıyacaq. Buna görə də səhv məlumatlandırmanı kimin həyata keçirməsi heç bir rol oynamır.

d. MM-in 447.3-cü maddəsi daha bir dəqiqləşdirmə aparır və buna əsasən borclu yalnız qəsd və ya ehtiyatsızlığa görə məsuliyyət daşıyır. V, yaxud B-nin davranışının ən azı ehtiyatsızlıqdan baş verməsi şübhəsizdir (müqayisə et» yuxarıda «c» bəndi).

6. MM-in 447.7-ci maddəsi yalnız müqavilələrdən imtina zamanı imtina ilə yanaşı mövcud zərərin ödənilməsini tənzimləyir və buna görə də burada tətbiq edilə bilməz.

Nəticə: Elçin öhdəliyin icra edilməməsi ilə əlaqədar alternativ olaraq V-dən zərərin ödənilməsini tələb edə bilər, çünki ev təsvirə uyğun gəlmir. Fərqləndirmə metoduna əsasən o, evin təsviri düzgün olsaydı, ola biləcəyi vəziyyətə gətirilməlidir. Beləliklə, o, qüsurlu və qüsursuz ev arasında olan dəyər fərqini əldə edə bilər.

B-yə qarşı tələblər

B müqavilə tərəfi olmadığından ona qarşı müqavilədən irəli gələn tələblər mövcud deyil. V-nin bəyənməsi nəticəsində o, artıq təmsilçilik səlahiyyəti olmayan təmsilçi kimi də qəbul edilə bilməz.

B-yə qarşı deliktdən irəli gələn hər hansı tələbin olması ilə bağlı işin hallarından hər hansı fakt nəzərə çarpmır.

7-ci kazus: Mübahisə edən iki sahibkar

(Podrat müqaviləsi, sabit qiymət (muzd) razılaşması, iddia müddəti, dəbbə pulu, sübutetmə yükü (vəzifəsi), sübutların qiymətləndirilməsi)

I. İşin halları

1 saylı Yerli İqtisad Məhkəməsinə

İddiaçı: Şakir Cəlilov
Ünvan: Teymur Elçin küç., 24, 1003 Bakı
Təmsilçi: səlahiyyətli nümayəndə vəkil Elçin Əhmədov
Ünvan: Nizami küç., 36, 1005

Cavabdeh: Erkin Hüseynli
Ünvan: Nərimanov küç., 22, 1005 Bakı
Təmsilçi: səlahiyyətli nümayəndə vəkil Aydan Usub
Ünvan: Aslanov küç., 17, 1005 Bakı

İddia ərizəsi

İddiaçının adından və onun mənə verdiyi səlahiyyət əsasında iddia qaldıraraq xahiş edirəm ki, cavabdeh barəsində iddiaçıya 5.700 manat məbləğin və 01.10.2008-ci il tarixdən bu məbləğ üçün hesablanan 12%-in ödənilməsi barədə qətnamə çıxarasınız.

Əsaslandırma:

Cavabdehə qarşı yönəldilən tələblərin əsasında 2007-2008-ci illərdən tərəflər arasında yaranmış müqavilə münasibətləri dayanır. Cavabdeh hələ də bu tələbləri yerinə yetirməyib. Konkret olaraq tələblərin aşağıdakı tarixçəsi var:

1. İddiaçı tikinti sahəsində çalışan sahibkardır. O, Bakıətrafı rayonlarda istehsal müəssisələrinin tikilməsi sahəsi üzrə ixtisaslaşıb.

Cavabdeh Bakıda metal hissələrin emalı ilə məşğul olan sahibkardır və o, əsas etibarilə iri metal lövhələrin müştərilərin istəyinə uyğun kəsilməsini həyata keçirir.

01.02.2008-ci ildə cavabdeh iddiaçının yanına gəlib və ondan soruşub ki, müəssisənin ərazisində onun üçün kiçik bir anbar tikməsi mümkündürmü. Bildirib ki, cavabdehin metal lövhələrin kəsilməsi ilə bağlı həddən artıq çox sifarişləri olduğu üçün hazırkı vəziyyətdə onun müəssisəsində lövhələri saxlamağa yer yoxdur. Anbarın tikintisi üçün tikinti materiallarını o özü təqdim edəcək. Onun üçün əsas olan iddiaçının tikinti işlərinə dərhal başlamasıdır, çünki təcili olaraq anbara ehtiyacı var.

İddiaçı həmin vaxt boş olduğuna və bu işdə ona rəqib tapılmasından ehtiyat etdiyinə görə sifarişi əldə etdiyini yəqinləşdirmək üçün cavabdehə o dəqiqə «hə» cavabı verir. Təbii ki, tərəflər təxmini xərclər haqqında danışıqlar da aparır. Amma tərəflər işin dəqiqliklərinə qədər aydınlaşdırılmış razılıq əldə etməyiblər. Buna baxmayaraq, qanunun tələblərinə əsasən, belə dəqiq razılaşmanın olmaması qiymətin ödənilməsindən imtina üçün əsas ola bilməz. Bundan başqa, həm də aydın idi ki, öz materiallarını sərf etmədən təkcə işlərin görülməsi halında ağlabatan şəkildə hesabların təqdim edilməsi faktiki olaraq yerinə yetirilmiş iş saatları müqabilində ola bilərdi. İşin yerinə yetirilməsi üçün tələb olunan vaxt barəsində isə o zaman hələ heç nə demək mümkün deyildi.

Bundan sonra iddiaçı cavabdehin istəyinə uyğun olaraq qısa müddətdə anbarı tikib qurtarıb. Bütün tikinti materiallarını cavabdeh verib. Bütövlükdə bütün iş üçün onun işçiləri cəmi 470

saat sərf edib. Bu faktı iddiaçının mühasibi Artur Səfərbəyov təsdiq edə bilər.

Sübut: cənab Artur Səfərbəyovun şahid ifadələri (məhkəməyə çağırışın göndərilə biləcəyi ünvan barəsində məlumat təqdim ediləcək).

Tikinti işləri başa çatdıqdan sonra cavabdeh iddiaçı ilə birlikdə 30.04.2008-ci ildə anbarı gözdən keçirib. Bu zaman cavabdeh işdən tam razı qaldığını ifadə edib və dərhal iri metal lövhələri anbara daşımağa başlayıb.

01.05.2008-ci ildə iddiaçı cavabdehə gördüyü işlər barədə hesab təqdim edib. Bu zaman iddiaçı 470 saat iş üçün hər saatı 10 manat hesablamaqla balaca anbarın tikintisi üçün cəmi 4.700 manat tələb edib.

Sübut: cənab Artur Səfərbəyovun şahid ifadələri.

Saathesabı hesablanan bu qiymət həmin ərazidə tikinti sahəsi üçün ümumiliklə qəbul edilən tariflərə uyğun gəlir. Ona görə də iddiaçının bu qiyməti tələb etmək hüququ var.

Lakin cavabdeh həmin məbləği ödəməkdən imtina edir. Cavabdeh iddiaçının 01.09.2008-ci il tarixli 4.700 manat məbləği 30.09.2008-ci il tarixədək ödəmək tələbini ifadə edən xəbərdarlığına da məhəl qoymayıb.

Sübut: 01.09.2008-ci il tarixli xəbərdarlıq məktubu.

2. Bundan bir il əvvəl, yəni 01.04.2007-ci ildə cavabdeh iddiaçıya təklif etmişdi ki, ondan 2000-ci il buraxılışlı istifadə edilmiş «Liebherr» firmasının «Garant» markalı avtokarını satın alsın. Müəssisəsində çoxalmış sifarişlərin öhdəsindən gəlmək məqsədi ilə cavabdehin avtokara təcili ehtiyacı olduğu üçün o, bunun müqabilində 13.000 manat nağd pul ödəməyə hazır idi.

Öz növbəsində bu müqavilənin bağlanmasında maraqlı olan iddiaçı cavabdehə deyib ki, o, avtokarı ala bilər, ancaq bu, müqavilə qiyməti 14.000 manat olarsa, baş tuta bilər. Onun

həmin anda hər bir əlavə manata ehtiyacı olduğunu və cavabdehə xüsusi qiymət təklif edə bilmədiyini demişdir.

Cavabdeh bununla dərhal razılaşıb. O, 13.000 manatı nağd ödəyib və söz verib ki, qalan hissəni növbəti günlərdə ödəyəcək, çünki qalan hissəni hələ bankdan götürməlidir. O, avtokarı dərhal özü ilə götürüb, lakin 1.000 manatın ödənilməsi ilə bağlı dəfələrlə telefonla edilən tələblərə baxmayaraq, bu günə kimi ödəməyib.

01.09.2008-ci il tarixli məktub ilə iddiaçı yenə cavabdehə qalan hissəni 30.09.2008-ci il tarixədək ödəməsi ilə bağlı tələb irəli sürüb.

Sübut: 01.09.2008-ci il tarixli xəbərdarlıq məktubu.

Amma cavabdeh bu məktuba da məhəl qoymayıb.

3. İddiaçının indi pisləşən tikinti konyunkturu şəraitində təcili olaraq anbarın tikintisi ilə bağlı sifarişdən və avtokarın satışından olan pula ehtiyacı var. Cavabdehin pulu verməkdən imtina etməsi ilə iddiaçı məcbur olub ki, bankdan 01.10.2008-ci il tarixdə 12%-ə 6.000 manat məbləğində kredit götürsün. Faizlərin ödənilməsi ona get-gedə daha çox çətinliklər yaradır, çünki tikinti sahəsində vəziyyət getdikcə pisləşir.

Cavabdeh iddianın bu əlavə yüklülüklərinə görə cavab verməlidir. Çünki cavabdeh öhdəliklərini vaxtında yerinə yetirsəydi, iddiaçı bankdan kredit götürmək məcburiyyətində qalmazdı.

Bütün bu sadalanan hallar iddiaçının məhkəmə qaydasında iddia qaldırmasına səbəb olub.

İmza: vəkil Elçin Əhmədov

16 iyul 2009-cu il

1 saylı Yerli İqtisad Məhkəməsinə

Cavabdeh: Erkin Hüseynli
Ünvan: Nərimanov küç., 22, 1005 Bakı
Təmsilçi: səlahiyyətli nümayəndə vəkil Aydan Usub
Ünvan: Aslanov küç., 17, 1005 Bakı

İddiaçı: Şakir Cəlilov
Ünvan: Teymur Elçin küç., 24, 1003 Bakı,
Təmsilçi: səlahiyyətli nümayəndə vəkil Elçin Əhmədov
Ünvan: Nizami küç., 36, 1005

İddia ərizəsinə etiraz

Şakir Cəlilovun Erkin Hüseynliyə qarşı işində cavabdehi təmsil edirəm. Şifahi məhkəmə iclasında iddianın rədd edilməsi tələbini irəli sürəcəyəm.

Əsaslandırma:

İddiaçı cavabdeh qarşısında faktiki və hüquqi baxımdan əsla mövcud olmayan tələblər irəli sürür. O, işin hallarını təhrif edir və səhv təqdim edir. İddianın hüquqi nəticələri barədə əlavə şərh verməyə ehtiyac yoxdur, çünki onlar Azərbaycan Respublikası mülki hüququna ziddir.

Anbarla bağlı qeyd etmək lazımdır ki, cavabdeh həqiqətən də iddiaçıya onun tikilməsi ilə bağlı sorğu edib. Bundan əlavə, onların 01.02.2008-ci ildə bununla bağlı razılaşma əldə etdiyi də mübahisələndirilmir. Ancaq cavabdehin müqaviləni bağlamağı tezləşdirməyi israr etməsi barədə iddiaçının sözləri həqiqətə uyğun deyil. Əslində iddiaçı özü elə həmin gün «dəmiri isti-isti döyməyə» can atıb. Cavabdeh iddiaçıya anbarın tikintisi ilə bağlı sorğu verdiyi gün iddiaçı özü israrlı şəkildə elə həmin gün razılaşmanı əldə etməyin üstündə

dayanıb. O deyib ki, «sifarişə təcili ehtiyacı var və ona görə də elə dərhal sifarişi yerinə yetirməyə hazırdır; cavabdehə münasibətdə endirilmiş qiymətlə də çıxış edə bilər, təki onlar həmin gün bütün «formallıqları» həll etsinlər».

Cavabdehi iddiaçının bu cür hərəkəti bir qədər təəccübləndirib. Çünki kiçik bir obyektlə bağlı olsa da, hər hansı tikinti layihəsi ilə bağlı bir neçə dəqiqə içərisində razılıq əldə etmək adət olunmuş hal deyil. Amma cavabdeh iddiaçının endirilmiş qiymət təklif etdiyinə və uzun sürən müqavilə razılaşdırmaları ilə məşğul olmaq məcburiyyətindən azad olmaq imkanına sevindiyi üçün dərhal razılıq verib, bu şərtlə ki, sabit qiymət kimi 3.000 AZN müəyyənləşdirilsin. İddiaçı bu qiymətə etiraz bildirməyib və deyib ki, qiymət qaydasındadır. Ona görə də işin yerinə yetirilməsinə görə haqq kimi 4.700 manatdan söhbət gedə bilməz.

Sübut: şahid Müşfiq Məmmədovun ifadələri (çağırılması üçün ünvan təqdim ediləcək).

Hazır anbarı cavabdehin gözdən keçirməsi ilə bağlı iddiaçının dəlili isə tamamilə yanlışdır. Düzdür, cavabdeh anbarı tikiləndən sonra iddiaçı ilə birlikdə gözdən keçirib, amma o, anbardan tam razı qalmayıb. Əksinə, gözdən keçirmə zamanı cavabdeh bir neçə nöqsan aşkar edib və iddiaçıya göstərib. Bəzi nöqsanlar kifayət qədər ciddi olduğu üçün cavabdehlə iddiaçı belə razılığa gəliblər ki, 3.000 AZN işin yerinə yetirilməsi muzdu bütün nöqsanlar aradan qaldırıldıqdan sonra ödəniləcək. Ona görə də iddiaçının muzdu tələb etmək hüququ hələ yaranmayıb. O, ilk növbədə onun özünə də dəqiq məlum olan həmin nöqsanları aradan qaldırmalıdır.

Avtokarla bağlı iddiaçının dediklərinin o hissəsi düzgündür ki, həqiqətən də cavabdeh iddiaçıdan onu alıb. Həqiqətən də cavabdehin 2007-ci ilin aprel ayında təcili olaraq avtokara ehtiyacı olub və iddiaçının şəxsində satıcı tapıb. Cavabdeh

mübahisələndirmir ki, intensiv danışıqlardan sonra alış qiyməti kimi 14.000 AZN razılaşdırılıb və cavabdeh əvvəl ancaq 13.000 AZN məbləği nağd ödəyə bilib.

Ancaq iddiaçının tələbi ilə bağlı iddia müddəti artıq keçib və cavabdeh birmənalı olaraq iddia müddətinin keçməsinə istinad edir. Bundan başqa, iddiaçı tərəflər arasında olan başqa razılaşma, yəni onların təsadüfən «Neftçi» və «İnter» futbol oyununda görüşdükləri zaman əldə etdikləri razılaşma barəsində susur. Çünki oyunda fasilə zamanı iddiaçı həmin 1.000 manat məbləğində borcu ona bağışlayıb. Bunu cavabdehin işçisi Lalə Başlinskaya da təsdiq edə bilər. Cavabdeh əmək vəzifələrini yaxşı yerinə yetirdiyinə görə mükafat olaraq onu həmin gün futbol oyununa gətirmişdi. Ona görə də o, cavabdeh ilə iddiaçı arasında olan söhbəti eşidib.

Sübut: Xanım Lalə Başlinskayanın şahid ifadələri.

Son olaraq qeyd olunmalıdır ki, faizlərə görə tələbin irəli sürülməsi, ümumiyyətlə, başadüşülən deyil. İddiaçının 5.700 AZN məbləğində 12%-ə kredit götürməsi tamamilə reallıqdan uzaqdır. Hansı iş adamı belə gülünc bir məbləğə görə kredit götürür?

İmza: Aydan Usub, vəkil

29.07.2009-cu il

1 saylı Yerli İqtisad Məhkəməsinə

İddiaçı: Şakir Cəlilov
Ünvan: Teymur Elçin küç., 24, 1003 Bakı
Təmsilçi: səlahiyyətli nümayəndə vəkil Elçin Əhmədov
Ünvan: Nizami küç., 36, 1005

Cavabdeh: Erkin Hüseynli
Ünvan: Nərimanov küç., 22, 1005 Bakı
Təmsilçi: səlahiyyətli nümayəndə vəkil Aydan Usub
Ünvan: Aslanov küç., 17, 1005 Bakı

Etirazla bağlı izahat

Cəlilovun Hüseynliyə qarşı işi üzrə cavabdehin 29 iyul 2009-cu il tarixli etirazı ilə bağlı aşağıdakıları bildirmək istəyirəm:

Cavabdehin iddia etdiyi 3.000 manat məbləğində sabit qiymət haqqında razılaşma olmayıb. Artıq qeyd olunduğu kimi, bu cür razılaşmanın olması mövcud olan faktiki şəraitdə absurddur. Materialları sifarişçi təmin etdiyi hallarda sabit qiymət haqqında razılaşma sadəcə mənasızdır. Cavabdeh bu cür razılaşmanın olduğunu iddia edirsə, onda o, bunun üçün sübutlar təqdim etməlidir. Bunu isə o edə bilməz, çünki bu cür razılaşma olmayıb. Bu, cavabdehin yalan danışdığını göstərir. Görünür ki, öz öhdəliklərini yerinə yetirməmək üçün o, istənilən vasitəyə əl atmaqdan çəkinmir.

Eyni zamanda, cavabdehin qüsurlarla bağli iddiaları da yalandır. İddiaçı kiçik anbarı qüsursuz tikib və cavabdeh heç bir şikayət olmadan onu təhvil alıb. Ona görə də muzdun ödənilməsinin hansısa qüsurların aradan qaldırılmasına kimi təxirə salınması barədə heç bir razılıq olmayıb. Bundan əlavə, cavabdehdən xahiş olunur ki, söhbətin hansı qüsurlardan getdiyi barədə məlumat versin.

Futbol oyununda borcun qalan hissəsinin bağışlanması barəsində razılaşmanın olması barədə iddia da həqiqətə uyğun deyil. Bunun üçün heç bir əsas olmayıb. İddiaçının əsl «İnter» azarkeşi olmasına baxmayaraq, o, bu cür pul məbləğlərindən imtina edən milyoner deyil. Bundan əlavə, o, heç yadına sala bilmir ki, həmin futbol oyununda cavabdehlə qarşılaşıb.

Cavabdehin tələblə bağlı iddia müddətinin keçməsi barədə arqumentinin qanuni əsası yoxdur. Bundan başqa, vicdanlı işgüzar adama iddia müddətinin keçməsinə istinad etmək yaraşmır.

İddiaçının kreditlə bağlı göstərdikləri düzgündür. İddiaçı artıq iddia ərizəsində göstərildiyi kimi, 01.10.2008-ci ildə «Bank of Baku»dan 6.000 manat məbləğində 12%-ə kredit götürməyə məcbur olub.

İmza: Elçin Əhmədov, vəkil

07.08.2009

İşdən çıxarış

İddiaçının bildirdikləri	Cavabdehin bildirdikləri
VII. Tələblər	
5.700 manat + 01.08.2008-ci ildən başlayaraq 12% ödənilməsi.	İddianın rədd edilməsi.
VIII. İşin faktiki halları 1.	
01.10.2008-ci ildə anbarın tikintisi barədə sifariş.	+
Muzd barədə razılaşma əldə edilməyib.	3.000 manat muzd barəsində raşılaşma olub (şahid Məmmədov).
Hər biri 10 manat hesabı ilə 470 iş saatına görə hesab (şahid Səfərbəyov). Saathesabı qiymətlər ümumiliklə qəbul olunmuş adi qiymətlərdir.	+
Anbar hazır olduqdan sonra onun 30.04.2008-ci ildə birgə yoxlanması.	+
–	Qismən ciddi qüsurlar aşkarlanıb.

Cavabdeh tikilini şikayətsiz qəbul edib.	30.04 tarixində qüsurlarla bağlı pretenziya, muzdun yalnız qüsurlar aradan qaldırılandan sonra ödənilməsi barədə razılaşma.
01.09.2008-ci ildə xəbərdarlıq və 30.09.2009-cu il tarixinə qədər müddət müəyyən etmə.	+
2. Avtokar barəsində 01.04.2007-ci il tarixli alqı-satqı müqaviləsi, qiymət 14.000 manat	+
13.000 manatın ödənilməsi	+
01.09.2008-ci ildə xəbərdarlıq və 30.09.2009-cu il tarixinə qədər müddət müəyyən etmə.	İddia müddətinin keçməsinə istinad. Futbol oyununda borcun qalan hissəsinin bağışlanması.
3.	
6.000 manat məbləğində 12 faizlə bank krediti.	–

1 saylı Yerli İqtisad Məhkəməsinin
açıq məhkəmə iclasının protokolu

Bakı 29.08.2009

Hakim Günel Əliyevanın sədrliyi ilə

Şakir Cəlilovun Erkin Hüseynliyə qarşı iddiası üzrə işə baxıldı.

Dəvətə əsasən gəliblər:

İddiaçı vəkili Elçin Əhmədovla,

Cavabdeh vəkili Aydan Usubla,

Dəvət olunmuş şahid Lalə Başlinskaya.

Şahid onun məsuliyyəti barədə təlimatlandırılıb və sonra iclas zalını tərk edib.

İddiaçının nümayəndəsi 16 iyul 2009-cu il tarixli iddia ərizəsi üzrə tələbini irəli sürdü.

Cavabdehin təmsilçisi iddianın rədd edilməsi barədə tələbini irəli sürdü.

İşin faktiki və hüquqi halları iştirakçılarla müzakirə edildi. Barışıq sazişinin bağlanmasına dair cəhdlər nəticəsiz qaldı.

Qərara alındı və elan olundu:

Cavabdehin futbol oyunu gedişində avtokarın alqı-satqısından qalan 1.000 manatdan iddiaçının imtina etməsi ilə bağlı razılaşma ilə bağlı dəlili ilə əlaqədar şahid Lalə Başlinskaya dindirilməklə sübut araşdırıldı.

Şahid Lalə Başlinskaya aşağıdakı kimi dindirilib:

Şəxsiyyətinə dair:

Lalə Başlinskaya, yaşı 28, ixtisası tərcüməçi, Bakı şəhərində yaşayır, tərəflər ilə birbaşa və ya dolayı qohumluq əlaqəsi yoxdur.

İşə aid:

Bu hadisə çox yaxşı yadımdadır. Mən öz müdirim, yəni cavabdehlə birlikdə stadiona getmişdim. O, məni işdə yaxşı xidmətlərimə görə bu oyuna dəvət etmişdi, çünki o, böyük futbol azarkeşi olduğumu bilir. Bu zaman biz iddiaçıya rast gəldik. O vaxt oyun «İnter» üçün çox pis keçirdi, dəqiq yadımdadır, fasilədə hesab 0:2 idi. Deyəsən, bu zaman 2008-ci ilin mart ayı idi. Hər halda müdirim fasilədə danışırdı ki, onun iddiaçıdan aldığı avtokar qüsurludur. Benzin injektorunun qüsurlu olması nəticəsində o, həddən artıq çox yanacaq sərf edir. «İnter»in Müşahidə Şurasında oturan bir vəkil, adı dəqiq yadımda qalıbsa, cənab dr. Babayev söhbəti təsadüfən eşitdi və gülərək dedi ki, bütün bunların iddia müddəti çoxdan ötürülüb.

Bundan sonra iddiaçı belə bir ifadə dedi: «İnter» bu gün oyunu udsa, satış qiymətindən qalan borcu sənə bağışlayacam».

«İnter» sonra doğrudan da – bir qədər bəxti gətirməklə, əsassız 11 metrlik cərimə zərbəsi və avtoqol hesabına – oyunu uddu. Stadionda dəhşətli izdiham var idi və biz hamımız çox həyəcanlı idik. Oyunun sonunda cavabdeh iddiaçıya dedi: «Qələbə sənin üçün tam bir minə başa gəldi!» Buna cavab olaraq iddiaçı dedi: «Mənim üçün buna dəyərdi. Bundan əlavə, bilmək istəyirsənsə, ancaq yaramaz adam iddia müddətinin keçməsinə istinad edə bilər».

İddiaçının nümayəndəsinin sualına cavab olaraq:

Mən tam əminəm ki, bütün hadisələr bu cür baş vermişdi. Heç də hər gün belə hadisə baş vermir ki, «İnter» bu hesabla geridə olsun. Mən bilirəm ki, o gün günəş parlayırdı, çünki müdirim məni özünün kabrioleti ilə götürmüşdü və biz örtüyü açmışdıq.

II. Hüquqi rəy

I. Anbar tikintisi

1. İddiaçının bildirdikləri

İddiaçının 4.700 AZN məbləğində işin yerinə yetirilməsi haqqının ödənilməsinə dair tələbi MM-in 769, 770-ci maddələri ilə birgə 752-ci maddəsindən irəli gələ bilərdi. Bunun üçün (a) tərəflərin eitbarlı podrat müqaviləsi bağlamaları, (b) müqavilə üzrə işin yerinə yetirilməsi, (c) cavabdehin işi təhvil alması və (d) iş üzrə muzdun məbləğinə görə əsaslandırılması ilkin zəruri şərtlərdir.

a. Tərəflər arasında bağlanmış podrat müqaviləsi MM-in 752-ci maddəsinin tələblərinə uyğun gəlir. İddiaçı razılaşmaya əsasən anbar tikməli idi. İddiaçının məruzəsinə əsasən, işə görə muzd barəsində razılaşma olmasa da, bu, podrat müqaviləsinin etibarlı olmasına təsir etmir. MM-in 753.1-ci maddəsinin 2-ci cümləsinə əsasən, «həmin şəraitdə podratın yalnız muzd müqabilində yerinə yetirilməsi ehtimal edilirsə, belə hesab edilir ki, muzd dinməz razılıq əsasında şərtləşdirilib». Belə hal burada var. Tərəflər müqaviləni sahibkarlıq fəaliyyəti çərçivəsində bağlamışdılar və ona görə də görülmüş işə görə muzd gözləyə bilərdilər. Bu, hansısa lütfkarlıq deyil. Ona görə də susmaqla əldə edilən (dinməz razılıq əsasında) muzd haqqında razılaşmadan çıxış etmək olar[90].

b) İddiaçı anbarı tikib (müqayisə et: MM-in 769-cu maddəsi).

c) MM-in 770-ci maddəsinin 2-ci cümləsinə əsasən şifarişçi işi qəbul etdikdə muzd ödəməlidir. Qəbul etmə dedikdə, cis-

[90] MM-in 753.1-ci maddəsinin 2-ci cümləsi ümumi prinsipdən, yəni müqavilənin qüvvəyə minməsi üçün həmişə tərəflərin onun tənzimlənməsi tələb olunan bütün şərtlərini razılaşdırması prinsipindən qanunla müəyyən olunmuş istisnadır.

mani olaraq təhvil alma (işin növünə görə bu, mümkün olduğu halda) və işin müqaviləyə uyğun olduğunu təsdiqləmək başa düşülür. İddiaçının məruzəsinə əsasən cavabdeh anbarla bağlı ram razılığını ifadə edib və heç bir nöqsanla bağlı şikayət bildirmədən onu təhvil alıb. O, anbarı dərhal təyinatına uyğun istifadə etməyə də başlayıb. Ən azı bu halı işin qəbulu kimi başa düşmək olar. Beləliklə, işlə bağlı muzdun ödənilməsi tələbi yaranıb.

b. Muzdun məbləği, bir qayda olaraq, tərəflərin razılaşmasına əsasən müəyyən edilir (MM-in 753.1-ci maddəsinin 1-ci cümləsi). Tərəflər isə bu halda muzdun miqdarı ilə bağlı dəqiq razılaşdırma əldə etməyiblər (bax: yuxarıda). Bu hal üçün MM-in 753.1-ci maddəsinin 3-cü cümləsi tətbiq olunur, yəni adi muzdun şərtləşdirildiyi hesab olunur. İddiaçının deməsinə görə, həmin ərazi üçün adi (ümumi qəbul edilən) muzd kimi saata 10 manat qəbul edilir. Cəmi 470 saat olduğu halda ümumilikdə 4.700 manat məbləğində muzd tələbi yaranır.

İddiaçının deməsinə görə, muzdun tələb edilməsi ilə bağlı iddia əsaslıdır.

2. Cavabdehin bildirdikləri

Cavabdehin bildirdikləri o zaman əhəmiyyətli sayılır ki, o, – düzgün olduğu güman olunduğu halda – iddiaçının tələblərini təkzib etsin/heçə endirsin.

a. Cavabdeh tərəflərin anbarın tikilməsi haqqında podrat müqaviləsi bağladıqlarını mübahisələndirmir.

b. O, anbarın tikilib hazır edilməsini də mübahisələndirmir.

c. Cavabdeh qismən ciddi qüsurların olduğuna istinad edir və bildirir ki, o, bu qüsurlar barədə anbarın birlikdə gözdən keçirilməsi zamanı iradlarını aprelin 30-da iddiaçıya bildirib. Bu şəraitdə göstərilən halın işin qəbul edilməsini istisna edən hal hesab edilməsi sual doğurur. MM-in 773-cü maddəsindən

irəli gəldiyi kimi, qüsurlar aşkar edildiyi halda da, bir qayda olaraq, işin qəbul edilməsi mümkündür. Bu halda nəzərə almaq lazımdır ki, cavabdeh anbarın hazır olmasından sonra onun qəbulundan imtina etməyib, əksinə, anbardan dərhal lövhələrin saxlanması üçün istifadə etməyə başlayıb. Sonuncu faktı cavabdeh özü də mübahisələndirmir. İddiaçı cavabdehin bu cür münasibətini, göstərilən iradlara baxmayaraq, elə başa düşə bilərdi ki, cavabdeh hər bir halda tikintini qəbul edir. Cavabdehin də bu şəraiti belə qəbul etməsi istiqamətində o faktor çıxış edir ki, əks halda o, muzdun ödənilməsinin qüsurların aradan qaldırılmasına kimi təxirə salınmasını (onun məruzəsini düzgün hal kimi qəbul etsək) iddiaçı ilə aydın şəkildə razılaşdırmazdı. Çünki işin qəbul edilməsindən imtina edildiyi halda söhbət, ümumiyyətlə, muzdun ödənilməsindən gedə bilməzdi.

İşin qəbul edilməsi ilə icra vaxtının çatması qüsurların aradan qaldırılmasına qədər təxirə salına bilərdi. Bu cür razılaşma müqavilə azadlığı prinsipinə görə mümkündür (MM-in 6.1.2-ci və 6.1.5-ci maddələri). MM-in 770-ci maddəsi dispozitiv normadır və tərəflər bundan fərqli qayda barədə razılığa gələ bilərlər.

Cavabdeh öncə əsaslandırılmış şəkildə iddia etdi ki, anbarın tikintisində qüsurlar olduğundan o, muzdun ödənilməsinin ancaq bütün bu qüsurlar aradan qaldırıldıqdan sonra həyata keçiriləcəyini iddiaçı ilə razılaşdırıb. Belə halda iddiaçı qüsurların və belə razılaşmanın olmasını mübahisələndirdikdən sonra cavabdeh öz gümanlarını konkretləşdirməli idi. Çünki sübutetmə yükü həmişə dinamik olaraq qarşı tərəfin dəlillərinə münasibətdə formalaşır. Hansı tərəf mübahisələndirirsə (burada iddiaçı etdiyi kimi) onda qarşı tərəf dəlillərini daha dəqiq və ətraflı düşünməlidir ki, bu da burada tələb olunur. Bu, hər bir halda o zaman qüvvədə olur ki, söhbət tərəfin öz həyat şərt-

lərinə aid faktlardan getsin və tərəf asanlıqla buna aydınlıq gətirə bilsin. Həmin tərəf bu halda daha dəqiq və ətraflı ifadə vermək vəzifəsi daşıyır. Beləliklə, cavabdeh dəqiqliklə əsaslandırmalı idi ki, hansı şəraitdə iddia edilən razılaşma bağlanıb və söhbət konkret olaraq hansı qüsurlardan gedir. Bunu isə o, onun üçün heç bir çətinlik olmadan edə bildiyi halda, etməyib. Deməli, konkret şəraitdə daha dəqiq izah etmək vəzifəsini yerinə yetirməyib və məhkəmə cavabdehin bu hissədəki dəlillərini yekun qərarı qəbul edərkən nəzərə almamalıdır. Cavabdehin bu hissədə mübahisələndirməsi əhəmiyyətsizdir.

(Qeyd: Hətta cavabdehin dəlillərinin yetərincə əsaslandırılması fikri irəli sürülsə də, bu, son nəticəni dəyişməzdi. Çünki bu halda cavabdeh muzdun ödənilməsinin təxirə salınması haqqında iddiası üçün sübut gətirməli idi. Bu iddia onun üçün sərf edən haldır və MPM-in 77.1-ci maddəsinə görə, sübutetmə yükünü o daşıyır. Cavabdeh isə sübut təqdim etməyib, ona görə də onun məruzəsi bu hissədə əhəmiyyətsiz kimi qəbul edilməlidir).

d. Muzdun miqdarına gəldikdə isə, cavabdeh nə hesablanan iş saatlarının həcmini, nə də saathesabı məbləğin adi qəbuledilən olmasını mübahisələndirir. Amma etiraz edir ki, iddiaçı ilə muzd barəsində 3.000 manat miqdarında sabit qiymət razılaşdırılıb. İddia onun dəlillərinə əsasən qismən əsassız olmalı idi. Beləliklə, cavabdehin etirazı əhəmiyyətlidir.

Ancaq cavabdehin «d» bəndində olan etirazı əhəmiyyətlidir. O, iddianın qismən əsassız olmasına səbəb olur.

3. İşin faktiki hallarının müəyyənləşdirilməsi

İddiaçının və cavabdehin dəlilləri «d» bəndi ilə bağlı üst-üstə düşmür. Deməli, yoxlanmalıdır ki, məhkəmə işin hansı faktiki hallarını hüquqi dəyərləndirməsi üçün əsas götürmə-

lidir. Hər hansı fakt tərəflər arasında mübahisəlidirsə, onda sübutetmə yükü müəyyən edir ki, kim hansı faktın sübut edilməsi üçün məsuliyyət daşıyır və kim sübut əldə edilmədiyi halda bundan zərər çəkir. Ona görə birinci növbədə sual qoyulmalıdır ki, muzdun miqdarı haqqında mübahisəli fakta görə sübutetmə vəzifəsi kimin üzərinə düşür.

MPM-in 77.1-ci maddəsinə istinad etdikdə, belə təəssürat yarana bilərdi ki, sabit qiymət razılaşmasının olması haqqında iddia üçün sübutetmə yükünü cavabdeh daşıyır, çünki bu hal onun xeyrinədir. Cavabdeh bununla bağlı şahid Məmmədova istinad edib, onu dindirmək lazım idi. Çox vaxt olduğu kimi, burada da MPM-in 77-ci maddəsinin ayrılıqda tətbiqi bir nəticəyə gətirib çıxarmır. Başqa şəxslər kimi, sahibkarın da tələblərini əsaslandıran bütün halları sübut etməli olması gözdən qaça bilər. İkitərəfli müqavilələr üzrə tələblər zamanı buraya, bir qayda olaraq, əvəzli müqavilənin bağlanması və razılaşdırılmış qarşılıqlı öhdəliyin həcmi də daxildir. Beləliklə, sahibkar sifariş verənin daha az qiymətin razılaşdırılması haqqında iddiasını təkzib edən sübutlar gətirməlidir.

Bu nəticə həm də MM-in 753.1-ci maddəsinin mətnindən irəli gəlir. Çünki buna əsasən muzdun miqdarı razılaşdırılmadığı halda, adi muzdun olduğu hesab edilir. Ona görə də iddiaçı sübut etməlidir ki, iddia edilən sabit qiymət barədə razılaşma olmayıb[91].

İddiaçı heç bir sübut təqdim etməyib. Bununla da sübutetmə yükü onun ziyanına işləyir və onun dəlilləri məhkəmənin yekun qərarı çıxarılarkən nəzərə alınmayacaq. Məhkəmə 3.000 manat sabit qiymət razılaşmasının olmasından çıxış edəcək. Sübutetmə vəzifəsi daşımayan cavabdehin şahidi dindirilməli deyil, çünki o, qarşı tərəfin şahididir.

---

[91] Bu nəticə oxşar qanuni tənzimlənmə olan Almaniyanın yuxarı instansiya məhkəmələrinin sabit məhkəmə praktikasına uyğun gəlir.

Nəticə: İş üzrə muzdun ödənilməsinə dair iddia ancaq 3.000 AZN miqdarında əsaslandırılıb, qalan hissədə isə əsassızdır.

II. Avtokarın alqı-satqısı

1. İddiaçının dəlilləri:

Alış qiymətinin qalan hissəsinin ödənilməsi ilə bağlı iddiaçının tələbi MM-in 567-ci maddəsindən irəli gələ bilərdi[92]. Bu maddəyə əsasən alıcı satıcıya razılaşdırılmış alış qiymətini ödəməlidir. Bunun üçün ilkin şərtlər kimi etibarlı alqı-satqı müqaviləsinin olması (a) və tələbin icra müddətinin çatması (b) çıxış edir.

a. İddiaçının dəlillərinə əsasən, MM-in 567-ci maddəsinə uyğun olaraq alqı-satqı müqaviləsi bağlanıb. Tərəflər razılaşıblar ki, cavabdeh avtokarı 14.000 manata əldə edir. Cavabdeh 13.000 manat ödəyib. Ona görə də 1.000 manat miqdarında hissəyə tələb hələ də qalır.

b. Başqa razılaşmalar olmadığına görə alış qiymətinin ödənilməsinə dair tələb MM-in 427.2-ci maddəsinə əsasən yaranıb.

Ancaq iddiaçının məruzəsindən çıxış edilərsə, onda avtokarla bağlı iddia əsaslıdır.

2. Cavabdehin məruzəsi:

a. Avtokara dair alqı-satqı müqaviləsinin olmağını və 1.000 manat qalıq borcun ödənilməməsini cavabdeh mübahisələndirmir. Amma tələb MM-in 546-cı maddəsinə əsasən borcun bağışlanması yolu ilə aradan qalxa bilərdi. Cavabdeh bildirir

[92] Bu halda söhbət ikitərəfli sahibkarlıq alqı-satqısından, yəni göndərmə müqaviləsindən gedir. Amma MM-in 627-ci maddəsində olan xüsusi müddəalardan da başqa qaydalar irəli gəlmir.

ki, iddiaçı və o, «Neftçi» Bakı və «İnter» Bakı futbol oyununda cavabdehin ödəməli olduğu 1.000 manatı ödəməkdən azad edilməsini razılaşıblar. Cavabdehin bu iddiası iddiaçının bildirdikləri ilə birgə araşdırılmalıdır.

b. Bundan asılı olmayaraq tələbin, ümumiyyətlə, həyata keçirilə bilməsinin mümkünlüyü sual doğurur. Cavabdeh bununla bağlı iddia müddətinin keçməsinə istinad edir (MM-in 375.2-ci maddəsi). MM-in 373.2-ci maddəsinə əsasən müqavilə öhdəlikləri üzrə tələb üçün iddia müddəti 3 ildir. İddia müddətinin axımı MM-in 377.3-cü maddəsinə əsasən kreditorun icranı tələb etmə hüququnun yarandığı andan başlayır. Bu halda ödəmə tələbi 2007-ci il aprelin 1-də yarandığı üçün iddia müddəti ancaq 2010-cu il aprelin 1-də keçəcək. Buna görə də borcun qalıq hissəsi ilə bağlı tələb məhkəmə qərarı anında (2009-cu ilin payızı) hələ də irəli sürülə bilər.

Cavadbehin etirazı önəmlidir, çünki iddianın qismən əsassız olmasına səbəb ola bilər.

3. İşin hallarının müəyyənləşdirilməsi:

İddiaçı və cavabdehin məruzələri bir-birindən «2. a» hissəsində uyğunsuzluq təşkil edir. Deməli, müəyyən edilməlidir ki, bu hissədə də məhkəmə hansı halları məhz işin halları kimi hüquqi həllin əsasına qoymalıdır.

MPM-in 77.1-ci maddəsinə əsasən, bir qayda olaraq, hər tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Buna əsasən cavabdeh borcun bağışlanması barədə müqaviləsinin olduğunu sübut etməlidir.

Məhkəmə cavabdehin gətirdiyi şahidi dindirib. Şahidin ifadələri cavabdehin iddialarını təsdiq edir. Onlar həm də inandırıcıdır, çünki detallı, ağlabatan və ziddiyyətsizdir. Vəkil dr. Babayevin qeydi, oyuna üstü açıq kabrioletlə getməsi kimi kiçik detallar belə şahidin yadındadır. O, görüşün ümumi

gedişini çox yaxşı xatırlayır. Şahidə inanmamağa əsas da yoxdur. Təkcə cavabdehin işçisi olması faktı onun düzgünlüyünə şübhələnməyə əsas vermir. Bu cür şübhənin olması üçün onun ifadələrində həmin ifadəni müəyyən maraqlara xidmət edən ifadə kimi qiymətləndirməyə əsas verən konkret istinadlar olmalı idi.

Beləliklə, cavabdeh iddia edilən faktın sübut edilməsinə nail olub.

Nəticə: Avtokarın qiymətinin qalan hissəsinin ödənilməsinə dair iddia əsassızdır və rədd edilməlidir.

Əsas tələbə dair yekun nəticə (5.700 AZN): Mümkün olan iddia ancaq 3.000 manat məbləğində əsaslıdır. Qalan hissələrdə iddia rədd edilməlidir.

III. Faizlər (3.000 manat üçün)

1. İddiaçının məruzəsi

İddiaçının MM-in 445-ci maddəsinə əsasən 01.10.2008-ci ildən 12% tələb etmək hüququ ola bilərdi. Bu maddəyə əsasən borclu icranı təqsirli olaraq gecikdirməsinə görə məsuliyyət daşıyır. İlkin şərtlər kimi (a) iddiaçının cavabdeh qarşısında icranı yerinə yetirmək tələbinin olması, (b) cavabdehin icranı gecikdirməsi, (c) cavabdehin təqsirli olması, və (d) göstərilən faizlərin gecikdirmə nəticəsində yaranan zərər kimi çıxış etməsi göstərilməlidir.

a. Yuxarıda müəyyən edilənlərə görə iddiaçının 3.000 manatı ödəməyi tələb etmək hüququ var. Cavabdehin iddia etdiyi muzdun ödənilməsinin təxirə salınması barədə razılaşma yoxdur.

b. Gecikdirmə o halda baş vermiş sayılır ki, borclu icranı müddətin təyin edilməsi ilə edilmiş xəbərdarlıqdan sonra da

icra etməsin (MM-in 445.2-ci maddəsi). İddiaçı cavabdehi 01.09.2008-ci il tarixdə göndərilmiş məktubla xəbərdar edib və eyni zamanda 30.09.2008-ci ilədək ödəməni həyata keçirməyi tələb edib. Cavabdeh bundan sonra da pulu ödəməyib. Beləliklə, MM-in 445.1-ci və 445.2-ci maddələrinə əsasən, 01.10.2008-ci ildən gecikdirmə baş verib.

c. Cavabdehin ödəməni icra etməməsi zamanı təqsiri də olub. Bu, MM-in 445.6-cı maddəsinə əsasən ehtimal edilir. Bir qayda olaraq özünün təqsirsiz olduğunu borclu özü izah və sübut etməlidir.

d. MM-in 445.7-ci maddəsinə əsasən, borclu pul məbləğinin ödənilməsini gecikdirdikdə, bir qayda olaraq, gecikdirilmiş vaxt üçün illik beş faiz ödəməyə borcludur. Lakin bu qayda kreditorun gecikdirmə zamanı daha yüksək faizlər tələb etməsini istisna etmir. Çünki əsas müddəa olan MM-in 445.1-ci maddəsinə görə, kreditor ona gecikdirmə nəticəsində dəyən zərərin ödənilməsini tələb edə bilər. Bu isə zərərçəkmişin indiki əmlak vəziyyətini və əvəz edilmiş öhdəliyin əsasında dayanan hadisə – gecikdirmə nəticəsində baş vermədiyi halda mövcud olacaq əmlak vəziyyətinin müqayisəsi nəticəsində müəyyən edilir (fərqləndirmə metodu). İddiaçının deməsinə görə, cavabdeh ödəməni vaxtında həyata keçirsəydi, iddiaçı 12%-ə kredit götürməzdi. Buna görə də ona gecikdirmə nəticəsində məhz bu həcmdə əmlak zərəri dəyib. İddiaçının məruzəsi həm də kifayət qədər əsaslandırılıb. O, məruzə edir ki, nə vaxt və hansı şərtlərlə və hansı səbəblərdən kredit götürüb.

İddiaçının deməsinə görə, faizlərlə bağlı tələb əsaslıdır.

2. Cavabdehin dəlilləri:

Cavabdeh iddiaçının kredit götürməsi faktını və bununla da yaranan gecikdirmə zərərinin olmasını mübahisələndirir (yuxarıda göstərildiyi kimi). Ona görə də cavabdehin etirazı əhəmiyyətlidir.

3. İşin hallarının müəyyənləşdirilməsi:

İddiaçı onun tələbini əsaslandıran bütün hallarla bağlı sübut etmək vəzifəsi daşıyır. Ona görə də MM-in 445.1-ci maddəsinə əsasən, o, zərərin faiz dərəcəsinin MM-in 445.7-ci maddəsində göstərilən qanunla göstərilmiş faiz dərəcəsindən yuxarı olduğunu sübut etməlidir. Amma iddia edilən kreditin götürülməsi barəsində o, heç bir sübut təqdim etməyib. Bunu o, məsələn, bankdan aldığı sənədlə edə bilərdi. Ona görə də bu halda ancaq qanunla, yəni MM-in 445.7-ci maddəsi ilə müəyyən edilmiş faiz dərəcəsi tələb oluna bilər.

Nəticə: Faizlərlə bağlı tələb ancaq 5% civarında əsaslandırılmış hesab edilir.

IV. Qətnamə

Təsviri hissə

İddiaçı cavabdehdən muzdun və alış qiymətinin qalıq hissəsini və faizləri tələb edir.

İddiaçı Bakı şəhərində tikinti müəssisəsini, cavabdeh isə metal emalı müəssisəsini işlədir. 01.02.2008-ci ildə tərəflər razılığa gəliblər ki, iddiaçı cavabdehin müəssisəsinin ərazisində kiçik bir anbar tiksin. İddiaçı tez bir şəkildə tikinti işlərinə başlayıb və ümumilikdə anbarın tikilib hazır edilməsi üçün cəmi 470 saat sərf edib. Bütün tikinti materiallarını razılaşmaya əsasən cavabdeh verib.

30.04.2008-ci ildə tərəflər hazır anbarı birlikdə gözdən keçiriblər. Cavabdeh elə həmin gün çoxlu iri lövhələri anbara daşımağa başlayıb. İddiaçı cavabdehə anbarın tikilib hazır edilməsi üçün ümumi iş vaxtını 470 saat və hər saata 10 manat hesablamaqla, cəmi 4.700 manat hesab təqdim edib. Bu, Bakı şəhərində tikinti sahəsi üçün ümumi qəbul edilmiş tariflərə uyğun olub.

1.000 AZN barəsində irəli sürülən tələb aşağıdakı hallardan irəli gəlir: 01.04.2006-cı ildə cavabdeh iddiaçıdan 14.000 manat qiymətə istifadə edilmiş, 2000-ci il buraxılışlı «Liebherr» firmasının «Garant» markalı avtokarını alıb. Amma cavabdeh məbləğin qalan hissəsini bankdan götürməli olduğu üçün ilkin olaraq ancaq 13.000 manat məbləği nağd olaraq ödəyib və növbəti günlərdə qalan hissəni gətirməyə söz verib. Avtokarı isə o, dərhal götürüb. İddiaçının telefonla dəfələrlə tələb etməsinə baxmayaraq, cavabdeh qalıq hissəni ödəməyib.

01.09.2009-cu il tarixli məktubla iddiaçı cavabdehdən müddət təyin etməklə, yəni 30.09.2008-ci il tarixə kimi 5.700 AZN məbləği ödəməyi tələb edib.

İddiaçı güman edir ki, cavabdeh ödəməni həyata keçirmədiyi üçün o, 01.10.2008-ci ildə 12%-ə 6.000 AZN məbləğdə bankdan kredit götürməyə məcbur olub.

İddiaçı xahiş edir ki, cavabdeh barəsində iddiaçıya 01.10. 2008-ci il tarixdən 12% dərəcə də daxil olmaqla 5.700 AZN məbləğin ödənilməsi ilə bağlı qətnamə çıxarılsın.

Cavabdeh xahiş edir ki, iddia rədd edilsin.

Cavabdeh güman edir ki, o, iddiaçı ilə 01.02.2008-ci ildə anbarın tikilməsi ilə bağlı ümumilikdə 3.000 AZN muzdun ödənilməsi ilə bağlı razılığa gəlib. 30.04.2008-ci ildə anbar gözdən keçirilərkən o, qismən ciddi tikinti qüsurları aşkar edib.

Ona görə də o, iddiaçı ilə razılaşıb ki, muzdun ödənilməsi həmin qüsurlar aradan qaldırılanadək təxirə salınacaq. Bu, indiyə kimi baş verməyib.

Avtokarın qiyməti ilə bağlı cavabdeh göstərir ki, iddiaçı borcun qalıq hissəsini «Neftçi» Bakı – «İnter» Bakı oyununda ona bağışlayıb. Nəhayət, cavabdeh borcun qalıq hissəsinin ödənilməsi ilə bağlı iddia müddətinin keçməsinə istinad edir.

Məhkəmə avtokarın qalan 1.000 manat məbləğində borc hissəsinin bağışlanması ilə bağlı şahid Lalə Başlinskayanın dindirilməsi yolu ilə sübutu araşdırıb. Sübutun araşdırılması ilə bağlı nəticə üçün 29.08.2008-ci il tarixli protokola istinad edilir.

Əsaslandırıcı hissə

Mümkün olan iddia ancaq qətnamənin nəticə hissəsindən bəlli olan hissədə əsaslıdır, qalan hissədə iddia rədd edilməlidir.

MM-in 769, 770-ci maddələri ilə birlikdə MM-in 752.1-ci maddəsinə əsasən, iddiaçının anbarın tikintisinə görə 3.000 manat miqdarında muzd tələb etmək hüququ var.

Tərəflər mübahisəsiz olaraq anbarın tikintisi haqqında podrat müqaviləsi bağlayıblar. Bu zaman sabit qiymət, yəni 3.000 manat haqqında razılaşmanın olması qəbul edilməlidir. İddiaçı bu cür razılaşmanın olduğunu mübahisələndirdiyi və həmin ərazi üçün qəbul edilmiş qiymətlərə uyğun tələb irəli sürdüyü üçün o, bu tələbini əsaslandıran halı sübut etməli olan tərəf kimi qalır. Çünki podrat müqaviləsi münasibətlərində qarşılıqlı öhdəliyin yerinə yetirilməsini tələb edən şəxs kimi o, tələbini əsaslandıran bütün halları sübut etməlidir. Buna həm də razılaşdırılmış qarşılıqlı öhdəliyin həcmi daxildir. Beləliklə, iddiaçı cavabdehin normal qiymətdən daha aşağı qiymət razılaşdırmasına dair iddiasını təkzib etməli idi.

Sübutetmə yükünün bu cür paylaşması MM-in 753.1-ci maddəsinin mətnindən irəli gəlir.

Podrat müqaviləsi üzrə muzd ödənilməlidir, çünki cavabdeh hazır anbarı qəbul edib (MM-in 770-ci maddəsinin 2-ci cümləsi). Anbarı ən geci təyinatı üzrə istifadə etməyə başladığı andan o, anbarın müqaviləyə uyğun olduğunu təsdiqləyib. Cavabdeh qüsurların olmasına və tərəflər arasında qüsurların aradan qaldırılmasına kimi ödəmənin təxirə salınması haqqında razılaşmaya istinad etməsinə baxmayaraq, o, bu gümanını əsaslandırmayıb və sübuta yetirməyib. İddiaçı işin hallarının bu cür təqdim edilməsini mübahisələndirdiyi üçün məhz cavabdeh konkret olaraq qüsurları göstərməli idi. Guya qüsurların olması haqqında irad nə işin qəbul edilmiş hesab edilməsi, nə də muzdun ödənilməli olmasına maneçilik törədir.

Mövcud olması və miqdarı haqqında mübahisəli məqam olmayan avtokarın alınmasına görə qalıq borc hissəsi ilə bağlı tələbə dair müzakirə olunmalı sual iddia müddətinin keçməsi ilə bağlıdır. İddia artıq ona görə əsassızdır ki, qalıq borc 2008-ci il mart ayında MM-in 546-cı maddəsinə əsasən borcun bağışlanması müqaviləsi ilə xətm olunub. Bununla bağlı məhkəmədə sahid Lalə Başlinskayanın etibarlı ifadələrinə əsasən əminlik yaranıb. Şahid tərəflər arasında olan söhbətin məzmununu, onun əsası və onu müşayiət edən şəraiti detallı olaraq təsvir edib. Şahidin ifadələrini şübhə altına almaq üçün məhkəmənin əsası yoxdur. Təkcə şahidin cavabdehdən iş yeri üzrə asılı münasibətdə olması onun ifadələrinin düzgünlüyünə şübhələnmək üçün əsas vermir, çünki şübhə üçün başqa əsaslar yoxdur.

Faizlərlə bağlı qərar MM-in 445.1, 445.2.2, 445.7-ci maddələrinə əsaslanır. Cavabdeh 01.09.2008-ci ildə edilmiş xəbərdarlıq əsasında 01.10.2008-ci ildən ödəmə üzrə gecikdir-

məyə yol verib və buna görə qanunla nəzərdə tutulmuş 5%-lik dərəcə ilə ödəməni həyata keçirməlidir. MM-in 445.7-ci maddəsində nəzərdə tutulmuş faiz dərəcəsindən daha yüksək faiz zərəri ilə bağlı iddiaçı heç bir tələb irəli sürə bilməz, çünki o, cavabdehin krediti mübahisələndirməsinə qarşı heç bir sübut gətirməyib.

Məhkəmə xərcləri ilə bağlı qərar MPM-in 119.1-ci maddəsinə əsasən müəyyən edilir.

Nəticə hissəsi

1. Cavabdeh iddiaçıya 3.000 manat və bu məbləğ üçün 01.08.2008-ci il tarixdən əlavə 5 % ödəməlidir.

2. Qalan hissədə iddia rədd edilir.

3. Məhkəmə xərclərini tərəflər ‰ nisbətində daşıyırlar.

4. (Məhkəmə qərarının mübahisələndirilməsi imkanları haqqında məlumatlandırma).

8-ci kazus: Pis təminat

(Vindikasiya, başqasının əşyasını girov qoyma, girov hüqqunun vicdanlı əldə edilməsi, avtomobilin alqı-satqısı zamanı mülkiyyət hüqqunun keçməsi)

İşin halları

X rayon məhkəməsinə

İddiaçı: Əli Hüseynov
Ünvan:

Cavabdeh: «Kaspi Bank» SC-yə qarşı
Təmsilçi: idarə heyətinin sədri Fikrət Qasımov
Ünvan:

İddia ərizəsi

Cavabdehdən Audi A 8 markalı, 2008-ci il buraxılışlı, ağ rəngli, şassi nömrəsi K 1234567890 olan avtomobilin alınıb iddiaçıya verilməsi barədə qətnamə çıxarılmasını xahiş edirəm.

Əsaslandırma:

İddiaçı 2008-ci ilin iyul ayında Almaniyada həmin avtomobili əldə etmiş və Azərbaycana gətirmişdir. Burada o, avtomobili qaydalara uyğun surətdə nəqliyyat polisində qeydiyyata aldırmışdır. 18.04.2009-cu ildə o, avtomobili qonşusu, həmin ərərfədə Bakı şəhəri, Aslanov küçəsi, 17-də yaşayan Rəşad Məmmədova 20.000 manata satmışdır.

Aralarında olan razılığa əsasən, alıcı o zaman ilkin olaraq 5.000 manat vermişdi. Pulun qalan hissəsini o, 30.06.2009-cu ilə qədər ödəməli idi. İddiaçı qonşusuna tam inanırdı, onlar

bir-birini uzun illər idi ki, tanıyırdılar. Buna görə də o, avtomobili və onun sənədlərini artıq 18.04.2009-cu ildə Məmmədova vermişdi. Əldə edilən razılaşmaya görə, avtomobilin nəqliyyat polisində alıcının adına qeydiyyatı yalnız alqı-satqı məbləğinin tam ödənilməsindən sonra baş verməli idi. Qalıq məbləğ bu günə qədər ödənilməyib. Məmmədov bundan sonra özünə saxtalaşdırılmış baş etibarnamə düzəltdirir ki, həmin etibarnaməyə görə, iddiaçı avtomaşına sərəncam vermək səlahiyyətini alıcıya verir. Saxtalaşdırılmış sənədin köməyi ilə Rəşad Məmmədov cavabdehdən aldığı 12.000 manat kreditin müqabilində kreditin təminatı kimi göstərilən avtomibili cavabdehə girov qoyur və avtomobili ona verir.

Sübut: Cavabdehin təqdim edəcəyi girov müqaviləsi

Girov müqaviləsi nəqliyyat polisində qeydiyyata alınmışdır. Bundan sonra Rəşad Məmmədov yoxa çıxmışdır, onun yeri barəsində aparılan bütün araşdırmalar uğursuz olmuşdur. Bir müddətdən sonra iddiaçı təsadüfən avtomaşınını maşın bazarlarının birində aşkar etmişdir. Məmmədov kreditdən irəli gələn öhdəliyini icra etmədiyindən cavabdehin əməkdaşlarından biri avtomobili satış üçün təklif edirdi. İddiaçı avtomobilini cavabdehə girov qoymaq məqsədi ilə Məmmədova verməyib, xüsusilə də ona belə səlahiyyət verməyib. Buna görə də cavabdeh avtomobili geri verməlidir. O, buna etiraz etdiyindən, bu iddiaya ehtiyac var.

İmza: Əli Hüseynov

X rayon məhkəməsinə

Cavabdeh: «Kaspi Bank» SC-yə qarşı
Təmsilçi: idarə heyətinin sədri Fikrət Qasımov
Ünvan: .....

İddiaçı: Əli Hüseynovdan
Ünvan: .....

İddia ərizəsinə etiraz

Əli Hüseynov «Kaspi Bank» SC-yə qarşı iş üzrə iddianın rədd edilməsi barədə qətnamə çıxarılmasını xahiş edirəm.

İddia əsaslı deyil. İddiaçı nəzərə almır ki, verilmiş kreditin müqabilində cavabdeh təminat qismində etibarlı şəkildə avtomobil üzərində girov hüququ əldə etmişdir. Rəşad Məmmədov krediti geri ödəmədiyindən cavabdehin avtomobili satmaq hüququ yaranıb.

Düzdür, cavabdehin artıq müəyyən etdiyi kimi, etibarnaməni iddiaçı imzalamayıb və onun imzası birmənalı saxtalaşdırılıb. Lakin cavabdeh avtomobili girov götürən zaman bu barədə məlumatı yox idi və o, notarial qaydada təsdiqlənmiş sənədin düzgünlüyünə etibar edə bilərdi.

İmza: Cavabdehin səlahiyyətli nümayəndəsi F.Qasımov

II. Hüquqi rəy

1. İddiaçının bildirdiklərinə əsasən iddiaçının cavabdehə qarşı MM-in 157.2-ci maddəsindən irəli gələn tələb hüququ ola

bilər. Bu müddəaya əsasən, mülkiyyətçi əmlakını özgəsinin qanunsuz sahibliyindən geri tələb edə bilər. Həmin tələbin əsaslı olması üçün yoxlanılmalı olan üç şərtə əməl edilməsi vacibdir: (1) iddiaçı mülkiyyətçi olmalıdır, (2) cavabdeh əşyanın sahibi olmalıdır və (3) cavabdehin əşyaya sahiblik hüququ olmamalıdır.

(1) ilə bağlı: Bu qəbildən olan işlərdə, yəni "bir neçə əldən keçmiş" əşya üzərində mülkiyyət yoxlanılan zaman tarixi-xronoloji tədqiqat aparmaq tövsiyə olunur. Bu zaman mülkiyyətin ilkin, birmənalı olan vəziyyətindən çıxış etməklə, ardıcıllıqla hər bir sonrakı sahiblik və ya şəxs dəyişikliyi bununla bağlı ola bilən mülkiyyətin vəziyyətinin dəyişməsi baxımından yoxlanır.

Bu kazusda iddiaçı öncə mübahisə predmeti olan avtomobilin mülkiyyətçisi olub. Bu, MM-in 166.1-ci maddəsinə əsasən ehtimal edilir, lakin hər halda tərəflər arasında da mübahisələndirilmir.

İddiaçının alıcı ilə bağladığı alqı-satqı müqaviləsi əsasında avtomobilə mülkiyyət hüququnun Rəşad Məmmədova keçməsinin qanuniliyi yoxlanmalıdır[93].

Burada mülkiyyətin keçməsi alıcının Yol Polisi İdarəsində yeni mülkiyyətçi qismində qeydiyyatdan keçməməsi səbəbindən inkar edilə bilər. Belə olarsa, alqı-satqı müqaviləsinin tərəfləri arasında əldə edilmiş razılaşmalar əhəmiyyət kəsb etməzdi. Məlum olduğu kimi, Azərbaycan hüquq praktikasında yayılmış mövqe bundan ibarətdir ki, avtomobillə bağlı mülkiyyət

[93] Bu problem praktik baxımdan ona görə önəmlidir ki, gündəlik həyatda avtomobilin alıcıya verilməsi təkcə alqı-satqı müqaviləsi əsasında deyil, alıcıya avtomobili özgəninkiləşdirmək hüququ verən etibarnamənin rəsmiləşdirilməsi yolu ilə də həyata keçirilir. Avtomobilin bu yolla verilməsi heç də məcburi şəkildə mülkiyyət hüququnun verilməsinə gətirib çıxarmır, əksinə, mülkiyyətin vəziyyəti burada daha dərindən tədqiq edilməlidir.

hüququnun keçməsinin hüquqi etibarlılığı üçün əldə edənin Yol Polisində qeydiyyatı zəruridir. Lakin belə yanaşma, müəllifin fikrincə, hüquqi baxımdan inandırıcı görünmür. Eyni zamanda bu, avtomobil alqı-satqısı ilə bağlı ümumi mülki dövriyyəyə də uyğun gəlmir. Həmin mövqenin əsaslandırılması üçün MM-in 139.2-ci maddəsi ilə birlikdə nəqliyyat vasitəsi əldə edildikdən sonra 10 gün ərzində onun qeydiyyatını nəzərdə tutan 03.07.1998-ci il tarixli "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin 4-cü hissəsi və həmin qanuna uyğun olaraq Nazirlər Kabineti tərəfindən qəbul edilmiş Əsasnaməyə istinad edilə bilməz. Bu qeydiyyat vəzifəsi məna və məqsədinə görə MM-in 139.2-ci maddəsində nəzərdə tutulmuş dövlət qeydiyyatı hallarına aid edilməli deyil. MM-in 139.2-ci maddəsinin məqsədi, xüsusilə də MM-in 650 və 178.2-ci maddələrinin hüquqi nəticələrindən irəli gəldiyi kimi, yalnız elə dövlət qeydiyyatlarını əhatə etməkdir ki, bunlar mülkiyyət hüququnun keçməsi üçün konstitutiv (hüquqyaradıcı) təsirə və əhəmiyyətə malik olsun. Lakin "Yol hərəkəti haqqında" qanuna əsasən, nəqliyyat vasitələrinin qeydiyyatı barəsində bunları iddia etmək olmur. Əksinə, həmin qeydiyyat ilkin olaraq mülkiyyət hüququnun sırf mülki-hüquqi xarakterli keçidini zəruri şərt kimi nəzərdə tutaraq, sözügedən keçidin etibarlılıq şərtini müəyyənləşdirmir. Bu nəticə bir tərəfdən qanunun mətnindən irəli gəlir, belə ki, qeydiyyat nəqliyyat vasitəsinin "əldə edildiyi gündən" 10 gün ərzində həyata keçirilməlidir. Yəni qeydiyyat mülkiyyət hüququnun əşya hüquqi xarakterli keçidindən sonra baş tutmalıdır. Digər tərəfdən isə həmin qanunun məna və məqsədi bunu ehtiva edir. Çünki bu qanun son nəticədə avtomobillərlə bağlı ticarəti tənzimləmək məqsədini deyil, nəqliyyat vasitələri ilə bağlı texniki təhlükəsizlik qaydalarına riayət edilməsinə nəzarət etmək və dövlətin maliyyə maraqlarını qorumaq məq-

sədini daşıyır. Həmin nəticə, konkret olaraq, qanunun 27-ci maddəsinin 1-ci hissəsindən irəli gəlir. Müəllifin mövqeyinə əsasən, Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2007-ci il tarixli 564 nömrəli Fərmanından da başqa bir nəticə doğmur. Bu fərman nəqliyyat vasitələri üzərində mülkiyyət hüququnun qeydiyyata alınması vəzifəsini müəyyənləşdirmir, sadəcə olaraq, müəyyən növ daşınar əşyalar üzərində mülkiyyətin qeydiyyatı üçün ümumi qaydalar müəyyən edir. Beləliklə də fərman müvafiq reyestrlərin aparılması üçün sırf inzibati hüquqi qaydalar müəyyən edir, lakin mülkiyyət hüququnun yaranması nöqteyi-nəzərindən həmin müddəaların mülki-hüquqi təsirə də malik olmasını tənzimləmir.

Azərbaycanda hal-hazırda hökmran olan əks hüquqi mövqenin, MM-in 650, 144.1-ci maddələri də nəzərə alınmaqla, nəticəsi əslində bundan ibarət olmalı idi ki, avtomobillərin alqı-satqısı ilə bütün müqavilələr notarial qaydada bağlanmalıdır. Lakin avtomobillərin hazırkı sayı və avtomobillərlə bağlı ticarətin həcmi nəzərə alınmaqla bu bürokratik maneə heç cür əsaslandırıla bilməz. Habelə nəzərdən qaçmayan hal ondan ibarətdir ki, praktikada bu yanaşma ardıcıl olaraq həyata keçirilmir, bu günə qədər də avtomobillərlə bağlı alqı-satqı müqavilələrinin böyük əksəriyyəti notarial qaydada bağlanmır və buna baxmayaraq, qeydiyyatdan keçirilir. Digər tərəfdən, müvafiq reyestrdə, bir qayda olaraq, nəqliyyat vasitəsinin mülkiyyətçisinin deyil, sahibinin qeydiyyata alınması da göstərilən mövqe ilə uzlaşdırıla bilmir.

Burada əsaslandırıldığı kimi, nəqliyyat vasitəsinin üzərində mülkiyyət hüququnun keçməsi üçün əşya hüququ nöqteyi-nəzərindən etibarlılığından ötrü qeydiyyatın zəruri olmaması nəticəsi qəbul edilərsə, bu kazus üzrə daha sonra mülkiyyət hüququnun keçidinin ümumi şərtlərinə riayət edilməsi yoxlanılmalıdır. İddiaçı və Rəşad Məmmədov arasında MM-in

567-ci maddəsinə uyğun olaraq alqı-satqı müqaviləsinin olması mübahisəsizdir. Bu müqavilənin məzmununa görə iddiaçı alqı-satqı məbləği tam ödənildikdən sonra avtomobili alıcının adına qeydiyyata aldırmaq şərtilə avtomobili və onun texniki pasportunu alıcıya verib. Öhdəlik hüququnun xüsusi hissəsində avtomobillə bağlı alqı-satqı müqavilələrinin forması barədə hər hansı qayda olmadığından müqavilə şifahi qaydada da bağlana bilər (MM-in 329.1, 406.1-ci maddələri).

Lakin alqı-satqı müqaviləsi bağlamaqla Rəşad Məmmədov mülkiyyətçi olmayıb. MM-in 181.1-ci maddəsi mülkiyyət hüququnun keçməsinin əlavə şərti kimi alınmış əşyanın verilməsini, yəni əşya üzərində bilavasitə sahibliyin alıcıya keçirilməsini nəzərdə tutur. Avtomobilin, sadəcə olaraq, faktiki verilməsi mülkiyyət hüququnun verilməsi üçün yetərli deyil. MM-in 568.1-ci maddəsinə əsasən, verilmə, bir qayda olaraq, əmlakı alıcının bilavasitə sahibliyinə vermə deməkdir ki, bu zaman satıcı, öz növbəsində, sahibliyi əldən verir[94]. Buna görə də, məsələn, avtomobilin qısa müddətə sınaq məqsədi ilə sürülmək üçün verilməsi bilavasitə sahibliyin verilməsi deyil və MM-in 163.1, 568.1-ci maddələri mənasında verilmə sayıla bilməz. Bu nəticə MM-in 162-ci maddəsindən də irəli gəlir: əşyaya sahibliyin müvəqqəti kəsilməsi hələ əşyaya sahibliyin itirilməsi demək deyil. Lakin bu iş üzrə alıcıya avtomobil müvəqqəti verilməyib, xüsusilə də qısamüddətli sınaq üçün sənədlərin verilməsi zəruri deyildi. Sənədlərin verilməsi artıq alqı-satqı müqaviləsi ilə birlikdə nəzərdə tutulan mülkiyyətin verilməsindən irəli gəlirdi. Beləliklə, bu kazus üzrə bilavasitə sahiblik verilib.

---

[94] Qanun MM-in 160-cı maddəsində vasitəli və vasitəsiz sahibliyi, yəni düzünə və dolayı sahibliyi fərqləndirir. Vasitəsiz sahib əşya üzərində faktiki sahibliyi (ağalığı) həyata keçirir və müəyyən hüquq münasibəti əsasında (buna sahibliyi əlaqələndirmə münasibəti də deyilir) bu sahibliyi vasitəli sahibə ötürür. Məsələn, kirayə müqaviləsi zamanı kirayəçi vasitəsiz, kirayəyə verən isə vasitəli sahibdir.

Eyni zamanda faktiki verilmənin məqsədi əşyanın əldə edənin mülkiyyətinə keçirilməsi olmalıdır ki, bu da mülkiyyətçinin dəyişdirilməsi niyyəti ilə edilir. Qanun artıq bunu bir qayda olaraq qəbul edir. 2005-ci ilə qədər mövcud olmuş qanundan fərqli olaraq, alqı-satqı müqaviləsinin bağlanması zamanı mülkiyyətçinin dəyişməsi alqı-satqı predmetinin verilməsi ilə baş verir. Yalnız tərəflər arasında alıcının alqı-satqı qiymətini ödədikdən sonra mülkiyyətçi olması baradə birmənalı razılıq olduqda başqa qayda qüvvədə olur. Bu iş üzrə müqavilə tərəfləri mülkiyyət hüququnun vəziyyəti ilə bağlı birmənalı qayda müəyyən etməsələr də, belə bir razılıq əldə ediblər ki, avtomobilin alıcının adına qeydiyyatı yalnız alqı-satqı qiymətinin tam ödənilməsi ilə həyata keçirilməli idi. Bu müqavilə şərtinin təfsiri zamanı, MM-in 404-cü maddəsinə əsasən, təkcə müqavilədəki söz və ifadələrin hərfi mənası deyil, həm də iradə ifadəsinin həqiqi mənası nəzərə alınmalıdır. Buna əsasən tərəflər bildirmək istəyirdilər ki, alıcı avtomobil üzərində tam mülkiyyət hüququnu yalnız alqı-satqı qiymətini tam ödədikdən sonra əldə etməlidir. Hər iki tərəfin qeyri-peşəkarcasına qeydiyyatı irəli çəkmələri belə nəticəni aradan qaldırmır. Buna görə də həmin müqavilə şərti MM-in 606-cı maddəsində nəzərdə tutulmuş mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərtlə alqı-satqı kimi təfsir edilməlidir. Bu o deməkdir ki, alqı-satqı qiyməti ödənilənə qədər mülkiyyət hüququ iddiaçıda qalmalı idi və Rəşad Məmmədov həmin ana qədər əşya üzərində sərəncam verməyə səlahiyyətli deyildi.

Beləliklə, iddiaçı əvvəl olduğu kimi, avtomobilin mülkiyyətçisidir. Avtomobil üzərində mülki-hüquqi xarakterli mülkiyyətin dəyişməsinin etibarlılığı üçün qeydiyyata da ehtiyacı olması kimi yuxarıda şərh edilən məsələ nəticə nöqteyi-nəzərindən əhəmiyyətli deyil. Hər iki mövqe bu kazus üzrə onsuz da eyni nəticəyə gətirib çıxarır.

(2) ilə bağlı: İddiaçının bildirdiyinə görə, cavabdeh avtomobilin mülkiyyətçisidir. Avtomobil hələ də maşın bazarının ərazisində olsa da, cavabdeh MM-in 159-cu maddəsi anlamında avtomobil üzərində faktiki sahibliyini saxlayıb. Avtomobili maşın bazarında cavabdehin bir əməkdaşı satış üçün təklif etdiyindən, avtomobilin açarı, yəqin ki, ondadır.

(3) ilə bağlı: İlk baxışdan cavabdehin sahibliyə səlahiyyətli olması görünür, çünki girovqoyma iddiaçının alıcıya guya ki, girovqoyma səlahiyyəti verən notarial qaydada təsdiq edilmiş etibarnaməsi əsasında baş verib. Bu səlahiyyətin həqiqətən də mövcud olması yoxlanmalıdır.

Girov saxlayanın girov predmeti üzərində sahibliyinin hüquqi əsasını girov hüququ təşkil edir. MM-in 276, 280-ci maddələrinə əsasən, prinsipcə, istənilən daşınar əşya istisna olaraq ipotekanın predmeti deyilsə, girov qoyula bilər. Girov hüququ MM-in 270.1-ci maddəsinə əsasən girov müqaviləsinin bağlanması və MM-in 281.2-ci maddəsinə əsasən girov predmetinin verilməsi nəticəsində yaranır. MM-in 280.1-ci maddəsi girov müqaviləsi üçün yazılı forma müəyyənləşdirir. Bu şərtə əməl olunub. MM-in 280.3-cü maddəsi avtomobil üzərində girov hüququnun yaranması üçün notariat qaydasında təsdiqləməni nəzərdə tutmur. Yeri gəlmişkən, yuxarıda şərh olunduğu kimi, nəqliyyat vasitələri üzərində mülkiyyət hüququ üçün qeydiyyata alınma vəzifəsinin mülki-hüquqi anlamda konstitutiv təsirə malik olması qəbul olunsa belə, burada heç nə dəyişmir. Bu hal üçün, MM-in 650, 144.1-ci maddələrinə əsasən, alqı-satqıya münasibətdə zəruri olan əqdin notarial qaydada bağlanması şərti girova şamil eidlmir, belə ki, MM-in 650-ci maddəsi daşınmaz əşyalara münasibətdə qaydaların müvafiq tətbiqini yalnız daşınar əşyaların "alqı-satqısı" üçün müəyyənləşdirir.

MM-in 271.2-ci maddəsinə əsasən, girov qoyan həm girov saxlayanın şəxsi borclusu (burada Rəşad Məmmədov), həm

də üçüncü şəxs, yəni borclunun öhdəliyinin icrası üçün daşınar əmlakı ilə təminat verən girov qoyulan əşyanın mülkiyyətçisi ola bilər. Ona görə də sual yaranır: burada kiminlə girov müqaviləsi bağlanılıb?

a) Öncə cavabdehin girov hüququnu bilavasitə iddiaçıdan əldə etməsi yoxlanmalıdır. Avtomobilin mülkiyyətçisi kimi iddiaçı ilə cavabdeh arasında girov barəsində bilavasitə razılaşma yoxdur. Onların arasında şəxsi təmas olmayıb. İddiaçını girov hüququnun yaranması zamanı Rəşad Məmmədov təmsil edə bilərdi. Bunun üçün iddiaçı onun adından cavabdehlə girov müqaviləsi bağlamaq barədə R.Məmmədova MM-in 359-cu maddəsi anlamında etibarlı şəkildə salahiyyət verməli idi. Prinsipcə girovqoyma zamanı təmsilçilik mümkündür[95] və R.Məmmədov burada iddiaçının nümayəndəsi kimi fəaliyyət göstərib. Lakin onun etibarlı təmsilçilik səlahiyyəti olmayıb, çünki etibarnamə saxtalaşdırılmışdı. Cavabdehin saxtalaşdırmanı görə bilməməsi önəmli deyil. Azərbaycan MM etibarnamənin mövcudluğuna vicdanlı inanmanı qorumur[96]. Etibarlı səlahiyyətləndirmə ya var, ya da yoxdur (MM-in 360-cı maddəsi). Onun olmasına vicdanlı inanmanın hüquqi qüvvəsi yoxdur. Etibarnamənin burada notariat qaydasında verilməsi bu baxımdan heç nəyi dəyişmir.

Risklərin belə bölüşdürülməsi son nəticədə ədalətli görünür. Cavabdeh belə olduqda müdafiəsiz qalmır. O daha ehtiyatlı ola bilərdi və məsələn, avtomobilin mülkiyyətçisi ilə əlaqə saxlayaraq avtomobilinin girov qoyulmasına razı olması və etibarnamə verməsini müəyyənləşdirə bilərdi.

---

[95] MM-in 359.4-cü maddəsindən belə məna çıxır ki, xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlər (məsələn, nikahın bağlanması, vəsiyyətnamə qoyulması), eləcə də qanunla bağlanması zamanı təmsilçiliyə qadağa qoyulmuş əqdlər istisna olmaqla, təmsilçilik həmişə mümkündür.

[96] Bundan istisna MM-in 366.2-ci maddəsində nəzərdə tutulub, lakin burada belə hal yoxdur.

Rəşad Məmmədov təmsilçi kimi etibarlı qaydada səlahiyyətləndirilməyib və mübahisənin tərəfləri arasında girov müqaviləsi bağlanmayıb?

b) Cavabdehin girov hüququnu bilavasitə Rəşad Məmmədovdan əldə etməsi yoxlanmalı məsələ kimi qalır. MM-in 271.1-ci maddəsi bunu istisna etmir. Bu maddə yalnız mülkiyyətçinin əşyanı girov qoya bilməsini müəyyən edir, lakin həmin qayda əslində tənzimlənməyə ehtiyacı olmayan, özlüyündə aydın olan bir şeydir. Heç kim özünə məxsus olandan artıq hüquq verə bilməz. Qanun bunun özlüyündə aydın olmasını nəzərə alaraq, həmin məsələni nizamlamasa da, bu, təkcə girov hüququna şamil edilmir, məsələn, mülkiyyət hüququnun verilməsinə də aiddir.

Mülkiyyətçi olmayan şəxs girov hüququnu iki müxtəlif yolla hüquqi cəhətdən etibarlı şəkildə verə bilər:

aa) Mülkiyyətçi bir tərəfdən girov qoyanı MM-in 355, 358-ci maddələrinə əsasən səlahiyyətləndirə bilər ki, öz adından başqasının əşyasını girovla yüklü etsin. Başqa yandan, mülkiyyətçi səlahiyyətsiz şəxsin sərəncamını MM-in 357, 358.2-ci maddələrinə əsasən sonradan bəyənə bilər[97].

Lakin burada belə şərtlər yoxdur, iddiaçı avtomobilin alıcısını həmin əşyanı öz adından girov qoymağa səlahiyyətləndirməyib. Başqa yandan, alıcı burada öz adından deyil, saxta etibarnamədən istifadə etməklə iddiaçının adından çıxış edib.

bb) Mülkiyyətçi olmayan şəxsdən girov hüququnun etibarlı şəkildə əldə edilməsinin ikinci imkanı MM-in 182.1-ci mad-

[97] Bir daha təmsilçiliklə fərqləndirməyə dair: MM-in 358-ci maddəsində səlahiyyətsiz şəxs öz adından, lakin səlahiyyətli şəxsin razılığı ilə hərəkət edir, təmsilçilik zamanı isə (MM-in 359, 362-ci maddələri) təmsilçi başqasının adından, lakin təmsil edilənin etibarnaməsi əsasında hərəkət edir.

dəsinə əsasən girov hüququnun vicdanlı əldə edilməsidir ki, bunun da tətbiqi imkanını MM-in 271.1-ci maddəsi nəzərdə tutur. Cavabdehin vicdanlı əldəetməsinin şərtlərinin bu iş üzrə mövcudluğu sual doğurur. Bir tərəfdən, MM-in 182.2-ci maddəsinə əsasən, əldəetmə əvəzsiz baş verdikdə vicdanlı əldəetmə qəbul edilmir. Belə əldə edən qanunun dəyərlərinə əsasən daha az müdafiə edilməlidir. Lakin cavabdeh girov hüququnu əvəzsiz əldə etməyib. Əksinə, cavabdeh girov hüququnun əldə edilməsi müqabilində kredit verib. Faizli borc müqaviləsi zamanı bir tərəfdən kreditin verilməsi öhdəliyi, başqa tərəfdən isə kredit alanın faizlər üzrə ödəmələri qarşılıqlı əlaqədədir. Eyni zamanda, təminatların verilməsi də bura aid edilməlidir. Buna görə də kredit, faizlər və təminatlar qarşılıqlı əlaqədədir və beləliklə, öhdəliklərin əvəzli icrası üsullarına aiddir.

Başqa yandan, MM-in 182.2, 271.1-ci maddələrinə əsasən, hüquqların, o cümlədən girovun vicdanlı əldə edilməsi səlahiyyətli şəxsin əlindən çıxmış əşyalara münasibətdə qəbul edilmir. Lakin bu da həmin iş üzrə yoxdur. Əldən çıxma dedikdə, bilavasitə sahibliyin əşya sahibinin iradəsinə zidd olaraq itirilməsi başa düşülür. MM-in 182.2-ci maddəsində əldən çıxmaya misal olaraq əşyanın itirilməsi, oğurlanması və əşyanın sahibinin iradəsindən asılı olmayaraq başqa yolla onun sahibliyindən çıxması göstərilir. Lakin həmin şərtlər bu iş üzrə mövcud deyil: yuxarıda göstərildiyi kimi, iddiaçı alıcıya bilavasitə sahibliyi könüllü verib. Yəni avtomobil onun əlindən çıxmayıb. Alıcının artıq alqı-satqı müqaviləsinin bağlanması anında pis niyyətlər güdməsi, yəni alqı-satqı məbləğini ödəmədən avtomobili özgəninkiləşdirmək istəməsi böyük əhəmiyyət kəsb etmir: bu zaman aldatma və cinayət qanunu ilə cəzalanmalı olan dələduzluq cinayətinin tərkibi mövcud olsa da, sahibliyin, aldadılmaya baxmayaraq, könüllü verilməsi göz qabağındadır.

Lakin buna baxmayaraq iddiaçı girov hüququnu vicdanlı əldə etməyib. Vicdanlı əldəetmənin ümdə şərtini özgəninkiləşdirənin əşya üzərində sərəncam vermək səlahiyyətinin olmasını vicdanlı əldə edənin qəbul etməsi təşkil edir (MM-in 182.1-ci maddəsi). Düzdür, ilk baxışdan bu iş üzrə olan hallar da, yəni əldə edənin özgəninkiləşdirənin (Rəşad Məmmədovun) əşyanın mülkiyyətçisi olmasını bildiyi, lakin onun, məsələn, təqdim edilmiş etibarnamə əsasında həmin əşya üzərində sərəncam verə bilməsi hüququnun olmasına inandığı hallar da bura aid edilə bilər. Lakin MM-in 182.1-ci maddəsi həmin şərtləri daha dəqiq təsbit edir: bu normaya əsasən mülkiyyət hüququnun vicdanlı əldə edilməsi üçün əldə edənin özgəninkiləşdirənin mülkiyyətçi və ya vicdanlı əldə edən olması zəruridir. Bu şərtlər MM-in 271.1-ci maddəsinin 2-ci cümləsinə əsasən girov hüququnun əldə edilməsinə də aid edilməlidir. Girovqoyma zamanı da vicdanlı əldəetmənin şərti bundan ibarətdir ki, girov hüququnu əldə edən müqavilənin qarşı tərəfini, sadəcə olaraq, mülkiyyətçinin qanuni səlahiyyətləndirilmiş təmsilçisi kimi deyil, mülkiyyətçi kimi qəbul etməlidir. Bu iş üzrə məhz bu hal yoxdur: cavabdeh bilirdi ki, girov qoyan mülkiyyətçi deyil, yalnız onun təmsilçisidir. O, yalnız təmsilçinin təmsilçilik səlahiyyətinin etibarlı şəkildə mövcudluğuna inanırdı.

Qeyd: Hətta alıcı özünü səlahiyyətli təmsilçi kimi deyil, mülkiyyətçi kimi qələmə versəydi belə, nəticə etibarilə heç nə dəyişməzdi: MM-in 182.1-ci maddəsinə əsasən, əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Bu zaman istənilən ehtiyatsızlıq əldə edənin ziyanınadır. Düzdür, MM-in 166.1-ci maddəsinə əsasən, daşınar əmlakın sahibi haqqında onun

həmin əşyaya mülkiyyətçi hüququ ilə sahiblik etməsi ehtimal edilir. Bu ehtimal Rəşad Məmmədovun xeyrinə ola bilər[98]*. Nəqliyyat vasitələrinin alqı-satqıya əsasən, verilməsi zamanı həmin ehtimal avtomobilin sənədlərinə sahiblik və onun ya satıcının adına, ya da girov qoyanın adına qeydiyyatı ilə möhkəmləndirilir. Bunun əksi olaraq qəbul etmək lazımdır ki, avtomobili və ya ona girov hüququnu əldə etmək istəyib, nə sənədlər, nə də qeydiyyat vasitəsilə hərəkətlərini legitimləşdirə bilməyən əldə edən ehtiyatsız davranır və artıq bu əsasa görə səlahiyyətsiz şəxsdən vicdanlı əldəetmə qəbul edilə bilməz. Artıq göstərdiyimiz kimi, avtomobilin sənədləri və qeydiyyatının yalnız inzibati hüquqi səciyyə daşımasının əvvəlki nəticəyə təsiri yoxdur. Bu zaman istənilən qanunauyğunsuzluq, təkcə sənədlərin və yaxud təkcə qeydiyyatın olmaması vicdanlı əldəetməni puç etmək üçün kifayət edir. Bu əsasa görə də bu iş üzrə vicdanlı əldəetmə qəbul edilə bilməz, çünki R.Məmmədov açıq-aşkar nəqliyyat vasitəsinin sahibi kimi qeydə alınmayıb və sənədlər də hələlik onun adına dəyişdirilməyib. Buna görə də cavabdeh hər bir halda ehtiyatsız hərəkət edib.*

Avtomobil üzərində cavabdehin etibarlı şəkildə girov hüququ yaranmadığından bankın sahiblik hüququ yoxdur.

Aralıq nəticə: beləliklə, iddiaçının 157.2-ci maddəyə əsasən əşyanı geri tələb etmək hüququ var və iddiası əsaslıdır.

2. Cavabdehin bildirdikləri iddiaçının bildirdikləri ilə müqayisədə önəmli deyil. Cavabdeh iddiaçının istinad etdiyi faktları

---

[98] Prosessual baxımdan qanunun ehtimalları yalnız o zaman əhəmiyyət kəsb edir ki, prosesdə tərəflər arasında müəyyən fakt mübahisəli olsun. Bu zaman ehtimal həmin faktı kimin sübut etməli olmasını və faktın sübuta yetirilməməsinin əlverişsiz nəticələrinin kimə aid edilməsini nizama salır. Burada olduğu kimi, kimin mülkiyyətçi olması mübahisəsizdirsə, ehtimal bu baxımdan heç bir rol oynamır. Lakin şübhələr olarsa, o, əldə edənin vicdanlı olmasının sübutu kimi qiymətləndirilməlidir.

və halları mübahisələndirmir, yalnız hüquqi arqumentlərlə özünü müdafiə edir. Bunlar artıq yuxarıda (1) yoxlanıb.

Son nəticə:

İddia təmin edilməlidir.

III. Qətnamə

Təsviri hissə

İddiaçı cavabdehdən Audi A 8 avtomobilinin qaytarılmasını tələb edir və tələbini avtomobilin mülkiyyətçisi olması ilə əsaslandırır.

İlk əvvəl iddiaçı avtomobilin mülkiyyətçisi olub. O, avtomobili 18.04.2009-cu ildə qonşusu Rəşad Məmmədova 20.000 manata satıb və avtomobili, onun texniki pasportunu alıcıya verib. Müqavilənin şərtlərinə görə, avtomaşının alıcının adına qeydiyyatı yalnız alqı-satqı məbləğinin tam ödənilməsindən sonra baş verə bilərdi. Alıcı yalnız alqı-satqı qiymətinin bir hissəsini – 5.000 manatı ödəməyib. Rəşad Məmmədov saxtalaşdırılmış, notarial qaydada təsdiq edilmiş baş etibarnamədən istifadə etməklə cavabdehdən aldığı 12.000 manat kreditin müqabilində kreditin təminatı kimi göstərilən avtomobili cavabdehə girov qoymuş və avtomaşına sahibliyi ona vermişdir. Girovqoyma Nəqliyyat Polisində qeydiyyata alınıb. Bundan sonra Rəşad Məmmədovun olduğu yer bilinməyib. O, krediti geri ödəmədiyindən cavabdeh avtomobili özgəninkiləşdirmək istəyir.

İddiaçı cavabdehin qanunsuz sahib olmasını əsas gətirərək ondan avtomobilin qaytarılmasını tələb edir. O, Rəşad Məmmədova avtomobili üzərində sərəncam vermək, xüsusilə də onu girov qoymaq səlahiyyəti verməyib.

İddiaçı Audi A 8 markalı, 2008-ci il buraxılışlı, ağ rəngli, şassi nömrəsi K 1234567890 olan avtomobilin cavabdehdən alınıb iddiaçıya verilməsi barədə qətnamə çıxarılmasını xahiş edir.

Cavabdeh iddianın rədd edilməsini xahiş edir.

O göstərir ki, avtomobilin qanuni sahibidir və onu sata bilər. Rəşad Məmmədov notarial qaydada təsdiq edilmiş baş etibarnamə əsasında avtomobili etibarlı şəkildə girov qoyub. Etibarnamənin saxtalaşdırıldığını bilməyib və bilməli də deyildi.

Əsaslandırıcı hissə

İddia əsaslıdır. İddiaçı MM-in 157.2-ci maddəsinə əsasən cavabdehdən avtomobilin qaytarılmasını tələb edə bilər.

Bu müddəaya əsasən, mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edə bilər. Bu iş üzrə həmin şərtlər mövcuddur. İddiaçı avtomobilin mülkiyyətçisidir. O, avtomobil üzərində mülkiyyət hüququnu alqı-satqı nəticəsində R.Məmmədova verməyib. Tərəflər arasında olan avtomobilin alıcının adına Nəqliyyat Polisində qeydiyyata alınmasının yalnız alqı-satqı qiymətinin tam ödənilməsindən sonra baş verəcəyi barədə şərt MM-in 606-cı maddəsində nəzərdə tutulmuş mülkiyyət hüququnun saxlanması barədə qeyd-şərt kimi başa düşülməlidir. Həmin razılaşmadan son nəticədə belə bir məna çıxır ki, alıcı R.Məmmədov avtomobil üzərində qeyri-məhdud hüququ yalnız alqı-satqı qiymətinin tam ödənilməsindən sonra əldə etməli idi. Lakin belə ödəmə baş verməyib.

Cavabdehin avtomobil üzərində sahiblik hüququ da yoxdur. Xüsusilə də o, avtomobil üzərində girov hüququ əldə etməyib. Nə iddiaçı özü MM-in 270, 281-ci maddələrinə əsasən etibarlı şəkildə girov qoyub, nə də o, R.Məmmədovu cavabdehlə girov müqaviləsi bağlamağa etibarlı şəkildə səlahiyyətləndirib. Notarial qaydada verilmiş etibarnamənin saxtalığı və beləliklə etibarsızlığı mübahisəsizdir. Buna görə də R.Məmmədov avtomobili iddiaçının adından girov qoya bilməzdi. Cavabdehin saxtalaşdırmanı bilməməsi və bilə də bilməməsi bu baxımdan heç bir rol oynamır. Etibarlı təmsilçilik səlahiyyətinin

mövcudluğuna vicdanlı surətdə inanma, prinsipcə, onun mövcudluğunu əvəz edə bilməz. Bunun üçün Mülki Məcəllədə hər hansı hüquqi əsas yoxdur. Bu baxımdam müqavilə tərəfinin müdafiəyə ehtiyacı yoxdur. O, güman edilən təmsil edilənlə əlaqəyə girib etibarnamənin mövcudluğu barədə məsələyə aydınlıq gətirə bilər.

Cavabdeh MM-in 271.1-ci maddəsinin 2-ci cümləsinə və 182.1-ci maddəsinə əsasən bilavasitə R.Məmmədovdan girov hüququnu vicdanlı şəkildə əldə etməyib. Bunun şərti o olmalı idi ki, cavabdeh vicdanlı şəkildə R.Məmmədovu avtomobilin mülkiyyətçisi hesab etməli idi. Lakin burada vəziyyət başqa cür olub. R.Məmmədov cavabdehə münasibətdə mülkiyyətçinin nümayəndəsi kimi çıxış etdiyindən bank onun mülkiyyətçi olmadığını pozitiv olaraq bilirdi.

Cavabdeh girov hüququ əldə etmədiyindən, o, avtomobil üzərində sahiblik hüququ da əldə etməyib. Buna görə də avtomobili MM-in 157.2-ci maddəsinə əsasən mülkiyyətçiyə qaytarmalıdır.

Xərclərlə bağlı qərar MPM-in 119.1-ci maddəsindən irəli gəlir.

Nəticə hissəsi

1. İddia təmin edilsin. Audi A 8 markalı, 2008-ci il buraxılışlı, ağ rəngli, şassi nömrəsi K 1234567890 olan avtomobilin cavabdehdən alınıb iddiaçıya verilməsi qət edilsin.

2. Məhkəmə xərcləri cavabdehə aid edilsin.

3. Qətnamədən şikayət verilməsi barədə məlumatlandırma.

B. Vərəsəlik hüququ ilə bağlı kazuslar

1. Vərəsəlik hüququnun əsasları ilə bağlı 4 kazus

1-ci kazus

A həyat yoldaşı və iki yetkinlik yaşına çatmamış uşağı ilə Şəkidə yaşayırdı. 15.04.2006-cı ildə uzun müddət davam edən xəstəlikdən sonra A vəfat edir. O, Şəkidə yerləşən, hələ nikaha daxil olmamışdan qabaq əldə etdiyi, bitişik yardımçı otaqları olan mənzilin yeganə mülkiyyətçisi idi. Həmin yardımçı otaqlarda A kiçik ərzaq məmulatları mağazası işlədirdi. Vəfat edərkən A-nın içki məhsulları mağazasının tikilməsi üçün sərf etdiyi və banka qaytarılmalı olan 10.000 manat borcu var idi. Bundan başqa, o, «Lada» markalı avtomobilin mülkiyyəiçisi idi və həmin avtomobil də nikah münasibətinə daxil olmazdan əvvəl əldə edilmişdi. Müştəri B-nin mal tədarükünə görə mirasqoyana (A-ya) 2.000 manat borcu var idi. Hər hansı bir vəsiyyətnamə yoxdur.

A-nın valideynləri Lənkəran yaxınlığında onun kiçik qardaşı ilə birgə yaşayır.

1. Vərəsə kimdir?

MM-in 1133.1-ci maddəsi

Vərəsə dedikdə, qanun və ya vəsiyyət üzrə və ya göstərilən hər iki əsas üzrə vərəsə qismində müəyyənləşdirilən şəxslər başa düşülür. Bu kazus üzrə vəsiyyətnamə olmadığı üçün vərəsə qismində qanun üzrə vərəsələr çıxış edirlər. MM-in 1159-cu maddəsi hansı şəxslərin qanun üzrə vərəsə olmalarını və bundan başqa vərəsələr arasındakı növbə ardıcıllığını müəyyən edir.

a) Birinci növbəli vərəsələrə aşağıdakılar daxildir:

Mirasqoyanın uşaqları (o cümlədən mirasqoyanın ölümündən sonra doğulmuş uşaqlar – MM-in 1134-cü maddəsi, ni-

kahdankənar uşaqlar – MM-in 1136-cı maddəsi), övladlığa götürülmüş uşaqlar, habelə arvad (ər), valideynlər (övladlığa götürənlər). MM-in 1163-cü maddəsinə görə, nikahı ləğv etmiş ər-arvad bir-birinin qanun üzrə vərəsələri ola bilməzlər.

Nəvələr, nəticələr və uşaqlar o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt mirasqoyanın vərəsələri olacaq valideynlər sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı ölmüş valideyninə çatacaq paydan bərabər miras alırlar (MM-in 1159.1.3-cü maddəsi).

MM-in 1160-cı maddəsinə görə, əvvəlki növbənin vərəsələrindən heç olmasa birinin olması sonrakı növbənin vərəsəliyini istisna edir. Yəni onlar yalnız o halda vərəsə ola bilirlər ki, əvvəlki növbənin vərəsələrindən heç kim olmasın və ya əvvəlki növbənin vərəsələri ləyaqətsiz vərəsə hesab edilşin (MM-in 1138-ci maddəsi).

b) İkinci növbəli vərəsələr – ölənin bacıları və qardaşları (MM-in 1159.2-ci maddəsi). Mirasqoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt mirasqoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı ölmüş valideyninə çatası miras payını bərabər olaraq alırlar.

c) Üçüncü növbəli vərəsələrə həm ana, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası aiddir. Nənənin anası və atası, babanın anası və atası o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın (MM-in 1159.3-cü maddəsi).

ç) Dördüncü növbəli vərəsələr xalalar və bibilər, dayılar və əmilərdir (MM-in 1159.4-cü maddəsi).

e) Beşinci növbəli vərəsələr xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqlarıdır (MM-in 1159.5-ci maddəsi).

2. Vərəsələr nə qədər miras alırlar?

Qanun üzrə bərabər pay hüququ olan bir neçə vərəsə varsa, onlar bərabər paylarla vərəsə olurlar (MM-in 1159.1-ci maddəsi). Kazusda birinci növbəli vərəsə qismində (MM-in 1159.1.1-ci maddəsi) mirasqoyanın valideynləri, arvadı və iki uşağı, yəni cəmi beş vərəsə var. Bunların hamısı pay qismində mirasın 1/5 hissəsini alır. Mirasqoyanın qardaşı MM-in 1160-cı maddəsinə əsasən miras almır.

MM-in 1151.1-ci maddəsinə əsasən, mirasa (miras əmlaka) mirasqoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

Beləliklə, 5 vərəsəyə birlikdə aşağıdakılar çatmalıdır:

1) mənzil üzərində mülkiyyət;

2) mal tədarükünə görə B-yə qarşı 2.000 manat məbləğdə pulun ödənilməsi tələbi;

3) avtomobil üzərində mülkiyyət.

Yəni mirasa daxil olan ayrı-ayrı predmetlər üzərində hissəvi mülkiyyət hüququ yoxdur.

Mirasın bölünməsinə qədər miras vahid əmlak şəklində bütün vərəsələrə (miras şəriklərinə) mənsubdur (MM-in 1157.1-ci maddəsinin 1-ci cümləsi). Bu əmlakdan sonuncu xəstəliyi zamanı mirasqoyana qulluq və onun müalicəsi, dəfni, mirasın mühafizəsi və idarə edilməsi, əməkhaqqı verilməsi və vəsiyyətin icrası üçün lazımi xərclər ödənilə bilər. Ona görə də miras əmlakın bölüşdürülməsinə qədər vərəsələrdən biri miras əmlaka daxil olan ayrı-ayrı predmetlər üzərində sərəncam verə bilməz (lakin miras şəriklərindən biri öz payına dair notarial müqavilə ilə sərəncam verə bilər, MM-in 1292-ci maddəsi). Bundan başqa, o, mal tədarükünə görə B-yə qarşı 2.000

manat məbləğdə pulun ödənilməsi tələbini yalnız miras şəriklərinin hamısı üçün həyata keçirə bilər.

3. Miras necə bölüşdürülməlidir?

Bir neçə vərəsə varsa və onların hər biri mirasın müəyyən hissəsini pay alırsa, onda miras MM-in 1274-cü maddəsində nəzərdə tutulan qaydada, özü də bütün vərəsələrin razılaşması üzrə bölüşdürülür, yaxud da MM-in 1275-ci maddəsində göstərilən halda bölüşdürməni üçüncü şəxs həyata keçirir. Bu zaman MM-in 1302 və 1303-cü maddələrindəki üstünlük hüququ da nəzərə alınmalıdır. Razılaşma olmazsa, MM-in 1275, 1291-ci maddələrinə uyğun olaraq məhkəmə bu məsələ barədə qərar qəbul edir. MM-in 1278-ci maddəsinə əsasən, miras şəriklərinin razılaşması üzrə bütün mirasın satılmasına və pulların vərəsələr arasında paylarına uyğun bölüşdürülməsinə yol verilir. Bu qaydadan istisna bölünməz əmlakla bağlı (MM-in 1281-ci maddəsi) və kənd təsərrüfatı təyinatlı əmlakla (MM-in 1282-ci maddəsi) bağlı müddəalarda müəyyən olunmuşdur.

Beləliklə, bu kazus üzrə vərəsələr ya maşınla mənzili sataraq əldə olunan pul məbləğini öz aralarında bölüşdürə bilərlər, ya da onlar, məsələn, mənzilə mülkiyyət hüququnun miras qoyanın arvadına keçməsi və buna görə də onun uşaqlarına kompensasiya ödəməsi (MM-in 1279-cu maddəsi) barədə razılığa gələ bilərlər. Bundan başqa, MM-in 1281-ci maddəsinə əsasən də həll variantı mümkündür ki, bu zaman bütün vərəsələr ya mənzil üzərində vahid mülkiyyət hüququnu saxlayırlar, ya da miras şərikləri belə bir razılığa gələ bilərlər ki, mirasın bölüşdürülməsi müəyyən müddətə dayandırılsın (MM-in 1280-ci maddəsi).

4. Mirasqoyanın borclarını kim ödəməlidir?

MM-in 1151.1-ci maddəsinə əsasən, mirasqoyanın vəzifələrinin toplusu da mirasa daxildir. Vərəsələr MM-in 1309-cu

maddəsinə əsasən mirasın açılması barədə mirasqoyanın kreditorlarına məlumat verməyə borcludurlar. MM-in 1306.1-ci maddəsinə müvafiq olaraq, vərəsələr mirasqoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinə payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar. Qanuna əsasən onlar birgə borclular kimi məsuliyyət daşıdıqlarından kreditor MM-in 500.1-ci maddəsinə uyğun olaraq, istənilən vərəsəyə qarşı maksimal olaraq miras aktivinin ümumi həcmində mirasa aid öhdəliyin tam icrası ilə bağlı tələb irəli sürə bilər. Məsuliyyətin miras paylarına mütənasib olaraq məhdudlaşdırılması yalnız vərəsələrin öz aralarında, yəni daxili münasibətdə qüvvədə olur: öhdəliyi tam icra etmiş vərəsənin MM-in 509-cu maddəsinə əsasən başqa vərəsələrə qarşı onların miras paylarına mütənasib surətdə miras öhdəliyinin uyğun həddi həcmində tələb hüququ var.

Bu kazus üzrə bank öz seçimi ilə ya mirasqoyanın valideynlərinə, arvadına, ya da uşaqlarına qarşı 10.000 manatın ödənilməsi ilə əlaqədar tələb irəli sürə bilər, çünki miras aktivi ümumilikdə daha artıq məbləğdədir. Daxili münasibətlərdə isə miras şərikləri öz aralarında öhdəliyin 1/5-i həcmində cavabdehlik daşıyırlar.

2-ci kazus

Neftçi olan A həyat yoldaşı və dörd yetkinlik yaşına çatmamış övladı, eləcə də kiçik bacısı ilə birlikdə Neftçalada yaşayırdı. A-ya bir mənzil, mebel əşyaları, bir avtomobil, eləcə də 10.000 manat məbləğində əmanət məxsus idi.

A vəfat edir və formal baxımdan etibarlı olan vəsiyyətnamə qoyur. Vəsiyyətnamədə deyilir:

«Əgər mən ölərəmsə, hər şey miras qismində həyat yoldaşıma çatmalıdır».

1. Kim vərəsə olub?

MM-in 1166-cı maddəsinə əsasən, arvad vəsiyyət üzrə ərinin yeganə vərəsəsi olub. A-nın bütün əmlakı vərəsəlik üzrə ona keçib. Buna baxmayaraq, ailənin başqa üzvlərinə nəsə çatırmı?

Bəli, çünki MM-in 1193-cü maddəsinə görə, vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi pay deyilən bir payı vardır.

2. Bu şəxslər hansı həcmdə mirasdan məcburi pay almağı tələb edə bilərlər?

Tələblər vərəsələrin hər birinin qanun üzrə vərəsəlik halında alacaqları miras payının yarısı həddindədir. Ona görə də əvvəlcə qanun üzrə vərəsəliyə əsasən miras payı müəyyən edilməlidir.

Qanun üzrə birinci növbəli bərabər paylara vərəsələr mirasqoyanın arvadı və 4 uşağıdır (MM-in 1159.1-ci maddəsi).

MM-in 1196-cı maddəsinin 1-ci cümləsinə əsasən, vərəsələrdən hər birinin məcburi payı müəyyənləşdirilərkən vəsiyyətnamə olmasaydı, miras almağa çağırıla biləcək qanun üzrə vərəsələrin hamısı nəzərə alınmalıdır. Burada hər bir vərəsə üçün qanun üzrə miras payı 1/5 təşkil edir. MM-in 1193-cü maddəsinə görə, məcburi pay qanun üzrə vərəsəlik zamanı vərəsələrə çatası payın yarısını təşkil etməlidir. Beləliklə, vəsiyyət üzrə mirasdan kənarlaşdırılan hər bir vərəsənin məcburi payı mirasın 1/10-ni təşkil edir. Buna əsasən uşaqların hər biri uyğun olaraq mirasın 1/10-ni, onların anası isə mirasın qalan 6/10 hissəsini alır.

Qanunda mirasdan məcburi pay almaq hüququnun məzmunu barədə birmənalı qayda müəyyənləşdirilməyib. Azərbaycan hüquq praktikasında məcburi pay hüququ əsasən, bir növ, mi-

ras payı kimi başa düşülür və buna uyğun olaraq məcburi pay hüququ olan şəxsin də vərəsələrlə birlikdə əşya hüququ baxımından mirasa hüququ tanınır. Lakin belə yanaşma qanunun mənası ilə çətin uzlaşır. Məcburi pay almaq hüququnun tam normal pul tələbi kimi başa düşülməsinin lehinə dəlillər gətirmək olar. Məcburi pay almaq hüququ olan şəxs vərəsəyə oxşar mövqe əldə etmiş olsaydı, ilk əvvəl onun miras şərikləri ilə münasibəti aydın olmazdı. MM-in 1157-ci maddəsinə əsasən, miras vərəsələr arasında bölüşdürülənədək vahid əmlak şəklində onlara məxsus olur. Yuxarıdakı mövqeyə əsasən, məcburi pay almaq hüququ olan şəxs mirasdan pay almalı və beləliklə, vərəsə olmalıdırsa, yəqin ki, o da həmin maddədə miras şərikləri sırasında göstərilməli idi. Daha sonra, məcburi payın naturada mirasdan necə ayrılması aydın deyil. MM-in 1274 və sonrakı maddələrində mirasın bölüşdürülməsi ilə bağlı ətraflı qaydalardan fərqli olaraq, qanun məcburi pay almaq hüququ olan şəxslərin olması zamanı mirasın bölüşdürülməsi ilə bağlı hər hansı tənzimləmə nəzərdə tutmur. Nəhayət, qanunvericinin məcburi payı belə pay almaq hüququ olan şəxslərin mirasda iştirakı kimi deyil, yalnız xalis pul tələbi kimi (qanuni miras payının dəyərinin yarısı həcmində) qəbul etməsini 2005-ci ildə qanuna edilmiş iki dəyişiklik göstərir. Bir tərəfdən, MM-in 1306-cı maddəsindən mirasın passivi üçün məcburi pay almaq hüququ olan şəxslərin də məsuliyyət daşıması barədə qayda çıxarılıb. Bu şəxslər vərəsələr kimi mirasda bilavasitə iştirak etmirlərsə və məsələn, onun idarə edilməsində də iştirak etmək hüquqları yoxdursa, (müqayisə et: MM-in 1157-1-ci maddəsi), qanunun sistematikası baxımından belə qayda ardıcıldır. Bundan başqa, MM-in 1194-cü maddəsində vərəsələrin miras payı tələb etmək hüququ olan şəxs qarşısında birgə borclu kimi çıxış etməsi qaydası da dəyişdirilmişdir. Mirasda məcburi pay pul tələbi kimi

deyil, mirasda əşya hüquqi xarakterli ideal pay kimi başa düşülsəydi, məhz bu tənzimləmənin heç bir mənası olmazdı.

A-nın bacısının MM-in 1193-cü maddəsinə əsasən məcburi pay almaq hüququ yoxdur.

Kazusun dəyişdirilmiş variantı:

Ər və arvad birgə vəsiyyətnamə tərtib edirlər. Həmin vəsiyyətnaməyə görə onlar qarşılıqlı surətdə bir-birini vərəsə təyin edirlər. Sonuncunun ölümündən sonra isə onların 4 uşağı vərəsə olmalıdır. Ərin ölməsindən sonra arvadın baldızı onun qayğısına qalır. Təşəkkür əlaməti olaraq o, baldızını vəsiyyətnamə əsasında mirasın 1/5 hissəsinə vərəsə təyin edir. Arvad da öldükdən sonra baldız 4 uşaqdan mirasın 1/5 hissəsinin ona verilməsini tələb edir. O, haqlıdırmı?

Baldız mirasın 1/5 hissəsini o halda tələb edə bilər ki, o, vərəsə olsun. Bunun üçün isə şərt odur ki, arvadın sonradan tərtib etdiyi və baldızın vəziyyətini yaxşılaşdıran vəsiyyətnamə etibarlı olsun. MM-in 1169-cu maddəsinə əsasən, yalnız ərlə arvad qarşılıqlı vərəsəlik haqqında birgə vəsiyyətnamə tərtib edə bilərlər. Beləliklə, ərin ölümündən sonra arvad yeganə vərəsə olub. Arvad əri ilə birgə tərtib etdiyi vəsiyyətnaməni yeni vəsiyyətnamənin tərtib edilməsi yolu ilə dəyişə bilərmi?

Prinsipcə, MM-in 1220-ci maddəsinə uyğun olaraq vəsiyyətnamənin dəyişdirilməsi və ya ləğvi mümkündür. Lakin birgə vəsiyyətnamə ilə bağlı hallara MM-in 1169-cu maddəsinin 3-cü cümləsi şamil olunur: birgə vəsiyyətnamə ər-arvadın hər ikisinin sağlığında ləğv edilə bilər.

Buna baxmayaraq, uşaqların vərəsə kimi müəyyənləşdirilməsi MM-in 1226.3-cü maddəsinə əsasən etibarsızdır. Beləliklə də arvad baldızını mirasın 1/5 hissəsində vəsiyyətnamə üzrə vərəsə kimi təyin edə bilərdi. Tələb haqlıdır.

3-cü kazus

Taksi sürücüsü olan A həyat yoldaşı, üç yetkinlik yaşına çatmamış övladı və valideynləri ilə birlikdə Qubanın yaxınlığında yaşayırdı.

Ər-arvada birgə nikah dövründə əldə edilmiş 50.000 manat dəyərində mənzil, 10.000 manat dəyərində mebel əşyaları və məişət ləvazimatı, 20.000 manat dəyərində avtomobil məxsus idi. Bundan əlavə, A-nın mülkiyyətində nikaha daxil olmazdan qabaq əldə etdiyi, Səttar Bəhlulzadənin müəllifi olduğu bir rəsm əsəri də var idi ki, onun da dəyəri 30.000 manatdır. Bu şəkil A-nın arvadının çox xoşuna gəlirdi.

Uzun müddət davam edən xəstəlikdən sonra A 2006-cı ildə vəfat edir. Həyat yoldaşı evdə sandığın içində zərfə qoyulmuş, A-nın əllə yazdığı aşağıdakı məzmunda bir yazı tapır:

«Quba, 6.11.2001

Mən, A müəyyən edirəm ki, ölümümdən sonra Bəhlulzadənin şəkli və bütün ev əşyaları miras qismində həyat yoldaşıma çatmalıdır. O, son beş ildə böyük sədaqətlə mənə qulluq etmişdir.

İmza: A».

A-nın vəfatından sonra onun valideynləri ilə həyat yoldaşı və uşaqları arasında kəskin mübahisə yaranır. Bir neçə həftədən sonra A-nın həyat yoldaşı bütün bunlara dözmür və uşaqları ilə birlikdə Bakıya, varlı valideynlərinin yanına köçməyi qərara alır.

Ailə üzvləri mirasın hansı qaydada bölüşdürülməsi barədə razılığa gələ bilmirlər. Kimə hansı pay, nə çatmalıdır?

Kazusun həlli:

1. Vəsiyyətnamə üzrə vərəsəlik və qanun üzrə vərəsəlik bir-birindən fərqləndirilməlidir. Vəsiyyətnamə üzrə vərəsə-

liyin qanun üzrə vərəsəlikdən üstün qüvvəsi var (qanun üzrə vərəsəliyin subsidiarlığı prinsipi). Qanun və vəsiyyətnamə üzrə vərəsəlik bir-birini tamamlaya da bilər. Mirasqoyan yalnız miras əmlakın bir hissəsinə nisbətdə vərəsələri müəyyən edə, mirasın qalan hissəsinə isə qanun üzrə vərəsəlik şamil oluna bilər (müqayisə et: MM-in 1172-ci maddəsi).

Vəsiyyətnamə azadlığı prinsipi qüvvədədir. Buna əsasən, mirasqoyan vəsiyyətnamə vasitəsilə qanun üzrə vərəsəlik qaydasından kənara çıxmaqda azaddır. Bu prinsip mirasqoyana əmlakını onun üçün ədalətli görünən qaydada bölüşdürməyə və beləliklə də vərəsəlik sıralamasını özünün özəl şəxsi və iqtisadi münasibətlərinə uyğunlaşdırmağa imkan yaradır.

Vəsiyyətnamə ilə bir və bir neçə vərəsənin payının müəyyənləşdirilməsindən əlavə, vəsiyyət edən MM-in 1170.1-ci maddəsinin 1-ci cümləsinə əsasən hansı vərəsəyə hansı əmlakın verilməsini göstərməklə vərəsələri müəyyənləşdirə bilər. Buna klassik misal evin vəsiyyət edilməsidir. Lakin universal vərəsəlik prinsipinə əsasən, miras həmişə tam olaraq vərəsələrə keçdiyindən, sonunsu halda bölüşdürmə haqqında sərəncam vasitəsilə vərəsə kimi müəyyənləşdirmədən söhbət gedir. Mirasqoyan qanun üzrə vərəsəlik qaydasına toxunmaq istəməyərək, miras kütləsində aid ayrı-ayrı əşyalarıın konkret vərəsələrə çatmasını arzulayırsa, o, buna yenə də MM-in 1275-ci maddəsinə əsasən mirasın bölüşdürülməsi qaydasını müəyyən edən bölüşdürmə haqqında vəsiyyət sərəncamı ilə nail ola bilər.

2. Bu kazus üzrə ümumi təfsir prinsipləri əsasında 06.11. 2001-ci il tarixli yazının təfsiri vasitəsilə vəsiyyət edən A-nın həqiqi iradəsi müəyyənləşdirilməlidir.

Vəsiyyət sərəncamı akseptə ehtiyacı olmayan iradə ifadəsidir. Burada müdafiə edilməli olan, iradə ifadəsini qəbul edəcək tərəf yoxdur. Bu məqam MM-in 324.5-ci maddəsinə əsasən təfsir zamanı nəzərə alınmalıdır. Vəsiyyət edən onsuz

da öz sərəncamlarını istənilən vaxt azad şəkildə geri götürə bildiyindən, vəsiyyətnamənin təfsiri zamanı müəyyən iradə ifadəsinin təfsirindən fərqli olaraq (müqayisə et, MM-in 404-cü maddəsi), ofertanın ünvanlandığı şəxsin iradə ifadəsini necə qəbul etməsi deyil, vəsiyyət edənin həqiqi iradəsi əsas götürülür. Yəni vəsiyyət edənin öz sözləri ilə nəyi ifadə etmək istəməsini müəyyənləşdirmək həlledicidir. Formal olaraq, bilavasitə vəsiyyətnamənin özündə əks edilməmiş hallar da təfsir zamanı istifadə edilə bilər. Hər bir halda məqsəd vəsiyyət edənin əsl iradəsinin imkan dairəsində hərtərəfli şəkildə həyata keçirilməsidir.

A-nın 06.11.2001-ci il tarixli yazısı müxtəlif təfsirlərə yol açır.

a) Bir tərəfdən A-nın 06.11.2001-ci il tarixli yazısını belə təfsir etmək olar ki, vəsiyyət edən qanun üzrə vərəsəlik növbəliliyinin saxlanmasını istəməklə yanaşı, eyni zamanda həmin qaydalar çərçivəsində miras qalan müəyyən əşyaların bilavasitə arvadına çatmasını istəyirdi. Bu halda 06.11.2001-ci il tarixli yazı MM-in 1275-ci maddəsinin 1-ci cümləsinə əsasən, sadəcə olaraq, mirasın bölüşdürülməsi qaydasını müəyyən edən bölüşdürmə haqqında vəsiyyət sərəncamı kimi başa düşülməlidir.

Həmin hala aşağıdakıları şamil etmək olar:

MM-in 1159.1-ci maddəsinə əsasən, mirasqoyanın arvadı, uşaqları və valideynləri bərabər paylarla qanun üzrə vərəsə hesab olunurlar. Beləliklə, mirasqoyan A-nın arvadı, 2 azyaşlı uşağı və valideynləri hərəyə 1/5 payla vərəsədirlər. Miras tam miras kütləsi şəklində vərəsələrə keçir. Bu, MM-in 1133 və 1151-ci maddələrində əksini tapmış universal hüquq varisliyi prinsipinə uyğundur. Miras vərəsələrin ümumi mülkiyyəti olur.

Nəzərə almaq lazımdır ki, MM-in 225.1-ci maddəsinə əsasən, arvad mənzilin, daxili ləvazimat əşyalarının və avtomo-

bilin yarıbayarı mülkiyyətçisidir. Buna görə də ərin mülkiyyətinin yalnız yarısı mirasa aiddir (müqayisə et: MM-in 1162-ci maddəsi). Beləliklə, bu kazus üzrə mirasqoyan A-nın miras dəyəri 30.000 manat məbləğində olan rəsm əsərindən, dəyəri 25.000 manat məbləğində (50.000 manatın 1/2-i) olan mənzil üzərində mülkiyyətin yarısından, dəyəri 5.000 manat məbləğində (10.000 manatın 1/2-i) olan ev əşyalarından və dəyəri 10.000 məbləğində (20.000 manatın 1/2-i) olan avtomaşından ibarətdir. Yəni mirasın ümumi məbləği 70.000 manatdır.

06.11.2001-ci il tarixli yazı qanun üzrə vərəsəlik çərçivəsində mirasın bölüşdürülməsi qaydasını müəyyən edən bölüşdürmə haqqında vəsiyyət sərəncamı kimi başa düşülürsə, göstərilən əşyaların arvada verilməsi yalnız mirasın bölüşdürülməsi çərçivəsində mümkün olacaq. Belə bölüşdürmə haqqında sərəncam arvadın qanun üzrə miras payının həcmi və miras əmlakda arvadın iştirakının dəyəri məsələlərinə toxunmur. Lakin ona verilməli olan əşyaların dəyəri arvadın miras payına hesablanacaq. Bununla yanaşı, arvada veriləcək olan əşyaların dəyəri payına uyğun ona çatacaq məbləğdən artıqdırsa, arvad öz mülkiyyətindən başqa vərəsələrə, yəni 2 azyaşlı uşağa və valideynlərə artıq fərqi ödəməlidir. Arvada veriləcək əşyaların (rəsm əsəri + ev əşyaları) dəyəri burada 35.000 (30.000 + 5.000) manat təşkil edir. Arvadın mirasdakı payının dəyəri isə yalnız 14.000 manat (mirasın tam dəyəri 5 vərəsənin sayına bölünməklə) təşkil edir. Beləliklə, arvad başqa 4 vərəsənin hərəsinə 5.250 manat ödəniş (arvada veriləcək olan əşyaların artıq dəyəri – 21.000 manat 4 vərəsənin sayına bölünməklə) etməlidir.

Əmlakın bölüşdürülməsi zamanı, əlavə olaraq, MM-in 1303 və 1304-cü maddələrinə əsasən üstünlük hüququ nəzərə alınmalıdır. Yəni A ilə onun ölümündən əvvəl ən azı 1 il bir yerdə yaşamış şəxslərin mənzili tələb etməkdə üstünlük

hüquqları var və belə olarsa, başqa vərəsələrə payın artıq dəyərinə görə əvəz ödəməlidirlər.

Bundan başqa, arvadın MM-in 1302-ci maddəsinə əsasən, mənzilin və avtomobilin birgə mülkiyyətçisi kimi (MM-in 225.1-ci maddəsi) bu əmlaka vərəsəlikdə üstünlük hüququ var. O, həmin hüquqdan istifadə edərsə, başqa vərəsələrə MM-in 1304-cü maddəsinə əsasən pul və ya əmlak kompensasiyası verməlidir.

b) 06.11.2001-ci il tarixli yazını belə təfsir etmək də olar ki, A öz arvadına rəsm əsərinin və ev əşyalarının verilməsi barədə göstəriş verməklə onu vərəsə kimi (vəsiyyətnamə üzrə) müəyyənləşdirmək istəyirdi. Prinsip etibarilə hər hansı bir vərəsəlik payının müəyyən edilməsi əvəzinə müəyyən əmlak predmetlərinin verilməsi bərədə sərəncam vasitəsilə də vərəsə kimi müəyyənləşdirmə mümkündür. Lakin artıq yuxarıda göstərildiyi kimi, Azərbaycan vərəsəlik hüququnda universal hüquq varisliyi prinsipi təsbit edilmişdir. Bu prinsipə əsasən, miras həmişə tam şəkildə vərəsələrə (qanun və ya vəsiyyət üzrə vərəsələrə) keçir. Azərbaycan hüququ sinqulyar hüquq vərəsəliyini, yəni mirasa aid olan ayrı-ayrı predmetlərə fərdi hüquq varisliyini tanımır. Beləliklə, rəsm əsərinin və ev əşyalarının arvadına çatması barədə A-nın göstərişi bu halda MM-in 1170.1-ci maddəsinin 1-ci cümləsinə uyğun bölüşdürmə haqqında vəsiyyət sərəncamı vasitəsilə vərəsə kimi müəyyənetmə kimi qəbul edilməlidir.

Belə olan halda sual yaranır ki, arvadın miras payının həcmi nə qədərdir? Arvadın miras payının həcmi mirasqoyanın 06.11.2001-ci il tarixli sonuncu sərəncamı ilə ona ayrılmış predmetlərin dəyərinin mirasın ümumi dəyərinə nisbəti ilə (predmetlərə uyğun müəyyənləşdirilmiş miras payı) müəyyənləşdirilir. Burada nəzərə almaq lazımdır ki, MM-in 225.1-ci maddəsinə əsasən, arvad mənzilin, ev əşyalarının

və avtomobilin yarıbayarı mülkiyyətçisidir. Buna görə də ərin mülkiyyətinin yalnız yarısı mirasa aiddir. Mirasın ümumi dəyəri 70.000 manatdır. Arvada ayrılmış əşyaların dəyəri 35.000 manatdır. Beləliklə, vəsiyyətnamə üzrə arvadın miras payı, ilkin olaraq, ‰ təşkil edir.

Bundan sonra qalan əmlakın necə bölünməsi yoxlanmalıdır. Bu hala MM-in 1172-ci maddəsi tətbiq edilir. Bu qaydaya əsasən, vəsiyyətnamə ilə təyin edilmiş vərəsələrin payları bütövlükdə mirasın hamısını əhatə etmirsə, vəsiyyətnamədən kənarda qalmış əmlaka qanun üzrə vərəsəlik həyata keçirilir və vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, bu cür vərəsəlik əmlakın bir hissəsinin vəsiyyət edildiyi qanun üzrə vərəsələrə də aid olur. Vəsiyyətnamədən miras qoyanın ayrı qayda müəyyən etmək istəməsi barədə iradəsi sezilmir. Xüsusilə də vəsiyyətnamədəki sərəncamla A-nın arvadına yalnız və yalnız rəsm əsərini və ev əşyalarını vermək istəməsini, əmlakının qalan hissəsinin isə başqa qohumlarına çatmalı olmasını qəbul etmək olur. Belə təfsirin əleyhinə olan məqam kimi vəsiyyətnamədə göstərilmiş əşyaların ayrılmasının motivi çıxış edir. Arvad həmin əşyaları xəstə A-ya qulluq etməsi müqabilində, yəni bu qulluğun qiymətləndirilməsi kimi əldə etməli idi. Bu, çox güman ki, yalnız belə başa düşülə bilər ki, arvada onsuz da ona çatası olan qanun üzrə vərəsəlik payından savayı, əlavə bir pay da verilməli idi.

Qanun üzrə birinci növbəli vərəsələrə, MM-in 1159.1-ci maddəsinə əsasən, arvad, 3 uşaq və valideynlər aiddir. MM-in 1172-ci maddəsinin qaydasına əsasən, qalan əmlakı (mirasın ‰ -ni) eyni növbəli vərəsələr qismində onlar 1159-cu maddəyə əsasən bərabər paylarla, yəni hərəyə 1/10 olmaqla alırlar. Buna əsasən, nəticə etibarilə arvad vəsiyyətnamə və qanun üzrə vərəsəlik vasitəsilə 3/5 (= 6/10) payla, iki uşaq və valideynlər isə hərəyə 1/10 payla miras əmlakda pay əldə

edir. Mirasın bölüşdürülməsi zamanı rəsm əsərinin və ev əşyalarının yarısının dəyəri arvadın 3/5 miras payında hesaba alınmalıdır.

Burada məcburi pay hüququnun xüsusiyyətləri də nəzərə alınmalıdır. MM-in 1193-cü maddəsinin 1-ci cümləsinə əsasən, mirasqoyanın 2 azyaşlı uşağının və valideynlərinin məcburi pay almaq hüququ var. Məcburi pay almaq hüququ məcbur, pay almağa səlahiyyəti olan şəxsin mirasda minimal iştirakını təmin edir. Buna görə də MM-in 1201-ci maddəsi müəyyən edir ki, məcburi pay almaq hüququ olan şəxsə qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az əmlak vəsiyyət edilmişdirsə, o, vəsiyyət üzrə aldığı payın qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az hissəsini başqa vərəsələrdən tələb edə bilər (məcburi payı tamamlamaq tələbi). Həmin qayda burada bilavasitə tətbiq edilə bilməz, çünki məcburi pay almaq hüququ olan A-nın uşaqları və valideynləri vəsiyyətnamə əsasında deyil, qanun əsasında vərəsə olmuşlar. Başqa yandan, bu müddəanın analogiya üzrə tətbiqi ədalətlidir, çünki bu halda da miras qoyan vəsiyyətnaməsini tərtib etməklə məcburi pay almaq hüququnu bir vərəsənin xeyrinə məhdudlaşdıra bilər və belə olan halda vəsiyyətnamədə göstərilməmiş məcburi pay almaq hüququ olan şəxslərin daha az müdafiə edilən olmasının hər hansı səbəbi görünmür. Deməli, MM-in 1201-ci maddəsinin arxasında duran hüquqi ideya bu hala da şamil edilməlidir.

Beləliklə, bu kazusa aşağıdakılar şamil edilir: MM-in 1159. 1-ci maddəsinə əsasən, qanun üzrə miras payı 1/5-dir. MM-in 1193-cü maddəsinə əsasən, məcburi pay 1/10-dir. Hər iki uşağa və valideynə çatası olan miras payı onların qanun üzrə ala biləcəyi payın yarısından az deyil. Çünki onların hər birinin mirasqoyan A-nın əmlakının 1/10 hissəsi qədər payı var və beləliklə də arvad qanun üzrə vərəsələrə heç nə ödəməli deyil.

c) Yekun olaraq aşağıdakıları müəyyənləşdirmək olar: bölüşdürmə ilə sərəncam (bax: yuxarıda «a» və vəsiyyətnamə ilə vərəsə kimi müəyyən edilmə «b») arasındakı fərqləndirmə son nəticədə mirasqoyanın iradəsi əsasında müəyyənləşdirilir ki, bu da 06.11.2001-ci il tarixli yazının təfsiri nəticəsində dəqiqləşdirilməlidir. Mirasqoyan A arvadına qanun üzrə vərəsə payından artıq xüsusi əmlak üstünlükləri yaratmaq istəyirdisə, burada vəsiyyətnamə üzrə vərəsə kimi müəyyənedilmədən söhbət gedir; belə üstünlük yaratmaq iradəsi yoxdursa, həmin yazı qanun üzrə vərəsəlik növbəliliyinə toxunmadan sadəcə bölüşdürmə haqqında sərəncam kimi qiymətləndirilməlidir. Çox güman ki, göstərilənlərə əsasən, bu işdə vəsiyyətnamə üzrə vərəsə kimi müəyyənedilmə qəbul edilməlidir, çünki A arvadına uzunmüddətli qayğının müqabilində xüsusi əmlak üstünlüklərinin verilməsini istəyirdi.

Nəticə: MM-in 1172-ci və 1159.1-ci maddələrinə əsasən, A-nın vərəsələri onun arvadı, 2 azyaşlı uşağı və valideynləridir. Arvad mirasın 3/5 hissəsini pay alır, lakin mirasın bölüşdürülməsi çərçivəsində rəsm əsərinin və ev əşyaları üzərində mülkiyyətinin yarısının bu paya hesablanması nəzərə alınmalıdır. Başqa vərəsələrin hərəsinin payı 1/10-dir.

Bu halda da arvadın və başqa mənzil sakinlərinin MM-in 1302 və 1303-cü maddələrinə əsasən vərəsəlikdə üstünlük hüququ nəzərə alınmalıdır. Yuxarıda «a» göstərilənlər uyğun olaraq tətbiq edilir.

Kazusun dəyişdirilmiş variantı:

A avtomobili nikahdan əvvəl əldə etsəydi (mirasın tərkibi və qohumluq münasibətləri eyni olmaq şərtilə) və 6.11.2001-ci il tarixli yazının məzmunu aşağıdakı kimi olsaydı, vəziyyət necə olardı:

«Mən, A müəyyən edirəm ki, ölümümdən sonra avtomobil dostum Şakirə çatmalıdır. O, qədim avtomobillərin vurğunudur. Bütün qalan əmlak arvadıma və iki uşağıma çatmalıdır».

Kim və hansı payla vərəsə olacaq?

Kazusun həlli:

A-nın ölümündən sonra dostu Şakirin avtomobili əldə etmək barədə göstərişinin Şakirin vəsiyyətnamə üzrə vərəsə kimi müəyyənləşdirilməsi, yoxsa vəsiyyət tapşırığı (MM-in 1205-ci maddəsi) kimi nəzərdən keçirilməsi həlledicidir? Bu, mirasqoyan A-nın iradəsinin dostu Şakirin bilavasitə mirasda iştirakına yönəlməsindən asılıdır. Yəni A dostuna idarəetmə və sərəncam hüquqları verib onu özünün hüquq varisi etmək istəmişdir (bunun da MM-in 1306-cı maddəsinə əsasən nəticəsi ondan ibarət olardı ki, Şakir miras əmlakdan irəli gələn öhdəliklər üçün də məsuliyyət daşımalı olacaqdı), yoxsa A-nın məqsədi, sadəcə olaraq, dostuna avtomaşının verilməsi ilə bağlı vərəsələrinə qarşı öhdəlik hüququ xarakterli tələb vermək olmuşdur?

Kiminsə vəsiyyətnamədə vəsiyyət tapşırığını alan və ya vərəsə kimi müəyyənləşdirilməsi çox zaman birmənalı olmur və vəsiyyətnamənin təfsiri vasitəsilə araşdırılmalıdır. Məsələn, mirasqoyan vəsiyyətnaməsində miras əmlaka nisbətən az dəyərli predmet barəsində sərəncam verirsə, burada, yəqin ki, vəsiyyət tapşırığının nəzərdə tutulması qəbul oluna bilər, mirasa nisbətən yetərincə dəyərli əmlak barədə sərəncam verildikdə isə bunun əksi ehtimal oluna bilər. Sonuncu halda böyük əminliklə güman etmək olar ki, göstərilən şəxs mirasqoyanın təsəvvürlərinə əsasən bütün hüquq və vəzifələrlə vərəsə kimi mirasın bir hissəsini əldə etməli idi. Belə olduqda, vəsiyyətnamədə bir predmetin göstərilməsi mirasqoyanın bölüşdürmə haqqında sərəncamı anlamına gəlir. Bununla miras kütləsinin vərəsələr arasında bölüşdürülməsi zamanı və-

rəsənin məhz barəsində tapşırıq verilmiş predmet üzərində mülkiyyətin ona verilməsini tələb etmək hüququ təmin edilməlidir (MM-in 1170-ci maddəsi).

Burada vəsiyyətnamə üzrə vərəsə kimi müəyyənləşdirməyə qarşı çıxış edən dəlil bir tərəfdən vəsiyyətnamənin mətnidir. A-nın dostu köhnə avtomobillər həvəskarı olduğu üçün avtomobil ona çatmalı idi. Mirasqoyan avtomaşını dostuna bağışlamaqla, birmənalı olaraq, onu çox sevindirmək istəyirdi. Şakiri miras əmlakın sonrakı taleyində, o cümlədən, mümkün olan miras öhdəliklərinin icrasında bilavasitə iştirak etməyə vadar etmək üçün A-nın heç bir əsası yox idi. Mirasın sonrakı bölüşdürülməsi mirasqoyanın iradəsinə əsasən ailənin işi olmalı idi. Avtomobilin mirasın tam dəyərinə nisbətdə az dəyərli olması vəsiyyətnamə ilə vərəsə kimi müəyyən edilmənin əleyhinə çıxış edir. A-nın dostu, sadəcə olaraq, vəsiyyət tapşırığını alandır. O, MM-in 1205-ci maddəsinə əsasən vərəsələrə qarşı avtomobilin ona verilməsi ilə bağlı tələb irəli sürə bilər.

Vəsiyyətnamə üzrə vərəsə kimi yalnız arvad və A-nın iki uşağı vərəsəliyə çağırıla bilər. Lakin 06.11.2001-ci il tarixli vəsiyyətnamədə miras payı barədə heç bir göstəriş yoxdur. MM-in 1170.1-ci maddəsinin 2-ci cümləsinə əsasən, vəsiyyətnamədə miras paylarının müəyyənləşdirilməsi barədə göstəriş yoxdursa, miras vərəsələr arasında bərabər bölüşdürülür. Yəni A-nın arvadı və 2 uşağı hərəyə 1/3 pay alırlar.

Mirasqoyanın valideynlərinin 06.11.2001-ci il tarixli vəsiyyətnamədə adları çəkilmir. Buna görə də onlar vərəsəliyə çağırılmırlar. Lakin MM-in 1193-cü maddəsinə əsasən, mirasqoyanın valideynləri mirasda məcburi pay almaq hüququ olan şəxslərdir. Bu qisimdə onların qanun üzrə vərəsəlik zamanı aradan qaldırıla bilməyən həmin şəxslərə çatacaq payın yarısı qədər pul tələbi vardır. Həmin pul tələbi miras şəriklərinə qarşı yönəlib. Bu iş üzrə mirasın ümumi dəyəri 80.000

manat (30.000 manat rəsm əsəri + 25.000 manat mənzil üzərində həmmülkiyyət + 5.000 manat ev əşyaları üzərində həmmülkiyyət + 20.000 manat avtomobil) təşkil edir. Beləliklə, valideynlərin qanun üzrə vərəsəlik zamanı onlara çatacaq payı 1/5-dir və hərəyə 16.000 manat təşkil edir. Buna görə də valideynlərin hərəyə ½ = 8.000 manat məcburi pay almaq hüquqları vardır.

4-cü kazus

1. İlkin kazus:

Mirasqoyan E-nin arvadı və 3 oğlu var idi. 2006-cı ilin dekabrında E cinayətin qurbanı olaraq vəfat edir və 10.000 manat məbləğində pul, bir ev və bir avtomobil miras qoyur. E-nin vəsiyyətnaməsi tapılır. Həmin vəsiyyətnaməyə görə, E bütün pul məbləğini oğlanlarının birinə (S) vəsiyyət edib. S mirasdan pulu və maşını özünə götürür. Təhqiqat orqanlarının araşdırmaları nəticəsində bəlli olur ki, E-ni oğlunun tüfeyli həyat sürməsi ilə bağlı qızğın mübahisə zamanı S qətlə yetirib. S atası E-ni qətlə yetirdiyinə görə məhkum olunur. E-nin başqa iki oğlu və həyat yoldaşı məhkəməyə müraciət edərək S-nin ləyaqətsiz vərəsə sayılması və qanun üzrə məcburi pay almaq hüququndan məhrum edilməsini, bundan başqa, pul və maşının geri qaytarılmasını tələb edirlər.

Bu iddia uğurlu ola bilərmi?

1. Məhkəmə qaydasında ləyaqətsiz vərəsə sayılma tələbi?

a. S ləyaqətsiz vərəsə olmalıdır.

MM-in 1137-ci maddəsinə uyğun olaraq, mirasqoyanın son iradəsini həyata keçirməsinə qəsdən maneə törətmiş və bununla da özünün və özünə yaxın şəxslərin vərəsəliyə çağırılmasına və ya miras paylarının artılırmasına kömək göstər-

miş, yaxud vəsiyyət edənin vəsiyyətnamədə ifadə edilmiş son iradəsinə qarşı qəsdən cinayət və ya başqa əxlaqsız hərəkət törətmiş şəxs ləyaqətsiz vərəsədir.

S burada nə mirasqoyanın son iradəsinin həyata keçirilməsinə mane olub, nə də onun vəsiyyətnamədə ifadə etdiyi son iradəsini pozub. Lakin o, mirasqoyanı öldürüb. Bu məsələnin MM-in 1137-ci maddəsi ilə əlaqədar necə qiymətləndirilməli olması sual doğurur. Qanun yalnız yuxarıda sadalanan halları birbaşa tənzimləyir. Bununla belə, «şəksiz olaraq gəlinən nəticə» vasitəsilə belə bir nəticə çıxarmaq olar ki, 1137-ci maddə təbii olaraq əməlin ağırlığı baxımından qanunda göstərilməyən hallara da şamil olunmalıdır. Təfsirin bu prinsipinə görə hər hansı hüquqi nəticə qanunla tənzimlənən daha yüngül hala aid edilərsə, onda o, qanunla tənzimlənməyən və daha ağır hala da şəksiz şamil olunmalıdır. Beləliklə, MM-in 1137-ci maddəsinə uyğun olaraq, mirasqoyanın iradəsinin həyata keçirilməsinə mane olmuş, yaxud onun vəsiyyətnamədə ifadə edilmiş son iradəsini pozmuş şəxs artıq ləyaqətsiz vərəsə hesab olunursa, onda həmin şəxs mirasqoyanı öldürdüyü hallarda, şübhəsiz ki, ləyaqətsiz vərəsə hesab olunmalıdır.

Buna görə də S MM-in 1137-ci maddəsində nəzərdə tutulan mənada ləyaqətsiz vərəsədir və beləliklə, o, nə vəsiyyət üzrə, nə də qanun üzrə vərəsə ola bilər.

MM-in 1137-ci maddəsinə görə, bunu məhkəmə müəyyən etməlidir.

b. Mirasqoyanın hər iki oğlu və arvadının ərizə ilə müraciət etmək hüququ olmalıdır. MM-in 1139-cu maddəsinə uyğun olaraq, ləyaqətsiz vərəsənin vərəsəlik hüququndan məhrum edilməsindən müəyyən əmlak nəticələri əldə edən şəxs iddia ərizəsi ilə məhkəməyə müraciət edə bilər.

S həm vəsiyyətnamə üzrə, həm də qanun üzrə vərəsəlikdən kənar edilərsə, başqa vərəsələrin, yəni mirasqoyanın iki oğlunun və arvadının miras payı MM-in 1144-cü maddəsinə uyğun olaraq S-nin miras payı hesabına artır. Buna görə də onlar S-nin vərəsəlik hüququndan məhrum edilməsindən müəyyən əmlak nəticələri əldə edirlər və MM-in 1139-cu maddəsində nəzərdə tutulan mənada iddia ərizəsi ilə məhkəməyə müraciət etmək hüquqları var.

c. Daha sonra iddianın verilməsi üçün müddət keçməməlidir. MM-in 1143-cü maddəsinə əsasən, şəxsin ləyaqətsiz vərəsə sayılması barədə iddianı maraqlı şəxslər həmin şəxsin mirasa sahibliyə başladığı andan 5 il ərzində irəli sürməlidirlər. Kazusdan göründüyü kimi, E 2006-cı ilin dekabrında öldüyü üçün hər bir halda 5 illik müddət ötürülməyib.

Bununla da mirasqoyanın oğulları və arvadı MM-in 1137, 1139-cu maddələrinə uyğun olaraq S-nin məhkəmə qaydasında ləyaqətsiz vərəsə sayılmasını tələb edə bilərlər. Bundan sonra S nə qanun, nə də vəsiyyətnamə üzrə vərəsə ola bilər. Beləliklə, iddia perspektivlidir.

2. Məcburi paydan məhrum etmək tələbi.

a. MM-in 1203-cü maddəsinə uyğun olaraq mirasqoyan vərəsəlik hüququndan məhrumetməyə əsas verən şərtlər olduqda vərəsəni məcburi paydan məhrum edə bilər.

Mirasqoyandan başqa şəxslərin də tələb etmək hüququnun olması məsələsi sual doğurur. Maddənin 2 və 3-cü hissələrində birmənalı olaraq yalnız mirasqoyan göstərilir. Lakin bu müddəa analogiya qaydasında (MM-in 11.1-ci maddəsi) vərəsələrə də şamil oluna bilər.

Analogiya qaydasında hüquq normalarının tətbiq edilməsi üçün şərt həmişə aşağıdakılardır:

(1) tənzimləmədə boşluq olduqda və;

(2) tənzimlənməli olan faktiki hallar qanunla tənzimlənən faktiki hallara hüquqi cəhətdən uyğun olduqda.

Burada tənzimləmə zamanı bilərəkdən yaradılmış boşluqdan söhbət gedə bilməz. Bu, aşağıdakı mülahizədən irəli gəlir: mirasqoyan ona edilmiş qəsddən sonra sağ qalsaydı, onda o, MM-in 1203-cü maddəsinə uyğun olaraq vərəsəni özü məcburi pay hüququndan məhrum edə bilərdi. Bu qəsd uğurlu olduğu halda isə vərəsə baş tutmuş qətldən səmərə əldə edərdi (başqa vərəsələrin cinayətkarı məcburi paydan məhrum etmək üçün ayrı imkanları olmasaydı). Qanunvericinin həqiqətən də belə absurd nəticəni istəməsi qəbul oluna bilməz. MM-in 328.10-cu maddəsində nəzərdə tutulmuş hüquqi ideya də bunu bir daha təsdiq edir. Həmin müddəaya əsasən, şərtin baş verməsi onun üçün sərfəli olan tərəf şərtin baş verməsinə vicdansızcasına kömək göstərdikdə, şərt baş verməmiş sayılır (bu norma ümumi vicdanlılq prinsipinin ifadəsidir. Bu prinsip bütün mülki hüquqa şamil olunur. Bu prinsipə uyğun olaraq kiminsə törətdiyi hüquqazidd əməldən birbaşa hüquqi səmərə əldə etməsi qadağan olunur). Ona görə də bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, qanunverici göstərilən kazusda nəzərdə tutulan vəziyyət barədə sadəcə düşünməyib. MM-in 1203-cü maddəsində nəzərdə tutulan hüquqi düşüncə bu kazusa münasib olduğu üçün həmin müddəa analogiya qaydasında MM-in 1139-cu maddəsinə uyğun olaraq tələb hüququ olan şəxslərə də tətbiq edilməlidir. Bununla da bu kazusda mirasqoyanın oğulları və arvadı tələb hüquqları olan şəxslərdir.

b. Yuxarıda 1-ci bənddə artıq yoxlandığı kimi, MM-in 1137-ci maddəsinə uyğun olaraq vərəsəlik hüququndan məhrumetməni əsaslandıran şərtlər də var. MM-in 1143-cü maddəsində nəzərdə tutulan müddət bura da şamil olunur və bu

müddətlə bağlı qaydaya da əməl olunub. Beləliklə, MM-in 1203, 1137 və ondan sonra gələn maddələrinin şərtləri var.

Bununla da mirasqoyanın oğulları və arvadının MM-in 1203, 1137 və ondan sonra gələn maddələrinə uyğun olaraq S-yə qarşı onun məcburi paydan məhrum edilməsi haqqında tələb irəli sürmək hüquqları var.

3. Pulun və maşının geri qaytarılmasını tələb etmək olarmı?

Belə bir tələb MM-in 1142-ci maddəsindən irəli gələ bilərdi. Bu maddəyə əsasən, vərəsə məhkəmənin ləyaqətsiz vərəsə hesab etdiyi vərəsədən bəhərlər və gəlirlər də daxil olmaqla vərəsəlik hüququ üzrə aldıqlarının hamısının qaytarılmasını tələb edə bilər. Buna görə də MM-in 1142-ci maddəsinə əsasən, mirasqoyanın oğulları və arvadı S-dən pulun və maşının geri qaytarılmasını tələb edə bilər.

(Onların yalnız məhkəmə qərtnaməsinin qanuni qüvvəyə minməsi ilə həqiqi mənada vərəsə ola bilmələri kimi bir prosessual problem belə həll edilə bilər ki, iddia tələbi uyğun şəkildə qoyulsun).

II. Kazusun dəyişdirilmiş variantı

Əgər S E-ni öldürmək üçün ona xəsarət yetiribsə, lakin E sağ qalıbsa, ilkin kazus üzrə hansı tələblər irəli sürülə bilər?

1. E ləyaqətsiz vərəsənin məhkəmə qaydasında müəyyən edilməsini tələb edə bilərmi?

Öncə E-nin belə iddia ərizəsi ilə müraciət etmək hüququnun olması sual doğurur. Bu, MM-in 1139-cu maddəsindən irəli gəlmir. Həmin maddədə yalnız mirasdan müəyyən əmlak nəticələri əldə edən vərəsələr sadalanıb.

Lakin E-nin tələb etmək hüququ MM-in 1203.2-ci maddəsindən irəli gələ bilərdi. Həmin müddəaya görə, mirasqoyan hələ sağlığında ikən etdiyi əmələ görə MM-in 1137-ci

maddəsi əsasında ləyaqətsiz vərəsə qismində vərəsəlik hüququndan məhrum edilə bilən şəxsi məcburi pay hüququndan məhrum edə bilər. Beləliklə, mirasqoyan şəxs ləyaqətsiz vərəsəni hətta məcburi pay almaq hüququndan məhrum edə bilərsə, deməli, şəksiz qəbul olunan nəticə əsasında bu, daha geniş xarakterli vərəsəlik hüququna da şamil olunmalıdır. Başqa yandan, mirasqoyanın belə iddiasına heç bir zərurət yoxdur, çünki mirasqoyan hələ sağlığında ləyaqətsiz vərəsəni vəsiyyətnamə əsasında vərəsəlik hüququndan məhrum edə bilər. Yəni onu vəsiyyətnamə vasitəsilə qanun üzrə vərəsəlik hüququndan və bundan əlavə, həm də iddia qaldırmaq vasitəsilə MM-in 1203-cü maddəsinə uyğun olaraq məcburi pay almaq hüququndan məhrum edə bilər. Beləliklə, potensial vərəsənin ləyaqətsiz vərəsə olmasını müəyyənləşdirmək üçün müəyyənləşdirici xarakterli iddia qaldırılmasına ehtiyac yoxdur, çünki mirasqoyan eyni şeyə yeni bir vəsiyyətnamənin hazırlanması ilə daha tez və daha sadə yolla nail ola bilər (müqayisə et: MM-in 1220.0.1-ci maddəsi).

Beləliklə, potensial mirasqoyan E-nin bu halda analogiya qaydasında MM-in 1137, 1139-cu maddələrində göstərilən tələb hüququ yoxdur.

2. Mirasqoyanın hər iki oğlu və arvadı S-nin məhkəmə qaydasında ləyaqətsiz vərəsə sayılmasını tələb edə bilərlərmi?

Belə bir müəyyənləşdirmənin mirasqoyanın sağlığında mümkün olması sual doğurur. Məzmunca MM-in 1137, 1139-cu maddələri mirasın artıq açılmış olması mövqeyindən çıxış edir. Bununla belə, bu müddəalar analogiya qaydasında mirasqoyanın sağlığında da tətbiq oluna bilərdi. Beləliklə, artıq mirasqoyanın yaşadığı zaman potensial vərəsənin ləyaqətsiz vərəsə olması məsələsi müəyyən edilə bilərdi. Lakin MM-in 1140-cı maddəsinə uyğun olaraq, mirasqoyanın vərəsəni bağışlaması bu qaydanın əksini nəzərdə tutur ki, belə olduqda, MM-in 1137-ci maddəsinə əsasən ləyaqətsiz vərəsə-

nin müəyyən edilməsi məsələsi aradan qalxır. Bu, mirasqoyanın sağlığında ləyaqətsiz vərəsə sayılması ilə bir araya sığmazdı. Bundan əlavə, mirasqoyanın sağlığında kimin vərəsə olması və ləyaqətsiz vərəsənin vərəsəlikdən məhrum edilməsinin kimlər üçün müəyyən əmlak nəticələrinə səbəb olması, yəni, ümumiyyətlə, MM-in 1139-cu maddəsinə uyğun olaraq kimin tələb hüququnun olması qəti şəkildə bəlli olmur. Həm də miras açılmazdan öncə potensial vərəsənin ləyaqətsiz vərəsə olmasını müəyyən etməyə ehtiyac da yoxdur, çünki bu anda hələ hansısa nəticə yarana bilməz.

Beləliklə, mirasqoyanın hər iki oğlu və arvadı E sağ ikən S-nin məhkəmə qaydasında ləyaqətsiz vərəsə sayılmasını tələb edə bilməzlər.

3. E S-nin məcburi paydan məhrum edilməsini tələb edə bilərmi?

MM-in 1203-cü maddəsinə uyğun olaraq, vərəsəlik hüququndan məhrumetməni əsaslandıran şərtlər olduqda miras qoyanın belə tələb hüququ var. Bu kazusda S E-ni öldürməyə cəhd göstərib. «Şəksiz qəbul olunan nəticə» qaydasının tətbiq edilməsi zamanı bu əməl MM-in 1137-ci maddəsinin tənzimetmə sferasına düşür. E-nin tələb hüququ var və MM-in 1203.2-ci maddəsinə uyğun olaraq, məhkəmə bu barədə hələ mirasqoyanın sağlığında qərar qəbul edə bilər. Yalnız hüquqi qüvvəyə minmə məsələsinə münasibətdə durum fərqlidir – yalnız mirasın açılması ilə məhkəmənin qərarı qüvvəyə minir (MM-in 1203.3-cü maddəsi).

Beləliklə, E MM-in 1203-cü maddəsinə uyğun olaraq S-nin məcburi pay almaq hüququndan məhrum edilməsini tələb edə bilər.

4. Mirasqoyanın arvadı və hər iki oğlu S-nin məcburi paydan məhrum edilməsini tələb edə bilərlərmi?

İlkin kazusda artıq müəyyən edildiyi kimi, MM-in 1203, 1137 və ondan sonrakı maddələrinin analogiya qaydasında tətbiqi zamanı belə bir tələb yalnız mirasqoyanın sui-qəsd nəticəsində öldüyü hallarda ola bilər.

Belə bir tələb hüququnun mirasqoyanın sağlığında da olması sual doğurur. İlkin kazusda müəyyən edildiyi kimi, MM-in 1139-cı maddəsinə əsasən tələb hüququ olan şəxslərin mirasın açılmasından sonra ləyaqətsiz vərəsəni məcburi pay almaq hüququndan məhrum etmək hüquqları olmalıdır. Beləliklə, bir tərəfdən belə bir iddiaya mirasqoyanın sağlığında yol verilməməsi üçün heç bir əsas yoxdur. Başqa yandan, belə bir iddianın mirasqoyanın sağlığında qaldırılmasına ehtiyac yoxdur, çünki birinci, mirasqoyan həmin anda bu iddianı özü də qaldıra bilərdi (yuxarıda 3-cü bəndə bax), ikinci, onsuz da nəticələr yalnız mirasın açılması ilə yaranır və nəhayət, bağışlama da istisna edilə bilməz.

Buna görə də mirasqoyanın arvadı və hər iki oğlu analogiya qaydasında MM-in 1203, 1137 və ondan sonra gələn maddələrinə uyğun olaraq S-nin məcburi paydan məhrum edilməsini tələb edə bilməzlər.

2. *Kazus:* Qayğıkeş mirasqoyan

Mirasqoyan E-nin ölümündən sonra onun arvadı və 3 yaşlı oğlu qalır. Onun ölümü günü – 15.02.2007-ci ildə aşağıdakı məzmunda vəsiyyətnamə tapılılr:

«Bakı, 16.01.2005

Bakı şəhəri, X saylı dövlət notariat kontorunun notariusu N-in Nizami küçəsi, 503 ünvanında yerləşən iş otağında bu gün aşağıdakı şəxslər toplaşmışlar:

1. Cənab E (şəxsiyyətini dəqiq müəyyən edən məlumatlar).

2. Xanım F (şəxsiyyətini dəqiq müəyyən edən məlumatlar).

3. Cənab M (şəxsiyyətini dəqiq müəyyən edən məlumatlar).

Yuxarıda göstərilənlərin şəxsiyyəti onların şəxsiyyət vəsiqələri vasitəsilə müəyyən edildi. Cənab E bildirir ki, xanım F və cənab M onun iş yoldaşlarıdır. O, həmin şəxslərin iştirakı ilə vəsiyyətnamə tərtib etmək istəyir.

Bundan sonra cənab E son iradəsini aşağıdakı qaydada ifadə edir:

Ölümümdən sonra özümə çox yaxın hesab etdiyim «Təmiz Xəzər dənizi» İctimai Birliyi 10.000 AZN pul vəsaiti almalıdır.

Mənzilimin qonaq otağında olan «Otlaqda atlar» rəsm əsəri qonşumun qızı Sevdaya məndən xatirə olaraq çatmalıdır. Dostum Pirimin ailəsi mənim ölüm günümə olan əmlakımın ... hissəsini almalıdır.

Arvadımın işgüzar məsələlərlə bağlı böyük təcrübəsi yoxdur. Ona görə də dostum Pirimdən xahiş edirəm ki, ölümümdən sonra bütün məsələlərin dəqiq və ədalətli icra edilməsinə nəzarət etsin.

Mən bu vəsiyyətnaməni özüm oxudum. Sağ qolum sınıq olduğundan özüm yaza bilmirəm. Ona görə də xanım S-dən – notariusun katibəsindən xahiş edirəm ki, vəsiyyətnaməni mənim üçün imzalasın.

S-nin, F-nin, M-in və notarius N-in imzaları».

Sənədin mətni imzalar istisna olmaqla, kompüterdə yazılmış və sonra çap olnmuşdur.

Bundan əlavə, E-nin evində aşağıdakı məzmunda əllə yazılmış vəsiyyətnamə tapilıb:

«Bakı, 15.12.2006

Bu vəsiyyətnamə ilə mən arvadım və oğlumu özümün bütün əmlakımın vərəsəsi müəyyən edirəm.

E-nin imzası».

Miras əmlak E-nin 10 il əvvəl evləndikdən sonra arvadı və uşağı ilə birgə yaşadığı 200.000 AZN dəyərində evdən iba-

rətdir. Bundan əlavə, 10.000 AZN dəyərində avtomobil və 40.000 AZN dəyərində nağd pul qalmışdır. E-nin banka 20.000 AZN məbləğində borcu da var idi.

Evdə istilik sistemi xarab olduğundan və həmin sistemin tərkib hissəsi olan su borularının partlama təhlükəsi olduğundan xanım E 18.02.2007-ci ildə təmir işləri ilə bağlı bir firmaya sifariş verir və bu firma elə həmin gün təmir işlərini icra edir. Təmir işlərinin yerinə yetirilməsindən əvvəl xanım E firmanın sahibinə vərəsələrin tapşırığına əsasın hərəkət etdiyini bildirir.

Mirasqoyanın dostu Pirimin ailəsi onun özündən, arvadından və iki yetkinlik yasına çatmayan uşağından ibarətdir.

Vərəsəliyin vəziyyəti necədir?

Banka borcu və təmiri icra edən firmaya 300 AZN məbləğində pulu kim ödəməlidir?

Miras vərəsələr arasında necə bölüşdürülməlidir?

<u>Kazusun həlli:</u>

I. 16.1.2005-ci il tarixli vəsiyyətnamə üzrə vərəsəliyin vəziyyəti.

Vəsiyyətnamə üzrə vərəsəlik qaydası vəsiyyətetmə azadlığı prinsipinə əsasən qanun üzrə vərəsəlik qaydasından üstündür. Vəsiyyətnamə və qanun üzrə vərəsəlik qaydası birbirini tamamlaya bilər. Mirasqoyan vəsiyyətnamə üzrə vərəsə kimi müəyyənetməni mirasın bir hissəsi ilə məhdudlaşdıra bilər və bunun nəticəsində mirasın qalan hissəsinə qanun üzrə vərəsəlik qaydası tətbiq edilir (MM-in 1172-ci maddəsi).

16.01.2005-ci il tarixli vəsiyyətnamə notariat qaydasında təsdiq edilmiş vəsiyyətnamədir. Notariat qaydasında təsdiq edilmiş vəsiyyətnamələrin 2 növü fərqləndirilir, yəni vəsiyyət edənin tərtib etdiyi, imzaladığı və notariusun təsdiqlədiyi vəsiyyətnamə (MM-in 1179-cu maddəsi) və notariusun yazdığı vəsiyyətnamə (MM-in 1180-ci maddəsi). Bu kazus üzrə və-

siyyətnamə ikinci formadadır. Vəsiyyətnaməni vəsiyyət edənin sözlərindən notarius iki şahidin yanında tərtib edib. Qanun texniki vasitələrdən (burada kompüterdə çap) istifadəyə birmənalı icazə verir. Vəsiyyət edən vəsiyyətnaməni həm də oxuyub. Əlinin zədəli olmasına görə o, vəsiyyətnaməni imzalaya bilməsə də, xanım S xahişinə əsasən onun yerinə imza atıb. E-nin şəxsən imza ata bilməməsinin səbəbi vəsiyyətnamədə göstərilib. Ümumilikdə vəsiyyətnamə MM-in 1180, 1182-ci maddələrinin formal qaydalarına uyğundur.

Vəsiyyətnamənin məzmunu hüquq baxımından necə qiymətləndirilməlidir?

a) «Təmiz Xəzər dənizi» İctimai Birliyinə 10.000 AZN bağışlanması leqat (MM-in 1205-ci maddəsi) kimi qəbul edilə bilər. Belə leqat o hallarda olur ki, vəsiyyət edən vəsiyyətnamədə başqasını vərəsə kimi təyin etmədən ona müəyyən əmlak faydası vermək istəsin. Leqatın predmeti əmlakın verilməsindən, istifadəyə icazədən və ya mirasın tərkibinə daxil olan əşya üzərində başqa əşya hüquqlarının verilməsindən ibarət ola bilər. Mirasqoyan vəsiyyət tapşırığı alan şəxs üçün müəyyən əşyanın əldə edilməsi və ona verilməsi barədə vərəsəyə sərəncam verə bilər. Leqatın predmetini müəyyən işlərin və ya müəyyən xidmətlərin görülməsi təşkil edə bilər (MM-in 1206-cı maddəsi). Vəsiyyət tapşırığını alan şəxsin vərəsələrdən leqatın icrasını tələb etmək hüququ var.

Bir şəxsin vərəsə və ya leqatari təyin edilməsi çox zaman birmənalı olmur və təfsir yolu ilə aydınlaşdırılmalıdır. Bu zaman konkret işin halları önəmlidir. Həlledici məqam odur ki, mirasqoyan həmin şəxsi bütün hüquqlar və öhdəliklərlə birlikdə mirasının tam hüquqi varisi kimi (müqayisə et: MM-in 1151-ci maddəsi) və bununla da miras əşyalarının mülkiyyətçisi (MM-in 1255-ci maddəsi) təyin etmək və ona miras üzərində idarəçilik və sərəncam hüquqlarını verməklə miras

öhdəlikləri üçün onun məsuliyyət daşımasını istəyir (MM-in 1306-cı maddəsi). Burada əhəmiyyətli məqam konkret şəxs üçün nəzərdə tutulmuş predmetin dəyərinin tam mirasa hansı nisbətdə olmasıdır. Burada söhbət nisbətən az dəyərdən gedirsə, onda vərəsə kimi təyinedilmə deyil, leqatın mövcudluğu qəbul edilməlidir.

Bu kazusda da vəziyyət eynidir. Miras aktivinin dəyəri 250.000 AZN-dən artıq olduğuna görə ictimai birliyə verilməli olan 10.000 AZN məbləğ nisbətən aşağıdır. Vəsiyyət edənin vəsiyyət tapşırığı alan səxsi həmin məbləğ həddində mirasının bir hissəsinə vərəsə təyin etməsi qəbul edilə bilməz.

b) Yuxarıda göstərilənlər «Otlaqda atlar» rəsm əsərinə də aid edilməlidir. Sevda da leqataridir.

c) «Dostum Pirimin ailəsinin» xeyrinə olan sərəncamla mirasqoyan aşkar surətdə bu ailənin üzvlərini müəyyən payla hissəvi olaraq vərəsə kimi təyin etmək istədiyini göstərir. Vəsiyyət edənin iradəsi məna və məqsədinə görə belə təfsir olunmalıdır ki, ailənin hər üzvünə ailəyə ayrılan miras hissəsindən eyni pay çatsın (müqayisə et: MM-in 1175-ci maddəsi). Beləliklə, Pirim, onun arvadı və iki uşağı hərəsi mirasın 25 %-indən ... pay almalıdır.

d) Miras qoyanın işlərin dəqiq və ədalətli icra edilməsinə Pirimin nəzarət etməsindən ibarət olan iradəsi vəsiyyətnamənin icrası barədə sərəncam kimi təfsir olunmalıdır. Vəsiyyətnamə icraçısının təyin edilməsinin üç növünü fərqləndirirlər: icraçını vərəsələrin (MM-in 1232-ci maddəsi), mirasqoyanın (MM-in 1233-cü maddəsi) və mirasqoyanın ölümündən qabaq səlahiyyətləndirmiş üçüncü şəxsin (MM-in 1235-ci maddəsi) təyin etməsi. Bu kazusda Pirimi mirasqoyan vəsiyyətnamə icraçısı təyin edib. Vəsiyyətnamə icraçısının vəzifəsi mirasın açılması anından mirasın mühafizə və idarə edilməsidir.

O, vəsiyyətnamənin icrası üçün lazım olan hər hansı hərəkəti etməyə səlahiyyətlidir. Bu səlahiyyət çərçivəsində vərəsələr mirası idarə etmə hüququnu itirirlər (MM-in 1237-ci maddəsi). MM-in 1233, 1236 və 1237-ci maddələrinin mətnindən bəlli olur ki, vəsiyyətnamənin icraçısı eyni zamanda həm vəsiyyətnamə, həm qanun üzrə vərəsəlik qaydasında yalnız mirasın vəsiyyətnamə ilə əhatə olunan hissələrinin idarəçiliyinə cavabdehdir. Lakin bu, həmin qəbildən olan halların əksəriyyətində səmərəsiz və qeyri-praktik olardı. Vərəsəlik qaydasının vəsiyyətnamə və ya qanun əsasında müəyyən edilməsindən asılı olmayaraq, mirasqoyanın mirasın bölüşdürülməsi qaydasını müəyyən etmək səlahiyyətinin də olması nəzərə alınarsa (müqayisə et: MM-in 1275-ci maddəsi), çox güman ki, vəsiyyətnamə icraçısının mirasın bütövlükdə idarə edilməsi səlahiyyətinin də (vəsiyyət edən bunu vəsiyyətnamədə ifadə edibsə) olması nəticəsinə gəlmək olar. Bu kazusda da vəziyyət eynidir.

Vəsiyyətnamə icraçısının vəzifəsi prinsipcə əvəzsizdir, lakin o, xərclərinin əvəzinin ödənilməsini tələb edə bilər (MM-in 1239-cu maddəsi).

e) Vəsiyyətnamə ilə təyin edilmiş vərəsənin miras payı mirası tam əhatə etmədiyinə görə vəsiyyətnamə ilə barəsində sərəncam verilməyən miras payına münasibətdə qanun üzrə vərəsəlik qaydası tətbiq edilir (MM-in 1172-ci maddəsi). Buna uyğun olaraq, vəsiyyətnamə əsasında bölüşdürülməmiş mirasın hissəsi birinci dərəcəli vərəsələr kimi E-nin dul qalmış arvadına və oğluna çatmalıdır ki, onlar da, öz növbəsində, bərabər paylarla vərəsə olurlar (MM-in 1159-cu maddəsi). Buna əsasən mirasqoyanın dul qalmış qrvadı və oğlu hərəsi mirasın 6/16, Pirim, onun arvadı və hər iki uşağı hərəsi mirasın 1/16 hissəsinə vərəsə olurlar.

f) Vəsiyyət edənin dul qalmış arvadı və oğlunun miras payı onların qanun üzrə miras payının yarısından artıq olduğuna görə (qanun üzrə miras payı ‰ olduqda hərəsinin payı ... miras payından artıqdır) onların məcburi payı yoxdur (MM-in 1193-cü maddəsi).

g) 16.01.2005-ci il tarixli vəsiyyətnamənin zaman baxımından sonra gələn 15.12.2006-cı il tarixli vəsiyyətnamə nəticəsində qüvvəsini itirməsi sual doğurur. Yeni vəsiyyətnaməyə əsasən, yalnız vəsiyyət edənin arvadı və oğlu vərəsə təyin olunublar. Beləliklə, həmin vəsiyyətnamə 16.01.2005-ci il tarixli vəsiyyətnamədəki «Təmiz Xəzər dənizi» İctimai Birliyinin, qonşunun qızı Sevdanın və dostu Pirimin ailəsinin xeyrinə edilmiş sərəncamlara ziddir. Bu halda MM-in 1220.0.1-ci maddəsinə uyğun olaraq ləğvetmədən söhbət gedə bilər. Lakin MM-in 1223.2-ci maddəsi də nəzərə alınmalıdır. Həmin maddəyə əsasən, notarial qaydada tərtib edilmiş vəsiyyətnamə başqa formada tərtib edilmiş vəsiyyətnamə ilə ləğv edilə bilməz. Buna görə də 16.01.2005-ci il tarixli vəsiyyətnamə etibarlığını saxlayır. Yeni vəsiyyətnamə ilk vəsiyyətnaməyə zidd deyilsə, o, qüvvədə qalır (MM-in 1222-ci maddəsi.

h) MM-in 1251.1-ci maddəsinə əsasən, miras mirasqoyanın ölüm anına olan öhdəliklərini də əhatə edir (miras passivi). MM-in 1306.1-ci maddəsinə əsasən, vərəsələr mirasqoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar. Onlar qanun üzrə birgə borclular kimi məsuliyyət daşıdıqlarından MM-in 500.1-ci maddəsinə əsasən hər bir vərəsə miras borclarına tam şəkildə cavabdehdir. Məsuliyyətin uyğun miras payı və MM-in 1306.1-ci maddəsinə əsasən, vərəsələrin mirasdan həqiqətən əldə etdikləri həddində məhdudlaşdırılması vərəsələrin daxili münasibətlərindəki əvəzləşdirmələrinə aiddir.

Buna görə bank 6 vərəsənin hər birinə qarşı tam ödəmə (20.000 AZN) ilə bağlı tələb irəli sürə bilər. Lakin daxildə, bir-birinə münasibətdə onlar yalnız aşağıdakına uyğun olaraq məsuliyyət daşıyırlar: dul qadın və vəsiyyət edənin oğluna 7.500 AZN düşür, Pirim, onun arvadı və iki uşağının hərəsinə isə 1.250 AZN.

MM-in 1309-cu maddəsinə əsasən, vərəsələr, ölənin borcları onlara məlumdursa, mirasın açılması barədə mirasqoyanın kreditorlarına məlumat verməyə borcludurlar.

II. Yaşayış evinin istilik sisteminin təmir haqqını kim ödəməlidir?

Dul qadın yaşayış evinin istilik sisteminin təmiri haqqında sifariş verəndə miras vərəsələr arasında hələ bölüşdürülməmişdi. Buna görə də ev bütün miras şəriklərinin ümumi mülkiyyətində idi (MM-in 1157-ci maddəsinin 1-ci cümləsi). 40.000 AZN məbləğində olan nağd pul da miras şəriklərinin ümumi mülkiyyətində idi. Dul qadının təmir firmasına sifarişi miras şərikləri üçün verilib. O, bunu aşkar şəkildə bildirib. Sifariş ümumi mülkiyyətin idarəetmə tədbiri hesab olunur. Vəsiyyətnamənin icrası barədə sərəncam verildiyindən, mirasın idarə edilməsi vəsiyyətnamə icraçısının vəzifəsi idi. Prinsipcə, dul qadın buna səlahiyyətli deyildi (MM-in 1237-ci maddəsinin 2-ci cümləsi).

MM-in 1249-cu maddəsinin və ya 1257-ci maddəsinin 2-ci cümləsinin mənasından vərəsələrin təcili tədbirlər üçün idarəetmə səlahiyyətinin olması nəticəsinə gəlmək olar. Bu qayda, prinsipcə, yalnız vərəsələr arasında münasibətlərə şamil olunur, lakin mənafelərin vəziyyətinin eyniliyi baxımından, vəsiyyətnamənin icrası barədə sərəncam olduqda belə bu qayda tətbiq edilə bilər. Dul qadının idarəetmə tədbiri ümumi mülkiyyətdə olan evdə zərərin qarşısının alınması üçün zəruri və təcili olub. Bunun nəticəsində çəkilmiş 300 AZN həc-

mində xərclər MM-in 1157-ci maddəsinin 2-ci cümləsinə əsasən ümumi mülkiyyətdən ödənilməlidir.

Beləliklə, təmir firması vərəsələrə qarışı muzd ödənilməsi tələbi (MM-in 753.1, 769-cu maddələri) ilə çıxış edə bilər; bununla yanaşı, hər bir vərəsəyə qarşı onun miras pay hissəsi həddində tələb qaldıra bilər. Çünki burada söhbət ümumi müqavilə ilə bağlı bölünə bilən öhdəlikdən (puldan) gedir və belə öhdəliyə görə nə qanun, nə də razılaşmada birgə borclu kimi cavabdehlik (müqayisə et: MM-in 500.2-ci maddəsi) nəzərdə tutulub.

Dul qadının mirasa sərəncam səlahiyyəti inkar edilərsə, təmsilçilik səlahiyyəti olmayan şəxsin təmsilçiliyi ilə bağlı qaydalar tətbiq edilməlidir. Bunun nəticəsində təmir firmasının MM-in 753.1, 769, 360.1-ci maddələrinə əsasən dul qadına qarşı tam həcmdə ödəmə tələbi yaranardı. Qadın isə miras şəriklərinə qarşı əsaslı olaraq özgə işlərini tapşırıqsız aparmaqdan irəli gələn xərclərin əvəzinin ödənilməsi tələbi ilə çıxış edə bilərdi (MM-in 1090.1-ci maddəsi), çünki sifariş miras şəriklərinin mənafeyinə və ehtimal olunan istəyinə uyğun gələn iş sayılmalıdır.

III. Miras kütləsi vərəsələr arasında necə bölüşdürülür?

Bank borclarının və istilik sisteminin təmiri haqqının ödəniməsi və leqatların icrasından sonra aşağıdakı miras kütləsi qalır:

– 200.000 AZN dəyərində yaşayış evi;

– 10.000 AZN dəyərində avtomobil və;

– 9.700 AZN məbləğində nağd pul.

Vərəsələrin bu ümumi əmlakı MM-in 1274-cü maddəsinə əsasən ümumi razılıqla bölüşdürülməlidir. Vəsiyyət edən MM-in 1275-ci maddəsinə əsasən bölüşdürmə haqqında sərəncam verməyib. Prinsipcə, hər bir vərəsə həm daşınar, həm

də daşınmaz əmlakdan payının naturada ayrılmasını tələb edə bilər, bir şərtlə ki, bu şəkildə ayırma mümkün olsun və ya qanunla qadağan edilməsin (MM-in 1276-cı maddəsi). Lakin bu, mövcud miras əşyalar nəzərə alınarsa, problemlər yarada bilər.

Dul qadının və vəsiyyət edənin oğlunun MM-in 1303-cü maddəsinə əsasən yaşayış evini almaqda üstünlük hüququnun olması nəzərə alınmalıdır.

Vərəsələrin vərəsə payına uyğun olaraq mirasa daxil olan nağd pulu aralarında bölüsdürmələri məqsədəuyğun ola bilərdi. Dul qadın və vəsiyyət edənin oğlu yaşayış evini almaqda üstünlük hüququnda təkid etdikdə, onlar başqa vərəsələrə paylarına uyğun kompensasiya ödəməlidirlər (MM-in 1279-cu maddəsi). Lakin onlar yaşayış evinə ümumi mülkiyyət hüququnu saxlaya bilərlər (MM-in 1281-ci maddəsi).

Avtomobilə gəldikdə isə, onun üzərində mülkyyət hüququnun vərəsələrin birinə verilməsi, başqalarına isə pul ödənilməsindən (MM-in 1279-cu maddəsi) və ya üçüncü şəxsə satmaqla əldə edilənin vərəsələrin paylarına uyğun bölüşdürülməsindən (MM-in 1278-ci maddəsi) söhbət gedə bilər.

3. Kazus: **Narazı ata**

Dul qalmış E-nin tibb fakültəsində təhsil alan 3 oğlu (A, B və C) var. Lakin E onların təhsilə münasibətindən narazıdır və təhsillərini uğurla başa çatdıra bilməmələrindən narahatlıq keçirir. E xaricə uzunmüddətli səfər planlaşdırır. Səfərdən qabaq o, oğlu A-ya məktub yazaraq bir daha ona təhsilinə ciddi yanaşması və gələcəkdə daha çox çalışması barədə xəbərdarlıq edir. Daha sonra o yazır:

«Səfərdə olan zaman mənə bir şey olarsa, evim yekun tibb imtahanını verə bilən oğluma çatmalıdır. Oğlum B isə ona

birmənalı pis təsir göstərən arvadından boşanarsa, vərəsə ola bilər.

Sevimli skripkam bacıma çatmalıdır.

Gələcəkdə vəsiyyətnaməm mübahisələndirilə bilməz.

Bakı 1.2.2004. İmza E.»

01.02.2008-ci ildə vəfatından sonra üstündə «Ölümümdən sonra açılmalıdır» yazısı olan bağlı bir zərfdə əllə yazılmış və imzalanmış aşağıdakı məzmunda bir yazı tapılır:

«Mən yenə də Parisdən salamat qayıtdım. Əvvəlki vəsiyyətnaməm qüvvədən düşmüş hesab olunmalıdır. Ailəmdən son iki il ərzində çox narazı qalmışam. Onların heç biri mənim vəfatımdan sonra heç nə almamalıdır. Vərəsələr əlavə edilmiş sənəddə qeyd edilən şəxslər olmalıdır».

Zərfin içində Azərbaycan milli yığma komandasının 5 futbolçusunun adları və ünvanları göstərilən, kompüterdə yazılmış bir vərəqdən ibarət sənəd tapılır.

A və B tibb sahəsində yekun intahanları uğurla verərək həkim peşəsi ilə məşğuldurlar. E-nin ölümündən sonra onun 3 oğlundan başqa S, T və V adlı bacıları qalıb. Bacılardan hər üçü skripka çala bilir. S yüksək musiqi istedadına görə bir neçə il bundan əvvəl müəyyən müddət ərzində radio orkestrinin üzvü olub.

Miras 180.000 AZN dəyərində olan yaşayış evindən və 18.000 AZN bank əmanətindən ibarətdir. Evdə olan əşyaların, E-nin 2003-cü ildə 6.000 AZN qiymətinə aldığı skripkanı çıxmaq şərtilə, hər hansı dəyəri yoxdur.

B boşanmaq istəmir. O, vəsiyyətnaməni mübahisələndirir.

Vərəsəlik necə həll edilməlidir?

Kazusun həlli:

I. Vəsiyyətnamə əsasında vərəsə təyin edilməsinin üstünlüyü

Qanun vəsiyyətnamə və qanun üzrə vərəsəlik qaydasını fərqləndirir. Vəsiyyət etmə azadlığı prinsipinə əsasən (MM-in 1166-cı maddəsi), qanunda nəzərdə tutulan vərəsəlik qaydası mirasqoyan üçün məcburi deyil. O, vərəsəlik qaydasını vəsiyyətnamə əsasında iradəsini azad ifadə etməklə müəyyən edə bilər. Vəsiyyətnamə üzrə vərəsəlik qanun üzrə vərəsəlikdən üstündür. Buna görə də öncə etibarlı vəsiyyətnamə üzrə vərəsəliyin olması yoxlanmalıdır.

II. 01.02.2004-cü il tarixli məktub əsasında vərəsə təyin edilməsi

1. Ümumi müddəalar

a) Vəsiyyətnamənin forması

01.02.2004-cü il tarixli yazı vəsiyyətnamə kimi qəbul oluna bilərdi. MM-in 1179.1-ci maddəsinə əsasən, vəsiyyətnamə yazılı formada tərtib edilməlidir. O, şəxsən və ya notarial qaydada yazılı formada tərtib edilə bilər. Mirasqoyan notariat qaydasında olmayan yazılı formanı seçdikdə onun iki imkanı var: ya MM-in 1186-cı maddəsinə əsasən vəsiyyətnaməni əllə yazmaq və imzalamaq, ya da MM-in 1188-ci maddəsinə əsasən vəsiyyətnamə tərtibi zamanı ümumi qəbul edilmiş texniki vasitələrdən, məsələn, çap maşınından və ya kompüterdən istifadə etmək və vəsiyyətnaməni imzalamaq. Lakin sonuncu halda o, həm vəsiyyətnamənin tərtibi, həm də imzalanması zamanı texniki vasitələrdən istifadə etməklə tərtib olunduğunu təsdiqləyən iki şahidi cəlb etməlidir. Bu barədə vəsiyyətnamədə şahidlərin şəxsiyyəti və ünvanı da göstərilməklə qeyd edilməlidir. Bu kazus üzrə E vəsiyyətnaməni şəxsən yazıb və imzalayıb. Bu, MM-in 1186-cı maddəsində nəzərdə tutulan forma barədə qaydalara uyğundur.

b) Vəsiyyət edənin son iradəsi

Vəsiyyət edən sənədi tərtib edən zaman bunu vəsiyyətnamə yazmaq niyyəti ilə etməlidir. Bunun həqiqətən də belə olması təfsir yolu ilə aydınlaşdırılmalıdır (MM-in 324.5-ci maddəsi). Burada söhbət layihədən və ya vəsiyyətnamə tərtib edilməsi ilə bağlı bəyanatdan gedə bilməz. Mirasqoyanın şəxsən yazdığı və imzaladığı məktubda o halda onun son iradəsi ifadə olunur ki, o, məktubunda son iradəsini bəyan etsin və bunu dərk etsin. Bu da xüsusilə mirasqoyanın məktubu ünvanı üzrə göndərməsində ifadə olunur. Bu iş üzrə də məhz belə olub.

c) Vəsiyyətnamə yalnız səyahət müddətində etibarlıdırmı?

«Səfərdə olan zaman mənə bir şey olarsa» ifadəsindən belə bir nəticəyə gəlmək olar ki, mirasqoyan yalnız səyahət zamanı ölməsi halı üçün qayda müəyyən etmək istəyirdi və qayıtdıqdan sonra onun etibarlığı itməli idi. Mirasqoyan vəsiyyətnamə azadlığı çərçivəsində vəsiyyətnamənin etibarlığını onun tərtib edilməsi və mirasın açılması arasında baş verə biləcək hallardan asılı edə bilər. Lakin sadəcə olaraq, mirasqoyanı vəsiyyətnamənin yazılmasına sövq etmiş motivlərin göstərilməsi bundan fərqləndirilməlidir. Bu və ya başqa halın olması təfsir vasitəsilə aydınlaşdırılmalıdır. Bu baxımdan mirasqoyanın özünün göstərdiyi hal aradan qalxdıqdan sonra vəsiyyətnamə barədə hansı tədbirlərə əl atması önəmlidir. Bu iş üzrə E qayıdışından ən azı iki il sonra 2-ci vəsiyyətnamə ilə 1-ci vəsiyyətnaməsini saxlamaq istəmədiyini bildirib. Bu da onu göstərir ki, E vəsiyyətnamədə yalnız onun tərtib etməsi ilə bağlı motivlərini ifadə edib. O, aşkar şəkildə qayıdışından sonra da vəsiyyətnaməsinin etibarlı olduğunu göstərib.

II. Vəsiyyətnamənin ayrı-ayrı müddəaları

1. Evin verilməsi

Evin yalnız tibb üzrə yekun imtahanı uğurla vermiş oğullardan birinə verilməsi barədə müddəa təxirəsalıcı şərt kimi qəbul edilməlidir. E-nin iradəsinə əsasən məhz bu şərt baş verdikdə, MM-in 1166-cı maddəsinə görə, sərəncam həyata keçirilə bilərdi. MM-in 327-ci maddəsinə əsasən, MM-in 328-ci maddəsi birtərəfli iradə ifadəsi (əqd) olan vəsiyyətnaməyə də tətbiq edilərsə, MM-in 328-ci maddəsinə əsasən, belə şərt mümkündür. Onun baş verib-verməməsi yalnız oğulların iradəsindən asılı deyil (MM-in 328.3-cü maddəsi).

A və B imtahanı uğurla verdiklərinə görə bu şərt (buna əsasən kimsə vərəsə olmalıdır) bir neçə şəxsə tətbiq edilir. MM-in 1175-ci maddəsi bu hal ücün müəyyən edir ki, vəsiyyət edən vərəsənin şəxsiyyətini bir neçə şəxsə uyğun gələ bilən əlamətlərlə müəyyənləşdirmişdirsə və onlardan hansını nəzərdə tutduğunu təyin etmək mümkün deyilsə, onların hamısı bərabər pay hüququ ilə vərəsə sayılır. Vəsiyyət edənin oğullardan yalnız birinə ev çatmasını istəməsini vəsiyyətnamə əsasında yetərincə əminliklə müəyyən etmək olmur, xüsusilə də nəzərə alınmalıdır ki, bir evə bir neçə şəxsin birgə mülkiyyət hüququ əsasında sahibliyi heç də qeyri-adi bir hal deyil.

2. B-nin boşanma öhdəliyi

E-nin iradəsinə görə, B yalnız arvadından boşanarsa vərəsə ola bilər. Belə müddəanın hüquqi baxımdan mümkün olması şübhə doğurur. Şübhələr artıq onunla bağlıdır ki, B-nin boşanma tələbi prinsipcə şəxsi qərardır və onun şəxsi sferada böyük nəticələri olduğuna görə hər kəs bu qərarı adətən tam azad şəkildə, xaricdən təzyiq olmadan qəbul etməlidir. Bu baxımdan həmin müddəa qanunla qorunan ümumi

mülki-hüquqi hərəkət azadlığına (MM-in 6.1.2 və 6.1.6-cı maddələri) ziddir və beləliklə, hətta MM-in 31.3-cü maddəsinin tətbiqi barədə düşünmək olar. Lakin başqa yandan vəsiyyət etmə azadlığı var. Son nəticədə bu sual üzərində dayanmağa dəyməz, çünki vəsiyyətnamədə olan həmin sərəncamın mümkünsüzlüyü artıq MM-in 328.3 və 1225.2-ci maddələrindən irəli gəlir. Buna əsasən əqdin bir tərəfinin iradəsindən asılı olan şərtlər (potestativ şərtlər) etibarsızdır. Burada söhbət məhz belə bir şərtdən gedir; B-nin öz arvadından boşanıb-boşanmaması yalnız onun iradəsindən asılıdır.

3. Mübahisələndirmənin qadağan edilməsi

«Gələcəkdə vəsiyyətnaməmi mübahisələndirəcək şəxs heç nə almamalıdır» müddəası ləğvedici şərt kimi şərti olaraq qüvvədən düşmə şərti adlandırılan müddəadır. Buna əsasən son sərəncam hüquqi qüvvəsini vəsiyyətnaməni mübahisələndirən vərəsənin ziyanına sonradan yenə itirməlidir və bununla mübahisələndirən şəxs vərəsə statusunu itirməlidir. Lakin burada da şərtin baş verməsi yalnız vərəsələrin iradəsindən asılıdır. Yalnız onlar MM-in 1225, 1230-cu maddələrinə əsasən mübahisələndirmə hüququndan istifadə etmələri barədə qərar verə bilərlər. Beləliklə, bu müddəa da MM-in 328.3 və 1225.2-ci maddələrinə əsasən etibarsızdır.

4. Skripka barədə hüquqi nəticə

E-nin üç bacısı olduğuna görə sual yaranır: bu şərt onlardan hansının xeyrinə müəyyənləşdirilib? MM-in 1175-ci maddəsi yalnız vəsiyyət edənin nəzərdə tutduğu şəxsi təfsir yolu ilə müəyyən etmək mümkün olmadığı halda tətbiq olunur.

Təfsir nəticəsində bir tərəfdən müəyyən olunur ki, E skripkanın bacılarından birinə çatmasını istəyirdi («mənim bacım»), yəni skripka üzərində bir neçə şəxsin birgə mülkiyyətinin yaranmasını istəmir. Bundan başqa, burada da ümumi bir təfsir

metodu olan «xeyirxah» təfsir prinsipi, yəni vəsiyyət edənin iradəsinin mümkün dərəcədə tam hüquqi gerçəkliyə çevrilməsinə imkan yaradan təfsir onunla nəticələnə bilər ki, vəsiyyət edən skripkasını ondan ən yaxşı istifadə etmək iqtidarında olan bacılarından birinə vermək istəyib. Kazusun şərtlərinə əsasən, bu, S olmalıdır, çünki onun xüsusi istedadı radio orkestrində çalışmasında ifadə olunur.

III. Vəsiyyətnamədə adları çəkilən şəxslərin miras payı

1. Universal hüquq varisliyi, bölüşdürmə sərəncamı, leqat

Prinsipcə vərəsənin təyin edilməsi müəyyən miras kvotasının (hissəsinin) təyin edilməsi əvəzinə əmlakdan müəyyən əşyaların verilməsi ilə də mümkündür. Lakin universal hüquq varisliyi prinsipi əsasında (müqayisə et: MM-in 1133, 1151-ci maddələri) miras vərəsələrə tam halda keçir. Ayrı-ayrı əmlak predmetlərinin vərəsəlik üzrə keçməsini nəzərdə tutan sinqulyar hüquq varisliyi mümkün deyil.

Vəsiyyət edən vəsiyyətnamədə adları çəkilən şəxslərə ayrı-ayrı əşyaların verilməsini nəzərdə tutursa, bunun vərəsə təyin edilməsi çərçivəsində bölüşdürmə sərəncamı (MM-in 1170-ci maddəsi) və ya sadəcə leqat olması məsələsi müəyyənləşdirilməlidir (MM-in 1205, 1206-cı maddələri). Bu da təfsir yolu ilə aydınlaşdırılmalıdır. Leqat alan şəxs vərəsə deyil, o, yalnız vərəsələrə qarşı onun üçün nəzərdə tutulan əşyanın verilməsini tələb edə bilər. Vərəsənin təyin edilməsi və ya leqatın müəyyənləşdirilməsinin istənilməsi məsələsinin təfsir edilməsində həlledici məqam vəsiyyət edənin alan şəxsi mirasının bütün hüquqlarla və öhdəliklərlə birlikdə tam hüquqi varisi kimi təyin etmək (MM-in 1151-ci maddəsi), ona miras üzərində idarəçilik və sərəncam hüquqları vermək, onun üzərinə miras öhdəliklərinə görə məsuliyyət daşımaq vəzifəsi qoymaq istəməsidir (MM-in 1306-cı maddəsi). Bu

zaman verilməli olan əşyaların dəyərinin tam miras dəyərinə hansı nisbətdə olması önəmlidir.

Bu kazus üzrə tam miras 180.000 AZN dəyərində olan evdən, 18.000 AZN dəyərində olan bank əmanətindən, 6.000 dəyərində olan skripkadan, bütövlükdə 204.000 AZN dəyərində əmlakdan ibarətdir. Buna görə də skripkanın S-yə verilməsi leqatın müəyyənləşdirilməsi kimi təfsir edilməlidir. Ev məsələsində isə A və B-nin xeyrinə vərəsə təyin edilmə çərşivəsində bölüşdürmə sərəncamı vardır.

2. Əlavə qanuni vərəsəlik qaydası, miras payları

Vəsiyyətnamə üzrə təyin edilmiş vərəsələrin payları mirası tam əhatə etmədiyinə görə (vəsiyyətnamədə bank məbləği xatırlanmır, skripka da aktiv əmlakdır və mirasa daxildir) vəsiyyətnamədə barəsində sərəncam verilməyən əmlak hissəsi üçün qanun üzrə vərəsəlik tətbiq edilir (MM-in 1172-ci maddəsi). Qanun üzrə vərəsələr A, B və C-dir. Mirasın qalan hissəsindən onların eyni pay almaq hüququ var (MM-in 1159.1.1-ci maddəsi).

Miras paylarının həcminin müəyyənləşdirilməsi prosesində bütün aktiv əmlak dəyərləri hesaba alınmalıdır, miras passivinin (leqat da daxil olmaqla) çıxılması nəzərdə tutulmur. Buna görə də 204.000 məbləği əsas götürülməlidir. Miras payları verilməsi nəzərdə tutulan əşyalar və tam miras arasındakı dəyər nisbətindən irəli gəlir (əşya əsasında təyin edilmiş miras payı). A və B-nin hərəsinin 48% miras payı var (evə münasibətdə 90.000 AZN, bank hesabına münasibətdə 6.000 AZN və skripkaya münasibətdə 2.000 AZN). C isə mirasa 4% payla vərəsə olur (bank hesabına münasibətdə 6.000 AZN və skripkaya münasibətdə 2.000 AZN).

3. C-nin məcburi payın tamamlanması ilə bağlı əlavə tələbi

C vəsiyyət edənin uşağı olduğuna görə qanunda nəzərdə tutulmuş vərəsəlik qaydasına əsasən mirasın 1/3 hissəsini ala bilərdi (MM-in 1159-cu maddəsi). MM-in 1193-cü maddəsinə əsasən, onun məcburi pay almaq hüququ var. 2-ci bənddə göstərilən hesablamalara görə, C qanun üzrə vərəsəlik payının yarısından az pay alır. Bu hal üçün MM-in 1201-ci maddəsi müəyyən edir ki, məcburi pay almaq hüququ olan şəxsə qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az əmlak vəsiyyət edilibsə, o, vəsiyyət üzrə aldığı payın qanun üzrə vərəsəlik zamanı ala biləcəyi payın yarısından az olduğu hissəni tələb edə bilər. MM-in 1201-ci maddəsi hərfi mənasına görə bilavasitə yalnız vəsiyyət üzrə vərəsə təyin edilməsinə tətbiq edilsə də, əslində C-yə tətbiq olunmamalıdır, çünki o, vəsiyyətnamədə vərəsə kimi nəzərdə tutulmur və yalnız MM-in 1172-ci maddəsində nəzərdə tutulan əlavə qanun üzrə vərəsəlik qaydasına görə ortaya çıxır. Lakin burada analogiya tətbiq oluna bilər, çünki vəsiyyət edən C-ni vəsiyyətnamədə nəzərə almamaqla onun qanun üzrə vərəsəlik hüququnu azaldır. Bu da MM-in 1201-ci maddəsinin hüquqi ideyası ilə əhatə olunur.

Məcburi payın tamamlanması tələbinin dəyərinin müəyyən edilməsinin əsası kimi, MM-in 1195-ci maddəsinə görə, bütün əmlak götürülməlidir. Bunun nəticəsində C-nin qanun əsasısında vərəsəlik payı dəyər baxımından 204.000 AZN-in 1/3 hissəsi, yəni 68.000 AZN təşkil edir. Beləliklə, məcburi pay 34.000 AZN-dir.

C-nin yalnız 8.000 AZN miras payı olduğundan onun məcburi paya 26.000 AZN dəyərində əlavə olunmasını tələb etmək hüququ var.

IV. E-nin ölümündən sonra tapılmış başqa vəsiyyətnamənin təsiri

1. MM-in 1220.0.1-ci maddəsinə əsasən, vəsiyyət edən vəsiyyətnaməsini başqa vəsiyyətnamə tərtib etməklə ləğv edə bilər. Bunu E üzərində «Ölümümdən sonra açılmalıdır» yazısı olan zərfdəki vəsiyyətnaməsi vasitəsilə etmişdir. Lakin vəsiyyətnamənin ləğvinin etibarlı olması sual doğurur.

2. Vəsiyyət edənin ölümündən sonra aşkar olunmuş vəsiyyətnamədə tarix haqqında məlumat yoxdur. Bu, MM-in 1190-cı maddəsinin 2-ci cümləsinə əsasən vəsiyyətnamənin tərtibi, dəyişdirilməsi və ya ləğvi zamanı vəsiyyət edənin fəaliyyət qabiliyyətli olmasına dair şübhələrin aradan qalxmadığı, bir neçə vəsiyyətnamə olduğu halda vəsiyyətnamənin etibarsızlığına səbəb olur. Axırıncı hal bu kazusda var. Beləliklə, prinsipcə, vəsiyyətnamə əslində etibarsız olmalı idi.

Lakin həmin qaydanın mənası və məqsədi nəzərə alınmalıdır. Bir neçə vəsiyyətnamə olduqda, MM-in 1220.0.1-ci maddəsinə əsasən, yeni vəsiyyətnamə köhnəsini o halda ləğv edir ki, yeni vəsiyyətnamə köhnəyə zidd olsun. Bu halda vəsiyyətnamələrin hansının yeni olduğunu dəqiqləşdirmək üçün tarix həlledicidir. Lakin hər bir vəsiyyətnamənin təfsirinin əsas prinsipi vəsiyyət edənin həqiqi iradəsini müəyyənləşdirmək və onun gerçəkləşdirilməsinə yardım etməkdir. Beləliklə, vəsiyyətnamənin təfsiri zamanı yalnız onun hərfi mənası ilə kifayətlənmək olmaz, vəsiyyət edənin həqiqi iradəsini dəqiqləşdirmək üçün əlacsız qaldıqda vəsiyyətnamədə olmayan başqa hallar nəzərə alınmalıdır. Vəsiyyətnaməni təfsir edərkən vəsiyyət edənin həqiqi iradəsinə oriyentasiya MM-in 1190-cı maddəsinin 2-ci cümləsinin hərfi mənasından kənara çıxan məhdud tətbiqi mümkün edir; bu zaman bir neçə vəsiyyətnamənin olmasına baxmayaraq, tarixsiz vəsiyyətnamə hər halda o zaman etibarsız olmamalıdır ki, başqa

hallar vasitəsilə vəsiyyət edənin ölüm anında həqiqi iradəsini şübhəsiz müəyyənləşdirmək mümkün olsun. Burada da vəziyyət eynidir: vəsiyyət edənin ölümündən sonra aşkar edilmiş vəsiyyətnamədən birmənalı belə məna çıxır ki, o, 01.02.2004-cü il tarixli məktubu səyahətdən sonra tərtib edib. Beləliklə, vəsiyyətnamələrin hansının yeni və etibarlı olması barədə sübhə yoxdur.

3. Yeni vəsiyyətnamənin mətnini E əllə yazmışdır və buna görə də MM-in 1179, 1186-cı maddələrində nəzərdə tutulan formaya uyğundur. Lakin əlavə kimi istinad edilmiş 5 futbolçunun adı çap maşını ilə yazılmışdır və buna görə nəzərdə tutulan vəsiyyətnamənin forması qaydalara uyğun deyil. Bu, yalnız o halda etibarlı ola bilərdi ki, maşınla yazılmış əlavə vəsiyyət edənin iradəsinin mahiyyətinin müəyyənləşdirilməsinə yox, izah edilməsinə xidmət etsin. Hər bir halda vəsiyyət edənin iradəsi əksini şəxsən yazılmış vəsiyyətnamədə tapmalıdır. Məsələn, vəsiyyət edən şəxsən (əllə) yazılmış vəsiyyətnamədə vərəsələr kimi «mənim qohumlarımı» yaza və dəqiq izah üçün qohumların adlarının maşınla yazılmış siyahısına istinad edə bilər. Bu kazus üzrə şəxsən yazılmış vəsiyyətnamədə maşınla yazılmız əlavədəki hansı şəxslər dairəsinin nəzərdə tutulması barədə işarə yoxdur. Beləliklə, vərəsə kimi nəzərdə tutulan şəxslərin təfsir vasitəsilə əlavə edilə və müəyyənləşdirilə bilən dairəsi barədə məlumat tam şəkildə yoxdur. Bunun nəticəsində vəstiyyətnamə qanunda nəzərdə tutulmuş formada tərtib olunmayıb və 01.02.2004-cü il tarixli məktub vəsiyyətnaməni ləğv etməyib.

V. Ümumi nəticə

01.02.2004-cü il tarixli vəsiyyətnamə əsasında A və B hərəsi 48, C isə 4 faiz payla vərəsə olublar. E-nin bölüsdürmə sərəncamı əsasında A və B evi almalıdırlar. C 26.000 AZN dəyərində məcburi payın əlavə edilməsini tələb edə bilər. S

leqat nəticəsində vəsiyyət edənin skripkasını alır. Leqat əsasında tələb hər üç vərəsəyə qarşı yönəlir.

Leqatın və C-nin məcburi payın əlavə edilməsi tələbinin icrasından sonra, vərəsələrin razılığına əsasən, mirasın bölüşdürülməsi baş verir (MM-in 1274-cü maddəsi).

4. Kazus: **Lənətlənmiş 2-ci vəsiyyətnamə**

Mirasqoyan E 2007-ci ilin payızında uzun müddət davam edən xəstəlikdən sonra vəfat edir və onun qanun üzrə heç bir vərəsəsi olmur. 1.12.2004-cü il tarixli bir vəsiyyətnamə tapılır ki, burada da 2-ci cavabdeh yeganə vərəsə qismində göstərilir. E-nin evində aşkar edilmiş qiymətli əşyalar əsasən bir qızıl saatdan, qiymətli qədim xalçadan və iri həcmli sikkə kolleksiyasından ibarət idi. 2-ci cavabdeh mirası özünə götürür.

2-ci cavabdeh saatı sonradan 1-ci cavabdehə verir, çünki E 2004-cü il tarixli vəsiyyətnamədə onun (1-ci cavabdehin) xeyrinə tapşırıq vermişdi. 2008-ci ilin yanvarında daha bir vəsiyyətnamə tapılır. Həmin vəsiyyətnamədə iddiaçı T yeganə vərəsə qismində göstərilir. Üzərində heç bir tarix göstərilməyən vəsiyyətnamədə mirasqoyan aşağıdakıları yazmışdı: «Mən 2006-cı ilin yayında xanım T ilə tanış olduqdan sonra həyatım dəyişdi. O həmişə mənim yanımda olmuşdur və buna görə də ölümümdən sonra mənə məxsus olan hər şey ona çatmalıdır». Bunun ardınca iddiaçı mirasqoyanın vəfat etdiyi ərazidə yerləşən notariat kontoruna mirasın qəbul edilməsi barədə ərizə ilə müraciət edir.

İddiaçının bildirdiyinə görə, onun istinad etdiyi vəsiyyətnamənin yazıldığı tarix daha yenidir. Onun fikrincə, vəsiyyətnamənin üzərində heç bir tarix olmamasına baxmayaraq, o, etibarlıdır və buna görə də bu vəsiyyətnamə 2004-cü ildə yazılan vəsiyyətnamədən üstündür. Daha sonra o bildirir ki, mirasa saat, xalça və qiymətli sikkələr kolleksiyası aiddir.

İddiaçı aşağıdakılar barədə qətnamə çıxarılmasını xahiş edir:

1-ci cavabdehdən saatın alınıb ona qaytarılması;

2. 2-ci cavabdehdən xalça və qiymətli sikkə kolleksiyasının alınıb ona qaytarılması.

Cavabdehlər, öz növbələrində, iddianın rədd edilməsini xahiş edirlər.

Cavabdehlər bildirirlər ki, iddiaçı üçün əlverişli olan vəsiyyətnamə saxtalaşdırılıb. Həmin vəsiyyətnamədəki imza E-yə məxsus deyil. Daha sonra onlar belə bir fikirdədirlər ki, vəsiyyətnamə artıq orada heç bir tarix qoyulmaması səbəbindən etibarsızdır.

Bundan əlavə, 2-ci cavabdehin bildirdiyinə görə, E xalçanı ona hələ 2003-cü ildə bağışlamışdı. E vəfat edən zaman xalça ona görə onun evində olmuşdur ki, ölümündən bir qədər əvvəl xalça E-yə bir bayramla əlaqədar gərək olmuşdur. E-nin xahişinə əsasən 2-ci cavabdeh xalçanı istifadə etmək üçün ona veribmiş.

2003-cü ildə mirasqoyanın xalçanı həqiqətən də 2-ci cavabdehə bağışladığını müəyyən etmək üçün məhkəmə şahid Z-ni dindirərək sübutları araşdırır. Z-nin verdiyi ifadəyə əsasən, E 2-ci cavabdehin ad günü münasibətilə xalçanı ona bağışlayan vaxt Z də orada olub. Xalçanı verərkən E aşağıdakıları deyib: «Mənim sadiq dostum, ad günün münasibətilə mən bu xalçanı sənə bağışlamaq istəyirəm». Z-nin bildirdiyinə görə, o, bu sözlərdən sonra 2-ci cavabdehin necə təsirləndiyini də çox yaxşı xatırlayır.

2008-ci ilin yanvarında aşkar edilmiş vəsiyyətnamə ilə bağlı qrafoloji ekspert rəyi əldə edilir. Ekspert rəyinə görə, vəsiyyətnaməni tam əminliyə yaxın olan bir ehtimalla mirasqoyan özü tərtib edib və imzalayıb.

İddia uğurlu ola bilərmi?

Kazusun həlli:

I. 1-ci cavabdehə qarşı iddia

(Qeyd: Burada faktiki hallar mübahisəli olduğundan, iddianın əsaslı olub-olmadığını ayrıca olaraq həm iddiaçının, həm də cavabdehin bildirdiklərinə əsasən yoxlamaq tövsiyə olunur.

(1) İddiaçının bildirdikləri

İddiaçı MM-in 157.2-ci maddəsinə əsasən 1-ci cavabdehdən saatın alınmasını tələb edə bilərdi.

Belə bir tələbin olması üçün şərt iddiaçının saatın mülkiyyətçisi və 1-ci cavabdehin saatın qanunsuz sahibi olmasıdır.

1. İddiaçı saatın mülkiyyətçisi olmalıdır. MM-in 1133, 1151.1, 1243, 1255, 1273-cü maddələrinə uyğun olaraq vərəsə mirasın qəbulu zamanı miras əmlakının mülkiyyətçisinə çevrilir. Beləliklə, mirasqoyanın vərəsəsinin kim olması sualı yaranır. Burada vəsiyyətnamələrdən hansının etibarlı olması məsələsi həlledicidir.

a. İddiaçının bildirdiyinə görə, vəsiyyətnaməni E imzalayıb və beləliklə, vəsiyyətnamə etibarlıdır.

b. Onun etibarlı olması məsələsi də sual doğurur, çünki onun üzərində heç bir tarix qoyulmayıb. Bununla belə, MM-in 1190-cı maddəsinin 2-ci cümləsinə uyğun olaraq, bu hal yalnız o halda vəsiyyətnamənin əhəmiyyətsizliyinə səbəb olur ki, onun tərtibi, dəyişdirilməsi və yaxud ləğv edilməsi zamanı mirasqoyanın fəaliyyət qabiliyyətli olması məsələsi şübhə doğursun və ya bir neçə vəsiyyətnamə olsun. İkinci şərt kazusda göstərilən vəziyyətə uyğundur. Beləliklə, buna əsasən vəsiyyətnamə prinsipcə əhəmiyyətsiz olmalıdır. Bununla belə, həmin müddəanın mənası və məqsədi nəzərə alınmalıdır. Bir neçə vəsiyyətnamə varsa, MM-in 1220.1-ci maddəsinə uyğun

olaraq köhnə vəsiyyətnamə yeni vəsiyyətnamə ilə qüvvədən salınır (onların məzmunu bir-birindən bu kazusdakı kimi fərqli olarsa). Bu kazusda da hansı vəsiyyətnamənin yeni olduğunu müəyyənləşdirmək üçün tarixin göstərilməsi həlledicidir. Bununla belə, istənilən vəsiyyətnamənin təfsiri zamanı ən ali qayda mirasqoyanın həqiqi iradəsinin müəyyən edilməsi və onun hüquqi cəhətdən həyata keçirilməsinə yardım göstərməkdir. Hər hansı vəsiyyətnamənin təfsiri təkcə onun məzmunu ilə məhdudlaşmır. Şübhə yarandıqda mirasqoyanın həqiqi iradəsinin araşdırılıb müəyyən edilməsi üçün vəsiyyətnamədən kənar hallar da nəzərə alınmalıdır. Vəsiyyətnamənin təfsiri zamanı mirasqoyanın həqiqi iradəsinə oriyentasiya MM-in 1190-cı maddəsinin 2-ci cümləsi onun məzmunundan kənara çıxaraq məhdud şəkildə belə bir tətbiqə əsas verir ki, bir neçə vəsiyyətnamənin olmasına baxmayaraq, başqa halları nəzərə almaqla, vəsiyyətnamənin tərtib edilmə tarixi və bununla da vəfat edən zaman mirasqoyanın həqiqi iradəsi heç bir şübhə olmadan müəyyənləşdirilə bilərsə, tarixi göstərilməyən vəsiyyətnamə etibarsız deyil.

Burada vəziyyət məhz belədir: mirasqoyan öz vəsiyyətnaməsində yazır ki, o, iddiaçı ilə 2006-cı ilin yayında tanış olub. Bununla da heç bir şübhə olmadan həmin vəsiyyətnamənin məzmunundan belə çıxır ki, mirasqoyan hər bir halda vəsiyyətnaməni ya 2006-cı ilin yayında, ya da bundan sonra tərtib edib və beləliklə də bu vəsiyyətnamə vaxt baxımından 2004-cü ildə tərtib olunmuş vəsiyyətnamədən yenidir. Ona görə də MM-in 1220.0.1-ci maddəsinə uyğun olaraq, bu vəsiyyətnamənin yeni vəsiyyətnamə qismində 2004-cü ildə tərtib olunmuş vəsiyyətnamədən üstün qüvvəsi var. Bununla da 2008-ci ilin yanvarında aşkar edilmiş vəsiyyətnamə əsl və etibarlı olduğu üçün iddiaçı mirasqoyan E-nin yeganə vərəsəsidir.

c. İddiaçı mirası qəbul edib. Çünki notariat kontoruna mirasın qəbulu ilə bağlı ərizə verilməsi iddiaçının mirası qəbul etməsi deməkdir (MM-in 1243.2-ci maddəsi). Bununla da mirasın qəbul edilməsi vasitəsilə iddiaçı qüvvəsi geriyə tətbiq olunmaqla mirasqoyanın əmlakının mülkiyyətçisinə (MM-in 1255-ci maddəsi) və beləliklə də mübahisə predmeti olan saatın mülkiyyətçisinə çevrilib.

d. Lakin iddiaçı saata olan mülkiyyət hüququnu yenə itirə bilər. 2-ci cavabdeh 2004-cü il tarixli vəsiyyətnamədə nəzərdə tutulan vəsiyyət tapşırığı əsasında saatı 1-ci cavabdehə verib və o, mülkiyyətçi olub. 2004-cü il vəsiyyətnaməsinin sonrakı vəsiyyətnamə vasitəsilə ləğv edilməsi məsələsi sual doğurur. MM-in 1220-ci maddəsinə əsasən, köhnə vəsiyyətnamənin yeni vəsiyyətnaməyə zidd olduğu hissədə bu belədir. Ona görə bu iş üzrə sual yaranır ki, 2-ci vəsiyyətnamə ilə yalnız yeganə vərəsə dəyişdirilərək 1-ci vəsiyyətnamədən irəli gələn vəsiyyət tapşırığı toxunulmaz qalmalı idi, yoxsa 1-ci vəsiyyətnamə tam həcmdə ləğv edilməli və sonrakı vəsiyyətnamə ilə vərəsəlik qaydası yenidən müəyyənləşdirilməli idi? Bu məsələ ilə bağlı həlledeci məqam vəsiyyətnamənin təfsiridir.

Burada, yəqin ki, E-nin 2-ci vəsiyyətnamə ilə mirası barədə tamamilə yeni qayda müəyyən etmək istəməsi qəbul edilməlidir. Bunun lehinə olan həlledici məqam T-nin «ona məxsus olan hər şeyi» əldə etməli olması kimi iradə ifadəsidir. Bununla ayrı-ayrı miras əşyalarının üçüncü şəxslərə verilməsi yolu ilə mirasın bölüşdürülməsinin qarşısı alınmalı idi. Beləliklə, etibarlı vəsiyyət tapşırığı olmadığından 2-ci cavabdeh saat üzərində sərəncam verməyə səlahiyyətli deyildi. Bununla da yalnız 1-ci cavabdehin əmlakı vicdanlı əldə etməsi məsələsi qalır. MM-in 182-ci maddəsinə əsasən, bunun üçün şərt 1-ci cavabdehin mülkiyyət hüququ baxımından 2-ci cavabdehə münasibətdə vicdanlı əldə edən olması və belə əldəetməni is-

tisna edən halın olmamasıdır. Lakin burada vicdanlı əldəetmə məsələsi artıq onunla aradan qalxır ki, 1-ci cavabdeh saatı vəsiyyət tapşırığı əsasında heç bir əvəz ödəmədən əldə edib (MM-in 182.2-ci maddəsi).

Beləliklə, iddiaçı saata mülkiyyət hüququnu itirməmişdir.

2. 1-ci cavabdeh qanunsuz sahib olmalıdır. Onun üçün əlverişli vəsiyyət tapşırığı nəzərdə tutan vəsiyyətnamə yeni vəsiyyətnamə vasitəsilə aradan qaldırıldığı üçün (bax: yuxarıda), bu vəsiyyətnamə onun xeyrinə heç bir sahiblik hüququ yarada bilməz.

Beləliklə, iddiaçının göstərdiklərinə əsasən, MM-in 157.2-ci maddələrinə uyğun olaraq, geri qaytarmaq barədə tələbin şərtləri var. Ona görə də iddiaçı 1-ci cavabdehdən saatın geri qaytarılmasını tələb edə bilər.

(2) Cavabdehin bildirdiklərinin əhəmiyyəti

1-ci cavabdeh vəsiyyətnaməni E-nin tərtib etməsini mübahisələndirir. Bu güman önəmlidir, çünki bu halda iddiaçı vərəsə və bununla da saatın mülkiyyətçisi olmazdı; MM-in 157.2-ci maddəsində nəzərdə tutulmuş tələb aradan qalxardı. Ona görə də vəsiyyətnamənin etibarlı olması faktı barədə sübutlar araşdırılmalıdır.

(3) Faktların müəyyənləşdirilməsi

Sübutetmə prosesinin nəticəsinə əsasən vəsiyyətnaməni mirasqoyanın imzalaması dəqiq bəllidir. Qrafoloji mütəxəssis rəyinin gəldiyi nəticəyə uyğun olaraq, əminliyə çox yaxın olan bir ehtimalla vəsiyyətnaməni mirasqoyan imzalamışdır.

(Vəsiyyətnamənin etibarlı olmasına dair şübhələr iddiaçının ziyanına olardı. Çünki MPM-in 77-ci maddəsinə uyğun olaraq sübutetmə vəzifəsi onun üzərinə düşür. O, vəsiyyətnaməyə əsaslanır və buna görə onun etibarlı olduğunu sübut etməlidir).

I nəticə: İddia əsaslıdır.

II. 2-ci cavabdehə qarşı iddia.

1. Xalçanın qaytarılması

(1) İddiaçının bildirdikləri

İddiaçının 2-ci cavabdehə qarşı tələbi də MM-in 157.2-ci maddəsindən irəli gələ bilər. İddiaçı xalçanın mülkiyyətçisi olmalıdır. Miras qəbul edilən halda o, mirasın açıldığı andan bütün miras əmlakının yeganə vərəsəsi və mülkiyyətçisidir (MM-in 1133, 1151.1, 1243, 1255, 1273-cü maddələri). 2-ci cavabdeh qanunsuz sahibdir. O, mirasın faktiki sahibliyə götürülməsi ilə bu xalçanın sahibi olub (MM-in 159-cu maddəsi). 2-ci cavabdehi yeganə vərəsə qismində təyin edən əvvəlki vəsiyyətnamə yeni vəsiyyətnamə vasitəsilə aradan qaldırıldığı üçün bu vəsiyyətnamə 2-ci cavabdeh üçün sahiblik hüququ yarada bilməz.

Bununla da iddiaçının bildirdiklərinə əsasən onun MM-in 157.2-ci maddəsinə uyğun olaraq xalçanın geri qaytarılmasını tələb etmək hüququ var.

(2) Cavabdehin bildirdiklərinin əhəmiyyəti

2-ci cavabdeh bildirir ki, mirasqoyan xalçanı ona hələ 2003-cü ildə bağışlayıb. Bu güman önəmlidir. Çünki bu, həqiqətən də belə olarsa, onda xalça miras əmlaka aid edilməzdi və iddiaçı onun mülkiyyətçisi olmazdı. Beləliklə də geri qaytarmaq tələbi aradan qalxmış olardı.

(3) Faktların müəyyənləşdirilməsi

Beləliklə, mübahisənin həlli E-nin xalçanı 2-ci cavabdehə bağışlayıb-bağışlamamasından asılıdır. Bununla bağlı məhkəmə şahid qismində Z-ni dindirir. O, belə bir bağışlamanın olduğunu təsdiq edir. Şahidin ifadəsi inandırıcıdır. O, həm

də deyilənlərin məzmunu və iştirakçıların əhvalı kimi incəlikləri də xatırlaya bilirdi. Onun ifadəsi həm də özlüyündə məntiqlidir. Ona görə mirasqoyanın xalçanı həqiqətən də 2-ci cavabdehə bağışlaması və bununla da xalçanın artıq 2003-cü ildə 2-ci cavabdehin mülkiyyətində olması qəbul edilə bilər.

Mübahisə predmeti olan xalça mirasqoyanın vəfat etdiyi anda onun əmlakına aid olmadığı üçün iddiaçı bunu miras qismində əldə edə bilməzdi. Ona görə də MM-in 157.2-ci maddəsinə uyğun olaraq iddiaçının 2-ci cavabdehdən xalçanın geri qaytarılmasını tələb etmək hüququ yoxdur.

II. 1-ci iddia ilə bağlı nəticə: İddia əsassızdır.

2. Sikkə kolleksiyasının geri qaytarılması

(1) İddiaçı MM-in 157.2-ci maddəsinə uyğun olaraq 2-ci cavabdehdən həmin kolleksiyanın geri qaytarılmasını tələb edə bilər.

a) İddiaçı sikkələrin mülkiyyətçisi olmalıdır. Bunlar heç bir mübahisə olmadan mirasa aid olduğu üçün iddiaçı mirasın qəbul edilməsi ilə mirasın açıldığı andan mülkiyyətçidir (MM-in 1133, 1151.1, 1243, 1255, 1273-cü maddələri). Çünki artıq yuxarıda (I) müəyyən edildiyi kimi, yeni vəsiyyətnamə qüvvədədir.

b) 2-ci cavabdeh sikkələrin qanunsuz sahibidir. Buna görə də yuxarıda (II.1. (1)) müəyyən edilənlər buraya da şamil olunur.

Beləliklə, MM-in 157.2-ci maddəsində nəzərdə tutulan şərtlər var. İddiaçı 2-ci cavabdehdən sikkə kolleksiyasının geri qaytarılmasını tələb edə bilər.

(2) Bununla yanaşı, iddiaçının MM-in 1092.1-ci maddəsinə uyğun olaraq əsassız varlanmaya istinad edərək kolleksiyaya sahibliyin geri qaytarılmasını tələb etmək hüququ var.

2-ci cavabdeh mirası sahibliyə götürməklə sikkə kolleksiyası üzərində sahibliyi əldə etmişdir. O, vərəsə olmadığı üçün bu sahibliyə götürmə hüquqi əsas olmadan baş vermişdir.

II. 2-ci iddia ilə bağlı nəticə: İddia əsaslıdır.

5. Kazus: Xalça kolleksiyaçısı

Mirasqoyan E ənənəvi Azərbaycan incəsənətinin kolleksiyaçısı idi və qiymətli qədimi xalçalar kolleksiyası var idi. Bu kolleksiya dul qalmış E-nin bütün əmlakını təşkil edirdi. E dul qalmış qızı T ilə bir yerdə yaşayırdı. E heç bir vəsiyyətnamə qoymadan 01.02.2007-ci il tarixdə vəfat edir. Qızı T E-nin ölümündən sonra xalça kolleksiyasını özünə götürür. İddiaçı – mirasqoyanın hamıdan çox istədiyi yeganə bacısı bu vaxt Rusiyada xəbərsiz itkin düşmüş hesab olunurdu.

T mirasqoyanın ölümündən bir qədər əvvəl ona 1500 manat məbləğində borc vermişdi. Bu məbləği geri almaq üçün T 01.03.2007-ci ildə mirasqoyanın kolleksiyasına məxsus və üzərində «Qız Qalası» motivi olan bir xalçanı 1500 manata xalça alverçisinə satmaq yolu ilə özgəninkiləşdirir. Xalçanın miras əmlaka aid olması xalça alverçisinə məlum deyildi. Bundan bir az sonra iddiaçı gözlənilmədən yenidən peyda olur. O, mirasqoyanın ölümü barədə xəbər tutduqdan sonra deyir: «Qardaşım mənim hələ yaşadığımı bilsəydi, o məni vəsiyyətnaməsində yeganə vərəsə kimi göstərərdi».

İddiaçı bildirir ki, T 01.04.2007-ci ildə mirasdan onun xeyrinə imtina etmişdir. T iddiaçı ilə mübahisələrdən qaçmaq istəmiş və onun onsuz da köhnə, «atılası əşyalarda» heç bir marağı olmamışdır. Bundan başqa, T özü də E-nin mirasını iddiaçının əldə etməsini istəyir. Üstəlik, iddiaçı mirası qəbul etmişdir.

İddiaçı üzərində «Qız Qalası» şəkli olan xalçanın cavabdehdən alınıb ona qaytarılması barədə tələb irəli sürür.

Cavabdeh iddianın rədd olunmasını xahiş edir.

O bildirir ki, T mirasdan imtina etməmişdir və iddiaçı da mirası etibarlı surətdə qəbul etməmişdir. Bundan əlavə, o, hesab edir ki, T mirası artıq qəbul etmişdi və buna görə də o, mirasdan bir daha imtina edə bilməzdi. Lakin hər halda onsuz da müddətlərə əməl olunmayıb.

Məhkəmə iddiaçının həqiqətən də mirası qəbul etməsi və T-nin mirasdan imtina etməsini müəyyənləşdirmək üçün 01.04.2007-ci il tarixli notarial qaydada təsdiq olunmuş mirasdan imtina barədə şəhadətnaməni sübut kimi nəzərdən keçirib və şahid qismində notariusu (bu notariusun qarşısında iddiaçı mirası qəbul etdiyini bəyan etmişdir) dindirmişdir.

İddia uğurla nəticələnə bilərmi? Məhkəmənin sübutları (notariusun dindirilməsi, mirasdan imtina şəhadətnaməsinin nəzərdən keçirilməsi) tədqiq etməsi zəruri olubmu?

<u>Kazusun həlli:</u>

(*Qeyd:* Burada faktiki hallar mübahisəli olduğundan iddianın əsaslı olub-olmadığını ayrıca – həm iddiaçının, həm də cavabdehin bildirdiklərinə əsasən yoxlamaq tövsiyə olunur.

I. İddiaçının bildirdikləri:

İddiaçı MM-in 157.2-ci maddəsinə əsasən xalçanın alınıb ona verilməsini tələb edə bilər. Həmin müddəaya uyğun olaraq, mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edə bilər.

1. Beləliklə, iddiaçı öncə xalçanın mülkiyyətçisi olmalıdır. O, MM-in 1133, 1151.1, 1243, 1255, 1273-cü maddələrinə uyğun olaraq yeganə vərəsə kimi mirasın qəbulu zamanı mirasın açılması anından bütün miras əmlakının, eləcə də mübahisəli xalçanın mülkiyyətçisi olardı. Mirasqoyan heç bir

vəsiyyətnamə qoymadığı üçün qanunla nəzərdə tutulmuş vərəsəlik ardıcıllığı barədə qayda tətbiq olunur. İddiaçını yeganə vərəsə göstərmək barədə mirasqoyanın sadəcə ehtimal edilən niyyəti burada heç nəyi dəyişmir.

a. Qanun üzrə birinci növbəli vərəsələrə kimlərin daxil olması MM-in 1159.1.1-ci maddəsində tənzimlənir. Buraya ölənin uşaqları, mirasqoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) daxildir. MM-in 1159.2-ci maddəsinə əsasən, mirasqoyanın bacıları və qardaşları ikinci növbə vərəsələrdir. Bu kazusdan göründüyü kimi, mirasqoyanın yalnız qızı (T) və bacısı (iddiaçı) var. Prinsipcə bu halda birinci növbə vərəsə olan qızın olması ikinci növbə vərəsənin – bacının vərəsəliyini istisna edir (MM-in 1160-cı maddəsi). Ona görə də T yeganə vərəsə olub.

b. Lakin T həqiqətən də iddiaçının xeyrinə mirasdan etibarlı şəkildə imtina edə bilərdi. Bu, MM-in 1261-ci maddəsinə uyğun olaraq qanun üzrə və ya vəsiyyətnamə üzrə vərəsələr sırasından başqa şəxslərin xeyrinə imtina etmə vasitəsilə mümkündür. Lakin T yeganə vərəsədir və beləliklə, bu iş üzrə xeyrinə imtina etmənin mümkün ola biləcəyi başqa qanun və vəsiyyətnamə üzrə vərəsə yoxdur. Yeganə vərəsə mirasdan imtina edirsə, MM-in 1263-cü maddəsinə əsasən, miras sonrakı növbənin vərəsələrinə keçir. Bu isə iddiaçıdır. MM-in 1261-ci maddəsinin başqa təfsirinə əsasən, imtinanın qanun üzrə vərəsələrin sırasından olan başqa şəxslərin xeyrinə mümkün olması qəbul edilərsə (onlar konkret halda qanun üzrə vərəsə olmasalar da), iddiaçı artıq MM-in 1261-ci maddəsinə əsasən vərəsə olardı. Beləliklə, iddiaçı T-nin mirasdan imtina etməsi nəticəsində vərəsə kimi çıxış edə bilər.

c. Bununla belə, T notariat kontorunda mirası qəbul etdiyini bəyan etsəydi, yaxud vərəsəlik haqqında şəhadətnamə

alınması barədə ərizə versəydi, onda mirasdan imtina edilməsinə yol verilməzdi (MM-in 1267-ci maddəsi). Lakin T bunu etməmişdir. Buna baxmayaraq, o, MM-in 1243.2-ci maddəsində göstərildiyi kimi, mirası konkludent hərəkətləri ilə də qəbul edə bilərdi. Ancaq mirasın belə konkludent qəbulu üçün zəruri şərt ondan ibarətdir ki, vərəsə faktiki əmlaka sahiblik etsin, yaxud əmlakı idarə etsin və mövcud vəziyyətdən heç bir şübhə olmadan belə bir nəticə hasil olsun ki, vərəsə mirası qəbul edir. Əlbəttə, T xalçaları, kazusdan göründüyü kimi, özünə götürmüşdür, lakin konkret şərait nəzərə alınmaqla, bu, heç də o demək deyil ki, T həmin hərəkəti ilə mirası qəbul etdiyini bəyan etmək istəmişdir. MM-in 1243.2-ci maddəsinə əsasən, mirasa sadəcə sahiblik etmək yetərli deyil. Kazusdan göründüyü kimi, T mirasa aşkar surətdə öncə ona görə sahiblik etmişdir ki, o, yeganə qanuni vərəsə olmuşdur və mirasqoyanla eyni mənzildə yaşamışdır. Hətta kolleksiyadan olan xalçalardan birinin özgəninkiləşdirilməsi heç də belə bir nəticənin çıxarılmasına imkan vermir ki, T həqiqətən mirası qəbul etmək istəyib. Çünki T bununla yalnız özünə məxsus olan tələbin ödənilməsini istəmişdir. Mirasa sadəcə faktiki sahiblik etmə həmişə mirası şəksiz qəbul etmə kimi qiymətləndirmək üçün yetərli olsaydı, son nəticədə mirasın qəbul edilməsi barədə son qərardan əvvəl mirasın həcmi və dəyəri, xüsusilə də mirasqoyanın borclarının vəziyyəti barədə təsəvvür yaratmaq üçün vərəsə bütün imkanlardan məhrum edilərdi. Ona görə də, prinsipcə, T-nin vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən 3 ay ərzində mirasın qəbulundan imtina etmək imkanı olub (MM-in 1256-cı maddəsi). Mirasqoyan 01.02.2007-ci ildə vəfat etdiyi və T 01.04.2007-ci ildə mirasdan imtina etdiyi üçün hər bir halda bu müddətə əməl olunub. Miras əmlaka sahiblik etmə və xalçanın satılması mirasın faktiki qəbulu kimi qiymətləndirilsəydi də, T-nin MM-in 1269-cu maddə-

sinə uyğun olaraq (və MM-in 1267-ci maddəsindən fərqli olaraq) mirasdan onun qəbulu üçün müəyyən edilmiş müddətdə (MM-in 1246-cı maddəsi) və beləliklə, mirasın açılmasından sonra 3 ay ərzində imtina etmək imkanı olub. Beləliklə, bu halda da müddətə əməl edilərdi.

Beləliklə, T hər iki alternativ variantda etibarlı surətdə mirasdan imtina edib.

d. Bununla da T-nin mirasın qəbulundan imtinası həqiqi (etibarlı) olduğu üçün iddiaçı yeganə vərəsə olub. O, bildirdiyinə görə, mirası qəbul edib. Bununla da iddiaçı mirasın açıldığı andan mirasqoyan E-nin yeganə qanuni vərəsəsi və miras açılandan bəri mübahisə predmeti olan xalçanın mülkiyyətçisidir (MM-in 1255, 1273-cü maddələri).

2. Üzərində «Qız Qalası» şəkli olan xalçanı T-nin 01.03. 2007-ci ildə cavabdehə satması nəticəsində iddiaçı həmin xalça üzərində mülkiyyət hüququnu itirə bilərdi. Bunun üçün şərt odur ki, T etibarlı əqd əsasında əşya üzərində sərəncam versin və həmin əşyanın mülkiyyətçisi olsun.

a. Burada T və cavabdeh arasında alqı-satqı müqaviləsi formasında bağlanmış etibarlı əqd var (MM-in 567-ci maddəsi). Bu əqdin yazılı formaya ehtiyacı yoxdur.

b. Lakin T mirası 01.03.2007-ci ildə alqı-satqı zamanı hələ qəbul etmədiyi üçün o, MM-in 1255, 1273-cü maddələrinə uyğun olaraq xalçanın mülkiyyətçisi olmayıb. Hətta mirası faktiki qəbul etsəydi də, o, yenə də mülkiyyətçi olmazdı. 01.04. 2007-ci il tarixdə mirasdan imtina vasitəsilə miras əmlak üzərində mülkiyyət hüququ qüvvəsi geriyə tətbiq olunmaqla aradan qalxır və bundan sonra mirası qəbul edən «növbəti» vərəsə qüvvəsi geriyə tətbiq olunmaqla mirasın açıldığı andan miras əmlak üzərində mülkiyyət hüququ əldə edir (MM-in 1273-cü maddəsi). Deyilənləri kazusa tətbiq etsək, belə bir

nəticə hasil olar ki, T mirasın qəbulundan imtina etmə vasitəsilə qüvvəsi geriyə tətbiq olunmaqla mülkiyyət hüququnu itirər və iddiaçı mirasın qəbulu vasitəsilə mirasın açıldığı andan miras əmlakın və beləliklə həm də xalçanın mülkiyyətçisi olardı.

Ona görə də hər bir halda T mübahisə predmeti olan xalçanın mülkiyyətçisi olmayıb.

c. Bu baxımdan cavabdeh T-dən əmlakı yalnız o halda əldə etmiş ola bilər ki, o, MM-in 182.1-ci maddəsinə əsasən əşyanın verilməsi zamanı vicdanlı hərəkət etsin və MM-in 182.2-ci maddəsinə uyğun olaraq heç bir istisnaedici əsas olmasın. Vicdanlılıq o zaman olur ki, əşyanı əldə edən şəxs əşyanı özgəninkiləşdirən şəxsin onun mülkiyyətçisi olmadığını bilməsin və heç bilməli də olmasın. Yüngül ehtiyatsızlıq belə vicdanlılığı istisna edir. Belə bir məsələ sual doğurur ki, görəsən, bu kazusda cavabdehin vicdanlılığı nəyə yönəlməlidir? Nəzərə alınmalıdır ki, T qanuni vərəsə olub, lakin xalçanı özgəninkiləşdirən zaman mirasın qəbulu və ya ondan imtina barədə heç bir qərar qəbul etməyib və sonradan qəbul etdiyi qərarın qüvvəsi onun miras əmlak üzərində sərəncam vermək hüququnun olub-olmamasına münasibətdə geriyə tətbiq olunub.

Nəticədə bu kazusda da əldə edənin vicdanlı olması yalnız ona əsaslana bilər ki, vərəsə olmayan özgəninkiləşdirən zaman miras əmlakın mülkiyyətçisi olmuşdur. Əldə edən şəxsin üzərinə əldə edilən əşyanın hansısa bir miras əmlaka aid olması barədə məlumat toplamaq öhdəliyi qoyula bilməz. Hətta o, əşyanın miras əmlaka aid olduğunu bildiyi halda belə, bu, özgəninkiləşdirən şəxsin mülkiyyətinin müəyyənləşdirilməsi baxımından onun vicdanlılığını yalnız o halda istisna edə bilərdi ki, o, həmin vaxt özgəninkiləşdirən şəxsin mirası hələ qəbul etmədiyini və ya mirasdan artıq imtina etdiyini bilsin və ya bilməli olsun.

Burada cavabdeh hesab edib ki, T xalçanın mülkiyyətçisi olub. O, həmin xalçanın miras əmlaka aid olması haqqında heç nə bilmirdi və bilməli də deyildi.

d. Xalçanın mülkiyyətçi, yəni iddiaçının əlindən çıxması vicdanlı əldəetməni aradan qaldıra bilər (MM-in 182.2-ci maddəsi). Əşya mülkiyyətçinin əlindən o zaman çıxır ki, mülkiyyətçi onun iradəsindən asılı olmadan, yaxud onun iradəsinə qarşı əşyaya birbaşa etdiyi sahiblikdən məhrum olsun. Bununla belə, iddiaçı heç zaman xalçaya vasitəsiz sahibliyi həyata keçirməyib. MM-in 1255, 1273-cü maddələri də burada heç nəyi dəyişmir. Çünki bu müddəalara görə, mirası qəbul edən vərəsə qüvvəsi geriyə tətbiq olunmaqla miras əmlak üzərində mülkiyyət hüququ əldə edir. Lakin bu müddəalar sahiblik münasibətləri barədə heç bir şey demir, xüsusilə onlar qüvvəsi geriyə tətbiq olunan faktiki sahibliyi ehtiva etmir. Əldən çıxmada təkcə bu məsələ həlledicidir. Beləliklə, iddiaçı heç vaxt xalçanın sahibi olmayıb. Mirasqoyanın vəfatından sonra yalnız T sahibliyi həyata keçirib.

e. Burada heç bir əvəz ödənilməməsi səbəbindən də vicdanlı əldəetmə aradan qalxmır (MM-in 182.2-ci maddəsi). Çünki cavabdeh xalça üçün 1.500 manat məbləğində pul ödəyib.

Beləliklə, iddiaçı xalça üzərindəki mülkiyyət hüququnu cavabdehin vicdanlı əldəetməsi yolu ilə itirib. Ona görə də artıq iddiaçının dediklərinə əsasən, MM-in 157.2-ci maddəsinə uyğun olaraq onun xalçanı geri qaytarmağı tələb etmək hüququ yoxdur.

Geri qaytarmaqla bağlı başqa tələb yoxdur.

II. Cavabdehin bildirdikləri:

İddiaçının dedikləri əsasında geri qaytarmaq tələbi mövcud olmadığı üçün burada cavabdehin faktiki hallar barədə bildirdikləri önəmli deyil.

Deməli, məhkəmənin sübutları araşdırması lazımsız olub və MPM-in 80-ci maddəsi pozulub.

Nəticə: Xalçanın geri qaytarılması ilə bağlı iddia rədd edilməlidir.

(Qeyd: Bu hal mülki prosesdə işin həlli üçün önəmli olmayan, lakin prosesdə araşdırma predmetinə çevrilən və barəsində də mübahisə aparılan hallara tipik misaldır. İşin həlli üçün mühüm əhəmiyyət kəsb edən məqam, yəni bu iş üzrə vicdanlı əldəetmə ilə bağlı tərəflər məhkəməyə heç nə bildirməmişlər. Əgər məsələyə lap dəqiq yanaşılarsa, T-nin mirasdan imtina etməsi halının, ümumiyyətlə, yoxlanılmağa ehtiyacı yoxdur. Bunu fərz etmək yetərlidir, çünki T-nin imtinası cavabdehin vicdanlı əldəetməsində heç nəyi dəyişmir. Tərəflərin hüquqi baxımdan mühüm olan məqamla bağlı heç nə bildirməmələri halında məhkəmənin bunu tərəflərin diqqətinə çatdırması zəruridir və tərəflərə imkan yaradılmalıdır ki, bununla bağlı mövqelərini məhkəməyə bildirsinlər. Bu, MPM-in 184.1 və 190-cı maddələrindən irəli gəlir).

Əlavə sual:

İddiaçı T-dən mülkiyyət hüququnun itirilməsi ilə bağlı əvəzin ödənilməsi kimi 1.500 manat tələb edə bilərmi? Belə olarsa, T-nin bununla bağlı etirazı nədən ibarət ola bilər?

I. İddiaçı MM-in 1251-ci maddəsinə uyğun olaraq T-dən 1.500 manat məbləğdə pulun ödənilməsini tələb edə bilər. Həmin müddəaya əsasən, səlahiyyətsiz şəxs mirasa daxil olan əşya üzərində həqiqi vərəsəyə münasibətdə etibarlı olan sərəncam veribsə, o, bunun nəticəsində əldə etdiyini həqiqi vərəsəyə verməyə borcludur.

1. Beləliklə, iddiaçı həqiqi vərəsə olmalıdır. Bunun üçün şərt odur ki, iddiaçı mirası qəbul etsin. Bu isə, öz növbəsində, T-nin bundan əvvəl etibarlı surətdə mirasın qəbulundan

imtina etməsini şərtləndirir. Təbii ki, bu, T-nin faktiki surətdə mirası artıq qəbul etdiyi hala şamil olunur. Çünki o, sonradan mirasdan həm də məcburi surətdə imtina etməlidir ki, «növbəti» vərəsə onu qəbul edə bilsin (Yadda saxla: MM-in 1267-ci maddəsinə uyğun olaraq T notariat orqanına mirasın qəbul edilməsi haqqında ərizə ilə müraciət etsəydi, artıq mirasdan imtina edilməsi mümkün olmazdı). Lakin yuxarıdakı kazusda göstərildiyi kimi, T mirası, ümumiyyətlə, qəbul etməsəydi, o, bu mirasdan əvvəlcə imtina etməliydi ki, iddiaçı onu 02.04.2007-ci ildə qəbul edə bilsin. Çünki T mirası prinsipcə MM-in 1246-cı maddəsinə uyğun olaraq bunun üçün nəzərdə tutulmuş 6 aylıq müddət ərzində, yəni 01.08.2007-ci ilə qədər qəbul edə bilərdi. Bu yolla T hələ vərəsə ola və iddiaçını vərəsəlikdən kənarlaşdıra bilərdi (*Yadda saxla:* ilkin vərəsə 6 aylıq müddət ərzində mirası nə qəbul, nə də ondan imtina etmişsə, MM-in 1273-1-ci maddəsi MM-in 1262-ci maddəsi ilə birlikdə tətbiq olunur. Bu halda miras sonrakı növbədən olan vərəsələrə keçir).

Bu kazusda T formal surətdə mirasdan imtina etmiş və iddiaçı da mirası qəbul etmişdir.

Beləliklə, iddiaçı həqiqi vərəsədir.

2. T səlahiyyətsiz şəxs qismində miras əşyanı özgəninkiləşdirmiş olmalıdır. Burada T mübahisə predmeti olan xalçanı cavabdehə satıb. Yuxarıda müəyyən olunan kimi, T mirası hələ qəbul etmədiyi üçün, daha doğrusu, hər halda sonradan mirasdan imtina etməsi ilə vərəsə kimi hüququnu qüvvəsi geriyə tətbiq olunmaqla itirdiyi üçün o, xalçanı səlahiyyətsiz şəxs qismində özgəninkiləşdirmişdir. Yuxarıda göstərildiyi kimi, həmin sərəncam həqiqi vərəsə olan iddiaçıya münasibətdə də etibarlı olmuşdur.

Beləliklə, MM-in 1251-ci maddəsinin şərtləri mövcud olduğu üçün iddiaçı T-dən satış nəticəsində götürülmüş məb-

ləğin alınıb ona verilməsini tələb edə bilərdi. Beləliklə, iddiaçı 1.500 manat məbləğində pul tələb edə bilər.

III. Buna baxmayaraq T-nin özünün də tələb hüququ ola bilər və bu tələb vasitəsilə o, iddiaçının istədiklərini əvəzləşdirə bilər. MM-in 739.1-ci maddəsinə uyğun olaraq T-nin 1.500 manat məbləğində borcun ödənilməsi barədə mirasqoyana qarşı tələb hüququ var idi. Mirasqoyan əleyhinə bu tələb indi iddiaçıya qarşı yönəlir (MM-in 1306-cı maddəsi). Bu tələblə T MM-in 540.1-ci maddəsinə uyğun olaraq iddiaçının MM-in 1251-ci maddəsindən, eləcə də MM-in 1087.2, 782.1-ci maddələrindən (özgə işlərini tapşırıqsız aparma) irəli gələn tələbini əvəzləşdirə bilərdi. Bu halda iddiaçının tələbi tamamilə aradan qalxardı.

Nəticə: İddiaçı MM-in 1251 və ya 1087.2, 782.1-ci maddələrinə əsasən T-dən 1.500 manat pulun ödənilməsini tələb edə bilər. Bununla belə, T həmin tələbi MM-in 739.1-ci maddəsinə əsasən borcun geri qaytarılması tələbi ilə əvəzləşdirə bilər. Bununla da iddiaçının irəli sürdüyü tələbə xitam verilərdi.

Vərəsəlik qaydası (MM-in 1133-cü maddəsi)

Qanun üzrə vərəsəlik qaydası (MM-in 1159 və sonrakı maddələri)

* Növbəlik sistemi (MM-in 1159-cu maddəsi):
  1-ci növbə: uşaqlar, arvad-ər, valideynlər
  2-ci növbə: bacılar və qardaşlar
  3-cü növbə: nənələr və babalar
  4-cü növbə: xala, bibi, əmi, dayı
  5-ci növbə: əmi, dayı, xala, bibioğlu əmi, dayı, xala, bibiqızı

* Növbələrin içində bir neçə şəxs bərabər paya malikdir (MM-in 1159.1-ci maddəsi)
* Əvvəlki növbə sonrakı növbəni istisna edir (MM-in 1160-cı maddəsi)
* Bir vərəsənin ölümü halında növbənin içində onun yerini qanun əsasında üçüncü şəxs tuta bilər (MM-in 1159.1.3-cü maddəsi)

Vəsiyyət edənin müəyyənləşdirdiyi vərəsəlik qaydası (MM-in 1166 və sonrakı maddələri)

Vəsiyyətnamə azadlığı (MM-in 1166-cı maddəsi)
* Vəsiyyət edənin fəaliyyət qabiliyyəti (MM-in 1167-ci maddəsi)
* Nümayəndəliyin istisna edilməsi (MM-in 1168-ci maddəsi)
* Forma haqqında qaydalar (MM-in 1179 və sonrakı maddələri) əlavə slaydla müqayisə et.

*Təfsir etmə: vəsiyyət edənin son iradəsi həlledicidir, iradənin yönəldiyi şəxsin nöqteyi-nəzəri yox, ümumilikdə qanun əsasında təfsir qaydaları (məs.: MM-in 1170.1-ci maddəsinin 2-ci cüm., 1170.2, 1171, 1175-ci maddələri)
Fərqi nəzərə al: vərəsə təyini və leqatın müəyyən edilməsi (MM-in 1205-ci maddəsi)
* Miras payları: miras payının vəsiyyət edən tərəfindən təyin edilməsi və ya təyin olunmuş əmlak qrupları: (məs.: pul vəsaitləri, əşyalar) tam mirasa olan dəyər nisbətinin müəyyən edilməsi ilə dəqiqləşdirilməsi (MM-in 1170-ci maddəsi)
* Vəsiyyətnamənin dəyişdirilməsi və ləvği (MM-in 1220-ci və sonrakı maddələri)

Mirasda məcburi pay

Məcburi pay tələbi, MM-in 1193-cü maddəsi

*** Tələb hüququ olan şəxslər:**

Uşaqlar

Valideynlər

Ər-arvad

Həcm: qanun əsasında çatası miras payının yarısı (Payın həcminin müəyyənləşdirilməsi üçün əsas: bütün miras, MM-in 1195-ci maddəsi)

Məcburi payın tamamlanması tələbi. MM-in 1201-ci maddəsi

*** Tələb hüququ olan şəxslər:**

Uşaqlar

Valideynlər

Ər-arvad

Həcm: Məcburi payla ondan az olan vəsiyyət üzrə pay arasındakı fərq


Vəsiyyətnamənin yazılı forması
(MM-in 1179-cu maddəsi)
Vəsiyyət edənin şəxsən tərtib etməsi
Notariat forması
Vəsiyyət edənin şəxsə (əllə) yazması imza (MM-in 1186-cı maddəsi)
Texniki vasitələr vəsiyyət edənin imzası 2 vəsiyyət şahidi (MM-in 1182-ci maddəsi)
Vəsiyyət edənin şəxsən (əllə) yazması imza notariat təsdiqlənməsi (MM-in 1179.2-ci maddəsi)
Notariusun tərtib etməsi vəsiyyətçinin imzası 2 vəsiyyət şahidi (MM-in 1180-ci maddəsi)

QEYD ÜÇÜN

«Hüquq ədəbiyyatı» nəşriyyatının kompüter mərkəzində
yığılaraq səhifələnmiş və çap edilmişdir. Formatı 60×90 1/16.
Şərti çap vərəqi 31. Sifariş 49. Tirajı 500.

«Hüquq ədəbiyyatı» nəşriyyatı

Ünvan: Bakı şəhəri, Yasamal rayonu,
3-cü Yasamal küç., 3147-ci məhəllə

Tel. 434-76-06